AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
TARİX İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

«AZƏRBAYCAN və ŞƏRQİ ANADOLUDA TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLARI (1914-1920)»

mövzusuna həsr olunmuş
II beynəlxalq elmi konfransın materialları

XÜSUSİ BURAXILIŞ

ТРУДЫ

ИНСТИТУТА ИСТОРИИ НАН АЗЕРБАЙДЖАНА

Материалы II международной научной конференции

«ГЕНОЦИД ТЮРКО - МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА И ВОСТОЧНОЙ АНАТОЛИИ (1914-1920)»

СПЕЦИАЛЬНЫЙ ВЫПУСК

1947-ci ildən
nəşr olunur

52, 53, 54, 55 / 2015

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Baş redaktor:

Yaqub MAHMUDOV
Əməkdar elm xadimi
Dövlət mükafatı laureatı
AMEA-nın müxbir üzvü

Xüsusi buraxılışın redaksiya heyəti:

Akad. Nailə **VƏLİXANLI**, akad. Teymur **BÜNYADOV**, akad. İsmayıl **HACIYEV**, AMEA-nın müxbir üzvü Nərgiz **AXUNDOVA,** t.ü.e.d. İradə **BAĞIROVA**, t.ü.f.d. Cəbi **BƏHRAMOV (**baş redaktor müavini**)**, t.ü.e.d. Həsən **ƏLİBƏYLİ,** İradə **ƏLİYEVA** (buraxılışa məsul), t.ü.f.d. Sevinc **ƏLİYEVA,** Allahverdi **ƏLİMİRZƏYEV,** t.ü.e.d Şahin **FƏRZƏLİYEV**, t.ü.e.d. Qasım H**ACIYEV**, t.ü.f.d. Hacı **HƏSƏNOV**, r.ü.f.d. Mehri X**ANBABAYEVA**, t.ü.e.d. Ədalət **QASIMOV,** t.ü.f.d. Nigar **MAKSVELL,** t.ü.e.d. Adil **MƏMMƏDOV**, t.ü.f.d. Göhər **MƏMMƏDOVA** (məsul katib), t.ü.f.d. İsrafil **MƏMMƏDOV**, t.ü.f.d. İradə **MƏMMƏDOVA**, t.ü.f.d. Natiq **MƏMMƏDZADƏ**, t.ü.f.d. Elmar **MƏHƏRRƏMOV**, t.ü.e.d. Tamilla **MUSAYEVA**, t.ü.e.d. Tofiq **MUSTAFAZADƏ**, t.ü.f.d. Tofiq **NƏCƏFLİ,** t.ü.f.d. Güntəkin **NƏCƏFLİ,** t.ü.f.d. İlqar **NİFTƏLİYEV,** t.ü.e.d. Məryəm **SEYİDBƏYLİ**, t.ü.e.d. Kərim **ŞÜKÜROV**

ISBN 978-9952-8212-9-1

© AMEA, Tarix İnstitutu, 2015

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

Heydər ƏLİYEV
"Azərbaycanlıların soyqırımı
haqqında" fərmandan
26 mart 1998-ci il

Достижение независимости Азербайджанской Республикой сделало возможным воссоздание объективной картины исторического прошлого нашего народа. Раскрываются засекреченные долгие годы, находящиеся под запретом истины, выявляется подлинная суть сфальсифицированных в свое время фактов. Геноцид, неоднократно осуществленный против азербайджанского народа и не получивший в течение длительного времени должной политико-правовой оценки, является одной из таких нераскрытых страниц истории. С подписанных в 1813 и 1828 годах Гюлистанского и Туркменчайского договоров началось расчленение азербайджанского народа, передел наших исторических земель. Продолжением национальной трагедии разделенного азербайджанского народа стала оккупация его земель. В результате реализации этой политики в кратчайшие сроки было осуществлено массовое переселение армян на азербайджанские земли. Неотъемлемой частью оккупации азербайджанских земель стала политика геноцида.

Гейдар АЛИЕВ
Из указа «О геноциде
азербайджанцев»
26 марта 1998 года

1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir. Sovet dövründə təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, - onların da mənfur adları orada göstərilir, - Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Yəni, tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır. Erməni faşizminə o vaxt düzgün qiymət verilmədiyi üçün sonra tarixin müxtəlif dövrlərində erməni faşizmi öz yırtıcı sifətini nümayiş etdirmişdir. Hesab edirəm ki, erməni faşizmi Azərbaycan alimləri tərəfindən daha geniş şəkildə tədqiq edilməlidir.

İlham ƏLİYEV
Quba Soyqırımı Memorial Kompleksinin
açılışındakı nitqindən
18 sentyabr 2013-cü il

В марте-июле 1918 года армянские бандитские формирования учинили геноцид против мирного населения, можно сказать, на всей территории Азербайджана. За пять месяцев более 50 тысяч наших соотечественников стали жертвами армянского фашизма. В Баку, Губинском уезде, Шамахе, Гусаре, Иреване, Нахчыване, Зангезуре, Карабахе, Лянкяране, можно сказать, на всех азербайджанских землях против нас был учинен геноцид. Создание этого мемориального комплекса, считаю, является историческим событием. Естественно, в связи с тем, что в советские времена история была сфальсифицирована, эту правду от нас скрывали. Долгие годы бандиты, пролившие кровь азербайджанского народа, - их проклятые имена указаны там – Шаумян и ему подобные преподносились нам как герои. Считаю, что это большая трагедия. Так как многие годы элементы, которые с беспощадностью чинили зверства против нашего народа, в советской истории представлялись как герои, в их честь устанавливались памятники. Только в период независимости мы восстановили истинную справедливость. То есть история, справедливость восторжествовали. Сегодня мы возвращаемся к своей истории. Мы знаем, должны знать все моменты истории. Молодое поколение также должно знать, с какими бедствиями столкнулся наш народ в прошлом. Из-за того, что в то время армянскому фашизму не была дана правильная оценка, впоследствии, в разные периоды истории армянский фашизм демонстрировал свой хищнический облик. Считаю, что армянский фашизм должен быть более широко исследован азербайджанскими учеными.

Ильхам АЛИЕВ
Из речи на открытии
Губинского мемориального комплекса геноцида
18 сентября 2013 года

Akademik Akif Əlizadə
Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti

"AZƏRBAYCAN VƏ ŞƏRQİ ANADOLUDA TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLARI (1914-1920-ci illər)"

II Beynəlxalq Konfrans

GİRİŞ SÖZÜ

Quba, 09 aprel 2015

Əziz dostlar,
Hörmətli qonaqlar,
Dəyərli konfrans iştirakçıları! Bu gün biz ölkəmizin başçısı hörmətli cənab İlham Əliyevin göstərişi ilə ucaldılmış bu möhtəşəm məkanda – "Heydər Əliyev mərkəzi"ndə tariximizin qan yaddaşına həsr olunmuş **"Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımlar" (**1914-1920-ci illər) adlanan II Beynəlxalq elmi konfransa toplaşmışıq.

Əziz dostlar, Azərbaycan xalqı dünyanın ən dəhşətli soyqırımına məruz qalmış xalqlarındandır. XIX əsrin I rübündə baş vermiş Rusiya-İran və Rusiya-Osmanlı müharibələri nəticəsində Cənubi Qafqazın çox hissəsi Rusiyaya ilhaq olundu və ermənilər kütləvi şəkildə İran və Türkiyədən Şimali Azərbaycan torpaqlarına köçürüldü. Bu vaxtdan başlayaraq Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölüşdürülməsinin əsası qoyuldu, ona qarşı soyqırımları dövrü başlandı.

Simali Azərbaycanın əksər bölgələri – Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, İrəvan, Naxçıvan, Cənubi Azərbaycanın bir çox əraziləri –Səlmas, Xoy, Qaradağ, Təbriz, ən əsası Urmiya bölgəsi, Şərqi Anadolu, və indiki Ermənistanın yerləşdiyi bütün şimal-qərbi Azərbaycan torpaqlarında yaşayan azərbaycanlılar, o cümlədən bütün türk-müsəlman əhali 1914-1920-ci illərdə ermənilərin dünyada analoqu olmayan soyqırımına məruz qaldı.

Hörmətli konfrans iştirakçıları! Bugünkü tədbirimizin – **"Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımlar" (**1914-1920-ci illər) adlanan II Beynəlxalq elmi konfransın məhz Quba şəhərində keçirilməsi təsadüfü deyildir. "1918-1920-ci il Azərbaycanda soyqırımı" 95 illiyinə həsr olunmuş 29-31 mart 2013-cü il tarixli I Beynəlxalq elmi konfrans da məhz burada keçirilmişdir. 1918-ci ilin aprel-may aylarında erməni-daşnak dəstələrinin Quba şəhərində və Quba qəzasının kəndlərində azərbaycanlılara qarşı dəhşətli soyqırımı həyata keçirmişlər. 2007-ci ildə Quba şəhərində Qudyalçayın sağ sahilində aşkara çıxarılan kütləvi məzarlıq da bu soyqırımın bariz nümunəsidir. Bu dəhşətli, insanlıq tarixinə sığışmayan soyqırımlar Azərbaycan xalqının qatı düşməni Stepan Şaumyan və Qriqori Korqanyanın təşkilatçılığı və erməni cəlladı Hamazaspın əli ilə həyata keçirilmişdir. Bu soyqırımlar nəticəsində 2 minə yaxın insan vəhşicəsinə qətlə yetirilmiş, 167 kənd tamamilə viran edilmişdir. 1918-ci ilin martından erməni-daşnak S.Saumyanın başçılıq etdiyi Bakı soveti "əksinqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədilə soyqırımı həyata keçirməyə başladı. Nəticədə 1918-ci il martın 31-dən aprelin 2-dək təkcə Bakı şəhərində 12 min nəfərdən çox azərbaycanlı ermənilər tərəfindən soyqırımına məruz qaldı. Azərbaycan xalqına qarşı soyqırımın həyata keçirilməsinə bilavasitə illərlə saxta məzarı və abidəsi önündə müxtəlif mərasimlər təşkil etdiyimiz və yaxud etməyə məcbur olduğumuz Bakı Sovetinin sədri və Qafqaz İşləri üzrə Fövqəladə komissar Stepan Şaumyan göstəriş verərək, bu dəhşətli cinayəti təşkil etmiş və ona başçılıq etmişdir.

Bakıda olduğu kimi, Azərbaycanın digər bölgələrində də soyqırımlar məhz Şaumyanın şəxsi göstərişi ilə həyata keçirilmişdir. Məsələn, Şamaxıda azərbaycanlılara divan tutmuş Stepan Lalayan (Lalayev) və Tatevos Əmiryan (Əmirov) bilavasitə Şaumyanın tapşırığını həyata keçirmişlər. Qubada soyqırımı həyata keçirmiş daşnak cəlladı Hamazasp da bilavasitə Şaumyanın göstərişinə əməl etmişdir. 1918-ci ilin yazında azərbaycanlı əhaliyə qarşı ermənilər tərəfindən törədilmiş hərbi

cinayətlər öz davamını, həmin il mayın 29-da tarixi Azərbaycan torpaqlarında – İrəvan şəhəri və onun ətrafında yaradılan Ermənistan (Ararat) Respublikasının fəaliyyətində tapmışdı. Ermənistan Respublikası türk-müsəlman əhalinin soyqırımını öz dövlət siyasətinə çevirərək, bu işin həyata keçirilməsində nizami silahlı qüvvələrindən fəal istifadə etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin iyulunda yaratdığı Fövqəladə Təhqiqat Komissiyası erməni-daşnak quldur dəstələrinin törətdikləri vəhşiliklər haqqında 5 cilddən ibarət materiallar toplamışdır. Lakin həmin mənbələr, o cümlədən arxiv sənədləri xalqdan gizlədilmişdir. Ümummilli liderimiz cənab Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı" haqqında fərmanı tariximizin bu qaranlıq səhifələrinə uzun illərdən sonra işıq salan ilk rəsmi hüquqi sənəd kimi böyük əhəmiyyətə malikdir. Ümummili liderin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmə göstərdiyi yüksək qayğını əsas götürən Tarix İnstitutu bu gün nəinki ölkəmizdə, hətta Böyük Britaniya, Fransa, Almaniya, Rusiya, Türkiyə, Hindistan və Gürcüstanın arxiv və kitabxanalarında saxlanılan ilk mənbələri, o cümlədən soyqırımla bağlı sənədləri Azərbaycana gətirilərək nəşr olunması kimi çox mühüm bir layihəni həyata keçirir.

AMEA Tarix İnstitutunun elmi tədqiqat fəaliyyəti ölkə rəhbərliyinin daimi diqqət mərkəzindədir. İnstitut tərəfindən nəşr edilən fundamental elmi əsərlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2011-ci il 26 aprel tarixdə AMEA-nın illik yığıncağında onun çağırışına cavab kimi çox yüksək səviyyədə dəyərləndirilmişdir. O, öz çıxışında qeyd etdi ki, «Tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi demək olar bilmirdi ki, bu günkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır». AMEA Tarix İnstitutu alimlərinin fədakar əməyini xüsusi olaraq qeyd edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, həm də Azərbaycan tarixinə dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində onların gördükləri işlərə çox böyük qiymət vermişdir.

Konfrans iştirakçılarına onu da məmnuniyyətlə bildirməyi özümə borc hesab edirəm ki, dövlət başçımız bu sahədəki işləri diqqət mərkəzində saxlayaraq, ölkədə Azərbaycan və türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdiyi soyqırımların öyrənilməsinə ayrıca komissiya təşkil etmişdir. Və bu iş Azərbaycan Milli Elmlər Akademiyasının prezidentinə həvalə olunmuşdur. Bu komissiyanın fəaliyyətinə uyğun olaraq bu gün A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycan, Şərqi Anadoluda və İran ərazisində türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdiyi soyqırım cinayətini əks etdirən müxtəlif monoqrafiya və sənəd toplularını cap etdirmişdir. Tarix İnstitutunda fəaliyyət göstərən "Azərbaycan Xalq Cümhuriyyəti", "Qarabağ tarixi", "Əhali tatixi və tarixi demoqrafiya" şöbələri, "Deportasiyalar" və "Soyqırımı" elmi qrupları ilə yanaşı Azərbaycan və türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdiyi soyqırımı tədqiq edən ayrıca şöbə yaradılmışdır.

Çağdaş dünyanın bir acı həqiqəti də budur ki, erməni millətçiləri öz xalqını tarixdə heç zaman olmamış "Böyük Ermənistan" xülyasına inandırmaqda davam edir, böyük güc mərkəzləri isə bu xülyanın baş tutmayacağını bilə-bilə özlərinin regional maraqları naminə "erməni kartı"ndan istifadə edirlər. Nəticədə Cənubi Qafqazla bağlı ənənəvi siyasət bu gün yenə davam etdirilir. Havadarları tərəfindən şirniklendirilən, silahlandırılan və hərtərəfli müdafiə olunan erməni millətçiləri yenə təcavüzkar xislətlərindən əl çəkməmişlər. Böyük dövlətlər Cənubi Qafqazda öz mövqelərini saxlamaq üçün yenə "erməni kartı"ndan istifadə etməkdədirlər. Xarici havadarlarından üz görən ermənilər işğal etdikləri Azərbaycan ərazisində – Qarabağda ikinci bir erməni dövləti yaratmağa çalışırlar.

Son 200 ildə bir xalqın başına nə qədər müsibətlər açmaq olar?! Bir xalqın torpaqlarını neçə dəfə kəsib doğramaq, bölüşdürmək olar?! Azərbaycanlı, türk-müsəlman olduğu üçün bir xalqı nə qədər insanlıq anlayışına sığışmayan vəhşiliklə qırmaq, ona qarşı soyqırımları törətmək, doğma yurd-yuvalarından deportasiya edib torpaqlarını əlindən almaq olar?! Əl-qolu bağlanmış ata-ananın gözləri qarşısında onların körpəsini yağda qızardaraq sonra onun ətini məcburən onlara yedizdirmək! Hələ

dünyaya gəlməmiş körpəni ana bətnindən ayırıb süngüyə keçirmək! Əliyalın, silahsız, körpə, qadın, qoca hamısını diri-diri balta ilə döğramaq! – məgər bu insanlıq anlayışına uyğundurmu?

Təəssüf ki, 1918-ci ildə Urmiya və onun ətrafında baş verən soyqırımı iri dövlətlərin dəstəyi ilə həyata keçirilmişdi. Belə ki, rus qoşunlarının Cənubi Azərbaycandan təxliyə edilməsi ilə eyni zamanda müttəfiq dövlətlər – İngiltərə, Fransa və ABŞ, *erməni, aysor* və Cənubi Azərbaycanda qalan *rus* qüvvələrdən ibarət *xristian ordusu* yaradaraq azərbaycanlılara qarşı *xaç yürüşü* həyata keçirilmişdi.

Ermənilərin türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırımını digər arxivlərlə yanaşı Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin Siyasi arxivindən əldə olunan sənədlər də təsdiq edir. 1918-ci il 27 fevral tarixli Sivasdakı alman konsuluğundan göndərilən teleqramda yazılmışdı: "***Ərzincanda*** erməni könüllü dəstələrinin törətdiyi vəhşiliklər çox önəmli sayılmalıdır. Kəndlərdə sivil əhali bütünlükdə məhv edilmişdir". Bu sənədlərdə Bakı Xalq Komissarlar Sovetinin tamamilə ermənilərin təsiri altında olması və həmçinin, 1918-ci il Bakıda ermənilər tərəfindən həyata keçirilən mart soyqırımı öz təsdiqini tapmışdır. Məgər bu sənədlərdəki faktlardan dünya xəbərsizdirmi?!!!

Özgə torpağını ələ keçirib özünə dövlət yaradan, torpaq tutmaqdan gözü doymayan, lap dünən – XX əsrin sonlarında bütün dünyanın gözləri qarşısında Xocalı soyqırımını törədən cinayətkarları nə qədər müdafiə etmək olar?! Dünya siyasətində ikili standartlar, dini ayrı-seçkilik, xristian həmrəyliyi nə vaxta qədər davam edəcək?! Təəssüflər olsun ki, Böyük dövlətlər, həmişə olduğu kimi, bu gün də mühüm hərbi-strateji əhəmiyyəti olan Azərbaycanda möhkəmlənmək, bu diyarın tükənməz yerüstü və yeraltı sərvətlərinə yiyələnmək siyasəti yeridirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, A.Bakıxanov adına Tarix İnstitutu, "Türkiyə Cumhuriyəti Başbakanlık Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Atatürk Araştırma Merkezi" və *Quba Şəhər İcra Hakimiyyətinin* birgə təşkil etdiyi **"Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırım" (**1914-1920-ci illər) adlı II Beynəlxalq elmi konfrans böyük elmi və siyasi əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan alimlərini narahat edən Dünya ictimaiyyətinin bizim həqiqətləri görmək istəməməsidir. 1914-1920-ci illərdə Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırım tarixi həqiqətlərini dünya ictimaiyyətinə çatdırılmasında, ermənilərin insanlıq tarixinə sığışmayan cinayətkar əməllərini açıb göstərməkdə əvəzsizdir. Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun tanınmış alimləri ilə yanaşı dünyanın müxtəlif ölkələrindən dəvət olunmuş tarixçi alimlərin iştirakı bunun bariz nümunəsidir.

Bu hadisə tariximizin qan yaddaşı olmaqla yanaşı həm də bizi birliyə, mübarizəyə, dövlətimizin müstəqilliyinin əbədi olmasını qoruyub saxlamağa səsləyir və Azərbaycan xalqının bugünkü müstəqilliyinin hansı qurbanlar hesabına əldə edildiyini, hansı çətinliklərdən keçdiyini bizlərə bir daha xatırladır.

Mən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti adından və şəxsən öz adımdan konfransın bütün iştirakçılarını, əziz qonaqlarımızı, sizin hamınızı ürəkdən salamlayır, konfransın işinə isə uğurlar arzulayıram!

Академик **Акиф Ализаде**
Президент Национальной Академии Наук Азербайджана

ВСТУПИТЕЛЬНОЕ СЛОВО

на II Международной конференции

«ГЕНОЦИД ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА И ВОСТОЧНОЙ АНАТОЛИИ (1914-1920 гг.)»

Губа, 09 апреля 2015

Дорогие друзья,
Уважаемые гости,
Достопочтенные участники конференции! Сегодня мы собрались в этом величественном здании – Центре Гейдара Алиева, возведенном согласно распоряжению главы нашего государства, многоуважаемого господина Ильхама Алиева, для участия в работе II Международной научной конференции на тему «Геноцид тюрко-мусульманского населения Азербайджана и Восточной Анатолии (1914-1920 гг.)», посвященной памяти о кровавых событиях в истории азербайджанского народа.

Дорогие друзья, азербайджанский народ является одним из тех народов мира, которые подверглись чудовищным акциям геноцида. В результате российско-иранских и российско-турецких войн первой трети XIX века значительная часть Южного Кавказа была присоединена к России, а армяне в массовом порядке были переселены из Ирана и Турции на земли Северного Азербайджана. В тот период произошло разделение азербайджанского народа и его исторических земель, была заложена основа политики геноцида в отношении азербайджанцев.

Тюрко-мусульманское население большинства регионов Северного Азербайджана – Баку, Шамахи, Губы, Карабаха, Зангезура, Иревана, Нахчывана, многих территорий Южного Азербайджана – Салмаса, Хоя, Гарадага, Тебриза и, главным образом, региона Урмии, а также Восточной Анатолии и северо-западных земель Азербайджана, составляющих ныне территорию Республики Армения, подверглись в 1914-1920 годах невиданным акциям геноцида, учиненным армянскими националистами.

Уважаемые участники конференции! Проведение сегодняшнего мероприятия – II Международной научной конференции на тему «Геноцид тюрко-мусульманского населения Азербайджана и Восточной Анатолии (1914-1920 гг.)» именно в городе Губа является не случайным. I Международная научная конференция, посвященная 95-летней годовщине геноцида азербайджанцев, также состоялась здесь 29-31 марта 2013 года. В апреле-мае 1918 года армяно-дашнакские вооруженные отряды учинили геноцид азербайджанцев города Губа. Обнаруженное в 2007 году на правобережье реки Гудьялчай массовое захоронение является наглядным доказательством геноцида. Это чудовищное, невиданное в истории преступление против человечности было организовано ярыми врагами азербайджанского народа – главой Бакинского Совета Степаном Шаумяном и его ближайшим сподручным Григорием Корганов-ым (Корганяным) и реализовано руками армянского палача Амазаспа и его военного отряда. В ходе Губинского геноцида было уничтожено около 2 тысяч безвинных людей, стерто с лица земли 167 селений.

С марта 1918 года возглавляемый С.Шаумяном Бакинский Совет под лозунгом «борьбы с контрреволюционными элементами» приступил к карательным операциям с целью очищения Бакинской губернии от коренного, азербайджанского населения. С 31 марта по 2 апреля 1918 года только в городе Баку дашнако-большевистскими военными силами было уничтожено, по разным данным, от 12 до 30 тысяч человек. Главным организатором геноцида азербайджанцев был председатель Бакинского Совета и чрезвычайный комиссар по делам Кавказа Степан Шаумян.

Как и в Баку, акции геноцида тюрко-мусульманского населения других областей Азербайджана, также были осуществлены по личному приказу Шаумяна. В частности, дашнакские отряды, возглавляемые Степаном Лалаевым (Лалаяном) и Татевосом Амировым (Амиряном), выполняя поручение Шаумяна, совершили геноцид азербайджанцев в Шамахе. Дашнакский

палач Амазасп, осуществивший геноцид азербайджанцев Губы, также выступал в качестве уполномоченного главы Баксовета С.Шаумяна.

Военные преступления армянства, совершенные на территории Азербайджана весной 1918 года, нашли свое продолжение после создания 29 мая того же года на исконных азербайджанских землях – в Иреване и его окрестностях, Армянской (Араратской) Республики, которая возвела геноцид азербайджанцев в ранг своей государственной политики, использовав в целях ее реализации регулярные вооруженные силы.

Чрезвычайная Следственная Комиссия, созданная в июле 1918 года правительством Азербайджанской Демократической Республики, собрала огромное количество материалов (в пяти томах), раскрывающих масштабы зверств, совершенных армянскими националистами против азербайджанского населения. Однако в советский период эти документы были скрыты от общественности.

Указ общенационального лидера Азербайджана Гейдара Алиева от 26 марта 1998 года «О геноциде азербайджанцев» стал первым официальным юридическим документом, квалифицировавшим преступления армянских националистов на территории Азербайджана в 1918 году как геноцид. Институт истории НАНА, выполняя поручения азербайджанского государства и его главы, Президента Азербайджана Ильхама Алиева, реализует сегодня проект по изданию посвященных геноциду азербайджанского народа документов, хранящихся не только в архивах и библиотеках Азербайджана, но также и Великобритании, Франции, Германии, России, Турции, Индии, Грузии.

Научно-исследовательская деятельность Института истории НАНА постоянно находится в центре внимания руководства страны. Фундаментальные научные труды, издаваемые Институтом, были высоко оценены Президентом Азербайджанской Республики Ильхамом Алиевым на ежегодном собрании НАНА 26 апреля 2011 года. Глава государства в своем выступлении подчеркнул: «Вопросы, связанные с историческими науками, постоянно находятся в центре внимания. Мы уделяем огромное внимание этому вопросу. Очень рад, что наши историки создают фундаментальные, очень солидные труды. В особенности существование армяно-азербайджанского, нагорно-карабахского конфликта диктует нам, чтобы мы уделяли этой сфере еще больше внимания, так как история этого региона постоянно фальсифицируется, искажается армянами. Рад, что наши ученые, положительно откликнувшись на мой призыв, за короткий срок создали прекрасные и основанные на реальных фактах работы, связанные с историей этого региона. А главное, особое значение представляют труды, связанные с историей Иреванского ханства, так как мировое сообщество, к сожалению, не знало о том, что нынешнее армянское государство возникло на исторических азербайджанских землях».

Президент Азербайджанской Республики Ильхам Алиев, особо отметив самоотверженный труд ученых Института истории НАНА, высоко оценил также и осуществляемую ими деятельность, направленную на донесение до мировой общественности всей правды об истории Азербайджана.

С большим удовлетворением довожу до сведения участников конференции, что глава государства организовал специальную комиссию, исследующую вопрос осуществленного армянами геноцида тюрко-мусульманского населения Азербайджана и всего региона. Реализация этой задачи возложена на президента Национальной Академии наук Азербайджана. В соответствии с задачей, возложенной на данную комиссию, Институт истории А.Бакиханова издал целый ряд монографий и сборников документов, раскрывающих преступления геноцида, совершенные армянами в отношении тюрко-мусульманского населения Азербайджана, Восточной Анатолии и Ирана. В структуре Института истории, помимо изучающих данный вопрос отделов «История Азербайджанской Демократической Республики», «История Карабаха», «История народонаселения и историческая демография», научных групп «Депортации» и «Геноцид», действует также недавно созданный самостоятельный отдел, исследующий геноцид азербайджанцев, тюрко-мусульманского населения всего региона.

Одна из горьких реалий современного мира заключается в том, что армянские националисты продолжают внушать своему народу иллюзию о никогда не существовавшей в истории «Великой Армении», а ведущие глобальные силы, прекрасно осознавая невозможность исполнения этой иллюзии, тем не менее используют «армянскую карту» в целях реализации своих геополитических интересов в нашем регионе. Поэтому и продолжается традиционная для великих держав политика на Южном Кавказе. Армянские националисты, всячески поощряемые, поддерживаемые и вооружаемые внешними покровителями, не желают

отказываться от своих агрессивных устремлений и действий. Опираясь на поддержку могущественных покровителей, они стремятся создать второе армянское государство на исконных азербайджанских землях, в этот раз – на территории Карабаха.

В связи с этим возникают вопросы: сколько бед можно обрушивать на целый народ в течение 200 лет? Сколько можно делить земли азербайджанского народа?! Сколько можно истреблять мирных азербайджанцев только из-за их этнической, тюрко-мусульманской принадлежности? Сколько можно изгонять, депортировать его с собственных земель? Связывать по рукам и ногам отцов и матерей и на их глазах жарить на масле их детей, после чего насильно заставлять родителей поедать их мясо? Разрезая животы беременным женщинам, вытаскивать из материнских утроб еще не родившихся детей и надевать их на штыки? Разрывать на части топором тела живых детей, женщин, стариков? Неужели ужасающие факты совершенных армянскими палачами убийств мирных, безвинных азербайджанцев сочетаются с понятиями человечности и гуманизма?

Или взять другую сторону вопроса – поощрение армянского национализма со стороны внешних сил? Так, геноцид населения Урмии в 1918 году был совершен при прямой поддержке великих держав. После вывода российских войск из региона Урмии и одновременного создания союзными державами – Англией, Францией и США *«христианской армии»* из армянских и айсорских военных отрядов, а также оставшихся в Южном Азербайджане российских военных сил, был организован *«крестовый поход»* против азербайджанцев.

Осуществление армянами геноцида тюрко-мусульманского населения подтверждается документами иностранных архивов, в частности Политического архива Министерства иностранных дел Федеративной Республики Германия. Так, в телеграмме, отправленной 27 февраля 1918 года германским командованием в Сивасе, подчеркивалось: «Зверства, совершенные армянскими добровольческими отрядами в Эрзинджане, являются значительными. Гражданское население здешних деревень полностью уничтожено». В этих документах нашел свое подтверждение и тот факт, что Бакинский Совет народных комиссаров полностью находился под влиянием армян, осуществивших геноцид азербайджанцев в Баку в 1918 году.

Неужели мировое сообщество не осведомлено об этих фактах? До каких пор можно защищать преступников, присвоивших чужие земли и создавших на них свое государство, совершивших совсем недавно, в конце XX века, на глазах у всего мира геноцид жителей азербайджанского города Ходжалы?! До каких пор будут господствовать в мировой политике двойные стандарты, религиозная нетерпимость, вытекающая из так называемой «христианской солидарности»?! К сожалению, великие державы и сегодня, как в прежние времена, пытаются реализовывать политику, направленную на подчинение Азербайджана, имеющего чрезвычайно важное военно-стратегическое значение, завладеть неисчерпаемыми природными ресурсами нашей страны.

II Международная научная конференция на тему «Геноцид тюрко-мусульманского населения Азербайджана и Восточной Анатолии (1914-1920 гг.)», организованная *Президиумом Национальной Академии наук Азербайджана, Институтом истории имени А.Бакиханова, Центром исследований Ататюрка при Правительстве Турецкой Республики и Исполнительной властью города Губы* имеет большое научное и политическое значение. Азербайджанские ученые чрезвычайно обеспокоены нежеланием мировой общественности узнать правду о нашей истории. Считаю, что целью конференции должно стать доведение до мировой общественности исторической правды о совершенном в 1914-1920 годах геноциде тюрко-мусульманского населения Азербайджана и Восточной Анатолии, несовместимых с человечностью преступлениях армянских националистов. Участие в конференции видных ученых Института истории имени А.Бакиханова Национальной Академии наук Азербайджана, авторитетных историков из различных стран дает основание надеяться на возможность реализации данной задачи.

Геноцид азербайджанцев не только запечатлен в нашей исторической памяти, но и напоминая о том, какие жертвы были принесены нашим народом на пути к свободе, взывает к единству азербайджанского народа, борьбе за всемерное укрепление государственной независимости Азербайджана.

От имени Президиума Национальной Академии наук Азербайджана, лично от своего имени сердечно приветствую всех участников конференции, наших дорогих гостей, и желаю всем вам успешной работы!

İsa Həbibbəyli
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti,
Milli Məclisin deputatı, akademik

AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLAR: GERÇƏK TARİX VƏ MÜASIR VƏZİFƏLƏR

Məlum olduğu kimi, XX əsr boyu Azərbaycan xalqına və ümumən türk millətinə qarşı Şərqi Anadoluda, Qafqazda və Orta Asiyada, hətta Cənubi Azərbaycanda bir neçə dəfə ağır və dəhşətli soyqırımı və deportasiya hadisələri təşkil olunmuşdur. Bu, böyük qlobal oyunun əsas təşkilatçıları Çar Rusiyası və Qafqazda marağı olan bəzi Qərb gücləri, icraçıları isə ermənilər idi. Lakin türk-müsəlman əhalisini məhv etməyə yönəldilmiş soyqırımı kimi faciəli tarixi hadisələrin tədqiq edilib öyrənilməsi uzun müddət ərzində mümkün olmamışdır. Keçmiş sovet rejimi Azərbaycanda və Orta Asiyada soyqırımı, repressiya və deportasiya kimi qanlı hadisələri unutdurmaq, tarixdən silmək üçün geniş tədbirlər kompleksi həyata keçirmiş, arxivlərdən istifadəyə ciddi qadağalar qoymuşdur. Tarix kitablarında və dərsliklərdə də həmin hadisələrə yer ayrılması mümkün olmamışdır. Azərbaycan xalqının "erməni-müsəlman davası" haqqında təsəvvürləri xalq yaddaşındakı silinməz izlərdən və Cəfər Cabbarlının "1905-ci ildə" pyesindəki səhnələrdən dərinə gedə bilməmişdir. Dövlət ideologiyası səviyyəsində birtərəfli qaydada təbliğ olunan xalqlar dostluğu ideyası həm də türk-müsəlman əhalisinin tarixi yaddaşının silinməsi, izlərinin itirilməsi qayəsini izləmişdir. Türkiyədə Qərbin təsiri, İranda isə o zamankı rejimlərin iradələri ilə qanlı erməni olayları diqqət mərkəzindən kənarda saxlanılmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkəmizdə tariximizin ağ ləkələrinin aradan qaldırılmasına, tarixi proseslərin obyektiv qiymətləndirilməsi istiqamətində araşdırmaların aparılmasına, obyektiv mövqedən əsərlərin yazılıb meydana çıxarılmasına normal imkanlar yaradılmışdır. Bu mənada görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixinin yenidən öyrənilməsinə dair çağırışları, həyata keçirdiyi dövlət əhəmiyyətli tədbirlər: soyqırımlarına və deportasiyalara dair sərəncamlar, arxivlərin açılması, ölkədə senzuranın ləğv edilməsi sahəsində atılan mühüm addımlar həmin istiqamətdə obyektiv tarixi tədqiqatların aparılmasına, milli-tarixi yaddaşın bərpasına böyük yol açmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar həyata keçirdiyi siyasətdə ardıcıl olaraq problemin köklü şəkildə aydınlaşdırılması və qiymətləndirilməsi mövqeyindən çıxış etməsi də bu sahədə mövcud gərgin münaqişə vəziyyətinə gətirib çıxaran amillər sırasında soyqırımların və deportasiyaların da mahiyyətinin açıqlanmasına şərait yaradır. Artıq Türkiyədə və Orta Asiyada da proses bu istiqamətdə inkişaf etməkdədir. Doğrudur, aparılan aşkar və obyektiv ideoloji mübarizə zəminində son illərdə tariximizin bu qanlı-qadalı hadisələrinə dair bir sıra elmi və bədii əsərlər meydana çıxmışdır.

Ancaq etiraf edilməlidir ki, Ermənistan tərəfinin və onların xaricdəki tərəfdarlarının beynəlxalq aləmdə yaydıqları uydurma təbliğatla müqayisədə Azərbaycan elminin obyektiv mövqeyini ifadə edən daha sanballı əsərlərə ehtiyac vardır. Bu mənada Milli Elmlər Akademiyasında 2014-cü ildə yaradılmış "Azərbaycanlılara qarşı soyqırımların tədqiqi" Komissiyası zamanın irəli çıxardığı tarixi missiyanı daha sistemli şəkildə həyata keçirmək, bu sahədə koordinasiya işlərini təşkil etmək, səyləri və qüvvələri birləşdirmək vəzifələrini yerinə yetirmək qayəsini daşıyır. Komissiyanın tərkibində soyqırımları və deportasiya məsələlərini tədqiq və təbliğ edən 6 işçi qrupu üzrə fəaliyyət proqramı ardıcıl olaraq həyata keçirilir. Artıq qısa müddətdə həyata keçirilmiş tədbirlər nəticəsində Milli Azərbaycan Tarixi Muzeyində yaradılmış və müasir texnologiya ilə təchiz edilmiş "Soyqırımların tarixi" salonlarında XX əsr ərzində xalqımıza qarşı yönəldilmiş soyqırımların tarixinə dair nadir sənədlər və fotoşəkillərlə tanış olmaq mümkündür. Akademiyanın Tarix, Ədəbiyyat, Arxeologiya və Etnoqrafiya, İnsan Hüquqları və Konfliktologiya institutlarında keçirilmiş Azərbaycanda soyqırımları mövzusuna həsr edilmiş elmi-tədqiqat əsərlərinin, çap olunmuş kitabların tədqiqatları və müzakirələri mövcud problemin araşdırılıb öyrənilməsinə diqqətin artırılmasına xidmət edir. "Azərbaycanlılara qarşı soyqırımların tədqiqi" Komissiyasının Memarlıq və İncəsənət İnstitutu ilə birlikdə Akademiyanın müxtəlif elmi-tədqiqat institutlarında çalışan əməkdaşların rəsm əsərlərindən ibarət

təşkil etdiyi sərgi Azərbaycan gerçəkliyinin daha dərindən dərkinə və vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir. Bundan başqa, mövzu ilə əlaqədar beynəlxalq səviyyəli elmi konfransların keçirilməsinə də ciddi fikir verilir. Xüsusən, beynəlxalq konfranslarda xarici alimlərin iştirakı və məruzələrlə çıxış etmələri, onların hadisə yerləri və sənədlərlə əyani şəkildə tanışlığı bu barədə yayılmış süni və yalançı erməni təbliğatının aradan qaldırılmasına, dünya ictimaiyyətinə obyektiv gerçəkliyin çatdırılmasına kömək edir. Türkiyə Cümhuriyyətində də arxivlərin tam olaraq açılmasına dövlət səviyyəsində yaradılan şərait problemin real surətdə öyrənilməsinə, birtərəfli qaydada aparılan yalançı təbliğat əvəzinə gerçəkliyi meydana qoyub düşünüb-daşınmağa ədalətli çağırışların ifadəsidir. Beynəlxalq səviyyəli elmi tədbirlərdə tarixi sənədlərlə, yaxın dövrümüzün arxeoloji materialları ilə yanaşı, xalq yaddaşında qorunub saxlanılan hadisə və əhvalatların da təhlilə cəlb edilməsi, hadisələrin iştirakçısı olmuş şəxslərin şəcərəsinin daşıyıcılarının xatirələrinindən də istifadə olunması əsl real mahiyyətin aydınlaşdırılmasına işıq salır. Bu baxımdan «Azərbaycanlılara qarşı soyqırımların tədqiqi» Komissiyasının Milli Elmlər Akademiyasının Folklor İnstitutu ilə birlikdə 2-3 mart 2015-ci il tarixdə «Soyqırımları – xalq yaddaşında» mövzusunda keçirdiyi beynəlxalq elmi konfrans mühüm əhəmiyyətə malikdir. Bu, mövcud problemə sənədlərlə yanaşı, xalq yaddaşı materialları vasitəsi ilə yeni elmi baxışın konkret ifadəsini diqqət mərkəzinə çəkən forum kimi aktuallıq qazanmışdır. Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanda, Qafqazda və Şərqi Avropada türk-müsəlman əhalisinə qarşı həyata keçirilmiş soyqırımı hadisələrinin tarixinə və fəlsəfəsinə həsr olunmuş beynəlxalq elmi konfransı isə əhatə dairəsinin genişliyi, tədqiqat materiallarının dərinliyi və zənginliyi ilə səciyyələnir. Xüsusən, beynəlxalq elmi konfransın Quba soyqırımı məzarlığı muzeyinin bazasında təşkili beynəlxalq elmi ictimaiyyətin obyektiv reallıqlarla üz-üzə fikir mübadiləsi aparmasına, real müzakirələr keçirməsinə tam şərait yaradır.

Azərbaycan alimlərinin soyqırımların tarixinin öyrənilməsi ilə əlaqədar qarşısında duran vəzifələri sırasında aşağıdakılar daha mühüm sayıla bilər:

1.Azərbaycanlılara, türk-müsəlman əhalisinə qarşı soyqırımlar haqqında arxiv sənədlərini və dövri mətbuat materiallarını arxivlərdən və kitabxanalardan aşkar edib toplamaq, Azərbaycan, rus və ingilis dillərində nəşr etdirmək,

2.XX əsr ərzində erməni-Azərbaycan münaqişəsinə həsr edilmiş elmi və bədii əsərlərin: M.S.Ordubadinin "Qanlı sənələr", Mirzə Bağır Əliyevin "Qanlı günlərimiz" əsərlərinin, Mir Möhsün Nəvvabın mövzu ilə bağlı əsərini nəşr edib yaymaq.

3.Erməni-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi haqqında Azərbaycan və xarici ölkə alimlərinin ən yaxşı məqalələrindən ibarət toplunu ingilis və rus dillərində kitab halında nəşr etdirmək.

4.Azərbaycanlılara, türk-müsəlman əhalisinə qarşı yönəldilmiş soyqırımlarına dair tədqiqatları Avropa dillərinə və rus dilinə tərcümə edərək dünya ictimaiyyətinə çatdırmaq.

5.Xalq yaddaşı materiallarının toplanması, sistemləşdirilməsi, kitab halında çap edilməsini təşkil etmək.

6.Tədqiqat prosesində arxiv sənədləri ilə xalq yaddaşı materiallarının sintezinə nail olmaq.

7. Dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq simpoziumlarda obyektiv elmi məruzələrlə çıxış etmək və dünya ictimaiyyətinə real gerçəkliyi çatdırmaq.

Azərbaycan alimlərinin əsas məqsədi ölkənin və xalqın real tarixini öyrənib gerçək şəkildə gələcək nəsillərə çatdırmaqdan, yalançı, saxta erməni təbliğatının qarşısının alınmasından və obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasından ibarətdir. Qubada keçirilən beynəlxalq konfrans da həmin istiqamətdə atılmış daha bir mühüm addım kimi əhəmiyyətli elmi hadisədir.

Ягуб Махмудов
Заслуженный деятель науки Азербайджанской Республики,
член-корреспондент Национальной Академии Наук Азербайджана

ГЕНОЦИД АЗЕРБАЙДЖАНСКОГО НАРОДА В 1918-1920 ГОДАХ

Начало XX века - один из самых трагических периодов истории Азербайджана. 1918-1920 годы буквально пропитаны кровью десятков тысяч азербайджанцев, принесенных в жертву агрессивным устремлениям армянства и его покровителей, создавших все необходимые политические условия для образования на исторических землях Азербайджана (в городе Иреване и прилегающих к нему территориях) армянского государства. Именно захват исконных земель Азербайджана являлся целью массового истребления мирного азербайджанского населения в 1918-1920 годах – политики геноцида, реализовывавшейся возглавляемым Степаном Шаумяном Бакинским Советом и, чуть позже, Армянской (Араратской) Республикой.

Долгие десятилетия советской эпохи была под запретом вся правда о злодеяниях Бакинского Совета против азербайджанского народа. История так называемых «26 комиссаров», представлявших руководство преступной структуры, виновной в осуществлении геноцида азербайджанцев весной 1918 года, преподносилась в совершенно искаженном виде. То был миф о «героях-интернационалистах», отдавших свои жизни «во имя интересов трудового народа».

Объективное исследование истории «бакинских комиссаров» началось лишь после распада СССР и восстановления государственной независимости Азербайджана. Серьезный прорыв в деле раскрытия всей правды о деятельности Бакинского Совета был совершен в последние годы. В результате проведенных Институтом истории Национальной Академии наук Азербайджана исследований выявлены многочисленные новые факты относительно деятельности так называемых «26 Бакинских комиссаров».

Прежде всего, напомним о том, что в январе 2009 года, когда расположенный в Бакинском городском парке «Сахиль» некрополь «26 Бакинских комиссаров» был перенесен на городское кладбище, в могилах были обнаружены останки не **26**, а **23** человек. В связи с этим Институт истории образовал специальную группу ученых, немедленно приступивших к изучению данного вопроса, равно как и объективному исследованию истории геноцида азербайджанского народа в целом.

В результате научных изысканий азербайджанских историков Институтом истории опубликован в последние годы целый ряд работ и сборников документов, раскрывающих тему геноцида азербайджанцев в 1918-1920 годах[1].

Одновременно ведется работа по доставке в Азербайджандокументов по истории Азербайджана, в частности истории геноцида азербайджанского народа в 1918-1920 годах, храня-

[1]1.Геноцид азербайджанского народа в марте 1918 года. Том I, Баку, 2009; 2. Геноцид азербайджанского народа в марте 1918 года. Том II. Книга 1.Геноцид в Гянджинской губернии. Баку, 2010; 3. Геноцид азербайджанского народа в марте 1918 года. Том II. Книга 2. Геноцид в Иреванской губернии. Баку, 2010; 4.Геноцид азербайджанского народа в марте 1918 года. Том III. Воспоминания. Сборник документов. Баку, 2014; 5. Геноцид азербайджанского народа 1918 года. Организаторы и палачи. Баку, 2013; 6. Нифталиев И.В. Геноцид азербайджанцев в Иреванской губернии (1918-1920). Баку, 2014; 7. Наджафли Г.Д. Геноцид, совершенный армянами против тюрко-мусульманского населения Восточной Анатолии, Нахчывана и Иревана в 1918-1920 годах. Баку, 2014. 8.Гезалова Н.Р. Геноцид тюрко-мусульманского населения Азербайджана в архивных документах Британской библиотеки. Баку, 2014; 9. Мустафа Н. Геноцид азербайджанцев в Иреванской губернии (1918-1920). Баку, 2014; 10. Вандализм. Геноцид против исторических названий. Баку, 2014; 11.Абышов В. Геноцид в Баку в марте 1918 года.Баку, 2014; 12. Абышов В. Геноцид азербайджанского народа в Шемахинском уезде. Баку, 2014;13. Абышов В. Геноцид тюрков-мусульман в Губинском уезде. 14. Мамедзаде Н. Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920). Баку: 2014; 15. Исмаилов К. Геноцид азербайджанского народа в Зангезуре (1918-1920). Баку, 2014.

щихся в архивах зарубежных стран (Турции, России, Грузии, Великобритании, Франции, Германии, Индии). Вследствие этого изданы сборники ценных исторических документов[2].

Результаты научных исследований, проведенных в последние годы Институтом истории на основе изучения архивных документов, дают основание утверждать, что кровавый дашнако-большевистский режим (***Бакинский Совет, впоследствии Бакинский Совет народных комиссаров***) во главе со Степаном Шаумяном, захвативший власть в Баку и в целом Бакинской губернии в ноябре 1917 года, **заранее подготовил и целенаправленно, планомерно** осуществил весной 1918 года невиданную по своей жестокости преступную акцию - массовый геноцид азербайджанского народа. Десятки тысяч мирных, безоружных представителей тюрко-мусульманского населения – азербайджанские тюрки, лезгины, татары, представители других национальностей, вне зависимости от пола и возраста, включая детей, женщин, стариков, были беспощадно уничтожены только по причине своей этнической принадлежности. Геноцид азербайджанцев был осуществлен по прямому указанию главы Бакинского Совета и чрезвычайного комиссара по делам Кавказа **Степана Шаумяна, который, тем самым, выступил в роли главного организатора этого ужасного преступления.**

Вновь выявленные архивные документы доказывают, что Степан Шаумян, долгое время преподносившийся советской исторической наукой в качестве «последовательного большевика-интернационалиста», в действительности был членом крупнейшей и самой радикальной армянской террористической организации – партии «Дашнакцутюн». Он входил в Бакинский комитет этой партии[3] **(См.: Приложения, документ N1)**.

Таким образом, **Степан Шаумян**, хотя официально и позиционировал себя в качестве большевика, на деле **являлся одним из ведущих деятелей партии «Дашнакцутюн»**. В архивном документе указывается также, что он еще в 1910 году оказывал самое активное содействие трудоустройству членов дашнакской партии в городе Баку[4] **(См.: Приложения, документ N1)**.

Сам Шаумян открыто признавался в осуществлении геноцида азербайджанцев в марте-апреле 1918 года. После трагических мартовских событий 1918 года он сообщал в своем

---

[2] 1. Подробное описание Иреванской провинции (Баку, 2009); 2. Подробный реестр Иреванской провинции (Баку, 2009); 3. Подробное описание Гянджа-Гарабагской провинции (Баку, 2010); 4. История Азербайджана в архивных документах (1917-1920). Том I. Документы Российского государственного архива социально-политической истории (Баку, 2010); 5. История Азербайджана в архивных документах (XVIII - начало XX вв.). Том I. Документы Российского Государственного Военно-исторического архива (Баку, 2010); 6. Документы Османских архивов правительства Турецкой Республики (Баку, 2010); 7. История Азербайджанской Демократической Республики в архивных документах Великобритании (Баку, 2011); 8. История Азербайджана в архивных документах. XVIII век. Документы Центрального Государственного архива Дагестанской Республики Российской Федерации (Баку, 2011); 9. История Азербайджана в архивных документах (апрель-декабрь 1920 г.). Том II. Документы Российского государственного архива социально-политической истории (Баку, 2012); 10. История Азербайджана в архивных документах (XVIII-XX века) Том I. Документы Российского Государственного Исторического Архива. (Баку, 2012); 11. История Азербайджана в архивных документах (XIX - начало XX века). Том I. Архивные документы Британской библиотеки (Баку, 2012); 12. История Азербайджана в архивных документах (начало XX века). Том II. Документы Российского Государственного Военно-исторического Архива. (Баку, 2012); 13. История Азербайджана в архивных документах (XX век). Том II. Документы Российского Государственного Исторического Архива. (Баку, 2012); 14. История Азербайджана в архивных документах (XX век). Том III. Документы Российского Государственного Исторического Архива. (Баку, 2012); 15. История Азербайджана в архивных документах (XIX-XX веков). Переселение армян на земли Северного Азербайджана. Документы Государственного Архива Азербайджанской Республики (Баку, 2012); 16. История Азербайджана в архивных документах (XIX-XX веков). Том I. Центральный Государственный Исторический Архив Грузии и документы Центрального Архива новейшей истории Грузии (Баку, 2013); 17. История Азербайджана в архивных документах (1918-1920). Том II. Документы Политического Архива Министерства иностранных дел Федеративной Республики Германии (Баку, 2013); 18. История Азербайджана в архивных документах (1918-1920). Том II. Документы Политического Архива Министерства иностранных дел Федеративной Республики Германии (Баку, 2014).

[3] Архив политических документов при Управлении делами Президента Азербайджанской Республики (АПДУДПАР), ф.276, оп.8, д. 412, л.4-5.

[4] Там же.

донесении правительству Советской России: **«Если бы они (*т.е. азербайджанские политические силы – Я.М.*) взяли верх в Баку, город был бы объявлен столицей Азербайджана… Мы воспользовались поводом… и открыли наступление по всему фронту... у нас были уже вооруженные силы - около 6 тысяч человек. У «Дашнакцутюн» имелось также около 3-4 тысяч национальных частей, которые были в нашем распоряжении. Участие последних придало отчасти гражданской войне характер национальной резни, но избежать этого не было возможности. Мы шли сознательно на это…».**[5]

Уже одно это признание Шаумяна отчетливо указывает на цель дашнакских головорезов, преследуемую ими в совершении геноцида азербайджанского народа в 1918 году.

Наряду с Баку, геноцид был учинен, согласно прямым указаниям Шаумяна, и в других регионах Азербайджана. В частности, Степан Лалаян (Лалаев) и Татевос Амирян (Амиров) по прямому указанию Шаумяна осуществили массовое истребление азербайджанцев в Шамахе.[6] Дашнакский палач Амазасп, учинивший геноцид населения Губы, также действовал в соответствии с указаниями Шаумяна.

Проведенные исследования доказывают, что руководство Бакинского Совета поддерживало тесные связи и с армянскими бандитскими отрядами, совершающими геноцид азербайджанцев в западных регионах Северного Азербайджана. В частности с Андраником, которого Степан Шаумян называл «народным героем».[7]

Изучение трагических событий начала XX века на территории Азербайджана выявляет всё новые факты, требующие должного научного осмысления и анализа, обращённые к исторической памяти народа и, главное, взывающие к недопущению повторения на азербайджанской земле акций геноцида, массового убийства безвинных людей, совершаемого носителями человеконенавистнической идеологии «великоармянства».

[55]Decipher № 179 from Mr. O. Wardrop (December 4, 1919).
[56]Decipher № 202 from Mr. O. Wardrop (December 15, 1919).
[57]Telegram from ‘en clair’ from Mr. O. Wardrop (December 30, 1919).
[58]Decipher (№52) from Mr. O. Wardrop (January 28, 1920).

ПРИЛОЖЕНИЯ

Документ N1



Установа

402

ЕДИНЫЙ ПАРТАРХИВ ЦК КП(б)

№ 27 № 2 п.

Гік

СПРАВА 504

Св. 3.

Выписки из дела Бакинского Градоначальника „О Шаумяне (Дашнакцы) и других" постановления

Ф. 34 д. N 590

Фонд 236

Оп. 8

Дело № 412

Почато 193 р.

Коробка № 17

Закінчено 12 лист. 193 р.

„КООПВОЛІГРАФ"
ХАРКІВ
СУЗДАЛЬСЬКІ РЯДИ, 34-36.

- 2 -

Заключение местных властей о предположенной мере административного взыскания.	Выслать под гласный надзор полиции в одну из отдаленных губерний Сибири, сроком на пять лет.

При этом, согласно циркуляра департамента полиции, от 25 февраля 1909 года за № 76010, прилагается дело за № 627 1909 года.

И. Д. БАКИНСК. ГРАДОНАЧАЛЬНИКА
ПОДПОЛКОВНИК... МАРТЫНОВ.

Перепечатано из дела: "О Шаумяне, Джапаридзе, Колесниковой, Рохлина и др. (получено из Тифлиса 28г.).

Арх. Ф. 34. Дело № 590. л. д. 57, 58, 1912г.

Копия.

ВХ. № 504.

ПОСТАНОВЛЕНИЕ № 1396.

14) Степан Георгиевич ШАУМЯН, 31 года, армяно-григорянского вероисповедания, гражданин гор. Тифлиса, проживая в Балаханах служил Заведывающим нефтепроводом "Шибьева". По сведениям Начальника Бакинского Охранного Отделения ШАУМЯН состоит членом Бакинского Центрального Комитета. По сведениям Начальника

- 3 -

ка Тифлисского Охранного Отделения Степан Георгиевич ШАУМЯНЦ 8-го апреля 1904 года прибыл в гор. Тифлис из Берлина, где по сведениям департамента Полиции, вращался среди эмигрантов-революционеров. По прибытии в Тифлис вошел в связь с деятелями местной соц.-дем. организации, как то со служащим секретарем в Кавказском обществе сельского хозяйства Христофором САМУЭЛЯНЦЕМ и бывшим учителем, сыном священника, Михаилом ЦОКАЯ и др.... Принимал участие в устройстве демонстрации 18 апреля 1904 года на Головинском проспекте. 10 октября 1904 года, он ШАУМЯНЦ, выбыл вновь в Берлин. В 1905 году вошел в состав Соц.-Дем. Организации и на митингах 19-20 и 21 октября 1905г. говорил речи противоправительственного характера. По агентурным сведениям 1906г., вел агитацию среди рабочих учащихся и войск. Был выставлен кандидатом в Государственную Думу от Тифлисского Соц.-Дем. Организации. По данным агентуры 1907г. агитировал среди рабочих завода ДРАЛОВА, которых собирал периодически на сходки. Находился в сношениях с Елисаветой ГОРИНОЙ, по адресу которой "Московская ул. д.№ 17", местная Соц.-Дем. организация сносилась в 1907г.

С центральным комитетом Р.С.Д.Р.П. Входил в состав литературного бюро "большевиков". В мае месяце того же года участвовал на 5-м соц-дем. с"езде, в гор. Лондоне. По сведениям Кавказского Районного Охранного Отделения, названный Степан ШАУМЯН, в числе других лиц, в воскрес-

- 4 -

ные, дни в народном доме имени ЗУБАЛОВА, гор.Тифлисе, читал лекции агитационного характера: По сведениям Кавказского Районного Охранного Отделения, что в 1907г. ШАУМЯН назначен председателем Тифлисской соц-дем. организации на заводе Жралова для агитации и пропаганды среди рабочих, что он периодически и проделывал, устраивая для этого собрания рабочих. В марте 1908г. ШАУМЯНЦ по партийным делам, вызывался в Баку. В том же году он получил партийную корреспонденцию от Московского и Петербургского центров и состоял членом литературного бюро большевиков. По агентурным сведениям Тифлисского Губернского Жандармского Управления, относящимся к июлю 1908г. ШАУМЯНЦ входил в состав Бакинского Комитета армянской революционной партии " Дашнакцутюн" . В сентябре месяце 1908г. Начальником Бакинского Охранного Отделения были получены агентурные сведения, что ШАУМЯНЦ состоит секретарем Бакинского Комитета Р.С.Д.Р.П. в октябре - же были получены сведения, что он состоит редактором газеты " Бакинский Рабочий". По таким - же сведениям, относящимся к 1908 году ШАУМЯНЦ являлся лидером Бакинской организации Р.С.Д.Р.П., партии и участвовал в качестве делегатов этой партии на С"езде в Лондоне. Проживая же в Тифлисе издавал газету "Рабочий Листок", которая была закрыта за временное направление. В Сентябре месяце 1909 года

- 5 -

Начальником Бакинского Губернского Жандармского Управления были получены агентурные сведения, что ШАУМЯНЦ является автором статей в органе партии Соц.-Дем. "Пролетариат" и что в 1907 г. он издал в Лондоне на с"езде этой партии. В 1910г. в тифлисском Охранном Отделении имелись агентурные сведения, что ШАУМЯНЦ хранит у себя нелегальную партийную литературу и имеет непосредственные сношения с лицами работающими в Бакинской нелегальной типографии. В июле 1910г. Начальником Бакинского Охранного Отделения были получены агентурные сведения, что у ШАУМЯНЦА хранятся 150 руб., отпущенные Центральным Комитетом Р.С.Д.Р.П. на постановку техники Бакинского Комитета, в Декабре месяца того же года были получены сведения, что ШАУМЯНЦ оказывает поддержку членам партии " ДАШНАКЦУТЮН", устраивая их на месте в Баку и на промыслах. В апреле того же года Начальником Бакинского Охранного Отделения были получены агентурные сведения, что ШАУМЯНЦ присутствовал 17-го того-же апреля на собрании Бакинского Комитета, происходившего в Бальханах. В мае же получены были сведения, что ШАУМЯНЦА можно считать кандидатом от Бакинской организации на Всероссийскую соц.-дем. конференцию которая должна была состояться в Петербурге. В виду имевшихся в 1909г. сведения о принадлежности Шаумяца к Р.С.Д.Р.П., он в ночь на 30 апреля того же года был обыскан и арестован в Баку, а затем привлечен к переписке в порядке охраны при Бакинском Губернском Жандармском Управлении по окончании которой, в декабре того же

- 6 -

года о нем было сделано представление Бакинскому Градоначальнику о воспрещении пребывания ШАУМЯНЦУ в пределах Градоначальства на все время действия усиленной Охраны, 31-го декабря того же года последовало распоряжение о воспрещении ШАУМЯНУ пребывание в Бакинском Градоначальстве на все время действий, в нем чрезвычайной охраны. По сведения Департамента Полиции у командированного в Россию фракцией большевиков Алексея РЫКОВА был обнаружен адрес: "Балахоны нефтепровод Шибаева Заведывающий Степа ШАУМЯН".

Кроме того ШАУМЯН переводчик брошюры К.Каутского "Движущие силы и перспективы русской революции", на которую наложен арест судебными установлениями (л.д. 282,283,288,293,294 и 619).

Документ N2

آذربایجان جمهوریتی
خارجیه نظارتی
گورجستان حکومت جمهوریسی
عندنده بولونان سیاسی ممثل

Representation diplomatique
la République d'Azerbeidjan
auprès le gouvernement
e la République Géorgienne

26 февраля 1919 г.
№ 891
TIFLIS

Секретно. 110.

П.И.Д. N 18

МИНИСТРУ ПРЕДСѢДАТЕЛЮ,-МИНИСТРУ ИНОСТРАННЫХЪ ДѢЛЪ.

Два дня тому назадъ передъ своимъ отъѣздомъ въ Лондонъ, меня посѣтилъ полковникъ англійской службы, который заинтересовавшись пограничнымъ вопросомъ, взялъ у меня этнографическую карту Кавказа.

Кромѣ сего я далъ ему 40 верстную карту съ нанесенными на нее этнографическими данными, составленную нашимъ Военнымъ Атташе, по статистическимъ свѣдѣніямъ 1886 года и выписку изъ этихъ свѣдѣній въ процентномъ соотношеніи. Полковникъ обѣщалъ поддержать въ Лондонѣ справедливыя наши притязанія и защищать наши интересы.

23 сего февраля я былъ у Министровъ - Жорданія и Гегечкори; послѣдній коснувшись Ахалцихскихъ событій, сказалъ, что они хотя

19
~~79~~

и сосредоточиваютъ свои силы въ этомъ раіонѣ для обратнаго завладѣнія Ахалцихомъ, но тѣмъ не менѣе желали бы мирнаго разрѣшенія всѣхъ вопросовъ, согласно желанія самого населенія уѣзда; причемъ добавилъ, что мѣстныя административныя лица будутъ смѣщены и вообще будутъ приняты всѣ мѣры для мирной ликвидаціи Ахалцихскихъ событій и что Англійское Командованіе заявило о своемъ невмѣшательствѣ въ эти дѣла.

Комиссаръ Ильмазлинскаго сельскаго общества Лорійскаго участка Борчалинскаго уѣзда обратился ко мнѣ съ просьбой о томъ, чтобы, въ виду крайне тяжелаго положенія мусульманъ этого общества, состоящее изъ шести селеній - находящихся въ данный моментъ на нейтральной зонѣ, взять ихъ подъ свое покровительство, выдѣливъ Ильмазлинское общество изъ состава Лорійскаго участка и присоединивъ таковой къ сосѣднему Тріалетскому участку.

Представители мусульманскаго населенія Борчалинскаго уѣзда по вопросу о выборахъ въ Учредительное Собраніе Грузіи, обратились ко мнѣ за совѣтомъ и указаніемъ, причемъ представили списокъ кандидатовъ, который при семъ прилагаю. Мною даны имъ соотвѣтствующія указанія.

22 февраля я съ Военнымъ Атташе посѣтилъ Мцхетскі. торжества по поводу посвященія митрополита Леонида въ каталикосы Грузіи.

Тифлисской Радіостанціей перехвачена радіо-телеграмма изъ Астрахани на имя Соколова /повидимому Сенатора/, касающаяся обмѣна военноплѣнными: Шаумяна и др. - съ арестованными членами Сюзной Миссіи, причемъ телеграмма заканчивается слѣдующими словами: " до скорого свиданія въ Баку ".

Дипломатическій Представитель Азербейджанской Республики при Правительствѣ Грузинской Республики

И.об. Военнаго Атташе
подполковникъ

Документ N3

Мин. Вн. Дѣл. В. Секретарь

Сообщить часть сообщенія Джафарова о Соколовѣ съ просьбой принять соотвѣтствующія мѣры и указать, что Соколов находится пока въ г. Баку.

В. Сек.

Мин. Почтъ и Тел.

Сообщить часть сообщ. Джафарова о Соколовѣ съ просьбой имѣть наблюденіе за телеграфной перепиской Соколова.

Дел.

Документ N4

Секретно.

Господину

Министру Внутреннихъ Дѣлъ.

секретно № 8
№ 426

8 Марта 1919 г.

Г-нъ Дипломатическій Представитель Азербайджанской Республики въ Грузіи отношеніемъ отъ 26 Февраля с/г. за № 894 сообщилъ мнѣ слѣдующее: "Тифлисской радіостанціей перехвачена радіотелеграмма изъ Астрахани на имя Соколова /по видимому Сенатора/ касающаяся обмѣна военноплѣнными: Шаумяна и др. съ арестованными членами Союзной Миссіи, при чемъ телеграмма заканчивается слѣдующими словами:- до скораго свиданія въ Баку ".

Увѣдомляю объ этомъ, прошу Васъ принять соотвѣтствующія мѣры къ выясненію роли и образа дѣйствія Соколова находящагося нынѣ въ Баку.

Документ N5

Господину

№ 437 секретно № 9. Министру Почтъ и Телеграф

8 Марта 1919 г.

Г-нъ Дипломатическій Представитель Азербайджанской Республики въ Грузіи отношеніемъ своимъ отъ 26 февраля с/г. за № 89 сообщилъ мнѣ слѣдующее:

"Тифлисской радіостанціей перехвачена радіо-телеграмма изъ Астрахани на имя Соколова /по видимому Сенатора/, касающаяся обмѣна военноплѣнными :Шаумяна и др. съ арестованными членами Союзной Миссіи ,при чемъ телеграмма заканчивается слѣдующими словами:-"До скораго свиданія въ Баку."

Увѣдомляя объ этомъ, прошу васъ принять соотвѣтствующія мѣры для установленія надлежащаго наблюденія за перепиской /телеграфной и почтовой / Соколова ,пребывающаго нынѣ гор. Баку.

Разсмо

МИНИСТРЪ ПРЕДСѢДАТЕЛЬ
И МИНИСТРЪ ИНОСТРАННЫХЪ ДѢЛЪ

Документ N6



Копии материалов
относящихся к расстрелу 26 бакин.
комиссаров англо-эсеровским,
меньшевистским дашнакским
контрреволюционным
(подобраны согласно-закрытого
письма при закрытом обвинении)
1936 г.

Фонд № 303
Опись № 1а
Дело № 20
Коробка № 1

На 97 листах

126

К о п и я
дело № 5/1918 г. арх. 4319
стр. 415 ЦАУ Туркм. ССР.

ВЫПИСКА ИЗ СПИСКА

Лиц, содержащихся в Красноводском арестном доме и числящихся содержанием за Заведывающим Административным Отделом, которым выдано довольствие с 20 сентября по 1-ое октября 1918 года

№№ по пор.	Имена и фамилии арестантов	Когда заключен и по чьему распоряжению.	Когда освобожден или переведен в др. тюрьму	Число проведенных в арестном доме дней	Суточный платежа арестантам	ИТОГО выдано комендантом довольствия
32.	Степан ШАУМЯН	18/1Х согласно распор. Краснов. стачкома пр. из Баку.	Содержится	10	1р50к с 2сентября 2р.	17р
33.	Анастас МИКОЯН	тоже	тоже	10	" "	17р
34.	Семеон КАНДЕЛАКИ	тоже	тоже	10	" "	17р
35.	Леон ШАУМЯН	тоже	тоже	10	" "	17р
36.	МарияАМИРОВА	тоже	тоже	10	" "	17р
37.	Ольга ВАНИКОВА	тоже	тоже	10	" "	17р
38.	Варвара ДЖАПАРИДЗЕ	тоже	тоже	10	" "	17р

п.п. Начальник Милиции АЛАНИЯ

Письмоводитель СОЛДАТОВ

Копию сверяла:
Секретарь ЦАУ ТССР (Барышева)

Копия верна Вр. управляющего ЦАУ ТССР (Карпов)

М.П. Тахт

Верно:

Birinci bölmə.

ŞİMALİ AZƏRBAYCAN TORPAQLARINDA TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLAR (1914-1920-ci illər)

İsmayıl Hacıyev
Tarix elmləri doktoru, professor,
AMEA Naxçıvan Bölməsinin sədri

ERMƏNİLƏRİN NAXÇIVAN DİYARINI İŞĞAL ETMƏK CƏHDLƏRİ VƏ TÖRƏTDİKLƏRİ QIRĞINLAR

Açar sözlər: erməni daşnakları, Naxçıvan, ərazi iddiları, qırğınlar
Ключевые слова: армянские дашнаки, Нахчыван, территориальные притязания, резня
Key words: Armenian dashnaks, Nakhchivan, territory claims, slaughters

XIX əsrin 20-30-cu illərində ermənilər Rusiyanın köməyi ilə Şimali Azərbaycanın Naxçıvan, Qarabağ ərazilərinə köçürüldülər. Bu ərazilərdə yerləşən erməni millətçiləri həmin əraziyə qarşı iddialar irəli sürdülər. "Böyük Ermənistan" xülyaları ilə yaşayan ermənilər Naxçıvan, Qarabağ və digər Azərbaycan torpaqlarını erməni əraziləri kimi təbliğ edir və bunun üçün mübarizə aparırdılar. "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz" iddiası ilə çıxış edən erməni daşnakları zor, hərbi yolla bu əraziləri tutmaq istəyirdilər.

Məqalədə tarixi faktlar əsasında ermənilərin iddialarının heç bir elmi əsasının olmaması əsaslandırılmış və törətdikləri qırğınlar göstərilmişdir.

Erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı soyqırımın və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. İki əsr ərzində "Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır". Bu mənfur siyasətin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə "böyük Ermənistan" dövləti yaratmaqdır. Ermənilərin bu arzularını böyük dövlətlər dəstəkləmiş, ilk növbədə Rusiya Cənubi Qafqazı işğal edən zaman İran və Türkiyədən 124 mindən çox ermənini Azərbaycan ərazisinə köçürmüşdür. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi məsələsi hələ XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq niyyəti güdən Rusiya imperiyasının çoxdankı işğalçılıq planlarının tərkib hissəsi idi [19, s. 375]. Azərbaycan torpaqları Rusiya imperiyası tərəfindən tutulduqdan sonra Türkmənçay müqaviləsinin 15-ci, Ədirnə müqaviləsinin 13-cü maddələrinə əsasən Qacarlar İranı və Osmanlı imperiyasında yaşayan ermənilər kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürüldülər. Osmanlı və İranla sərhəd ərazilərdə ermənilərin yerləşdirilməsi çarizmin müstəmləkəçilik niyyətlərindən irəli gəlirdi [22, s.11]. Azərbaycanın Arazdan şimaldakı torpaqlarını işğal edən Rusiya imperiyası ermənilər kütləvi şəkildə "Rusiya təbəəliyində olan torpaqlar" adı altında Azərbaycanın keçmiş İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazilərində və Gürcüstanın məhz azərbaycanlılara məxsus torpaqlarında yerləşdirdi [19, s. 376-377].

Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi layihəsi hələ 1827-ci ildə A.S.Qriboyedovun başçılıq etdiyi Cənubi Qafqaz diyarının diplomatik dəftərxanasında hazırlanmışdı. Erməni köçürülmələrinin əsas təşkilatçısı və rəhbəri generallardan İ.F.Paskeviç, P.D.Sisianov, N.F.Rtişev, diplomat A.S.Qriboyedov, rus ordusunun polkovniki Q.Lazarev (erməni mənşəli zabit – İ.H.), knyaz Q.S.Qolitsin, erməni arxiyepiskopu Nerses və b. olmuşlar. 1828-ci il fevralın 29-da general İ.Paskeviş göstəriş vermişdi ki, ermənilər başlıca olaraq Naxçıvan və İrəvan vilayətlərində, qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin. Ermənileri yerləşdirmək üçün 200 min desyatindən çox dövlət torpaqları ayrılmış, habelə müsəlmanlardan 2 milyon manatlıqdan yuxarı xüsusi torpaqlar da pulla alınaraq ermənilərə paylanmışdır. Ermənilər arasında təbliğat aparılırdı ki, onlar Naxçıvan və İrəvan vilayətlərində yerləşsinlər. Onlar istəyirdilər ki, bu vilayətlərdə xristian əhalisi daha çox olsun. İran ermənileri İrəvan və Naxçıvan vilayətlərinə köçürülmələrini istəyirdilər. Güney Azərbaycanın Təbriz, Marağa, Xoy, Maku, Səlmas və s. bölgələrindən minlərlə erməni Naxçıvana köçürüldü.

Çar Rusiyası Şimali Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "erməni vilayəti"ni yaratdı. "Erməni vilayəti" Naxçıvan, İrəvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan dairəsinə 15 mahal (Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçeniş, Səədli, Talın, Seyidli-Ağsaqqallı, Sərdərabad, Körpübasar, Abaran, Dərəçiçək, Göyçə), Naxçıvan əyalətinə 5 mahal (Naxçıvan, Əlincəçay, Məvazixatın, Xok, Dərələyəz), Ordubad dairəsinə isə 5 mahal (Ordubad, Əylis, Dəstə, Biləv, Çənnəb) daxil idi. "Erməni vilayəti"nə 6949 erməni ailəsindən ibarət 35560 nəfər köçürülmüşdü. Bunun 23568 nəfəri İrəvan əyalətində, 10652 nəfəri Naxçıvan əyalətində, 1340 nəfəri isə Ordubad dairəsində yerləşdirildi. Köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində məskunlaşdırıldı. Naxçıvan şəhərində 416 ailə, Əbrəqunusda 36, Bənəniyarda 43, Qazançıda 22, Xəlillidə 24, Kültəpədə 70, Nehrəmdə 208, Cəhridə 151, Ayrıncda 31, Qarababada 24, Külüsdə 13, Nursuda 30, Şahbuzda 20, Gecəzurda 14, Məzrədə 22, Əylisdə 37, Aza, Dar, Dizə və Dırnısda 182 ailə yerləşdirildi. Rusiya işğalınadək Naxçıvan əyalətində 434 erməni ailəsi olmuşdursa, sonrakı köçürülənlər hesabına erməni ailələrinin sayı 2719-a çatdı. Köçkünlərdən 2285 ailə əyalətin Naxçıvan mahalında, 266 ailə isə Ordubad mahalında yerləşdirildi. Ümumiyyətlə, qeyri-rəsmi köçənlərlə birlikdə Şimali Azərbaycana gəlmiş erməni köçkünlərinin sayı 200 min nəfəri ötmüşdü. Çarizmin bu mənfur siyasəti Naxçıvanda etirazla qarşılanmış, əhalinin böyük narazılığına səbəb olmuşdu. Nehrəm camaatı buna qəti etiraz etmiş və kəndlərində ermənilərə yer verməmişlər. Nəticədə onların Araz çayı sahilindəki torpaqları zorla əllərindən alınaraq ermənilərə verilmiş, orada onlar Təzəkənd yaşayış yerini salıb məskunlaşmışlar. Kəndin yuxarı tərəfindən təqribən 5 km Nehrəmdən aralı Güznüt kəndi də belə salınmışdır. Eyni hal Kültəpə, Bənəniyar kəndlərində də baş vermişdir.

Çar Rusiyası ermənileri Şimali Azərbaycan torpaqlarına, eləcə də Naxçıvan ərazisinə köçürməklə burada demoqrafik vəziyyəti dəyişdirmək, özünə dayaq yaratmaq məqsədi güdürdü. Ermənilər isə "böyük Ermənistan" yaratmaq xülyalarını gerçəkləşdirmək, ilk növbədə isə erməni dövlət yaratmaq arzusu ilə kütləvi olaraq bu ərazilərdə məskunlaşırdılar. Çarizmin köçürmə siyasəti ermənilərin sayının artmasına səbəb olurdusa da, azərbaycanlılar öz say üstünlüklərini qoruyub saxladılar. Nə rus çarizmi, nə də bolşevik hakimiyyəti məqsədlərinə nail ola bilmədilər.

XX əsrin əvvəllərində, xüsusilə 1905-1907-ci illərdə yaranmış vəziyyətdən istifadə edən ermənilər Naxçıvan ərazisində olan azərbaycanlılara divan tutur, onları bu ərazilərdən qovmağa və beləliklə də Naxçıvan ərazisinə sahib olmağa çalışırdılar. Bu işdə onlara bölgədə olan rus kazakları hər cür kömək göstərirdi. 1905-1906-cı illərin qanlı hadisələrinin şahidi olan M.S.Ordubadi "Qanlı illər" əsərində 245 məktub və 400-dən artıq yazılı məlumatlar əsasında erməni-müsəlman davasının tarixini qələmə almışdır. Həmin illərdə ermənilər Azərbaycanda, eləcə də Naxçıvanda xalqımıza qarşı terror, soyqırım siyasəti həyata keçirmiş, dəhşətli cinayətlərə əl atmışlar.

Birinci dünya müharibəsi illərində Qafqaz cəbhəsində Rusiyanın apardığı müharibəyə dəstək vermiş, erməni silahlı quldur dəstələri xidmətləri müqabilində Rusiyadan erməni dövlətinin yaradılmasını tələb etmişdir.

Fevral inqilabından sonra Naxçıvan yerli müsəlman və erməni milli komitələrinin formalaşması ikihakimiyyətliliyə gətirib çıxardı. Bürhan bəy Maqsudov və Mxitaryans Naxçıvan qəzası üzrə müvəkkillər təyin edildilər [10, v.15, 69]. Ermənilər Naxçıvan bölgəsində separatçılıq hərəkətlərini qızışdırır, yaşadıqları bir neçə kənddə kənd cəmiyyətləri adından icma qərarları çıxarır və özlərinin hərbi qüvvələrini yaradırdılar. Silahlanan ermənilər Naxçıvanın müsəlman əhalisinə qarşı zor tətbiq edir, bəzi kəndlərdə onları öldürürdü. 1918-ci ilni yanvarın 17-də ermənilər Əznəbürd kəndində 22 nəfər qadın və uşağı qətlə yetirdilər [14, s.10]. 1918-ci ilin aprelin 13-də Əlincəçay vadisində bir neçə kəndə hücum edib onları dağıtdılar, əhalisinin bir qismini ən vəhşu üsullarla öldürdülər.

1918-ci ilin may ayında Cənubi Qafqazda yeni tarixi şərait yarandı. Mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Bu zaman Azərbaycan torpaqlarında Ermənistan (Ararat) Respublikası yaradıldı. Ermənistan Respublikası Yeni Bəyazid, İrəvan və Aleksandropol qəzalarından ibarət olmaqla 9,2 min kv.km əraziyə malik oldu. Əhalisinin xeyli hissəsini türklər, müsəlmanlar təşkil edirdi. İrəvan şəhəri ermənilərə güzəşt edildi. Edilən güzəşt və bəslənilən ümidlər özünü doğrultmadı, erməni iddiaları əvvəlkindən də artıq irəli sürüldü. 1918-1921-ci illərdə bir sıra ərazilərimiz Ermənistan tərəfindən işğal edildi. Nəticədə 1922-ci ildə Ermənistanın ərazisi 28,1 min kv.km-ə çatdı [24, s. 49].

Ermənilər "böyük Ermənistan" xülyalarında Naxçıvan diyarını da görür və buna görə də Naxçıvanla bağlı saxta və qeyri-obyektiv məlumatlar yayırdılar: "Naxçıvan qədim erməni torpağıdır", "O, "böyük Ermənistan" ərazisində olmuşdur", "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz" və sairə. Ermənilərin əsas məqsədi Naxçıvan ərazisində ermənilərin sayını artırmaq, sonra buradan azərbaycanlıları hansı yolla olursa-olsun qovub çıxarmaq və bu yolla əraziyə sahib olmaq idi. Ermənilərin buraya məqsədli və kütləvi köçürülmələrinə baxmayaraq 1918-20-ci illərdə Şərur-Dərələyəz qəzasında əhalinin 72,3 faizi, Naxçıvan qəzasında isə 62,5 faizi azərbaycanlılar idi [18, s. 129].

1918-1920-ci illərdə Naxçıvan ikitərəfli təhlükə ilə qarşılaşmışdı. Bir tərəfdən erməni daşnakları böyük dövlətlərdən yardım alaraq Naxçıvan bölgəsinə basqınlar edir, şəhər və kəndləri talayır, dinc əhalini kütləvi surətdə qırırdı. Digər tərəfdən Naxçıvana köçürülən ermənilər diyarın Ermənistana birləşdiriləcəyinə dair şaiyələrdən ruhlanaraq Naxçıvana Ermənistanın bir hissəsi kimi baxır və diyara müxtəlif yerlərdə hər cür fitnəkarlıq törədirdilər. Başqa bir təhlükə isə Andranik Ozanyanın 8 min nəfərlik erməni quldur qoşununun Naxçıvana hərbi basqınları idi. 1918-ci ilin may-iyun aylarında Türkiyəyə xəyanət etmiş daşnak A.Ozanyan Naxçıvana gəlmişdi. Bu talançı, quldur general Naxçıvana gəlməkdə məqsədi Naxçıvan və Zəngəzur mahallarını, Qarabağı ələ keçirmək, soyqırımları törətməkdən ibarət idi [15, s.52]. Bu qaniçən daşnakın "könüllü korpusu" ilk böyük soyqırımını Araz çayının sol sahilində yerləşən Yaycı kəndində aparmışdır. Quldur ermənilər kəndi talayaraq, əhalini qılıncdan keçirmiş, qadın, qoca və uşaqları Arazın qanlı sularında boğmuşlar. Yaycı soyqırımında ölənlərin sayı 2500 nəfərdən artıq olmuşdur. A.Ozanyanın quldur dəstəsi Əlincəçay və Gilançay hövzələrində 40-a qədər kəndin dağıdılması, əhalinin böyük qisminin məhvi ilə nəticələnmişdi.

Naxçıvana köməyə gələn türk ordu hissələri erməni rəhbərliklərinin qarşısını aldı. Yerli azərbaycanlılardan təşkil olunmuş özünümüdafiə qüvvələri erməni qaniçənlərinə layiqli cavab verirdi.

Birinci dünya müharibəsindən sonra Mudros müqaviləsinin şərtlərinə görə türk ordusu Cənubi Qafqazdan, eləcə də Naxçıvandan çıxdı. Naxçıvanı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 3-də (18) Naxçıvanda Araz-Türk Cümhuriyyəti yaradıldı. Araz-Türk Cümhuriyyətinin hökumətinə Əmir bəy Əkbərzadə, hərbi nazirliyə isə İbrahim bəy Cahangiroğlu başçılıq edirdi. Onun hüdudları Naxçıvan, Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. əraziləri əhatə edirdi. Paytaxtı Naxçıvan şəhəri olan bu respublikanın ərazisi təxminən 8,6 min kv. km, əhalisi isə 1 milyon nəfərə yaxın idi [21, s.71]. Türk ordusunun 300 nəfərdən artıq əsgəri və 5 zabiti Naxçıvan diyarının təhlükəsizliyi üçün saxlanıldı. Araz-Türk Respublikasının hərbi qüvvələri formalaşdırıldı, taborlar yaradıldı. Araz-Türk Respublikası az yaşamasına baxmayaraq bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsində, ərazinin qorunmasında mühüm rol oynadı.

Cənubi Qafqaz ingilislərinin təsir dairəsinə aid edilmişdi. 1918-ci ilin noyabrında ingilis qoşunları Bakıya, 1919-cu ilin yanvarında isə Naxçıvana gəldi. İngilislər Naxçıvanı erməni "idarəçiliyinə" vermək istəyirdi. Əhalinin kəskin etirazlarına baxmayaraq ingilislərin yardımı ilə ermənilər mayın 20-dək bölgənin "idarəçiliyinə" başladılar. Naxçıvanda daşnak Q.Varşamyanın başçılığı ilə general-qubernatorluq yaradıldı. Bu mənfur qurum yalnız Naxçıvanın bir hissəsinə və Culfa-İrəvan dəmir yolu xəttinə nəzarət edirdi.

Naxçıvan Müsəlman Milli Şurası bölgə əhalisini ermənilər əleyhinə ümumxalq mübarizəsinə qaldıra bildi. Üç günlük qanlı döyüşdə Kəlbalı xanın rəhbərliyi ilə yerli əhali ermənilərə sarsıdıcı zərbə vurdu və avqustun 25-30-da Naxçıvan şəhəri ermənilərdən təmizləndi.

Ermənilərin qovulmasından sonra AXC hökuməti 1919-cu ilin avqustunda Səməd bəy Cəmillinskini Naxçıvan bölgəsinin general-qubernatoru təyin etdi. Səməd bəy dərhal idarəetmə strukturları yaratmağa başladı. Xəlil bəyi bölgə qoşunlarına baş komandan, Kəlbalı xanı isə ona müavin təyin etdi. Qeyd etməliyik ki, hələ 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğu yaradılmışdı və bölgənin general-qubernatoru da Bəhram xan Naxçıvanski təyin edilmişdi. Müəyyən səbəblərdən general-qubernatorluq uzun müddət yaşaya bilmədi.

İngiltərədən sonra bölgəyə gələn amerikalılar da "netral zona" yaratmaq adı altında Naxçıvan və Şərur-Dərələyəzi Ermənistana vermək istəyirdilər. Azərbaycan Xalq Cümhuriyyəti rəhbərləri və yerli əhali buna imkan vermədi. Amerika nümayəndələrinə qəti olaraq çatdırıldı ki, Naxçıvan, Şərur-Dərələyəz və Vedibasar Azərbaycanın ayrılmaz hissələri olmuşdur və yalnız Azərbaycanın qanunları

altında fəaliyyət göstərəcəkdir [12,s.213-214]. Amerikalılar da məqsədlərinə nail ola bilmədiklərindən 1920-ci ilin əvvəlində Naxçıvandan getdilər.

Amerikalıların Naxçıvanı tərk etmək ərəfəsində 1919-cu ilin noyabrında daşnakların Naxçıvana irimiqyaslı təcavüzü başladı. Erməni basqınları 1920-ci ilin əvvəllərində də baş verdi. Kəlbalı xanın Naxçıvandan göndərdiyi hərbi qüvvələr erməni daşnaklarına sarsıdıcı zərbələr vurdu. Ermənilər tələfat verdiklərindən geri çəkildilər. Martın 21-də daşnakların 10 min nəfərlik dəstəsinin növbəti hücumu Ordubadın Düylün, Vənənd, Vələver, Xanağa, Dırnıs, Ağrı, Dizə və b. kəndlərinin qətlqarətə məruz qalması ilə nəticələndi. Yenidən Ədib bəylə Kəlbalı xanın birləşmiş qüvvələri ermənilər geri oturda bildilər [21, s.186].

1920-ci il aprelin 27-də bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra Naxçıvan bölgəsində ermənilər daha da fəallaşdılar. Daşnak dəstələri Şəruru və Şahtaxtı stansiyasını ələ keçirdilər. Onlar Dərələyəzdə 74, Şərurda və Şahtaxtı ətrafında 76 kəndi yandırmışdılar. Şərur və Şahtaxtında çoxsaylı insan tələfatı var idi. 400 min nəfərə qədər qaçqın Naxçıvanda və ətraf ərəzilərdə evsiz-eşiksiz, açıq havada qalmışdı [21, s.281].

Ümumiyyətlə, 1918-20-ci illərdə erməni daşnakları Vedibasarda 118, Dərələyəzdə 74, Şərurda 76, Əlincəçay və Gilançay boyunca 40-dan artıq kəndi dağıtmış, yandırmış və əhalinin çoxunu soyqırıma məruz qoymuşlar. Bu illərdə Naxçıvan bölgəsində erməni daşnakları tərəfindən 73.723 nəfər azərbaycanlı ən vəhşi formada öldürülmüşdür. Nəticədə, 1918-20-ci illərdə Naxçıvan əhalisinin sayı 38 faiz azalmışdı. Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmışdı, 240 kənd tamamilə və ya qismən dağıdılmışdı [12, s.225, 227].

Daşnak rejiminin Naxçıvanı öz nəzarəti altına almaq cəhdləri nəticə vermədi. Böyük dövlətlərin köməyi də bir fayda vermədi. Naxçıvanlıların mərdliyi, igidliyi və qəhrəmanlığı qarşısında erməni cəlladları məqsədlərinə nail ola bilmədilər. Naxçıvana köçürülmüş ermənilər azərbaycanlılarla qarşıdurmaya getdiyindən onların böyük əksəriyyəti Naxçıvanda yaşamaq imkanını itirdi və buranı tərk etməyə məcbur oldu. Nəticədə 1921-ci il üçün ermənilər Naxçıvan əhalisinin 12 faizini təşkil etmişdir. Ermənilərin Naxçıvandan getməsinə ilk növbədə Qərbi Azərbaycandakı işğalçı daşnak hökuməti bais olmuşdu [17].

Ermənilərin zor gücünə, hərbi yolla Naxçıvanı işğal etmək niyyətləri baş tutmadı. Naxçıvan əhalisi özlərini Azərbaycandan ayrı təsəvvür etmir və erməni daşnaklarına qarşı inadlı mübarizə aparırdılar. Bu işdə Müsəlman Milli Komitəsi, yerli ziyalılar, Naxçıvan xanlarının nümayəndələri onlara yaxından kömək edir, bu işə rəhbərlik edirdilər. Naxçıvanın ermənilərə qarşı mübarizəsinə hər cür dəstək verən, Naxçıvana gələn, erməni silahlıları ilə mübarizə aparan türk qoşunlarının fəaliyyətini də xüsusi qeyd etməliyik. Naxçıvanlıların qəti fikri belə idi ki, "Biz mədəni dövlətlərin alovlarında məhv olarıq, lakin özümüzü Azərbaycandan ayrı təsəvvür etmərik". Kəlbalı xanın rəhbərliyi ilə mübarizə aparan, erməni yaraqlılarına bir çox hallarda əsl mənada dərs verən özünümüdafiə qüvvələri, Araz-Türk Cümhuriyyətinin 20 taboru bölgənin qorunub saxlanılması üçün erməni daşnaklarına qarşı inadlı mübarizə aparmışlar. Bunu yüksək qiymətləndirən AXC-nin Baş naziri N.Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında demişdir: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər; onlar həyatlarını, ailələrinin şərəflərini və var dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar" [2, v. 4-5].

Naxçıvanlıların ingilis və amerikan nümayəndələrinə söylədikləri sözlər onların vətənpərvərliyini və qətiyyətini bir daha sübut edir: "Əgər bizim istəyimizin əleyhinə olaraq kimsə torpaqlarımızı Ermənistana verməyə cəhd göstərsə, biz onu özümüzə düşmən hesab edəcəyik; biz onu əlimizdə silah olaraq qarşılayacaq və bizim düşmənlər yalnız meyitlərimizin üstündən adlayaraq evlərimizə girə bilərlər" [23, s. 210]. Yaxud başqa bir fikir: "Yaşadığımız torpaqların müsəlmanların razılıq və arzularının əksinə olaraq Ararat Respublikasına verilməsinə qəti etiraz edirik. Bütün dünyanın və bütün mədəni qüvvələrin azad həyat, xalqların öz müqəddəratını həll etmək hüququ haqqında qışqırdıqları bir vaxtda azərbaycanlılar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər" [7, v. 2].

Naxçıvan əhalisi ingilis general-qubernatoruna göndərdikləri etiraz məktubunda yazırdı ki, "Razılaşın ki, ermənilərə tabe olmaqla (ingilislər naxçıvanlıları buna təhrik edirdilər – İ.H.) biz təkcə

özümüzü yox, həm də ömrü boyu bizə lənətlər oxuyacaq nəslimizi alçaldılmağa və təhqirə məruz qoyuruq və buna görə də Əlahəzrət general Devinin bizim Naxçıvan, Şərur və Vedibasar rayonlarımızı müvəqqəti də olsa erməni hökumətinin idarəsinə verməsinə biz Allah tərəfindən bütün diyarın əhalisinə bəxş edilmiş azadlıq, arzu və meyllər üzərində zorakılıq faktı kimi baxırıq. Hamımız bu cür zorakılıqa qarşı öz etirazımızı bildiririk" [7, v.12].

Əli Səbrinin Vilyam Haskelə verdiyi cavab da bütün naxçıvanlıların ümumiləşmiş və qəti fikri idi. Söhbət zamanı Haskel Əli Səbriyə sual verdi ki, Naxçıvanın və digər regionların əhalisi bu regionların erməni hökumətinə verilməsinə necə baxar? Buna cavab olaraq Əli Səbri bildirdi ki, əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti bütün qüvvələri ilə rədd edirlər. "Xalq öz qüvvəsilə azadlığa nail olmuş və qan tökmədən rayonlarımıza daxil olan qəsbkarları qovmuşdur. Özünün azadlığını əldə etmiş xalq doğma Azərbaycan hökumətinə belə onun arzusunu rədd edərək taleyini həll etməyə imkan verməz. Bu vəziyyət nəzərə alınmalıdır... biz heç vaxt, bir dəqiqə də olsun özümüzü Ermənistan təbəələri təsəvvür edə bilmərik. Biz ona görə azad olmamışıq ki, yenidən əsarət altına düşək" [8, v.1-5].

Gətirilən bu faktlar Naxçıvan diyarının ermənilər tərəfindən işğal edə bilməmələrinin səbəbi nədir? – sualına ən düzgün cavab ola bilər. Naxçıvan əhalisinin mərd, mübariz və qəhrəmanlığını Ermənistanın birinci Baş naziri Q.Kaçaznuni də 1923-cü ildə açıq etiraf edərək demişdir: "Müsəlman rayonlarında (Naxçıvan, Şərur və Vedibasar nəzərdə tutulur – İ.H.) inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik" [25, s. 39].

Ermənilər Naxçıvan diyarını işğal edə bilməsələr də, sonrakı illərdə SSRİ rəhbərlərinin köməyi ilə bəzi torpaqları tuta bilmişlər. Azərbaycan xalqı torpaqlarını geri qaytarmağa israrlıdır və ermənilər törətdikləri soyqırımlara görə cavab verməli olacaqlar.

İstifadə edilmiş mənbə və ədəbiyyatlar

1. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. İki cilddə. I cild. Bakı: "Oskar" NPM, 2012, 444 s.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (AR DA), f. 894, siy. 10, iş 37.
3. AR DA, f. 894, siy. 10, iş 101.
4. AR DA, f. 970, siy. 1, iş 227.
5. AR DA, f. 970, siy. 1, iş 229.
6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARP İİSSA), f. 276, siy. 9, iş 41.
7. ARP İİSSA, f. 277, siy. 2, iş 57.
8. ARP İİSSA, f. 277, siy. 2, iş 58.
9. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 32, siy. 1, iş 22.
10. NMR DA, f. 32, siy. 5, iş 63.
11. NMR DA, f. 32, siy. 5, iş 72.
12. Cəfərəli E.Y. Naxçıvanda erməni-azərbaycanlı münaqişəsi. Bakı: "Nurlan", 2009, 280 s.
13. Cəfərof F.A. Erməni vəhşiliyi. Bakı: "Nurlan", 2009, 186 s.
14. Əliyev M.B. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı: "Azərnəşr", 1993, 142 s.
15. Fərəcov F.Yaycı soyqırımı. Naxçıvan: "Əcəmi" NPB, 2002, 118 s.
16. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı: "Azərnəşr", 1994, 124 s.
17. Hacıyev İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: "Əcəmi" NPB, 2012, 192 s.
18. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: "Garisma" MMC, 2009, 576 s.
19. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (AMEA-nın müxbir üzvü, prof. Y.Mahmudovun elmi redaktorluğu ilə). Bakı: "Azərbaycan", 2009, 574 s.
20. Köçərli T.Q. Naxçıvan: uydurmalar və tarixi həqiqətlər. Bakı: "Təknur", 2005, 170 s.
21. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bplgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
22. Qasımlı M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı: "Mütərcim", 2014, 464 s.

23. Səmyuel A. Uimz. Ermənistan – terrorçu xristian ölkələrin gizlinləri (ermənilərin böyük fırıldaq seriyaları). Bakı, 2004, 386 s.
24. Zeynalova T.M. Azərbaycanda milli dövlət quruculuğu tarixindən (1920-1930-cu illər). Bakı: "Elm", 2004, 176 s.
25. Качазнуни Ов. Дашнакцутюн: больше нечего делать. Баку: «Азернешр», 2013, 104 с.

İsmayil Hajiyev

ARMENIANS` EFFORTS FOR TO OCCUPY THE NAKHCHIVAN LAND AND THESLAUGHTERS PERPETRATED BY ARMENIANS

Armenians have been moved the Nakhchivan, Garabag territories of South Azerbaijan byhelping Russia in the 20-30th years of XIX century. Armenian nationalist settled in these areas beganto claim those lands. The armenians who was living the wishes of "Great Armenia" notify Nakhchivan, Garabag and other Azerbaijan lands as armenian`s territories and were fighting for this. The Armenian dashnaks who claims that "Armenia could not live without Nakhchivan and Sharur"tried to occupy these land by force and military way. In the article with historical facts the author proves that armenians` claims has no scientificbasis and showed the slaughters perpetrated by them.

Исмаил Гаджиев

ПОПЫТКИ АРМЯН ЗАХВАТИТЬ НАХЧЫВАНСКИЙ КРАЙ И СОВЕРШЕННЫЕ ИМИ ЗЛОДЕЯНИЯ

В 20-30-х годах XIX века армяне при помощи России были массово переселены на территорию Северного Азербайджана – Нахчыван и Карабах. Обосновавшись на этих землях, армянские националисты начали выдвигать территориальные притязания к Азербайджану. Живя идеей создания «великой Армении», армяне выдавали Нахчыван, Карабах и другие азербайджанские земли за свои и вели активную борьбу в этом направлении. Выступая с лозунгом «Армения не может жить без Шарура и Нахчывана» всегда мечтали насильственным путем захватить эти территории.

В статье на основе фактов доказана необоснованность армянских притязаний и показаны злодеяния армян.

Anar İsgəndərov
Bakı Dövlət Universitetinin kafedra müdiri,
tarix elmləri doktoru, professor

1918-1920-Cİ İLLƏRDƏ TÜRK–MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI HƏYATA KEÇİRİLƏN SOYQIRIMI

Açar sözlər: türk-müsəlman, soygırım, Fövqəladə Təhqiqat Komissiyası, Bakı, Qarabağ, İrəvan, Zəngəzur, daşnak-bolşevik birləşməsi.

Ключевые слова: тюрки-мусульмане, геноцид, Комиссия Чрезвычайного Положения, Баку, Карабах, Ереван, Зангезур, дашнако-большевитское объединения.

Key Words: turks-moslims, genocide, Emergency Investigate Comission, Baku, Qarabakh, Erevan, Zangezur, dashnak-bolshevik united.

1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra mümkün olmuşdur. Belə ki, Milli hökumətin ən mühüm qərarlarından biri daşnak canilərinin törətdikləri cinayətlərin təhqiqi üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması oldu. Hökumətin iclasında Xarici işlər naziri M.H.Hacinski bu məsələ ilə bağlı çıxışında qeyd etdi ki, 4 aydır ki, erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər. Bununla yanaşı, zorakılıq törədənlərin yalan xəbərləri nəticəsində Avropa ictimaiyyətində bizimlə bağlı əks əhval-ruhiyyə yaradılır. Buna görə də belə bir təşkilatın yaradılmasına böyük ehtiyac hiss olunur. Həmin təşkilat Fövqəladə Komissiya xarakteri daşımalıdır, həm də bu komissiyanın topladığı sənədlər Azərbaycan, rus, ingilis, fransız, alman dillərində nəşr edilib yayılmalıdır. (1) Vəkil Ələkbərbəy Xasməmmədov (sonralar Azərbaycan Məhkəmə Palatasının sədri olmuşdur) Təhqiqat Komissiyasının sədri təyin edildi. (2) Bir neçə ay ərzində Fövqəladə Təhqiqat Komissiyası daşnak quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük iş gördü. Zərər çəkmiş on minlərlə vətəndaş və şahid dindirilmiş, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplandı.

Məlumdur ki, 1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar sülaləsi devrildi və Müvəqqəti hökumət təşkil edildi. Müvəqqəti hökumət Rusiya xalqlarına müraciətində elan etdi ki, birinci dünya müharibəsi başa çatandan sonra xalqların öz müqəddəratını həll etməsi məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti zorakı yolla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxartdı. Bolşeviklər fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bolşevik pəridəsi altında bərpa etməyə başladılar.

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi yetişməkdə idi. 1917-ci ilin dekabrında Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin olunmuş S.Şaumyanın Korqanovun başçılıq etdiyi Hərbi İnqilab Komitəsi ilə birlikdə Tiflisdən Bakıya gəlişi buradakı siyasi vəziyyəti daha da gərginləşdirdi. Qafqaz cəbhəsindən geri qayıdan əsgərlər vətənlərinə qayıtmaq əvəzinə Bakıda toplaşdı. Bu əsgərlərin Bakıda saxlanmasında Şaumyan böyük fəallıq göstərirdi.

Azərbaycanda milli qüvvələrə başçılıq edən "Müsavat"ın getdikcə artan nüfuzundan qorxuya düşən bolşevik-daşnak qüvvələri Bakını inqilabla əksinqilab arasında mübarizə meydanı elan etmişdilər. Bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında Qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmlənmişdi.

1918-ci ilin martında **Bakıda** siyasi vəziyyət son dərəcə gərgin idi. Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"ın böyük səs çoxluğu ilə qələbə qazanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilən "Müsavat" Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparırdı. Şaumyan başda olmaqla bolşevik qüvvələri Erməni Milli Şurası və "Daşnaksütyun" partiyasının rəhbərləri ilə birlikdə "Müsavat"a

qarşı əsl müharibəyə başladılar. Bakıda Azərbaycan milli qüvvələrinin sayca az və zəif silahlanmış olduğunu yaxşı bilən Şaumyan müsəlmanlara "dərs vermək" üçün milli qırğına hazırlaşırdı.

Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paraxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdi. Müsəlman dəstəsinin rədd cavabına tüfənglərdlən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu.

Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Onlar bütün küçə boyu səngərlər qazmağa, torpaq və daşlardan bəndlər ucaltmağa başladılar. Həmin gün müsəlman xeyriyyə cəmiyyətinin binasında keçirilən yığıncağa gələn Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası adından bəyan etdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklər. Martın 18-də (təzə stillə 31 mart - A.İ.) səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı.

Bakıda soyqırımı planı hələ 1917-ci ildən "Daşnaksütyun" partiyası və Erməni Milli Komitəsi tərəfindən hazırlanırdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.

Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A.N.Kvasnikin ifadəsində deyilir: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə onun ətraflarında cismən məhv edilməsi, onların əmlakının və bütün var-dövlətlərinin qarət olunması və siyasi üstünlüyün təbii surətdə ermənilərin əlinə keçməsi məqsədilə ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi."". (3). Azğınlaşmış və vəhşiləşmiş erməni quldurlar dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge bu komissiyanın sədrinə yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər… ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər". (4)

Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, az-çox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonralar təkcə bir yerdə torpağın altından 57 müsəlman qadın və qızın meyiti tapılmışdı. Onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yırtmışdılar. Ermənilər öldürməyə macal tapmadıqları qadınları isə öz hörükləri ilə bir-birinə bağlayaraq başıaçıq, ayaqyalın arabalara mindirib aparır, yolda isə tüfənglərin qundaqları ilə onları döyür, şikəst edirdilər. (5)

Təhqiqat Komissiyasının sənədlərinə əsasən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı **Bakı şəhərində 11 min nəfərədək** türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. (5). Sənədlərdən məlum olur ki, Bakının şəhər camaatından **400 milyon manatlıq daş-qaş və əmlak** müsadirə olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdir. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar. (6)

Təhqiqat Komissiyasının materiallarında bu vəhşiliklər barəsində deyilir: "1918-ci il martın 18-də bir erməni zabiti, yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə"

müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular". Həmin zabit "Daşnaksütyun" partiyasının görkəmli xadimi Tatevos Əmirov idi. Bu, həmin Tatevosdur ki, uzun illər ərzində tariximiz, mətbuatımız onu "yenilməz inqilabçı", "xalqlar dostluğu uğrunda mətin mübariz" kimi təbliğ etmişdi.

Talançılar "Kaspi" qəzeti redaksiyasının və "Dağıstan" mehmanxanasının binalarını, "İsgəndəriyyə"ni, "İsmailiyyə"ni də yandırmışlar. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü. (7)

Mart talanlarında yaxşı təşkil olunmuş hərbi hissələrlə yanaşı erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi". (8)

"Nikolay Buniatov" paraxodu komandirinin köməkçisi Kazım Axundov yazır: Martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladıq. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçısının, 11 gimnaziyaçı qızın, 1 rus qadının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişinin, 19 İran təbəəli müsəlman qadınının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların **6748** meyiti gətirilmişdi. Axundov öz tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. Burada, o, 3 fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə yarası, bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ döşü üstündə hələ sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardır.

İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilmişdir. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi.

Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi (əgər bu alçaqlara "kişi" demək mümkündürsə) zorlamışdır.

Axundovla Sokolov 4-cü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: geniş bir otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, iki qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri var idi. Körpənin əl-ayağını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o daha fotoşəkil çəkə bilməmişdi.

Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdur. Epidemiya tüğyan edərək minlərlə insanı qırmış, əhalinin su, ərzaqla təchizatı dayanmışdır. Bazar və mağazalardan, demək olar, bütün ərzaq məhsulları yoxa çıxmışdır. Talançılar olub-qalan ərzaq ehtiyatlarını toplayıb aparmışdılar. Mətbuat yazırdı ki, "əhali aclıqdan əməlli-başlı zillət çəkirdi".

Qədim Azərbaycan şəhəri **Şamaxı** dəhşətli talan və vəhşiliklərə məruz qalmışdır. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında **7 cild, 925 vərəqdən ibarət** təhqiqat materialları toplanmışdı. Burada bədnam S.Lalayevin başçılıq etdiyi əsgərlər və T.Əmirovun dəstəsi azğınlaşaraq müsəlmanları soyub-talayır və qırırdılar. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu. 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq – Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm bir qibləgah, həm də qədim abidə kimi əziz idi. Erməni quldurlar minlərlə dinc adamı qətlə yetirmişdi. (9)

1917-1918-ci ildə Cənubi Azərbaycanın qərb bölgəsində, əsasən Urmiya, Salmas, Xoy və digər ətraf ərazilərdə Azərbaycan türklərinə qarşı böyük dövlətlərin təşkil etdiyi, başda ermənilər olmaqla xristian ordusunun həyata keçirdiyi soyqırım cinayətini özündə əks etdirən xeyli miqdarda farsdilli mənbə və ədəbiyyat mövcuddur. Lakin Türkiyə Cumhuriyəti "Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Arşivi"ndən əldə edilmiş sənədlər ilk dəfədir elmi dövriyəyə daxil edilir. Bu sənədlər 1917-1918-ci illərdə Cənubi Azərbaycan, əsasən də Urmiya bölgəsində ermənilər və digər qüvvələr tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı bir daha təsdiq edir.

1917-ci sonu 1918-ci ilin əvvəllərində Urmiya bölgəsində həyata keçirilən erməni və aysorların qanlı fəaliyyətlərini Osmanlı Dövləti yaxından izləmiş və bu hadisələrin qarşısını almaq üçün görüləcək bütün tədbirləri əsasən VI ordu komandanı Xəlil paşaya həvalə etmişdir. Osmanlı zabitləri rus qoşunlarının geri çəkilməsi zamanı baş verən qanlı hadisələrlə dair müşahidə və kəşfiyyat məlumatlarını Osmanlı Baş komandanlığına ardıcıl olaraq raport və teleqramlar şəklində göndərmişlər. Bu məlumatları özündə əks etdirən sənədlər hazırda Ankara şəhərində yerləşən Türkiyə Cumhuriyəti "Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Arşivi"ndə (bundan sonra – ATASE) qorunub saxlanır.

1905-1911-ci illər İranda baş verən inqilab zamanı xarici təbəələri qorumaq bəhanəsi ilə 1909-cu ildə Təbrizə girən car Rusiyasının qoşunları tədricən Cənubi Azərbaycanın digər bölgələrini də işğal etdi. Bu vaxtdan etibarən Cənubi Azərbaycanın Osmanlı dövləti ilə olan bütün sərhədləri boyunca rus qoşunları yerləşdirildi. Birinci dünya müharibəsi dövründə Cənubi Azərbaycan ərazisi Rusiya və Osmanlı hərbi qüvvələrinin toqquşma meydanına çevrildi. 1915-ci ilin əvvəlində Osmanlı qüvvələri Ənvər paşanın komandanlığı ilə bölgəni rus qoşunlarından təmizləmək üçün əməliyyata başlasa da, Sarıqamış faciəsi və Ənvər paşanın Ərzurumun Allahu-əkbər dağlarında minlərcə əsgər itirməsi bu əməliyyatı yarımçıq qoydu. 1916-cı ildə demək olar ki, bütün Cənubi Azərbaycan ərazisi Rusiya qoşunları tərəfindən işğal olundu.

Qeyd olunan vaxt Osmanlı dövlətinin rus qoşunlarını Cənubi Azərbaycan ərazisindən çıxarmaq üçün etdiyi sonuncu cəhd – Dilman döyüşü (aprel-may, 1916) də uğursuzluqla nəticələndi. Həmin il Osmanlı dövlətinin Hakkari bölgəsində yaşayan assuriyalılar (aysorlar – G.N.) Rusiyanın dəstəyinə arxalanaraq öz dövlətinə qarşı qiyam qaldırdılar. Lakin onlar Osmanlı qüvvələrinin qarşısında uzun müddət davam gətirə bilmədilər. Rusiyanın köməyi on minlərlə aysor (yerli əhali onları "cilov" adlandırırdı – G.N.) öz ailələri ilə birgə Cənubi Azərbaycanın Urmiya və Səlmas bölgəsinə köçürüldü. Çağırılmamış bu ac qonaqların gəlməsi, üstəlik bu hadisənin Birinci dünya müharibəsi şəraitində baş verməsi yerli əhali üçün ağır bir yük idi. Lakin buna baxmayaraq Cənubi Azərbaycan əhalisi onların yaşaması üçün münasib şərait yaradıb çörək və ocaqlarını onlarla böldü. Lakin cilovlar bu duzçörəyin qarşılığını ölüm, qan və güllə ilə ödədilər [bax: 5, 4-5].

1917-ci il oktyabr çevrilişinə və Rusiyanın Birinci dünya müharibəsindən çıxmasına qədər aysorlar bazarların yandırılması, əhalinin soyub-talanması və öldürülməsi kimi vəhşiliklərin həyata keçirilməsində ruslarla birgə birgə fəaliyyət göstərirdi. 1918-ci il martın 3-də Brest-Litovskda Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) ilə Dördlər ittifaqı (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) arasında sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə İranın bitərəflik siyasətinə riayət edilməsi və ərazi bütövlüyünün qorunması (bununla da İngiltərə və Rusiya arasında 1907-ci ildə imzalanan və İranı üç yerə parçalayan müqavilə qüvvədən düşmüş hesab olundu – G.N.) məsələsi təsdiq olundu. Bütün bunların nəticəsində Rusiya öz ordusunu tərxis etməli və İranın şimalındakı – Cənubi Azərbaycandakı hərbi qüvvələrini geri çəkməli idi. Həmçinin müqaviləyə görə Rusiya nəinki Qars, Ərdəhan və Batumun Türkiyəyə qaytarılmasını təsdiq edirdi, həm də

Rusiya ilə Türkiyə arasında imzalanmış əlavə müqaviləyə görə, rus qoşunlarının müharibə zamanı tutduğu bütün Osmanlı torpaqlarında, həmçinin Şimali İranda və Rusiya sərhədlərində yaradılmış erməni-daşnak silahlı dəstələrini tamamilə tərksilah edib buraxmağı öhdəsinə götürürdü.

Brest-Litovsk müqaviləsində İranın təxliyəsinə dair alınan qərardan məmnun olan şah, "Osmanlı Dövlətinin izhar eylədiyi hissiyat-ı dostanədən duyduğu məmnuniyəti" Osmanlı Dövləti Xarici İşlər nazirliyinə göndərdiyi teleqramında bildirmişdir [3, 484/1896]. Lakin Rusiya qoşunlarının Şimali İrandan, yəni Cənubi Azərbaycandan geri çəkilməyə başlaması 1917-ci il oktyabr çevrilişi nəticəsində ölkədə başlanan vətəndaş müharibəsi və siyasi qarışıqlıq dövrünə təsadüf edirdi. Bu zaman həmçinin Qacarlar İranı hökumətinin də asayiş orqanlarının zəif olması rus qoşunlarının yerləşdiyi Güney Azərbaycanın müxtəlif şəhər, qəsəbə və kəndlərində qarışıqlığa, asayişin pozulmasına səbəb olurdu. Belə vəziyyətdə düzəni və birliyi pozulan, hətta adi iaşəsini belə təmin edə bilməyən rus əsgərləri soyğunçuluğa başlamışdır. Rusiyada hakimiyyətin devrilməsi ilə birliyi pozulan rus hərbçiləri geri çəkilərkən Cənubi Azərbaycanda keçdikləri bölgələri qarət edərək evləri yandırır əhaliyə ciddi zərər vururdular.

1917-ci il dekabrın əvvəlindən başlayaraq 1918-ci ilin ortasına qədər Sənə və Həmədanda olan istixbarat zabiti Sadıq Əfəndinin müşahidələrinə və kəşfiyyatına əsaslanaraq hazırladığı və Mosul vasitəsi ilə 11 yanvar 1918-ci il tarixində Birinci Şöbə Müdürlüyünə göndərilən raporta görə "Rus qoşunları 12 dekabr 1917-ci il tarixindən etibarən bölgədən çəkilməyə başlamış, 26 dekabr 1917-ci il tarixinə qədər heç bir nəfər qalmamışdır" [3, 3663/129-276].

Rus qoşunlarının İrandan geri çəkilməsi Rusiya işğalı altında olan Cənubi Azərbaycanın müxtəlif bölgələrində rus, ingilis, erməni və aysor təhlükəsini daha da artırdı. Təəssüf ki, Cənubi Azərbaycan bölgəsində baş verən qanlı hadisələr iri dövlətlərin dəstəyi ilə həyata keçirilirdi. Belə ki, rus qoşunlarının Cənubi Azərbaycandan təxliyə edilməsi ilə eyni zamanda müttəfiq dövlətlər (İngiltərə, Fransa və ABŞ) erməni, aysor və Cənubi Azərbaycanda qalan rus qüvvələrdən ibarət xristian ordusu yaradaraq azərbaycanlılara qarşı xaç yürüşü həyata keçirdilər.

Cənubi Azərbaycanda ermənilərin törətdikləri soyqırımlar haqqında İrəvan vilayəti müsəlmanları tərəfindən 9-cu ordu komandanlığına göndərilən 20 aprel 1918-ci il tarixli məktubda da məlumat verilmişdir (3, 80/43).

Təəssüf ki, Cənubi Azərbaycan bölgəsində baş verən qanlı hadisələr iri dövlətlərin dəstəyi ilə həyata keçirilirdi. Brest-Litovsk müqaviləsinin şərtlərinə əsasən Rusiya qoşunlarının Şimali İrandan, yəni Cənubi Azərbaycandan geri çəkilməyə başladı. Onlar keçdikləri bölgələri qarət edərək evləri yandırır əhaliyə ciddi zərər vururdular. Belə ki, rus qoşunlarının Cənubi Azərbaycandan təxliyə edilməsi ilə eyni zamanda müttəfiq dövlətlər (İngiltərə, Fransa və ABŞ) erməni, aysor və Cənubi Azərbaycanda qalan rus qüvvələrdən ibarət xristian ordusu yaradaraq azərbaycanlılara qarşı xaç yürüşü həyata keçirdilər.

Urmiya bölgəsində erməni və aysorları təşkilatlandırma məsələsində ABŞ və Böyük Britaniya konsulluqları birgə fəaliyyətə başlamış, xüsusi hərbiçilərdən ibarət dəstələr yaratmışdır. İranın Osmanlı dövlətindəki səfiri İhtişam Üs Səltənənin ifadəsinə görə [3, 1848/99] ingilislər İrandakı rus qoşunlarının komandanı general Baratovdan rus qoşunlarının daha öncə işğal etdiyi ərazinin ingilislər tərəfindən işğal olunmasına qədər rus qoşunlarının İrandan çəkilməsi üçün yardım etməsini istəmişdir. Baratov Rusiyadakı çevrilişdən sonra Urmiyada qalaraq zabit və əsgərlərin hərbi təchizatı ilə məşğul olmuş və bolşeviklərdən qorxduğu üçün öz məyyəti ilə birlikdə ingilis hərbi hissəsində xidmət etmişdir. Baratovun məyyətindəki zabitlər erməni ve aysorların təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Təbriz baş konsulluğunun Xoydan verdiyi xəbərə görə ingilislər artıq Təbrizə və Şərəfxanaya gəlmiş, ermənilər isə Urmiyada təşkilatlanmaq məqsədilə Cəlali tayfasından pul istəmişlər [3, 1-1/151].

Urmiyadan Qara dənizə qədər silahlanan ermənilər isə öz məkrli niyyətlərinə çatmaq üçün rusların xristian təəssübkeşliyi ilə Cənubi Azərbaycan ərazisində yerləşdirilən aysorlardan istifadə edirdilər. Hətta, Anadolu bölgəsindən geri çəkilən rus qoşunlarının tərkibində olan ermənilər də Urmiya bölgəsinə gələrək buradakı erməni və aysorlarla birləşmişdi. Onlar rus ordusuna məxsus silahları ələ keçirərək Urmiya, Səlmas, Xoy və Cənubi Azərbaycanın digər bölgələrində yerli əhaliyə hücum edərək onları məhv etməyə başladılar [3, 1-16/8].

Rus qoşunlarının İranı təxliyə etməsi uzun zaman həm Osmanlı həm də İran torpaqlarında müstəqil dövlət qurmaq məqsədi güdən erməni və aysorların xəyallarının boşa çıxmasına səbəb oldu. 1918-ci ilin əvvəlindən başlayaraq erməni və aysor silahlı birləşmələrinin Cənubi Azərbaycanda türk-müsəlman əhaliyə qarşı görünməmiş vəhşiliklə həyata keçirdikləri qətliamlar intensivləşdi. "1917-1918-ci illərdə Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı" (ATASE-nin sənədləri əsasında) kitabında ilk kütləvi qətliamların 1918-ci il fevralın əvvəllərində Urmiya şəhərində birləşmiş xristian ordusu tərəfindən azərbaycanlıların məhv edilməsi ilə başlandığı qeyd olunur. 22 fevral cümə günü Urmiya əhalisinin 3 günlük fasiləsiz olaraq qırğını başlandı. Qırğının 1-ci günü Urmiya şəhərinin Əsgərxan məhəlləsi məhv edildi. Xristian ordusu azərbaycanlıların evlərinə hücum edirdilər. Dövrün mənbələrinə əsaslanan Dilməqani bu hadisəni belə təsvir edir: "Belə bir sürətli və vəhşicəsinə hücumu gözləməyən müsəlmanlar gözlənilmədən yaxalandılar. Onlar evə hücum etdikdən sonra ev sahibini öldürür, evin əşyalarını qarət edir, sonra yandırırdılar"...Urmiyanın Novgeçər, Yurtşah və Şəhərin cənub hissəsindəki məhəllələrində yaşayan müsəlmanlarının böyük bir qrupu məhv edildi. Toplarla yandırılan şəhər tamamilə dəyişdi, insanların nalə səslərindən qulaq tutulurdu... [bax: 5, 117-118].

1918-ci ilin fevral-mart aylarında erməni-aysor birləşmələrindən təşkil olunmuş xristian ordusu Sovuçbulaq bölgəsində geri çəkilən rus qoşunlarının silahlarını ələ keçirdilər [3, 4334/573A]. Silahlanmış dəstələr əsasən Urmiya və Dilman bölgəsində toplanmağa başladılar. Dövrün sənədlərində hətta ingilislərin Alaçatı ətrafında gizli yollardan qatır satın aldıqları və 5000-ə qədər erməni mühacirini Dilman ətrafındakı kəndlərə yerləşdirməsi haqqında da məlumat verilir [3, 1-3/18; 1-1/151]. Rusiya və Amerika Birləşmiş Ştatları kimi iri dövlətlərin himayəsinə arxalanan erməni-aysor hərbi birləşmələri Urmiya şəhəri ətrafında hərbi mövqe tutaraq, yerli əhalini soyub-talayır, gündüz barışığa vəd versələr də, gecələr şəhərin ayrı-ayrı məhəllələrini yandırıb, viran qoyurdular.

Hətta Van bölgəsindən, Osmanlı hərbi hissələrinin önündən geri çəkilən erməni və aysorlar da Urmiya gölü ətrafında birləşərək yerli türk-müsəlman əhaliyə və Osmanlı qüvvələrinə qarşı vuruşmaq üçün hazırlığa başlamışlar. Bu vəziyyətin qarşısını almaq məqsədilə Osmanlı qüvvələri həm Van bölgəsindən Urmiyaya doğru, həm də Ərbil və Rəvandiz bölgəsindən Cənubi Azərbaycan və Cənubi Qafqaza doğru hərəkətə başlamışdı.

Həmin dəhşətli hadisələr zamanı yüzlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətliam edilmişdir. Soyqırımın baş verdiyi dövrdə yaşayan Əhməd Kəsrəvi həmin hadisələrdə 130 mindən artıq insanın erməni və aysorlardan ibarət xristian qoşunu tərəfindən qətlə yetirildiyini yazır [10, 919].

Erməni və aysorların Urmiya bölgəsində Azərbaycan türklərini qətl etməsi Osmanlı dövlətinin VI və III ordusuna məxsus hərbi hissələrinin Urmiyaya doğru qərb istiqamətindən hərəkətə başlamasına səbəb oldu. Osmanlı Dövləti Urmiya bölgəsində günbə-gün artan erməni və aysorların qanlı fəaliyyətlərini yaxından izləmiş və bu hadisələrin qarşısını almaq üçün görüləcək bütün tədbirləri əsasən VI ordu komandanı Xəlil paşaya həvalə etmişdir.

Xəlil paşanın mərkəzə göndərdiyi teleqramında "xristian ordusunun Urmiya ətrafına toplanmağa başladıqları, Təbriz üzərindən isə cənub-şərqə - ingilislərin mövqeyinə doğru çəkilməsi xəbəri alınmışdır. Buna görə də Urmiya ətrafında olan ermənilərin qüvvələrini zəiflətmək, IV Nizami odunu yenidən Xoya qədər aparmaq üçün bizim də Təbriz istiqamətində hərəkət edərək Xoy -Təbriz yolunu ələ keçirməyimizin münasib olacağı" bildirilirdi [3, 3632/136].

Xəlil paşanın 22 yanvar 1918-ci il tarixində İkinci Ordu komandanlığına göndərdiyi şifrələnmiş teleqramında [3, 3632/136] Sakkız və Sovuçbulağın rus qoşunları tərəfindən boşaldılmasına dair xəbərlər, bölgədəki erməni və aysorların fəaliyyətinə dair məlumatlar vermişdir. Sənəddə qeyd olunur ki, "15 dekabr 1917-ci il tarixində İttifaq dövlətləri ilə Rusiya arasında imzalanan sülhün maddəsinə uyğun olaraq ərzaq tədarük edən Şəmdinan ətrafında yerləşən kəndlərimiz ruslar tərəfindən xoş rəftar görsə də, erməni və aysorlar tərəfindən məhv edilmişdir. Canlarını qurtara bilənlərin ifadələrinə görə Urmiyanın cənub tərəfində iki minə qədər erməni və aysor vardır."

Xəlil paşanın Osmanlı Baş komandanlığına göndərdiyi 5 fevral 1918-ci il tarixli şifrəli teleqramında [3, 3632/136] "Urmiya yaxınlığındakı erməni və aysorların qüvvələrini darmadağın etmək və şəhərin ələ keçirilməsi üçün görüləcək tədbirlərdə ehtiyatlı olmağa, Urmiyaya olunacaq hücumun bir müddət təxirə salınmasını, buraya daha güclü bir partizan dəstəsi ilə girməyin vacib olduğunu və Van bölgəsindəki III ordunun da köməyə göndərilməsini" rica etmişdi. Bu teleqramın mət-

nindən Urmiya bölgəsində mövcud olan erməni-aysor birləşmələrinin nə qədər təhlükəli olduğunu izləmək mümkündür.

Sənədlərin təhlili göstərir ki, 1918-1920-ci illərdə ermənilərin Şərqi Anadolu, Azərbaycanın müxtəlif bölgələri və Cənubi Azərbaycanda türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırımı cinayətləri Böyük güc mərkəzlərinin Azərbaycan, İran və Şərqi Anadolu torpaqlarında erməni dövləti yaratmaq üçün əsrlər boyu düşünülmüş və planlı şəkildə həyata keçirdiyi məkrli siyasətinin qanlı nəticələrindən biridir.

Erməni millətçiləri insanlığa qarşı törətdikləri bu dəhşətli soyqırımı cinayətlərini ört-basdır etmək üçün sonralar yalançı "erməni soyqırımı" mifini uydurdular və ermənilər dünyanın "əzabkeş xalqı" kimi qələmə verdilər

İstifadə olunmuş ədəbiyyat:

1. АВПРИ, ф.СРА, оп.100/1,
2. АКАК, т.VII, Тифлис, 1878,
3. ATASE, İSH
4. BOA, HR. SYS
5. Dilməqani T. Çüney Azərbaycan Birinci dünya müharibəsi illərində. (Tərcümə edən və korrektor C.Mirzəyeva). AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı, 2011.
6. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009.
7. 1918-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları (BOA-nın sənədləri əsasında).
8. Глинка С. Описание переселения армян адербиджанских в переделы России. Москва, 1831.
9. Полное собрание законов Российской империи, (ПСЗРИ) Собр. второе, т.III. 1828, СПб., 1830.
10. سید احمد کسروي «ساله آذربایجان 18تاریخ» چاپ 5، تهران ، نشر امیرکبیر ، 1350، ص 919. s.763 (Seyid Əhməd Kəsrəvi."Tarix-e 18 sale Azərbaycan" çap 5, nəşr-e Əmir Kəbir, Tehran 1350, s.919).
11. Ermeniler tarafından yapılan katliam belgeleri. (1914-1919) c.I, Ankara, 2001.
12. Ermeniler tarafından yapılan katliam belgeleri. (1919-1921) c.II, Ankara, 2001.
13. Politisches Archiv des Auswärtigen Amts. R.11050, N: A 27038.
14. Politisches Archiv des Auswärtigen Amts. R.11046, N: A 22549.

Guntekin Najafli

GENOCIDE COMMITTED BY ARMENIANS AGAINST THE TURKISH-MUSLIM POPULATION OF AZERBAIJAN, IRAN AND EASTERN ANATOLIA IN 1918-1920 IN THE NEW ARCHIVAL DOCUMENTS

Summary

The article deals with archival documents proving genocide committed in 1918-1920 by Armenians against the Turkish-Muslim population in Azerbaijan, Iran and Eastern Anatolia. It is about a new. These valuable documents are being preserved today in Istanbul, Republic of Turkey in "Bashbakanlig Ottoman Archive" (BOA) and "Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Arşivi in the city of Ankara. In addition, this kind of information can be observed among the documents which are preserved in "Politischen Archiv den Auswätrigen Amt" (Political Archive of the Ministry of Foreign Affairs) in Berlin, Federative Republic of Germany. Actual materials gained from the archive prove that as a result of the genocide carried out by the Armenians in 1918-1920 in Azerbaijan, Iran and Eastern Anatolia the tens of thousands of civilians, unarmed Turkish-Muslim population, including children, women, the elderly people were killed mercilessly, with unprecedented cruelty for their ethnic identity.

Гюнтекин Наджафли

ГЕНОЦИД ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА, ИРАНА И ВОСТОЧНОЙ АНАТОЛИИ, СОВЕРШЕННЫЙ АРМЯНАМИ В 1918-1920 ГОДАХ, В НОВЫХ АРХИВНЫХ ДОКУМЕНТАХ

Резюме

В статье рассказывается о новых архивных документах, доказывающих осуществление армянами в 1918-1920 годах акций геноцида тюрко-мусульманского населения Азербайджана, Ирана и Восточной Анатолии. Эти ценные документы хранятся ныне в архивах Турецкой Республики - Başbakanlıq Osmanlı Arşivi (BOA) в городе Стамбуле и Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Arşivi, расположенном в городе Анкаре. Кроме того, соответствующие сведения можно обнаружить и в Politischen Archiv den Auswätrigen Amt - располагающемся в Берлине Политическом архиве Министерства иностранных дел Федеративной Республики Германия.

Фактический материал, содержащийся в документах вышеуказанных архивов, подтверждает, что в результате учиненного армянами в 1918-1920 годах геноцида были самыми жестокими, бесчеловечными, невиданными в истории методами уничтожены десятки тысяч представителей мирного тюрко-мусульманского населения, включая детей, женщин, стариков.

Vasif Qafarov
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun aparıcı elmi işçisi,
Tarix üzrə fəlsəfə doktoru

1918-Cİ İLDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANDA TÖRƏTDİYİ SOYQIRIM CİNAYƏTLƏRİ FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSİYASININ SƏNƏDLƏRİNDƏ

Açar sözlər: Mart soyqırımı, Türk-müsəlman soyqırımı, Daşnak-bolşevik alyansı, Azərbaycan milli hərəkatı, Şaumyan.

Ключевые слова: Мартовский геноцид, Мусульмано-тюркский геноцид, Дашнако-большевистский альянс, Национальное движение Азербайджана, Шаумьян.

Key words: March genocide, Turkish-Muslim genocide, Dashnak – bolsevik alliance , The Azerbaijan National Movement , Shaumyan.

Rusiyada 300 ildən artıq hökmranlıq edən və Rusiyanı "xalqlar həbsxanası"na çevirən Romanovlar sülaləsinin 1917-ci ilin fevralında süqutundan sonra əsarətdə olan xalqlardan biri kimi Azərbaycan xalqı da müstəqillik uğrunda açıq mübarizəyə başladı. Bununla bağlı həmin günlərdə Məhəmməd Əmin Rəsulzadə yazırdı: "...1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə də muxtariyyət verəcəkdir"[30, s. 26]. Lakin Fevral inqilabından çox şey gözləyənlərin ümidini Oktyabr çevrilişi puça çıxartdı. Oktyabr çevrilişinin gətirdiyi yeni qaydalar əyalətlərdə özünə yer etmək üçün ağlasığmaz cinayətlərə əl atdı. Bu hiylə və məkrlər öz təcəssümünü çox vaxt qanlı hadisələrdə tapdı. 1918-ci ilin martında Bakıda minlərlə günahsız soydaşımızın qəddarlıqla məhvinə səbəb olmuş qırğın da bu qanlı hadisələrdən biri və ən böyüyü idi.

Oktyabr çevrilişindən sonrakı ilk günlərdə bolşeviklər hiylə yolu ilə Bakı Sovetini şəhərdə ali hakimiyyət orqanı elan edib burada əsas vəzifələri ələ keçirsələr də, Azərbaycanın digər bölgələrində və bütövlükdə Cənubi Qafqazda hakimiyyətə yiyələnə bilmədilər. Bununla da, Sovet Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq çarizmin öz əsarəti altında saxladığı Cənubi Qafqaz regionunu itirmək təhlükəsi qarşısında qaldı.

Birinci Dünya müharibəsi və bolşevik istilası nəticəsində iqtisadi cəhətdən tənəzzülə uğrayan Rusiyanı yalnız Bakı nefti xilas edə bilərdi. Həmçinin, bolşeviklərin hakimiyyəti ələ almaları ilə başlayan daxili müharibədə yanacaq "qırmızılar" üçün həyati əhəmiyyətli bir maddə halına gəlmişdi. Ona görə də bolşeviklər, nəyin bahasına olursa olsun, Bakı neftini öz əllərində saxlamaq istəyirdilər. Bu məqsədlə bolşevik hakimiyyəti qurulan kimi sovet liderləri neft Bakısını və bütövlükdə Cənubi Qafqazı öz nəzarətində saxlamaq üçün bir sıra tədbirlərə əl atdılar. 1917-ci il dekabrın 16-da (29-da) Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Xalq Komissarları Sovetinin Vladimir İliç Leninin sədrliyi ilə keçirilmiş iclasında Qafqaz haqqında İ.Stalinin məruzəsi dinlənildikdən sonra Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin sədri Stepan Şaumyan Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edildi və Bakı Sovetinə 500 min rubl pul buraxılması haqqında qərar qəbul edildi [32, s. 119-121]. Bunun ardınca, 29 dekabr 1917-ci il (11 yanvar 1918-ci il) tarixində V.İ.Lenin və İ.Stalinin imzaları ilə Xalq Komissarları Sovetinin "Türkiyə Ermənistanı" haqqında 13 nömrəli dekreti elan edildi ki, bunun da icrası S.Şaumyana tapşırıldı. "Məşhur" Andranik tərəfindən son yüz ilin Rusiya tarixində "Böyük Ermənistan"ın bərpasına rəvac verən ilk rəsmi sənəd kimi dəyərləndirilən bu dekretlə S.Şaumyana, Kuznetsova və başqa bolşeviklərə Qafqazda sovetləşdirmə əməliyyatını həyata keçirmək tapşırılmış, həmçinin, Türkiyədə rus ordularının işğalı altında olan torpaqlarda Ermənistan yaratmaq səlahiyyəti verilmişdi. Bu məqsədlə S.Şaumyan Tiflisə gələrək, 1918-ci il yanvarın 22-də çıxış etdi və bütün Qafqazı sovetləşdirməyə çağırdı. Zaqafqaziya Komissarlığı isə bu çıxış üçün Şaumyanı 24 saat ərzində ölkəni tərk etməyə məcbur etdi. Şaumyan və yoldaşları Tiflisdən Bakıya qaçdılar[25, s. 226]. Bununla da, Tiflisdəki gürcü menşeviklərinin və digər anti-bolşevik qüvvələrinin nüfuzu və fəaliyyəti qarşısında Cənubi Qafqazda bolşevik idarəsini qura bilməyən S.Şaumyan bütün diqqətini Bakıya yönəltdi.

Bu dövrdə Qafqaz cəbhəsinin ləğv olunması ilə cəbhədən dönən rus əsgərlərinin bir hissəsi Bakıda yerləşmişdi. S.Şaumyan ilk öncə bolşevik fikirli rus əsgərlərindən, daha sonra daşnak partiyasının köməyilə ermənilərin türk-müsəlmanlara olan düşmənçiliyindən məharətlə istifadə etdi. Rus əsgərlərinə və ermənilərə arxalanan S.Şaumyan menşevik, eser və müsavatçıların çoxluq təşkil etdikləri Bakı Soveti və bələdiyyə məclisini zorla yeniləşdirib bolşeviklərin çoxluğunu təmin etdi, həmçinin Bakı şəhərinin idarələrində çalışan azərbaycanlıları tutduqları vəzifələrdən uzaqlaşdırdı. Bununla da, Bakı şəhərini və ətrafını bolşevikləşdirdiyini zənn edən S.Şaumyan erməniləri və rus əsgərlərini, xüsusilə Xəzər hərbi dəniz donanmasının matroslarını azərbaycanlılara qarşı təhrik etməyə başladı. Bakıda özünün rəhbərliyi altında Sovet hökuməti quran S.Şaumyan Azərbaycanın milli azadlıq hərəkatına qənim kəsilmişdi və onun bu siyasəti 1918-ci ilin Mart qırğını ilə nəticələndi.

Cənubi Qafqazda milli-azadlıq hərəkatının genişləndiyi bir şəraitdə Azərbaycanın geniş xalq kütlələri Müsavat partiyası ətrafında sıx birləşərək Azərbaycana muxtariyyət verilməsi tələbini qətiyyətlə irəli sürürdülər. Lakin Azərbaycana muxtariyyət verilməsinin əleyhinə olan S.Şaumyan Azərbaycan xalqının öz müqəddəratını təyin etməsi tələbini bilərəkdən təhrif edərək, bunu "millətçilərin öz müqəddəratını təyin etməsi" kimi qələmə verirdi. Ümumiyyətlə, Cənubi Qafqazda millətlərin öz müqəddəratını təyin etmək cəhdlərinə qarşı açıq düşmənçilik mövqeyi tutan S.Şaumyan bunu inqilabi Rusiyaya qarşı xəyanət kimi qələmə verməyə çalışırdı. Cənubi Qafqaz xalqlarının gələcəkdə milli respublikalar yaratmaq cəhdlərini o, istehza ilə "üç milli satraplıq" adlandırırdı[29, s. 80].

Azərbaycanın muxtariyyəti və müstəqilliyi uğrunda mübarizə aparan Müsavat partiyası bolşevik-erməni alyansının başlıca düşməninə çevrilmişdi. 1918-ci ilin Mart qırğını da başlıca olaraq Azərbaycanın muxtariyyəti və müstəqilliyi əleyhinə yönəldilmişdi. M.Ə.Rəsulzadə də Mart qırğınının səbəbini 1917-ci ilin son rübündən başlayaraq müsəlman demokratiyasının həyata keçirməyə çalışdığı "Azərbaycan muxtariyyəti"ndə görürdü. O yazırdı ki, "siyasi proqram şəklində meydana atılmış Azərbaycan muxtariyyəti bolşeviklərin planlarına uyğun gəlmirdi"[30, s. 32].M.Ə.Rəsulzadə bolşevik orqanı olan "Bakinski raboçi"nin muxtariyyətçilərə necə cavab verdiyini belə xatırlayır: "Azərbaycan muxtariyyəti türk burjuaziyasının muxtariyyətidir. Bu muxtariyyətə nə Rusiya burjuaziyası, nə də Rusiya demokratiyası razı olur. Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazar bulurlar"[30, s. 32]. Bakıda Mart qırğınının törədilməsinin başlıca səbəbləri Azərbaycanın muxtariyyəti və müstəqilliyinin qarşısının alınması, Bakının mühüm iqtisadi və siyasi əhəmiyyəti ilə bağlı idi. Mart qırğınını törətməklə bolşevik-daşnak alyansı Bakıda Azərbaycan muxtariyyətini tələb edən müsavatçıların sosial bazasını məhv etməyə nail olmaq ümidində idilər[7].

Siyasi baxışlarında kəskin fərqlər olmasına baxmayaraq Bakıda fəaliyyət göstərən bütün rus və erməni siyasi partiya və təşkilatları müsəlmanlara qarşı vahid cəbhədə birləşdilər. "Daşnaksütyun" partiyası və Erməni Milli Şurasının Ter-Qazaryan və Y.Ter-Mikaelyandan ibarət nümayəndələri ilə Müsavat partiyası və Müsəlman Milli Şurasının Ə.M.Topçubaşov və başqalarından ibarət nümayəndələri ilə aparılan danışıqlarda daşnaklar Bakı Sovetinə qarşı mübarizədə müsavatçılara bir şərtlə kömək göstərməyə razı oldular ki, Bakıda koalisiyon müsavat-daşnak hökuməti yaradılsın. Lakin müsavatçılar bu həyasız təklifi rədd etdilər. Əslində bu danışıqlar təxribat xarakteri daşıyırdı. "Bakını Azərbaycanın paytaxtı elan etmək istəyən"[31, s. 260]müsavatçıları şəhərdən uzaqlaşdırmağı qarşısına məqsəd qoyan S.Şaumyan "Böyük Ermənistan" xülyasında olan "Daşnaksütyun" partiyası ilə prinsipsiz ittifaqa girmişdi. "Daşnaksütyun" partiyasının o dövrdəki liderlərindən biri olan O.Kaçaznuni də bolşevik-daşnak əməkdaşlığından danışaraq qeyd edirdi ki, "Bakının erməni əhalisinin təhlükəsizliyi nöqteyi-nəzərindən bolşevik diktaturası Müsavat diktaturasından daha münasib idi… Bizim köməyimizlə bolşeviklər 1918-ci ilin martında Müsavatı darmadağın etdilər, bolşeviklərin və rus elementlərinin köməyi ilə biz Bakını türk-tatar hücumlarından müdafiə edə bildik"[28, s. 21]. Beləliklə, Azərbaycanın milli istiqlal mübarizəsini aparan Müsavat partiyasının nüfuzunun günbəgün artması, xalqın bu partiya ətrafında sıx birləşməsi "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan daşnakları ciddi narahat etdiyindən, onlar ümumi düşmən hesab etdikləri Müsavata qarşı bolşeviklərlə eyni cəbhədə birləşdilər.

Daşnaklar Mart qırğınını törətməklə "Müsavat"ın sosial bazasını, şəhərin müsəlman əhalisini məhv etməyi planlaşdırmışdılar. Bu məqsədlə təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Beləliklə, "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik ordunun da 70 faizi

erməni idi. Bakı Soveti rəhbərliyi "Qırmızı qvardiya" hissələri adı ilə erməni qoşun birləşmələrini yaratmağa başladılar. Bu iş erməni siyasi və hərbi xadimlərinin nəzarəti altında icra olunurdu. Daşnak Z.Avetisyan Qırmızı qvardiyanın qərargah rəisi, Amazasp üçüncü briqadanın komandiri, polkovnik Qazarov isə korpus komandiri vəzifələrini icra edirdilər. Əsasən ruslardan ibarət olan Xəzər donanması içərisində xüsusi təbliğat işi aparılmışdı. Həmçinin, Şamaxı və Muğanda ehtiyat rus-malakan silahlı dəstələri də yaradılmışdı. Bu hadisələrin fəal iştirakçısı olan "bolşevik" N.Əsriyants sonralar öz xatirələrində yazırdı: "1918-ci ilin fevralında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdarlıq siqnalından sonra biz hücum edib "Müsavat"ın qərargahını tutmalı idik və belə də oldu"[14].

Bu cinayəti həyata keçirmək üçün bəhanə lazım idi. Bu məqsədlə "Evelina" münaqişəsi törədildi. Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuşdu, müsəlman alayının 48 nəfərdən ibarət zabit heyəti onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra zabitlər "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər tapşırıq almışlar ki, Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-malakan kəndlərini məhv etsinlər[15]. Bu təxribat xarakterli şayiə öz nəticəsini verdi. Bakıda olan bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərk-silah edilməsinə tərəfdar çıxdılar. Təcili şəkildə, martın 30-da Bakı şəhəri mədən-zavod rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitəyə S.Şaumyan, A.Caparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan, M.Yolçiyan, N.Nərimanov daxil edildi. İnqilabi Komitənin təşəbbüsü ilə "Evelina"nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah edildi. Müsəlman əhalisi məscidlərə toplanaraq silahların qaytarılmasını tələb etdi. Vəziyyətin çox ciddi xarakter aldığını görən Azərbaycanın milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gəlib, alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərdilər. Martın 30-da N.Nərimanovun evində S.Şaumyanla və həmin gün İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilməsinə, silahların qaytarılması vədi verilməsinə baxmayaraq, "Hümmət"ə o qədər də etibarı olmayan bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi. Onlar həm də N.Nərimanovun çoxluğu öz ətrafında birləşdirib "sağa meyl etməsindən" narazı idilər[12]. Beləliklə, əvvəlcədən sövdələşmə əsasında bolşevik-erməni koalisiyası, S.Şaumyanın dediyi kimi, "həlledici döyüşlərə hər cür hazırlıq görmüşdü və dərhal bütün cəbhə boyu hücuma başladı".

Martın 30-da axşam saat beşdə Bakıda ilk atəşlər açıldı. Aldatma siyasəti yeridib özlərinin bitərəfliyini elan etmiş Daşnaksutyun və Erməni Milli Şurası bu ilk atəşlərdən sonra Bakı Sovetini müdafiə etdilər. M.Ə.Rəsulzadə bu barədə yazmışdır: "Milli türk təşkilatının əzmkar müdaxiləsi ilə hadisə az bir zərərlə yatışdırılmaq üzrə ikən sayğısız bir taqım cahilin qərəzli fitnəkarlara alət olması ilə fitnə təkrar olunmuş, zatən günlərdən bəri qətllərə hazırlanmış bulunan bolşevik-erməni qüvvəyi-müsəlləhəsi hərbi bir vəziyyət alaraq şəhərin müsəlman məhəlləsini bombardman etməyə başlamışdır". Tarixə qanlı faciə kimi daxil olan mart qətlləri bu şəkildə başladı. İlk atəşlərdən sonra həmin gün şəhər silahlı dəstələrlə doldurulmuşdu. Ermənilər cənub hissədə səngərlər qazıb, torpaq və daşlardan sədlər qurmağa başlamışdılar.

Eyni zamanda, belə təhlükəli bir məqamda Bakı menşeviklərinin lideri Q.Ayollo, onların Soveti müdafiə edəcəklərini bəyan etdi. Eserlərin başçısı S.Saakyan panislamizmə qarşı vuruşacaqlarını, hətta bolşeviklərə dərin nifrət bəsləyən kadetlər də "rus işi" uğrunda mübarizə aparan bolşevikləri müdafiə edəcəklərini bildirdilər. Uzun müddət menşeviklərə qarşı mübarizə aparan bolşeviklərin menşevik və eserlərlə, hətta kadet və daşnaklarla mart günlərində birləşməsi dini və milli zəmində baş verdi[29, s. 83-84].

Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırım cinayətlərini araşdırmaq üçün Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Bakıda törədiləcək soyqırımın planı hələ 1917-ci ildə "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası tərəfindən hazırlanmışdı. Onlar dəfələrlə mü-

səlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi[17].

Lakin ermənilərin rəhbərlik etdiyi bolşevik və daşnaklardan başqa heç kim hadisələrin belə qanlı xarakter alacağını, müsavatçılara qarşı birləşmiş qüvvələrdən şəhərin bütün müsəlman əhalisini məhv etmək üçün istifadə ediləcəyini qabaqcadan gözləmirdi. Martın 30-da axşam Bakı Soveti hərbi dəstələri başçılarının təcili iclası keçirildi. Döyüşə başlamaq haqqında qərar çıxarıldı və Erməni Milli Şurasına, daşnak liderlərinə müraciət edildi ki, öz hərbi dəstələrini hərəkətə gətirsinlər. Onların fəaliyyətinə "Kazino" mehmanxanasında yerləşmiş təcili açılmış təlim qərargahından rəhbərlik etmək A.Mikoyan və N.Anançenkoya tapşırılmışdı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı. Bolşevik-daşnak birləşmələrinin müsəlman silahlı dəstələrinin toplandığı yerə qəfil hücumu qələbə ilə başa çatdı. Xəzər donanması gəmilərindən müsəlman məhəllələrinin atəşə tutulması şəhərdə vahiməli vəziyyət yaratdı. Hərbi gəmilərə göndərilmiş xüsusi təbliğatçılar buradakı heyətlərin çoxunun nə ermənilərin, nə də bolşeviklərin təsiri altında olmadığını bildikləri üçün martın 30-da onları aldadıb inandırdılar ki, guya müsəlmanlar şəhərdə rus əhalisini qırır. Bir neçə saatlıq bombardmandan sonra ras matrosları bunun təxribat olduğunu, "Müsavat"a qarşı mübarizə bəhanəsi ilə müsəlman əhalisinin qırğına verildiyini bildikdə atəşi dayandırdılar.

Xeyli malakan-rus hərbi dəstələri də eyni qaydada aldadılaraq, Muğandan Bakıya gətirilmişdi. Lakin onlar şəhərdə ayrı vəziyyət olduğunu görüb döyüşdən imtina etdilər və buna görə Bakı Soveti və erməni qoşunları tərəfindən tərksilah olundular. Malakanlardan alınan silahlar növbəyə durmuş erməni "könüllü"lərinə paylandı. Çıxılmaz vəziyyət yarandığını görən "Müsavat" liderləri əhalini xilas etmək üçün daha çox hisslərin təsiri altında hərəkət edib qırğına bəhanə verən "məhəllə qoçu dəstələri"nin əksinə olaraq, İnqilabi Müdafiə Komitəsinin ultimatumunu qəbul etdilər. Martın 31-də (köhnə stillə martın 18-də) danışıqlar aparmaq üçün müsəlman nümayəndələri Sovetin İcraiyyə Komitəsinə gəldilər, İnqilabi Müdafiə Komitəsinin ultimatumunun qəbul edilməsinə baxmayaraq, orada P.Caparidze ilə aparılan danışıqlar nəinki heç bir müsbət nəticə vermədi, hətta müsəlman heyətindən üç nəfər geri qayıdarkən yolda güllələndi[13]. Erməni-daşnak-bolşevik birləşmələri tərəfindən Bakıda türk-müsəlman əhalinin qırğını aprelin 2-dək davam etdirildi. Şəhərin Məhəmmədi və Poxludərə məhəllələrinin əhalisi demək olar ki, son nəfərinədək qılıncdan keçirildi. Erməni birləşmələri Azərbaycan əhalisinə məxsus bütün ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını dağıtdılar. "Kaspi" qəzetinin mətbəəsi, "Açıq söz" qəzeti redaksiyası, "Müsəlman Xeyriyyə Cəmiyyətinin" yerləşdiyi "İsmailiyyə" binası vəhşicəsinə yandırıldı. "Təzə Pir" məscidinin minarələri mərmilərlə dəlik-deşik edildi[20].

Martın 31-də səhərə yaxın bütün erməni hərbi dəstələrinin başçıları və silahlanmış erməni ziyalıları İnqilabi Müdafiə Komitəsinin qərargahına gəldilər. Onlar qısa vaxtda təlimatlandırılaraq müsəlman məhəllələrinə göndərildilər. Yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, körpə uşaqları süngülərin ucuna keçirirdilər[19].

Fövqəladə Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A.N.Kvasnikin ifadəsində deyilir: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə onun ətraflarında cismən məhv edilməsi, onların əmlakının və bütün var-dövlətlərinin qarət olunması və siyasi üstünlüyün ermənilərin əlinə keçməsi ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi"[6].

Azğınlaşmış və vəhşiləşmiş erməni quldurlar dinc azərbaycanlı əhalini qırmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.E.Kluge bu komissiyanın sədrinə yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər… ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər"[19]. Dinc əhalini qorxudan dəhşətə gətirib istə-

diklərinə nail olmaq üçün hər cür vəhşiliyə əl atan bolşevik-erməni cəlladları müsəlman qadınlarını daha ağır formada qətlə yetirdilər. Çoxlu gənc qadına təcavüz edilmiş və daha sonra onları diri-diri divara mıxlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini gülləbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar qoyulmuşdu[16].

Bir çox müsəlman məhəllələri məhv edildikdən sonra, martın 31-də axşamüstü İçərişəhərin alınması əməliyyatı başlandı. Bu qırğın əməliyyatında N.Anançenko başda olmaqla, Suren Şaumyan, Ovçiyan, Qalstyan, Sarkis, Qaber-Kori, Artak, Manuçarov, Akopov və başqa "qırmızı qvardiyaçılar" fəal iştirak etdilər. Fövqəladə Təhqiqat Komissiyasının materiallarında tam sübuta yetirilir ki, insanlar sırf dini və milli mənsubiyyətlərinə görə kütləvi şəkildə qətlə yetirilmişlər. Eyni zamanda, insanlar əzab və işgəncə ilə qətlə yetirilmiş, öldürüldükdən sonra isə onların meyitləri üzərində iyrənc zorakılıq aktları törədilmişdir. Müsəlman meyitlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarca sənəd mövcuddur[21].

Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.E.Kluqenin Bakı şəhərində müsəlman əhaliyə qarşı həyata keçirilmiş təcavüz haqqında iş üzrə komissiyanın sədrinə təqdim etdiyi raportunda[21] aşağıdakı faktlar göstərilir:

- Şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı. Şahidlərin ifadələrinə görə, nə səbəbləsə öldürmədikləri bu qadınları saç hörükləri ilə bir-birinə bağlamış, başı açıq, ayağı yalın əsir götürmüşdülər və yolda öldürmüşdülər (c. I, v. 51,61, 165; c. II, v. 3).

- Şəhərin "Məhəmmədli" və "Poxludərə" məhəllələrinin əhalisi demək olar ki, son nəfərinədək öldürülmüşdü, bütün evlər dağıdılmış, viran edilmişdi. Sakinlərdən bir nəfər belə qalmamışdır ki, öldürülənlərin adlarını öyrənmək mümkün olsun. Şəhərin digər qisimlərində də erməni əsgərləri gördükləri istənilən müsəlmanı qətlə yetirib, evlərinə daxil olaraq onları son nəfərinədək qırıb, sonra da evlərini qarət etmişlər. Ermənilər bu cinayətləri törədərkən qadın, qoca və uşaqlara belə fərq qoymadan müsəlman əhalisini ucdantutma qırmışlar. Məsələn, 80 yaşlı Hacı Əmir Əliyevin evinə daxil olan erməni quldurları həm onu, həm də biri 60, digəri isə 70 yaşında olan iki arvadını öldürmüş, 3 kiçik yaşlı uşağı doğramış və Hacı Əmir Əliyevin 25 yaşlı gəlinini canlı halda divara mıxlamışlar (c. II, v. 3).

- Müsəlmanlar üzərinə hücum edən erməni əsgərlərinə erməni aydınları və ziyalıları rəhbərlik ediblər. Belə dəstələrdən biri Nikolay küçəsində bir evə daxil olmuş,8 qadın və uşağı güllələmişdir. Başqa dəstə Persidskiy küçəsində Bala Əhməd Muxtarovun evinə girərək 9 müsəlmanı küçəyə çıxarmış və Sobor (Kilsə) meydanında güllələmişlər. Bu evdə doktor Tağıyev erməni əsgərlərinə bolşeviklərin hakimiyyətini tanımaq haqqında sənəd təqdim etdikdə, erməni əsgərləri ona da atəş açaraq bildirmişlər ki, onlar daşnaksütyunçudurlar və bolşevik filan tanımırlar.

Ermənilərin Bala Əhməd Muxtarovun evində yaxaladıqları şəxslərin içərisində evin sahibi polkovnik Tabasaranskiy, rotmistr Sultan bəy Əmircanov, doktor Kərim bəy Sultanov, Cavad bəy Aşurbəyov və başqaları da vardı. Sultanov və Aşurbəyovun cəsədləri "Dağıstan" otelinin yanan binasına atılmışdı (c. I, v. 45; c. II, v. 4).

- Şəhərin bir yerində Bəşir Cəfərovun başı kəsilərək kənara atılmış, əli kəsilmiş, bədənində üç süngü yarası olan meyidi aşkar edilmişdir. Bundan başqa, cinsiyyət orqanını kəsmiş və yanındakı müsəlman qadının ağzına soxmuşlar. Digər bir yerdə isə, boğazı kəsilmiş gənc bir müsəlman qadının sinəsinə xəncərlə parçalanmış bir yaşlı bir uşağı elə qoymuşlar ki, uşağın ağzı qadının döşündə olmuşdur. Müsəlman qadınların qarınlarından uşaqları çıxarılmış, döşləri, burun, qulaqları kəsilmiş, uşaqlıqlarına dəyənək soxulmuşdur. Bir yerdə sobaya atılmış böyük işgəncə ilə ölmüş uşaq vardı. Başqa bir yerdə oğlan uşağını yerə mıxlamışlar və mədəsinə paya soxmuşlar. Müsəlman qadınların çoxunun cəsədlərinə baxıldıqda, məlum olur ki, ölümlərindən əvvəl onlara təcavüz edilmişdir (c. II, v. 18; c. I, v. 12).

- Fəhlə, əsgər və matros deputatları sovetinin keçmiş üzvü, "Nikolay Bünyadov" gəmisinin yardımçısı Kazım Axundov yoldaşları ilə martın 25-də Nikolayevsk küçəsində cəsədləri toplamağa başlamış, süngü ilə deşilmiş və qılıncla doğranmış 3 müsəlman gimnaziya tələbəsinin, 11 qadın gimnaziya tələbəsinin, 1 rus qadının, 3 ədəd 3-5 yaşlarında olan müsəlman uşağın, 8 rus oğlanın, İran vətəndaşı olan 19 müsəlmanın və fərqli peşə sahiblərindən olan 67 azərbaycanlı müsəlmanın cəsədini toplamışlar.

-Avtomobillərdəki sayılmış cəsədlər məscidə aparılmışdır. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə körpüsünə 6748 müsəlman kişi, qadın və uşaq cəsədi gətirilmişdir. Cəsədlərin toplanması işi 31 marta (yeni stillə 13 aprelə) qədər davam etmişdir.

-Axundov öz tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdır. Burada, o, 3 fotoşəkil çəkmişdir. Birinci şəkil başında güllə yarası, bədənində 5 süngü yarası olan və sağ körpücük sümüyüsındırılmışbir qadın meyitinin şəklidir. Onun sağ döşü üstündə hələ sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardır.

-İkinci şəkil 2 yaşlarında olan oğlan uşağının şəklidir. Bu uşaq 7-8 verşokluq (4.4 sm) mismarla divara mismarlanmışdır. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə orada idi.

-Üçüncü şəkildə 13-14 yaşlı qızın meyididir. Durumundan və bədənindən görünür ki, onu bir neçə nəfər zorlamışdır. Açıq bacaqları altındakı döşək qana bulanmışdır, yanağında barmaq izləri vardır.

-Axundovla Sokolov 4-cü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, 2 qarının, 6 yaşlı kiçik qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri vardı. Körpənin əl və ayaqlarını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o daha fotoşəkil çəkə bilməmişdi (c. II, v. 49-52).

-Martın 19-da (yeni stillə aprelin 1-də) Bondar küçəsində 148 nömrəli evə girən erməni silahlıları evi talan etməklə bərabər orada olan 50 müsəlman qadın, kişi və uşağı əsir alaraq Birja meydanına aparıb, burada kişiləri ayıraraq onlara 12-ci Lazaretin qabağında yaylım atəşi açdılar, sonra isə sağ qalanları süngü ilə öldürməyə başladılar.

- Ermənilər tərəfindən müsəlman əhalinin eyni şəkildə əsir alınması və güllələnməsi faktları Bakının Azərbaycan-Türkiyə ordusu tərəfindən alınmasına qədər davam etmişdir. Məsələn, 1918-ci il avqust ayının sonlarında Bakı sakini Sadıq bəy Məmməd Rza bəy oğlu Bakıdan öz ailəsinin yanına, Pirşağı kəndinə getmək üçün yola çıxmışdır. Məhəmmədi kəndində onu yanındakı olan 20 nəfərlə birlikdə 17 erməni silahlısı əsir almış və Zabrat kəndinə aparmışlar. Orada onların hamısını bir qalın kəndirlə bir-birinə bağlamış və güllələmişlər. Güllələnənlər yerə yıxıldıqdan sonra onları süngü və xəncərlərlə doğramışlar. Təkcə Sadıq bəyin bədənində 1 güllə, 2 xəncər, 18 süngü və 2 qılınc yarası aşkar edilmişdir.

- Martın 20 də (yeni stillə aprelin 2-də) erməni zabiti Tatevos Əmirov 3 erməni əsgəri ilə Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binasına daxil olmuş və binanı yandırmışlar. Bakı müsəlmanlarının fəxri olan bu möhtəşəm bina həm də bütün şəhərin yaraşığı idi. Yanğın zamanı bina tamamilə yanmış, hiç kim yanğını söndürə bilməmişdir, çünki ermənilər küçədə gördükləri istənilən müsəlmanı güllələmişlər (c. II, v. 2).

- Daha sonra "Kaspi" qəzetinin binası və müsəlman otelləri olan "Dağıstan" və "İsgəndəriyyə" dağıdılmış və yandırılmışdır. "Kaspi" qəzetinin redaksiyasında olan bir çox dəyərli kitablar və yenicə ərəbcə nəşr edilmiş 500 ədəd Quran nüsxəsi də yanmışdır. "İslamiyyə", "Dağıstan", "İsgəndəriyyə" otellərində Bakıya gələn bütün müsəlmanlar qalırdı. Bu binaların yanğınları arasında çoxlu sayda yanmış müsəlmanların cəsədi aşkar edilmişdir. "Dağıstan" otelinin xarabalıqları arasında doktor Kərim bəy Sultanovun, Cavad bəy Aşurbəyovun, Abdulla bəy Bababəyovun və digərlərinin cəsədləri tapılmışdır (c. II, v. 2; c. I, v. 45).

- Müsəlmanların evlərinə girən ermənilər bütün dəyərli əşyaları müsadirə edir, geri qalanlarını isə yandırırdılar. Şəhərin aşağı qismində Sisianov küçəsindən aşağıda Hacı Zeynalabidin Tağıyevin evindən başqa bir dənə də dağılmamış müsəlman evi qalmamışdır. Bəzi səmtlərdə, məsələn, Məhəmmədli və bazarda müsəlmanların yaşadıqları bütün binalar talan edilmiş, dağıdılmış və yandırılmışdır. Ümumi olaraq, Bakının müsəlman əhalisinə köhnə hesabla 400.000.000 rubl zərər vurulmuşdur (c. II, v. 3).

- Martın 19-da bolşeviklərlə müsəlmanlar arasında sülh əldə edildikdən və martın 22-də müsəlmanların təslim olub sülh imzalamalardan sonra da ermənilər qırğın və soyğunçuluq əməllərini davam etdirdilər. Bu qırğın və talanlar Bakının Türkiyə-Azərbaycan ordusu tərəfindən azad edilməsinə qədər davam etdi (c. II, v. 51).

- Martın 20-də şənbə günü ermənilərlə barışıq əldə etmək üçün gedən sülh heyətinin üzvləri Molla Cavad Axund, Molla Hacı Mir Mövsüm, Hacı Hüseyn Tağıyev, doktor Atabekyan və İcraiyyə

Komitəsinin üzvlərindən Denejkin yolda, Zavedenski küçəsində 6 erməni əsgəri tərəfindən saxlanılaraq gülləbaran edildi. Bu heyətdən yalnız Molla Cavad Axund səngərə qədər qaçaraq öz canını xilas edə bilmişdir (c. II, v. 4).

- 1918-ci ilin mart qırğınları zamanı təkcə Bakıda 11 minə qədər müsəlman öldürülmüş, onlardan çoxunun cəsədini belə tapmaq mümkün olmamışdır, çünki ermənilər cəsədlərin çoxunu ya yanan evlərə, ya dənizə, ya da quyulara atmışlar (c. II, v. 3). Bütün bu sadalananlar şahid ifadələri, təftiş və ekspertiza protolokkarı ilə təsdiq edilmiş və çoxlu sayda yanmış ev və daha çox işgəncələrə məruz qalmış cəsədlərin fotoşəkilləri çəkilərək təhqiqat işinə əlavə edilmişdir.

- Bakının müsəlman məhəllələrini talan etmiş silahlı erməni əsgərlərinin başında duranlar aşağıdakılardır: mühəndis Artem Nikolayeviç Ter-Akopov, Fridun Antonov, Jorj Melikov, Asatur Vaçiyanç, vəkil Arutçev, Yegiş Paxlavuni, Levon Saatsazbekov, tələbə Popovyan, Ambarsum Melikov, Stepan Lalayev, praporşik Dövlətov və Xristofer Doldarov (c. I, v. 1, 5, 6; c. II, v. 2, 23, 24, 50).

-Mart qırğınları zamanı əsir götürülən müsəlmanlar "Mailov" və "Rekord" teatrlarına və Erməni Milli Şurası tərəfindən hazırlanmış xüsusi yerlərə aparılırdı. Erməni həyasızlığı o həddə çatmışdı ki, onlar hətta öz tanışları olan müsəlmanların da evlərinə girir, onları öldürür və evlərini talan edirdilər. Belə ki, martın 20-də Stepan Lalayev rəhbərlik etdiyi bir erməni dəstəsi ilə doktor Balabəy Sultanovun Vorontsov küçəsində yerləşən evinə girərək öz tapancası ilə ona atəş açaraq öldürmüşdür. Daha sonra Lalayev Sultanovun evinin həyətinə düşərək orada olan müsəlman gözətçini, onun arvadını və 2 yaşlı oğlunu öldürmüşdür (c. I, v. 62, 68).

-Suraxanı küçəsində Məşədi Əhməd Rahim oğlunun evinə girən 30-a yaxın silahlı erməni onun 34.840 rubl dəyərində qızıl, gümüş və digər qadın zinət əşyalarını talamışlar. Məşədi Əhməd canilər arasında qonşusu Hayk Yaramış oğlunu və dükançı Samvelin oğlu Yequşu tanımışdır (c. I, v. 21).

-Həmin Yequş digər erməni silahlıları ilə Suraxanı küçəsində yaşayan Ağa Hüseyn Səlim oğlu Nəcəfovun evinə girmiş, evdə olan 111.460 rubl dəyərində dəyərli əşyaları talamış, ev sahibinin atasını və qardaşını öldürmüş, özünü isə qadınlar və uşaqlarla birlikdə əsir kimi Mailov teatrına aparmışlar (c. I, v. 22).

- Aralarında praporşik Avakyan və ayaqqabı təmiri sexinin sahibi İsaak Baqdasarov da olan bir qrup erməni silahlısı Erməni kilsəsi küçəsində yaşayan Məşədi Hüseyn Səfərəliyevin evinə girmiş, evdə olan bütün pulları və 186.000 rubl dəyərində qiymətli əşyaları talamışlar. Ev sahibi Səfərəliyevi ailəsi ilə birlikdə "Rekord" teatrına aparmışlar. Ermənilərdən birisi tüfəngdən açdığı atəşlə onun qulağını yaralamışdır (c. I, v. 25).

- Həmin İsaak Baqdasarov digər silahlı ermənilərlə bərabər Tatar küçəsində yaşayan Mir Kasım İbrahim oğlunun evinə girmiş, onun 150.000 rubl dəyərində varidatını talamışlar (c. I, v. 94).

- Həsən Mikayılovun Bondar və Marinskiy küçələrinin kəsişməsindəki evinə girən erməni silahlıları onun bir qardaşı – Məlik Məmmədi öldürmüşlər, digər qardaşı – Tağını arvadı və qızı ilə bərabər Mailov teatrına aparmışlar. Yolda Tağını öldürərək onun üzərində olan 2500 rubl dəyərində nağd pulu götürmüşlər. Mikayılovun evindən 54.000 dəyərində nağd pul və qiymətli əşyalar aparılmışdır (c. I, v. 30).

- Teymur Səlimovun Serkov küçəsində olan evinə basqın edən erməni silahlıları onun evindən 150.000 rubl dəyərində nağd pul və qiymətli əşyaları talamışlar (c. I, v. 56).

- Ağa Əli İsmayılovun Bondar küçəsində yerləşən evinə girən erməni silahlı quldurları onun 7080 rubl pulunu alaraq onu öldürməməyə razı olmuş, lakin kürəyinə süngü yarası vurmuşlar. Daha sonra evdə olan 17.780 rubl dəyərində qiymətli əşyaları talayaraq Ağa Əlini ailəsi ilə birgə Mailov teatrına aparmışlar (c. I, v. 91).

- Çadra küçəsində Yaxşı Xanım Hacı Əli Mərdan qızı Manafovanın evinə girən erməni silahlıları onun oğlu Ağaverdi Manafovu güllələmiş və evdə olan 75.000 rubl dəyərində bütün varidatı aparmışlar. Yaxşı Xanım, soyğunçular arasında öz evində kirayə qalan Aleksandrı tanımışdır (c. I, v. 124).

- Mart qırğınlarının üçüncü günü Bondar küçəsində Məmməd Tağı Kərimovun evinə soxulan Levon Arutyunoviç Karahanovun rəhbərlik etdiyi erməni silahlıları evdə olan nağd pulları və 49.000 dəyərində qiymətli əşyaları talamış, Məmməd Tağını isə Mailov teatrına aparmışlar. Məmməd Tağının praporşiklər məktəbində oxuyan qardaşını axtaran erməni silahlıları səhvən Əmirqulu Həsənovun evinə girmiş, onu və iki oğlu – Məhərrəm və Hüseynbalanı öldürmüşlər (c. I, v. 124).

- Həmin gün silahlı erməni əsgərləri Tatar küçəsində yaşayan Nəsir Kərbəlayi Əzim oğlunun evinə girmiş, onun dayısı Həbibulla Molla Hacıbaba oğlunu və əmisi Hacıbaba Həbibulla oğlunu öldürərək evdən 2000 rubl nağd pul və 7662 rubl dəyərində müxtəlif qiymətli əşyaları aparmışlar. Nəsir isə qaçaraq canını qurtara bilmişdir. Canilər arasından o, Tatar və Karantin küçələrinin kəsişməsindəki bakkal dükanının sahibi Yequş Samvel oğlunu tanımışdır (c. I, v. 125).

-Martın 20-də erməni silahlıları Serkov küçəsində yaşayan Məşədi Məmməd Sadıq Talıbovu əsir aldıqları gün, onun kirayənişini Levon Varşamyan, vəkil Varşamyanın qardaşı, Talıbovun 5.000.000 rubl dəyərində qiymətli əşyalarını, 30 funt ağırlığında sadəcə qızılını talamışlar (c. I, s. 162).

- Martın 20-də Çadra küçəsində yaşayan İsmayıl bəy Şeyda bəy oğlunun evinə girən 20-25 nəfər erməni əsgəri evdə axtarış aparıb 5200 rubl pul götürdülər. Daha sonra İsmayıl bəyi, qardaşı Kazım bəyi, dayısı Abdülxalıq bəy Məmmədbəyovu və sonuncunun oğlu İlyas bəyi küçəyə çıxartdılar və burada 70 nəfərlik bir erməni dəstəsi tərəfindən mühasirəyə aldılar və güllələməyə başladılar.

Kazım bəy, Abdülxalıq bəy və İlyas bəy öldürüldü. Çiynindən güllə yarası alan İsmayıl bəy isə qaçmağı bacardı. İsmayıl bəy, ona atəş açanlar arasında I oğlan leseyinin tələbəsi Paronyanı tanımışdır (c. I, v. 164).

- Bir neçə erməni silahlı əsgəri N.Priyutski küçəsində yaşayan Əli Eldaş Əliyevin evinə soxularaq onu 4 qardaşı ilə birlikdə öldürmüş və evi qarət etmişlər. Bunun ardınca kirayənişin Aliyev – Yankel Samuiloviç Slavinskinin də əşyalarını götürmüşlər. Slavinski bu soyğunçulardan birini – Xaçatur Martirosovu tanımışdır (c. II, v. 45).

- Məşədi Məmməd Sadıq Həsənovun evi ermənilər tərəfindən talan edildiyi zaman canilərin başında Sergey Mekikov olmuşdur (c. II, v. 45), [21].

Bu cür faktları istənilən qədər sadalamaq olar. Fövqəladə Təhqiqat Komissiyasının 36 cild, 3500 səhifədən ibarət təhqiqat materialları arasından götürülmüş bu faktlar erməni caniləri tərəfindən təkcə Bakıda Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırım cinayətlərini özündə ehtiva edən sənədlərdən sadəcə bir neçəsidir. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Kluqenin ermənilərin Bakıda törətdikləri soyqırım cinayətləri ilə bağlı komissiyanın sədrinə ünvanladığı raportda təhqiqat materialları əsasında Bakıda türk-müsəlmanları soyqırım və qarətə məruz qoyan erməni silahlı dəstələrinə rəhbərlik edənlərin adlarını da ortaya qoymuşdur. Bunlar aşağıdakılardır: Stepan Lalayev, Artemiy Nikolayeviç Ter-Akopov, Fridun Antonov, Jorj Melikov, İşxan Karabeyov, onun qaynı Nikolay, Tiqran Ter-Zaharyan, Asatur Vaçiyanç, Totevos Amirov, Yequş Samvel oğlu, Hayk Yeramış oğlu, İsaak Baqdasarov, zabit Sergeyev, Aleksandr Ter-Kazarov, Levon Ter-Kazarov, Arşak Avetisov, Aleksandr, Levon Arutyunoviç Karahanyan, Sergey Melikov, Levon Varşamyan, tələbə Paronyan, Ambarçum Melikov, praporşik Dövlətov, Xristofer Doldarov, tələbə Popovyan, Xaçatur Martisorov, praporşik Avakyan, Yegiş Pahlavuni, Levon Saatsazbekov və b.[22].

A.Kluqenin komissiyanın sədrinə ünvanladığı raportda o daxüsusi olaraq qeyd olunur ki, 1918-ci ilin Mart qırğınları hələ 1917-ci ilin sonlarından "Daşnaksütyun" və Erməni Milli Şurası tərəfindən planlaşdırılmışdı və sistemli şəkildə həyata keçirilmişdi. Məqsəd Bakıdan başlayaraq digər bölgələrdə də türk-müsəlman əhalini məhv etmək, onların mülkiyyətini ələ keçirmək və son nəticədə bölgənin sahibinə çevrilmək idi.

Beləliklə, üç gün – (18-21 mart (30 mart – 2 aprel) 1918-ci il) – davam edən Mart qırğınında, Fövqəladə Təhqiqat Komissiyasının ümumiləşdirdiyi hesabatına görə, Bakıda "əksinqilabçı" adı ilə, milli və dini əlamətlərə görə 11 minə qədər azərbaycanlı məhv edildi, kütləvi formada insan cəsədləri iyrənc və dəhşətli şəkildə təhqir edildi[16; 21; 12; 13; 27, s. 295; 26, s. 67; 29, s. 84].Lakin, həmin dövrdə Britaniyanın Bakıdakı konsulluğunun tərtib etdiyi materiallarda 20 min müsəlmanın qətlə yetirildiyi bildirilir. Həmin dövrdə İranın Bakıda konsulu olan Həbibulla xan çap etdirdiyi xatirələrində göstərir ki, yalnız İran konsulluğu mart hadisələri baş verəndə qətlə yetirilən 5000 nəfər müsəlmanı dəfn edib[24, s. 25]. Əlbəttə ki, rəqəmlərdə uyğunsuzluq insanların kütləvi şəkildə qətlə yetirilməsi və onların dəqiq sayının müəyyənləşdirilməsinin mümkünsüz olduğundan xəbər verir. Britaniyalı konsul sənədlərdən birində yazır ki, "ermənilər bu hərəkətləri ilə tarixlərinin ən böyük səhvini etmiş oldular... Bu siyasətə görə bütün məsuliyyəti "Daşnaksütyun" daşıyır"[24, s. 28].

İnsanların əzabla qətlə yetirilməsi, öldürülən insanların üzərində təhqiramiz hərəkətlərin həyata keçirilməsi hadisələrin milli-etnik zəmində baş verdiyinə dəlalət edir. Bəzən erməni silahlı dəstələri

bolşevik müsəlmanları da qətlə yetirirdilər. Onlar "Biz bolşevik tanımırıq. Müsəlman olmağın bizim üçün yetərlidir" deyirdilər. Bu hadisələr başda bolşevik cildinə girmiş daşnak Şaumyan olmaqla, Bakı Soveti tərəfindən planlı şəkildə törədilib, faktların saxtalaşdırılması da Şaumyandan başlayıb. O, mərkəzi bolşevik hakimiyyətinə 3000 adamın öldüyünü bildirmişdi. 1919-cu ilin payızında Bakıya gəlmiş ABŞ missiyasının başçısı general Harborda təqdim etdiyi sənəddə Bakıdakı erməni yepiskopu Baqrat ermənilərin mart hadisələrində iştirakını danıb gizlədir, saxtakarlıqda Şaumyandan da irəli gedərək, Bakıda mart hadisələri vaxtı cəmi 1000 nəfərin – 300 nəfər erməni və rus, 700 nəfər müsəlmanın öldürüldüyünü həyasızcasına iddia edirdi[18].

S.Şaumyan 1918-ci il aprelin 13-də Xalq Komissarları Sovetinə yazdığı məktubda hadisələri vətəndaş müharibəsi kimi qələmə verməyə çalışsa da, milli qırğın faktını gizlədə bilmir. O yazır: "Həm yerli Sovetin, həm də buraya gəlmiş (Tiflisdən və Sarıqamışdan) Qafqaz ordusu hərbi-inqilab komitəsinin səyləri sayəsində bizim 6 min nəfərə yaxın silahlı qüvvəmiz var idi. "Daşnaksütyun"un da 3-4 min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdir. Lakin buna yol verməmək mümkün deyildi. Biz buna bilərəkdən yol verirdik. Əgər onlar (müsavatçılar – V.Q.) qalib gəlsəydi, Bakı Azərbaycanın paytaxtı elan edilər və bütün qeyri-müsəlman ünsürlər tərksilah və məhv edilərdi"[31, s. 260]. Göründüyü kimi, S.Şaumyan nəinki Azərbaycana muxtariyyət verilməsi, heç Bakının Azərbaycanın paytaxtı olması fikri ilə də razılaşa bilmirdi.

Aprelin 2-də Caparidze Şaumyana yazırdı ki, Daşkənddən və Şimaldan bizə kömək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara muxtariyyət vəd etmək olar. Üç gündən artıq davam edən faciəli hadisələrə inqilabi don geyindirmək üçün M.Əzizbəyov şəhərin onsuz da boş qalmış müsəlman hissəsinə komissar təyin edildi. Mart qırğınlarından sonra İ.Suxartsev Bakı Sovetinin iclasında sevinc içərisində bildirirdi ki, "Müsavat firqəsi darmadağın edildi və Türkiyənin Bakı cəbhəsi alındı"[29, s. 85].

M.Ə.Rəsulzadə 1918-ci ilin Mart faciəsini sırf siyasi-milli amil kimi səciyyələndirərək, bir il sonra bu hadisənin ildönümü ilə bağlı yazırdı: "Şaumyanların Bakıda törətdikləri hadisələr Petroqrad və Moskva hərəkətlərinə qətiyyən bənzəmirdi. Orada sinfi bir hərb, burada isə sinfi hərb adı ilə milli qətl icra edilirdi. Daşnaklar intiqam alırdılar. Martın 18-dən 20-nə qədər Bakı türk demokratiyasının qafasında partlayan toplar, müsəlmanlara edilən ədalətsizlik Azərbaycan fikrini daşıyanları, muxtariyyət və istiqlal əqidəsi ilə yaşayanları məhv etmək üçün idi"[29, s. 85].

Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırım aktı təkcə Bakı ilə məhdudlaşmadı. Aprel ayından başlayaraq Bakı Sovetinin bolşevik-daşnak qoşunları T.Əmirov, S.Lalayan, Amazasp və başqa canilərin rəhbərliyi ilə Şamaxı, Salyan, Kürdəmir, Quba, Lənkəran və digər bölgələrdə də Bakıda başladıqları soyqırım əməlini davam etdirdilər. Bütövlükdə qəzalarla birlikdə 1918-ci il soyqırımı qurbanlarının sayı 50 min nəfərdən çoxdur[21; 8; 9; 10; 2; 1; 5; 4; 3].

Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında Fövqəladə Təhqiqat Komissiyasının 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı. Burada S.Lalayevin başçılıq etdiyi əsgərlər və T.Əmirovun dəstəsi azğınlaşaraq müsəlmanları soyub-talayır və qırırdılar. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu. 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq – Cümə məscidi yandırılmışdı. Erməni quldurlar minlərlə dinc adamı qətlə yetirmişdi.

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatları əsasında 53 kənd üzrə tərtib olunmuş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə öldürülənlərin sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu aktlarda olan rəqəmlərə əsasən Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirmişlər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339.5 milyon manat, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur[8; 9; 10].Şamaxı şəhərində 10 min türk-müsəlman öldürülmüş, şəhər tamamilə dağıdılmışdır.Şamaxı qəzasının 110 müsəlman kəndinə hücum edən ermənilər bu kəndlərdən 105-ni tamamilə yandırmış, 12295 nəfər türk-müsəlmanı soyqırıma məruz qoymuş və müsəlman əhalisinə 631.208.132 rubl məbləğində maddi ziyan vurmuşlar. Bütövlükdə Şamaxı qəzasında 22295 nəfər öldürülmüş və meyidlər üzərində təhqiramiz hərəkətlər

edilmişdir. Şamaxı qəzasının müsəlman əhalisinə vurulmuş maddi ziyanın məbləği 1.631.208.132 (1 milyard 631milyon 208 min 132) rubl təşkil edir. Bütün bunlar Fövqəladə Təhqiqat Komissiyasının təhqiqat və istintaq materialları ilə tam sübuta yetirilmişdir.

Fövqəladə Təhqiqat Komissiyasının materiallarından məlum olur ki,1918-ci il mayın 1-də Qubaya girən daşnak-bolşevik birləşmələrinin sayı 5 min nəfərdən çox olmuşdur. Onlar silahsız dinc əhaliyə azğınlıqla divan tutmuşlar. Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox türk və tat əhalisi öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir[2]. Hazırda Qubada aşkar edilən kütləvi insan məzarlığı buna sübütdur.

Lənkəranda olan "Dikaya diviziya"nı tərksilah etmək üçün dəniz vasitəsilə erməni-bolşevik dəstələri göndərilmişdi. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə edilirdi. Erməni-bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar.Astara erməni-bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu.

1918-ci ilin yayında Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdılar və minlərlə günahsız insanın həyatına son qoydular. 1918-ci ilin yanvarından 1919-cu ilin avqustunda "Molokan qiyamı"yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu[1].

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Andranik Erməni hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edirdi ki, ya Ermənistan hökumətinə tabe olsunlar ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu ərazi Ermənistan Respublikasına daxildir. Qəzanın çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdiyinə görə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdilər. Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları bu sənədlərdə sadalanır.Dağıdılan bu 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir[5]. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşiliklər haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərini qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə –yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın bir neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar. Əhali İran, Osmanlı və Azərbaycana pənah gətirmişlər[4].

1918-ci ildəİrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun çevrəsində 88 kənd dağılmış, 1920 ev yandırılmış, 132 min azərbyacanlı məhv edilmişdir.Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir[3].

Bu soyqırım aktları Cənubi Azərbaycanın Urmiya, Maku, Xoy və digər bölgələrində də törədilmişdir. Amma bu soyqırım qurbanlarının sayı hələ dəqiq müəyyənləşdirilməmişdir.

Azərbaycan xalqının milli istiqlal mübarizəsi tarixində ən böyük sınaq olan 1918-ci ilin Mart hadisələri faciə ilə nəticələnsə də, bu faciə Azərbaycan xalqının milli istiqlal əzmini qıra bilmədi. Bolşevik-daşnak birliyi öz istəyinə nail olmadı. Faciəli mart hadisələri Azərbaycan siyasi dairələrinin rus inqilabına olan ümidlərini puça çıxartdı, məlum hadisələrə qədər muxtariyyət uğrunda olan mübarizə, tam müstəqillik uğrunda mübarizə ilə əvəz edildi.

Azərbaycanlılara qarşı törədilən soyqırımları araşdıran Fövqəladə Təhqiqat Komissiyasının 36 cild və 3500 səhifədən ibarət təhqiqat materialları bu gün də arxivlərimizdə mühafizə olunmaqdadır. Bu sənədlər onu sübut edir ki, Azərbaycanda baş verən faciəli hadisələr XX əsrdə baş vermiş ən qatı soyqırım cinayətidir. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərin mövcudluğu onu deməyə əsas verir ki, Azərbaycan tərəfinin ermənilərin ötən əsrin əvvəlində törətdiyi soyqırımlar haqqında bəyanatları mücərrəd xarakter daşımır, gerçək tarixi faktlara söykənir.

Başqa sözlə desək, azərbaycanlıların soyqırımı faktı təhqiqat materialları, şahid ifadələri ilə sübuta yetirilir. Bu sənədlərlə təsdiqlənən ən vacib fakt ondan ibarətdir ki, soyqırım o vaxtkı hökumətin - Bakı Sovetinin həyata keçirdiyi siyasətin nəticəsində törədilib. Çünki Bakı Soveti o zaman Bakı hakimiyyəti funksiyasını icra edirdi və məhz bu qurum insanların kütləvi qırğınına razılıq verdi. Bolşevik və erməni daşnaklarından ibarət olan Bakı Soveti tərəfindən belə bir razılıq, faktiki olaraq dövlət cinayətidir.

Qaynaqlar

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond (f.) 100, siyahı (siy.) 2, iş 85, vərəq (v.) 6-7.
2. ARDA, f. 879, siy. 10, iş 45, v. 10-11.
3. ARDA, f. 894, siy. 1, iş 201, v. 31.
4. ARDA, f. 894, siy. 1, iş 299, v. 8-12.
5. ARDA, f. 894, siy. 4, iş 65, v. 3.
6. ARDA, f. 894, siy. 10, iş 144, v. 9, 10.
7. ARDA, f. 1061, siy. 1, iş 95, v. 2.
8. ARDA, f. 1061, siy. 2, iş 85.
9. ARDA, f. 1061, siy. 2, iş 87.
10. ARDA, f. 1061, siy. 2, iş 100.
11. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), fond (f.) 276, siyahı (siy.) 2, iş 16.
12. ARPİİSSA, f. 276, siy. 2, iş 20, v. 47.
13. ARPİİSSA, f. 276, siy. 2, iş 20, v. 69.
14. ARPİİSSA, f. 276, siy. 2, iş 20, v. 76.
15. ARPİİSSA, f. 276, siy. 2, iş 22, v. 74.
16. ARPİİSSA, f. 276, siy. 2, iş 22, v. 75-77.
17. ARPİİSSA, f. 276, siy. 2, iş 27, v. 16-24.
18. ARPİİSSA, f. 276, siy. 9, iş 3, v. 25.
19. ARPİİSSA, f. 277, siy. 2, iş 16, v. 20.
20. ARPİİSSA, f. 277, siy. 2, iş 16, v. 25-26.
21. ARPİİSSA, f. 277, siy. 2, iş 27, v. 16-24.
22. ARPİİSSA, f. 277, siy. 2, iş 27, v. 23-24.
23. “Азербайджан” qəzeti, 19 сентября 1918 (rus dilində).
24. Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə. Tərtib edən: S.Rüstəmova-Tohidi. Bakı, 2013.
25. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992.
26. İsgəndərov A. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı, Elm və təhsil, 2012.
27. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. 1918-1920. Bakı, Adiloğlu, 2006.
28. Качазнуни Ов. Дашнакцутюн больше ничего делать. Баку, Элм, 1990.
29. Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011.
30. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990.
31. Şaumyan S. Seçilmiş əsərləri. 2 cilddə. II cild. Bakı, Azərnəşr, 1978.
32. V.İ.Lenin Azərbaycan haqqında. Tərtib edən: C.B.Quliyev. Bakı, Azərnəşr, 1970.

ПРЕСТУПЛЕНИЯ ГЕНОЦИДА АРМЯН 1918-го Года В АЗЕРБАЙДЖАНЕ ВДОКУМЕНТАХ ЧРЕЗВЫЧАЙНОЙ СЛЕДСТВЕННОЙ КОМИССИИ

Резюме

В статье исследуеться акты геноцида армяно-большевистских военных отрядов совершенные в 1918-м году против мусульмано-тюркского населения в Азербайджане. Материалы расследования и допроса Чрезвычайной Расследовательной комиссии,созданного 15-го июля 1918-го года государством Азербайджанской Демократической Республики, использованы как основные документальные источники. На основе именно документов и материалов этой комиссии,члены которой состояли из лиц не азербайджанской национальности, доказано что, эти события акты геноцида направленные против мусульмано-тюркского населения на почве религиозной,расовой и национальной ненависти.

GENOCIDE CRIMES COMMITTED BY ARMENIANS IN 1918 IN ZERBAIJAN ON THE DOCUMENTS EXTRAORDINARY INVESTIGATION COMMISSION

Summary

In the article the genocide acts committed by the Armenian-Bolshevik military forces against the Muslim population of Azerbaijan in 1918 have been investigated. In order to investigate the crimes of genocide committed by the Armenians against Azerbaijan nation Extraordinary Investigation Commission inquiry and investigation materials created by the decision of The Government of the Republic of Azerbaijan dated July 15, 1918, were used as the primary source. On the basis of documents and materials of the commission which composition is comprised largely of non-Azerbaijanis It had been proved that these events were act of genocide against Turkish-Muslim population committed on the racial, national or religious sphere .

Kamran İsmayılov

AZƏRBAYCANIN CƏBRAYIL QƏZASININ TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI ERMƏNİLƏRİN SOYQIRIMI (1918-1920-ci illər)

Erməni vəhşiliyinin şahidi olmuş ərazilərdən biri də tarixi Cəbrayıl qəzasıdır. 1918-1920-ci illərdə ermənilər Azərbaycanın bir sıra digər bölgələrinə olduğu kimi Cəbrayıl (Koryagin) qəzasına da iddia irəli sürərək, onu silah gücünə ələ keçirməyə çalışmış, qəzanın türk-müsəlman əhalisinə qarşı kütləvi vəhşiliklər törətmişdilər.1917-ci ilə dair Qafqaz təqviminə görə, Cəbrayıl qəzasında 89584 nəfər müsəlman, 21755 nəfər erməni, 1601 pravoslav, 472 sektant, 104 başqa xalqlara mənsub insanlar yaşayırdı. Göründüyü kimi, qəza əhalisinin mütləq əksəriyyəti Azərbaycan türklərindən ibarət idi. Qafqaz təqvimində həmçinin qəzada 46 kürdün yaşadığı qeydə alınmışdı(24, s.195-197).

1917-ci ilin sonlarında erməni quldur dəstələrinin Azərbaycanın Zəngəzur və Şuşa qəzalarında dinc müsəlman-türk əhaliyə qarşı kütləvi vəhşilikləri Qaryagin qəzası kəndlərindən də yeni keçmədi. Mövcud anarxiya və hakimiyyətsizlikdən istifadə edən erməni quldur dəstələri bu ərazilərdən bütün müsəlman əhalisini qovub çıxarmaqla silah gücünə «Böyük Ermənistan» iddialarını gerçəkləşdirməyə başladılar. Bu məqsədlə Şuşa və Zəngəzur qəzaları ilə yanaşı, Cəbrayıl qəzasının dağlıq ərazisində yerləşən erməni kəndləri sürətlə silahlandırılır, ermənilər arasında qonşu türk əhalisinə qarşı güclü təbliğat aparılırdı. Qəzada yerləşən rus ordusunun qarnizonunun və sərhəd mühafizə dəstələrinin əsgər və zabitləri bölgəni tərk edərkən bütün silah-sursatı ermənilərə buraxır, bu da azərbaycanlı əhali arasında təbii olaraq vahimə və təşviş yaradırdı. Lakin Cəbrayıl qəzasında ermənilərin sayca azlıq təşkil etməsi ilk vaxtlar onları daha tədbirli olmağa vadar edirdi. Onlar məkrli və hiyləgər siyasət yürüdərək qonşu müsəlmanlarla sözdə dinc yanaşı yaşamaq istədiklərini ifadə edirdilər. Müqayisə üçün qeyd edək ki, o zaman Şuşa qəzasında 92, Zəngəzur qəzasında 84 erməni kəndi var idisə, Cəbrayıl qəzasında 174 kəndin cəmi 32-də ermənilər yaşayırdılar. Qəzanın 15 kənd cəmiyyətinin yalnız 3-ü erməni kəndlilərindən ibarət idi. Yeri gəlmişkən, həmin hadisələr zamanı bu 32 kənddən heç biri zərər görməmiş, yandırılmamış və qarət edilməmişdir. Bunu Gəncə qubernatoru polkovnik Vəkilovun quberniyanın qəzalarında vəziyyətlə bağlı Azərbaycanın daxili işlər naziri X.Xasməmmədova 19 fevral 1919-cu il tarixli məruzəsi də təsdiq edir (7, v. 6-19). Qəzada ziyan görmüş kəndlərin hamısı azərbaycanlılar yaşayan kəndlər olmuşdur. Qaryagin qəzasında azərbaycanlılar yaşayan kəndlərin əksəriyyəti düzən ərazidə yerləşdiyindən ermənilər bu kəndlərə hücum etməyə cəsarət etməmiş, yalnız dağətəyi və dağlıq zonada yerləşmiş kəndlər erməni hücumlarına məruz qalmışdılar.

1918-ci ilin sonlarına qədər Cəbrayıl qəzasında ermənilər Azərbaycan kəndlərində hücumlardan çəkindirən mühüm amil, heç şübhəsiz, həmin dövrdə Şuşa və Cəbrayıl qəzalarında türk qoşunlarının mövcudluğu faktı idi. Həmin dövrdə Gəncə quberniyasının müxtəlif yerlərində, o cümlədən Qaryagin qəzasında türk zabitlərinin başçılığı altında könüllü silahlı dəstələr təşkil edilmişdi. Düzdür, türk qoşun hissələrinin Azərbaycana gəlməsindən əvvəl də Şuşa, Zəngəzur, Qaryagin, Zəngəzur bölgələrində azərbaycanlıların müxtəlif özünümüdafiə dəstələri fəaliyyət göstərirdi. Lakin pis silahlanmış bu kiçik dəstələr getdikcə artan və mütəşəkkil xarakter alan erməni təcavüzkar separatizminin qarşısını almaq iqtidarında deyildi. Xüsusilə türkün canına susamış cəllad Andranikin Zəngəzura gəlməsindən sonra bütün Qarabağda hərbi şərait kəskin pisləşdi. Cavanşir və Şuşa qəzalarında erməni kəndlərinin tərksilah edilməsinə başlanılsa da, bu işi tam başa çatdırmaq mümkün olmadı. Ayrı-ayrı erməni kəndlərində silahlı dəstələr qalmaqda idi. Bölgəyə başqa yerlərdən silahlılar gəlməkdə idi. Qüvvələr nisbətinin ermənilərin xeyrinə dəyişməsi ilə, Qarabağdakı Azərbaycan-türk qoşunlarının qarşısına qoyulan məqsədə nail olmaq mümkün olmadı. 1918-ci ilin payızında türk qoşunlarının Azərbaycanı tərk etməsi, Qafqaz İslam Ordusunun Qarabağ hərəkatının gözlənilən nəticəni verməməsi Qarabağda erməni təcavüzkarlığının qarşısını almağa imkan vermədi, əksinə bu təcavüzkarlığın coğrafiyası daha da genişləndi, bölgə azərbaycanlıları üçün yeni faciələr törətməyə başladı.

Qarabağ hərəkatının davam etdiyi müddət ərzində Qarabağın şərq tərəfində, Cəbrayıl qəzasındanisbi sakitlik olmuşdur. Bu, bir tərəfdən ermənilərin əsas qüvvələrinin Qafqaz İslam Ordusuna qarşı döyüşlərə cəlb edilməsi, digər tərəfdən isə bu istiqamətdə ikinci cəbhənin açılmasından ehtiyat etmələri ilə əlaqədar idi. Əslində ermənilər bu müddətdə sayıqlıq göstərərək güc toplayır, qonşu müsəl-

man kəndlərinə hücumlara hazırlaşırdılar. Şuşa və Cəbrayıl qəzalarının ermənilərini qonşu Zəngəzur qəzasında azərbaycanlılara qarşı vəhşiliklər törədən Andranikin «uğurları» xüsusən daha çox ruhlandırırdı. Zəngəzurda 1918-ci il ərzində Andranikin başçılığı ilə azğınlaşmış erməni dəstələri 115 kəndi dağıtmış, 10 mindən çox dinc türkü qətl etmiş və ya yaralamışdılar. Təkcə öldürülənlərin sayı, tam olmayan məlumatlara görə 7729 nəfər təşkil etmişdi.(1, s.279-280). Əslində bu rəqəmlər Zəngəzurda baş verən faciəni tam əhatə etmirdi, ölən və yaralanan azərbaycanlıların sayı daha artıq idi. Zəngəzur qətliamından sonra qaçqın düşmüş 50 min nəfərədək müsəlman əhalinin çoxu qonşu Cəbrayıl qəzasında sığınacaq tapmalı olmuşdur.

Türk qoşunlarının bölgəni tərk etməsi və müttəfiq orduların gəlməsi ilə Andranikin hərəkətləri daha amansız xarakter almağa başladı. Zəngəzuru türklərdən təmizləməyə nail olan bu erməni quldur başçısının indi məqsədi öz bəd əməllərin Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında da davam etdirmək və bununla da Qarabağ ərazilərini Azərbaycandan qoparmaq idi. Əslində ermənilərin təcavüzkarlığının genişlənməsinin bir səbəbi də ingilis komandanlığının ikili siyasəti idi. Bir tərəfdən, Tomson Andranikin hərəkətlərin məsuliyyətsizlik kimi dəyərləndirir, digər tərəfdən isə onun nümayəndəsi Hibbon Androniklə görüşündə Zəngəzur qəzasının 4/5 hissəsinin onun idarəçiliyinə verildiyini bəyan edirdi (23, s. 118-124). İngilislərin bu ikibaşlı siyasətini Gəncə qubernatoru M.Vəkilov da müşahidə edirdi. Azərbaycanın Daxili İşlər Nazirinə göndərdiyi 10 fevral 1919-cu il tarixli teleqramında rəhbərlik etdiyi quberniyanın ərazisində ermənilərin törətdikləri vəhşilikləri səciyyələndirən qubernator göstərirdi ki, ermənilər səfərbər olunmaqda davam edirlər və Böyük Britaniya nümayəndələri tərəfindən açıq-aşkar dəstək görürlər. Müsəlmanlara qarşı hücumlar nəinki dayanmır, əksinə daha da kəskin xarakter alır (6, v. 1-2; 1,s. 79-81).

Türk qoşunlarının bölgəni tərk etməsindən, xüsusən 1918-ci ilin dekabrından sonra Cəbrayıl qəzasının dağlıq zonasında, Şuşa qəzasının cənub-şərqində (Dizaq bölgəsində) də vəziyyət gərginləşdi, erməni silahlılarının azərbaycanlılar yaşayan kəndlərə hücumları geniş vüsət almağa başladı. Bu barədə qəza rəisi Mahmudbəyovun teleqramlarında, FTK komissiyasının üzvü H.Mixaylovun məruzəsində, eləcə də digər sənədlərdə müfəssəl məlumatlar öz əksini tapmışdır.1918-ci il dekabrın 2-də Arakül və digər kəndlərin silahlı ermənləri Xələfli, Aşıq Məlikli, Tatar və Şıxlar kəndlərinə hücum etmiş, 10-a qədər evi yandırmış və dağıtmış, 2 qadını və 6 kişini yaralamış, 1919-cu ilin yanvarında ermənilər Düdükçü kəndinə od vurmuş, kəndin mülkədarı Cümşüd Vəzirovun və başqalarının təsərrüfatını dağıtmışdılar. Lakin bütün bunlara baxmayaraq Cəbrayıl qəzasının müsəlmanları ermənilərə qarşı heç bir hərəkətlərə yol vermir, yalnız özlərini və öz əmlaklarını onların hücumlarından qorumağa çalışırdılar. Qəzada bu dövrdə ermənilərə qarşı hər hansı hüquq pozuntusu baş verməmişdi. Hadrutu özlərinin qərargahına çevirən ermənilər sürətlə silahlanır və silah-sursat sarıdan ciddi korluq çəkən qonşu müsəlman kəndlərinə hücum etməyə hazırlaşırdılar.

Azərbaycanlılara qarşı cinayətlərdə Düdükçü, Edilli, Ağbulaq, Daşbaşı, Hoğa, Çirakuz, Axullu, Ağcakənd, Hadrut, Cilən, Dolanlar, Mülküdərə, Çanaxçı, Xırmançıq, Noraşen və b. kəndlərin erməni quldurları daha «fəallıq» göstərirdilər. Bu kəndlərin bəzilərində ermənilərlə azərbaycanlılar birgə yaşayırdılar (məsələn: Axullu, Hoğa, Düdükçü). Qəzanın ən çox ziyan çəkmiş kəndləri sırasında Düdükçü, Arış, Qacar, Sirik, Tatar, Qışlaq, Doşulu, Əfəndilər, Qarakollu, Məlikli, Xələfli, Nüsüs, Qaradağlı, Eyvazlı, Şıxlar və b. kəndlər idi. Müsəlman kəndlərinə hücumlar dinc əhalinin qətli və yaralanması mlə müşayiət olunurdu. Belə ki, Axulluda 2 kişi, 3 qadın, 1 uşaq, Məliklidə 1 kişi, Tatarda, Əfətlidə 1 kişi, Məzrədə 6 kişi, Sirikdə 11 kişi, 10 qadın, 14 uşaq öldürülmüşdü(1, s.275-277; 2).Veysəlli, Divanalılar, Diləğarda, Qacar, Şıxıllı, Govşatlı, Yağlıvənd, Salakətin kəndləri də tez-tez erməni terroruna məruz qalırdılar. Bu bölgədə Sokrat Məlik-Şahnəzəryanın, aranzəminli Govha Karapetin bandaları Ağdam-Qarabulaq şosse yolunu tutaraq dinc müsəlmanları atəşə tutur, Cəbrayıl və Şuşa azərbaycanlılarını düzən Qarabağla, Ağdamla əlaqə yaratmasına mane olurdular. Erməni terrorundan Şuşa qəzasının II polis sahəsinin Qacar və Tuğ kənd cəmiyyətlərinə daxil olan kəndlər (Veysəlli, Divanalılar, Salakətin, Dilağarda, Qacar, Gövşatlı, Yağlıvənd, Şıxıllı) daha çox əziyyət çəkirdi. Ermənilərin Hoğa kəndinin sakinlərinin başına gətirdikləri müsibətlər haqqında ətraflı məlumatları bu gün də həyacansız oxumaq mümkün deyildir. Qarabağın bir sıra kəndləri kimi Hoğa kəndində də azərbaycanlılarla ermənilər birgə yaşayırdılar. Kənddə Əsədağa və Humay ağa

Cavanşirlərin böyük malikənəsi yerləşirdi. 1918-ci ildə ermənilərin müsəlman kəndlərinə hücumlarının genişləndiyi zaman, ermənilər azərbaycanlıları inandırmağa çalışırdılar ki, ermənilər tərəfindən onların həyatı üçün heç bir təhlükə yoxdur. Müsəlmanlar ermənilərin vədlərinə inanaraq öz yerlərində qaldılar. 1918-ci il dekabrın ortalarında, sübhçağı, zabit Anlan Sarkisovun başçılığı ilə yaxşı silahlanmış erməni bandaları qəflətən kəndin müsəlmanlar yaşayan hissəsini mühasirəyə aldılar. Xosrov bəy İşxanov adlı birisi Əsədağa Cavanşirdən tələb etdi ki, general Andronikin əmrinə əsasən, o və bütün müsəlmanlar erməni qoşunları üçün ərzaq, mal-qara verməli, əllərindəki bütün silahları təhvil verməli və Ermənistan Respublikasının hakimiyyətini tanımalıdırlar. Cavanşir ona cavab verdi ki, Hoğa kəndinin müsəlmanları yalnız Azərbaycan Respublikasının hakimiyyətini tanıyırlar, silahı isə təhvil verməyə hazırdırlar. Çörək və mal-qara verməyə gəldikdə isə qəti cavab vermək üçün o bir neçə gün vaxt istədi. İşxanov getdikdən dərhal sonra ermənilər atəş açmağa başladılar. Yenidən Əsədağa Cavanşirin yanına gələn ermənilər ona silahı təhvil verməyi təklif etdilər, əvəzində onu və ailəsini qoruyacağını söz verdilər. Lakin Cavanşir və digərləri silahları təhvil verən kimi Əsədağa, onun oğlu Salman, qızı İranə bəyim, qohumu Fatma bəyim, xidmətçilər, İncə İbad qızı, Allahverdi Əzizoğlu, Abışoğlu və Vəli Kərbalayı Ələsgər oğlu qətlə yetirildilər. Özü də qətllər vəhşicəsinə, qurbanlara işgəncələr verməklə həyata keçirilmişdi. Belə ki, qoca Cavanşirin sifəti qılıncla doğranmışdı, qadınların lüt meyidlərinin üzərində kəsilmiş və deşilmiş yara izləri var idi. Digər kəndlilər gecəyə qədər müdafiə olunmuş, gecə isə qaranlıqdan istifadə edərək öz əmlaklarını taleyin hökmünə buraxaraq qaçmağa məcbur olmuşdular. Atəş zamanı ermənilər daha altı kişi və üç qadını öldürmüşlər. Müsəlmanlar kəndi tərk etdikdən sonra ermənilər əvvəlcə onların bütün əmlaklarını, mal-qarasını ələ keçirmiş, sonra isə evlərə od vurmuşlar (15, v.5; 1,s.424-425).Tuğ kəndinin müsəlman hissəsi də bu aqibətlə üzləşmişdi. Kəndin bir neçə müsəlman sakini ermənilər tərəfindən öldürülmüş və əsir götürülmüşdü. 1918-ci ilin payızında ermənilər Salakətin kəndini, Şıxıllı, Çarakuz, Divanalılar, Gövşatlı kəndlərin yandırmış, əhalinin var-dövlətini ələ keçirmişdilər. Yurdsuz-yuvasız qalmış kəndlilər qonşu müsəlman kəndlərində sığınacaq tapmalı olmuşdular (1, s.282.-287.).

Ermənilərin Cəbrayıl və Şuşa qəzalarının adı çəkilən müsəlman kəndlərinə qarşı vəhşilikləri haqqında FTK-nın materiallarında çoxlu faktlar mövcuddur.I polis sahəsinin Düdükçü kəndi iki hissədən- erməni və türk hissəsindən ibarət idi. Kənd ermənilər yaşayan Edilli, Ağbulaq, Kəmrəçuğ kəndləri ilə əhatələnmişdi. Ermənilərin təzyiqləri nəticəsində Düdükçü kəndinin azərbaycanlı əhalisi bütün var-yoxlarını taleyin öhdəsinə buraxaraq Qarabulaqa və ətraf türk kəndlərinə sığınmışdılar. Yuxarıda adı çəkilən erməni kəndlərinin əhalisi 1918-ci il dekabrın 31-də Düdükçünün müsəlman hissəsinin dağıdaraq yandırmışdılar (10, v.31; 16, v.5-6.).

1918-ci ilin avqustun sonlarında Cilən, Banazur, Zamzur, Arakül, Daşbaşı, Şahyeri, Mülküdərə kəndlərinin erməni silahlı bandaları qəflətən qonşu müsəlman kəndinə - Məzrəyə hücum etmiş və 6 kişini qətlə yetirmişdilər. Müdafiə olunmaq imkanı olmayan məzrəlilər kəndi tərk edərək qaçmağa məcbur olmuş, kəndə girən ermənilər hər şeyi tar-mar edərək yandırmışlar.(13, v.5). Həmin kəndin ermənilər səhər tezdən qəflətən Aşıq Məlikli kəndinə də hücum etmiş, kəndi atəşə tutmuşlar. Kəndin bir sakini ölmüş, üçü yaralanmışdı. Vahimə içində kənddən qaçan aclıq məliklilərin bütün varidatını ermənilər talamış, sonra isə kəndə od vurmuşlar(20, v.5) .

Bu rayonun erməni hücumlarından ən çox ziyan çəkmiş kəndlərindən biri Sirik kəndi olmuşdur. 1918-ci ilin avqustunda erməni silahlı quldur dəstələri kəndi atəşə tutmuş, panikaya düşən siriklilər hər şeyi ataraq qaçmağa məcbur olmuşlar. Kəndə soxulan yaraqlılar 11 kişini, 10 qadını, 14 uşağı qətlə yetirmiş, 2 kişini yaralamış, 10 ev və binanı yandırmış, 11-i dağıtmışdılar. Müsəlmanların bütün əmlakı, mal-qarası ermənilər tərəfindən ələ keçirilmişdi(21, v.5-6). Müsəlmanlar yaşayan qonşu Tatar kəndini əhalisinin də aqibəti siriklilər kimi olmuşdu (18, v.5). Ermənilər Eyvatlı kəndini atəşə tutaraq, Hüseyn Allahverdi oğlunu öldürmüş, eyvatlıları kəndi tərk etməyə məcbur edərək, onu tamamilə dağıtmış, müsəlmanların əmlakını, mal-qaranı zəbt edərək aparmışdılar. Kəndə hücum zamanı ermənilər dinc sakinləri qorxutmaq üçün – çıxın gedin, yoxsa hamınızı qıracağıq – deyə qışqırırdılar (17, v.5).Qarabulağa qonşu kəndlərdə (Dizak rayonu)də ermənilər insanlığa sığmayan hərəkətlər törətmişdilər. 1918-ci ilin avqustunda Şuşa qəzasının Məmmədkənd, Sus, Çartaz, Quzumkənd kəndlərinin erməni yaraqlı quldur dəstələri müsəlmanların yaşadığı Divanalılar kəndini mühasirəyə alaraq kənd sakinlərini qıracaqları ilə hədələmiş, Andronikin adından onlardan tələb

etmişlər ki, sakinlər erməni hökumətinin hakimiyyətini tanımalı, bütün silahları təhvil verməli və general Andronikə müəyyən miqdarda at və araba verməlidirlər. Ümidsiz vəziyyətdə qalan sakinlər onların bütün tələblərini yerinə yetirməli olmuşlar. Həmin günün axşamı azərbaycanlı əhali ermənilərin gecə onlara hücum edəcəklərin bildikdən sonra bütün əmlaklarını qoyaraq kənddən qaçmağa məcbur olmuşdular. Ermənilər yolda onlara çataraq atəşə tutmuşdular. Sakinlərdən üçü həlak olmuş, qalanları qaçaraq canlarını qurtarmışlar. Qaçqınlar Cəbrayıl və Şuşa qəzasının müxtəlif müsəlman kəndlərində sərkədan həyat yaşayırdılar. Onların kəndlərini talayan ermənilər kəndin Ermənistan Respublikası ərazisi olduğunu iddia edərək sakinləri oraya buraxmırdılar (19; 1,s.422-423). 1918-ci ilin payızında Hadrut dərəsinin Hadrut, Sur, Kəmrəçuğ, Təcasir, Quşçular kəndinin ermənilər Doşulu kəndinə silahlı basqın edərək Andronikin adından doşululuları kəndi tərk etməyi tələb etmiş, sonra isə onların bütün əmlakını yandırmışdılar (12, v.5). 1918-ci ilin dekabrında Hoğa, Tuğ, Çirmuz kəndlərinin silahlı ermənilər Gövşatlı kəndində hücuma keçərək kəndi atəşə tutmuş, üç sakini öldürmüş, birini isə yaralamışlar. Digər kəndlilər qaçmağa müvəffəq olsalar da bir müddətdən sonra geri qayıtdıqda, kəndin bütün evləri darmadağın edilmiş, sakinlərin var-dövləti talan edilmişdi(14, v.5).

1919-cu ilin yanvarında Qarabağ bölgəsində erməni təcavüzkarlığının yeni, daha amansız fazası başladı. Azərbaycan hökumətinin münaqişəni dinc yolla nizamlamaq cəhdlərinə baxmayaraq Ermənistan hökuməti və bölgənin aqresiv separatçı qüvvələri bu qəzalardan azərbaycanlı əhalinin tamamilə deportasiya etmək niyətlərindən əl çəkmədilər. Daşnak hökuməti Zəngəzura yeni qüvvələr gətirərək buradakı hərbi üstünlüyünü daha da möhkəmləndirməyə nail oldu.Ermənilərin təcavüzkarlıq hərəkətlərinin qarşısını almaq, dinc əhalinin təhlükəsizliyin təmin etmək üçün Azərbaycan hökuməti Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzaları hüdudlarında müvəqqəti general-qubernatorluq təsis etdi. Qarabağ general-qubernatorluğu yaradıldıqdan sonra Cəbrayıl qəzasında vəziyyət bir qədər yaxşılaşmışdı. Bölgəyə göndərilmiş hərbi dəstənin fəaliyyəti sayəsində Ağdam-Qarabulaq yoluna nəzarət bərpa edilmiş., qayda-qanun təmin edilmişdi. Nəzərə almaq lazımdır ki, Cəbrayıl, Zəngəzur, Şuşa qəzalarının erməni kəndlərinin əsas ərzaq, baqqaliyə, manfaktura və sənaye malları, kerosin, duz, taxıl ilə təchizatı əsasən Qarabağın düzən əraziləri, o cümlədən Qarabulaq nahiyyəsi vasitəsilə həyata keçirilirdi. Ona görə də Qarabulağın düzən kəndləri ilə əlaqələrin pozulması dağlıq ərazidə yerləşən erməni kəndləri üçün ağır vəziyyət yaratmışdı. Bunu erməni əhalinin bəzi nümayəndələri də aydın dərk edir, qonşu müsəlmanlarla barışmağa cəhd edirdilər. Hətta Hadrut ermənileri Azərbaycan əsgərlərin nahara qonaq etmişdilər. Qəza rəisliyi də öz ərazisində sülhün təmin olunması üçün bütün imkanlardan istifadə edirdi. Onun tapşırığı ilə erməni və müsəlman əhalinn nümayəndələrinin görüş və yığıncaqları keçirilmişdi (8, v.1-7). 1919-cu ilin payızında Draxtin, Azıx və Tağ kəndlərinin silahlı ermənileri Salakətin kəndinə gələrək müsəlmanlara bildirmişdilər ki, general Andronik onlardan bütün silahları təhvil verməyi, həmçinin atlar, arabalar verməyi və onun simasında ermənilərin hakimiyyətini qəbul etməyi tələb etmişdilər. Qorxu içində olan sakinlər bu tələbləri yerinə yetirsələr də ertəsi gün ermənilər hücum edərək kəndin mal-qarasını aparmış, sonra isə salakətinlilərdən kəndi tərk etməyi tələb etmişdilər. Kəndi tərk edərkən müsəlmanlar yenidən ermənilərin hücumuna məruz qalmış, üç kişi və iki qadın öldürülmüş, iki nəfər isə yaralanmışdı. Ermənilər bu kəndi də talayaraq dağıtmışdılar. Ermənilərin bu cinayətləri şahid ifadələri ilə təsdiq olunmuşdu.

Bu dövrdə Cəbrayıl qəzasında ictimai-siyasi və iqtisadi vəziyyəti ağırlaşdıran amillərdən biri də Zəngəzur və başqa yerlərdən deportasiya olunmuş və qəzanın düzən və Arazboyu kəndlərində sığınacaq tapmış qaçqınların vəziyyəti idi. Onsuz da çox çətin vəziyyətdə olan bölgə əhalisi öz soydaşlarını darda qoymamış, onların vəziyyətini qismən də olsa yüngülləşdirmək üçün bütün imkanlarını səfərbər etmişdi. Azərbaycan Himayəçilik Nazirliyinin qaçqınlar şöbəsinin müdiri Klinevski Qarabağda azərbaycanlı qaçqınların vəziyyətini öyrənmək və hesabat hazırlamaq üçün digər qəzalarla yanaşı Gəbrayıl qəzasında da olmuş, zəngəzurlu qaçqınların dözülməz vəziyyətdə yaşadıqlarını öz gözləri ilə görmüşdü. Qaçqınlar arasında ölüm halları o qədər çox idi ki, sağ qalanlar onları basdırmağa macal tapmadıqlarından, ölənlərin, meyitləri günlərlə açıq havada qalmışdı (18, v.32-39).Sonrakı proseslər, erməni təcavüzkarlığının genişlənməsi, yeni ərazilərin zəbt edilməsi qaçqınlar ordusunun daha da artmasına gətirib çıxardı.1919-cu ilin yanvarına olan məlumata görə Zəngəzurdan Cəbrayıl, Cavanşir, Şuşa qəzalarında 40 min qaçqın mövcud idi. Azərbaycan himayəçilik nazirliyinin Qaryagində qaçqınlara yardım üçün xüsusi məntəqəsi təşkil edilmiş, sığınacaq yaradılmışdı. Erməni silahlı

qüvvələri 1920-ci il yanvarın üçüncü ongünlüyündə Zəngəzurdan Şuşa istiqamətində hücuma keçərək, yolboyu bütün kəndləri dağıtmış, əhalisini qovmuşdular. 1919-cu il noyabrın 23-dən (Tiflisdə Azərbaycan-Ermənistan danışıqları başlayan gündəm) sonra 40-dan çox müsəlman kəndi dağıdılmışdı. Bu da öz növbəsində qaçqınların yeni dalğasının yaranmasına gətirib çıxarmışdı.

Bütün 1919-cu il və 1920- ci ilin üç ayı ərzində Ermənistan nizami qoşunlarının və yerli erməni silahlı dəstələrinin dinc müsəlmanlara qarşı həyata keçirdikləri hərbi əməliyyatlar Zəngəzurun azərbaycanlılardan tamamilə təmizlənməsi ilə nəticələndi. Azərbaycan hökumətinin vəziyyəti sabitləşdirmək üçün atdığı sosial-diplomatik və hərbi addımlar da bir nəticə vermədi. Zəngəzurun işğalını başa çatdıran ermənilər Şuşa və Cəbrayıl qəzalarını da ələ keçirmək üçün geniş hərbi əməliyyatlara başladılar. 1920-ci il yanvarın ortalarından başlayaraq ermənilər Cəbrayıl qəzasının kəndlərinə hücuma keçmiş, Xanlıq kəndinə yaxınlaşmışdılar. Ermənilərin hücumları haqqında Cəbrayıldan, Qarabulaqdan Azərbaycan parlamentinə, hökumətinə və qəzetlərə parlamentin üzvü C.Sultanovun, Cəbrayılda məktəb müfəttişi işləyən H.Axundzadənin, Zəngəzur və Cəbrayıl qəza rəislərinin və b. Göndərdikləri teleqram və məktublarda artıq Cəbrayıl qəzası üçün real təhlükə barəd məlumatlar öz əksini tapmışdı. Bölgədəki hərbi vəziyyətlə bağlı verilən məlmatlarda Qarabulaq nahiyəsinə yaxın erməni kəndlərində də hücuma hazırlıqlar barədə bir sıra faktlar öz əksini tapmışdı.1920-ci ilin yanvarına aid məlumatlarda Susalıq, Tağ, Tavakənd, Xozabürt kəndlərində 600 nəfərdən ibarət bir dəstənin mövcud olduğu göstərilirdi. Tevak (yəqin ki, Tevan olmalıdır-K.İ.) adlı birisinin başçılıq etdiyi bu quldur dəstə Əliyanlı kəndini ələ keçirməyi planlaşdırırdı. Donışah, Tuğ, Sikur, Tacanir, Şahbinyarlı, Binyətli kəndlərində də hərbi dəstələr fəaliyyət göstərirdi (4, v.14). Ermənilər Cəbrayıl qəzasına həm qərbdən - Zəngəzur qəzasından, həm də şimaldan - Şuşa qəzasının Tuğ-Hadrut kəndlərindən zərbələr endirmək, sonra isə Cəbrayıl-Qarabulaq yolunu ələ keçirərək Cəbrayıl qəzasının düzən ərazisinə çıxmaq istəyirdilər. Bununla da Şuşa ətrafında, Xankəndində, Əsgəranda hərbi əməliyyatlar aparan Azərbaycan ordusunun hissələrini arxadan, cənub-şərq istiqamətindən mühasirə almaq məqsədi güdülürdü.C.Sultanovun göndərdiyi 23.01.1920-ci il tarixli məlumatda bildirilirdi ki, Cəbrayılda açıq səma altında Zəngəzurdan qaçqın düşmüş on minlərlə insan vardır. Zəngəzur qəzası İrəvandan 10 top və pulemyotlarla gəlmiş nizami qoşunlar tərəfindən tamamilə məhv edilmişdir. Döyüşən ermənilərin sayı 10 minə çatır…. Alınmış məlumatlara görə, sabah Zəngəzur tərəfdən Cəbrayıla hücum başlanır. Məqsəd Qarabağ ermənilər ilə birləşmək, Naxçıvanla əlaqəni tam kəsmək və həm Qarabağla, həm də Naxçıvanla birdəfəlik qurtarmaqdır. Artıq kağız üzərindəki etirazlara son qoymaq, Zəngəzurun iki yüz mindən çox müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain ermənilərin iç üzünü dünyaya açıb göstərmək vaxtı gəlib çatmışdır. Xahiş edirəm, təcili tədbir görün, heç olmasa Qarabağ, Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Yubanmaq cinayətə, xalq və vətən qarşısında xəyanətə bərabərdir(22, v. 46; 9, v.18-26). 20 yanvar 1920-ci il tarixli növbəti teleqramda isə o, təəssüflə bildirirdi ki, Zəngəzur sarıdan başınız sağ olsun. Ermənilər Cəbrayıl qəzasının sərhədində, Həkəri çayında cəmləşiblər. Qarabağı xilas etmək lazımdır. Ermənilərin qurbanları, qəddarlığı, zalımlılığı saya gəlməz, xahiş edirəm qəti və təcili tədbirlər görün (11).Yalnız Azərbaycan hökumətinin gördüyü əlavə hərbi tədbirlər ermənilərin Cəbrayıl və Şuşa qəzalarına doğru irəliləməsinin qarşısını aldı. Cəbrayıl istiqamətində Dondarlı, Xanlıq, Müsəlmanlar, Qoçaz kəndləri ətrafında müdafiə mövqeləri möhkəmləndirildi, hissələr arasında rabitə yaradıldı, yerli əhalidən partizan dəstələri təşkil edildi. Azərbaycanın digər bölgələrindən Qarabağa əlavə hərbi bölmələr və könüllülər dəstəsi göndərildi. Bu tədbirlər nəticəsində Dondarlı kəndi yaxınlığında ermənilərə ciddi zərbə vurulmuş, düşmən geri oturdulmuşdu. Qələbənin əldə edilməsində Cəbrayıl qəzasının müxtəlif kəndlərindən təşkil edilmiş könüllü dəstələrin də böyük rolu olmuşdu. Yerli əhalidən ibarət dəstələrinin təşkilinə türk zabiti Xəlil paşa rəhbərlik edirdi. Bu qələbələr sayəsində Zəngəzurdakı erməni qüvvələrin Şuşa qəzasındakı üsyançılarla birləşməsinin qarşısı alınmışdır.

Lakin ermənilər hərbi yolla Cəbrayıl və Şuşa qəzalarını ələ keçirmək planlarından vaz keçmədilər. Bu istiqamətdə düşmən geniş hazırlıq işləri aparırdı, hətta qonşu İran ərazisində erməni hissələrinin təlim keçməsi barədə xəbərlər gəlirdi (11,v.75, 93,98).General-qubernator X.Sultanovda olan məlumata görə, Ararat Respublikası Təbrizdə yaşayan varlı Tumanyanst vasitəsi ilə sərhədboyu xanları satın alırdı ki, Zəngəzurda hərbi əməliyyatlar başladıqda ermənilər Araz çayı üzərində yerləşən Maralyan, Xudafərin və Ağbənd postlarından keçərək Zəngəzur və Cəbrayıl qəzalarına hücum et-

sinlər (7, 1, s.231). Ermənistan hökuməti bölgəyə əlavə hərbi hissələr göndərərək genişmiqyaslı hücum əməliyyatına hazırlaşırdı. Cəbrayıl qəzasının erməni kəndlərində, Qarabulaq nahiyəsinə yaxın erməni kəndlərində (Dizak bölgəsində) yerli ermənilərin quldur dəstələri sürətlə silahlandırılırdı. Qarabulaq nahiyəsi üçün əsas təhlükə mənbələrindən biri Hadrut, Tuğ, Toğavart, Mardakert, Xotsabert və ətraf erməni kəndləri idi. Hadrutda 1917-ci ilə qədər rus qoşunlarının sərhəd briqadası yerləşirdi. Rus qoşunları buranı tərk edərkən bütün silah-sursatı ermənilərə vermişdilər. Burada böyük kazarmalar, müxtəlif binalar Azərbaycan qoşunlarının yerləşdiyi Xankəndindən daha yaxşı vəziyyətdə idi (8, v.2). Burada Tevanın, A.Ter-İonesyanın, Abram Kasibekyanın, A.Layayantsın, Bek-Primovun, Baxşının quldur dəstələri fəaliyyəti göstərirdi. Bu dəstələr Zəngəzurdakı erməni sərkərdələri Njdenin, Dronun, Dəli Qazarın dəstələri ilə sıx əlaqədə idilər və İrəvandan maliyyə və hərbi yardım alırdılar. Ermənilər bu ərazidən Qarabulaq nahiyəsinə hücum etmək üçün platsdarm kimi istifadə etməyi planlaşdırırdılar.1920-ci ilin martında – Novruz bayramı günlərində ermənilər əvvəlcədən planlaşdırdıqları kimi, Qarabağda və Zəngəzurda genişmiqyaslı hərbi əməliyyatlara başladılar. Martın 23-də Əskərana, Xankəndinə, Tərtərə, Şuşaya eyni vaxtda hücum başlandı. Cəbrayıl rayonunda da ermənilər hücuma keçərək iki əsgərimizi öldürdülər(11, v.81).Hadrutda da ermənilər müsəlman kəndlərinə bir neçə dəfə hücum etdilər. Qarabulaq-Ağdam yolu yenidən bağlandı. Lakin ermənilərin Qaryagini (Qarabulağı) ələ keçirmək cəhdləri baş tutmadı. Ermənilər bu istiqamətdə böyük itki verərək geri çəkildilər. Qələbənin əldə edilməsində yerli əhalinin milli ordu hissələrinə hərtərəfli yardımı da mühüm rol oynamışdı.Azərbaycan ordusu ermənilərin ilk hücumlarını dəf etsə də, əlavə qüvvələrin gəlməsi hesabına ermənilər martın sonu – aprelin əvvəllərində hərbi və strateji üstünlüyü ələ keçirərək, Zəngəzur və Şuşa qəzalarında bir sıra müsəlman kəndlərini (Əliyanlı, Müsəlmanlar, Muradxanlı, Qaraimanlı, Qubadlı, Dondarlı və s.) yenidən ələ keçirdilər. Təqribən aprelin sonlarına qədər döyüşlər davam etdi. Cəbrayıl qəzasında da vəziyyət ağır olaraq qalırdı. Zəngəzurdan hücuma keçən ermənilərlə Şuşa ətrafında vuruşan ermənilərin birləşməsi ilə Cəbrayıl qəzasının itirilməsi təhlükəsi yaranmışdı. Xüsusən Cəbrayıl-Qarabulaq-Ağdam yoluun ermənilər tərəfindən müntəzəm atəşə tutulması Azərbaycan qoşunları arasında rabitənin kəsilməsinə, qəzaya əlavə hissələrin gətirilməsinə mane olurdu. Qəzaya yeni qaçqınlar ordusunun gəlməsi buradakı sosial-iqtisadi vəziyyəti daha da ağırlaşdırırdı. Belə şəraitdə Azərbaycan ordusunun hərbi komandanlığı bir sıra əks tədbirlər müəyyənləşdirmiş, aprel ayı ərzində aparılmış hərbi əməliyyatlar nəticəsində Cəbrayıl qəzası ərazisində status-kvo bərpa edilmiş, erməni silahlı qüvvələri Zəngəzura sıxışdırılmışdı.

Qarabağın qəzalarında covet hakimiyyəti bərqərar olduqdan sonra da erməni kəndləri özlərini Ararat Respublikasının ərazisi hesab edir, bu kəndlərdəki silahlı dəstələr azərbaycanlıları terror etməkdə davam edirdilər. Hadrut, Tuğ, Tağavert və qonşu kəndlərdə Tevanın, Ter-İonessyanın quldur dəstələri Zəngəzurda fəaliyyət göstərən Dronun, Nijdernin qoşunları ilə əlaqədə fəaliyyət göstərir, nahiyənin azərbaycanlı əhalisi üçün təhlükə mənbəyi olaraq qalırdılar.

Mənbələr və ədəbiyyat

1. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımı. Sənədlər toplusu. II cild, 1-ci kitab, Gəncə quberniyasında soyqırımı, B. 2011.
2. ARDA, f.100, s.2, iş 791.
3. ARDA, f. 894, s.4, iş 40.
4. ARDA, f. 894, s. 4, iş. 119.
5. ARDA, f.894, s.7, iş 22.
6. ARDA, f. 894, s. 10, iş 80.
7. ARDA, f. 894, s. 10, iş 105.
8. ARDA, f. 894, s. 10, iş 115.
9. ARDA, f.895, s. 1, iş 299.
10. ARDA, f.897, s.1, iş 42.
11. ARDA, f.970, s.1, iş 113.
12. ARDA, f.1061, s.1, iş 11.

13. ARDA, f.1061, s.1, iş 12.
14. ARDA, f.1061, s.1, iş 24.
15. ARDA, f.1061, s.1, iş 25.
16. ARDA, f.1061, s.1, iş 31.
17. ARDA, f.1061, s.1, iş 36.
18. ARDA, f.1061, s.1, iş 40.
19. ARDA, f.1061, s.1, iş 46.
20. ARDA, f.1061, s.1, iş 52.
21. ARDA, f.1061, s.1, iş 53.
22. ARPİİSSA, f. 176, s.9, iş 54.
23. 23.Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B. 1997
24. Кавказский календарь на 1917 г., Тифлис, 1916

Камран Исмаилов

ГЕНОЦИД ПРОТИВ ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ ДЖЕБРАИЛСКОГО УЕЗДААЗЕРБАЙДЖАНА (1918-1920 ГГ.)

Резюме

В представленной статье, на основе архивных документов, освещаются массовые зверства и преступления, осуществленные армянскими вооруженными формированиями против мирного мусульманского населения Джебраилского уезда Азербайджана в 1918-1920 гг.. Приведенные многочисленные факты доказывают, что захват этого уезда и истребление его коренного тюркского населения являлись составной частью стратегического плана по созданию «ВеликойАрмении».

Kamran Ismayilov

GENOCIDE AGAINST THE TURKISH-MUSLIM POPULATION JABRAIL DISTRICT OF AZERBAIJAN (1918-1920 GG.)

Resume

In this article, based on archival documents, highlights the massive atrocities and crimes carried out by Armenian armed forces against peaceful Muslim population Jabrail district of Azerbaijan in 1918-1920 . These many facts prove that the capture of the district and the destruction of his native Turkic population were part of a strategic plan to create "Great Armenia".

Vaqif Abışov

AZƏRBAYCANIN ŞAMAXI QƏZASINDA TÜRK-MÜSƏLMAN SOYQIRIMI

Rusiya imperiyasında baş verən 1917-ci il fevral inqilabının nəticəsi olaraq dünyada yeni bir tarixi mərhələ başlamışdır. Rusiya imperiyasının istər mərkəzi şəhərlərində, istərsə də uçqarlarında siyasi fəallıq hiss olunmaqda idi. Müharibənin gətirdiyi aclıq və səfalətlər, eləcədə çarizmin uzun illər böyu yürütdüyü ayrı-seçkilik siyasətindən cana doymuş millətlər azad olmaq arzusu ilə mübarizəyə başlamışdılar.

1917-ci ildə Rusiya imperiyasında siyasi hakimiyyətin bir neçə dəfə dəyişməsi Azərbaycanda da təlatümlərə gətirib çıxartmışdır. Bu təlatümlər içərisində ən çox əziyyət çəkən Azərbayan xalqı olmuşdur.

1917-1918-ci illərdə azərbaycanlıların soyqırıma məruz qalmalarının, onlara məxsus əmlaklar qarət olunması və evlərinin yandırılmasının əsas səbəblərindən biri Azərbaycanda qurulan bolşevik rejiminin azərbayanlılara yad olması, onların yeritdiyi siyasətin kənardan gətirilməsi və zorakılığa söykənməsi idi.

Bolşevik rejimi dövründə (1918-ci ilin mart-iyul ayları) yerlərdə Sovet hakimiyyəti qurmaq adı altında yeridilən antiazərbaycan siyasət nəticəsində bolşeviklər azərbaycan xalqının dərin nifrətini qazanmışdır.

Məlumdur ki, Türkiyə, daha sonra Azərbaycan ərazisində türk-müsəlmanların kütləvi surətdə qətlə yetirilməsi və onların doğma torpaqlarından qovulmaları erməni siyasi mübarizəsinin ana xəttini təşkil etmişdir. Onların bu cinayətkar əməllərinə maddi, siyasi və hərbi dəstək verən dövlət isə Rusiya olmuşdur.

Bolşeviklər insanları öz ideyalarına inandırma prinsiplərinə deyil, özünü doğrultmayan gücə önəm verir, xalqları siniflərə bölərək, onların arasında barışmaz düşmənçilik yaradırdılar. Bu insana nifrət ideyası, sonralar yüz minlərlə günahsız insanın amansızcasına qətlə yetirilməsi və deportasiya olunması ilə nəticələnmişdir.

Bolşeviklər millətlərə demokratik dəyərlər bəxş etmək əvəzinə, onlar arasında sinifi mübarizəni, silahlı toqquşma və qardaş qanının axıdılması siyasətini təbliğ edirdilər.

Bolşeviklər hər cür demokratik şüarlarla pərdələnsələr də, Azərbaycan xalqının milli maraqlarına cavab vermirdilər. Bu hərəkatın rəhbərliyində ifrat bolşeviklərin və ermənilərin çoxluq təşkil etmələri Azərbaycan xalqının milli mənafeyinə qarşı daha kəskin mövqe tutmasına zəmin yaradırdı. Hadisələrin sonrakı inkişafı bir daha göstərdi ki, ermənilər tərəfindən istiqamətləndirilən bolşevizm Azərbaycan xalqına sonsuz qırğınlar və faciələr gətirmişdir.

Sovet tarix elmi ermənilərin bolşevik-sovet bayrağı altında Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli qırğınları bilərəkdən ört-basdır etmiş və problemin tarixşünaslığı uzun müddət Sovet ideologiyasına xidmət göstərmişdir.

Sovet tarixşünaslığında St.Şaumyanın rəhbərlik etdiyi erməni-bolşevik rejiminin hərbi qüvvələri tərəfindən Şamaxıda, sovet hakimiyyəti qurmaq adı altında, türk-müsəlmanlara qarşı törətdikləri dəhşətli qırğınların üstündən sükutla keçmişdir.

Ermənilərin 1918-ci ildə Azərbaycanın, demək olar ki, bütün bölgələrində türk-müsəman əhalisinə qarşı törətdikləri kütləvi qırğınları, zorakılıqları və talanları çoxsaylı şahid ifadələri və maddi sübutlar vasitəsilə aşkarlayıb üzə çıxaran Fövqəladə Təhqiqat Komissiyasının topladığı faktiki materiallardır.

1918-ci ilin avqustundan 1920-ci ilin aprelinədək fəaliyyət göstərmiş Fövqəladə Təhqiqat Komissiyasının (FTK) Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında qəbul etdiyi 23 qərar layihəsi və 7 cild, 952 vərəqdən ibarət təhqiqat işlərində toplanılmış materiallar ermənilərin vəhşilikləri haqqında ətraflı məlumat verir(1, v.106-107).

Erməni silahlı dəstələri Bakıda törətdikləri kütləvi qətliamları Azərbaycanın başqa bölgələrdə də həyata keçirmişdilər. St. Şaumyan yerlərdə sovet hakimiyyəti qurmaq adı altında erməni silahlı dəstələrini dinc insanların üzərinə göndərmişdi.

Bakıda türk-müsəlmanların soyqırımı hələ başa çatmamış, ermənilər bu qanlı qırğınları qəzalarda da həyata keçirməyə başlamışdılar. Bununla əlaqədar olaraq N.Nərimanov yazırdı: "Lakin belə bir dəhşətli hadisədən sonra, onun qəzalar üzrə həyata keçirilməsini davam etdirmək nəyə lazım idi. Bax, suala 1918-ci ildə Bakıdakı Sovet hakimiyyəti cavab verməlidir"(2, s. 3).

Ermənilərin 1918-ci ilin mart və aprel aylarında törətdikləri cinayətləri ifşa edən arxiv sənədləri arasında 1918-ci il noyabr ayının 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədovun Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Ədliyyə Nazirinə Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərinin talan edilməsi və müsəlman əhalisi üzərində ermənilərin zorakılılqları haqqında məruzəsi(3, v.15-18), həmin komissiyanın üzvü A.Novatskinin bu məsələ haqqında komissiya sədrinə məruzəsi(4, v.8-10) və bu işdə günahkar olan şəxslərin cinayət məsuliyyətnə cəlb edilməsi haqqında Fövqəladə Təhqiqat Komissiyasının 1919-cu il 12 iyul tarixli qərarı(5, v.1) və s. vardır.

1919-cu il aprel ayının 3-də AXC Daxili İşlər Nazirliyi Şamaxı qəza rəisinin FTK-ya həmin qəzanın 3 polis sahəsi üzrə (Qəbristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı göndərilmişdir. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin) adı daxil edilmişdir(6, v.1-3).

Yelizavetpol Müsəlman Milli Şurasının sədri Xasməmmədov martın 28-də Seymin və Cənubi Qafqaz hökumətinin sədrinə göndərdiyi teleqramında yazırdı ki, martın 18-də bolşeviklər tərəfindən Bakıdan 2000 yaxşı silahlanmış top və pulemyota malik olan əsgər dəstəsi Şamaxı qəzası istiqamətində yola salınmışdı. Dəstə yol boyu 15-dən çox müsəlman kəndini məhv edərək, Şamaxı şəhərini darmadağın etmişdi. Minlərlə müsəlman, o cümlədən qadın və uşaqlar qılıncdan keçirilmişdi. Faciəni təsvir etmək olmur. Təhqir və zorakılıqlar həddini aşmışdır. Təcili hökumətin köməyi lazımdı(7) * . Lakin nə Seym, nə də ki, Cənubi Qafqaz hökuməti Xasməmmədovun bu həyacan dolu teleqramına cavab verməmişdir.

1919-cu il martın 30-da Bakıda nəşr olunan "Azərbaycan" qəzetində Şamaxı hadisəsi ilə bağlı "Şamaxının son günləri" başlığı altında çap olunmuş məqalədə(8) ermənilərin Şamaxıda törətdikləri qırğınların səbəbləri və bu qırğının törətdiyi faciələr əks olunmuşdur. Qəzet yazırdı ki, cəbhədən qayıdan erməni əsgərləri özləri ilə bir, hətta iki silah gətirirdilər və bu silahları da sonradan öz həmyerlilərinə paylayırdılar. Qəzetin məlumatına görə 1918-ci ilin yanvarından buraya Bakıdan emissarlar gələrək ermənilər arasında müsəlmanların əleyhinə geniş əks-təbliğat aparmağa başlamışdılar. Onlar yalnız ermənilər arasında deyil, eyni zamanda molokan və yəhudilər arasında da təbliğat aparmışdılar ki, güya müsəlmanlar sizi qıracaqlar. Halbuki, uzun illər boyu bir yerdə yaşayan molokan və yəhudilərlə bir dəfə də olsun yerli türk-müsəlman əhalisi arasında qarşıdurma yaranmamışdı. Belə bir ağır vaxtda, Şamaxını tərk edən rus əsgərləri də öz hərbi hissələri və silahlarını ermənilərə təhvil verib gedirdilər. Bunun müqabilində Şamaxıda türk-müsəlman əhalisinin nə hərbi hissəsi, nə də silahlı dəstəsi var idi. Hətta, yerli ziyalılar, xüsusən müsəlman dindarları hər hansı qarşıdurmanın baş verməməsi üçün bütün qüvvələrini sərf etmişdilər. Lakin St.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti erməni hərbi hissələrini Şamaxıya göndərərək yerli türk-müsəlman əhaliyə qarşı dəhşətli qırğınlar törətməkdən çəkinməmişdir.

Şəhər sakinləri erməni və malakanların şəhəri mühasirəyə aldıqlarını görüb, gecə imkan tapan, ayaqyalın, başıaçıq şəhərdən qaçaraq didərgin düşmüşdülər.

Şamaxıya hücum edən erməni quldur dəstələrinin başında Stepan Lalayev (Lalayan) dururdu ("Daşnaksütyun" və Erməni Milli Şurasının üzvi olmuş Lalayev, 1918-ci ilin sonunda Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının sorğusuna cavab olaraq, Bakıdakı müttəfiklərin ingilis qoşunları tərəfindən həbs edilmiş və 1919-cu il noyabrın sonunda Gəncə həbsxanasında ölmüşdür).

Bu həmən Lalayevdir ki, Bakıda 1918-ci il mart qırğınında minlərlə dinc türk-müsəlman əhalisinin amansızcasına qətlə yetirilməsinə rəhbərlik etmişdir. FTK tərəfindən Bakıda dindirilən şahidlərin ifadələrində göstərilir ki, Lalayev bu ilin martın 19-da, birinci günü Nikolayevski küçəsində erməni əsgərlərinin hücumuna rəhbərlik etmişdir. Onun əsgərləri evlərə soxulmuş və silahsız, dinc müsəlmanları öldürmüşdülər(9, v.3-7). Başqa bir şahidin ifadəsində isə, S.Lalayev erməni silahlı dəstəsi yoldaşları Tatevos Əmirov, Sergey Məlikov və Arustam Tarcumanovla birlikdə Aşağı Təzəpir küçəsindəki Şıx Balayevin evini qarət edilməsinə əmr verməsi göstərilmişdi(9, v. 3-7).

Levon Şaumyan öz xatirəsində T.Əmirovu anarxist adlandırmış, lakin onun bolşeviklərə böyük köməklik etdiyini göstərmişdir. L.Şaumyan bu köməkliyi T.Əmirovun Stepanla (St.Şaumyan nəzərdə tutulur – A.V.) yaxşı münasibətin olması ilə əlaqələndirmişdi. Sonra o, Stepanın sayəsində ondan hərbi məsələlərdə yaxşı istifadə olunduğunu vurğulamışdı(10, v. 24). L.Şaumyan T.Əmirovdan "yaxşı istifadə olunduğunu yazsa da", bu istifadənin mahiyyətini açıb göstərməmişdir. Halbuki, L.Şaumyan T.Əmirovla birlikdə Bakıda və Şamaxıda türk-müsəlman əhlisinə qarşı kütləvi qırğınlarda aktiv iştirak etmişdir.

Stepan Lalayevin cinayətlərini araşdıran FTK-nın topladığı faktik materiallar subut etmişdir ki, onun Şamaxıda törətdilən dəhşətli qırğınlara rəhbərlik etməsi şahid ifadələrində də öz əksini tapmışdır. Şahidlərin dediyinə görə Stepan Lalayev özünün cinayətkar silahdaşları Samson Aspirov və Saatzazbekovla birlikdə böyük bir erməni əsgər dəstəsinin başında Şamaxıya gəlmişdir. Onun quldur dəstəsi burada qadın, uşaq və qocaların da gizləndiyi məscidə od vurub yandırmış, çıxıb qaçmaq istəyənləri isə güllələmişlər(9, v.3-7). On üç məhlə məscidi və məşhur müqəddəs Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm qibləgah kimi, həm də qədim abidə kimi əziz idi.

Şamaxıda böyük hörmət sahibi olan Axund Cəfərquluya amansız işgəncələr verilmişdi. Ermənilər axunda pənah gətirmiş saysız-hesabsız qadın və uşağı da öldürmüşdür(11, "Həyat" qəz. Bakı, 1992, 22 may, №100).

Ermənilər şəhər başçısı Teymur Xudaverdovu, birinci Dövlət Dumasının keçmiş üzvü Məmməd Tağı Əliyevi, o cümlədən, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seyidov, Hacı İbrahim Salamov, Ağa Əhmədov Əhmədov, Hacı Əbdül-Qasım Qasımov, Əyyübağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyəddin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlunu amansızcasına qətlə yetirmişdilər(12, v.18).

Ermənilər dinc insanları təkcə qətlə yetirməklə kifayətlənməmiş, eyni zamanda şəhərin ən abad, varlı və tanınmış şəxslərə məxsus evlərə od vurub yandırmışdılar. Abbas Səhhətin, M.Ə.Sabirin, S.M.Qənizadənin, C.Cəbrayılbəylinin, Müslüm bəyin, Hacı Qulamın, Məmmədtağı Əlizadənin, tacir Nurunun, Vahab bəyin, Murad Əfəndinin, Məşədi Əsədin (şair, müəllim Gövhər xanımın atası), Həqqi Veyisovun, Həbib bəy Mahmudbəyovun, Hacı Məmməd Əfəndinin, Nəcməddin Şirindilbəylinin və başqalarının evləri yandırılmış, dağıdılmışdı. Bu evləri, mülkləri yandırmaqla erməni daşnakları Azərbaycan elminə, maarifinə, ədəbiyyatına, incəsənətinə, tarixinə ağır zərbə vurmuşdu. Belə ki, o evlərdə elə sənədlər, elə kitablar, elə əlyazmaları məhv edilmişdir ki, onları nə tapmaq, nə bərpa etmək, nə də yenidən yaratmaq mümkün deyildi(13).

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatların – şahid ifadələri, zərərçəkənləri dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatları, ölən və yaralananların siyahısı və s. əsasında 58 kənd üzrə tərtib edilmiş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə ölənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu kəndlərin bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir: Nəvahi kəndində cəmi 995 nəfər azərbaycanlı öldürülmüşdü, onlardan da 555 nəfəri kişi, 260 nəfəri qadın və 140 nəfəri uşaq idi. Kəndə dəymiş ümumi maddi zərər 60 milyon manat olmuşdur. Yəhyalı kəndində 922 nəfər öldürülmüşdür ki, onlardan da 360 nəfəri kişi, 412 nəfəri qadın və 150 nəfəri uşaq idi. Kəndə dəymiş ümumi maddi zərər 22 milyon manat oliuşdur. Bağırlı kəndində 370 nəfər öldürülmüşdür ki, onlardan da 80 nəfəri kişi, 150 nəfəri qadın, 140 nəfəri uşaqlar olmuşdur. Kəndə dəyən ümumi zərər 12,5 milyon manat olmuşdur və s. Qalan bütün kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişdir(14, v.1-3).

FTK-nın 1919-cu il aprelin 16-da hazırladığı məlumatda 1918-ci ilin mart-aprel aylarında ermənilərin Şamaxı qəzasının müsəlman kəndlərinə hücum zamanı öldürülmüş insanların siyahısı verilmişdir:

v. 4. 1. kənd. Cagirli	kişi– 40,	qadın – 20,	uşaq– 15,	yaralanmış– 4
v. 14. 2. k. Ərəb-Qədim	200	100	78	yox
v. 18. 3. k. Camçamlı	15	5	6	yox
v. 27. 4. k. Murtı	4	yox	yox	yox
v. 31. 5. k. Talış-məlik:	11	4	1	yox
v. 36. 6. k. Miri-kənd	8	9	2	yox
v. 41. 7. k. Şərədil	0	5	5	yox
v. 22. 8. k. Quşi	192	115	25	yox
v. 45. 9. k. Şıx-məzid	10	5	3	yox
v. 49.10. k. Yuxarı-Çağan	1	yox	yox	yox
v. 55.11. k. Ağabəyli	7	3	4	yox
v. 56. 12. k. Qaravəlli	40	50	30	yox
v. 60. 13. k. Borbor-Navahi	15	10	5	yox
v. 64. 14. k. Təris-Çəpərli	10	15	10	yox
v. 71. 15. k. Kürdəmir	25	yox	yox	yox
v. 75. 16. k. Qonağkənd	25	5	4	2
v. 80. 17. k. Ovduculı	5	10	12	yox
v. 81. 18. k. Bağırlı	80	150	140	yox
v. 82. 19. k. Tağalı	360	412	150	1
v. 89. 20. k. Hacıman	40	60	30	2
v. 90. 21. k. Dilman	300	235	50	2
v. 93. 22. k. Kəlvə	250	150	100	yox
v. 97. 23. k. Xotman	60	40	20	7
v. 101. 24. k. Suraxanı	11	3	6	yox
v. 99. 25. k. Həsi-dərə	46	20	16	yox
v. 104. 26. k. Tərcan	300	40	20	yox
v. 106. 27. k. Talış nuri ?	20	5	yox	-
v. 108. 28. k. Sərdəhar	8	12	8	yox
v. 110. 29. k. Zərhava	40	4	5	yox
v. 112. 30. k. Xankəndi	12	2	yox	-
v. 114. 31. k. Təbiyə	12	3	2	yox
v. 116. 32. k. Məhəhi	6	1	1	yox
v. 118. 33. k. Təhləbən	7	22	7	yox
v. 123. 34. k. Kürdivən	10	5	7	yox
v. 121. 35. k. Kələrərəc	1	yox	-	-

v. 126. 36. k. Bizlən	50	30	20	yox
v. 128. k. Müci	150	55	25	yox
v. 129. 38. k. Qıratan	30	26	21	yox
v. 131. 39. k. Pir-Qara-Çuxa	4	3	5	yox
v. 133. 40. k. Sulut	38	2	4	yox
v. 136. 41. k. Zeyvə	30	20	32	yox
v. 138. 42. k. Nuran	30	50	37	yox
v. 140. 43. k. Nuğdı	40	7	10	yox
v. 2. 44. k. Kaşad	50	40	27	3
v. 34. 45. k. Sundu	cəmi 250			
v. 67 46. k. Şixlar	4	-	-	-
v. 74 47. k. Beklə	(16 ölü)			
v. 102. 48. k. Axsu	200 – 300 uşaq və qadın			
v. 106. 49. k. Qəməli	9 – 1 uşaq və qadın			
v. 112. 50. k. Məlik-Çoban	10	18	16	-
v. 119. 51. k. Çuxanlı	(cəmi 52 ölü)			
v. 122. 52. k. Qurbançı	(cəmi 93 ölü)			
v. 133. 53. k. Tatar-Mərəzəli	(cəmi 300)			
v. 139. 54. k. Nabur	(cəmi 60 ölü)			
v. 147. 55. k. Qaracuzlu	8			
v. 157. 56. k. Arab-Şahverdi	22			
v. 150. 57. k. Çaylı-Vahidbəyli	5			
v. 161. 58. k. Şıxzahirli	yox (15, v. 13).			

Ermənilər 1918-ci ilin mart-aprel aylarında Şamaxıya hücum zamanı yeddi min nəfər öldürülmüş, onlardanh 1653 qadın və 965 uşaq idi(16, v.4). Hətta, St.Şaumyanın başçılıq etdiyi Bakı Soveti ermənilərin Şamaxıda törətdiyi qırğınları dolayısı ilə etiraf etməyə məcbur olmuşdur. Belə ki, 1918-ci il aprelin 22-də Bakı fəhlə, əsgər və matros deputatları Soveti İcraiyyə Komitəsinin iclasında Şamaxı qəzasında vəziyyət haqqında qətnamə qəbul olunmuşdur. Həmin qətnamədə FTK-ya (Bakı Sovet tərəfindən yaradılan bolşevik komissiyası nəzərdə tutulur-A.V.) təklif olunmuşdur ki, baş vermiş hadisələr yoxlanılsın və müqəssirlər aşkara çıxarılsın(17, № 74, 1918).

Bolşevik Kojemyakonun rəhbərlik etdiyi fövqəladə təhqiqat komissiyasının araşdırmasından sonra Lalayev həbs olunmuşdur. Lakin Şaumyanın göstərişindən sonra o, həbsdən azad olmuş və 3-4 gündən sonra isə Fövqəladə Təhqiqat Komissiyası ləğv edilmişdir(18, v. 75-78).

Ayrı-ayrı partiya və sovet dövlət xadimlərinin, eləcədə 1917-1918-ci illərin siyasi proseslərində iştirak etmiş şəxslərin xatirələrində də Bakı Sovetinin erməni silahlı dəstələri tərəfindən Bakida və Azərbaycanın başqa bölgələrində türk-müsəlmanlara qarşı törətdikləri kütləvi qətliamlar bir daha öz təsdiqini tapmışdır. Yuxarıda göstərilən xatirələrdə, eyni zamanda Lalayevin Şamaxıda törətdiyi cinayət əməllərindən də bəhs olunur.

Bolşevik Boçarov "Şamaxı faciəsi" adlı xatirəsində Şamaxıda Lalayevin daşnak quldur dəstəsinin törətdiyi dəhşətli qırğınlar və qarətlərdən bəhs etmişdir. Onun xatirəsində əhalinin qətlə yetiril-

məsi, onların əmlakının qarət edilməsi, evlərin və meyidlərin yandırılması qeyd olunmuşdur. Boçarov yazırdı ki, bizim təcrübəsizliyimizdən istifadə edərək, Lalayev öz ətrafına soyğunçu, quldur dəstəsi yığaraq yaşayış məntəqələrinə basqın etmiş, yerli əhalini qorxudmuş (yeddi mindən çox insanın qətlə yetirilməsi qorxudmaq imiş-A.V.), onların mal-qaralarını əllərindən almış, qadınları zorlamışdılar. Lalayev yolda Muğanlı kəndindən olan bir qadını iki qızı ilə birgə güllələmişdilər(19, v. 84-85).

Bolşevik Hacıyev xatirəsində "Şaumyan və Caparidzenin tapşırığı ilə Şamaxıda sovet hakimiyyətini təşkil etmək üçün Məşədibəylə (Hacıyev Məşədi Əzizbəyovu bu cür cağırırdı – A.V.) Şamaxıya getmələrindən, burada daşnaklar tərəfindən onları öldürməyə cəhd göstərmələrindən, Aram Mirzəbekyanın "Məşədi bəy köhnə bolşevikdir" deməsi də ermənilər sakitləşdirmədiyindən, türkdür, deməli öldürməliyik demələrindən, lakin Aram Mirzəbekyan tərəfindən xilas olmalarından bəhs etmişdir. Hacıyev yazırdı ki, Mədrəsəyə gələndə burada insanlara əzab verildiyinin, qadınlar zorlandıqlarının, ermənilərin hamısı sərxoş olmalarının və dəhşətli özbaşınalıqlar törədiklərinin şahidi olduq. Daha sonra Hacıyev "bir aydan sonra Şamaxıdan Bakıya qayıdan Məşədi bəy vəziyyətlə bağlı Baksovetə məruzə etdiyini, xüsusi səlahiyyətlər verilmiş Sərdarovla Stalinqrada getmələrini, Stalinqradda Stalinlə görüşdüyünü, Şaumyanın məktubunu ona verməsini" qeyd etmişdir. O yazırdı ki, Stalin mart hadisələrinin çox uğursuz olduğundan Bakıda sovet hakimiyyətinin uzun müddət qala bilməyəcəyini bildirmiş və siz düzgün yanaşmadınız, bir milli qrupu digərinə qarşı qoydunuz demişdir(20, v.8).

Beləliklə, Çoxsaylı arxiv sənədləri və elmi-tədqiqat əsərləri sübut edir ki, ermənilər silahlandıran, onları dinc türk-müsəlman əhalisinin üzərinə göndərən St.Şaumyan olmuşdur. Məhz bunun nəticəsi olaraq, 1918-ci ilin martında Şaumyanın tapşırıqlarını həyata keçirən erməni silahlı dəstələri Şamaxıda yeddi mindən çox türk-müsəlmanı qətlə yetirmiş, onlara məxsus əmlakları qarət etmiş və ictimai binaları yandırmışdılar.

İstifadə edilmiş ədəbiyyat

1. AzərbaycanRespublikası Dövlət Arxivi (ARDA), f. 100, siy.2, iş 791, v.106-107.
2. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair.Bakı:Azərnəşr,1992,77 s. S. 3.
3. Azərbaycan Respublikası İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPIISSA), f.277, siy.2, iş 16,
4. ARDA, f.1061, siy.1, iş 108.
5. ARDA, f.1061, siy.1, iş 105.
6. ARDA, f.1061, siy.1, iş 85.
7. Газ. «Известия Кавк. Краев. Центра Сов. Рабоч., Солд. и крест. Деп. и Тифл. Совета рабоч. и солд. Деп». № 72, 1918.* Председатель Елисаветпольского мусульманского национального совета Хасмамедов 28 марта телеграфирует председателю сейма и председателю Закавказского правительства: 18 марта большевиками выслан из Баку отряд в составе 2000 хорошо вооруженных солдат при артиллерии и пулеметах по направлению Шемахинского уезда. Отряд по пути уничтожил более 15 мусульманских селений, разгромил гор. Шемаху. Тысячи мусульман, в том числе женщин и детей вырезано. Бедствия не поддаются описанию. Издевательства и насилия перешли всякие границы. Необходима немедленная правительственная помощь.Из газ. «Известия Кавк. Краев, центра Сов. раб. солд. И крестьянских депутатов и Тифлис. Сов. рабоч. И солд. Депутатов № 72. От 30 марта 1918 г., стр. 3, кол. 3.
8. Газ. «Азербайджан», № 67, 1919.
9. ARDA – f. 1061, siy. 1, iş 6.
10. ARPİİSSA, f.303, ciy.1, iş 60.
11. ARDA, f. 1061, siy. 1, iş 6.
12. Quliyev D.P. Tarix şahiddir ki. 1918-1920-ci illərin hadisələri bu günün gözü ilə: faktlar və şərhlər. "Həyat" qəz. Bakı, 1992, 22 may, №100.
13. ARPIISSA, f.277, siy.2, iş 16.
14. Seyfəddin Qəniyev. Şamaxı soyqırımı – təkzibolunmaz faktlar. fact info.az›ts_general/azl/aktual_az/aktual-…
15. ARDA, f.1061, siy.1, iş 85.
16. ARDA 1061, siy. 1, iş 6.
17. ARDA, f. 1061, siy. 1, iş 105.
18. Газ. «Бакинский рабочий», № 74, 1918.
19. ARPİİSSA, f. 276, siy.2, iş 20.
20. ARPİİSSA, f. 276, siy. 2, iş 20.

Bəhman Kərimov
AMEA Milli Azərbaycan Tarixi Muzeyinin
aparıcı elmi işçisi, t.ü.f.d.
E-mail: behmen_76@mail.ru

LƏNKƏRAN QƏZASINDA ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ SOYQIRIM

Açar sözlər: Azərbaycanlılar, Lənkəran qəzası, soyqırım, erməni-bolşevik.
Ключевые слова: Азербайджанцы, Ленкоранский уезд, геноцид, армяно-большевистский.
Key words: Azerbaijanis, Lenkoran, region, genocide, Armenian-Bolshevist.

XX əsrin əvvəllərində başlayaraq ermənilərin xalqımızın başına gətirdikləri müsibətlər Azərbaycan tarixində ən qanlı hadisələrdən biri kimi yaddaşımızda silinməz izlər buraxmışdır. Bu dövrdə baş vermiş hadisələr nəticəsində on minlərlə dinc soydaşımız bolşeviklərin havadarlığı ilə erməni daşnak quldur dəstələri tərəfindən soyqırıma məruz qalmışdır.

1918-ci ilin martın sonu, aprelin əvvəlində Bakıda ermənipərəst bolşevik rəhbərliyinin fəal iştirakı ilə milli zəmində törədilmiş dəhşətli qırğın nəticəsin-də minlərlə dinc azərbaycanlı əhalisi öldürülmüş, təhqir və işgəncələrə məruz qalmışdır. Bu qanlı hadisə tezliklə Bakı hüdudlarından kənara çıxmış, bolşevik-erməni daşnak quldur dəstələri tərəfindən digər Azərbaycan qəzalarında olduğu kimi, Lənkəran qəzasını da tutmaqla, talan etmiş, dinc əhali amansızcasına öldürülmüşlər. Bu məqsədyönlü talanlar, qırğınlar zamanı nə qocaya, nə cavana, nə də körpələrə aman verilməmiş, insanlar vəhşicəsinə qətlə yetirmişlər.

Zaqafqaziyada hakimiyyəti ələ almağa çalışan Bakıdakı bolşevik-erməni hökuməti güya "qəza zəhmətkeşlərinə kömək etmək haqqında xahişini nəzərə almaqla Lənkərana qoşun yeritmişdir". Əsl həqiqət isə Lənkəranın mühüm strateji və ərzaq rayonu olması idi. O, Bakının arxası və ingilislərin ağalıq etdikləri İran ilə həmsərhəd idi. Lənkəran vasitəsilə Orta Asiya və Həştərxanla əlaqə saxlamaq, Sovet Rusiyasından məsləhət və kömək almaq mümkün idi. Bu baxımdan Lənkəranın əldə saxlanması bolşeviklər üçün olduqca vacib idi.

Bu dövrdə Azərbaycan ərazisini müdafiə edə biləcək ordu hissələri yox idi. Çünki I Dünya müharibəsi zamanı (1914-1917-ci illər) müsəlmanlar, o cümlədən azərbaycanlılar səfərbərliyə alınmamışdı. Bu dövrdə müsəlmanlar-dan ibarət yeganə silahlı dəstə I Dünya müharibəsi cəbhəsindən qayıdaraq Lənkəranda yerləşən "Dikaya Diviziya"nın süvari polku idi ki, onların sayı az olmaqla bərabər, həm də texnika cəhətdən yaxşı təchiz olunmuşdu.

Lənkəran qəzasını ələ keçirməyə çalışan Şaumyanın əsas məqsədlərindən biri də, milli qüvvələrin - Sultan bəy Qulubəyov, Aslan Talışinski 1917-ci ildə təşkil etdiyi milli alayı və Lənkəranda olan "Dikaya diviziya"nı tərksilah etməklə, bölgəni tam şəkildə ələ keçirmək idi.

Lənkəran qəzasında milli qüvvələrin böyük üstünlüyə malik olduğunu görən Bakıdakı bolşevik-erməni daşnak qüvvələri Bakı qırğını ilə kifayətlənməyərək Şaumyanın sərəncamı və erməni milli şurasının göstərişi ilə Lənkəranda olan "Dikaya diviziya"nı tərk-silah etmək üçün, tərkibində ermənilərdən təşkil olunmuş 280 nəfərlik silahlı bolşevik-erməni ordusu quru yol ilə Muğana, bir qismi də dəniz yolu ilə Lənkərana göndərilmişdi (1, 73). Bu aksiyaların məqsədi Bakı Sovetinə tabe olmayan "dikaya diviziya"nı tərk-silah etmək idi. 1918-ci ilin aprelin 12-dən başlayaraq Lənkəran qəzasına basqın edən bu quldur dəstə yolboyu azğınlıq etməklə müsəlman kəndlərini talayaraq dağıdaraq yandırmış və Lənkəran əhalisinə divan tutmuşdur.

Bu məlumatlar 1918-ci il mart soyqırımı ilə bağlı yaradılmış Fövqəladə Təhqiqat Komissiyanın məlumatında da öz əksini tapmışdır. Komissiyanın sədri Xasməmmədov xarici işlər nazirinə yazırdı ki, "Avropa sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Şamaxı, Quba şəhərlərində, Şamaxı, Göyçay, Cavad, Lənkəran və Quba qəzalarında türk-müsəlman əhalisinə qarşı daşnak-bolşevik birləşmələri tərəfindən törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatlar kifayət qədərdir ‹.....›. Lənkəran qəzası polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsi isə polkovnik İllarinoviç başda olmaqla başqa bir dəstə tərəfindən ‹……›, böyük dağıntı törədilərək, azərbaycanlı əhali ucdantutma məhv edilmişdir.

Lənkəranda olan "Dikaya diviziya"nı tərk-silah etmək üçün dəniz vasitəsilə bolşevik dəstələri göndərilmişdi. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə edilirdi.

Lənkəran qəzasına hərəkət edən bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar. Astara bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran ara-sındakı müsəlman kəndləri "Aleksandr Jandar" gəmisi tərəfindən top atəşinə tutuldu. Yanvarda başlanan (1918-ci ilin-B.K.) bu qırğınlar martda daha da şiddət etdi" (5, 85-86; 4, v.2).

Sovet tarixşünaslığında Lənkəran qəzasında erməni vəhşilikləri təhrif edilərək yazılır: "Bakıdan gəlmiş sovet qoşunları dəstəsi aprelin 14-də Lənkəranı azad etdi. Qırmızı qvardiyadan və Qırmızı ordudan olan yoldaşlarımızın qabaqcıl dəstələri Lənkəranda, Sovet hakimiyyəti qururlar". Göründüyü kimi, Şaumyanın rəhbərlik etdiyi Bakı bolşevikləri ermənilərin əli ilə qətliamlar törətdikdən sonra, 1918-ci il aprelin 14-də Lənkəranda, adına Sovet hakimiyyəti demələrinə baxmayaraq, əslində erməni hökumətini qurmuşdular (1, 73-74).

Ümumilikdə, ermənilər 1918-ci ilin mart ayına qədər Lənkəranın 40 kəndində dinc sakinləri vəhşiliklə qətlə yetirmişlər. Sovet tarixşünaslığında bu hadisələrlə bağlı qeyd edilir ki, güya "Millətçilər zəhmətkeşlərin diqqətini sinifi mübarizədən yayındırmaq məqsədi ilə Zaqafqaziyanın çox yerində milli ədavət törətdikləri kimi Lənkəran qəzasında da belə ədavət törətmişdilər. Müsavatçılar, eserlər və qeyriləri bu ədavətin əsas təşkilatçıları idilər. Milli ədavətin nəticəsində qəzada 40-a yaxın kənd yandırılmış, yüzlərlə günahsız adam, habelə qadınlar və uşaqlar məhv edilmişdilər" (7, 42-43). Göründüyü kimi milli qüvvələri bu qırğınların səbəbkarı kimi göstərməklə, bölgədə bolşeviklərin havadarlığı ilə ermənilərin törətdikləri soyqırımı gizlədilmiş və təhrif edilmişdir.

Bu hadisələrin şahidləri olan yerli sakinlər qeyd edirlər ki, 1917-ci ilin oktyabrından 1918-ci ilin may ayına qədərki bir müddət ərzində denikinçi komandan Şevkunovun quldur dəstəsinə rəhbərlik edən daşnak Akopyan və ermənipərəst eser Sinayev Lənkəranı özlərinə qərargah etmişdilər. Onlar törətdikləri vəhşiliklərə belə haqq qazandırırlar ki, guya Lənkəran qəzasını qaçaq-quldurlardan qoruyurlar. Bu məqsədlə onlar dəfələrlə şəhər və kəndləri dənizdən top atəşinə tutmuşlar. O dövrü yerli camaat qaçhaqaç dövrü kimi yadda saxlayıb. Sakinlər əliyalın olduğundan, atışma başlayan kimi meşələrə üz tutub. Bunun qarşısını almaq üçün hərbçilərlə danışığa gedən Sütəmurdov kəndinin 13 ağsaqqalı hərbçilərlə belə bir şərt kəsiblər ki, dinc əhaliyə toxunmayacağı tədqirdə, əvəzində onlara lazım olan ərzağı veriləcəklər. Lakin bu təkliflərinə baxmayaraq quldur dəstəsi, onları öldürərək, qılıncla tikə-tikə doğrayıb və bir yeşikdə torpağa basdırıblar. Onlara müqavimət göstərənləri isə öldürərək, meyidlərini yandırırdılar. Hətta bir cavanın kürəyinə qaynar qazan bağlayaraq yeriməyə məcbur ediblər. Sonra isə güllələyiblər (14).

Arxiv mənbələrinin birində qeyd edilir ki, "Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. Onlar müsəlman yeməkxanalarına girib oradakıları təhqir edir, yediklərinin pulunu vermir, özlərini Osmanlı türklərindən qorumaq üçün onları səngər qazmağa məcbur edirdilər. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi keçirilən məscidlərə girib, müsəlmanlara öz təziyyələrini keçirməyə mane olurdular. Müsəlman əhalisi dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər ora soxularaq müsəlmanları qarət edir, məscidi isə yandırmaq istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdı və minlərlə günahsız insanın həyatına son qoydular". 1919-cu ilin avqustunda "Molokan qiyamı" yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu (5, 86; 2; 3, f. 277, siy. 2, iş 16, v. 18).

Bu dövrdə, Lənkəran qəzasında ermənilər xalqa qarşı öz cinayətkar əməllərindən əl çəkməyərək törətdikləri qırğınların miqyasını günü-gündən genişləndirirdilər. Bu qırğınların qarşısının alınması üçün 1918-ci il noyabrın 1-də müsəlman cəmiyyətinin səlahiyyətli nümayəndəsi Teymurbəy Bayraməlibəyov Bakıda olan Türk ordusunun baş komandanı Nuru Paşanın qəbulunda olmuşdu. O, Avetisovun quldur dəstəsinin özbaşınalığı haqqında ona məlumat vermiş və lənkəranlıların bu ağır vəziyyətdən qurtarmasını ondan xahiş etdilər. Görüşdə Nuru Paşa lənkəranlıların səlahiyyətli nümayəndəsinə bildirmişdi ki, türklər sizə hərtərəfli köməklik göstəcək və adıçəkilən dəstənin bütün özbaşınalığının qarşısı alınacaqdır. Sonda Nuru Paşa bildirmişdi ki, müsəlmanlara çatdırın ki, onlar çox da gözləməyəçəklər (11, 59; 1, 130).

Osmanlı ordusu Azərbaycanı tərk etdikdən sonra ermənilərin qəzada özbaşınalığı və qırğınları daha da artdı. Avqustun əvvəllərindən ingilis hərbiçilərinin hərtərəfli köməyi ilə "beşlər diktaturası"nın ağ ordusu Lənkəran qəzasını ələ keçirməklə bölgəyə sahib olmuş (1, 90) və buranı nəzarətdə saxlamaq üçün İlyaşeviçin 10 min, polkovnik erməni Makarovun 3 min, polkovnik Avetisovun 2 min nəfərlik ordusuna havadarlıq edirdilər. Bu qüvvələrin qəzada vəhşiliyi, zülm, özbaşnalığı, qətil və qarəti görünməmiş şəkildə artmışdır. "İngilis agenti olan Avetisovun dəstəsinin təhqir və təcavüzü, talan və soyğunçuluğu daha qanlı və daha dəhşətli şəkil almışdı. Bu dəstə cəllad Avetisovun göstərişi ilə yerli əhaliyə, divan tuturdu" (5, 71-72).

Bu qırğınların qarşısının alınması üçün 1918-ci il noyabrın 14-də görkəmli maarif xadimi Teymur bəy Bayraməlibəyov, Axund Molla Əli Tağızadə və Yusif Qəribzadə ilə birlikdə İrandakı Böyük Britaniya konsulu Hevelke ilə görüşdülər. Nümayəndələr Avetisovun başçılığı altında erməni silahlı dəstələrinin Muğanda və Lənkəranda dinc əhaliyə divan tutduğuna dair sənədləri Hevelkeyə təqdim etməklə, onlar konsula ingilis ordularının Azərbaycana gəlişi ilə erməni silahlı dəstələrinin qəddarlığının arta biləcəyi ehtima-lını söylədilər. Nümayəndələr ingilis konsulundan erməni silahlı dəstələrinin hərəkətlərinin qarşısını almağa diqqət yetirməyi xahiş etdilər (5, 215-216).

Lakin bütün bunlara baxmayaraq qəzada ermənilərin dinc əhaliyə qarşı qırğınları hələ də davam edirdi. Lənkəranda ermənilərin və denikinçi qüvvələrin törətdikləri qarətlərin, qırğınların qarşısını almaq məqsədilə 1918-i il dekabrın 28-də Teymur bəy Bayraməlibəyovun başçılıq etdiyi nümayəndə heyəti Bakıda general Tomsonla görüşərək ermənilərin, "denikinçilərin qəzanı bərbad hala saldıqlarını, xüsusən müsəlmanlara divan tutmaları haqqında ona məlumat verərək, qəzanın bu qüvvələrdən təmizlənməsini və onun Azərbaycanla yenidən birləşdirilməsi haqqında tədbirlər görülməsini xahiş etdilər" (5, 73-74).

Ermənilərin Lənkəran qəzasında törətdikləri vəhşiliklər haqqında məlu-matlar 1918-1920-ci illərdə nəşr edilmiş "Azərbaycan" qəzetinin səhifələrində də öz əksini tapışdır. Qəzetdə qeyd edilir ki, "Lənkəranda erməni silahlı dəstələri müsəlmanlar arasında səbəbsiz axtarışlar və həbsləri davan etdirməklə hər gecə neçə günahsız ailəni bədbəxt edirlər" (6, 14). "Yalan xəbərlər və əsassız şübhələr ilə ermənilər müsəlmanların evlərini axtarır, onları hər cür təhqir edir və həbs etdirirdilər. Həbsxanaya apararkən, yolda güya qaçmaq istədiklərini bəhanə edərək, onları güllələyirdilər. Onlar əsassız ittihamlarla arvadlı-uşaqlı bütün ailəni tutub həbs etdirirdilər. Adamları sorğu-sualsız öldürürdülər. Avetisovun əsgərləri müsəlmanlar haqqında etdikləri vəhşilik və zülmlər sayəsində çoxlu sayda şəhər sakini öldürülmüşdü. Qorxu və vahimə içərisində olan camaat küçəyə çıxmaqdan qorxaraq evlərdə gizlənirdilər" (6, 15 noyabr 1918-ci il, № 36).

"Azərbaycan" qəzetinin 1918-ci il 8 noyabr tarixli 29-cu sayında Lənkəranda hakimiyyəti öz əlində cəmləşdirən "Sentr Kaspiy Soyuz" təşkilatı haqqında məqalədə qeyd edilir ki, bu təşkilat şəhər və kəndlərdən Bakıya getməyə heç kəsə icazə vermir. "İnsanlar qorxu içində yaşayırlar. Bu qatmaqarışıq nə vaxta qədər davam edəcək, bilinmir. Əgər yaxın vaxtlarda bu bəladan qurtarmaq üçün bizə kömək gəlməsə, Bakı və Lənkəran arasında azad yol bərpa olunmasa, qanun-qayda yaranmasa, biz müsəlmanlar qırılıb yoxa çıxacağıq.

Lənkəranda İlyaşeviçin kəşfiyyat dəstəsinin etdiyi vəhşiliyi qələmə alan T. Bayraməlibəyov "Azərbaycan" qəzetinin 10 noyabr 1918-ci il tarixli 31-ci sayındakı məlumat xarakterli məqaləsində yazırdı: "Lənkəranda Avetisovun soyğunçu dəstəsini İlyaşeviçin rüsvayçılıqlar törədən kəşfiyyat dəstəsi əvəz etdi. Bu dəstə əhalinin asayişini qorumaq əvəzinə, evlərə basqın edir, müsəlmanları öldürürdülər.

Müsəlman kəndlilərinin vəziyyəti dözülməzdir, çünki onların əlindən hər cür silahlar, hətta tüfəngləri də alınmışdır. Bütün silahlarını quldurbaşı İlyaşeviçə təhvil verən əhali yanıldığını sonradan anlamışdır. Gec də olsa, başa düşmüşdü ki, o, qəddar, zalım, rəhmsiz və tülkü cildinə girmiş adam olsa da, əslində canavar xislətli yırtıcıdır.

Erməni silahlı dəstələrin zülmündən cana doyan Lənkəran nümayəndələri dövlət kontorunda olublar. Noyabrın 8-də Lənkəran nümayəndə heyətinin üzvlərindən Teymur bəy Bayraməlibəyov dövlət müfəttişi Əbdüləli bəy Əmircanlının qəbulunda olmuşdur. Nümayəndə Lənkəran şəhərində və ətraf kəndlərdə müsəlmanların Avetisovun və İlyaşeviçin dəstələrindən gördükləri əziyyətləri, zülm və təhqirləri dövlət müfəttişinə xəbər vermişlər. Əbdüləli bəy Əmircanlı söz verib ki, siyasi yolla hökumət Lənkəran qəzasında bütün hüquqları bərpa edib vəziyyəti qaydaya salacaqdır" (6, 8 noyabr 1918-ci il, № 29).

Yerli əhalinin vəziyyətinin günü-gündən ağırlaşdığını, dözülməz olduğunu Teymur bəy "Azərbaycan" qəzetinin 15 noyabr 1918-ci il tarixli 36-cı sayında çap etdirdiyi digər bir məqaləsində təsvir edərək yazırdı ki, "Avetisovun dəstəsi hakimiyyətin ona hər cür imkan verməsindən istifadə edərək, bu günə qədər heç bir maneçiliyə rast gəlmədən evlərdə yoxlama aparmağı, mənzilləri qarət etməyi, köməksiz müsəlmanları tutmağı, lazım gələrsə, öldürməyi davam etdirir.

Lənkəranda vəziyyəti Xalq Cümhuriyyətinin siyasi və hərbi çətinliklərindən istifadə edərək yerli oyuncaq qurumlar daha da gərginləşdirirlər. Avetisovon qoşunu əvvəlki kimi xalqı soyub talamaqda və müsəlmanları qətl, qarət etməkdə davam edir, adamlar günahsız həbs olunurdu. Avetisovun erməni dəstəsinin dinc əhaliyə elədiyi zülümlərə aşağıdakı hadisələri misal göstərmək olar. Noyabrın birinci günlərində beş silahlı erməni döyüşçü güya evlərdə gizlədilmiş silahları tapmaq bəhanəsi ilə gecə Əkbər Qəribov və Xəlil Nəcəfqulu oğlunun mənzillərinə basqın edərək orada ciddi yoxlama aparmış və heç bir günahı olmayan ev sahiblərini öldürmüş, qızıl və digər qiymətli əşyaları götürüb getmişlər. Bu hadisənin şahidi olan qonşular, silahlı soyğunçular tərəfindən öldürüləcəklərindən ehtiyat etdiklərinə görə qonşularına kömək edə bilməmişlər.

Baş verən bu xoşagəlməz hadisələr şəhərdə sənaye və ticarətin iflic vəziyyətə düşməsinə səbəb olmuş, çörək və digər ərzaq məhsullarının qəzaya idxalı dayandırılmışdır. Lakin müxtəlif dövlətlər tərəfindən yerli əhalinin ehtiyaclarını ödəmək üçün şəhərə göndərilən ərzaq məhsullarını Avetisovun dəstəsi müsadirə edərək kirjim vasitəsilə İlyaşeviçin Sara adasında yerləşən əsgərlərinə yollamışdı. Nəticədə orada yaşayan adamların dolanması üçün iki illik ərzaq ehtiyatı toplanmışdı. Şəhərdə isə bahalıq baş alıb gedirdi. Yerli müsəlmanların əlindən taxıl zəmiləri alınmış, Xırmandalı, Əminli, Qədirli, Qarğalıq, Körəkli, Əlişanlı, Təklə, Hüseyn Hacılı, Həsənli, Yeddioymaq kəndləri ermənilər tərəfindən yandırılmışdır. Əlişanlı, Xıl və Yeddioymaq kəndlərində olan əkin yerləri də müsəlmanların əlindən alınmışdı. Alınmış əkin sahələri bu yerlərə köçürülmüş mühacir ruslara verilmiş, adı çəkilən kəndlərin əhalisi isə evsiz-eşiksiz, torpaqsız və müdafiəsiz qalmışlar. Ağır güzaran keçirən kəndlilər öz kəndlərinə, öz evlərinə qayıtmaq istəyirdilər ki, yenidən evlərini, təsərrüfatlarını bərpa etsinlər. Lakin onlara ciddi şəkildə xəbərdarlıq edilmişdi ki, bir daha öz yerlərinə qayıtmasınlar. Əlacsız və çətin vəziyyətdə qalan Lənkəran müsəlmanları nicat yolunu Azərbaycan ordusunun birliyində, gücündə, iradə möhkəmliyində görür və ümid edirlər ki, bu ordunun köməyi ilə onlar azadlığa çıxacaq və evlərinə qayıda biləcəklər" (6, 15 noyabr 1918-ci il, №36).

T.Bayraməlibəyov "Azərbaycan" qəzetinin 18 noyabr 1918-ci il tarixli 39-cu sayında yazırdı: "Dəhşətlər, biabırçılıqlar törədən və cəzasız qalan Avetisovun hər gün qan tökən quldur dəstəsi buradan getməsə, yerli əhali, xüsusilə müsəlmanlar bundan sonra öz halal dədə-baba torpaqlarında rahat yaşaya bilməzlər" (6, 18 noyabr 1918-ci il, №39).

Müəllif sonra yazır: "Noyabr ayında ingilis əsgəri dəstələrinin Lənkərana gələcəyi gözlənilir. Eyni zamanda İngilis əsgərlərinin Avetisovun dəstəsi ilə birləşəcəyi barədə şayiələr dolaşmaqdadı. Bu xəbəri eşidən yerli əhali böyük narahatçılıqlar bildirib yazırlar ki, biz ancaq bunu yəqin etmişik ki, Avetisovun əsgərləri Lənkərandan getməyincə müsəlmanlar öz evlərində rahat nəfəs ala bilməyəcəklər. Yerli əhalinin cürbəcür dəhşətlərdən, faciələrdən və hədsiz qanunsuzluqlardan xilas olması üçün Avetisovun dəstəsinin buranı tərk etməsi vacibdir. Yerli əhaliyə olan bu haqsızlıqları Xalq Cümhuriyyətinə çatdırmaq üçün Lənkəran müsəlmanlarının nümayəndə heyəti Bakıya gedərək, noyabrın 19-da xarici işlər naziri ilə görüşərək, Lənkəran nahiyəsində müsəlman əhalisinin Avetisovun dəstəsi tərəfindən min cür təhqirlərə və əziyyətlərə məruz qal-maları barədə məlumat verərək, nazirdən Şimalı İran ordusunun baş komandanı general Tomsonun köməyilə Avetisovun dəstəsinin oradan çıxarılmasına təşəbbüs etməsini xahiş etmişlərdir" (6, 18 noyabr 1918-ci il, №39).

"Azərbaycan" qəzetinin 4 yanvar 1919-cu il tarixli 3-cü sayında çap olunan məqalədə deyilir ki, Lənkəran əyalətindəki müsəlmanlara vəkil edilmiş Teymur bəy Bayraməlibəyov tərəfindən yanvarın 2-də Azərbaycan Nazirlər Sovetinin sədrinə ərizə ilə müraciət edilmişdir. Ərizədə deyilir ki, "Hal-hazırda Lənkəran müsəlmanlarının ərazisini zəbt etmiş "Kavkaz-Kaspiy-Soyuz" onları ədalətsizliyə, işgəncələrə, zorakılığa məruz qoymuşdur. Hər yerdə qəsbkarlıq, özbaşınalıq, zorakılıq baş alıb gedir. Bədbəxt müsəlmanlar həyatda yaşamaq üçün heç yerdə özlərinə sığınacaq tapa bilmirlər. Lənkəranlıların acınacaqlı vəziyyətini nəzərə alaraq Dövlətlər İttifaqının Qərargahı ərazidə qanun-qayda yaratmaq və Lənkəranın Azərbaycan hökumətinin tabeçiliyinə keçənədək buradakı

vəziyyəti nəzarətdə saxlamaq üçün üç zabit və 30 ingilis əsgərindən ibarət kiçik bir dəstə ezam edilsə, qəzada ədalətsizliyə, yersiz təqiblərə son qoyular" (6, 4 yanvar 1919-cu il, №3; 7, 186).

"Azərbaycan" qəzetinin 1919-cu il 29 yanvar tarixində, 100-cü sayında "Lənkəran" sərlövhələri altında gedən məqalədə Teymur bəy Bayraməlibəyov dinc əhaliyə işgəncə verən və soyğunçuluqla məşğul olan ermənilərin simasızlığından danışaraq qeyd edir ki, "Yanvar ayının 22-də Hüseynəli Rzaəli oğlu bazarda Şəhab molla İsgəndər oğlunun dükanında əyləşərkən erməni əsgərləri dükanı əhatəyə alıb güllə atmağa başlamışlar. Fürsətdən istifadə edən silahlı erməni əsgərləri isə dükanları soyub aparmışlar" (29 yanvar 1919-cu il, №100).

"Azərbaycan" qəzetinin 14 mart 1919-cu il tarixli nömrəsində bu dövrdəki Lənkəran qəzasının ümumi vəziyyəti şərh edilərək qeyd olunur ki, "Mart hadisələrindən sonra (1918-ci il mart soyqırımı nəzərdə tutulur-B.K.) Lənkərana bolşeviklərlə bərabər erməni daşnakları da gəldilər. Bundan sonra erməni Avetisovun başçılığı ilə daşnak hərbi hisissələri müsəlman kəndlərinin axırına çıxdılar. Olmazın zülmlər, əziyyətlər verdilər. Yollar kəsildi. Əhali şikayət etməyə bir yer tapmadı. Türklər Bakıya gəldikləri zaman Muğan ətrafının bolşevikləri ilə əlaqələri kəsildi. Buradakı sərsərilər "Muğan hökuməti" adı ilə dağıdıcı bir qurum düzəltməklə, müsəlmanları soymağa və qırmağa başladılar" (6, 14 mart 1919-cu il).

"Azərbaycan" qəzetinin 18 may 1919-cu il tarixli 103-cü sayında "Lənkəranlıların fəryadı" adlı məqalədə qeyd edilir ki, "Artıq bir ildən çoxdur ki, Lənkəranın əsasən müsəlmanlardan ibarət olan əhalisi hakimiyyət uğrunda mübarizə aparanların əlində yanır. Son günlərdə hakimiyyət bolşeviklərin əlinə keçmişdir. Ərazidə həbslər və Denikinin havadarlarına qarşı təqiblər başlanmışdır. Lənkəranda bolşeviklər partiyası ilə denikinçilər arasında böyük toqquşmalar baş verdiyindən, bazarda alış-veriş dayandırılmış, yerli tacirlərin – müsəlmanların malları yandırılmışdır (6, 18 may 1919-cu il, №103).

Beləliklə, iki ilə yaxın bir müddət ərzində Lənkəran qəzasında ermənilə-rin törətdikləri qırğınlara 1919-cu ilin yayında - Camal Paşanın komandanlığı ilə Türk ordusunun və Azərbaycan Milli Ordusunun Lənkəran qəzasına daxil olduğu vaxtdan son qoyuldu. Nəticədə, qəzanın milli qüvvələrin əlinə keçməsi ilə, əhali qırğından, talanlardan xilas olmuş və Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir.

Ədəbiyyat

1. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan, 2007, 163 s.
2. Anar İsgəndərov. 1918-1920-ci illər türk-müsəlman soyqırımları. Bakı, "525-ci qəzet", 2009-cu il 18 aprel .
3. AR Prezidentinin İşlər İdarəsinin yanında Siyasi Sənədlər Arxivi. F. 277, siy. 2, iş 16, v. 18.
4. ARDA, f.100, siy. 2, iş 791.
5. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Baki: Nurlan, 2008, 696 s.
6. "Azərbaycan" qəzeti. 1918-1919-cu illər.
7. Əlizadə N. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən (Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizəsi). Bakı: Azərnəşr, 1974, 152 s.
8. Görüryilmaz Mustafa. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). Bakı: Qismət, 2009, 408 s.
9. Miralayev T. Azərbaycanın qırmızı qvardiyaçıları və qırmızı partizanları. Bakı: Azərnəşr, 1970, 130 s.
10. Nəcəfov B. İ. Düşmənin iç üzü. XIX-əsrin sonu XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. II hissə. Bakı: Çaşıoğlu, 2006, 436 s.
11. Халилов А.Х. Геноцид против мусульманского населения Закавказья в 1917 - 1920 гг. в исторических источниках. Баку: Азернешр, 2000, 120 с.
12. Раевский А. Английская интервенция и Мусаватское правительство (к истории интервенции и контрреволюции в Азербайджане). Баку: Красный Восток, 1927, 191 с.
13. Привольный А.А. Над Муганью зарево Октября. Баку: Азернешр, 1967, 199 с.
14. www.lenkoran.gov.az

Бахрам Керимов

ГЕНОЦИД, СОВЕРШЕННЫЙ АРМЯНАМИ В ЛЕНКОРАНСКОМ УЕЗДЕ

Резюме

Бедствия, причиненные азербайджанскому народу армянами в начале прошлого столетия, оставили в памяти неизгладимый след, как одно из самых кровавых событий в истории Азербайджана. В результате этой резни десятки тысяч мирных соотечественников подверглись геноциду со стороны армянских бандформирований под покровительством большевиков.

Организаторами геноцида стали Бакинские большевики во главе с Шаумяном, а исполнителями – армянские дашнакские военные части. Геноцид, учиненный в Баку в марте-апреле 1918 г. при активном участии большевистского руководства вскоре перекинулся за пределы города. Ленкорань как и другие уезды Азербайджана был полностью разграблен армянскими бандитскими отрядами, а мирное население беспощадно уничтожено. Во время этого целенаправленного грабежа и резни людей зверски убивали, не жалея ни женщин ни стариков, ни молодых, ни детей.

В результате этой резни с начала 1918 по август 1919 гг. только на территории Ленкоранского уезда армянские и русские формирования лишили жизни более 2 тыс. человек.

Bahram Karimov

GENOCIDE COMMITTED BY ARMENIANS IN LENKORAN

Summary

The slaughters intentionally committee against our nation by Armenians in the beginning of the last century, left in our memory an indelible mark as one of the most bloody events in the history of Azerbaijan.

As a result of this slaughter tens of thousands of our innocent compatriots underwent a genocide by the Armenian bands under the protection of Bolsheviks. The leader of Baku Bolsheviks was Shaumian and the executors were Armenian Dashnak military detachments. In March-April, 1918 the terrible slaughter committed in Baku by active participation of Bolshevist's guidance soon transcended beyond the city. Lenkoran, as well as other districts of Azerbaijan were completely plundered by the Armenian gangster detached forces, and the innocent civilians were ruthlessly killed. During this purposeful robbery and slaughter people were brutally killed, with no mercy for the old and children. From the beginning of 1918 till August, 1919, as a result of this slaughter, the Armenian and Russian formations killed more than 2000 people only in the territory of Lenkoran.

Mehmet Emin Dinç
Yrd. Doç. Dr. Adıyaman Üniversitesi
medadas@gmail.com

BİRİNCİ DÜNYA HARBİ' NDE ŞARK ORDULARI GRUBU, HALİL (KUT) PAŞA VE BAKU'NUN KURTULUŞU

Anahtar Kelimeler: Azerbaycan, Baku'nun Zabtı, Halil Paşa, Nuri Paşa, Kafkas İslam Ordusu, Şark Ordular Grubu.
Açar sözlər: Azərbaycan, Bakının işğalı, Xəlil paşa, Nuri Paşa, Qafqaz İslam Ordusu, Şərq orduları qrupu
Key Words: Azerbaijan, the invading of Baku, Halil Pasha, Nuri Pasha, Caucasian Islamic Army, Oriental Armies Group

Giriş:

Birinci Dünya Savaşı, Osmanlı devleti için bir yıkım savaşı olmuştur. Dört yıl süren ve dokuz cephede gerçekleşen bu savaş, Osmanlı devleti açısından askeri çabalardan ziyade diplomatik faaliyetler neticesinde yenilgiye dönüşmüştür.

Savaşın son yılının sonlarına doğru, yıkılan son ümitlerin yeniden yeşerebilmesi arzusuyla kendi toprağından ziyade, Turan'a açılan kapı olarak telakki edilen Azerbaycan ve Dağıstan'ın Rus ve Ermeni işgalinden kurtarılması davasına önem ve öncelik vermiştir. Bu amaçla 1918 yılında bölgede önce Kafkas İslam Ordusu'nu, daha sonrada bunu genişleterek ve büyüterek Şark Ordular Grubu Komutanlığı'nı kurmuştur. Bu kuvvetlerin başına ise Osmanlı Harbiye Nazırı ve Başkumandan Vekili Enver Paşa tarafından, kendisine olan tam itimat nedeniyle amcası Halil (KUT) Paşa getirilmiştir.

Halil Paşa, zengin askeri tecrübesiyle üzerine düşeni hakkıyla yapmış, bağlı birliklerin sevk, idare ve koordinasyonunu başarılı bir şekilde yürütmüş, Bakü' nün Rus ve Ermeni işgalinden kurtulmasını, kendi idaresine kavuşmasını sağlamıştır.

1. Birinci Dünya Harbi'nde Kafkas Cephesi ve Şark Ordular Grubu'nun Kurulması

Osmanlı Başkumandanlık Vekâleti, 13 Haziran 1918'de, görülen lüzum üzerine Doğu cephesindeki Üçüncü ve Dokuzuncu Ordular ile Irak Cephesi'ndeki Altıncı Ordu'yu *"Şark Ordular Grubu*" adı altında yeni bir teşkilât düzenlemesine tâbî tutmuştur. Kuruluşta Grup Komutanlığı'na Üçüncü Ordu Komutanı Vehip (Kaçi) Paşa atanmış, daha sonra 3 Temmuz 1918 tarihli Başkumandanlık emriyle bu göreve Altıncı Ordu Komutanı Halil Paşa getirilmiştir. Ancak, Halil Paşa'nın Grup Komutanlığı'na başlamasına kadar bu görevi Vehip Paşa'nın kardeşi Esat Paşa, vekâleten yürütmüştür.[1]

Başkumandanlık Vekâlet'inin 29 Haziran 1918 tarihli emriyle Altıncı Ordu Karargâhı, Şark Ordular Grubu karargâhına katılmıştır.[2]

2. Halil Paşa'nın Yeni Görevine Başlaması ve Kafkasya'daki Faaliyetleri

3 Temmuz 1918 tarihli Başkumandanlık emriyle Şark Ordular Grubu Komutanlığı'na atanan Halil Paşa, 8 Temmuz 1918'de Altıncı Ordu karargâhı ile birlikte Musul'dan ayrılarak İstanbul'a gelmiştir. İstanbul'da birkaç gün kadar kalan Halil Paşa yeni göreviyle ilgili olarak Başkumandan Vekili Enver Paşa ile bazı görüşmeler yapmıştır. Halil Paşa'ya verilen yeni görev:

"*Batum-Tiflis yolundan faydalanarak Hazar denizinde hâkimiyet kurmak, Bakü- Enzeli denizyolu hattını oluşturmak, buradan Kazvin-Hemedan yoluyla ve Disfûl-Sûster üzerinden Basra Körfe-*

---

[1] Belen; a.g.e., s. 166; Bitmeyen Savaş, s. 219; Mete Tunçay; Türkiye Tarihi, c.4, s. 50, ATASE Arş. 4/6514, Kls. 3187, Dos. H-7, Fih.3-26; ATASE Arş. 4/15488, Kls. 3789, Dos. H-13, Fih.1-1, ATASE Arş. 4/6514, Kls. 3187, Dos. H-3-27; Görgülü; On Yıllık Harbin Kadrosu, s. 173, Sabis, c.4, s. 269-270; ATASE Arş. 1/1, Kls, 137, Dos. 632, Fih. 3, 3-1,3-3, 4-4, 4-6; ATASE Arş. 1/1, Kls, 136, Dos.628, Fih.2-11; Genkur Atase, BDHTH; Kafkas Cephesi, c. II, 2. Kitap, s. 525-538.

[2] ATASE Arş. 4/15488, Kls, 3789, Dos.h-33, Fih.1-23; ATASE Arş. 4/15488, Kls, 3789, Dos.H-34, Fih.1-29.

zi'ne doğru ilerleyerek, Irak'taki bütün İngilizkuvvetlerini kuşatmak "tır. Bu vazifenin yapılabilmesi için de önce *"Bakü'nün zaptı"* gerekmekteydi. [1]

1918 yılı Temmuz ayının sonlarına doğru İstanbul'dan ayrılan Halil Paşa, Gülnihal vapuruyla Karadeniz üzerinden Batum'a gelmiş, oradan Tiflis'e, Tiflis'ten de Şark Ordular Grubu Karargahı'-nın bulunduğu Gümrü'ye geçerek görevine başlamıştır.

Ağustos-1918 başından itibaren Kafkasya bölgesindeki Üçüncü ve Dokuzuncu Ordular ile bunlara bağlı birlikler yoğun bir hareket içinde bulunmaktaydı. Kafkas İslâm Ordusu Gence 'de bulunmakta ve sürekli takviye edilerek Bakü'nünzaptı için hazırlanmaktaydı. Birinci Kafkas Kolordusu Kâzım Karabekir Paşa'nın komutasında Tebriz'e girmişti. İngilizler ise Enzeli üzerinden denizyolu ile Bakü'ye kuvvet sevk etmekteydi. [2]

3. Bakü'nün Zaptı: 15 Eylül 1918

Halil Paşa, İstanbul'dan Başkumandanlık tarafından kendisine verilen görevin ilk ve en önemli adımı olan Bakü'nün zaptına öncelik vermiş ve bu iş üzerinde yoğunlaşmıştır. Bu sırada, yeni kurulan Azerbaycan Müsavat Hükümeti de"*Bakü'yü tehlikeli bulduğundan*" Gence 'deçalışmalarını sürdürmekteydi. Enver Paşa'nın küçük kardeşi ve Halil Paşa'nın yeğeni olan Nuri Paşa da Kafkas İslâm Ordusu Komutanı olarak Gence'deydi. Bu orduya bağlı kuvvetler, Bakü'yü kuşatmış durumdaydı.[3]

Halil Paşa, Gürcülerle yaptığı antlaşma sonucunda hem İslâm Ordusu'nu takviye etmiş, hem de bu ordunun gerisini güvence altına alarakBakü önlerindeki Nuri Paşa'nın yanına gelmiştir. İki

---

1918-ci ildə Cənubi Qafqaza müdaxilə ərəfəsində Böyük Britaniya hökuməti yerli xristianlara, hər şeydən öncə də ermənilərə böyük ümidlər bəsləyərək, Osmanlı ordusunun Qafqaza yürüşünün qarşısının alınmasında onlara bel bağlayırdı. Öz növbəsində erməni siyasətçiləri ingilispərəst təbliğat xəttini tuturdular. Lakin tezliklə, Britaniya arxiv sənədlərindən bəlli olduğu kimi, ingilis komandanlığı dərk etməyə başlamışdı ki, ermənilərin dəstəklənməsi və onlara kömək göstərilməsi Böyük Britaniyanın türk-müsəlman əhalisinə münasibətdə siyasətinə ağır ziyan vurur. Belə ki, kapitan Noel 1918-ci il 22 yanvar tarixli məlumatında Azərbaycanda ingilislərə münasibətin pisləşməyə doğru dəyişməsi haqqında xəbər verirdi. O, yazırdı: "Mən 6 həftə öncə orada olarkən tatar (azərbaycanlı – N.G.) icmasının liderləri bizlərə münasibətdə açıq şəkildə dostyana əhval-ruhiyyədə idilər. Fəqət indi, Bakıya qayıtdıqdan sonra mən aşkar etdim ki, onların davranışı yerini şübhəliliyə və pis gizlədilən düşmənçiliyə vermişdi. Bu, aşağıdakılar ilə izah olunur: 1) Bizim erməni mənafelərinə üstünlük verməyimiz haqqında rəy geniş yayılmışdır; 2) Ermənilər bu təəssüratı gücləndirir və ondan sərbəst şəkildə öz xeyirləri üçün istifadə edirlər; 3) Erməni milli alayının formalaşmasına verilən prioritet. Mən güman edirəm ki, bu, rus baş qərargahının bizim ermənilər dəstəklədiyimiz və müsəlmanlara güvənmədiyimiz haqqında görüşlərinə uyğundur. Mənim rəyimə görə, belə bir siyasət yanlışdır və ehtimal ki, fəlakətə gətirib çıxaracaq. Müsəlmanların maraqları, onları qulaq ardına vurmağın imkansız olduğu qədər güclüdür, ələlxüsus da rus ordusunun tezliklə dirçəlməsinə ümidlərin son dərəcə cüzi olduğu bir zamanda... Tatarlar (azərbaycanlılar – N.G.) Rusiyaya rəğmən özlərinin milli hərbi bölmələrini formalaşdıracaqlar, və yaxşı olardı ki, bu bizim himayəmiz altında baş versin".(1, p.178) Təsədüfi deyil ki, 1918-ci ilin fevralın sonunda müsəlman qəzaları Qafqaz ərazisinə ingilis qoşunlarının müdaxiləsinə qarşı Cənubi Qafqaz Seyminə öz etirazlarını bildirdilər və ingilis nümayəndələri ilə danışıqları kəsməyi tələb etdilər. 1918-ci ilin qanlı mart olayları ingilislərin ermənilərdən azərbaycanlılara qarşı istifadə edilməsi siyasətinin səhv olması qənaətini daha da möhkəmləndirdi. Bəlli olduğu kimi, həmin hadisələr gedişində bolşevik-daşnak silahlı birləşmələri tərəfindən Bakı quberniyası ərazisində müsəlman əhalisinin soyqırımı həyata keçirilmişdi. Hindistandakı Britaniya qoşunlarının baş komandanı Londona 1918-ci il 20 iyul tarixli məxfi depeşasında bu barədə aşağıdakıları yazırdı: "Ermənilər özlərinin ingilislərin xüsusi himayələri altında olmaları haqqında tatarlar (azərbaycanlılar – N.G.) arasında açıq şəkildə lovğalanmaqla bizim ümumi işimizə böyük zərər yetirmişlər. Bu, britaniyalıların qəsdən anti-müsəlman siyasəti yürütmələri barədə ziyanəvər rəyin ortaya çıxmasına rəvac

vermişdir, zira ermənilər çoxlu sayda tatarı qətlə yetirmişlər". Britaniya qaynaqlarının bilgilərinə, o cümlədən Britaniya briqada generalı R. Qortonun 1918-ci il 8 dekabr tarixli məruzəsinə əsasən, həmin hadisələr zamanı "180 kənd dağıdılmış və çoxlu sayda tatar (azərbaycanlı – N.G.) qətlə yetirilmişdi".

Cənubi Qafqazda ingilislərin açıq şəkildə hərbi müdaxiləsi 1918-ci ilin yayın sonlarında İranın şimalından, Qafqaz cəbhəsinin İran sahəsindən rus qoşunlarının çıxarılmasının dərhal ardından başlanmışdı. 1918-ci ilin avqustun əvvəlində S. Şaumyanın sovet rejiminə əvvəllər müxalifətdə olan marionet "Sentrokaspi diktaturası" hökumətinin dəvəti ilə Cənubi Qafqazda Britaniya qoşunlarının silahlı müdaxiləsinin ilk cəhdi başlandı. Avqustun əvvəlində Bakıya L. Denstervil hərbi qrupunun qabaqcıl dəstəsi çıxarıldı, avqustun 17-də isə ora başda generalın özü olmaqla 39-cu piyada briqadasının əsas qüvvələri varid oldu. Britaniya hissələri Sentrokaspi hökuməti qoşunları ilə birlikdə şəhərin Azərbaycan-Osmanlı ordusunun hücum edən qoşunlarından müdafiəsində iştirak etmişdilər. Sentyabrın ortalarında isə, Bakının Azərbaycan-osmanlı ordusu tərəfindən labüd azad edilməsini öncədən görən ingilis qoşunları tələsik Ənzəli limanına təxliyə oldular. Denstervil və onun qruplaşmasının qərargahı Bakıda ilk qısamüddətli yerləşməsindan gəmilərin, silahların və əsgəri ləvazimatın ələ keçirilməsi, habelə Qafqazda gələcək əməliyyatların təchizatından ötrü Ənzəliyə yanacaq aparılması üçün istifadə etmişdi.(2)

1918-ci ilin oktyabrın 30-da bağlanmış Mudros barışığının şərtlərinə müvafiq olaraq türk qoşunları Cənubi Qafqazı tərk etdilər. Bakıdan təxliyə olduqdan sonra Denstervil İrandan geri çağırılmış, və onun missiyasının və Mesopotamiyadan gəlmiş yeni qoşun kontingentinin əsasında "Norperfors" ("Şimali İran Qoşunu") adını almış yeni müdaxiləçi qrup yaradılmışdı. Bu qrupa general Vilfred Tomson başçılıq edirdi.(1, p.169)

V. Tomsonun komandanlığı altında ingilis qoşunları türk qoşunlarının çıxarılmasından sonra 1918-ci ilin noyabrın 17-də Bakıya daxil oldular. Bakıya gəldiyi gün Tomson şəhərdə hərbi vəziyyət elan etdi və özünü Bakının general-qubernatoru təyin etdi. İngilis qoşunları tezliklə Cənubi Qafqazı faktiki olaraq bütünlükdə işğal etdilər. Həmin dövrdə Cənubi Qafqazda 30 min ingilis əsgər və zabiti bulunurdu. Cənubi Qafqaza münasibətdə ingilis siyasəti Böyük Britaniyanın bu regionda hər şeyi əhatə edən nəzarətinin bərqərar olmasına və özünün uzunmüddətli nüfuzunun saxlanılmasına yönəlmişdi. Onun bir başqa vəzifəsi Rusiyada sovet hakimiyyətinin devrilməsi və onun ərazi cəhətdən parçalanması məqsədilə yerli milli qüvvələrə hərtərəfli, o cümlədən silahlı qüvvələrlə dəstək göstərməkdən ibarət idi. Böyük Britaniyanın 1918-ci ilin mayın sonlarında Rusiyanın cənubunda yaranmış milli dövlət qurumlarına münasibətdə siyasəti məhz bu məqsədlərlə müəyyən edilirdi.

1918-ci ilin mayında Cənubi Qafqazda üç milli dövlətin yaranmasının ardından labüd olaraq onların sərhədlərinin müəyyənləşdirilməsinə və təsbitinə başlanıldı. Yeni müstəqil respublikaların bəzən əfsanəvi məlumatlara, yaxud da rəvayətlərə əsaslanaraq (məsələn "Böyük Ermənistan" xülyası, ya da orta əsr gürcü knyazlıqlarının hüdudları ideyası), öz ərazilərinin sərhədlərini təsbit etmək cəhdləri qonşu dövlət tərəfindən də bu və ya digər torpağa malik olmaya dair qarşılıqlı iddia ilə üzləşirdi. Cənubi Qafqazda müxtəlif xalqların tarixən təşəkkül tapmış qarışıq məskunlaşması şəraitində tərəflərin danışıqlar yolu ilə əraziləri ayırmaq cəhdləri uğursuzluğa düçar olurdu. Belə olan halda, respublikalar arasında sərhədləri yalnız zorakı yolla təsbit etmək qalırdı. Çox vaxt da məhz elə bu yola üstünlük verilirdi. Nəticədə siyasi münaqişələr qızışaraq, artıb siyasi toqquşmalara, bəzən isə hətta çoxsaylı insan tələfatına gətirib çıxaran ara savaşlarına keçirdi. Məhz bu növ münaqişələr 1918-1920-ci illərdə Cənubi Qafqazın siyasi tarixinin başlıca məzmununu təşkil edirdi.

Üç Cənubi Qafqaz dövləti arasında ərazi ixtilafları regionun müxtəlif nöqtələrinə düşmən tərəflərini sakitləşdirmək üçün qoşunlar göndərməyə məcbur olan Britaniya işğalçı hakimiyyət orqanları üçün az çətinlik doğurmurdu. Cənubi Qafqazda "qanun və qaydanın" təminatının qayğısına qalan dövlət rolunu öz üzərinə götürən Böyük Britaniya burada meydana çıxan demək olar ki, bütün millətlərarası və digər münaqişələrin həllində iştirak etmişdi. Münaqişədə iştirak edən tərəflərdən hansını dəstəkləmək haqqında qərarı Tiflisdəki Britaniya işğal qoşunları qərargahı, ayrı-ayrı hallarda isə İstanbuldakı "Qara dəniz Ordusu" baş komandanı verirdi. Cənubi Qafqazda Britaniya qoşunları qrupunun komandanları növbə ilə aşağıdakı generallar olmuşlar: Q. Forestye-Uoker, V. Tomson və N. Kori. Qoşunlarını çıxardıqdan sonra İngiltərə hökuməti mənzil-qərargahı Tiflisdə yerləşən Cənubi Qafqaz üçün Ali komissar postunu təsis etdi. İlk Ali komissar general O. Uordrop oldu.

Tezliklə İngiltərənin hökumət dairələri ermənilərin planlarının tamamən absurd olduğunu etiraf etməli oldular. Məsələn, Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin siyasi kəşfiyyat şöbəsi tərəfindən hazırlanmış 1918-ci il 28 oktyabr tarixli Memorandumda göstərilirdi: "Erməni məsələsini çözərkən nəzərə alınmalıdır ki, onun cazibə mərkəzi Qafqazda deyil, Kiçik Asiyadadır; ermənilər Qafqaza əsasən qaçqın kimi son on illərdə Rusiya hakimiyyəti dönəmində gəlmişlər. Rusiya hökuməti burada onlardan gürcülər və tatarlar arasında ixtilafları təşviq etmək məqsədilə istifadə etmişdir". (1, p.110)

Ermənistanın müntəzəm silahlı qüvvələri Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü genişləndirərək, Zəngəzura, Naxçıvana və Qarabağa soxulmuşdular.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü gedişində Britaniya rəhbərliyi vəziyyəti yoluna qoymaq üçün münaqişəyə müdaxilə etmək məcburiyyətində qalmışdı. Məsələn, 1919-cu ilin yanvarın əvvəlində Naxçıvanda hadisələr zamanı vəziyyəti nəzarət altına götürmək üçün ora Britaniya piyada bölüyü ilə Britaniya zabitini, Şotland alayının 2-ci batalyonunun kapitanını göndərmək zərurəti yarandı. Vəziyyət o dərəcədə böhranlı idi ki, Naxçıvan ərazisində dinc müsəlman əhalisinin məhv edilməsi və erməni silahlı qüvvələri tərəfindən törədilən vəhşiliklərlə əlaqədar Qacar hökuməti adından Britaniya komandanlığına şahzadə Əla-üssəltənə etiraz təqdim etmişdi.(4; 5) Memorandumda göstərilirdi ki, çıxılmaz vəziyyətə düşən Naxçıvan əhalisi İrana yardım üçün müraciət etmiş və onun himayədarlığını xahiş etmişdi. Sənəddə daha sonra qeyd edilir ki, "əhalinin əksər hissəsinin müsəlmanların təşkil etdiyi bu vilayətlərə ermənilərin təcavüzü mümkün məhvedici nəticələri üzündən böyük əndişə doğurur". (4) Lord Kerzona* məlumatında P. Koks* qeyd edirdi: "Mən İran hökumətindən aldığım və ermənilər İrəvanda, Naxçıvanda və Qarsda müsəlmanlara qarşı vəhşiliklər törətməkdə ittiham edən memorandumun tərcüməsini əlavə etməyi və bu iğtişaşlara son verilməsi üçün müttəfiq hökumətlərin üzərinə məsuliyyət qoymağı özümə şərəf bilirəm".(10) İranın Xarici İşlər Nazirliyinin 1919-cu il 21 oktyabr tarixində Böyük Britaniyanın diplomatik missiyasına göndərdiyi depeşada göstərilirdi: "Şübhə yoxdur ki, Britaniyanın diplomatik missiyasının İrəvanda, Naxçıvanda, Qarsda və Ermənistanın bütün sərhədi boyunca bu yaxınlarda baş verən olaylar, ermənilərin bu bölgələrin müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklər, qətliamlar və qarətlər haqqında xəbəri var. Xarici İşlər Nazirliyi həmçinin belə bir məlumat almışdır ki, ermənilər bu bölgələrdə milliyyətindən asılı olmayaraq bütün müsəlmanlara qarşı zorakılıq aktı törətmək fürsətinin birini belə əldən qaçırmamışlar. Müsəlman ailələri məhv edilir, heç bir günahı olmadan kişilər və uşaqlar öldürülür, qadınlar cinsi təcavüzə məruz qalır, onların bütün əmlakı qarət edilir. Ermənilər əsla təhrik etməyən bir çox kəndin əhalisi məhv edilmişdir.... Millətlərin və dünyanın azadlığına dair Böyük Dövlətlərin niyyətlərindən xəbəri olan Xarici İşlər Nazirliyi rəsmən bu informasiyanı diqqətinizə çatdırır və xahiş edir ki, Britaniya hökumətinin məmurlarına ermənilərin bu cinayətkar əməllərinin qarşısını almaq və Ermənistanla sərhəddə yaşayan dinc əhalinin həyatını müdafiə etmək tapşırılsın.

Onlar həm Böyük Dövlətlərin təmsilçiləri kimi, həm də erməni barbarlığının şahidləri kimi bu cinayətkar əməllərin qarşısının alınması və müqəssirlərin cəzalandırılması üçün tədbirlər almalıdırlar".(11)

1918-ci ilin dekabrında Qarabağ bölgəsində Ermənistanın hərbi təcavüzü ilə əlaqədar olaraq Şuşaya podpolkovnik Hibbonun (Uorçester alayı) komandanlığı altında kiçik eskortun müşayiəti ilə Britaniya hərbi missiyasının göndərilməsi zərurəti ortaya çıxdı. İngilis komandanlığının tutduğu rəsmi mövqe sanki Azərbaycan tərəfinin dəstəklənməsinə, erməni təcavüzünün pislənilməsinə, bölgədə sülhün saxlanılmasına yönəlmişdi. General V. Tomsonun təşəbbüsü ilə Qarabağa qarışıq ingilis-erməni-müsəlman nümayəndə heyəti göndərilmiş, erməni başçılarına onları müsəlman əhalisinə qarşı təcavüzkar hərəkətlərdən çəkindirən teleqramlar vurulmuşdu. Tomsonun imzası ilə analoji məzmunlu məktub Andronikə də təqdim olunmuşdu. Məsələn, 1918-ci il 19 noyabr tarixli 640 saylı əmri ilə Andronik tabeliyində olanları xəbərdar edirdi: "Müttəfiqlərin təmsilçilərinin mənə çatdırdıqları məktubda deyilir ki, indidən belə hər cür düşmən hərəkətləri (müsəlmanlara qarşı – N.G.) erməni məsələsinin çözümünə mənfi təsir göstərə bilər".(25, ст.48)

---

*Lord Corc Kerzon 1919-cu ildən 1923-cü ilədək Böyük Britaniyanın xarici işlər naziri olmuşdur.

*General-mayor Koks, ser Persi Zaxariya Böyük Britaniyanı 1918-1920-ci illərdə İranda təmsil edən diplomat idi.

Yeri gəlmişkən qeyd edərdik ki, hələ 1918-ci ilin yayında başda Andronik olmaqla qeyri-nizami erməni dəstəsi Zəngəzurun azərbaycanlı əhalisinin məhv edilməsi və qovulması üzrə məqsədyönlü kampaniyaya başlamışdı. AXC hökumətinin təşkil etdiyi Fövqəladə istintaq komissiyası üzvü N. Mixaylovun məlumatlarına əsasən, təkcə 1918-ci ilin yayında və payızında Zəngəzurda 115 kənd, yəni başqa sözlə, faktiki olaraq bütün Azərbaycan yaşayış məskənləri məhv edilmiş və dağıdılmışdı. Heç də tam olmayan məlumatlara əsasən bu kəndlərdə 7729 azərbaycanlı öldürülmüş, 50000 azərbaycanlı qaçqın kimi Zəngəzur hüdudlarını tərk etmişdi. (24, ст. 32-33)

Qarabağda və Zəngəzurda erməni-azərbaycanlı ərazi münaqişəsini həll etməkdən ötrü 1919-cu ilin yanvarın ortalarında ingilis komandanlığı burada xüsusi inzibati idarəçilik – başda doktor Xosrov bəy Sultanov olmaqla general-qubernatorluq yaratmaq yolu ilə ixtilaf zonasını ərazi cəhətdən əlahiddələşdirmək modelini seçmişdi. İngilislər onun üzərində nəzarəti sözügedən idarəçiliyə həlledici səs hüququ ilə daxil olan öz hərbi nümayəndəsi vasitəsi ilə həyata keçirirdilər. Lakin hətta bu idarəçiliyin tətbiqindən sonra da Qarabağdan həyəcanlı xəbərlər alınmaqda idi. Salonikdə Böyük Britaniya qoşunları baş komandanı general C.F. Miln 1919-cu ilin fevralında Londona imperiya Baş Qərargahı başçısına məlumat verirdi: "Bakını işğal etdiyimiz zaman Şuşa Andronikin erməni ordusunun hücumlarından iki Türkiyə batalyonu tərəfindən müdafiə olunurdu. İndi şəhərə ermənilər doluşmuşlar. Hökumətin qayda-qanunu saxlamaq üçün mümkün olan hər şeyi etməsinə rəğmən, ermənilər tatarları öldürməkdədirlər, sonuncular da təbii ki, qisas alırlar. Ora qayda-qanunu saxlamaq üçün Britaniya əsgərlərinin göndərilməsi zəruridir, fəqət təhlükəsizliyin təmin edilməsi üçün batalyon göndərilməsi daha yaxşı olardı".(1, p.236)

Kəşfiyyat Bürosunun 1919-cu il 10 aprel tarixli həftəlik məlumatında qeyd edilirdi: "Şuşa əyalətində vəziyyət ermənilərin münasibəti üzündən qeyri-qənaətbəxşdir. Ermənilər yerli tatar (Azərbaycan – N.G.) inzibati idarəçiliyinə əngəllər yaradır və güman edirlər ki, tatar general-qubernatoru Sultanov Türkiyə agentidir. Ermənistan hökuməti bu cür hərəkətlərlə yaxşı heç bir şeyə nail olmayacaqları ilə əlaqədar xəbərdar edilmiş və qeyd olunmuşdur ki, həm Sultanov, həm də Azərbaycan hökuməti Şuşa əyalətindəki vəziyyətə görə Böyük Britaniya qarşısında məsuliyyət daşıyır".(1, p.390)

Lakin İngiltərə komandanlığının gördüyü tədbirlər az effektiv olub, yalnız müvəqqəti olaraq erməni quldur dəstələrinin azğınlıqlarını dayandırmışdı. Britaniya qoşunları 1919-cu ilin iyunun sonunda Şuşanı tərk etdilər, Böyük Britaniya nümayəndəsi isə orada avqustun sonlarına kimi qaldı.

Böyük Britaniya hökuməti tərəfindən xüsusi olaraq ezam edilmiş Cənubi Qafqazdakı Britaniya missiyasının təmsilçilərinin sonrakı məlumatlarında qeyd edilirdi ki, erməni silahlı qüvvələri heç bir mənfurluqlardan çəkinmirdilər və Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının dinc azərbaycanlı əhalisinin məhv edilməsi üçün ən əcaib metodlardan istifadə edirdilər. Qafqazdakı Böyük Britaniya Ali komissarı ser Oliver Uordropun öz hökumətinə unvanladığı məlumatlar bu cür faktlarla zəngindir. Onun 1919-cu ilin oktyabrın 2-də Londona göndərdiyi raportunda deyilirdi: "Bu yaxınlarda ermənilər Yeni Bəyazid, Aleksandropol və İrəvan bölgələrində 60 müsəlman kəndini dağıtmışlar". (1, p.265)

O. Uordropun 1919-cu il 11 dekabr tarixli məlumatında göstərilirdi ki, "Qarabağdakı komandanın məlumatlarına əsasən, dekabrın 1-də nizami erməni qoşunları iki topla və 6 pulemyotla Kığı dərəsində (Kigy Pass) 9 tatar kəndinə basqın etmiş, onları yandırmış və qarət etmişdir. Noyabrın 26-da ermənilər Oxçu bölgəsindəki bütün dinc müsəlmanları topladılar; hərbi yaşda olan kişiləri dinamitlə partlatdılar, qadınlar və uşaqlar da daxil yerdə qalan əhalini isə məsciddə qətlə yetirdilər. Zəngəzur müsəlmanları çaxnaşma içərisindədir".(14)

Öz məlumatına əlavə olaraq, Uordrop lord Kerzona AXC baş naziri N.Yusifbəilinin 1919-cu il 16 noyabr tarixli məktubunu göndərirdi. Həmin məktubda deyilirdi: "Zəngəzur Azərbaycan Respublikasının ayrılmaz hissəsidir və sülh konfransında bu qisimdə nəinki bizim tərəfimizdən, həmçinin Müttəfiq Britaniya Komandanlığı tərəfindən bu cür nəzərdən keçirilirdi; polkovnik Haskell və başqaları Zəngəzur vilayətinə bizim mübahisə edilməz hüququmuzu tanımışdılar".(7)

Uordropun 1919-ci il 8 oktyabr tarixli məlumatından bəlli olur ki, Ermənistanın xarici işlər nazirinin notasına cavab olaraq, Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri özünün Ermənistandakı diplomatik nümayəndəsi Ə. Haqverdiyev vasitəsilə qeyd edirdi: "Ermənistan Respublikasının xarici işlər nazirinin diqqətinə çatdırın ki, Zəngəzur Azərbaycan Respublikasının ayrılmaz hissəsidir və bununla əlaqədar olaraq erməni hökumətinin notasında səslənmiş sualı Azərbaycan Cümhuriyyətinin

daxili işlərinə müdaxilə deməkdir. Azərbaycan Cümhuriyyətinin hökuməti ölkənin müxtəlif bölgələrində hakimiyyət qurumlarının həyata keçirdiyi tədbirlər haqqında erməni hökuməti qarşısında hesabat verməyə özünü məcbur bilmir". (9)

Özünün 1919-cu il 3 dekabr tarixli məlumatında Uordrop göstərirdi: "Ən sonunda baş nazir Yusifbəyli 23 noyabr sazişinin ziddinə olaraq ermənilərin hərbi əməliyyatlara davam etmələri ilə əlaqədar narazılığını izhar etdi və 9 kəndin məhv edildiyini bildirdi". (12)

Ertəsi gün göndərilmiş məlumatda o, qeyd edirdi: "Azərbaycan hökuməti erməni nizami dəstələri tərəfindən bu yaxınlarda törədilmiş müsəlmanların kütləvi qətlləri və 15 kəndin məhv edilməsi haqqında Zəngəzur və Dərələyəzdən məlumatları mənə çatdırmışdır. Mən İrəvana etiraz göndərərək, dərhal təhqiqata başlamağı, müqəssirləri cəzalandırmağı və erməni nümayəndə heyətinin yubanmadan Azərbaycanla görüşməyə göndərməyi tələb etdim".(13)

Uordropun 1919-cu il 15 dekabr tarixli məlumatında deyilirdi: "Azərbaycanın baş naziri teleqram göndərərək, erməni nizami topçu qoşunlarını ittiham edirdi; sonuncular Zəngəzurun kəndlərini məhv etməklə qırğın törətmişdilər. O, qeyd edir ki, dekabrın 9-da Gorusdan cənub-şərqdə Kədəkləkli, Əsgərli və Pərçəvan (Kedeclaklu, Askerlu and Perchevan) kəndləri məhv edildi və mühasirəyə alınmış Oxçu ilə Kığı dərələrindəki (Ohchi and Kigy Glens) müsəlman kəndləri artilleriya atəşi ilə dağıdıldı. O, Azərbaycanın Zəngəzurda bircə əsgərinin belə olmadığını söylədi. Zati-aliləri Zəngəzurdakı ermənilər tərk-silah etmək üçün bitərəf ölkələrdən zabitlər göndərməyi xahiş edir; əks təqdirdə Azərbaycan mehriban qonşuluğu təmin etməkdən ötrü tədbirlər almaq məcburiyyətində qalacaq".(15)

Uordropun 1919-cu il 30 dekabr tarixində göndərdiyi məlumatda göstərilirdi: "Bu gün alınan məlumatlara əsasən, erməni hökuməti dekabrın 21-də Zəngibasar bölgəsinin müsəlmanlarına qarşı hərbi əməliyyatlara başlamışdır. Həmin tarixdə Qarğabazar, dekabrın 22-də isə Uluxanlı kəndləri dağıdılmışdır. Hal-hazırda Çobankər Qaraqışlaq kəndi uğrunda döyüş gedir. Əgər bu məlumatlar doğrudursa, onda şübhə yoxdur ki, Ermənistan 23 noyabr sazişini pozmuşdur". (17)

Bir başqa ingilis nümayəndəsi Qrandinin 1920-ci 25 yanvar tarixli məlumatında göstərilirdi: "Azərbaycan hökuməti Zəngəzurda erməni topçu kolonnası tərəfindən daha 24 kəndin məhv edilməsi və kütləvi qırğınlar törətməsi haqqında məlumat verir. Azərbaycanda ictimai fikir olduqca həyəcanlıdır və hökuməti Müttəfiqlərin fəaliyyətsizliyinə görə ittiham edir".(18)

Uordropun 1920-ci il 28 yanvar tarixli məlumatında qeyd olunurdu: "Zəngəzurda erməni təcavüzü haqqında məlumatlar daxil olmaqda davam edir ki, bu da əhalinin Azərbaycan hökumətindən narazılığını gücləndirir. Əhali hökumətdən yubanmadan tədbirlər görməyi tələb edir". (19)

Uordropun məlumatlarında Qars vilayətinin müsəlman əhalisinin faciəvi durumu haqqında da bilgilər ehtiva olunur. Bəlli olduğu kimi, ingilislər Cənub-Qərbi Qafqaz Respublikası ləğv etdikdən sonra 1919-cu ilin mayında sözügedən vilayətdə hakimiyyəti Ermənistana vermişdilər. Uordropun 1920-ci il 28 yanvar tarixli məlumatında qeyd edilirdi: "Burada olan Azərbaycan nümayəndələri martın 5-də öz hökumətləri ilə əlaqə saxlayaraq, bildirmişdilər ki, erməni hakimiyyət orqanları Çaldır, Zaruşat, Şunalal (Shuuunal el) (söz buraxılıb) bölgələrindən olan müsəlmanlara öz kəndlərini tərk etməyi əmr etmişdir, həmçinin (söz buraxılıb) martın 1-də əhali tərk-silah olmaq haqqında ultimatum almışdır, mühasirəyə alınmış kəndlər isə dağıdılmışdır. O, xahiş edirdi ki, qaçqınların Azərbaycana getmələrinin təmin edilməsi haqqında ərz-halları qəbul edilsin". (21)

Britaniya diplomatik missiyasının 1919-cu ilin dekabrından 1920-ci ilin martınadək olan dövrü əhatə edən yalnız bu məlumatları əsasında (bu sənədlərin orijinalı əlavə olunur) belə bir nəticəyə gəlmək mümkündür ki, Zəngəzurda, Naxçıvanda və Qarabağda sadəcə dörd ay ərzində təqribən 69 kənd dağıdılmış, onların bütün dinc sakinləri isə məhv edilmişdi. Əgər ehtimal etsək ki, hər kənddə orta hesabla beş üzvü olan 25 ailə yaşayırdı, bu, hər bir kənd üçün 125 sakin təşkil edəcək. Deməli, bu hesabla 69 kəndin hamısının əhalisi 8625 nəfərdən çox olacaq. Bir neçə sənədin natamam məlumatları əsasında alınmış bu bilgilər Zəngəzurda, Naxçıvanda və Qarabağda Azərbaycan xalqına üz vermiş fəlakət və müsibətin mənzərəsini bərpa etməyə, habelə bölgədə əhalinin əksəriyyətini təşkil edən azərbaycanlıların soyqırımının miqyasını təsəvvür etməyə imkan verir. Britaniya sənədlərindən də göründüyü kimi, silahsız dinc sakinlər metodik şəkildə, sistemli olaraq silahlı erməni qruplaşmaları tərəfindən amansızcasına məhv edilirdi. Bu yolla sadəcə dörd ay ərzində 8625 nəfərdən çox dinc

sakin qətlə yetirilmiş, 69 yaşayış məskəni yer üzündən silinmişdir, öz tarixi vətənlərini tərk etməyə məcbur qalmış qaçqınların sayını isə biz yalnız təxmin edə bilərik!

Beləliklə, Ermənistanın Cənubi Qafqazın müsəlman əhalisinin sistematik soyqırımına yönəlmiş təcavüzkar siyasəti göstərilən dövrün çoxlu sayda Britaniya arxiv sənədlərində öz əksini tapır.

Eyni zamanda sözügedən dönəmin sənədləri ingilis komandanlığının Cənubi Qafqazda ərazi ixtilaflarının, o cümlədən erməni-Azərbaycan münaqişəsinin həllinə dair tutduğu mövqeyin qeyri-ardıcıllığına əyani şəkildə dəlalət edir. İngilislərin münaqişənin dinc üsullarla tənzimlənməsi prosesinə fəal surətdə qatılması ilə eyni vaxtda "əlahəzrətin Təbrizdəki konsulunun erməni nümayəndə heyətini qəbul etməsi" haqqında Tehrandan Londona məlumatlar gedirdi. Arxiv sənədləri sübut edir ki, erməni terrorçuları hətta silah və döyüş sursatlarını belə Britaniya hökumətindən alırdı. Bir sənəddə deyildiyi kimi, "mayor Hibbondan türklərdən müdafiə üçün aldığı bütün silah və artilleriyanı Andronik əhaliyə (erməni silahlı birləşmələri nəzərdə tutulur – N.G.) vermişdir". (16) Bir başqa sənəddə isə göstərilirdi ki, "belə ki, alyans (Antanta – N.G.) bu qoşunları (Andronikin silahlılarını – N.G.) əvvəllər maliyyələşdirdiyinə görə, qoşunlar buraxılana kimi Andronikə hər ay 200000 rubl ödəmək təklif olunur".(1, p.217)

Eyni zamanda öz cinayətlərini qonşuların üzərinə yıxmağa çalışan erməni təbliğatının yalançılığı haqqında Britaniya hakim dairələrində tədricən möhkəm əminlik formalaşmağa başlamışdı. Məsələn, Britaniya zabitləri hesab edirdilər ki, "Böyük Ermənistan haqqında bütün bu söhbətlər ekstremistlərin işinə yaramaqla milli hərəkatın atəşini körükləyir, və kürdləri yenidən türklərin tərəfinə cəlb etməklə panislamizmin qüvvələrini möhkəmlədir".(6) Erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarında çoxsaylı vəhşilikləri haqqında məlumatlar alan Qrandi "erməni baş nazirinə teleqram vuraraq, hücumları kəsməyi və silahlı dəstələri çıxarmağı tələb etmişdir. Tələb yerinə yetirilmədiyi təqdirdə o, Əlahəzrət Hökumətinə Ermənistana yardım göstərməməyi tövsiyə edəcəyi ilə hədələyirdi". (18)

Uordrop öz məlumatında qeyd edirdi: "Mənim İrəvana səfərimin başlıca məqsədi Zəngəzurdan nizami qoşunları çıxarmaq və suçluları cəzalandırmaqdan ötrü erməni baş nazirinə təzyiq göstərmək idi. Mən artıq Zati-alilərinə teleqraf vurmuşam ki, əgər erməni hökuməti təcavüzə son qoymasa, mən Əlahəzrət Hökumətinə onlara yardım göstərməməyi tövsiyə edəcəyəm". (19)

Qrandinin 1920-ci ilin yanvarın 29-da göndərdiyi şifrəli teleqramda Uordropa aşağıdakı təlimatlar verilirdi: "Siz Azərbaycan hökumətinin irəli sürdüyü ittihamları cidd-cəhdlə təhqiq etməlisiniz. Əgər sizin tərəfinizdən xatırlanan faktlara dair dəlillər tapılarsa, erməni hökumətinə ciddi xəbərdarlıq etməniz və hücumlara dərhal son qoyulmasını tələb etməniz lazım gələcək. Siz həmçinin Azərbaycan hökumətini məlumatlandırmalısınız ki, Ermənistan hökumətinə qəti etiraz göndərmək haqqında Əlahəzrət Hökuməti tərəfindən təlimatlandırılmışsınız". (24, ст.30)

Yerində vəziyyətlə tanış olan Britaniya missiyası həmçinin 1918-ci ilin mart hadisələrə münasibətini dəyişdirməli olmuşdu. Bu barədə Uordrop yazırdı: "O ki qaldı erməni hökumətinə, mən qeyd edərdim ki, 1918-ci ildə Bakıdakı bolşevik ekssesləri müsəlmanların ümumi rəyinə görə ermənilər tərəfindən təşkil olunmuşdu". (22)

Böyük Britaniyanın Azərbaycan Xalq Cümhuriyyətinə münasibətdə tutduğu mövqe həmçinin Cənubi Qafqazın taleyini müəyyən edən dəqiq planın olmaması (bu da müttəfiq dairələrində nifaq və dağınıqlıqdan xəbər verirdi) üzündən dəyişikliyə uğramışdı. Çörçillin etiraf etdiyinə görə, "aydın və müəyyən siyasətin yoxluğu həmçinin müttəfiqlərin Qafqaz cəbhəsindəki sərhədyanı dövlətlərə münasibətində özünü göstərmişdi... Burada, bir çox başqa bölgələrdə olduğu kimi, müttəfiq dövlətlərin siyasəti tanıma və nəzakətli etinasızlıq arasında tərəddüd edirdi". (24, ст.30)

1920-ci ilin mart-iyul aylarında Qarabağda, xüsusən də Şuşada, habelə Naxçıvanda, Ordubadda Ermənistanın silahlı qüvvələri ilə toqquşmalar baş verdi. Döyüşlər Xankəndində, Tərtərdə, Əsgəranda, Zəngəzur, Cəbrayıl, Naxçıvan, Gəncə qəzalarında şiddətlənmişdi. Onların gedişində onlarla Azərbaycan kəndi dağıdılmışdı.

Britaniya arxivlərinin sənədlərində həmçinin belə bir fakt öz təsdiqini tapır ki, əsası hələ çar Rusiyası dövründə qoyulan ənənələrə sadiq qalan bolşeviklər Şimali Azərbaycanın işğalına dair öz siyasətlərini həyata keçirərkən yenidən ermənilərdən yararlanmışdılar. Bu mənada Uordropun Londona 1920-ci ilin aprelin 1-də, yəni faktiki olaraq Şimali Azərbaycanın sovet qoşunları tərəfindən

işğalı ərəfəsində göndərdiyi məlumat maraq kəsb edir. Britaniya missiyasının nümayəndəsi öz hökumətinə bildirirdi: "Mənə bəllidir ki, hal-hazırda Petrovskda olan bolşevik qüvvələri əsasən ermənilərdən təşkil olunmuşlar". (22) 1920-ci ilin aprelin 28-də bütün beynəlxalq-hüquq normalarını pozmaqla Şimali Azərbaycan ərazisinə soxulmuş, Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoymuş və xalqımıza qarşı zorakılıqlar törətmiş XI Qızıl Ordu sıralarında erməni millətindən olan çoxlu zabit və əsgər var idi.

Ümumən götürüldükdə Böyük Britaniyanın özünün Qafqazdakı "hərbi iştirakı" haqqında məsələyə münasibəti iki illiyin (1918-1919) müxtəlif dövrlərində fərqli olmuşdu və çoxlu amillərlə – Birinci dünya müharibəsi başa çatdıqdan sonra bu bölgələrdə xeyli silahlı qüvvə saxlamaq imkanları, İngiltərənin özündə daxili-siyasi vəziyyət, Versal sülh konfransında danışıqların gedişi ilə şərtlənmişdi. Lakin 1919-cu ilin yayında Batum bölgəsi istisna olmaqla Britaniya qoşunlarının Cənubi Qafqazdan təxliyə edilməsi heç də qəti sayılmırdı. Belə ki, bu qoşunların böyük hissəsi qonşu ölkələrə – İran və Türkiyəyə çəkilmişdi. Regionu tərk etmək zərurətinin dönməzliyi Böyük Britaniya üçün yalnız 1920-ci ilin baharında, Xəzəryanı rayonlarda Qızıl Ordunun qalibiyyətli yürüşü, Denikin ordusunun əsas qüvvələrinin darmadağın edilməsi və onun qalıqlarının Krım yarımadasına təxliyə olunması ilə aydın oldu. Parisdə müttəfiqlərarası müşavirədə Azərbaycanın, Ermənistanın və Gürcüstanın istiqlaliyyətinin tanınması haqqında aktların imzalanması da məhz bu dövrə aiddir. Bu aktlar Böyük Britaniyaya Cənubi Qafqazdakı nüfuzunu qoruyub saxlamağa imkan verən tədbir kimi baxılırdı. Lakin o zaman Britaniya planlarının həyata keçməsi müyəssər olmadı: tarix başqa cür hökm verdi.

Beləliklə, Ermənistanın Cənubi Qafqazın müsəlman əhalisinin sistematik soyqırımına yönəlmiş təcavüzkar siyasəti göstərilən dövrün çoxlu sayda Britaniya arxiv sənədlərində öz əksini tapır. Britaniya arxivlərində bizim tərəfimizdən aşkar edilmiş sənədlər göstərir ki, 1918-1920-ci illərin keşməkeşli siyasi hadisələri gedişində ən ağır fəlakət və müsibəti Azərbaycan əhalisi yaşamışdı. Bundan əlavə, Britaniya arxivinin məlumatları sübut edir ki, Azərbaycanın XX əsrin əvvəllərinin, xüsusən də 1918-1920-ci illər tarixi təhriflərdən, saxtalaşdırmalardan təmizlənməli və yenidən araşdırılmalıdır.

İstifade olunmuş ədəbiyyat

1. Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, Baku, 2008.
2. The Adventures of Dunsterforse. By: Dunsterville, L. C., London. 1920.
3. Report of Islamic Information Bureau. Massacres of Muslims by Armenians. (January, 1918), IOR/L/P&S/11/158.
4. Memorandum from Persian Government (January 25, 1919), IOR/L/P&S/11/147.
5. Letter from Foreign Office to Prince Ala-es-Sultaneh (January 27, 1919), IOR/L/P&S/11/147.
6. Decipher Admiral Calthorpe (Constantinople) (July 29, 1919), IOR/L/P&S/11/145
7. Telegram from 'en clair' Mr. O. Wardrop to Earl Curzon (November 18, 1919), IOR/L/P&S/11/147.
8. Decipher № 46 from Mr. O. Wardrop (October 8, 1919), IOR/L/P&S/11/159.
9. Enclosure in Mr. O. Wardrop's dispatch № 46 of October 8, 1919, IOR/L/P&S/11/159.
10. Decipher from Sir P. Cox (Tehran, October 25, 1919), IOR/L/P&S/11/160.
11. Decipher from Persian Foreign Office to. Massacres of Muslims by Armenians. (Tehran, October 21, 1919), IOR/L/P&S/11/160.
12. Decipher № 173 from Mr. O. Wardrop (December 3, 1919), IOR/L/P&S/11/161.
13. Decipher № 179 from Mr. O. Wardrop (December 4, 1919), IOR/L/P&S/11/161.
14. Decipher № 196 from Mr. O. Wardrop (December 11, 1919), IOR/L/P&S/11/161.
15. Decipher № 202 from Mr. O. Wardrop (December 15, 1919), IOR/L/P&S/11/161.
16. Telegram from Mr. O. Wardrop (December 17, 1919), IOR/L/P&S/11/166.
17. Telegram from 'en clair' from Mr. O. Wardrop (December 30, 1919), IOR/L/P&S/11/166.
18. Decipher (№50) from Mr. Grundy (January 25, 1920), IOR/L/P&S/11/167.
19. Decipher (№52) from Mr. O. Wardrop (January 28, 1920), IOR/L/P&S/11/168.
20. Cypher № 54 telegram to Mr. Grundy (January 29, 1920).
21. Decipher Mr. O. Wardrop (March 11, 1920).
22. Decipher from Mr. O. Wardrop (April 1, 1920).
23. Гасанлы Дж. Мартовский погром в Баку и геноцид азербайджанцев/ /http://myazerbaijan.org/index.php?p=history/19
24. Маммадов И.М., Мусаев Т.Ф.Армяно-азербайджанский конфликт: История, Право, Посредничество, Баку. 2008.
25. Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века, Баку. 2008.

THE FACTS OF ATROCITIES MADE BY ARMENIANS AGAINST THE AZERBAIJANI PEOPLE IN ARCHIVAL DOCUMENTS OF BRITISH

Summary

Bloody events during the 1918-1920 were researched on the basis of archival documents of the British Library. Archival documents collected in the British library prove the fact of genocide against the Azerbaijani people in 1918-1920 committed by armed Armenian bands supported directly by the government of the Republic of Armenia. The afore-mentioned documents open vast prospects for the objective research of problems of the Azerbaijan history hitherto uninvestigated or fabricated on purpose.

ГЕНОЦИД ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА В 1918-1920 ГГ. В АРХИВНЫХ ДОКУМЕНТАХ БРИТАНСКОЙ БИБЛИОТЕКИ

Резюме

В статье кровавые события 1918-1920 г.г. проанализированы на основе архивных документов Британской библиотеки. Эти архивные материалы имеют ценное значение для доказательства факта геноцида азербайджанского народа, совершенного в 1918-1920 гг. вооруженными армянскими бандами при поддержке правительства Республики Армения. Сведения британских архивов открывают широкие возможности для правдивого исследования доселе неизученных или сфальсифицированных в особых целях вопросов истории Азербайджана конца XIX- начала XX веков.

Mehman Şabanov
Tarixüzrə fəlsəfə doktoru,
Naxçıvan Universiteti
E-mail: serxanoqlu@mail.ru

1918-Cİ İLDƏ NAXÇIVANDA ERMƏNİLƏRİN TÖRƏTDİYİ SOYQIRIMLAR

Açar sözlər: Erməni işğalı, soyqırım, Andranik Ozanyan, Naxçıvanda soyqırımlar, Kazım Qarabəkir paşa, Göycə, Zəngəzur
Key words: Armenian invasion, genocide, AndronikAzayan, massacre in Nakhchivan, Pasha Kazim Garabakir, Goyja, Zangazur.
Ключевые слова: Армянское оккупирование, геноцид, Андраник Озаян, геноцид в Нахчывани, паша Казим Гарабакир, Гёйча, Зангезур

Məqalədə ermənilərin Andranik Ozanyanın başçılığı ilə Naxçıvan ərazisində törətdiyi qətliyamlardan bəhs olunur. XX əsrin əvvəllərində Naxçıvan bölgəsində baş verən hadisələr fonunda ermənilərin bu bölgəni işğal edərək bütün Naxçıvan ərazisində törətdiyi dəhşətli qırğınlardan arxiv materialları əsasında təhlil olunur. Qeyd olunur ki, Naxçıvan ərazisinin erməni işğalçılarından təmizlənməsində Osmanlı ordusunun müstəsna xidmətləri olmuşdur. Qəhrəman Naxçıvan oğulları Osmanlı ordusunun köməyi ilə ermənilər Naxçıvan ərazisindən qovmaqa müvəffəq ola bilmişlər.

XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı soyqırımının törədilməsində ayrı-ayrı erməni cəlladları fəal rol oynamışlar. Naxçıvanda azərbaycanlılara qarşı törədilən soyqırımda sadə xalqın yaddaşında "tayqulaq erməni daşnak generalı" kimi qalmış Andranik Ozanyan, daşnak hərbi dəstə rəisləri Dro, Njde, Doluxanov, Yapon, Şelkovnikov və digər cəlladların başçılıq etdiyi dəstələr böyük rol oynamışdır. Zəngəzurda və Qarabağda qırğınlar törətmiş Andranikin dəstəsi təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən artıq kəndi viranə qoymuş, əhalisini isə amansızcasına qətlə yetirmişdir. Onun dəstə başçılarından olan Njde Ərəzin, Camaldın, Yaycı, Ordubad rayonunun Aşağı Aza, Sabir Dizə, Baş Dizə, Düylün, Vənənd, Kotam kəndlərini dağıdıb əhaliyə divan tutmuşdur. Özünəməxsus vəhşiliyi Andranikin adını ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı tarixinə xüsusi nifrətlə yazmışdır.

Andranikin Naxçıvana hücumu 1918-ci ilin iyun ayına təsadüf edir. İyunun 11-də Xəlil bəyin təklifi ilə müsəlman və erməni milli komitələrinin birgə keçirilən iclasında yerli erməni dəstəsinin komandiri Y.Xarazyan ermənilərin törətdikləri vəhşilikləri etiraf etdikdən sonra qətl və qarətlərə son qoyulması, ermənilərin tutduqları əsirlərin buraxılması və öldürülən azərbaycanlıların qatillərinin Müsəlman Milli Komitəsinə təhvil verilməsi barədə qərar qəbul edildi. Bundan əvvəl Y.Xarazyan Xəlil bəyə məktubunda, eləcə də MMK ilə keçirilən birgə iclasda bildirmişdi ki, o öz ordusu ilə tezliklə Naxçıvanı tərk edərək Batum müqaviləsi ilə müəyyən olunmuş sərhədə - Arpaçayın şərq sahillərinə çəkiləcəkdir. Lakin o Şahtaxtıda Xəlil bəyə növbəti bir əmrə qədər Naxçıvanda qalacağını və bununla da əslində Batum müqaviləsini tanımadığını bildirdi.

Y.Xarazyanın bölgədə qalmağa qərar verməsinin əsas səbəbi A.Ozanyanın quldur dəstələrinin Naxçıvana hücuma başlaması idi. Ermənilərin nicatının yalnız Rusiyada gördüyünü bildirən Andranik Batum müqaviləsini və daşnak hökumətini tanımadığını bildirərək iyunun 5-də müstəqil hərəkətə başladı. Andranikin Naxçıvana soxulmasını və burada törətdiyi zorakılıq hərəkətləri Osmanlı ordusunun bölgəni tutaraq Bakıya doğru irəlləmələrinin qarşısının alınması kimi qiymətlədirilir. Onun böyük qüvvə ilə hərbi yürüşü Naxçıvandakı ermənilər fəallaşdırmış və onları azərbaycanlılarla olan bütün razılaşmaları pozmağa cəsarətləndirmişdi. Çünki bu dövrdə Xəlil bəyin başçılığı ilə Osmanlı hərbi qüvvəsi Andranikin qüvvəsindən qat-qat az idi.

İyunun 8-də Göycə mahalındakı Yelenovka kəndindən başlayaraq Yeni Bəyazit qəzasından keçərək Naxçıvana doğru yürüş edən Andranik iyunun 19-da şəhərə daxil oldu. Onunla eyni gündə Cənubi Azərbaycandan keçərək Culfadan gələn qatarla topçu zabitlər Hüsnü bəy, Helmi bəy və Şükrü bəyin başçılığı ilə dağa bir Osmanlı hərbi dəstəsinin şəhərə daxil olması Andranikin öz qanlı əməllərini bilavasitə Naxçıvan şəhərindən başlamaq planının qarşısını aldı. Erməni quldur dəstələri Culfaya

doğru hərəkət etməyə və qarşılarına çıxan bütün kəndlərin əhalisinə divan tutmağa başladılar. Yol boyu bütün körpü və tunellər dağıdıldı. Bu Osmanlı qoşunlarının bölgədə sərbəst hərəkətinin qarşısını almaq uçun edilmişdi. Onun Cənubi Azərbaycana doğru hərəkət etməsi isə İrandakı ingilis qoşunları ilə birləşmək cəhdi ilə bağlı idi. Erməni katalikosu ilə quldur dəstə başçıları arasındakı yazışmalardan aydın olur ki, sovet Rusiyasına böyük inamla baxan Andranik həm də ingilislərlə birləşməyi erməni xalqını xilas edəcəyini bildirmişdi [7,s.57].

Andranikin dəstəsi 8 min əsgər, 4 top, 6 pulemyot və s. silah-sursatdan ibarət idi. Bəzi məlumatlara görə onun başçılığı altında canlı qüvvə daha artıq idi. Lakin Naxçıvanda olarkən onun hərbi qüvvələrinin tərkibinin Naxçıvan Müsəlman Komitəsinin verdiyi məlumata görə, 4 min piyada, 2 min süvari, 8 pulemyot və 6 topdan ibarət olduğu aydın olur. Təbii ki, Andranikin yürüşü zamanı azərbaycanlıların müqaviməti nəticəsində müəyyən itki də vermişdi. Bu isə onun qüvvəsinin bir qədər azalmasına səbəb olmuşdu. Lakin o, Xoy-Salmas istiqamətində daha 2 top və 3 pulemyot, Culfanın Yaycı kəndinə yürüş zamanı 3 top, 1 pulemyot və 4 milyon patron ələ keçirmişdi[8].

İyunun 21-də erməni dəstələri Culfanı işğal edərək İrana Gedən körpünü tutduqdan və onu mühavizə edən 2 türk zabitini və 20 əsgərini əsir aldıqdan bir gün sonra 3000 piyada, 700 süvaridən ibarət qoşunla Xoydan 30 km aralıda yerləşən Evoğluya daxil oldular. Quldurlar yolboyu Osmanlı ordusunun 4 zabiti ilə birlikdə 200 əsgərini də əsir götürmüş, 2 topu və 3 pulemyotu qənimət kimi ələ keçirmişdilər. Andranik Culfanın işğalından sonra S.Şaumyana göndərdiyi 22 iyun 1918-ci il tarixli 577 N-li teleqramda yazırdı: " Culfa mənim əlimdədir, istədiyimiz vaxtı onu sizin sərəncamınıza verə bilərəm". Bu teleqramında o, mərkəzi Rusiya hökumətinin sərəncamına keçdiyi və Bakı komunnasına yardım göstərməyə hazır olduğunu bildirirdi. Bu teleqram və Şaumyanın ona cavabı bir çox mətləblərə işıq salır: "Culfa, xalq rəhbəri Andranikə. Sizin teleqramı aldım. Bütün mətni Moskvaya Mərkəzi hökumətə xəbər verdim. Mən şəxsən Sizi, həqiqi milli qəhrəmanı təbrik edirəm.Əgər cənab Kaçaznuni və başqaları Sizin kimi olsaydılar, erməni xalqı indi belə çətinliklə yaşamazdı... Əgər türk bəyliyinə və xanlığına, gürcü hakimiyyətinə, erməni burjuaziyasına qalib gəlsək, o zaman bütün Cənubi Qafqazın (Zaqafqaziyanın-M.Ş) birliyinə nail olarıq... Mənimlə əlaqə yaratmaq üçün yollar aramağı rica edirəm"[4].

Urmiya gölünün şimal və şimal-şərq ətrafındakı Azərbaycan kəndlərində misli görünməmiş vəhşiliklər törədən ermənilər iyunun 24-də Xoyu işğal etsələr də, elə həmin gün Osmanlı ordusuna məğlub olaraq şəhərdən qovuldular. İngilislərlə birləşmək planı baş tutmayan AndranikNaxçıvana qayıdarkən Culfa körpüsünü dağıtdı. Bundan sonra Naxçıvan üçün faciəli günlər başladı, Andranik Xoy yaxınlığındakı məğlubiyyətin qisasını naxçıvanlılardan almağa başladı. Araz çayı sahilindəki 4 min nəfərə yaxın əhalisi olan Yaycı kəndi tamamilə dağıdıldı, kənd əhalisinin 2000-2500 nəfəri öldürüldü (Hacıyev İ. Naxçıvanda ermənilərin ərazi iddiaları və tarixi həqiqətlər / Naxçıvan tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi (21-21 may 2004-cü ildə keçirilmiş elmi konfransın materialları). Bakı: Elm, 2004, s.28-40). Erməni süngüsündən sağ qutaran əhalinin bir çoxu: qadınlar, uşaqlar, qocalar İrana qaçmaq üçün Araz çayını keçərkən boğulmuşdular. Yaycıdan Ordubada doğru irəlləyən Andranik qarşısına çıxan azərbaycanlı kəndlərini dağıda-dağıda ermənilərin yaşadığı Çənnəb kəndində məskən saldılar. Ordubadlılardan tələb etdiyi ərzağı və Xudafərin körpüsündən İrana keçməyə istədiyi şəraiti əldə edə bilməyən erməni cəlladı 4 min nəfərlik dəstə ilə "Naxçıvan yürüşü"nə başladı. Andranikin dəstəsinin Ordubadda yürüşü 2 min azərbaycanlının ölümü, zülmdən qaçmaq üçün Araz çayını keçən 300 nəfərin boğulması ilə nəticələnmişdi [3].

"Naxçıvan yürüşü" də yolboyu çoxlu kəndlərin dağıdılması, əhalinin talan edilməsi və qırılması ilə müşayiət olundu. Ordubad ətrafı, Əlincəçay boyu və Şahbuz kəndlərinin əhalisi tərkisilah olunub, xeyli hissəsi qətlə yetirildi. Andranikin quldur dəstələri ilə birlikdə yerli kəndlərin əhalisi olan ermənilər də qanlı cinayətlərdə yaxından iştirak edirdilər. Şahbuz yaxınlığındakı Qarababa və Badamlı kəndlərinin ermənilər Nurs, Şahbuz, Kolanı, Gecəzur, Hənzər, Daylaqlı, Mahmudoba və s. kəndlərini talan edib, əhalisinin çox hissəsini qətlə yetirdilər. Əlincəçay vadisinin Qazançı, Paradaş və Şurut kəndi ermənilər isə Baş Anzır, Ayaq Anzır, Xanağa, Bənənyar, Camaldın, Ərəzin və Kırna kəndlərinin əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. Bu kəndlərin sağ qalan əhalisinin bir hissəsi başqa kəndlərə və dağlara sığındılar. Şıxmahmud və Qaraxanbəyli ermənilər Naxçıvan şəhərinin əhalisini daim qorxu altında saxlayırdılar. Vəziyyəti gərginləşdirən amillərdən biri də Naxçıvanda və ətraf kəndlərdə vəba epidemiyasının yayılması idi [5].

Turkiyə hokuməti belə bir vaxtda Zaqafqaziyada baş verən hadisələri diqqətlə izləyirdi. Artıq Şərur-Dərələyəz və Yerevan - Culfa dəmir yolu istiqamətində hərəkət edən turk qoşunları Kazım Qarabəkirin komandanlığı altında Naxcıvan uzərinə yeriyirdi. Belə bir dovrdə Fransa yenə daşnakların fəaliyyətini mudafiə edirdi. Belə ki, Fransanın Yerevandakı numayəndəsi Antanta bloku adından bildirirdi ki, Anatanta Naxcıvanda, Zəngəzurda və Qarabağda daşnakların hərbi əməliyyatına hər cur yardım gostərəcəkdir [6].

Turklərin qoşunla koməyə gəlməsi xəbərini eşidən Naxcıvan qəzasının kəndləri hec bir yardım gozləmədən oz kəndlərinin mudafiəsinə qalxdılar. Nehrəm kəndi sanki azərbaycanlıların qərargahına cevrildi. Butun qonşu kəndlərin əhalisinin iştirakı ilə burada xalq qoşunu dəstələri yaradıldı. Erməni vəhşiliyinə qarşı qəzəbini nifrətə, silaha cevirmiş Azərbaycan kəndliləri Nehrəmin yaxınlığında Andronikin quldur dəstəsi ilə qarşılaşdı və onun qoşununu qeyribərabər doyuşdə məğlubiyyətə uğratdı. Andronik vəziyyəti belə gorub, daha oz yuruşunu davam etdirməyin mumkun olmadığını başa duşub Qarabağ dağlarına qacdı. Və burada yenidən qoşun toplamağa başladı. Bu xəbəri eşidən Kazım Qarabəkir paşa dərhal turk qoşunlarına Naxcıvanı, Ordubadı və Culfanı ələ kecirmək barədə əmr verdi. Butun xalq turk qoşunlarını, oz xilaskar qan qardaşlarını duz-corəklə qarşıladılar.

Yaşlı əhalinin dediyinə gorə əgər turk qoşunları vaxtında Naxcıvan, Ordubad qəzalarına qoşun yeritməsəydilər, daşnak tor-tokuntuləri, başda Andronik olmaqla erməni quldur dəstələri Naxcıvan əhalisini butunluklə qırıb məhv edər, yaxud da dədə-baba yurdlarından didərgin salardılar. Erməni quldurlarının əlindən qacan Ordubad sakinləri əhaliyə qarşı vəhşicəsinə torədilən qırğınlar barədə xeyli məlumat vermişlər. 1919-cu il iyunun, 15-də Tiflisə gəlmiş Ordubad sakini Əhməd Hacı Əli oğlunun verdiyi məlumat da bu cəhətdən maraqlıdır. Onun dediyinə gorə erməni quldur dəstəsinin başcılarından biri olan Aşot Məlik Mosesyants həmin il iyunun 1-də bir necə zabitlə Ordubada gəlib, danışıq aparmaq ucun 3 nəfər musəlmanın yanlarına gondərilməsini tələb etmişlər. Ordubadlılar bu tələbi yerinə yetirərək oz aralarından 3 nəfəri Aşotun yanına gondərmişlər. Erməni qulduru həmin şəxslərə hokmlə bildirib ki, artıq bundan sonra Vedibasar, Şərur, Naxcıvan, Ordubad və Şuşaya qədər olan butun Zəngəzur qəzası Ermənistana birləşdirilmişdir. Aşot Məlik Mosesyants da Ordubad rayonunun rəisi təyin olunmuşdur.

Ordubadın səlahiyyətli numayəndələri olan bu uc nəfər elə həmin an Aşotdan onun sozlərinin duzgunluyunu təsdiq edən mandatın gostərilməsini tələb etmişlər. Lakin Aşot hec bir mandat gostərməyərək, "mənim sozlərim sizin ucun qanun olmalıdır", - deyə cavab vermişdir. Lakin ordubadlı numayəndələr qəti bildirmişdilər ki, Aşot Azərbaycan respublikasından, yaxud da muttəfiqlərin komandandığından rəsmi sənəd gətirməsə, butun əhali ona tabe olmayacaqdır.Bu hadisədən hiddətlənən Aşot cıxıb getmiş, sonra musəlmanların silahları toplayıb onun səlahiyyətli numayəndəsi Nikolay Alışevskiyə verilməsi barədə gostəriş vermişdi. Aşotun bu ultimatumu musəlmanlara cox pis təsir gostərmişdir. Onlar artıq yeni bir qırğına hazırlıq gorulduyu barədə şayiələr yaymağa başlamışlar. Tezliklə ətraf kəndlərin erməni sakinləri Aşota qoşulmuşlar. Halbuki, onlar uzun muddət musəlmanlar tərəfindən qorunurdular. Aşotun dəstəsinə daxil olan yerli ermənilər tez-tez musəlman yaşayış məskənlərinə hucum edir, hər gun bir necə nəfər oldurulur, ev-eşiyi quldurlar tərəfindən talan edilib aparılırdı[1].

Bu dövrdə Şahtaxtıda və onun ətrafında olan kəndlərdə Xəlil bəyin nəzarətində olmasına baxmayaraq Naxçıvan şəhərində və ondan cənubdakı ərazilərdə Andranikin və Xarazyanın quldur dəstələri hökmranlıq edirdilər. İyunun 17-də Andranik Güznütdən bölgənin ən böyük kəndi olan Nehrəmə yürüş etdilər. Nehrəm yaxınlığındakı Təzəkənd erməni kəndinin əhalisinin hücum olacağı barədə xəbərdarlığını və onun digər kəndlərdə törətdiyi vəhşilikləri eşidib lazımi hazırlıq görən nehrəmlilər Andranikin dəstələrinə böyük təlafat verib geri oturtdular. Məlumatlara görə, 25 nəfər erməni qulduru Nehrəm döyüşündə məhv edilmiş, düşmənin 60-a qədər silahı ələ keçirilmişdi. Kəndin müdafiəsində Hacı Əli, Hacı Heydər Dünyamalı oğlu, Kərbalayı Muxtar, Həsənqulu Həsənov, Hacı Mehdi və onlarla nehrəmli böyük rəşadətlə döyüşmüşlər[8].. Üç günlük döyüşdə çoxlu itki verdiyini, ətraf erməni kəndlərindən kömək gəlmədiyini, bununlada Nehrəmin işğalının mümkün olmadığını anlayan Andranik kəndin kənarında zəbt etdiyi bir-iki evi yandıraraq Nehrəmi tərk etməyə məcbur oldu.

Bundan 1 gün sonra Qaraxanbəyli ermənileri Naxçıvan şəhəri üzərinə hücum etdilər Ermənilərin Andranikin adından verdikləri tərksilah tələbinə Osmanlı çavuşu Mustafanın başçılığı ilə hücumla cavab verildi. İyunun 19-da Culfa tərəfdən daxil olan Osmanlı qoşunları ermənileri sıxışdıraraq Naxçıvana doğ-

ru irəlləməyə başladı. İyulun 20-də Şıxmahmud və Əliabad kəndlərini ermənilərdən təmizləyən Xəlil bəy, Cavid bəy, Osman Nuri bəy, Həsən bəy və Akif bəyin başçılığı altında Osmanlı qoşunları həmin gün Naxçıvan şəhərini də azad etdilər. Naxçıvandan və ətraf kəndlərindən qovulan erməni dəstələri birləşərək Sirab, Qahab və Qaraqala kəndlərini talan edərək əhalinin xeyli hissəsini qırdılar.

Osmanlı ordusunun XI Qafqaz divizyası Naxçıvanı ermənilərdən təmizlədikdən sonra iyulun 22-23-də Culfanı azad etdi. İyulun 24-dən 31-dək Naxçıvan qəzasının gənclərindən min nəfərlik hərbi qüvvə təşkil olundu.

Andranikin Naxçıvanı tərk etməsindən sonra bölgənin vəziyyəti son dərəcə ağır idi. Təkcə Əlincəçay və Gilançay hövzələrində 80-dən çox kənd viranə qoyulmuş, əhalinin böyük qismi isə qətlə yetirilmişdir. Andranikin dəstələrinin başçılarından olan Njdenin qüvvələri Ərəzin, Camaldin, Yaycı, Dizə, Ordubad mahalınınAşağı Aza, sabir Dizə, Baş Dizə, Düylün, Vənənd, Dəstə, Kotam və s. kəndlərini dağıdıb, viran qoymuş, dinc əhaliyə vəhşicəsinə divan tutmuşdu. Bəzi məlumatlara görə [7. S.60].

Andranikin bölgəyə hücumu 100-dən artıq Azərbaycan kəndinin məhvi, minlərlə insanın qətli ilə nəticələnmişdi.Erməni silahlı qüvvələri Göycəni darmadağın etdikdən sonra Naxçıvanı işğal etmiş oradan da Zəngəzur qəzasına daxil olmuş, Gorus nahiyəsini və Şuşa yolunu ələ keçirmişdilər. Bununla əlaqədar Azərbaycan hökuməti avqustun 15-də Ermənistan hökumətinə etiraz notası göndərmiş, erməni silahlı qüvvələrinin bu addımını təcavüz kimi qiymətləndirərək, əgər erməni qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasına qarşı tədbir görülməzsə, hadisələrin sonrakı inkişafı üçün məsuliyyətin Ermənistan hökumətinin üzərinə düşəçəyini kəskinliklə bildirmişdi[2.**f.970, siy. 1, iş 11, v. 180**]. Lakin Ermənistan hökuməti hiylə işlədib Andranikin silahlı qüvvələrinin Ermənistan hökumətinə tabe olmadığını bəhanə edərək, avqustun 1-də bildirmişdi ki, general Andranik və onun dəstəsi bütünlüklə Ermənistan ordusunun tərkibindən silinmişdir. Buna səbəb isə Andranik və onun dəstəsinin Ermənistan daşnak hökumətini tanımadıqlarını bəyan etmələri olmuşudu. Elə buna gerə də Ermənistan hökuməti Andranikin və onun dəstəsinin əməllərinə cavabdeh olmadığını bildirmişdi[2. **f.970, siy. 1, iş 11, v. 193**]

Andranikin "qarşısıalınmazlıq" mifini yaradan, vəhşiliyinin miqyasını artıran, onun öz qanlı əməllərini həyata keçirməyə şərait yaradan əsas amil bölgədəki vəziyyət idi. Əvvəla o, Antanta dövlətləri tərəfindən lazımı şəkildə himayə olunurdu [2**, f.894, siy. 4, iş 64-66, v.44-45**], ikinci bölgə əhalisinin silahlanma vəziyyəti onun dəstəsi ilə müqayisədə çox zəif idi, üçüncüsü, Naxçıvanda yerli rəhbərlər çəkişmələr mütəşəkkil müdafiənin təşkilinə mane olurdu və ən nəhayət, AXC-nin bölgə ilə əlaqəsi, xüsusən hərbi köməyi ilk dövrlərdə yox dərəcəsində idi.

Ümumiyyətlə arxiv sənədləri 1915-18-ci illərdə yüz minlərlə türk əhalisinin qırılmasına şahidlik edir. Son iki əsr ərzində xalqımıza qarşı daima düşmənçilik siyasəti yeritmiş erməni siyasi təşkilatlarının, siyasi əqidəsindən asılı olmayaraq bütün erməni liderlərinin Andranikə olan münasibəti onun məhz azərbaycanlılara, Türkiyənin türk və kürd əhalisinə qarşı qaniçən fəaliyyətindən doğmuşdur. Bu baxımdan ermənilərin özlərinə "qəhrəman" hesab etdikləri Andranikin Azərbaycan və Türkiyə xalqlarının cəlladı kimi tarixə düşdüyü, onun qaniçən obrazının yaşlı nəslin, habelə tarixin daş yaddaşına həkk olunduğu şübhəsizdir.

Ədəbiyyat

1. Azərbaycan tarixi: sənədlər və nəşrlər uzrə. Bakı, Elm, 1990, səh. 317-318
2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi
[2] Наджафов Б. Лицо врага. Баку, 1994. С. 44
[3] Союз объединённых горцев Северного Кавказа и Дагестана (1917-1918 гг.), Горская республика (1918-1920). Махачкала, 1994. С. 166
[4] РФ ИИАЭ ДНЦ Ран ф. 1. Оп. 1. Д. 431. Л. 24-25
[5] РФ ИИАЭ ДНЦ Ран Ф. 1. Оп. 1. Д. 431. Л.19
[6] Безугольный А. Генерал Бичерахов и его Кавказская армия 1917 -1919 гг.// http://fictionbook.ru /author/alekseyi_yurevich_bezugolniyyi/general_bicherahov_i_ego_kavkazskaya_arm/read_online.html?page=13
[7] Джамбулатов Р. Т. Революция и Гражданская война Терской области (февраль 1917 - апрель 1920 гг.) : на материалах Хасав-Юртовского округа и Кизлярского отдела. Махачкала, 2012. С. 64-65

шихся в Дагестане до появления здесь Бичерахова и Нерсесяна в их армию нам доподлинно неизвестно, но нет оснований отрицать возможность этого.

Турок в Дагестан пригласила делегация во главе с бывшим председателем Дагестанского областного исполнителя комитета Зубаиром Темир-Хановым.[1] Выехали они ещё весной, но переговоры затянулись. Тогда вслед первой делегации отправился доктор Темир-Булат Бамматов, но был убит в дороге.

Нельзя сказать, что до октября 1918 года турок в Дагестане не было совсем. К осени 1918 года в Дагестане базировалась 12-я пехотная дивизия турок, насчитывавшая 800 человек наличного состава. Руководил этим отрядом Исмаил Хаки Бей. Отряд во главе с Шукри - Беем был направлен в Чечню и Ингушетию[2]. Высоко о Шукри-Бее отзывался участник Первой мировой войны полковник Магомед Джафаров: «Шукри-Бей, очень одарённый и энергичный человек, постоянно разъезжал по своей территории… нередко выступал в Исполкоме и вскоре в Дагестане вполне своим человеком, который всех знал и с которым все считались»[3]. Но лишь после освобождения Кавказской Исламской армией Баку турки смогли перейти к активным действиям в Дагестане.

Дипломатическому представителю горского правительства в Османской империи Гайдару Бамматову удалось встретиться с Талат-Пашой и Энвер-Пашой. Оба они дали согласие на поддержку независимости Северного Кавказа. Активную поддержку его деятельности оказывали представители черкесской диаспоры в Турции. Особый интерес он проявил к Нури-Паше и находящимся под его началам соединениям, стремясь призвать их на помощь в борьбе с бичераховцами. Существенное противодействие участию турок в северо-кавказских и в кавказских делах оказывала Германия. Руководство Германии поддерживало Юго-Восточное правительство генерала Краснова на Дону и надеялось сама занять нефтеносное каспийское побережье. К тому же, германцы были вынуждены сохранять хотя бы видимость соблюдения Брестского договора с большевиками. В письме Тапа Чермоеву Бамматов писал о своём желании отправиться на переговоры в Берлин[4].

Руководил турецкими частями в Дагестане турок черкесского происхождения Юсуф Изет-Паша, получивший от своего руководства должность командующего северокавказской армией. Подступив 10 октября к Дербенту, он отправил письмо в Петровск, к Л. Бичерахову, с требованием отвести войска на север, за Кубань. Л. Бичерахов ультиматум отверг. В первой же стычке бичераховцы были разбиты объединёнными силами турок, азербайджацев и дагестанских добровольцев. 12 октября в Дербенте кавказская исламская армия водрузила флаг Республики горцев Северного Кавказа. Взяв Дербент и Темир-Хан-Шуру, турки подступили к столице бичераховского «Центрокаспия», городу Петровску. Здесь произошла некоторая заминка, вызванная тем обстоятельством, что 30 октября 1918 года Османская империя подписала с Антантой Мудросское перемирие. Дальнейший ход войны, казалось бы, терял всякий смысл. Но Северо-Кавказская исламская армия не отступила. Идя навстречу просьбам дагестанцев, турецкое командование решило штурмовать город, чтобы спасти местных мусульман от дашнакской гидры. Это был пример редкой в истории бескорыстной помощи. Надо также отметить, что Петровская операция явилась последней наступательной операцией Османской империи в Первой мировой войне.

Основное наступление шло со стороны Атлыбоюнского перевала, с запада от города, что было неожиданно для бичераховцев, имевших наиболее прочные позиции вдоль железной дороги, с юга и с севера от города. Между Петровском и Атлыбоюном возвышалась гора Тарки -Тау, на её вершине засели армяне-пулемётчики. Современный исследователь Юрий

---

[1] ЦГА РД Ф. 8-П. Оп. 8. Д. 4. Л. 9

[2]. Безугольный А. Генерал Бичерахов и его Кавказская армия 1917 -1919 гг.// http://fictionbook.ru/author/alekseyi_yurevich_bezugolniyyi/general_bicherahov_i_ego_kavkazskaya_arm/read_online.html?page=13

[3] Полковник Магомед Джафаров: сборник материалов. Махачкала, 2005. С. 164

[4] Союз объединённых горцев Северного Кавказа и Дагестана (1917-1918 гг.), Горская республика (1918-1920). Махачкала, 1994. С. 157-158

Безугольный, ссылаясь на фонды РГАСПИ пишет в своем исследовании об этом так: «Армянские части стали слабым звеном обороны Петровска. Вновь среди армян, охваченных паническим страхом перед турками, началось массовое дезертирство»[1].

Полковник Магомед Джафаров писал в своих мемуарах: «всё население Дагестана, особенно Нагорного Дагестана, ждало турок с каким-то священным трепетом, с какими-то сверхчеловеческими надеждами. Когда они пришли, наконец, их встретили как всесильных богов, которые избавят страдальцев гор не только от всех врагов и треволнений смутного времени, но и вообще от всех бед и лишений…»[2]

Председатель совета министров Горской республики Тапа Чермоев выдвинул ультиматум Л. Бичерахову, требуя до 22 октября 1918 года вывести войска из Дагестана. При этом среди прочего им от имени Нури-Паши были даны гарантии неприкосновенности жизни и имущества остающихся в Дагестане русских и армян.

В штурме бичераховских позиций на Тарки-Тау помимо турок, принимала сотня Дагестанского конного полка во главе с Абдулатипом Эльдарушевым, а также добровольцы из числа чеченцев и темирханшуринцев. По призыву духовного авторитета Мустафы Исмаилова из села Нижнее Казанище 80 добровольцев изъявили желание участвовать в этом сражении, несмотря на активное противодействие со стороны большевистской ячейки села во главе с Магомедом Шиховым и Гаджи Османовым. Там были также добровольцы аулов Нижнекайтагского участка. Активное участие в сражениях с бичераховцами и дашнаками принимал известный дагестанский борец Ал-Клыч Хасаев.

Таркинский старожил Пахрутдин Залибеков со слов участников событий так описывал битву за Тарки-Тау: "Деникин был более добрым к народу, чем генерал Бичерахов. Этот осетинский казак, его звали Лазарь, был жестоким человеком. Привел с собой много армян тоже. Анжи[3] они разграбили полностью, убили много народа. Весь мусульманский народ Анжи и округи укрыли в Тарках. Наши оборонялись по кругу, со стороны Анжи и скал. Армия казаков и армян укрепились на Тарки-Тау и затащили туда много пушек и пулеметов. Когда наши с турками пошли на штурм горы, произошло сражение, как Судный день. Турки наших берегли, впереди в атаку шли сами. Нам объясняли, что мы не обучены воевать, и старались не пускать в опасные места боев. Молодых наших ребят выгоняли из отрядов и отправляли домой. «А турков много погибло?» «Да, очень много. Мы их похоронили выше Кяхулая и у Агачаула. (дуа)»[4]. Из воспоминаний участника сражения Саладина Тонаева, при первом же штурме позиций армян под пулеметным обстрелом погибли трое односельчан, несколько человек были ранены..

Вообще, старожилы окружающих Махачкалу кумыкских селений с восхищением вспоминали турков. В их рассказах они приобретают подчас сказочные черты, уподобляются нартам - великанам[5]. Могилы турецких шахидов пользуются большим почтением у местного населения.

Битва за Петровск продолжалась два дня и завершилась 8 ноября 1918 года. Первой в Петровск вступила 3-я рота Селим-Бея[6]. Начальник 15-го пехотной дивизии подполковник Сулейман Иззер-Бей так описывал события после взятие города: «меня с визитом посетила делегация, которая еще утром обращалась к начальнику 38 й роты с просьбой об аудиенции. Двое из них были алимы, один инженер-железнодорожник, один начальник морского порта. Общим количеством 10 человек. Их имена: Ахмед Хан Ибрагим Беков, инженер Мартиновски, инженер Серидинский, священник Рамазадзе, кадий Адильхан Хадис-Хаджи, раввин

---

[1] Безугольный А. Генерал Бичерахов и его Кавказская армия 1917 -1919 гг.// http://fictionbook.ru/author/alekseyi_yurevich_bezugolniyyi/general_bicherahov_i_ego_kavkazskaya_arm/read_online.html?page=13

[2] Полковник Магомед Джафаров: сборник материалов. Махачкала, 2005. С. 168-169

[3] Кумыкское название Петровска – Махачкалы.

[4] Залибеков Пахрутдин 1898 года рождения. Полевой материал Магомед-Вакиля Темирова.

[5] Мустафаева С. Агачаул и Турция: связь времён. // Ёлдаш, 17.10.2008

[6] Mustafa Görüryilmaz Türk Kafkaz islam ordusu ve ermenler. Istanbul, 2007. S. 245

Сиджсим, представитель иранской общины города) Хаджи Агабей, Измуддин-Бей Алыпкачев, Мирза Хусейн. Эту делегация я принял, будучи раненным, на окраине села Агачаул, в маленьком сельском доме, состоящем из двух комнат. Я их угостил и отправил с ними одного офицера, направив их к командиру 38-й роты Селим-Бею».

Руководивший боем из своего штаба в Атлыбоюне командующий войсками Северного Кавказа Юсуф Изет-Паша телефонировал командующему Кавказской исламской армией Нури-Паше: Национальным и турецким войсками заняты таркинские горы, весь город находится под нашими силами. Таркинская гора усеяна трупами неприятеля, взято очень много винтовок и пулемётов. 13 пароходов неприятеля направилось на восток»[1].

По случаю освобождения Петровска бы проведён митинг, на котором было сказано много тёплых слов в адрес турецких войск.

Офицеры и урядники Дагестанского конного полка обучались турецкому военному уставу. Самым последовательным туркофилом среди дагестанского офицерства являлся уже упоминавшийся выше уроженец села Кафыр-Кумук Эльдарушев и житель соседнего селения Нижнее Казанище Зайнутдин Доногуев [2].

Благожелательно встретила турок значительная часть дагестанской интеллигенции, среди которых также было немало туркофилов, таких как Ахмед (Курди) Закуев (впоследствии профессор Бакинского университета), редактор дербентской тюркоязычной газеты Хаджи-Мурт Аминтаев, учителя Нурмагомед Шахсуваров и Магомед-Кади Дибиров.

Пребывание турецкого экспедиционного корпуса на территории Дагестана не было долгим, по условиям Мудросского соглашения и капитуляции Османской империи в Первой мировой войне они были вынуждены покинуть территорию Кавказа. Вместе с собой они уносили славу и вечную благодарность дагестанцев.

[1] ЦГА РД Ф. 8-П. Оп. 8. Д. 4. Л. 9. Л. 16
[2] Полковник Магомед Джафаров. Махачкала, 2005. С.175

Faiq Ələkbərov
AMEA Fəlsəfə və Hüquq
İnstitutunun böyük elmi işçisi,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

AZƏRBAYCANDA VƏ ŞƏRQİ ANADOLUDA ERMƏNİLƏRİN TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMININ M.Ə.RƏSULZADƏNİN ƏSƏRLƏRİNDƏ ƏKSİ (1905-1920-Cİ İLLLƏR)

GİRİŞ

XIX əsrin sonu, XX əsrin əvvəllərindən etibarən üzdəniraq qonşularımız ermənilərin Türkiyə və Azərbaycan torpaqları hesabına, «dənizdən-dənizə» devizi ilə «Böyük Ermənistan» dövləti yaratmaq iddiası bu torpaqlarda Türk-Müsəlman əhalisinin kütləvi şəkildə soyqırımı ilə nəticələnmişdir. Bunlardan ən geniş miqyaslısı Azərbaycanda və Şərqi Anadoluda baş verən 1905-1906, 1914-1916 və 1918-1920 tarixlərindəki Müsəlman-Türk soyqırımlarıdır. Maraqlıdır ki, «Böyük Ermənistan» xülyasını həyata keçirmək üçün ermənilər bir tərəfdən özünü «faciə qurbanı» kimi qələmə vermiş, digər tərəfdən isə həqiqətdə Türkiyə və Azərbaycan türklərinə qarşı geniş miqyasılı Türk-Müsəlman soyqırımlarının birbaşa təşkilatçısı olmuşdur. Bəs ermənilər bunu hansı formada həyata keçirmişlər?

Türkiyə və Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» yaratmaq üçün ilk növbədə, ermənilər özlərini «yazıq və bədbəxt millət» şəklinə salaraq Rusiya, Fransa, İngiltərə, ABŞ və başqa super dövlətlərin timsalında güclü himayədarlar axtarmağa başlamışlar. Zatən, həmin dövlətlər də bu işin bir parçası idilər. Belə ki, həmin dövlətlər Osmanlı dövlətini parçalmaq üçün "erməni məsələsi"ni ortaya atmışdılar. Bu super dövlətlər arasında çar Rusiyasının ermənilərə olan yaxın münasibətləri xüsusilə qeyd olunmalıdır. Şübhəsiz, həmin dövlətlərə, özəlliklə Rusiyaya da həmin dövrdə bölgədə nüfuz sahibi olmaq və möhkəmlənmək üçün özünə himayəçi axtaran «yazıq və bədbəxt» millətə ehtiyacları var idi. Belə bir məqamda «satqın və xəyanətkar» rolunu könüllü şəkildə qəbul edən ermənilərin meydana çıxması hər iki tərəfin – ağaların da (Rusiya, İngiltərə, Fransa, ABŞ və b.), kölənin də (ermənilərin) işinə yaradı. Bununla da, XX yüzilliyin başlanğıcında dünya siyasətində sözdə "erməni məsələsi" peyda oldu.

Rəsulzadə 1905-1906-cı illərdə Azərbaycanda baş verən erməni-müsəlman münaqişəsi haqqında

Azərbaycanda və Şərqi Anadoluda baş vermiş erməni-müsəlman münaqişələrinin əsil mahiyyəti, ermənilərin törətdikləri Türk-Müsəlman soyqırımlarına əsərlərində ən çox yer verən Azərbaycan Cümhuriyyətinin qurucusu, Milli ideoloq və Ulusal aydınımız Məhəmməd Əmin Rəsulzadə olmuşdur (1884-1955). Milli ideoloq həmin dövrdəki bütün erməni-müsəlman münaqişələrinin canlı şahidi olmuşdur. Ilk dəfə erməni vəhşiliyilə geniş ölçüdə 1905-1906-cı illərdə qarşılaşan Azərbaycan türkləri, o cümlədən Rəsulzadə üçün o zaman üzdəniraq qonşumuzun Qarabağa, İrəvana, Zənəgzura və başqa Azərbaycan Türk yurdlarına saldırmaları gözlənilməz olmuşdur. Həmin olaylar zamanı çar Rusiyasının böyük dəstəyilə rus-erməni yaraqlıları Bakı, Şuşa, Naxçıvan, İrəvan, Gəncə və Azərbaycanın başqa bölgələrində minlərlə Azərbaycan türkünün günahsız qanını axıtdılar, onlarla Azərbaycan Türk kəndlərini xaraba qoydular və on minlərlə Azərbaycan türklərini yurd-yuvasından didərgin saldılar.

Bütün bunları çar Rusiyasının ucqarlara səpdiyi milli ədavət toxumu kimi hesab edən M.Ə.Rəsulzadə o zaman ümid edirdi ki, erməni və türk millətinin barışsevərləri birləşsələr çar Rusiyası iki qonşu xalqı bir-birinə düşmən edə bilməyəcəkdir. Bu prizmadan çıxış edərək Rəsulzadə 1905-1906-cı illərdə baş verən türk-müsəlman qırğınında erməni millətçilərindən daha çox rus hökumətini və rus şovinistlərini ittiham edirdi: «Məlum olduğu üzrə Qoloşşapovu Şuşa uyezdinə «sülhçü» olaraq göndərmişlər. Qoloşşapov da «sülhçü»lüyünü büruzə verib, toplar, tüfənglər atəşlər ilə sülh etməyə başlamışdır... Ey vicdansız Qoloşşapov! Bəsdir, bəsdir içdiyiniz insan qanları, bəsdir iki milləti bir-biri ilə çalışdırıb, sonra hər ikisini də bədi-fənayə verdiyiniz! Bu qədər insafsızlıq, vəhşilik olmaz

ki, siz edirsiniz!! Tutalım ki, əhali nadinc və sülhşikəstdirlər. Bəs məsum biçarə tifillər, heç bir cinayət göstərməyə qadir olmayan zəif-zəifələr, əlsiz-ayaqsızlar, oğul-uşaqlar nə eləsin, onlar nə günahın yiyəsidirlər. Bu yazıq, sərnigün millətlərdən nə istiyorsunuz. Bunlara nə vermisiniz ki, ala bilmiyorsunuz? İnanın ki, bir vaxt millət mühakiməsinin qabağında durub, tutduğunuz işlərdən sual-cavab olunacaqsınız! Qorxun o gündən ey cəlladlar, ey insan qanına susamış olanlar!» (1). M.Ə.Rəsulzadə konkret bu məqaləsində erməni-türk münaqişəsini «erməni məsələsi» deyil, inqilabdan qorxan çar hökumətinin iki xalq arasında qəsdən yaratdığı «şeytan işi» kimi qiymətləndirmişdir (2, s.22).

Bu gün də baş verənlərə nəzərə alsaq, ziyalımızın bu ifadəsində çox böyük bir mənanın olması şübhəsizdir. Çünki hazırda da bir çoxlarımız «erməni məsələsi», «amerikan-ingilis ikili standartlılığı» və «rus şeytanlığı»nın əsil mahiyyətini anlaya bilmirik; ona görə yox ki, şüurmuzda bir problem var. Əslində bu məsələlərin əksəriyyətimizin «anlaya» bilməməsinin səbəbkarı özümüzük. Doğru-düzgün və milli ruhda təhsilin olmaması, mühitdən irəli gələn problemlər və ən əsası kütləvi xarakter daşıyan milli ideologiyanın olmaması bunun əsas səbəbləridir. Artıq hər bir Azərbaycan vətəndaşının öz arzusu, istəyi və şəxsi təşəbbüsü ilə tarixi həqiqətlərdən agah olması məsələsinə son qoyulmalı, beləliklə «erməni məsələsi», «amerikan-ingilis ikili standartlılığı» və «rus şeytanlığı»nın əsil mahiyyəti orta və ali təhsil səviyyəsində, kütləvi elektron və informasiya vasitələri ilə millətə çatdırılmalıdır.

Bu anlamda M.Ə.Rəsulzadə 1905-1906-cı il olayları ilə bağlı «Kənddə müsibət», «Yenə də müsibətmi!?» məqalələrində erməni daşnaklarının çar Rusiyası ilə birgə hərəkət etdiyini açıq şəkildə yazsa da, ancaq yenə də inanırdı ki, bütövlükdə bu məsələdə erməni xalqının əli yoxdur (3). «Yenə də müsibətmi!?» məqaləsində Rəsulzadə bildiridi ki, müsəlmanlar və ermənilər fitnəçilərə qarşı birləşib münaqişiyə son verməlidirlər (4). O, yazırdı: «İndi hər iki millətin mücahidlərinə lazım gələn odur ki, cəngiku olan millətçiliyi bacardıqca məğlub edib ümuminsaniyyət və bəşəriyyət amalı və əfkarını cəmaət arasında ovsaf və sadə, zər bir hiylə və fitnədən mübərra olan cəmaət arasında möhkəmləşdirsinlər. Böylə bir mədəni zəhmət müsəlman və erməni cəmaətinin cümlə yaxşı hissəsinin, ümumən ictimaiyyun-ammiyyunlarının isə xüsusən öhdələrinə vabəstdir» (5).

Erməni vəhşliyini, ermənilərin türk-müsəlman düşmənçiliyini, riyakarlığını və satqınlığını daha dərindən anlayandan sonra M.Ə.Rəsulzadə başa düşmüşdür ki, erməni-müsəlman münaqişəsinin səbəbkarı yalnız çar Rusiyası və terrorçu «Daşnaksutyun» firqəsi deyil, bütövlükdə erməni millətidir.

Rəsulzadə 1914-1916-ci illərdə Şərqi Anadoluda ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırım haqqında

1-ci Dünya müharibəsində iştirak edən Türkiyə düşmənlərinə (çar Rusiyası və b.) qarşı mübarizə apardığı bir zamanda (1914-1916-ci illər) ərazisinin şərq bölgəsində yaşayan erməni quldur dəstələri ağalarının himayəsi ilə Türk-Müsəlman əhaliyə olmazın divan tutaraq, Şərqi Anadoluda Ermənistan dövləti yaratmağa cəhd göstərmişlər. Türkiyə hökuməti isə ermənilərin bu xəyanətinə qarşılıq onların bu ərazini boşaltmasına göstəriş vermişdir. Xüsusilə, 1915-ci ilin arelində ermənilərin xeyli bir qismi Türkiyənin şərqi Anadolu bölgəsindən çıxarılmışdır. Bununla da, 1915-ci ilin aprelində baş verən göçürülmə əməliyyatını «erməni soyqırımı» olaraq qəbul edən erməni daşnakları bu tarixdən sonra hər bir fürsətdə Türkiyə və Azərbaycan türklərinə qarşı inanılmaz cinayətlərini daha da artırmağa başlamışlar.

Bu dövrdə yazdığı məqalələrində «erməni məsələsi»nə yer verən Rəsulzadə yazırdı ki, ermənilər Osmanlının Balkanlarda apardığı müharibədən istifadə edərək türklərə arxadan zərbə vurmağa çalışırlar. Başqa sözlə, ermənilər Türkiyənin böhranlı vəziyyətindən istifadə edərək Şərqi Anadoluda erməni dövləti yaratmaq xülyasına düşmüşər. 1913-cü ildə «İqbal» qəzetində yazdığı "Erməni məsələsindən bir az"məqaləsində M.Ə.Rəsulzadə yazırdı ki, indi də ermənilər Türkiyə üçün bəlaya çevriliblər: «Nədir bu erməni məsələsi? Bu hər şeydən əvvəl bir ərazi məsələsidir… Heç bir vilayətdə orasına Ermənistan dedirdəcək qədər əhalinin əksəriyyətini təşkil edən bir vilayət yoxdur. Bu, Türkiyə haqqında tədqiqatlar ilə məşhur olan Avropa müəllifləri tərəfindən də qəbul edilmiş bir həqiqətdir» (6, s.193). M.Ə.Rəsulzadə yazırdı ki, ermənilərin iddia etdikləri kimi, Türkiyə Ermənistanı adlı bir anlayış yoxdur. Onun fikrincə nə məntiqən, nə də siyasətcən belə bir anlayış haqqında danışmaq mənasızdır. Sadəcə ermənilərin və başqa millətlərin də sakin olduğu bir neçə vilayət var (7, s.194).

O, 1914-cü ilin noyabrında "İqbal" qəzetində yayınlanlan "Erməni məsələsi ətrafında" məqaləsində bir daha Şərqi Anadoluda ermənilərin Türk-Müsəlman əhaliyə qarşı törətdikləri zülm-

karlıqlara işarə edərək yazırdı ki, bunun arxasında ilk növbədə çar Rusiyası dayanır. Onun fikrincə, ermənilərin özlərinin Türkiyədən nə istədikləri bəlli olmadığı bir dövrdə çar Rusiyasının onları Türk-Müsəlman əhaliyə qarşı zorakılıqlar etməyə sürükləməsi təsadüfi deyildir. Çar Rusiyasının məqsədi xristian ermənilər müstəqillik iddiası ilə Osmanlıya qarşı qoymaq və onların əli ilə müsəlman-türk əhalini bu bölgədən təmizləmək idi (8).

Bu cür çirkin siyasətin ən acı örnəyi 1915-ci ilin aprel-may aylarında Türkiyənin Kars və Ərdahan bölgəsində erməni-rus hərbi birləşmələrinin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlardır. Belə ki, çar Rusiyasının və bəzi Qərb dövlətlərinin təhrikiylə də dinc əhaliyə saldıran erməni quldur dəstələri açıq-aşkar soyqırım həyata keçirmişlər. Bu bölgədən çox az sayda Türk-Müsəlman əhalisi erməni-rus quldur dəstələrindən canlarını qurtararaq Azərbaycan, o cümlədən Bakıya üz tuta bilmişdilər. 1915-ci ilin mayında yayınlanan "Qardaş günü" məqaləsində Rəsulzadə yazırdı ki, Kars və Ərdahanda ermənilərin anlaşılmaz vəhşətinə uğrayan din və qan qardaşlarımızın yardıma ehtiyacı vardır: "Din və qan qardaşlarımız insanların anlaşılmaz vəhşətinə düçar olduqdan sonra indi də təbiətin amansız soyuqlarına, rəhimsiz xəstəliklərinə giriftar olub, ölümlə cəngləşməkdədirlər. Fəqət "insan ölürkən belə qardaş qucağında ölərsə, kəndisi üçün bir təsəllidir". Bu sözü cəmiyyəti-xeyriyyə köməkçilərinə demişlər, həm kimlər demiş. O Ərdahan düzündə, Kars dağlarında müsibətlərin ən böyügünə giriftar olan qardaşlarımız. O bəlalı qardaşlarımız demişlər" (9).

1916-ci ilin avqustunda "Açıq söz" qəzetində nəşr olunan "Türkiyədə ermənilər" məqaləsində isə Rəsulzadə yazırdı ki, Avropa və Rusiya "erməni məsələsi"nə ortaya atmadığı zamana qədər ermənilər Osmanlıda ən yüksək səviyyədə yaşayır, hətta Osmanlının vəzirləri belə olurdular: "Ermənilər avropalıların Türkiyə ümuri-daxiləsinə qarışmadıqları zamana qədər Türkiyədə rahatcasına yaşamış, daima İstanbul hökumətinin məzhəri-iltifati olmuşlardır. Əski zamandan bəri ermənilər hökumət qulluqlarında bulunub sultanların etimadını və iltifatlarını cəlb eləmişlər. Osmanlı dövlətinin vəzirliyində belə bulunmuşlardır" (10). Rəsulzadəyə görə, 1877-ci ildən bəri Balkan millətlərinə uyub da xarici təsirlər vasitəsilə azad olmaq istəyən Türkiyə ermənləri bununla da, İstanbul hökumətinin haqlarında bəslədiyi etimadı itiriblər. Özəlliklə, 1915-ci ildə Türkiyənin Şərqi Anadolu bölgəsində baş verən erməni üsyanları və bunun nəticəsi olaraq ermənilər tərəfindən türk-müsəlman əhalinin soyqırıma məruz qalması İstanbul hökumətini müəyyən qərarlar, o cümlədən ermənilərin Osmanlının bir ərazisindən digər ərazilərə köçürülməsi qərarını qəbul etməyə məcbur etmişdir (10).

Rəsulzadə 1918-1920-ci illərdə Azərbaycanda ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırım haqqında

Erməni-rus hərbi birləşmələrinin Azərbaycan türklərinə qarşı növbəti vəhşiliyi isə 1918-ci ilin 30-31 mart və 1 apreldə gerçəkləşdirildi. Fikrimizcə, bu dəfə Azərbaycan türklərinə, azərbaycanlılara qarşı soyqırım faktının mart ayında baş verməsi təsadüfi olmamışdır. Doğrudur, bunda həm erməni daşnakları, həm də rus bolşevkiləri eyni dərəcədə maraqları olmuşlar. Növbəti faciənin martda baş verməsinə rus bolşevikləri ona görə maraqlı idilər ki, Azərbaycanda müstəqil türk dövlətinin yaranmasının qarşısını almaq istəyirdilər. Yəni hansı yolla olursa-olsun azərbaycanlıların gözlərini qorxutmaq və istiqlal fikrindən daşındırmaq niyyəti güdürdülər. Bu məsələdə rus bolşeviklərlə birmənalı şəkildə həmrəy olan ermənləri eyni zamanda, düşündürən daha bir önəmli məsələ var idi. O da, 1-ci Dünya müharibəsinin gedişi zamanı Osmanlı dövlətində baş verən hadisələrdən hələ də, doğru nəticə çıxarmamaları idi.

Osmanlının "erməni köçü" qərarnaməsini «erməni soyqırımı» kimi dəyərləndirən daşnaklar üçün 1918-ci ildə yaxınlaşan aprel ayı sözdə «erməni soyqırımı»ndan öncə türk-müsəlman əhalidən qisas almaq niyyəti idi. Hər halda, Azərbaycanda 30-31 martda və 1 apreldə Azərbaycan türklərinin soyqırımını təşkil edən rus bolşeviklərinin lideri V.İ.Leninin Qafqazdakı səlahiyyətli nümayəndəsi, Bakı Soveti Xalq Komissarlarının sədri daşnak-bolşevik Stepan Şaumyan olmuqdur.

Azərbaycan türklərinin istiqlal ideyasına qarşı barışmazlıq göstərən bolşevik-daşnak Şaumyan hələ, 1917-ci ilin dekabrında Leninin imzaladığı «Türkiyə ərazisində Ermənistana muxtariyyət verilməsi» dekretinə nail olmuşdu (11, 22). Bu dekretdən sonra S.Şaumyan «Bakinski raboçi» qəzetinin 1918-ci ilin 17 fevralında «Vətəndaş Rəsulzadəyə cavab» yazısında xəyanətkar mövqeyini belə açıqlamışdı: «Tutaq ki, Rəsulzadənin özü inqilabi qayda-qanunun bərpası naminə milli polkların

təşkilində iştirak etsin, tutaq ki, onun obyektiv niyyətləri billur kimi safdır, lakin obyektiv surətdə onun fəaliyyəti əks nəticə verəcəkdir, ona görə ki, sinfin siyasəti bu və ya digər şəxsiyyətin yaxşı niyyətlərindən deyil, sinfi niyyətlərindən irəli gəlir» (12). Şaumyanın davam etdirdiyi qorxulu, riyakar siyasəti isə Lenin 1918-ci ilin martın əvvəllərində ona göndərdiyi teleqramda belə ifadə etmişdi: "Sizin möhkəm və qəti siyasətiniz bizi sevindirir» (13, s.26).

Bütün bunlardan ruhlanan daşnak-bolşevik Stepan Şaumyan 1918-ci il martın 15-də Bakı Sovetinin iclasında açıq şəkildə bəyan etmişdi ki, "Bakı Soveti Cənubi Qafqazda vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir". Hətta, Şaumyan deyirdi ki, Azərbaycanın istiqlalını istəyənlərə onlar ancaq xarabazarlıqlar verəcəklər. Bu o demək idi ki, erməni-rus birləşmələri Azərbaycan türklərinə qarşı soyqırımı əvvəlcədən planlaşdırmışdılar və onlara kiçicik bir bəhanə lazım idi, bu soyqırımı başlasınlar. Gözlənildiyi kimi də oldu. Belə ki, martın 30-da erməni kilsəsi yanında toplaşan erməni daşnaklarının müsəlmanları-türkləri atəşə tutması ilə isə rəsmən soyqırım başladı.

Soyqırım ərəfəsində "Daşnaksutyun" Partiyası və Erməni Milli Şurasının Bakı Sovetinin tərəfinə keçməsi açıq şəkildə göstərirdi ki, Bakı şəhərində rəhbərliyi ələ keçirən erməni daşnak və rus bolşeviklərinin məqsədi Türk-Müsəlman əhaliyə qarşı soyqırımı nə olursa-olsun reallaşdırmaqdır. Beləliklə, 1918-ci ilin martın da erməni daşnakları böyük qardaşı, himayədarı Rusiyanın birbaşa yardımı ilə türklərin-müsəlmanların kütləvi şəkildə soyqırımına başladılar. Təkcə, martın 30-dan 31-nə keçən gecədə Bakıda 10 mindən çox azərbaycanlı-türk bolşevik və daşnak hökuməti tərəfindən soyqırıma məruz qaldı. Eyni zamanda bolşevik-daşnak birləşmələri Şamaxı, Quba, Lənkəran, Kürdəmir, Salyan və Azərbaycanın başqa qəzalarında on minlərlə azərbaycanlıları qətlə yetirdilər. Bugünkü Quba soyqırım məzarlığı buna ən bariz nümunələrdən biridir.

Maraqlıdır ki, sonralar Sovetlər Birliyi tarixşünasları, alimləri mart soyqırımını ciddi-cəhdlə vətəndaş müharibəsi kimi qələmə verərək, bunun məsuliyyətini isə Azərbaycan türklərinin, xüsusilə «Müsavat» Partiyasının üstünə atmağa çalışmışlar. Ancaq danılmaz faktlar da sübut edir ki, mart hadisələrinin rus bolşevikləri və erməni daşnaklarının Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımdan başqa bir adı yoxdur. Çünki erməni daşnaklarının liderlərindən biri olan Şaumyanın birbaşa təhriki ilə başlanan mart qırğınlarında rus bolşeviklərinin yaratdığı "Bakı Soveti" və "Daşnaksutyun" Partiyasının fəalları birgə hərəkət etmişlər. Leninin imzasıyla göndərilmiş dekreti əldə etdikdən sonra, Türkiyə ərazisində muxtariyyət alacağı iştahasına düşən Şaumyan və onun daşnakçı silahdaşları açıq-aşkar şəkildə rus bolşevikləri ilə birgə hərəkət etməyə başlamışlar. Azərbaycan türklərinə, bütün azərbaycanlılara qarşı törədilmiş soyqırımın canlı şahidi, həmin dövrdə Azərbaycan xalqının lideri Məhəmməd Əmin Rəsulzadə 30-31 mart hadisələri ilə bağlı sonralar yazırdı: «Şaumyandakı bu vəsiqənin təsiri elə olmalıdır ki, bir ay əvvəl Bakı bələdiyyəsində rus məclisi-müəssisanını dağıdan bolşeviklərə qarşı bombalar, metralyozlar saçan «Daşnaksutyun» firqəsi «Bakı Soveti» ilə sıx bir rabitəyə və əsgəri bir ittifaqa girmiş oldu. Şaumyanın təxt-idarəsində bulunan «Bakı fəhlə və əsgəri soveti» erməni alayları və «Daşnaksutyun» firqəsinin müavinətini təmin ilə müsəlman təşkilatına qarşı şədid bir xətti-hərkət ittixaz eylədi. Gözləri önündə sərbəstcə erməni alayı nəfərlərini görən müsəlman xalqı, müsəlman alayının təşkili üçün Tiflisdən göndərilən zabitanın «sovet» zabitəsincə tovqif edildiyinə şahid olunca, bittəb qələyanə gəliyordu. Bu surətlə gündən-günə çoxalan yangın nəhayət, bir fəsad qığılcımı ilə tutduşdu; və 1918 sənəsi martın 28-dən 31-nə qədər davam edən qanlı mart hadisələrinə səbəb oldu» (14, s.33).

O, erməni daşnaklarının və rus bolşeviklərinin təkcə Bakıda ən azı 10 000 (on min) müsəlmanı qətlə yetirdiyini yazır: «Bu hadisə ilə bolşeviklər bir çox vilayətlərdə yapdıqları qanlı əməliyyatları Bakıda da tətbiq ediyorlardı. Fəhlə və füqəra hakimiyyəti naminə «Müsavat» firqəsi ilə «Milli Müsəlman Şurasına» elani-hərb edən «Bakı Soveti» erməni alayları ilə birlikdə 10 000 (on min) qərib müsəlman qətl etdi. Qətl edilənlər miyanında əksəri əmələ və füqara sinfindən olmaq üzrə minlərcə qadın, cocuq və silah daşımalarına imkan bulunmayan ixtiyarlar vardı» (14, s.33).

Rəsulzadə ermənilərin və rus bolşeviklərin müsəlmanlara qarşı vəhşliyinin səbəbini belə izah etmişdi: «Bakı türk milliyyətpərvərliyinin mərkəzi idi. Rus partiyası bulunan bolşevik firqəsi bu mərkəzi dağıtmaq istiyordu. Bu xüsusda o, Rusiyanın türklərə qarşı ənənəvi bir müttəfiqi olan ermənilər buluyordu. Həqiqətən mart hadisəsi əsnasında vüquə gələn qətl, bir sinif mübarizəsinə qətiyyən bənzəmiyordu. Bu, hər hankı bitərəf bir müşahid nəzərində silahi-müdafiədən məhrum müsəlman

xəlqinin amansız bir surətdə təcizyəsindən başqa bir şey deyildir. Toplar, metralyozlar, erməni əsgərinin yaylım atəşləri, aeroplanlar və limandakı bəhriyyə topları həp müsəlman məhləsinə tövcih edilmişdi. Müsəlman məhəlləsinin başına od yağdırılıyor, cəhənnəm püskürtülüyordu» (14, s.33).

Beləliklə, 30-31 mart və 1 aprel taixlərində daşnak ermənilər və bolşevik ruslar on minlərlə azərbaycanlıları yalnız qətlə yetirilmədilər, onların uşaqları doğrdılar, evlərini yandırdılar, qadınlarına təcavüz etdilər və baş-qulaqları kəsdilər. Bakının təkcə bir məhəlləsində 57 müsəlman-türk qadınının qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış və bəziləri divara mıxlanmışdı. Eyni zamanda bizim burada yaza bilmədiyimiz daha dəhşətli hadisələr də olmuşdur.

Şübhəsiz, eməni vəhişiliyi və onların arxasında dayanan rus şovinist dairəlirinin Azərbaycan türklərinə, azərbaycanlılara qarşı yöənlmiş soyqırım və başqa faciələr bununla bitmədi. 1920-ci illərdə Sovet Rusiyasının Zəngəzuru ermənilərə verməsi, üstəlik Azərbaycanda heç bir əsas olmadan Dağlıq Qarabağ Muxtar Vilayəti yaratması, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası, 26 fevral Xocalı soyqırımı və başqa faktlar azərbaycanlıların-türklərin soyqırımı tarixinin faciəli, qanlı səhifələrindəndir.

NƏTİCƏ

Fikrimizcə, 1905-1906, 1914-1916 və 1918-1920 tarixlərindəki erməni-türk münaqişəsi, bu zaman ermənilərin Azərbaycanda və Şərqi Anadoluda müsəlman-türk əhaliyə qarşı törətdikləri soyqırım olayları ermən xəstəliyinin, erməni vəhişiliyinin «tarixi yaddaşı»nın üz qarasıdır. Həmişə himayədarlarının, xüsusilə Qərbin və Rusiyanın şovinist dairələrinin birbaşa yardımı ilə türklərə, o cümlədən Azərbaycan türklərinə qarşı soyqırım hadisələri həyata keçirən erməni daşnakları bu cür rəzil millət olduqlarını dəfələrlə ortaya qoymuşlar. Bu təkcə, sözdə «erməni soyqırımı» öncəsi qonşusu türklərdən qisas aldıqlarını hesab edən bir millətin düşüncəsi deyil, bu həm də onun himayədarı olan Rusiyanın və Qərbin şovinist dairələrinin Azərbaycan xalqına dost olmayan münasibətinin bariz nümunəsidir. Hər halda, danılmaz faktdır ki, ötən əsrdə Azərbaycan xalqının başına açılan faciəvi oyunlarda –1905-1906, 1914-1916 və 1918-1920 tarixlərindəki erməni-türk münaqişəsi, bu zaman ermənilərin müsəlman-türk əhaliyə qarşı törətdikləri soyqırım olaylarında müəyən mənada Qərb və Rusiyada günahkardır.

Bizə elə gəlir ki, Azərbayan türkləri tarixin bu amansız dərslərindən, xüsusilə də soyqırım faktlarından nəticə çıxarmalı, dostlarını və düşmənlərini yaxşı tanımalıdırlar. Şübhəsiz, Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırımlarda erməni şovinistləri qədər rus millətçiləri mühüm rol oynamışlar. Hər halda, heç vaxt unutmamalıyıq ki, Qərb, Rusiya və rus əsgəri olmadan ermənilər Türk-Müsəlman soyqırımlarını təkbaşına həyata keçirə də bilməzdi. Deməli, bu soyqırımların mahiyyətini dərindən anlayıb doğru nəticə çıxarmalayıq. Bu o deməkdir ki, biz bu soyqırımlarda yalnız ermənilərin və Ermənistanın deyil, eyni zamanda Rusiyanın və Qərbin də əsas pay sahibi olmasını yaddan çıxartmamalıyıq. Bu bir faktdır ki, vaxtilə Azərbaycan torpaqlarının müəyyən bir hissəsində Ermənistan dövlətini yaradan Rusiya və Qərb dövlətləri yaxın tariximizdə torpaqlarımızın digər bir hissəsinin işğal olunmasında fəal oynamaqla yanaşı ikinci bir «erməni dövləti»nin qurulması məsələsində də ikiüzlü siyasətini davam etdirməkdədir.

M.Ə.Rəsulzadənin yaradıcılığında ən çox diqqəti çəkən məsələlərdən biri də, ermənilərin türk-müsəlman əhaliyə qarşı vəhişiliyinin ifşası olmuşdur. Bolşevik, şovinist ruslarla erməni daşnaklarının, terrorçularının iş birliyini vaxtında anlayan və onların iç üzünü hələ ötən əsrin əvvəllərində açmağa başlayan M.Ə.Rəsulzadə, bütün yaradıcılığı boyu bu məsələyə zaman-zaman toxunmuşdur. Eyni zamanda M.Ə.Rəsulzadə ermənilərin yalnız Azərbaycan türklərinə deyil, Türkiyə türklərinə, bütövlükdə isə Türk dünyasına qarşı apardıqları terrorçu, barbar siyasəti bir çox məqalələrində qələmə alaraq ifşa etmişdir. Bütövlükdə, milli ideoloqumuz Məhəmməd Əmin Rəsulzadə ermənilərin ikiüzlü, şovinist, vəhşi sifətlərini ictimai-siyasi görüşlərində açmağa çalışmış və xeyli dərəcədə də buna nail olmuşdur.

Qaynaqlar

1. Rəsulzadə M.Ə. Bəlayi əzim. «Dəvət» qəz., Bakı, 1906, № 14, 20 iyul
2. Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I c., II cilddə, Bakı: 1992, 470 s.
3. Rəsulzadə M.Ə. Kənddə müsibət. «İrşad» qəz., Bakı, 1906, №,15, 5 yanvar
4. Rəsulzadə M.Ə. Yenə də müsibətmi?!. «İrşad» qəz., Bakı, 1906, №127, 31 may
5. Rəsulzadə M.Ə. Rus mətbuatı. «Təkamül» qəz., Bakı, 1907, №7, 3 fevral
6. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II c., II cilddə, Bakı, 2001, 528 s.
7. Rəsulzadə M.Ə. Ermənі məsələsindən bir az. «İqbal» qəz., Bakı, 1913, №380, 9 iyun
8. Rəsulzadə M.Ə. Ermənі məsələsi ətrafında. «İqbal» qəz., Bakı, 1914, №786, 10 noyabr
9. Rəsulzadə M.Ə. Qardaş günü. «Yeni İqbal» qəz., Bakı, 1915, №8, 6 may
10. Rəsulzadə M.Ə. Türkiyədə ermənilər. «Açıq söz» qəz., Bakı, 1916, №259, 15 avqust
11. Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920). Баку: Азербайджан, 1993, 119 с.
12. Шаумян С. Ответ гражданину Расулзаде. Газ., «Бакинский Рабочий», Баку, 1918, 17 феврал.
13. Quliyev C. Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957, 76 s.
14. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.

Резюме

В статье отмечается, что в творчестве М.Э.Расулзаде один из важных вопросов касается разоблачения зверства армянского национализма по отношению к азербайджанцам. Он на самом начале своего творчества понял суть союза армянских дашнаков с большевиками и русскими шовинистами. В целом в статье раскрываются двуличие, шовинистический, нечеловеческий характер армянских националистов.

Summary

In article it is noticed that in M.E.Rasulzade creativity by one of the important questions concern to exposure of an atrocity of the Armenian nationalism in relation to Azerbaijanians. He on the beginning of the creativity has understood an essence of the union Armenian dashnaks with Bolsheviks and Russian chauvinists. As a whole in article duplicity, chauvinistic, inhuman character of the Armenian nationalists reveals.

Məryəm Seyidbəyli
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
«Azərbaycan diasporu» şöbəsinin müdiri
tarix üzrə elmlər doktoru

AZƏRBAYCAN XALQINA QARŞI ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ SOYQIRIM CİNAYƏTLƏRİNİN İFŞASINDA AZƏRBAYCAN DİASPORUNUN ROLU

Açar sözlər: Soyqırım, mart qırğını, Xocalı, diaspor
Ключевые слова: Геноцид, мартовские погромы, Ходжалы, диаспора
Kew words: Genocide, march massacre, diaspore

Milli müstəqilliyimizin ən böyük nailiyyətlərindən biri xalqımızın tarixi yaddaşını çoxdan narahat edən problemləri, həqiqətləri öyrənib, dünya ictimaiyyətinə çatdırmaq üçün, tarixçilərimizə böyük imkanların verilməsidir. Bu gün tarixçilərimiz ulu öndər Heydər Əliyevin «Bizim tariximiz bizim üçün ibrət dərsi olmalıdır» metodoloji mülahizəni rəhbər tutaraq tariximizin «qara ləkələrinin» məntiqi sirrini böyük profesionallıqla işləyirlər. Deyirlər ki, tarixin qanunları təkrar olunur. Bu qanunlar ona görə təkrar olunur ki, böhranlı anlar yeni, qeyri-ordinar siyasəti meydana gətirən xüsusi əxlaqi keyfiyyətlər tələb edir.

Bu baxımdan xüsusilə qeyd etmək lazımdır ki, vaxtilə monolit siyasi sistem olmuş olan sosializmin dağılmasından sonra cəmiyyətşünaslar, humanitar elm sahələrinin mütəxəssisləri tam ölçüdə dərk etdilər ki, yalnız plüralizmin və demokratiyanın müxtəlif nəzər nöqtələrinin həyata keçirilməsi üçün şəraitinin yaradıldığı, fikir azadlığına rəvac verildiyi liberal dövlətlərdə əsl tarixi həqiqətləri yeni metodologiya əsasında öyrənmək, tədqiq etmək mümkündür.

Azərbaycanlılara qarşı erməni təcavüzü və soyqırımı bu gün daha dərindən tədqiq olunmalı məsələdir. Erməni qırğınlarının ideoloji əsası olan «Ermənistan: Böyük Dənizdən dənizədək» ideyası millətçi erməni tarixçilərini bu gün də tərk etmir. Özlərinin guya «tarixi torpaqlarında», o cümlədən Qafqazda «Böyük Ermənistan» dövlətinin yaradılmasını milli ideal kimi təbliğ etməyə səy göstərirlər. Biz bu erməni, elmdən uzaq cəfəngiyyat problem üzərində ətraflı dayanmaq niyyətində deyilik, yalnız bunu qeyd etmək istərdik ki, samballı tədqiqatlarda, o cümlədən erməni mənbələrində ermənilərin Qafqaza Avropadan «gəlmə» olduqları sübut edilmişdir (16). Erməni tarixçiləri ermənilərin «müstəsnalığını» şişirdərək Herodotun da bu xalqın Qafqaz tayfalarına aid olmaması fikrilə razılaşmırlar.

Maraqlıdır ki, ermənilərin gəlmə xalq olması məsələsi erməni tarixçilərinin öz «milli» tarixlərinə münasibətində də aydın olur. Azərbaycan tarixşünaslığında irəli sürülən belə bir mülahizə mövcuddur; niyə erməni tarixçiləri «Ermənistanın tarixi» anlayışını deyil, «Erməni xalqının tarixi» terminini işlədirlər? Bu mifoloji adda səslənən tarix nə deməkdir? Əgər hər hansı xalqın tarixindən söhbət gedirsə onun əzəli tarixi ərazisi də göstərilməlidir. Məsələn, «Azərbaycan tarixini yazan, yəni bu xalqın əzəli yaşadığı ərazini göstərən müəlliflərdən fərqli olaraq, ermənişünaslar öz tarixlərini «ermənilərin tarixi» adı altında yazırlar ki, burada onların əzəli ərazisi aydın olmur. Başqa sözlə, Cənubi Qafqazda ermənilərin qonşuları təkcə öz keçmişləri ilə deyil, həm də öz əzəli tarixi torpaqları, yəni etnik ərazilərinin tədqiqilə məşğul olurlar. Ermənilər isə hazırda erməni coğrafi məkanında, yəni uzaq keçmişdə müəyyən tarixi səbəblər üzündən düşdükəri torpaqlarda yaşayırlar (19). Burada bir məkrli məqam da gizlənir: ermənilər harada yaşayırsa, deməli ora Ermənistan torpaqlarıdır.

Təbii ki, bizim vəzifəmiz bu fenomeni ətraflı araşdırmaq deyildir, çünki bu tarixi həqiqət öz missiyasına vicdanla yanaşan tarixçilərdə şübhə doğurmur. Qafqaz xalqları arasında Türkiyəyə qarşı nifrət psixologiyasını yayan erməni ideoloqlarından fərqli olaraq Qafqaz xalqlarının nümayəndələri, o cümlədən mühacir azərbaycan ziyalıları Qafqazın birliyi uğrunda mübarizə aparmışlar. Fəaliyyətinin çoxçalarlı və zənginliyinə görə Azərbaycan intelektual mühacirətinin fəaliyyətini Rusiya və Ukrayna mühaciərtinin yaratdıqları ilə müqayisə olunması fikrilə razılaşmaq olar (4).

Bu kontekstdə Azərbaycan mühacirətinin və diasporunun fəaliyyətini dərindən öyrənmiş və öz maraqlı yazıları ilə siyasi publisistikamızı xeyli zənginləşdirmiş R.Abutalıbovun qeydləri olduqca maraqlıdır. O, yazır ki, Azərbaycan Xalq Cümhüriyyətinin Parisdəki nümayəndə heytəinin üzvləri

«1919-cu ilin mayından 1920-ci ilin aprelinə qədər olan dövrdə çox çətin şəraitdə Fransada 3 kitab, 12 bülleten, ölkənin xəritəsini, o cümlədən kütləvi informasiya vasitələrində çoxsaylı məqalələri çap etdirməyə nail olublar. Doğrusu bu gün heç də hamımız xaricdə belə məhsuldar işimizlə qürrələnə bilmərik (1). Həmin yazılarda ziyalı elitamız Azərbaycan cəmiyyətini düşündürən problemləri, o cümlədən erməni qırğınlarının əsl mahiyyətini, ermənilərin azərbaycanlılara qarşı təcavüzünün real səbəblərini işıqlandırmış, həmvətənlərimizin tarixi vətənləri barədə maraqlı və obyektiv məlumatlar vermişlər.

Ulu öndərin 18 dekabr 1997-ci il tarixli «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında» və 26 mart 1998-ci il tarixli «Azərbaycanlıların soyqırımı haqqında» fərmanları mühüm tarixi hadisə oldu. Sonuncu fərmanın müstəsna əhəmiyyəti bundadır ki, elmi dövriyyəyə ilk dəfə rəsmi olaraq «Azərbaycanlıların soyqırımı» anlayışı daxil edildi və dünya ictimaiyyəti Azərbaycan həqiqətləri ilə tanış olmağa başladı. Bu, erməni millətçiliyi siyasətinə böyük zərbə oldu. Bu fərmanlarda inandırıcı şəkildə göstərilir ki, son iki əsrdə Qafqazda ermənilər və onların havadarları tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə etnik təmizləmə və soyqırım siyasəti həyata keçirilmiş, xalqımız ağır mərhumiyyətlərə və faciəli həyata məruz qalmışdır.

Fərmanların elmi tədqiqatlar üçün mühüm metodoloji əhəmiyyəti bundadır ki, burada azərbaycanlıların deportasiyası və ermənilərin soyqırım siyasəti vahid proses kimi götürülür. Təbii ki, məqalənin həcmi deportasyia haqqında təfsilatlı izaha və təhlilə imkan vermir. Biz yalnız bunu qeyd etməklə kifayətlənirik ki, Qərbi Azərbaycandan – indiki Ermənistan ərazilərindən Azərbaycan türklərinin ilkin qaçqınlıq dövrü 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı öz ərazisinə zorla birləşdirilməsi vasitəsilə Şəmsəddil və Loru-Pəmbək bölgələrinin rusların əlinə keçməsi dövründən başlamışdır. 1801-ci il iyulun 13-də general-mayor Lazarev Qafqaz qoşunlarının komandanı Knorrinqə göndərdiyi raportunda göstərirdi ki, Pəmbək əyalətinin 14 kəndindən təxminən 5-6 min əhali bölgəni tərk edərək İrəvan xanlığı ərazisinə sığınmışlar (6). Sonralar bu məkrli siyasət daha məqsədyönlü, daha geniş miqyasda davam etdirilmişdir. Rusiya çarı II Nikolayın mövqeyinə diqqət edək.

II Nikolay Fransa səfiri Moris Paleoloqla söhbətində bildirmişdi ki, «…əlbəttə Kiçik Asiyada mən erməni məsələsini diqqətimdə saxlamalıyam! Yol verə bilmərik ki, onlar yenidən Türkiyə zülmünün əsarətinə düşsünlər. Mən Ermənistanı birləşdirməliyəmmi? Bunu mən o şərtlə edərəm ki, ermənilər təkid etsinlər, əks halda onlar üçün avtonom rejim müəyyən edərəm».

1915-ci ilin fevralında Tiflisdə ümumerməni milli qurultayında məlum oldu ki, Rusiya hökuməti Türkiyə ermənilərini lazım olduğu təqdirdə qiyam qaldırmaq üçün daşnaklara iki yüz rubldan artıq vəsait ayırmışdır. Hələ I Dünya müharibəsinin qızğın vaxtında erməni katalikosu II Nikolaya yazırdı ki, ermənilər Rusiya taxt-tacının himayəsinə ümid bağlayırlar. Əvəzində Rusiya çarı demişdi: «Müqəddəs ata, dindarlarınıza çatdırın ki, ermənilər ən parlaq gələcək gözləyir (24).

Xatırladaq ki, həmin II Nikolayın 1902-ci ildə verdiyi fərmanına əsasən erməni kilsəsinin əmlakı müsadirə edilmişdi və onun fəaliyyətinə qadağa qoyulmuşdu. Buna səbəb rus inqilabı ərəfəsində Qafqazda bir çox erməni kilsəsinin anbarlarında silah və hərbi sursatın aşkar edilməsi olmuşdu. Məlum olmuşdu ki, kilsə gəlirlərini katalikos silahlanmaya sərf edirmiş (22).

Tarixi şərait elə yetişmişdi ki, 1917-ci ilin axırlarından başlayaraq Rusiyanın Qafqaz cəbhəsinin Şərqi Türkiyəyə yaxınlaşması Cənubi Qafqazdakı proseslərə ciddi təsir göstərmişdi. Belə ki, Rusiyada bolşevik hakimiyyəti qurulduqdan sonra inqilabi eyfariyyanın təsirinə qapılmış əsgərlər səngərləri kütləvi surətdə tərk edirdilər. Rus komandanlığı milli prinsip əsasında təşkil olunmuş yerli hərbi birləşmələrlə bu boşluğu doldurmağa çalışırdı. Osmanlı işğalından qorxan ermənilər 1917-ci ilin dekabrından etibarən general Andranik Ohanyanın komandanlığı altında ilk hərbi birləşmələrini yaratmağa başladılar. Təxminən eyni vaxtda İ.Z.Orconikidzenin rəhbərliyi ilə gürcü korpusu da yarandı.

Erməni və gürcülərin silahlanmasından narahat olan Azərbaycanın siyasi liderləri çar hökuməti dövründə müsəlmanların hərbi xidmətdən azad olmalarını ciddi şəkildə tənqid etməyə başladılar. Ümumiyyətlə çar hökuməti devrildikdən sonra Rusiyada yaşayan müsəlmanlar qoşun birləşmələri yaratmaq uğrunda petisiyalar təşkil edirdilər. Nəhayət general Ə.Şıxlınskinin rəhbərliyi altında müsəlman korpusu yarandı. Lakin Bakıda azərbaycanlılar daha yaxşı silahlanmış ermənilərlə müqayisədə zəif idilər.

Ermənilər isə həmişə olduğu kimi bu dəfə də Rusiyanın himayədarlığına keçdilər və «Böyük Ermənistanı yaratmaq» niyyətilə bolşevik hakimiyyətinin güclənməsinə çalışırdılar. Həmin dövrdə

«Azərbaycan» sözünü həqarətlə işlədən Şaumyan «Bakını Azərbaycanın paytaxtı etmək xülyasına düşən» müsəlmanlarla və onların önündə gedən Musavat partiyasına düşmən münasibət bəsləyirdi. O, müsəlmanların «millətçi bəy və xan partiyalarını» inqilabın əsas düşməni elan edərək vətəndaş müharibəsinə hazırlaşırdı. Şaumyan 1918-ci ildə martın 15-də Bakı Sovetindəki çıxışında göstərirdi ki, Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına çevrilməlidir (5).

1918-ci ilin martında erməni qoşunları Bakıya toplaşırdılar. Martın 29-da Bakı limanında «Evelina» gəmisindəki müsəlman diviziyası əsgərlərinin Bakı Sovetinin əmri ilə tərksilah edilməsi şəhərdəki gərginliyi daha da artırdı. Bununla bağlı müsəlman əhalisinin haqlı narazılığı ilə yaranan gərginliyi aradan qaldırmaq üçün Musavatın əhaliyə təmkinli olması barədə müraciəti, təəssüf ki, fayda vermədi. Bakı Sovetinin süvari dəstələrinə atəş açılması dinc azərbaycanlı əhalisinə qarşı geniş hərbi əməliyyatların başlanması Şaumyan kimilər üçün bəhanə oldu. Məqsəd dinc müsəlman əhalisini qırmaq idi. Bolşevizmə «sadiq» ermənilər vəziyyətdən istifadə edərək bolşeviklərə qoşuldular ki, bu da hadisələrə milli toqquşma xarakteri verdi.

Müsəlman kişilərinin, uşaqların və hətta hamilə qadınların öldürülməsində daşnaklar xüsusilə vəhşiliklər edir, evləri yandırırdılar. O dövrdə hadisələri düzgün qiymətləndirən M.Ə.Rəsulzadə mart qırğınları barədə yazırdı: Bakı türk milliyyətpərvərliyinin mərkəzi idi. Rus partiyası olan bolşevik firqəsi bu mərkəzi dağıtmaq istəyirdi. Bu işdə o, Rusiyanın türklərə qarşı ənənəvi müttəfiqi olan ermənilərdən istifadə edirdi. Həqiqətən mart hadisələri zamanı həyata keçirilən qətl sinfi mübarizəyə qətiyyən bənzəmirdi. Bu hər hansı bitərəf müşahidəçinin fikrinə görə, silahlı müdafiədən məhrum olan müsəlman əhalisinin amansız surətdə məhvindən başqa bir şey deyildir. Müsəlman məhləsinin başına od yağdırılırdı. Cəhənnəm puskürdülürdü» (10). Qanlı mart hadisələri müsəlman əhalisinin Rusiya hökumətinə olan ümidlərini puç etdi. Milli hərəkətin liderləri artıq muxtariyyət deyil, müstəqillik uğrunda mübarizəyə üstünlük verirdilər. Üç gün davam edən qarğın zamanı Bakı şəhərinin təkcə bir məhləsində qulaqları, burunları kəsilmiş, qarnı yırtılmış 57 azərbaycanlı qadınının meyiti tapılmışdı. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdır: «Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər» (2). Canını qurtarmağa çalışan əhalini güllə-baran etmək üçün isə ermənilər şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar yerləşdirmişdilər.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı Leonard Ramsden Hartvill «İnsanlar belə imişlər» adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbət zamanı ermənilərin ingilislərin və Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını deyərək təkcə Bakıda mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir.

Daşnakların bu vəhşi əməlləri yalnız Bakı ilə məhdudlaşmamışdır. Qısa müddətdə Şamaxı, Quba, İrəvan, Zəngəzur, Naxçıvan, Qardağda azərbaycanlıları qətlə yetirmişlər (8). Ümumiyyətlə, XX əsrin birinci yarısında Zaqafqaziyada baş vermiş iki qırğın canını (1905-1907-ci illər, 1918-1920-ci illər) 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, öz yurdlarından zorla qovulmuşlar.

Hüseyn Baykara özünün səkkiz illik zəhmətinin məhsulu olan «Azərbaycan istiqlal mübarizəsi tarixi» kitabında qanlı mart günlərini belə təsvir edir: «Moskvadan xüsusi tapşırıq alan Şaumyanın və yoldaşlarının əsas məqsədləri Milli Komitəyə bel bağlayan Azərbaycan xalqının ümidlərini qırmaq idi. Onlar iyrənc məqsədlərini həyata keçirmək üçün 1918-ci ilin martın 30-dan aprelin 1-ə kimi üç gün ərzində Bakıda türk xalqına qarşı qırğın törətdilər ki, bu da on minlərlə insanın ölümü ilə nəticələndi. Şaumyanın partizan dəstəsi erməni Lalayevin rəhbərliyi altında Şamaxıda, Göyçayda, Ağdaşda, Qubada və başqa yerlərdə də vəhşicəsinə qırğınlar törədirdi. Məqsədləri Gəncəni almaq, azəri xalqını tamamilə qırmaq və beləliklə də Azərbaycan İstiqlal mübarizəsini darmadağın etmək idi».

Hələ 1905-1907-ci illər inqilabi dövründə çarizmin müstəmləkə siyasətini pisləyən, onun çoxmillətli Zaqafqaziyada «milli qırğın» törətmək taktikasını ifşa edən, Azərbaycan diasporunun yaradılmasında müstəsna rolu olan Mirzəbala Məmmədzadə yazırdı ki, Rusiya imperiyasının tarixinin sübut etdiyi kimi o, öz müstəmləkələrini qoruyub saxlamaq, imperiyanın havadarlarını genişləndirmək üçün er-

mənilərdən istifadə etmişdi. Ancaq bu siyasətdə heç də ermənilərin istəyi yox, Rusiyanın mənafeyi əsas tutulurdu. Azərbaycan xalqının tarixində buna olan 1913, 1928, 1922-ci il müqavilələri misaldır (12).

Göründüyü kimi, mart qırğınları ilə bağlı yazılmış siyasi ədəbiyyatlarda S.Şaumyan və onun əlaltıları qırğınların təşkilatçısı və ilhamvericisi kimi hallanırlar. Ədalət naminə deyilməlidir ki, S.Şaumyanın 1918-ci il mart hadisələrində məkrli rolu «1918-ci ildə Azərbaycan xalqının soyqırımı: təşkilatçılar və cəlladlar» adlı əsərdə obyektiv və məharətlə açılmışdır (20). Zəngin arxiv materialları əsasında yazılmış bu əsərdə təkcə S.Şaumyan deyil, Azərbaycan türklərinin qanına susamış P.Caparidze, A.Mikoyan, Q.Korqanov, T.Amiryan, S.Lalayan, A.Sravasyan kimi cinayətkarların «bolşevik əməlləri» geniş tədqiq edilmişdir. «Əgər onlar (yəni Azərbaycanın siyasi qüvvələri) Bakıda üstün olsaydılar, şəhər Azərbaycanın paytaxtı olacaqdı… və bütün cəbhəboyu hücuma keçəcəkdilər… bizdə artıq 6 minə yaxın adamdan ibarət silahlı qüvvələr vardı. «Daşnaksütyun»da bizim sərəncamımızda olan 3-4 minə yaxın milli hissələri vardı. Sonuncuların iştirakı qismən vətəndaş müharibəsinə milli qırğın xarakteri vermişdi, bundan qaçmaq imkanı yox idi. Biz buna şüurlu olaraq getdik» - 1918-ci il faciəli mart hadisələrindən sonra Şaumyanın Sovet Rusiyası hakimiyyətinə göndərdiyi bu məlumat onun Azərbaycan xalqına qarşı məkirli və xain əməlini tam çılpaqlığı ilə açır (21). Bu kontekstdə qeyd olunmalıdır ki, V.Leninin Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş S.Şaumyana Rusiya xalq komissarları Şurasının 1917-ci il 29 dekabr dekreti ilə «erməni xalq milisini» və Rusiyanın zəbt etdiyi Şərqi Anadolunun («Türkiyə Ermənistanı») ərazisində «müstəqil erməni dövləti»nin yaradılması həvalə olunmuşdu.

O dövrün faciəli hadisələrinin xarakteri və miqyası o dərəcədə dəhşətli idi ki, bunu hətta bolşevik partiyası üzrə Şaumyanın silahdaşları olanlar da etiraf etməli olmuşdular. Azərbaycanlıların soyqırımının şahidi olmuş bolşevik Blyumin sonralar öz xatirələrində qeyd etmişdi: 1918-ci il hadisələri başlayır və bizim sərəncamımızda hərbi qüvvələr olmadığından daşnak dəstələrindən istifadə etdik. Lakin daşnak dəstələri öz alçaq işlərini gördülər. Vətəndaş müharibəsi əvəzinə milli müharibə törətdilər. 20 minə yaxın məzlum müsəlman əhalisni qırıb öldürdülər (23).

Deyilənlərdən aydın olur ki, Şaumyanlar, Lalayanlar nə Sovet Rusiyasının, nə də bütövlükdə bolşevizmin deyil, yalnız və yalnız ermənçilik maraqlarını güdürmüşlər və bu faktor bir daha göstərir ki, mart faciəsinin həqiqətləri dünya elmi ictimaiyyətinə daha geniş diapozonda çatdırılmalı, faktların dili ilə dünya tarixçilərini inandırmalıdır. Təbii ki, Tarix İnstitutu bu sahədə xeyli önəmli işlər görmüşdür, çünki məkrli erməni tarixçiləri hələ də tariximizi saxtalaşdırmaqda davam edir (3).

Erməni təcavüzünün məntiqi davamı olaraq erməni millətçiləri Qarabağ konfliktini yaratdılar, Xocalı faciəsini törətdilər. «Milli qəhrəman Mübariz Mirzəyevin əslən Xocalıdan olan anası Əzizə xanım, Ağdam ermənilər tərfindən işğal edildiyi üçün oğlunun qəbrini ziyarət edə bilmədiyindən, hər il Xocalı soyqırımı günü gəlib Bakıdakı Xocalı şəhidlərinə abidə kompleksini ziyarət etməklə özünə təskinlik tapır (7). Bu sətirləri ürək ağrısız oxumaq olmur. Xocalı faciəsi bu gün xalq bayatılarının yanıqlı mövzusuna çevrilmişdir.

Erməni saxtakarlığına qarşı vahid cəbhədə çıxış etmək lazımdır, yəni 1918-ci ilin mart həqiqətlərini təbliğ etmək üçün həm Azərbaycanda çalışan tarixçilər, həm də tarixi vətənlərindən uzaq düşmüş, diaspor çərçivəsində fəaliyyət göstərən tarixçilərimiz birgə fəaliyyət göstərməlidirlər.

Önəmli haldır ki, bu gün Azərbaycan diasporu, planetin hansı guşəsində fəaliyyət göstərməsindən asılı olmayaraq mart hadisələri ilə bağlı tarixi həqiqətləri geniş təbliğ edirlər.

Bakıdakı 31 mart hadisələri təkcə regionda deyil, Azərbaycanın hüdudlarından kənarda da böyük rezonans yaratmışdı. M.Əliyevin gərgin axtarışlarının nəticəsi olan «1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə» əsəri ilə tanışlıq aşkar edir ki, mart qırğınlarını unutmaq mümkün deyil. Bu tarixi fakt dünyanın bir çox arxiv materiallarında əksini tapmışdır. Məsələn, Osmanlı mənbələrində 1918-ci ilin martında Bakıda törədilən faciə ilə əlaqədar materiallar vardır. Türkiyə tədqiqatçılarından E.Şahinin baş qərargahın sənədləri arasında dövriyyəyə gətirdiyi bir materialda belə bir məlumat var: Bakı qırğınları ilə əlaqədar olaraq M.Ə.Rəsulzadə Trabzon konfransını tərk edərək Tiflisə gəlmişdi. Həmin mənbəyə görə, M.Ə.Rəsulzadə yenidən Trabzona qayıdaraq Osmanlı təmsilçilərini Bakı qırğınları barədə məlumatlandırmış, Trabzon konfransındakı Azərbaycan nümayəndələri Osmanlı hökumətindən erməni silahlı qüvvələrinin vəhşiliklərinin qarşısının alınması üçün müvafiq tədbirlər görülməsini xahiş etmişlər (13).

Azərbaycan diasporunun pozitiv fəaliyyəti yaşadığı ölkədə öz tarixi vətəni olan Azərbaycanın siyasi imicilə bilavasitə bağlıdır. Əsası H.Əliyev tərəfindən qoyulmuş, hazırda İlham Əliyevin davam etdirdiyi sülhsevər xarici siyasət sayəsində bu gün Azərbaycan dünya siyasətinin ən nüfuzlu dövlətlərindən birinə çevrilmişdir.

2013-cü il fevralın 18-də «Almaniya parlamenti cəmiyyəti»ndə Almaniya Bundestağının üzvləri regionun təhlükəsizliyində Azərbaycanın mühüm rolunu qeyd etmişlər. Həmin ildə Berlində Xocalı soyqırımının 21-ci ilinə həsr olunmuş tədbirlər keçirilmişdir.

Bir il əvvəl fevralın 23-də Berlində Xocalı faciəsinin 20-ci ildönümünə həsr olunmuş tədbirlər silsiləsi keçirilmişdir. Bu ölkədə Xocalı faciəsi ilə bağlı ilk anım mərasimi Qottrid Benn kitabxanasının bağında Xocalı abidəsinin ziyarəti ilə başlamışlar. Azərbaycan Respublikasının Almaniyadakı səfiri P.Şahbazov və Azərbaycanın Fəxri Konsulu Otto Hauser abidənin önünə əklil qoymuş, səfirliyin digər əməkdaşları, tədbirin qonaqları, Azərbaycan diasporunun nümayəndələri abidə qarşısına gül dəstələri düzmüşlər. Cənab R.Şahbazov zəbt edilən torpaqların azad edilməsi ilə bağlı BMT-nin qəbul etdiyi qətnamələrə Ermənistanın etinasız yanaşdığını, münaqişənin həlli ilə bağlı qoyulan şərtlərə əməl etmədiyini qeyd etmiş, Azərbaycanın Minsk qrupunun irəli sürdüyü bütün təkliflərə razılaşdığını vurğulamışdır. O, daha sonra alman mətbuatında Azərbaycana qarşı yayımlanan qeyri-obyektiv məlumatlara toxunaraq jurnalistlərə və mətbuat nümayəndələrinə Dağlıq Qarabağ münaqişəsi, eləcə də Xocalı faciəsi kimi mövzular barədə alman ictimaiyyətinə obyektiv məlumat verilməsini təklif etmişdir (11).

Tədqiqatlar göstərirlər ki, 1918-ci ildə Cənubi Azərbaycanda Xoy, Salmas şəhərlərində, Urmiyada erməni silahlı dəstələri tərəfindən 150-200 nəfər dinc əhali qırılmışdır. Bu barədə İran tarixçisi Səməd Sərdərnya özünün «Arazın hər iki tayında müsəlmanların soyqırımı» əsərində mühüm məlumat vermişdir. Bu hadisələr bütün təfsilatı ilə tədqiq olunmalıdır (9).

Xocalı faciəsinin dəhşətini heç bir insani ölçüyə sığışdırmaq mümkün deyildir. Diqqət edin, Serj Sarkisyan nə deyir: «Xocalıya qədər azərbaycanlılar elə fikirləşirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə bilirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmaq» qabiliyyətinə qabil deyillər. Biz bu streotipi sındıra bildik. Bu hadisə baş verdi. Bəli, riyakarlığın başqa sifəti yoxdur.

Ümumiyyətlə, ədalət naminə deyilməlidir ki, son illər Azərbaycan diasporunun fəallığı xeyli artmışdır. Uzun illər ictimai şüurda belə bir fikir kök salmışdı ki, güclü, varlı və fəaliyyəti çoxsahəli olan erməni diasporu Azərbaycan və onun müttəfiqləri ilə informasiya müharibəsində bütün döyüşləri olur. Ola bilsin belə fikir üçün müəyyən əsas vardı. Lakin bu gün hiss olunur ki, müəyyən dönüş vardır. Analitik Alena Xodson qeyd edir ki, Azərbaycan diasporunun dünya ictimaiyyətinə Xocalı soyqırımı həqiqətini çatdırmaq və «erməni soyqırımını» inkar etmək üstündə kriminallaşdırma qanununu antidemokratik mahiyyətini açmaq məqsədilə apardığı təbliğat kampaniyası göstərdi: azərbaycan diasporu ermənilərin ən miqyaslı təbliğat aksiyalarına qarşı durmaq iqtidarındadır (17).

Təbii ki, hələ görüləsi işlər çoxdur, çünki məkrli erməni tarixçilərinin tarixi keçmişimizi saxtalaşdırmaq əməlləri davam etməkdədir. Bu azmış kimi ermənilər bədnam «erməni soyqırımını» təbliğ etmək üçün muzdlu «tədqiqatçılardan» da istifadə edirlər. Məsələn, Moskvada yaşayan «şərqşünas» V.A.Snirelman kitabında «erməni soyqırımı» mövzusunu ermənilərin elmlikdən uzaq etnik siyasətinə uyğun biçimdə təqdim edir (25). Əsərdə, demək olar ki, müəllif fikri yoxdur, o, yalnız ermənilərin dünya tarixçilərinə məlum olan sayıqlamalarını təkrar edir. Hər halda belə faktlar tarixçilərimizin nəzərindən qaçmamalıdır.

Erməni tarixçisi Tiqran Saberiyski düzgün demişdir. «Tarix olduqca elə ciddi işdir ki, onu erməni tarixçilərinə etibar etmək olmaz» (18).

Mənbə və ədəbiyyat

1. «525-ci qəzet» 17 may 2003-cü il.
2. 1918-1920-ci il hadisələri mart soyqırımı. Human.qov.az.baz.; Həmçinin bax: Hüseyn Baykara. Azərbaycan iqtiqlal mübarizəsi tarixi. B.Az.Don. Nəş. B., 1992, s. 227-228.
3. Bax ətraflı: S.Köçərli. Erməni saxtakarlığı. Bakı, «Elm və təhsil». 2014, 320 s. Yenə onun, Qarabağ: yalan və həqiqət. Bakı, «Əbilov, Zeynalov və oğulları», 1998, 243 s.
4. Bax: F.İbrahimli. Azərbaycan siyasi mühacirəti. Bakı, «Elm», 1996, s. 282.
5. Bax: M.Oruclu. Azərbaycanda və mühacirətdə Musafat partiyasının fəaliyyəti (1911-1992). Bakı, «Azərnəşr», 2001, s. 54.

6. Bax: Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, «Qartal» 1998, s. 18.
7. Boran Əziz. Xocalı soyqırımı. Bakı, «Azərnəşr», 2008, s. 217.
8. Bu barədə bax: Habil Hamidov. Armenian Genoside aqainst the Azerbaijani. People. Baku, 2013, 23 s.
9. İ.news. az kanalına Göhər Baxşəliyevin verdiyi müsahibədən.
10. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhüriyyəti. Bakı, 1990, s. 33.
11. Məqalənin bir hissəsi Avropa azərbaycanlıları Assosiasiyasının Prezidenti xanım Samirə İsmayılova-Parser tərəfindən təqdim edilmiş materiallar əsasında hazırlanmışdır.
12. Mirzəbala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
13. N.Əliyev. 1917-19120-ci illərdə Azərbaycanda türk – müsəlman soyqırımları ilk mənbələrdə. Bakı, «Nurlan», 2007, s. 76.
14. Yenə orada.
15. Yenə orada. s. 54.
16. Адони Н. Армения. Новый энциклопедический словарь Брокгауза. Ефрона. СПб. 1912 т. 3; Адлер Б.О. Происхождение и расселение народов о географической точки зрение // Русский антропологический журнал 1901 № 3-4; Шопен И. Новые заметки на древнего историю Кавказе и его обитателей. СПб. 1896; Абегян М. История древнеармянской литературы. Ереван, 1975; Капанцян Г.А. Хайаса-колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947; Дьяконов И.М. Предысторию армянского народа. Ереван, 1968; Пиотровский Б.Б. О происхождении армянского народа. Ереван, 1946 və s.
17. Алена Ходеон. Член Редакционного совета NET-FAX-NET-FAKC (Kanada).
18. Бах: Гуран Маркулия.. Пантийско-Кавказские пространство и идея «Великая Армении». http: www/ irs-az. com.
19. Бах: Хаджар Вердиева, Рауф Гусейнзаде. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Эссе. Баку, «Елм», 2013, с. 3.
20. Геноцид Азербайджанского народа 1918 года: организапады и палаги. Баку, ИПО «Турхан», 2013, с. 6.
21. Геноцид азербайджанского народа 1918 года: организаторы а палачи. Б., ИПО «Турхан», 2003, 272 с.
22. Михаил Меньшиков. Национальная империя. М., Изд-во Имперская продиция». 2004, с. 462.
23. Натиг Мамедзаде. Степан Шаумян-главный организатор геноцида тюрко-мусульманского населения Азербайджана.// Геноцид Азербайджанского народа. Баку, 2013, с. 42.
24. Ф. Казымзаде. Борьба за Кавказ, с. 34-35.
25. Шнирельман В.А. Войны памяти. Милеры, иденебичность и памятика в Закавказье. М., 2003, 601 с.

РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В РАЗОБЛАГЕНИИ ГЕНОЦИДА АРМЯН ПРОТИВ АЗЕРБАЙДЖАН МНОГО НАРОДА

Резюме

Геноцид против азербайджанского народа, который неоднократно учиняло и долгие годы не получал свою политическую правовую оценку, является одной из малоисследованных сторон нашей истории. Подписанный в 1813-1828 гг. гюлистанский и Тюркменчайчские договора положили начало раздроблению азербайджанского народа, разделению ее исторических земель. В продолжение этой национальной трагедии азербайджанского народа началось оккупация его земель.

ROLE OF THE AZERBAIJANIAN DIASPORA IN THE EXPOSURE OF GENOCIDE OF ARMENIANS AGAINST THE AZERBAIJANIAN PEOPLE

Summary

The genocide of against the people of Azerbaijan who repeatedly committed and for many years did not receive its political and legal evaluation, is one of scantily explored pages of our history. Signed in 1813-1828 Gulustan and Turkmenchay treaties put the beginning of the division of the Azerbaijani people and its historical lands. During this national tragedy of the Azerbaijani people began the proses of occupation of its historical territory.

Rəhilə Şükürova
T.ü.f.d.

XX ƏSRDƏ AZƏRBAYCAN XALQINA QARŞI ERMƏNİ VANDALİZMİ: TÖRƏDİLƏN SOYQIRIMI CİNAYƏTLƏRİNİN MİLLİ-MƏNƏVİ VƏ MƏDƏNİ DƏYƏRLƏRƏ VURDUĞU ZƏRBƏLƏRİN AĞIR NƏTİCƏLƏRİ

Sovet imperiyasının süqutu ərəfəsində Ermənistanın Azərbaycan Respublikasına qarşı qaldırdığı ərazi iddiaları, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması, azərbaycanlıların 1988-1993-cü illərdə kütləvi surətdə deportasiya, etnik təmizləmə və soyqırımı cinayətlərinə məruz qalmaları xalqımızın milli-mənəvi və mədəni həyatına ağır zərbələr vurmuşdur. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası Azərbaycan xalqına qarşı 1988-1994-cü illərdə ermənilər tərəfindən törədilən soyqırımı cinayətlərinin əyani şahidi olmaq imkanı verməklə bərabər, həm də ona XX əsrin 1905-1906, 1918-1920, 1920-1937, 1948-1953-cü illərində çar Rusiyası, Böyük Britaniya, ABŞ və Sovet Rusiyası dövlətlərinin hərbi-siyasi və maddi yardım ilə ermənilərin xalqımıza vurduqları mənəvi psixoloji və maddi zərbənin miqyasını tədqiq etmək, öyrənmək şansı verdi. Hərbi təcavüz və ermənilər tərəfindən qəsdən törədilən soyqırımları nəticəsində Azərbaycan xalqı 1918-1920-ci illərdə 9 min km^2, 1921-1929-cu illərdə isə 20,8 km^2 ərazini itirmək məcburiyyətində qaldı. 1947 və 1948-ci illərdə SSRİ Mərkəzi hökumətinin qəbul etdiyi qərarlar ilə Ermənistan SSR ərazisindən 100 min nəfər yerli azərbaycanlı əhalinin öz tarixi-etnik torpaqlarından deportasiya olunmaları və nəhayət 1988-1994-cü illərdə Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 17,4 min km^2 ərazinin işğalı Azərbaycan xalqının mənəvi-psixoloji vəziyyətinə çox ağır zərbə vurdu. Vətən və torpaq itkisi, min illiklər ərzində Azərbaycan xalqı tərəfindən yaradılmış zəngin milli-mənəvi dəyərlər və ona məxsus maddi-mədəni abidələrinin ermənilər tərəfindən məhv edilməsi, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün insanlığa qarşı vandalizmin ən ağır bariz nümunəsi idi.

Ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı və deportasiya siyasəti uzun bir dövr ərzində geniş miqyaslı informasiya müharibəsi ilə müşayiət olunur. İlk növbədə ermənilərin saxtakar «alimləri» və onların Rusiya və Avropa ölkələrindən olan həmkarlarının səyləri ilə bütün Qafqazın və Ön Asiyanın tarixi saxtalaşdırılır, erməni tarixi heç bir elmi əsas olmadan qədimləşdirilir, azərbaycanlılar dünya ictimaiyyətinə barbar psixologiyalı bir varlıq kimi təqdim olunur. Min illər ərzində Azərbaycan xalqının dünya elminə, mədəniyyətinə və siyasətinə verdiyi tövhələr inkar edilir, onun yetişdirdiyi mütəfəkkir insanların başqa xalqlara mənsub olduqları iddia edilir. Çox böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu çirkin siyasət böyük dövlətlərin qondarma Ermənistan dövlətinə himayədarlıqları ilə bu gün daha geniş miqyas almışdır. 1924-cü ildən başlayaraq bu günədək keçmiş Ermənistan SSR ərazisində olan bütün Azərbaycan toponimləri və o cümlədən 1988-1994-cü illərdə işğal olunmuş Azərbaycan Respublikası ərazilərinin və onlara daxil olan inzibati vahidlərin adlarının hamısı dəyişdirilmişdir. 1988-1994-cü illər Ermənistanın Azərbaycan Respublikasına qarşı etdiyi hərbi təcavüz nəticəsində 30 min nəfər azərbaycanlı öldürülmüş, 60 min nəfər əlil və şikəst olmuşdur. Erməni təcavüzü Azərbaycan xalqının dini inanclarından da yan keçməmişdir. Belə ki, işğal olunmuş Azərbaycan Respublikası ərazilərində 120 min namaz dəsti, 1600 nüsxədən çox «Quran-kərim» yandırılaraq məhv edilmişdir. Hərbi təcavüz Azərbaycan Respublikasının 17 min km^2 ərazinin işğalına, 946 yaşayış məntəqəsinin, 7 min sənaye və kənd təsərrüfatı obyektinin, 690 orta məktəb, o cümlədən 850 məktəbəqədər müəssisə, 150 min mənzil, 4366 sosial-mədəni təyinatlı müəssisə, 665 tibb məntəqəsi, 927 kitabxana, 22 muzey, 4 rəsm qalereyası, 6 dövlət teatrı, 44 məbəd və 9 məscid erməni vandalları tərəfindən məhv edilmişdir. Azərbaycan xalqına qarşı edilən hərbi təcavüz nəticəsində vurulan maddi zərərin həcmi 60 milyard ABŞ dollarından çoxdur. Hazırda 2014-cü ilin qiymətləri ilə aparılan hesablamalara görə vurulan zərərin miqdarı 300 milyard dollardan çox təşkil edir. Bu rəqəmlər ermənilərin Azərbaycan xalqına qarşı hansı qeyri-insani vasitələrdə cinayətlər törətdiklərini bir daha təsdiq edir. Azərbaycan xalqına qarşı vurulan mənəvi zərbənin miqyasını ölçmək və ya göstərmək qeyri-mümkündür. Bütün bunlar erməni vandalizminin təkcə Azərbaycan xalqı üçün deyil, həm də bütün bəşəriyyət üçün böyük təhlükə olduğunu təsdiq edir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi IV, V-VI, VII cildlər. Bakı, 2000-2003.
2. İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. Bakı 1997.
3. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Bakı. 2006. səh. 31, 130, 132.
4. История дипломатии. М. 2006. стр. 423.
5. Jurnal «Şimali Qafqaz». Münhen. 1938, № 55-56.
6. К.Гюрун. «Армянское досье». Баку, 1993 г.
7. D.B.Seyidzadə. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyinə aparan yollar. Bakı, 2004.
8. Vasif Qafarov. Türkiyə –Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011.
9. Elxan Süleymanov, Vurğun Süleymanov. Ermənistan Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, 2012.

Rahila Shukurova

ARMENIAN VANDALISM AGAINST THE AZERBAIJANI PEOPLE IN THE XX CENTURY: GRAVE CONSEQUENCES OF THE GENOCIDE CRIMES ON OUR NATIONAL-SPIRITUAL AND CULTURAL VALUES

Summary

In the article is analyzed the grave consequences of the genocide committed in the XX century by Armenian fascism and its protectors against the Azerbaijani people.

Article was written based on factual materials and it was stated there the genocide character of these crimes created against the Azerbaijani people.

Qasım Hacıyev
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
"Qarabağ tarixi" şöbəsinin müdiri, tarix elmləri doktoru

QARABAĞDA ERMƏNİLƏRİN SEPARATİZMİ VƏ AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI

Açar sözlər: Azərbaycan, Qarabağ, erməni seperetizmi, azərbaycanlıların soyqırımı, erməni işğalı
Ключевые слова: Азербайджан, Карабах, армянский сепаратизм, геноцид против азербайджанцев, армянская аккупация.
Keywords: Azerbaijan, Garabagh, Armenian separatism, genocide of Azerbaijanis, Armenian occupation

XIX əsrin əvvəllərində Rusiya ilə Qarabağ xanlığı arasında bağlanan Kürəkçay (1805-ci il) müqaviləsi Azərbaycanın Qarabağ xanlığının istilasının əsasını qoydu; Rusiyanın Qafqazı ələ keçirmək üçün apardığı müharibə Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə nəticələndi; Azərbaycan torpaqları iki hissəyə bölündü; Qarabağ da daxil olmaqla Şimali Azərbaycan Rusiya imperiyasının tərkibinə keçdi; Rusiya dövləti qısa müddətdə (1828-1830-cu illərdə) Qacarlar İranı və Osmanlı Türkiyəsindən Qarabağa 130 mindən artıq erməni köçürdü və məskunlaşdırdı.

XIX əsrin sonlarından başlayaraq erməni millətçi təşkilatları Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün cəhdlər göstərirdilər. Bu zaman Qarabağda ermənilərin möhkəmləndirilməsi üçün həyata keçirilən etnik təmizləmə siyasəti geniş vüsət aldı, 1905-1906-ci illərdə türk-müsəlmanların silahlandırılmış ermənilər tərəfindən kütləvi qırğını ilə nəticələndi.

1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra erməni millətçiləri Azərbaycanın daxili və beynəlxalq vəziyyətində yaranmış mürəkkəb və ziddiyyətli durumundan istifadə edərək Zəngəzur və Qarabağı hədəfə aldılar. Ancaq Azərbaycan hökumətinin barışmaz mövqeyi onların planlarının gerçəkləşməsinə imkan vermədi.

1918-ci il may ayının axırlarında bəzi Avropa dövlətləri və Rusiya Şərqdə "güclü maneə" hesab etdikləri müsəlman ölkələri Türkiyə və İranın sərhədlərində İrəvan şəhəri də daxil olmaqla ermənilərə Azərbaycan torpaqları hesabına dövləti yaratdılar.

Daşnaklar əzəli Azərbaycan torpaqları olan Yuxarı (Dağlıq) Qarabağ ərazisini ələ keçirmək üçün müxtəlif əsassız iddialar irəli sürərək qəzalarda azərbaycanlılara qarşı hücumları gücləndirdilər. Bu hücumlar öz ata-baba torpaqlarında yaşayan azərbaycanlılara qarşı İrəvan və Naxşıvandan başlayaraq davam etdirildi. Bununla da, azərbaycanlıların yaşadığı Eçmiədzin, Sürməli, İrəvan, Şərur qəzalarının ərazisi ermənilər tərəfindən zəbt olundu. Bu hərbi cəhdlər azərbaycanlıların kütləvi qırğını və vandalizm ilə müşayət olundu.

Daşnaklar Azərbaycana qarşı Rusiya dövlətinin ekspansiya siyasətinin önündə gedərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlılara qarşı planlı surətdə etnik təmizləmə, deportasiya və soyqırımı həyata keçirməyə başladılar. Belə ki, hələ 1918-ci ildə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yaranan zaman Qarabağın dağlıq hissəsindəki erməni əhalisinin müəyyən təbəqələri Azərbaycan hakimiyyətini tanımaqdan imtina etdilər. 1918-ci ildə Andronikin silahlı quldur dəstələri Qarabağa soxularaq soyqırımı törətdilər.

I Dünya müharibəsi cəbhəsindən qayıdan ruslar silahlarını ermənilərə verməsi ilə əlaqədar olaraq erməni-daşnakların əlinə böyük miqdarda silahın keçməsi azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsində mühüm təkan olmuşdur. Belə ki, Rusiyanın himayəsindən istifadə edən ermənilər bəzi Avropa dövlətlərinin siyasətindən yararlanaraq Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etdilər. Azərbaycanın Yuxarı (Dağlıq) Qarabağ regionunu ermənilərin tarixi torpaqları kimi qələmə vermək məsələsini ortaya atdılar. Ermənilərin bu əsassız ərazi iddiaları azərbaycanlıların 1918-ci il soyqırımına səbəb oldu. Daşnaq S.Şaumyanın göstərişi və rəhbərliyi ilə Azərbaycanın müxtəlif ərazilərində, həmçinin Qarabağda on minlərlə günahsız insan - türk-müsəlman vəhşiliklə öldürüldü.

1918-ci ildə Qarabağda soyqırımı törədən daşnaklar Qarabağın qəzalarında kəndləri məhv edərək minlərlə azərbaycanlını öz doğma yurdlarından qovdular.

1918-ci il may ayının axırlarında Zaqafqaziya seyminin buraxılmasından sonra «Daşnaksutyun» partiyası Ermənistanın müstəqilliyini elan edərək öz millətçi ideyasını həyata keçirməyə başladı. Gürcü tarixçisi Qaribi sonralar - 1919-cu ildə yazmışdı: «Daşnaklar gəldilər milli ədavət gətirdilər, erməni-müsəlman ziddiyyətini daha da kəskinləşdirdilər»[1].

Daşnaksutyun partiyasının rəhbərliyinin fəaliyyəti barədə 1918-ci il iyulun ortalarında Lalayan bildirirdi: «Əksinqilabi daşnak hökumətinin daxili siyasətinin mahiyyəti ölkə zəhmətkeşləri arasında milli nifrəti qızışdırmaqdan, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalini fiziki cəhətdən məhv etməkdən ibarət idi»[2].

Tədqiqatlar göstərir ki, erməni millətçiləri Rusiya dövlətinin Azərbaycana qarşı ekspansiya siyasətinin önündə gedərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlılara qarşı planlı surətdə etnik təmizləmə, deportasiya və soyqırımı həyata keçirmişlər[3].

Osmanlı imperiyasında Amerika qüvvələrinin komandanı admiral Bristol öz gündəliyində yazırdı: «Mən Dro ilə birlikdə xidmət etmiş öz zabitlərimin məlumatlarına əsasən bilirəm ki, müdafiəsiz kəndlər əvvəlcə bombalanır, sonra zəbt edilir, qaçıb gedə bilməmiş sakinlər vəhşiliklə öldürülür, kənd talan edilir, bütün mal-qara aparılır və sonra isə kənd yandırılırdı. … Bütün bunlar sistematik şəkildə həyata keçirilirdi»[4].

Qafqaza gəlmə olan, Rusiyanın hərtərəfli köməyi ilə Azərbaycan xalqına məxsus İrəvan torpaqlarında "Ararat" adlı dövlət yaradan ermənilər şirniklənərək Azərbaycan Xalq Cümhuriyyətinə ərazi iddiaları irəli sürdülər. Azərbaycanın Naxçıvan, Zəngəzur və Qarabağ torpaqlarına hərbi müdaxiləyə başladılar. Bu əsassız iddialar ilə azərbaycanlılara qarşı hücumları gücləndirdilər. Hərbi hücum planını genişləndirmək üçün Qarabağda yaşayan ermənilərin separat fəaliyyətini təşkil etdilər. Azərbaycanın Yuxarı Qarabağ regionunda vəziyyət kəskin xarakter aldı. Azərbaycan dövlətinin ərazi bütövlüyünü qoruyub saxlamaq üçün 1919-cu il yanvarın 13-də Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən ayrıca Qarabağ general-qubernatorluğu yaradıldı.

Qarabağ general-qubernatoru təyin edilmiş Xosrov Paşa bəy Sultanovun fəaliyyəti nəticəsində Qarabağda erməni terrorizmi və separatizminin aradan qaldırıldı.

Tədqiqatlar zamanı Andronikin Ararat respublikasının xüsusi göstərişini yerinə yetirməsi, bunun üçün ingilis nümayəndəliyindən hərbi yardım alması (2 milyon manat pul), eləcə də Andranikin Zəngəzurda 166 Azərbaycan kəndini dağıtması, Azərbaycan kəndlərini boşaldaraq orada ermənilər yerləşdirməsi məlumatları meydana çıxır.

Azərbaycan hökuməti vəziyyəti dinc yolla qaydaya salmaq istəsə də, ingilislərin ikiüzlü siyasətini görərək, Andronikə qarşı ciddi tədbirlər görülməsinə başladı.

Əvvəlcə müstəqil Qarabağ dövləti yaratmaq istəyən ermənilər öz gizli yığıncaqlarını keçirərək Qarabağı Ermənistana birləşdirmək məsələsini müzakirə etmişdilər. Hətta onlar bu məqsədlə Ararat Respublikasına göndərmək üçün nümayəndə heyəti də seçmişdilər.

X.P.Sultanov Yuxarı Qarabağda münaqişəni törədən yerli ermənilər deyil, Ermənistan Respublikası və Daşnaksutyun partiyasının olduğunu (17 fevral 1919-cu ildə) Şuşa-Pənahabada gələn ingilis missiyasının rəhbərinə də bildirdi və Andronikin dəstəsinin tərksilah edilməsi və Qarabağdan çıxarılması, qaçqınların öz əvvəlki yerlərinə qaytarılması, Ağdam-Şuşa yolunun gediş-gəliş üçün açılması məsələsinin müzakirəsini keçirməyə təşəbbüs göstərdi. Lakin Ermənistan Milli Şurası bu təklifə qəti etiraz etdi. Bundan sonra X.P.Sultanov ingilis nümayəndəsinə ermənilərin sülh deyil Qarabağı Azərbaycanın tərkibindən ayırmaq istədiyini, Zəngəzuru zəbt etmək niyyətində olduğunu bildirdi və bütün bunlara baxmayaraq erməni-Azərbaycan münaqişəsini dinc yolla həll etmək istədiyini bəyan etdi.

---

[1]Qaribi. Qızıl кitab. Tiflis, 1921.

[2] Исторические записки. Москва, 1938, с.79-107.

[3]Mahmudov Y., Şükürov K. Qarabağ tarixi. «Qarabağ suallar və faktlar». Bakı, 2001.

[4]Briztol War Diary.14 august 1992, US 867.000/1540, 14 August 1992, US 867.000/1540; Məmmədli A. Ermənilərin gerçək tarixi. Bakı, Elm, 2005, s.315.

Zəngəzur qəza rəisinin Gəncə qubernatoruna göndərdiyi 1919-cu il 28 fevral tarixli məlumatlarda qeyd edilirdi ki, qaniçən Andronikin quldur dəstələrinin vəhşilikləri Həkəridən Araza, Minkənddən Bazarçaya və Naxçıvan qəzasının sərhədinədək uzanan ərazini bürümüşdür.

Qarabağda azərbaycanlılara qarşı erməni vəhşiliyinə son qoyulacağını başa düşən Andronik fəaliyyətinin uğursuz olacağını çox yaxşı anladığından qaçmağa məcbur oldu. Andronikin quldur dəstələri nəhayət 1919-cu ilin yazında Azərbaycan ərazisini tərk etdilər.

Lakin separatizm hələ də davam edirdi. 1919-cu iliyunun 4-də Yuxarı Qarabağda erməni silahlı dəstələri Şuşa-Pənahabad ətrafındakı hərbi hissələrin yerləşdiyi gözətçi məntəqələrinə hücum etdilər. Lakin onların bu hücumu X.P.Sultanovun gördüyü tədbirlər nəticəsində dəfedildi. General-qubernatorluq Ararat respublikasından göstəriş alan erməni Milli Şurasının təcavüzkar ünsürlərinin cinayətkar hərəkətlərinə görə Qarabağdan çıxarılması üçün tədbirlər gördü.

Təkinskinin 1919-cu iliyunun 25-də Ermənistanın XİN-ə (224 saylı) göndərdiyi notada deyilirdi: «Qarabağın general-qubernatoru gördüyü ciddi tədbirlər nəticəsində Şuşa rayonunda qayda-qanun bərqərar olmuş, həyat normal ahəngə düşmüşdür»[1].

Erməni separatçıları dinc əhalini yalan və təhrikçi məlumatlarla mitinqlərə çağırırdılar. Lakin Yuxarı Qarabağın dinc erməni əhalisinin əksəriyyəti erməni separatçılarının fitnələrinə uymur və general-qubernator Xosrovbəy Sultanovun gördüyü tədbirləri bəyənirdilər. Hətta Yuxarı Qarabağın erməni əhalisi Azərbaycan hakimiyyətini tanımağı qərara almışdı. Onlar 1919-cu ilin avqustunda fövqəladə qurultay çağıraraq Azərbaycan hakimiyyətinə tabe olmaq haqqında qərar qəbul etmişdi.[2]

A.İ.Mikoyan RK (b) PMK-ya V.İ.Leninə yazdığı 22 may 1919-cu il tarixli məktubunda qeyd edirdi ki, «daşnaklar Qarabağı Ermənistana birləşdirməyə nail olmaq istəyirlər, lakin Qarabağ əhalisi üçün bu, özlərinin həyat mənbəyi olan Bakıdan məhrum olmaq və heç vaxt, heç nə ilə bağlı olmadıqları İrəvanla bağlamaq demək olardı. Qarabağın erməni əhalisi beşinci qurultayda sovet Azərbaycanını tanımağı və onunla birləşməyi qərara almışdır»[3].

1919-cu il avqustun 28-də Qarabağ regionunun erməni əhalisinin nümayəndə heyəti Bakıya gələrək N.Yusifbəyliyə Yuxarı Qarabağ məsələsinin dinc yolla nizama salınmasına görə ona erməni əhalisi adından öz minnətdarlığını bildirmişdi.

Nəhayət, 1919-cu il noyabrın 23-də Tiflisdə ABŞ nümayəndələrinin vasitəçiliyi ilə mübahisəli məsələləri nizama salmaq üçün Azərbaycanla Ermənistan arasında müqavilə bağlandı. Lakin ermənilər az sonra, (1919-cu il dekabrın əvvəllərində) yenidən Zəngəzura və Qarabağa hücumlar təşkil etdilər.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər.

1920-ci il mayın 3-də XI Ordunun silahlı dəstələri Azərbaycana soxuldu. Ruslar Qarabağda yuva salmış erməni quldur dəstələrinin bilavasitə köməyi ilə Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovu hakimiyyətdən uzaqlaşdırdı. Şuşa, Xankəndi və Qarabağın digər şəhər və kəndləri rus qoşunlarının, erməni quldur dəstələrinin nəzarəti altına keçdi.[4]

Baxmayaraq ki, Sultan bəy Sultanovun başçılıq etdiyi müqavimət hərəkatı ilə birgə Nuru Paşanın rəhbərliyi ilə Türk-İslam odusu 1920-ci il iyun ayının əvvəllərində Şuşanı XI Ordunun silahlı dəstələrindən təmizləyə bildi, ancaq Dağlıq Qarabağa erməni separatçılarına kömək məqsədi ilə gətirilmiş birləşmiş ordu hissələri iyunun 15-də Şuşada Sovet hökumətini bərpa etdi[5].

Azərbaycan tərəfi sülhün şərtlərinə əməl edərək qoşun hissələrini Şuşa-Pənahabaddan və digər ərazilərdən çıxardığı halda Ermənistan Qarabağa qoşun hissələri göndərərək ərazini zəbt etdi. O zaman Şuşa-Pənəhabadda və Zəngəzurda olmuş ingilis jurnalisti Skotland-Liddel Londona məlumat verərək bildirirdi ki, «23 noyabr sazişinin ardınca, ermənilər Azərbaycan qoşunlarının getməsindən istifadə edərək xaincəsinə Qarabağda müsəlmanlar üzərinə hücuma keçdilər və qırxa qədər

---

[1]Təkinskinin 1919-cu il iyunun 25-də Ermənistanın XİN-ə (224 saylı) göndərdiyi nota// AR DSPİHA. F.1. s.75
[2]«Azərbaycan» qəzeti, 1 may 1920-ci il.
[3]AR DSPİHA. F.1. s.200, 74, 331, 55, 169, 7, 85, 206, 233, s.74, i.35, v.104
[4] AR DSPİHA, fond 27, siyahı 2, iş 54, vər. 43-44.
[5] İmanov R. Azərbaycanın ərazi bütövlüyünə qəsd – qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı, 2005, s.80

müsəlman kəndini dağıtdılar. Londonda erməni bürosu var. Buna bənzər təşkilatlar Fransada da, ABŞ-da da var. Ermənilərin ən çox sevdiyi metod ən alçaq reklam üçün «xristian» sözündən istifadə etməkdir. Zaqafqaziyada həqiqəti bilirlər, əgər ingilis ictimaiyyəti bilmirsə də, ingilis nazirlikləri həqiqəti bilməlidirlər».[1]

Beləliklə, ermənilərin dünyanın müxtəlif bölgələrindən Qafqaza köçürülməsi ilə burada yaşayan xalqların çətin və məşəqqətli günləri başlamışdır. Azərbaycanın qədim tarixə malik torpaqlarını zaman-zaman, hissə-hissə qoparıb «Erməni Vilayəti» yaradan ermənilər təəssüflər olsun ki, bununla kifayətlənmədilər. Onlar "dənizdən-dənizə böyük Ermənistan" dövləti yaratmaq niyyətinə düşdülər. Erməni daşnaklarının 1905-ci ildə Qarabağda azərbaycanlıların kütləvi qırğınına, 1918-ci ildə azərbaycanlıların soyqırımına səbəb olan bu mənfur və bəd niyyətli, heç bir əsası olmayan ərazi iddiaları, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da davam etdirilmişdir. Başqaların yedəyində sürünən, özlərini zahirən əzabkeş xalq kimi tanıtmağa çalışan ermənilər əslində məqam düşən kimi fitnəkar addımlar atmış, yerli əhaliyə qarşı etnik təmizləmə aparmışlar. Bu məsələdə Ermənistandan başqa Rusiyanın və Qərb dövlətlərinin də mənafe güddüyü məlumdur.

Çarizmin yerində yaranmış Sovet Rusiyası Qarabağda başlanmış azərbaycansızlaşdırma siyasətini davam etdirdi. 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsi köçürüldü. Bunlardan 765 ailə Yuxarı Qarabağda yerləşdirildi. Onların məskunlaşdırılması və yaşaması üçün hər cür şərait yaradıldı[2]. Həmin dövrdə Qarabağın hər yerində azərbaycanlıların hüquqları tapdalanmış, hər hansı bir münaqişəyə görə yalnız onlar cəzalandırılmışdır.

Ermənilər Sovet imperiyasının yaranması ilə meydana çıxan əlverişli şəraitdə inzibati ərazi məsələsini qaldırdılar və DQMV kimi nə tarixi, nə də sosial-iqtisadi əsası olmayan bir qurum yaratdılar (7 iyul 1923-cü il). Bu, təbiətən aran və dağlıq hissələrdən ibarətQarabağ regionunun dağlıq hissəsinə inzibati ərazi və ermənilərə muxtariyyət statusu verilməklə, həmçinin, Yuxarı (Dağlıq) Qarabağda yaşayan azərbaycanlıların fikri nəzərə alınmadan, onların hüquqları kobudcasına pozulmaqla yaradılmışdır.

Dağlıq Qarabağ Muxtar Vilayətinin siyasi, sosial, iqtisadi və mədəni inkişafını təmin etmək üçün Azərbaycan hökumətinin bu bölgədə kompleks islahatlar həyata keçirməsinə, inkişaf üçün üstün şərair yaratmasına baxmayaraq, erməni separatçıları öz mənfur siyasətlərindən əl çəkməmişlər.

Sovet hakimmiyyəti dövründə vaxtaşırı baş qaldıran ərazi iddiaları 1988-ci ilin əvvəllərindən etibarən intensiv hal aldı.Erməni ideoloqları «dənizdən-dənizə böyük Ermənistan» uydurmasını yenidən ortaya atmaqla növbəti dəfə ərazi iddiaları irəli sürdülər. Ermənistan adlandırılmış qədim oğuz-türk yurdu olan Qərbi Azərbaycanda azərbaycanlılara məxsus kəndlərin və qəsəbələrin dağıdılması prosesi başlandı. Yüzlərlə günahsız insan öldürüldü, 10 minlərlə soydaşımız öz tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldu.

1991-ci ildə Ermənistanın silahlı qüvvələri açıq hərbi əməliyyatlara başladılar. 1991-ci il sentyabrın 2-də erməni separatçıları Yuxarı (Dağlıq) Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq «Dağlıq Qarabağ Respublikası»nın yarandığını və müstəqilliyini elan etdilər. 1992-ci ildə isə Ermənistan silahlı qüvvələri Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatlara başladılar. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbi qüvvələri Rusiya Federasiyasının Stepanakertdə (Xankəndidə) yerləşən silahlı qüvvələrinin 366-cı alayının köməyi ilə Xocalı soyqırımını törətdilər.

Ermənistan hərbi qüvvələri1992-1993-cü illərdə Azərbaycanın Respublikasının Dağlıq Qarabağ ərazisini və digər 7 rayonunu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlıvə Zəngilanı-Azərbaycan Respublikası ərazisinin 20 %-ni işğal etdi. Bu ərazilər hələ də Ermənistanın Respublikasının işğalı altındadır.

Beləliklə, XIX əsrin əvvəllərindənçar Rusiyası tərəfindən Qarabağa köçürülüb gətirilmişermənilərinki yüz ilə yaxındır ki, böyük dövlətlərin havadarlığı və bəzi mürtəce təşkilatlar tərəfindən təşkil və idarə edilən separatizmi, və soyqırımıları Azərbaycan xalqına böyük bəlalar gətirmişdir.

---

[1] Köçərli T.K. Yaddan çıxmaz Qarabağ, Nəqşi-Cahan Naxçıvan. Bakı, Elm, 1998. s.227

[2] ARDA, fond 27, siyahı 1, iş 649, vər. 190; fond 24, siyahı 1, iş 137, vər.18; fond 410, siyahı 1, iş 11, vər.45

СЕПАРАТИЗМ АРМЯН НАГОРНОГО КАРАБАХА И ГЕНОЦИД ПРОТИВ АЗЕРБАЙДЖАНЦЕВ

Армяне, поселившиеся в первых десятилетиях XIX столетия в Северном Азербайджане, с начала XX века неоднократно подняли в Карабахском регионе массовые сепаратистские восстания, мятежи, совершили акты геноцида против азербайджанцев (1905, 1918, 1948-1953, 1988-1992 гг.).

Организаторами армянского сепаратизма являются реакционные круги некоторых великих держав. Они также в течение последних 200 лет управляют этим сепаратизмом.

Армянский сепаратизм сопровождается актами геноцида против азербайджанцев (1905, 1918, 1992). К концу XX века военные силы Армянская Республика захватила еще 20 процентов территории Азербайджанская Республика. Экономике страны нанесен значительный урон, многие граждане республики стран беженцами в собственной стране. Необходимы серьезные мероприятия того, чтобы эта мрачная история не повторилось в будущем.

ARMENİANS' SEPARATİSM AND GENOCİDE AGAİNST AZERBAİJANİS İN GARABAGH

Summary

Armenians resettled in Azerbaijan in the XIX century beginning from the early XX century committed mass killings, separatism and massacres (1905, 1918, 1992 years) in Garabagh region.

The separatism and massacres (1905, 1918, 1992) organized and managed by aggressive forces of some of the great powers and reactionary organizations brought great trouble to the Azerbaijani people. There is great need to take strict measures to prevent the recurrence of these events.

Фуад Тагиев
Доктор философии по истории
Институт истории им. А.А.Бакиханова
НАН Азербайджана

РОЛЬ АРМЯНСКОЙ ПАРТИИ «ДАШНАКЦУТЮН» В ГЕНОЦИДЕ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА В НАЧАЛЕ XX ВЕКА

Açar sözlər: azərbaycanlılar, soyqırım, "Daşnaksutyun", erməni kilsəsi, 1905-1906-cı illər, Bakı Kommunası
Key words: Azerbaijani people, genocide, «Dashnaktsutyun», Armenian church, 1905-1906th years, Baku commune

Проблеме геноцида азербайджанского народа в отечественной историографии посвящено немало работ, особенно, в последнее десятилетие, когда увидели свет монографии и различные публикации документов по этому вопросу, изданные коллективом Института истории и других подразделений Национальной Академии наук Азербайджана, а также отдельными исследователями.

Созванная Национальной Академией наук Азербайджана совместно с Институтом истории конференция позволит подвести черту под уже проделанной работой в этом направлении и в ходе обсуждений наметить новые ракурсы, нуждающиеся в рассмотрении. Доклады участников, несомненно, позволят также заново осветить выносимые на обсуждение вопросы. В этом ключе наша статья является попыткой рассмотреть аспекты, имеющих значение для раскрытия сущности описываемых объектов и позволяющих квалифицировать их действия для прояснения причин трагических событий в жизни азербайджанского народа, столкнувшегося с человеконенавистнической идеологией политических и военных преступников, выдававших (и выдающих!) себя за радетелей армянской нации.

Как же появилась армянская партия «Дашнакцутюн», для чего она понадобилась, какие побуждения двигали его создателями, что стало катализатором последующего хода истории? Рождение той или иной партии, как известно, подразумевает политические цели, то бишь достижение власти. Если следовать простой формуле, то если есть партия и он имеет целью достижение власти, значит должно быть и пространство, на которое и будет распространяться эта самая власть. Без этих составляющих само функционирование партии становится бессмысленным. При изучении в совокупности истории этой партии и течения событий исследуемого времени однозначно вырисовывается одна причина: «Дашнакцутюн» **вывели,** подчеркнем, именно, **вывели,** на политическую арену на фоне бурлящих политических катаклизмов того времени для решения насущных и краеугольных вопросов армянской политики, выражавшееся, как известно, в достижении конкретной цели, создания т.н. «Великой Армении». Мозговым центром и носителем этой идеи на протяжении многих веков являлась армянская церковь (нужно отметить, что католикосы описываемого времени избирались из состава турецких армян, в т.ч. и католикос Мкртич (Хримян Хайрик) – 1893-1907). События в мире и в регионе стремительно подходили к кульминации и «победителем» должен был оказаться тот, кто быстро и решительно извлечет выгоду из складывавшегося положения. Для армянских националистов это означало начало «очищения» территории от тех, кто уже исконно населял эти земли. Это признавали впоследствии и сами царские чиновники, в том числе и армянофил кавказский наместник И.Воронцов-Дашков в своей записке царю в 1907 г. (*10,* с.264). В записке департамента полиции МВД от 1908 г. прямо указывалось, что «в столкновениях с татарами армяне имели целью очистить смешанно населенную территорию от татар и во время бывших погромов осуществили эту цель на значительной части Елисаветпольской губернии» и на «очевидность этой цели, подтверждаемой и программой партии «Дашнакцутюн» (*7,* **с.145).** В силу этого действовать на политическом поле армянская церковь как учреждение духовного исповедания уже не могла. В связи с этим для реагиро-

вания на вызовы времени на этом витке истории и для претворения в жизнь «древних», как сама церковь, планов и был создан «Дашнакцутюн» – **для перенесения центра тяжести в принятии политических решений с армянской церкви, при общем, однако, руководстве последней**. Таким образом, скрытое противостояние недовольного своим статусом по «Положению» 1836 года армянской церкви с российским царизмом, выливавшегося в определенные промежутки времени в открытые столкновения с отдельными представителями власти, переходило в новую плоскость. Армянская церковь этим также застраховывала себя от возможных последствий и создавала своеобразный «громоотвод», получая взамен возможность контролировать все процессы, сохраняя за собой роль центра и ведущего и оставаясь при этом «вне» и «над» событиями, что открывало дополнительные возможности для маневрирования и внесения корректив в деятельность. «Дашнакцутюн», взяв себе в аббревиатуру «новомодную» для того времени наименование «революционная» и ставшая затем к тому же и «социалистической», что должно было облегчить ей вливание в ряды политических организаций и гущу событий, был призван выполнить возложенный на него стратегический план по созданию армянского государства в Восточной Анатолии, и то же самое, однако уже не декларируемое, на территории самой Российской империи. Если первое временами соответствовало непосредственно целям и задачам российского царизма, последнее, естественно, не могло устраивать имперские власти, вылившееся затем к 1903 г. противостоянию с Петербургом и первым безвинным жертвам среди азербайджанцев. Именно заигрывание царизма, а также социал-демократов и большевиков с армянскими «политическими» деятелями привели к трагическим событиям в судьбах азербайджанского и других народов, в том числе и самих армян. В дуумвирате «Дашнакцутюна» с армянской церковью вырисовывается характеристика чинимых этой партией зверств в отношении азербайджанского населения до развала Российской империи. Эти зверства происходили на территории, который по планам армянских идеологов входил в состав «Великой Армении» и так как она нужна была им в «чистом» виде, происходящие события принимали характер этнической чистки, а не «столкновений», «резни», «междоусобиц» или «погромов» и т.п. В условиях существования центральной власти в виде царизма эта чистка еще не могла принять вид сплошной, как это затем происходило в годы правления дашнаков в Армении в 1918-1920 годах, ««с благословения всеармянского генерала чернорясников каталикоса» (*16,* док.№80, с.179). И, **главное,** непосредственное участие и руководство всем этим армянской церкви, дает нам право называть это геноцидом в отношении азербайджанского населения, проживавшего на своей земле. Постараемся разъяснить свою позицию по этому вопросу. Армянская церковь являлась (и является) **политическим, духовным, административным, организационным и т.д. центром** для всех армян, что общеизвестно. Так вот, именно наличие этого **центрообразующего,** иначе говоря, если можно так выразиться, **«государствообразующего»** и наличия примеров, иллюстрирующих деяния преступного дуэта, дают нам полное право оценивать так события тех лет. Фактов симбиоза «Дашнакцутюна» с церковью предостаточно и они хорошо известны научному сообществу – начиная от руководства церковными деятелями местными отделениями партии, в т.ч. тифлисским и бакинским национальными советами, являвшимися филиалами дашнаков, и до составной части партии – организации «Паторик», «влияющая на армян со стороны религиозной путем издания католикосом соответственных «канонов», разрешающих борьбу с правительством» (*7,* с.149). Прокурор Эчмиадзинского Синода А.Френкель в 1907 г. отмечал даже, что «дашнакцакане – все левые армянские фракции, от социал-демократов до анархистов» есть «истинные хозяева дел и направления Эчмиадзинского патриархата». (*19,*с.147). Из биографий знаменитых дашнаков усматривается, что многие из них были выпестованы в знаменитой Нерсисянской тифлисской армянской семинарии и Эчмиадзинской духовной академии Геворгян (кстати, их же окончили «большевик» А.Микоян и другие армянские политические и общественные деятели). Подготовка в них отличалась, к примеру, от учебы в школах при мечетях или медресе. Последние не культивировали у своих слушателей чувство национальной исключительности, чуждое самой природе ислама, и не вдалбливали в их умы сюжеты из баснословной политической истории и мифической истори-

ческой географии. Мы упомянули выше и о стоявших перед церковью задачах, диктовавшихся текущим временем. Армянская церковь готовилась к отражению ожидавшегося «вторжения» власти. Как отмечал немецкий автор Й.Баберовски, в 1882 г. царь Александр III дал распоряжение министру внутренних дел Толстому принять решительные меры противодействия армянскому национализму. В конце 1880-х гг. правительство сняло со своих постов почти всех армян в верхних эшелонах государственного (*2,* с.72) управления. В 1885 г. были закрыты 160 армянских церковных школ, в марте 1889 г. царским указом из школьных программ исключались такие предметы, как история и география Армении (*2,* с.73). Именно на этот период приходится и создание армянских партий «Гнчак» и «Дашнакцутюн». Первый, созданный тремя годами раньше, не смог стать лидером политического лагеря. Вероятно, здесь сыграли свою роль и факторы предпочтения, а также то, что он был создан вдали от «исторической родины». Покушение гнчакиста на главноуправлявшего Кавказом князя Голицына не могло уже перевесить чашу весов и «Дашнакцутюн» в этих событиях показал, на что он был «способен». Все силы армянского политического истеблишмента были брошены на решение этих вопросов. Деятели армянского национального движения были «разбросаны» по разным направлениям – начиная от большевиков, и заканчивая масонами. При «рекрутировании» армян в кавказские отделения общероссийских партий принимались во внимание, в первую очередь, их политическая активность и мобильность, о чем свидетельствуют данные, по которым армяне занимали 4-ю строчку по активности после латышей, евреев и поляков, исходя из национального состава ссыльных революционеров в 1907—1917 гг. по отношению процента среди ссыльных к проценту среди населения (*14,* с.43). Можно утверждать, что дашнаки здесь не учитывались.

Одними из сколков дашнаков были никто иные, как … С.Шаумян и Б.Кнунянц. Именно они имеются в виду в статье про «Дашнакцутюн», опубликованной в первом издании Большой Советской Энциклопедии: «В 1902 году из Дашнакцутюн вышла группа, которая создала «союз армянских социал-демократов», впоследствии вошедший в РСДРП» (*4*), так как общеизвестно, что эти лица являются основателями вышеназванного союза (кстати, «Дашнакцутюн» в русском варианте тоже идет как «Союз» (*10,* с.117). Как известно и то, что членство Шаумяна в РСДРП указывается с 1900 г. Кнунянц и Шаумян, бросились на защиту интересов «обиженной» в 1903 году отобранием у нее школ и земель родной церкви, что объективно было и на руку ленинцам в ходе выступлений 1905 г. Первый опубликовал «обширную» статью в «Искре» под названием «Новый разбой», имея в виду секуляристский закон, а другой назвал его «хищническим» (*9,* с.357). Самое интересное то, что статью Б. Кнунянца редакция «Искры» сопроводила заметкой, в которой «с удовольствием» отмечала, что «наши кавказские товарищи совершенно правильно оценили политическое значение царского похода на армянские церковные имущества и показали своим примером, как следует вообще социал-демократии относиться ко всяким подобного рода явлениям». Армянский историк Галоян же в свою очередь констатировал по этому поводу: «А позиция кавказских социал-демократов сводилась к тому, что они выступали в защиту интересов армянского народа» (*9,* с.358). И далее: «Интернациональная борьба трудящихся Закавказья под руководством социал-демократов ленинцев, поддержанная русским пролетариатом, одержала первую ощутимую победу над царизмом (имеется в виду отмена закона – Ф.Т.)» (*9,* с.360). Галоян отмечал и отношение В. **И.** Ленина, который «с восторгом воспринимал каждый шаг местных социал-демократических организаций, направленный на правильное разрешение национального вопроса в революционном движении». (*9,* с.361). Здесь нужно отметить, что появление закона от 1903 г. не было направлено против церкви или против интересов народа. Как отмечала российский автор Д.Исмаилзаде, закон был принят «в качестве ответной меры на террористическую деятельность партии «Дашнакцутюн»» (*10,* с.117) и таким образом он был призван ограничить материальную и идеологическую подпитку этой партии, на чем собственно он и зиждился.

Ни чем иным, как ширмой, было и разделение дашнаков после событий 1905 года на «правых» и «левых» (*4*). Последние были представлены в последующем и в Бакинском Совете. На наш взгляд, «левые» дашнаки, якобы имевшие, идеологические разногласия с осталь-

ной частью партии, были на самом деле перегруппировкой сил организации с целью позиционирования на большевистском фланге. Как отмечалось, «раскол в «Дашнакцутюне», вызванный революцией 1905 г. и отделивший левую, революционную часть, не освободил, однако, и эту левую часть («новый Дашнакцутюн») от национализма и шовинизма, от мелкобуржуазных иллюзий» (*6,* с.187). В качестве примера можно привести также ситуацию после советизации Армении, когда в состав его ВРК вошел в качестве левого дашнака … по всем параметрам «правый» Дро (*8,* док.№295, с.441; *16*, док.№ 106, с.228)

«...После восхода солнца свободы из-за высот политики люди разделились в деле свободы. Среди них есть те, кто хочет шариатской свободы, а она освобождает людей от обязанностей по отношению к деспотическому несправедливому государству, запрещающему выполнение большинства заповедей мусульманского шариата, и не освобождает людей от того, чтобы быть рабом Аллаха и выполнять предписания Аллаха. Следовательно, никто не может сделать людей свободными, освобожденными от обязанностей перед Аллахом…».[4]

В конце марта в Баку произошли кровавые события, во время которых большевики уничтожали мусульманское население города. «Беззащитные азербайджанцы, спасались от поголовной резни бегством… в горы Дагестана…».[5] Такие же трагические события произошли в Кубинском уезде и в самом городе Куба в конце марта 1918 г. Всего погрому подверглось по данным источников «122 мусульманских селения».[6] Для защиты мусульманского населения Баку в Азербайджан прибыли представители северокавказских народностей из Дагестана.

Национальные лидеры Азербайджана направили телеграмму с просьбой о помощи ко всем мусульманам Северного Кавказа. В Дагестане состоялось заседание Национального комитета Дагестана под председательством Д. Апашева. Имам Дагестана и Северного Кавказа

---

[1] «Танг Чолпан». 1917. № 9.
[2] Тахо-Годи А.А. Революция и контрреволюция в Дагестане. Махачкала, 1926. С. 39.
[3] ЦГА РД Ф. 160. Оп.1. Д.14. Л.18.
[4] Газета «Джаридату Дагестан». 1918. 19 февраля.
[5] Азербайджан, 10 декабря(27 ноября). № 56. 1918.
[6] Алиева С.И. Азербайджан и народы Северного Кавказа (XVIII – начало XIX в.). Баку, 2010. С.

Н. Гоцинский заявил: «Проблемы азербайджанского народа мы решим булатным кинжалом Базалая». В своем обращении к армянскому национальному совету Н. Гоцинский пообещал суровое наказание для всех виновных в гибели мирных жителей. Вот, что он писал: «После моего скорого приезда в Баку я надеюсь убедиться в том, от кого погибли невинные женщины и дети – от большевиков или от дашнаков соответствующее наказание будет очень жестокое… Относительно вашего существования на Кавказе вы должны были знать давно и в будущем вам придется жить только с мусульманами».[1] По решению Дагестанского облисполкома в Азербайджан был направлен отряд горцев численностью до 5 тыс. человек. Имам Н. Гоцинский, князья Тарковские и Каплановы собрали в Хасавюрте съезд сельских обществ для обсуждения вопроса о походе на Баку в помощь единоверным братьям. Мюриды Гоцинского выступили на помощь азербайджанцам. По пути в Азербайджан к отрядам Гоцинского присоединились южные кумыки, табасаранцы, и лезгины.

По ходу продвижения отрядов Гоцинского по направлению к столице Азербайджана, в Кубе, Хачмасе, и Дивичи к ним присоединялись вооруженные отряды местных жителей. Войска Гоцинского и его сторонников заняли боевые позиции у ст. Хырдалан в 10 км. От Баку. Здесь к ним примкнули вынужденные отойти за пределы города части азербайджанских национальных формирований. Два полка дагестанских бойцов численностью около 1500 человек и 1000 человек добровольцев возглавляли полковники М. Джафаров и Д. Мусаев. Общее командование осуществлял царский генерал Лазарев.

7 апреля в ставку командования дагестанских отрядов прибыла делегация во главе с А. Джапаридзе. Он обратился к дагестанцам от имени бакинских мусульман о признании советской власти в Баку. Однако эта миссия не имела успеха. По сообщению комитета революционной обороны Баку от 7 апреля 1918 г., 12 часов того же дня дагестанские отряды открыли орудийную стрельбу по броневику исполнительного комитета. Конные и пехотные отряды Н. Гоцинского повели наступление в направлении Баладжар и Баку. 7-8 апреля у станции Хырдалан произошли ожесточенные бои между отрядами Гоцинского и большевиками. Под натиском численно превосходящих сил противника 10 апреля 1918 г. Отряды Гоцинского вынуждены были отступить в Дербент.[2]

В ночь на 20 апреля Красная армия высадилась около г. Петровска и повела наступление на город. Пытаясь спасти город, от захвата большевиками, Н. Гоцинский бросил на Петровск под знаменем джихада десятки тысяч горцев, вооруженных одними саблями и кинжалами. Их встретили пулеметным огнем, залпами корабельной и полевой артиллерии. Войска Н. Гоцинского, потеряв свыше ста человек убитыми, три орудия, оставив также Темир-Хан-Шуру, отступили в горы. Большевики требовали разоружения «дагестанских полков и милиции Гоцинского с выдачей оружия…».[3]

Вся последующая борьба в Дагестане разворачивается между немногочисленной группой социалистов, зараженных идеями русской революции, и пользовавшимся непререкаемым авторитетом в массах с одной стороны и мусульманским духовенством с другой.

---

[1] Аликберов Г.А. Победа социалистической революции в Дагестане. Махачкала, 1968. С.119-120.
[2] Самурский Н. Гражданская война в Дагестане. Махачкала, 1925. С.6; Алиева С.И. Азербайджан и народы Северного Кавказа. С.328.
[3] Самурский Н. Указ. соч. С.7.

Nailə Hüseynova
T.ü.f.d. Azərbaycanın Beynəlxalq Əlaqələri tarixi şöbəsi, aparıcı elm işçisi,

ERMƏNILƏRIN AZƏRBAYCANDA SOYQIRIMI TÖRƏTMƏKDƏ MƏQSƏDLƏRININ TARIXI KÖKLƏRI NƏDƏN XƏBƏR VERIR?

Açar sözlər: Fövqəladə komissiya, daşnak, Şamaxı, Lalayan, genosid
Ключевые слова: Чрезвычайная комиссия, дашнаков, Баку, Лалаян, геноцид
Key words: Extraordinary Commission, dashnaks, Shemakha, Lalayan genocide

Zaman-zaman erməni saxtakarlığının ayaq tutub gəzdiyini görürük. O saxtakarlıgın ki, ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər məharətlə ört- basdır edilmişdir. Bu saxtakarlıgın " əlindən tutub gəzənlərin sayı bu gün də çoxdur ".Ancaq belə bir deyim var: ***Həqiqət nazilər , ancaq qırılmaz.***

Birinci Dünya müharibəsi ərəfəsində çar hökumətinin mənfur siyasətinə qoşulan və bu siyasətdən məharətlə yararlanmagı qarşısına məqsəd qoyan ermənilərin azərbaycanlılara qarşı soyqırımı törətməsi inkaredilməz bir faktdır.

1918- ci ildə ermənilərin azərbaycanlılara qarşı soyqırımı törətməsi faktı Fövqəladə istintaq komissiyası tərəfindən təsdiq edilməsinə baxmayaraq həmin dövrdə cinayətkarların heç bir nəfəri də istintaqa cəlb olunaraq cəzasını almamışdır. Bunun əsas səbəblərindən biri 1920 –ci ilin fevralında amnistiya haqqında qanunun verilməsi, digər tərəfdən isə 1920- ci il aprelin 27- də Sovet Rusiyası tərəfindən Azərbaycanın işgal edilməsi olmuşdur.

Azərbaycanın dövlətçilik tarixinə xələl gətirən, onun ərazi bütövlüyünü pozan ermənilər uzun illərdir ki, ənənəvi olaraq Azərbaycana, onun ayrılmaz tərkib hissəsi olan Qarabağa qarşı ərazi iddialarını irəli sürməkdə, dünyaya car çəkməkdə israrlı olmuş və olmaqdadırlar.

Bu bədnam niyyətin tarixi kökləri çox dərin və mürəkkəbdir: **dünya dövlətlərinin Qafqaz uğrunda "oynadıqları kart və ya şahmat oyunu"nun tarixi qədər dərin!**

I Pyotrun çar Rusiyasını dəniz dövlətinə çevirərək dövləti imperiya adlandırması ilə bu bədnam niyyətin "ilk rüşeymi" yarandı və "şahmat oyunu"nda ermənilər imperiyanın "peşkası"na çevrildi. "Erməni kartı"ndan məharətlə istifadə edən çar Rusiyası ermənilərin ikiüzlü, riyakar və saxtakarlığı ilə Qafqaz siyasətində öz məqsədlərinə nail olmaqda idi. Həmin məqsəd həmişə siyasi ibarələrlə ört-basdır edilmiş, tarixdə saxtakarlığa gətirib çıxarmışdır.

Məlumdur ki, XVIII-XIX əsrlərdə çar Rusiyası müharibə apardıgı Osmanlı dövləti ilə sərhəd ərazilərdə öz siyasətinə uygun bufer dövlət yaratmaq məqsədilə ermənilərin bu ərazilərdə süni şəkildə sayının artırılmasına çalışmışdır. Həmin siyasət XX əsrdə də müxtəlif formalarda davam etdirilmişdir. İstər 1905- ci ildə, istər 1918- ci ildə, istər 1948- 1953- cü illərdə, istərsə də 1988- ci illərdə həmin mənfur siyasətin nəticəsində azərbaycanlılar yaşadıqları daimi ərazilərdən incidilərək, təhqirlərə məruz qalaraq qovulmuş, ermənilərin isə həmin ərazilərdə süni şəkildə sayı artırılmışdır. Sovetlər dönəmində bir nəfər azərbaycanlının söylədiyinə görə 1950 - ci ilə qədər Ermənistandakı bütün azərbaycanlıların köçürülməsi planlaşdırılmışdır. Bunun səbəbi Sovet hakimiyyətinin Türkiyə ilə sərhəddə yaşayan azərbaycanlılara etibar etməməsi idi [7, 32.]. Lakin çar Rusiyasının yeritdiyi həmin köçürmə siyasətinin məqsədləri sovet dövrü tarixşünaslıgında məharətlə ört – basdır edildiyi kimi, sovet dövrü tarixşünaslıgının özündə də bu niyyət pərdələnmişdir.

Sovet dövrü tarixşünaslığında Azərbaycan tarixinin yazılmayan səhifələrindən biri də məhz ermənilərin azərbaycanlılara qarşı törətdiyi, çar Rusiyasının " parçala və hökmranlıq et " siyasətinin təzahürü olan soyqırımı olmuşdur.

Türkmənçay müqaviləsi əsasında Cənubi Qafqazda öz mövqeyini möhkəmləndirən çar Rusiyası bütün xanlıqların, o cümlədən Şamaxı xanlığının da xanlıq statusunu ləğv etmişdi. Müstəmləkəçilik siyasətinin bariz nümunəsi kimi çar hökumətinin atdıgı birinci addım dərhal inzibati dəyişikliklər etməyə başlaması olmuşdu.

Çarizmin müstəmləkəçilik siyasətinin təzahürü kimi atdığı ikinci addım onun köçürmə siyasəti olmuşdu. Köçürmə siyasəti nəticəsində Şamaxı qəzasında ruslarla bərabər, erməni qriqorianların süni şəkildə say nisbəti formalaşdırıldı.Onların sayı 17542 nəfərə çatdırıldı [3,cild II,364].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, çar Rusiyası tərəfindən ərazisi işgal edilmiş Şamaxı xanlığının Qacar kəndinin əhalisi haqqında 1831-ci ilə aid mənbənin [5,sən.345] verdiyi məlumata görə kəndin əhalisi 35-45- yaş həddində olan ermənilər olmuşdur. Həmin kəndə ermənilərin köçürülməsi o dərəcədə sürətli aparılmışdır ki, müstəmləkəçilər kəndin adını dəyişdirməyi belə unutmuşdular. (yetər ki, onlardan bir alət kimi istifadə edilməyə başlanılsın–**N.H**.)

Məlumdur ki, 1902 – ci ildə Şamaxıda baş verən güclü zəlzələ nəticəsində şəhər demək olar ki, yerlə - yeksan olmuşdur. Şəhərdə və onun ətraf kəndlərində minlərlə insan həlak olmuşdur. 1902 – 1905 – ci illərdə zəlzələnin çətinliklərindən yenicə xilas olmuş Şamaxı əhalisi bu dəfə erməni soyqırımına məruz qaldı. Yaranmış vəziyyətdən məharətlə istifadə edən ermənilər ilk əvvəllər açıqdan-açıga fəaliyyət göstərə bilmədikdə gizlin şəkildə bir çöx mülkləri yandırmış, “ sünnü” – “ şiə” konfliktini qızışdıraraq əhaliyə müxtəlif işgəncələr vermişlər. Şamaxıda olan ermənilər nəinki burada qırgınlar törətmişlər, hətta Tiflis, Qazax, Gəncə, Şuşa və Cəbrayılda soyqırımı törədənlərə hər cür maddi köməklik göstərmişlər. Nəticədə “ Böyük Ermənistan ” xülyasının icraçıları 1905- 1907 – ci illərdə yüzlərlə Azərbaycan kəndini dagıdaraq , əhalini evsiz – eşiksiz qoymuşdur [6, 12].

Rusiyada 1905-1907-ci illərdə baş verən birinci burjua inqilabı zamanı Azərbaycanda törədilən milli qırğında erməni daşnakları ayzberqin görünən tərəfi idi. Çar hökumətinin milli qırğın siyasətinin həyata keçirilməsində mənfur Daşnakstyun partiyası və erməni quldur dəstələri əsas rol oynayırdılar. Ermənilər Bakıda, Naxçıvanda, İrəvanda, Şuşada, o cümlədən Şamaxıda dəhşətli faciələr törətmişdilər.

Çar hökumətinin soyqırımı siyasətini **bolşevik Rusiyasının** Bakıdakı icraçısı başda Şaumyan olmaqla Bakı Soveti davam etdirirdi. S.Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin təşkilatçılıgı ilə yerli müsəlman əhaliyə qarşı həyata keçirilən bu soyqırımın əsas məqsədi neft və digər faydalı qazıntılarla zəngin olan Azərbaycanın, ilk növbədə Bakının əhalisinin milli və dini tərkibini dəyişdirməklə bu əraziləri Sovet Rusiyasına tabe etməkdən ibarət idi. 1918- ci ilin aprelində - milli qırgın həyata keçirildiyi dövrdə Bakıdan Rusiyaya 94 min ton, may ayında 182 min ton, iyun ayında 466 min ton , iyul ayında isə 492 min ton neft daşınmışdı [9, 10].

Qanlı Mart hadisələri, o cümlədən Şamaxı qırgınları elə bir tarixi dövrə təsadüf (əslində bu hadisələr təsadüf deyildi, ölçülüb- biçilmiş bir proqram idi – **N.H.)** edirdi ki, birinci dünya müharibəsinin son dövrləri idi. Rusiyada baş verən 1917- ci il fevral burjua inqilabından sonra Azərbaycanda milli şüurun daha da yetkinləşdiyi dövrdə millətlərin öz müstəqil dövlətlərini yaratmaq şansı yarana bilərdi. Bu imkanları qan çanagında bogmaq Sovet Rusiyasının ümdə vəzifəsinə çevrilir. Yeri gəlmişkən onu da qeyd etmək lazımdı ki, Sovet Rusiyası buna nail ola bilməsə idi, Bakı neftini itirə bilərdi. Əvvəllər Bakıda yaşamış, sonralar Almaniyaya mühacirət etmiş kadet partiyasının üzvü B.Baykovun təbirincə desək, “” çar Rusiyasının bütün neftini Bakı verirdi. Neftin çox hissəsi Volqa çayı vasitəsilə Rusiyaya daşınırdı. Volqada buzların əriməsi ilə ticarət gəmilərinin fəaliyyəti martın ortalarına düşürdü [11, 8]. Buna rəgmən S. Şaumyanın rəhbərlik etdiyi Bakı soveti “əksinqilabçılara qarşı mübarizə “ şüarı altında Bakı quberniyasında yaşayan azərbaycanlılara qarşı kütləvi şəkildə soyqırımı həyata keçirməyə başlayır.

Soyqırımının törədilməsində ermənilər əsas vasitə kimi seçilir. Mövzumuza tam uygun olmasa da 1905- 1906- cı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı zamanı , onların Bakıda törətdiyi dagıntılara dair Almaniya Federativ Respublikasının Xarici işlər Nazirliyinin Siyasi Arxivindən əldə etdiyimiz materiallardan məlum olur ki, ermənilər Bakıda Nikitin sirkinin binasını, Bibiheybətdə, Balaxanıda olan neft qazma mədənlərini, Balaxanıda metaltökmə fabrikinin binasını yandırmış, azgınlıq edərək Əliyev familiyalı bir imkanlı ailənin evini də yandırmışlar [12] . Beləcə azərbaycanlılara qarşı soyqırımını həyata keçirən çar hökumətinin mənfur siyasətini bolşevik hökuməti 1918 – ci ildə məharətlə davam etdirməkdə idi.

1918- ci ildə Cənubi Qafqazda ən güclü siyasi partiyaya çevrilən “Musavatı”ın Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda mübarizəsi Bakı Sovetini ciddi narahat edirdi. Həmin dövrdə Azərbaycanın qəzalarına “sovet qoşunları adı altında” göndərilən cinayətkar dəstələrə quldur erməni “hərbçiləri ” T.Əmiryan, H.Amazasp rəhbərlik edirdilər. Daşnak cəlladlarının əməllə-

rindən ən ağır ziyan çəkən Şamaxı qəzası olmuşdu. Şamaxı qəzasında baş verən hadisələr "qanlı Mart təqvimində" xüsusi səhifə təşkil edir [4,V cild,304-305].

Yelizavetpol(Gəncə) Müsəlman Milli Şurasının sədri Xasməmmədov 1918- ci il martın 28 – də Seymin və Cənubi Qafqaz hökumətinin sədrinə göndərdiyi teleqramında yazırdı ki, martın 18 –də bolşeviklər Bakıdan yaxşı silahlanmış, topa və pulemyota malik 2000 əsgər dəstəsini Şamaxı qəzası istiqamətində yola salmışdılar. Yolboyu irəliləyən dəstə 15 –dən çox müsəlman kəndini viran qoymuş və Şamaxı şəhərini dagıtmışdı [9, 14].Şəhərin varlılara məxsus ən yaxşı evləri yandırılmış və məhv edilmişdir. Ermənilər yanan evlərdən çıxmaga cəhd edən qadınları, uşaqları və qocaları güllələləyirdilər. Küçələrdə döşləri kəsilərək əzabla öldürülmüş ən agır təhqirlərə məruz qalmış qadın meyitləri qalaqlanmışdır. Quldurlar uşaqlara belə rəhm etməmiş, onların başına mıx vurmuş, diri – diri torpaga basdırmışlar [6, 25]. Mənbələrin verdiyi məlumata görə şəhərdə təqribən 8-12 min, bütün Şamaxı qəzasında isə 40 minə qədər insan qətlə yetirilmişdir. Fövqəladə İstintaq komissiyasının işi yarımçıq qaldıgı üçün qətlə yetirilən insanların yalnız 12 min nəfəri qeydə alınmışdır [6, 40].

Azərbaycanlılara qarşı bütün vəhşi üsullardan istifadə edən erməni – bolşevik birləşmələri Şamaxının ən qədim tarixə malik məscidini yandırmışlar. Sözlə ifadə edilməyəvəcək səviyyədə vəhşiliklər törədən erməni daşnakları Şamaxıda 400 qocanı məscidə yıgaraq xəncərlə dogramışdılar [2,17]. " Azərbaycan qəzeti" yandırılmış məscidin şəklini öz səhifələrində dərc etməklə tarixdə ermənilərin xalqımızın milli – mənəvi dəyərlərinə qarşı törətdiklərini faktlaşdıra bilmişdir [2, 9].O dövrün milli mətbuat orqanlarının səhifələrində Şamaxının yalnız xarabalıqlarının qaldıgını yazırdılar. Müəlliflər daha sonra yazırdılar: " Biçarə şamaxılılar öz isti ocaqlarını buraxıb yagış – yagmurun altında bu səhraları ata oglunu, ana qızını gözlərinin yaşını tökə- tökə axtarırlardı ". Şamaxıdan didərgin düşən Bakıya və ətraf bölgələrə sıgınanaların siyahısı 1918 – ci ilin iyununda "Hümmət" qəzetinin 6- cı nömrəsində " Şamaxı qaçqınlarının siyahısı" adı altında dərc edilmişdir [2, 9].

1918 – ci ilin martından sentyabrın 15 – dək Azərbaycanda baş verən hadisələrin şahidi olmuş Binəva ləqəbli müəllif həmin günləri azərbaycanlılar üçün "qanlı günlər" adlandırır və göstərir ki, bu günlərdə minlərlə müsəlman ailəsi başsız qalmışdır. Təkcə İrəvan quberniyasında 42 kənd viran qalmış, əhalisi "tərki – vətən" olmuşdur. " Biçarə şamaxılılar qışı öz isti ocaqlarını buraxıb yagışınyagmurun altında " öz dogmalarını axtramaqda idilər. Müəllif erməni – bolşevik hərbi birləşmələrinin Şamaxıda günahsız insanları necə qətlə yetirdiklərini, qızların şərəf və ləyaqətini necə təhqir etdiyini xatırlayaraq, həmin vəhşilikləri törədənləri " erməni bandaları" adlandırır. O yazırdı: " Xunxar erməni bandaları müsəlmanların izzəti – namusuna toxunub 12 yaşında qız uşaqlarını.....:bunları qələmlə belə yazmaq günah sayılar"[2 , 17] .

Bolşevik- daşnak birliyi 1918- ci ilin mart-aprel aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndlərində qanlı cinayətlər törətdilər. Həmin cinayətləri AXC-nin Fövqəladə Təhqiqat Komissiyasının topladığı yeddi cild və 925 səhifədən ibarət istintaq materialları əyani şəkildə ifşa edir [8 ,227]. Komissiyanın sədri Ə.Xasməmədovun məlumatından aydın olur ki, Şamaxı qəzasında azərbaycanlılara qarşı ermənilərin qəddarlığı I dünya müharibəsinin ilk dövrlərindən özünü büruzə verirdi. Həmin müddətdə , xüsusilə 1917-ci ilin Fevral inqilabından sonra Şamaxı şəhərindən 7 km aralıdakı Mədrəsə kəndinə çoxlu erməni əsgərləri köçürülməyə başlandı.

Martın əvvəllərində Şaumyan başda olmaqla erməni quldur dəstələri Şamaxıya üç minədək erməni qoşun dəstələri, çoxlu sayda hərbi sursat , top və pulemyot göndərdi. Hələ 1918- ci ilin yanvar ayında Bakı Soveti tərəfindən 15 maşın silah, mart ayının ortalarında isə 60 maşın silah və 2000 erməni dəstəsi Şamaxıya göndərildi. Göndərilən dəstə yolboyu 15- dən çox müsəlman kəndini məhv etmişdi [8, 24].

Martın 15-də Şamaxı şəhərinə çatan erməni dəstələri ilə müsəlmanlar arasında toqquşma oldu. Şamaxı qəzasında azərbaycanlılara qarşı soyqırımına Şaumyanın ən yaxın silahdaşlarından olan, bilavasitə ondan təlimat alan Lalayan başçılıq edirdi. Martın 18-də ermənilər Şamaxı şəhərinin əhalisi üzərinə qəti hücuma keçirlər, axşama yaxın şəhərin varlı hissəsi olan "Piran - Şirvana" daxil oldular [4,305]. Qətllər xüsusi qəddarlıqla həyata keçirilirdi. Qətlə yetirilənlərin qolları, ayaqları , qulaqları, burunları kəsilmiş, gözləri çıxarılmışdır. Bu vəhşiliklər Gəncədən müsəlman dəstəsi Şamaxı şəhəri və Şamaxı qəzası əhalisinin köməyinə gələnə qədər bir neçə gün davam etmişdi. Dörd gündən sonra müsəlman ordusu ərazini tərk etmək məcburiyyətində qaldıqda ermənilər Şamaxıda əhali-

ni təkrar olaraq daha şiddətli və ağır işgəncəyə məruz qoydular [10,3]. Şamaxı hadisələri ilə baglı " Azərbaycan" qəzetinin 1918- ci il 19 saylı buraxılışında gedən bir yazıda qeyd olunmuşdu ki, S.Lalayevin Şamaxı müsəlmanlarına tutdugu divan bizim bu müharibə dövründə üzləşdiyimiz bütün dəstələri geridə qoyur. Şamaxıda qırgına rəhbərlik edən Lalayanın qəddarlıgı hətta onun silahdaşlarından olan T. Əmirov və İ. Boqomolovun da narazılıgına səbəb olmuşdu [8, 28].Onun bu qədər amansızlıq etməsinin səbəbi tədqiqatçılar tərəfindən 1905- 1906- cı illərdə öz cinayətkar əməllərinin qurbanı olmuş atasının və əmisinin intiqamını şamaxılılardan alması səbəbi ilə izah olunur. Ermənilərin qətlə yetirdiyi Şamaxı şəhərinin nüfuzlu şəxsiyyətləri arasında I Dövlət dumasına seçilmiş Məmməd Əliyev , Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seyidov, Hacı İbrahim Salamov, Ağa Əhməd Əhmədov , Hacı Əbdül-Qasım Qasımov, Əyyubağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyəddin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu və digərləri olmuşdur [8, 233].

Şamaxıda 1918- ci ilin mart- aprel aylarında öldürülənlərin sayı haqqında müxtəlif məlumatlar mövcuddur. Bəzi məlumatlarda öldürülənlərin sayı 7 min, bəzilərində 8–12 minə qədər, bəzilərində isə 40 minə qədər oldugu göstərilir.

M. Zülfüqarlının araşdırmalarına görə həmin dövrdə Şamaxı qəzasında 120 kənd olmuşdur ki, bunlardan da 86- sı erməni təsavüzünə məruz qalmışdır. Şamaxı qəzasının erməni təcavüzünə məruz qalan 58 kəndində müsəlmanlara qarşı törədilən faciənin qurbanları siyahısında 3632 nəfər kişi, 1771 nəfər qadın, 956 nəfər uşagın oldugu göstərilir [8, 31-32].

Araşdırmalarının nəticəsi kimi 58 kəndin təcavüzə məruz qalan sakinlərinin sayını belə vermək olar: Cəyirli – 75 nəfər, Ərəbqədim – 378 nəfər, Cəmcəmli – 26 nəfər, Mırtı – 5 nəfər, Talış – Məlik – 16 nəfər, Mirikənd – 19 nəfər, Şərədil – 20 nəfər, Quşçu – 332 nəfər, Şıxməzid – 18 nəfər, Yuxarı Çagan – 1 nəfər, Agabəyli – 14 nəfər, Qaravəlli – 120 nərəf, Barbar Navahı – 30 nəfər, Gorus- Çaparlı – 35 nəfər, Kürdəmir – 25 nəfər, Qonaqkənd – 34 nəfər, Ovçulu – 27 nəfər, Bagırlı – 370 nəfər,Təkəli – 922 nəfər, Hacılı – 130 nəfər, dilman – 585 nəfər, Kalva – 500 nəfər, Xatman – 120 nəfər, Suraxanı – 20 nəfər, Xəsiqara – 82 nəfər, Tigan – 360 nəfər, Talışnuru – 25 nəfər, Sərdakar – 28 nəfər, Zərqəva – 49 nəfər, Xankəndi – 20 nəfər, Təbiyə - 17 nəfər, Makahı – 8 nəfər, Taglabiyan – 36 nəfər, Girdivan – 22 nəfər, Kələrag – 1 nəfər, Bizlən – 100 nəfər, Mücü – 225 nəfər, Qıraltan – 71 nəfər, Sulut – 43 nəfər, Zeyvə - 82 nəfər, Nuran – 117 nəfər, Nüydi – 57 nəfər, Qəzənd – 117 nəfər, Sündü – 25 nəfər, Şıxlar – 4 nəfər, Bəlkə - 16 nəfər, Agsu – 200 nəfər, Qəməli – 43 nəfər, Məlikçobanı – 10 nəfər, Çuxanlı – 52 nəfər, Qurbançı – 93 nəfər, Mərəzə - 300 nəfər, Nabur – 60 nəfər, Qaradüzlü – 8 nəfər, Ərəbşahverdi – 22 nəfər, Çaylı – 5 nəfər, Şıxzərli - ? Cəmi 6359 nəfərin qətlə yetirildiyi göstərilir [9, 18]. Şamaxı qəzası üzrə təcavüzə məruz qalmış kəndlər indiki Şamaxı, Qobustan, Kürdəmir, Agsu, İsmayıllı, Ucar rayonlarının ərazisinə düşür.

Bu sahədə müxtəlif tədqiqatlar aparılmışdır. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, soyqırımı zamanı Şamaxı qəzasının 58 kəndi yandırılaraq yerlə- yeksan edilmişdir. Həmin siyahıya adı düşməmiş kənd və obaların da adları əlavə edilsə, ümumilikdə 1918- ci ilin mart- aprel aylarında Şamaxı qəzasında 90- a yaxın kənd və oba həmin faciəyə məruz qalmışdır [6, 40].

Təkcə Şamaxı şəhərinin özündə azərbaycanlılara məxsus 1 milyard manatdan yuxarı dəyəri olan əmlak qarət olunmuş, azərbaycanlılara məxsus evlərin hamısı yandırılmışdır. Şəhərdə 13 məscid, həmçinin tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır. Həmin gün Şamaxı şəhərinin 3-4 verstliyində olan Əngəxaran kəndində də ermənilər görünməmiş vəhşiliklər törədirlər. Əngəxarana soxulan ermənilər kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edərək sag qalanları da əsir götürürlər. Əsir götürülən uşaqları Məlhəm kəndinə aparırlar, 88 nəfər kişidən yolda güllələləndikdən sonra sag qalan 74 nəfəri isə Mədrəsə kəndinə gətirirlər. Həmin kənddə törədilmiş faciə haqqında Fövqəladə İstintaq Komisiyyasının üzvü A. F. Novitskinin məruzəsindən məlum olur ki, onlardan yalnız iki nəfəri – Agacan Mehdi oglu və Cabbar Əliməmməd oglu qaçıb canlarını qurtara bilmişdilər [6,79]. Yollarda qalan meyitləri isə təhqir edərək qulaqlarını, burunlarını, əlləri və ayaqlarını kəsmişdilər. Müdafiəsiz kənddə törədilən vəhşilikləri özündə əks etdirən təhqiqat materiallarında həmkəndlilərin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda ermənilərin işgəncə ilə qətlə

yetirdikləri 237 nəfərin adı sadalanır [8,236]. Dəymiş ziyanın ümumi miqdarı 4.969.2000 manat təşkil etmişdir [6, 79].

Şahidlərin verdiyi məlumatdan bəlli olur ki, Şamaxıda ermənilərin törətdiyi vəhşilikdən sonra meyid əlindən tərpənmək mümkün deyildi. Hər addımbaşı müsəlmanların vəhşicəsinə öldürülmüş meyidləri görünürdü. Bu hadisənin şahidi olan S. Əfəndiyev qeyd edir ki, Şamaxıda meyid əlindən tərpənmək mümükün deyildi. Ən dəhşətli mənzərələrdən biri iki nəfər kişi və qadın meyidinin üzərində yarıya bölünmüş 3-4 yaşlı uşagın meyidinin qoyulması idi [8, 37].

Şamaxıda əhalinin sayının müqayisəli təhlilindən məlum olur ki, əgər 1811- ci ildə Şamaxı xanlığının ərazisində 24 min ailə , 1918- ci ildə Şamaxı qəzasında 15 min ailə yaşayırdısa, 1921- ci ildə əhalinin sayı 1700 nəfərə enmişdi ki, bu da faciənin necə böyük miqyasda aparıldığını bir daha sübut edir [9, 21] .

Şamaxı qırgınından salamat qalıb canını qurtaranların bir çoxu Göyçay qəza mərkəzinə üz tutmuş, əhalinin xeyli hissəsi isə Qarasu deyilən bataqlıgın suyundan içərək müxtəlif yoluxucu xəstəliklərə tutulmuşlar [9,21].

N.Nərimanov Şamaxı qırgını haqqında yazırdı:" Şamaxıdan qayıdandan sonra ...M.Əzizbəyov göz yaşı içində şahidi oldugu faciəni mənə danışdı. T.Əmirovun və S.Lalayanın əvvəllər Bakıda olan silahlı dəstələri yaşına və cinsinə məhəl qoymadan bütün azərbaycanlıları öldürdülər: onlar hələ dünyada görünməmiş bir cinayət törətdilər, uşaqları süngü və qılıncdan keçirir, adamları məscidə toplayıb kerosin töküb yandırırdılar. Mənim üçün aydın oldu ki, Bakıda sovet hakimiyyəti daşnaklardan asılıdır. Bu da aydındır ki, erməni bandaları tərəfindən azərbaycanlı əhaliyə qarşı edilən bu qədər zülmdən sonra Azərbaycan proletariatının Sovet hakimiyyətindən üz döndərməyə, öz burjuaziyasının hamiliyi altına keçərək , ondan və Türkiyədən kömək gözləməyə haqqı var idi." [8, 40-41].

Bəzi mənbələrin əsasında aparılan hesablamalara görə Şamaxı qəzasının 53 kəndində 8027 – nəfər azərbaycanlı qətlə yetirilmişdi. Onlardan 4190- nəfər kişi, 2560 – nəfəri qadın , 1277-nəfəri isə uşaq olmuşdur. Bütövlükdə 339,5 milyon manat məbləğində maddi zərər vurulmuşdu.

Həmin kəndlərin bəzilərini cədvəl üzrə belə göstərmək olar [8, 239; 6, 85,89,91,101].

Sıra №	**Navahı**	**Yəhyalı**	**Qubalı Baloğlan**	**Kalva**	**Ağsu**	**Tircan**	**Bağırlı**	**Quşçu**	**Cəyirli**
Dəymiş ziyan	60 mily.man.	22 mily. man.	90 mily. man.	24 mily.man.	36,5 mily.man.	21 mily.man	12,5	114 mily. man	97 mily. man
Kişi	555	360	250	250	200	300	80	192	40
Qadın	260	412	150	150	300	40	150	115	20
Uşaq	140	150	135	100	-	20	140	25	15

Onlardan 4420- nəfər kişi, 2695 – nəfəri qadın , 1317-nəfəri isə uşaq olmuşdur. Bütövlükdə təxminən 477 milyon manat məbləğində maddi ziyan vurulmuşdu.

1920- ci il yanvarın 11- də Azərbaycanın müstəqilliyinin de- fakto tanınmasından dərhal sonra qərb dövlətlərinin təzyiqi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 2 fevral 1920 – ci il tarixdə qəbul etdiyi aministiya haqqında qanun 1918- ci il soyqırımı hadisəsi ilə baglı məsuliyyətə cəlb olunmuş cinayətkarların cinayətə cəlb oluması işini dayandırdı. Cinayətə cəlb olunan yalnız 194 nəfər olmuşdur, onlar da aministiya qanunundan sonra sərbəst buraxılmışlar [9, 26].

Özlərinin cinayətlərini ört- basdır etmək üçün 1965- ci ildən " soyqırımı harayı " ilə dünyaya car cəkən ermənilərin törətdikləri vəhşiliklər bütün Azərbaycan ərazisində ölçüyəgəlməzdir.

İstifadə olunmuş ədəbiyyat

1. Abışov V. Azərbaycanlıların soyqırımı. Bakı. 2007.
2. AşırlıA. 31 mart soyqırımı 1918 – 1920- ci illər mətbuatında. Bakı. 2011.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı. 2005.
4. Azərbaycan tarixi. Bakı.2001

5. ARMDTA.F.24.
6. Qəniyev S. 1918 – ci il Şamaxı soyqırımı. Bakı. 2003. www.shamaxi-
7. Nəcəfov B. Deportasiya . III hissə. Bakı. 2006.
8. Paşayev. A. Açılmamış səhifələrin izi ilə. Bakı. 2001.
9. Zülfüqarlı M. Şamaxı soyqırımı (1918). Bakı. 2011.
10. Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920). Ankara. 2001
11. Бойков Б. Воспоминание о революции в Закавказье. R. 11038 .

Наиля Гусейнова

О ЧЕМ ГОВОРЯТ ИСТОРИЧЕСКИЕ КОРНИ ГЕНОЦИДА, СОВЕРШЕННОГО АРМЯНАМИ В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье нашли свое отражение вопросы, связанные с геноцидом, осуществленным армянами против азербайджанцев в 1918 г. Автор на основе документов, собранных Чрезвычайной Следственной Комиссией, рассматривает события, связанные с истреблением мирного населения в Шемахе армянскими дашнаками. В статье приводятся сведения о численности мужчин, женщин и детей, убитых в результате преступных действий Лалаяна и его приспешников, являвшихся соратниками возглавлявщего геноцид против азербайджанцев С. Шаумяна .

Naila Huseynova

Resume

WHAT DO THE HISTORICAL ROOTS OF THE GOAL OF ARMENIANS TO COMMIT GENOCIDE IN AZERBAIJAN SAY

The article reflected the genocide issues of Armenians in Azerbaijan in 1918. Based on the documents collected by the Extraordinary Commission of Inquiry, the author brings to attention how Armenian dashnaks murdered innocent people in Shemakha. As a result of crime realized by Lalayan and his benefactors as Shaumyan's companion-in-arms who led the genocide against Azerbaijanis, number of murdered men, women and children in Shemakha, amount of damage were shown in the article.

Rəşad Rustəmov
t.ü.f.d., a.e.i.

1918 - Cİ İLİN MART SOYQIRMI ƏRƏFƏSİNDƏ BAKIDA HAKİMİYYƏT UĞRUNDA MÜBARİZƏ

Ключевые слова: март, геноцид, большевики, дашнаки
Keywords: march, massacre, bolshevik, dashnak

Ümumrusiya Müəssislər Məclisi 1918-ci il yanvarın 5-də öz işinə başladı. Eser və menşeviklərin əksəriyyət təşkil etdiyi (62%-dən çox) Məclis Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin hakimiyyətin sovetlərə keçməsi haqqında deklarasiyasını təsdiq etməkdən imtina etdi. Yanvarın 7-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Müəssislər Məclisi buraxıldı. Fəaliyyətinin qısa müddət davam etməsinə baxmayaraq, Müəssislər Məclisi torpaq haqqında, torpağın ümumxalq mülkiyyətinə keçməsi - sosiallaşması və torpağın istifadəsinin mərkəzi və yerli hakimiyyət orqanlarının ixtiyarına verilməsini göstərən qanun qəbul etdi. Müəssislər Məclisinin buraxılması Rusyiada hakimiyyət böhranının sülh yolu ilə həllini qeyri-mümkün etdi. Bu dövrdən etibarən Azərbaycanda hakimiyyət uğrunda mübarizənin yeni dövrü başlandı. Bu dövrdən etibarən erməni və rus millətlərinin nümayən-dələrindən ibarət olan fəhlə, əsgər və kəndli deputatları Sovetləri ilə əsasən azərbaycanlılardan təşkil edilmiş Cənubi Qafqaz hökumətinin yerli orqanları ilə münasibətlər artıq qarşıdurma şəklində inkişaf edirdi. 1917-ci il oktyabrın 31-də Bakı Soveti özünü Bakı quberniyası və Dağıstan ərazisində qanunverici və inqilabi hakimiyyət elan etdi (1.s.51).

Bolşeviklər Bakını Qafqazda Sovet hakimiyyəti uğrunda mübarizə mərkəzinə çevirməyə çalışırdılar. Bakının rus və erməni əhalisi Bakı Sovetini azərbaycanlıların milli hərəkatının qarşısını almağa qadir olan yeganə qüvvə hesab edirdilər. 1917-ci il noyabrın 22-də İctimai Təşkilatları Komitəsinin buraxılması ilə Bakı Soveti yeganə siyasi hakimiyyət orqanına çevrildi. Şəhər Dumasına və onun icra orqanına yalnız şəhərin təsərrüfat həyatına rəhbərlik həvalə edildi (2. s.53).

Bu dövrdə azərbaycanlıların ümummilli siyasi təşkilatı olan Türk - Ədəmi -Mərkəziyyət – Müsavat partiyasının ümummilli siyasi təşkilat kimi təşəkkülü başa çatdı. Müsavat partiyası bu dövrdə Azərbaycanın ən iri partiyasına çevrildi. Demək olar ki, Azərbaycanın bütün qəzalarında Müsavat partiyası öz təşkilatlarına malik idi. 1917-ci il oktyabrın 25-dən 31-dək Türk - Ədəmi - Mərkəziyyat – Müsavat partiyasının İ qurultayı keçirildi. Qurultayda partiyanın ilk proqramı qəbul edildi. Proqramın "Dövlət quruluşu və muxtariyyət" fəslində dövlət quruluşu prinsipləri müəyyən edildi. Bu prinsiplərə əsasən, vətəndaşların hüquqları və azadlıqları konstitusiya ilə qorunan demokratik federativ respublika yaradılmalı idi. Azərbaycan bu federasiya tərkibinə muxtar respublika formasında daxil olmalı idi (3.s.44). Rus ordusunun Qafqazı tərk etməsi Azərbaycan qəzalarında əsgər deputatları Sovetlərinin ləğvi və hakimiyyətin müsəlman milli komitələrində cəmləşməsi ilə nəticələndi. Milli komitələrdə aparıcı rol Müsavat partiyasına məxsus idi. Azərbaycanın digər ərazilərindən fərqli olaraq Bakıda Müsavat partiyasının mövqeləri çox zəif idi. Bu hər şeydən əvvəl Bakının milli tərkibi ilə bağlı idi. 1917-ci ilin məlumatlarına görə, Bakıda azərbaycanlılar əhalinin 30,8%-ni, ruslar 27%-ni, ermənilər isə 28,7%-ni təşkil edirdilər (4.s.16). Rus və erməni əhalisinin əksəriyyətini neft sənayesi fəhlələri təşkil edirdilər. Bu hər şeydən əvvəl XIX əsrin sonlarından etibarən Bakıda neft sənayesinin sürətli inkişafı ilə izah edilirdi. Bakının ictimai və siyasi həyatında aparıcı rolu ruslar və ermənilər oynayırdılar. Yüksək ixtisaslı fəhlələr ruslardan və ermənilərdən, aşağı ixtisaslı fəhlələr isə əsasən azərbaycanlılardan ibarət idi. Azərbaycanlı proletariat əsasən Cənubi Azərbaycanın mövsümi fəhlələri, müflisləşmiş xırda sahibkarlar və qəzalardan gələn kəndlilər hesabına təşəkkül tapırdı (5.s.26).

Buna görə Müsavat partiyasının Bakı şöbəsi azərbaycanlı əhalinin hüquqlarını müdafiə etmək üçün Bakı qəzasında yeganə real hakimiyyət orqanı olan fəhlə və əsgər deputatları Soveti ilə əməkdaşlıq etməyə məcbur idi. Bakı Sovetinin öz hakimiyyətini bütün Cənubi Qafqaza yaymaq cəhdləri Musavat partiyasının dəstəklədiyi Zaqafqaziya Komissarlığı ilə toqquşmalara səbəb oldu. Eyni zamanda Zaqafqaziya Komissarlığı öz bəyannaməsində ərazisi tərkibinə Bakı, Yelizavetpol, İrəvan, Tiflis, Kutaisi quberniyalarının, Qars və Batum vilayətlərinin və Türkiyənin rus qoşunları tə-

rəfindən işğal edilən ərazisinin aid olduğunu elan etdi (6.s.159). 1917-ci il noyabrın 20-də Azərbaycanda Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilər azərbaycanlı əhalinin böyük siyasi fəallığını aşkar etdi. Seçkilərdə Müsavat partiyası və milli komitələrin nümayəndələri vahid siyahı ilə çıxış edirdilər (7.s.62). 1918-ci il yanvarın 6-da öz işinə başlayan Müəssislər Məclisi sovetlərin II qurultayının hakimiyyətin Sovetlərin Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinə keçməsi haqqında dekretini təsdiq etməkdən imtina etdiyinə görə Xalq Komissarları Şurası tərəfindən buraxıldı. 1918-ci ilin fevralında Cənubi Qafqazda ilk qanunverici orqan - Zaqafqaziya Seymi təşəkkül tapdı. Bununla Bakı Soveti ilə Cənubi Qafqaz hökuməti arasında münasibətlərin birinci dövrü başa çatdı. İkinci dövr Zaqafqaziya Seyminin yaranmasından mart soyqırımına qədərki dövrü əhatə edir. Bu dövrdə Cənubi Qafqazın milli qüvvələri tərəfindən müstəqil hökumət təşkil edilir, müstəqil xarici və daxili siyasət yeridilirdi. Azərbaycanın milli siyasi qüvvələri 1918-ci ilin yanvarından etibarən Azərbaycan dövlətinin yaradılması ideyasını həyata keçirməyə başladılar. Bəzi hallarda bu, dinc yolla, digər hallarda güc tətbiq etməklə həyata keçirilirdi. Gəncə milisinin rəisi Ziyadxanov 3 minlik dəstə ilə Şamaxını ələ keçirdi (8.s.118).

Naxçıvan qəzasında Milli Şuranın hərbi dəstələri ilə Şahtaxtı əsgər deputatları Soveti arasında toqquşma baş verdi (9. s.227). Cənubi Qafqazda müstəqil dövlətin yaranması və bu dövlətin tərkibində Azərbaycan muxtariyyətinin təşkili Bakının rus və erməni əhalisi tərəfindən öz varlığına təhlükə kimi qəbul edildi. Bakının erməni və rus sakinləri sinfi mənsubiyyətdən asılı olmayaraq Bakı Sovetinin ətrafında birləşirdi. Bakının daşnak təşkilatı özünün dekabr ayındakı iclasında Bakı Sovetinin hakimiyyətinə tərəfdar çıxdığını elan etdi (10.s.28). Daşnak-bolşevik koalisiyasının yaranmasında Rusiya Xalq Komissarları Şurasının 1917-ci il dekabrın 30-da "Türkiyə Ermənistanının azad şəkildə özünümüəyyən etməsi haqqında" verdiyi dekret mühüm rol oynadı. Bu dekret Türkiyə ərazisində müstəqil erməni dövlətinin yaradılmasını nəzərdə tuturdu. Türkiyə ərazisindən rus qoşunları çıxarılmalı və onları erməni milisi əvəz etməli idi. Müstəqil Ermənistan dövlətinin yaradılması ilə razılaşan bolşeviklər azərbaycanlılara muxtariyyətin verilməsindən imtina edərək bu muxtariyyəti bəy-burjua muxtariyyəti adlandırırdılar. Azərbaycanlı milli qüvvələrin rusdilli əhali ilə hüquq bərabərliyi uğrunda mübarizəsini isə xüsusi hüqüqlar uğrunda mübarizə kimi qələmə verirdilər. M.Ə. Rəsulzadə yazırdı: "Türkiyə Ermənistanı özünümüəyyənləşmə haqqında dekret alır, ermənilər "Daşnaksütyun" partiyasının müdafiə etdiyi arzularına yaxınlaşırlar, Qafqaz türk-federalistlərini isə Bakı bolşevikləri xarabalıqlarla qorxudurdular" (11.s.32).

Bakı quberniyasını Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmiş Bakı Sovetinin bolşevik rəhbərliyi milli qüvvələrlə toqquşmanın labüd olduğunu başa düşərək qüvvələr toplayırdı. Bakı qarnizonu üzərində nəzarət bolşeviklərə məxsus idi. Bundan əlavə, Rusiya ordusu hissələri Qafqazı Bakı vasitəsi ilə tərk edirdilər. Onların bir hissəsi Bakıda qalırdılar. Bolşeviklərə tabe olan qüvvəlrin sayı 6 minə yaxın idi. Həmçinin Erməni Milli Şurası rəhbərliyi altında 4 minlik erməni əsgəri qüvvəsi və sol eserlərin təsiri altında olan Xəzər donanması Bakı Sovetinin tabeliyində idi (12.s.104). Tiflisdən Bakıya köçmüş Qafqaz Ordusu Diyar Sovetinin Hərbi-İnqilab Komitəsi Bakı Sovetinin hərbi qərargahına çevrildi. Qısa müddət ərzində Hərbi-İnqilab Komitəsi tərəfindən Bakıda Qırmızı Ordunun ilk hissələri-beynəlmiləl alay, bolşevik drujinası və süvari dəstə təşkil edildi. Xəzər donanmasına Bakı Sovetinin komissarı təyin edildi (2, s.54). Zaqafqaziya Komissarlığının erməni və gürcü milli korpuslarının yaradılmasına yönələn hərbi siyasəti nəticəsində Bakıda mart hadisələri ərəfəsində azərbaycanlıların hərbi qüvvələri Tatar polkundan və yerli özünümüdafiə dəstələrindən ibarət idi. Toqquşmanın başlaması üçün kiçik bir bəhanə lazım idi. "Evelina" gəmisi ilə əlaqədar hadisə belə bir bəhanə oldu. Məşhur Azərbaycan milyonçusu və ictimai xadimi H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyev Lənkəranda xidmət edərkən odlu silahla ehtiyatsız hərəkət etdiyinə görə həlak olmuşdu. Lənkəranda yerləşən müsəlman divizionunun zabitləri onun yasında iştirak etmək üçün Bakıya gəlmişdilər. Zabitlər Lənkərana "Evelina" gəmisində qayıtmalı idilər. Bu vaxt erməni və rus milli şuraları, Xəzər dənizçiləri, eser və menşevik partiyaları arasında belə bir şayiə yayılmışdı ki, guya bu zabitlər Lənkəranda yerləşən azərbaycanlı hərbi dəstələrlə birlikdə Muğanın rus-malakan kəndlilərini məhv etmək əmri almışlar (1. s.69).

Azərbaycanlıların azadlıq hərəkatını yatırtmaq məqsədilə Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı (13. s.68) Bu komitənin tərkibinə S.Şaumyan, P.Caparidze,

Q.Korqanov, N.Nərimanov, sol eser Suxartsev, sağ eser S.Saakyan və Məlik-Yolçiyan daxil idilər. Komitə Bakı şəhəri ərazisində özünü ali hərbi-siyasi hakimiyyət orqanı elan etdi. Bakıda döyüşlər 3 gün-mart ayının 30, 31 və aprelin 1-dək davam etdi. Bu döyüşlər nəticəsində 12 min azərbaycanlı öldürüldü(1. s.71). 1918-ci ilin mart ayının 31-də Bakı Soveti Bakı Müsəlman Şurasına ultimatum verdi. Ultimatumun şərtləri bunlardan ibarət idi: 1. Bakı fəhlə və əsgər deputatları Sovetinin hakimiyyətinin tanınması. 2. Vəhşi diviziya hissələrinin Bakıdan çıxarılması. 3. Bakı - Port-Petrovsk dəmir yolunun azad edilməsi (1.s.72). Bütün bu şərtlər Bakı Müsəlman Şurası tərəfindən qəbul edildi. 1918-ci il mart ayının 30, 31 və aprelin 1-də Bakıda Sovet hakimiyyətinin qələbəsi üçün real təhlükə olan azərbaycanlı əhalinin milli-azadlıq hərəkatı yatırıldı. Zaqafqaziya Seyminin yerli hakimiyyət orqanı olan Şəhər Duması buraxıldı (2, s.66). Mart hadisələri haqqında S. Şaumyan Rusiya Xalq Komissarları Şurasına göndərdiyi məruzəsində qeyd edirdi ki, Cənubi Qafqazda Sovet hakimiyyəti uğrunda silahlı mübarizə özunun əsas dövrünə daxil olmuşdur. "Üç gün ərzində - martın 30, 31 və aprelin 1-də Bakıda ağır döyüşlər getmişdir. Bir tərəfdən Qırmızı Sovet Qvardiyası, bizim tərəfimizdən yaradılmış Qırmızı Beynəlxalq Ordu, Qırmızı donanma, erməni millətçi dəstələri vuruşurdu. Digər tərəfdən bir neçə rus zabitinin daxil olduğu müsəlman vəhşi diviziyası, Müsavat partiyasının rəhbərlik etdiyi silahlı müsəlmanlar vuruşurdular. Döyüşün nəticəsi bizim üçün çox gözəl oldu. Düşmənin məhvi tam idi. Biz onlara öz şərtlərimizi diktə etdik və bu şərtlər qəbul edildi (14.s.245-247).

1918-ci ilin mart hadisələri nəticəsində Bakıda hakimiyyət bolşevik-daşnak-sol eserlər Sovetinin əlində toplandı. 1918-ci il aprelin 19-da hakimiyyətin təşkilinə həsr edilmiş Bakı Sovetinin iclasında Şaumyan mart hadisələrini Sovet hakimiyyətinin qələbəsi kimi qələmə verdi. Şaumyan öz çıxışında qeyd edirdi: "Türkiyə protektoratı altında Azərbaycan muxtariyyətinə tərəfdar çıxan bəylər və xanlar nə qədər ki, gec deyil, Bakı Sovetini darmadağın etməyə tələsirdilər". İclasda çıxış edən Bakı Sovetinin eser, menşevik və daşnaklardan ibarət olan deputatları bolşeviklərə tərəfdar çıxırdılar. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının ümumiləşdirici hesabatına əsasən, 3 günün ərzində (30-31 mart, 1 aprel) Bakıda 12 min azərbaycanlı məhv edilmişdi (1, s.71). Bakı qəzası ərazisində Sovet Rusiyasının qanunları fəaliyyət göstərməyə başladı. 1918-ci il aprelin sonunda banklar milliləşdirildi. 1918-ci ilin mayında balıq vətəgələri, iyun ayında neft sənayesi milliləşdirildi. Şəhər milisi Bakı Sovetinə tabe edildi.

1918-ci il iyunun 4-də Xəzər donanması milliləşdirildi (2, s.78). Mart hadisələrindən sonrakı dövr Sovet hakimiyyətinin Azərbaycanda möhkəmlənməsi dövrü oldu. Sovet qoşunları aprelin 14-də Lənkəranı, aprelin 21-də Salyanı, aprelin 23-də Qubanı ələ keçirdi. Şamaxı şəhərində ermənilərdən ibarət cəza dəstəsi talanlar törədərək Şamaxını yandırdılar (1.s.75). Sovet hakimiyyəti 1918-ci ildə bütün Bakı quberniyasına yayıldı. 1918-ci il aprel ayının 25-də Bakı Soveti Xalq Komissarları Şurası təşkil edildi. S.Şaumyan Xalq Komissarları Şurasının sədri və xarici işlər komissarı vəzifələrini tutdu. Bununla Azərbaycanda ikihakimiyyətliliyin formalaşması prosesi başa çatdı. Bir tərəfdən Cənubi Qafqaza, o cümlədən Bakıya iddia irəli sürən Cənubi Qafqaz hökuməti, digər tərəfdən Bakı quberniyasını Rusiyanın ayrılmaz hissəsi elan edən Xalq Komissarları Şurası. Bu, bölgədə vəziyyəti xeyli kəskinləşdirərək xüsusi ilə Bakı və onun rayonlarının müsəlman əhalisinin həyatını təhlükə altında qoyurdu. Bakıda baş verən mart hadisələri Zaqafqaziya Seymində kəskin müzakirələrə səbəb oldu. Zaqafqaziya Seyminin erməni fraksiyası Bakı daşnakları ilə eyni mövqedən çıxış edirdilər. Onların Cənubi Qafqaz hökumətində nümayəndəsi Karçikyan daşnakların Bakıda mart hadisələrindəki iştirakını inkar edir, erməni əsgərlərinin bu hadisələrdə müstəqil şəkildə çıxış etdiklərini iddia edirdi.

İstifadə edilmiş ədəbiyyat siyası

1. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı. Elm. 1998. 335 səh.
2. İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı, Azərnəşr. 1957. s.585.
3. Программные документы мусульманских политических партий (1917-1920). Оксфорд, Общество исследования Средней Азии, 1985, 132 с.
4. Пчелин Н.Н. Крестьянский вопрос при Мусавате (1918-1920 гг.). Очерки, Баку, АЗГНИИ, 1931. 125 с.
5. Раевский Болшевизм и меньшевизм в Баку в 1904-1905 гг. Баку, 1930, 244 с.

6. (60, s.159). 60. Rüstəmov R.H. Gəncə Milli Şurasının Azərbaycan milli hərəkatında rolu // Gəncə şəhərinin tarixi. Cəncə. Gəncə Universiteti tərəfindən keçirilən elmi konfransın materialları. 2004. s.165.
7. Беленький С. Манвелов А. Революция 1917 года в Азербайджане / Хроника событий/. Баку, Ист. Парт. Отд, УЦК и БК АКП /б/, 1927.
8. Rüstəmov R. H. Tusi adına ADPU-nun Şamaxı filialının və Azərbaycan Tarix Qurumunun Azərbaycan Cümhuriyyətinin yaranmasının 79 illiyinə həsr olunmuş birgə elmi konfransının materialları. Bakı. Elm nəşriyyatı, 1997. s.131.
9. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917 - 1918 гг. Баку, Азернешр. 1957. 702 с. 10. Azərbaycan Respublikası DA 970-ci fond, Siyahı №3,iş 39.
11. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, "Elm", 1990. s.113.
12. Дарабади П. Военные проблемы политической жизни Азербайджана начала XX века. Баку. Елм. 1991. 164 с.
13. 194.Шаумян С.Г. Избранные произведения в двух томах, Том 2, М., Политиздат, 1978, 463 с. 14.Azərbaycan Respublikası DSPİHA 268-ci fond, Siyahı №10, iş 20.

THE STRUGGLE FOR TERRITORY OF BAKU ON THE EVE OF MARCH MASSACRE

Summary

Inn R.Rustamov's artikle «The Struggle for Territory of Baku on the Eve of March Massacre» the causes of alliance of Bolshevik-Dashnak were reflected. The author depicted the hatred as the main reason by Bolshevik –dashnak forces which mainly consisted of Armenians in this article.He also proved evidentially that Bolshevik-dashnak forces considered the national liberty movement of Azerbaiyan to be the main obstacle for their purpose in his article.

БОРЬБА ЗА ВЛАСТЬ НА ТЕРРИТОРИИ БАКУ В ПРЕДДВЕРИИ МАРТОВСКОГО ГЕНОЦИДА

Резюме

Статья Рашада Рустамов «Борьба за власть на территории Баку в преддверии мартовского гноцида» рассказывает о создании союза между большевиками среди которых большинство составляли представители армянской национальности и дашнаками.

В своей статье автор указывает, что причиной создания этого союзп явилось то, что и большевики и дашнаки считали развитие национальное – движение азербайджанцев главной опасностью в осуществлении своих целей. В статье дан анализ политических сил в Баку в преддверии мартовского геноцида.

Bəhmən Əliyev
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu,
tarixi etnoqrafiya şöbəsi, aparıcı elmi işçi,
tarix üzrə fəlsəfə doktoru

ERMƏNİLƏRİN ŞƏRQİ ANADOLU VƏ AZƏRBAYCANDA TÖRƏTDİKLƏRİ SOYQIRIM FAKTLARININ AŞIQ YARADICILIĞINDA ƏKSİ

Açar sözlər: erməni terroru, soyqırım, aşıq sənəti, poetic dil, milli yaddaş
Keywords: armenian terror, genocide, ashik art, poetic language, the national memory
Ключевые слова: армянский террор, геноцид, ашугская поэзия, поэтический язык, национальная память

Qondarma erməni soyqırımı iddialarına cavab vermək, tarixi həqiqətləri üzə çıxarmaq, erməni terror dəstələrinin törətdikləri soyqırım aktlarını ifşa etmək Azərbaycan tarix elminin, eləcə də arxeologiya, etnoqrafiya kimi elm sahələrinin vəzifələrindəndir.

XIX əsrin sonu-XX əsrin əvvəllərində ermənilərin Şərqi Anadolu və Azərbaycan ərazilərində qətliamlar, soyqırım aktları törətməsi XIX əsr boyu Çar Rusiyası və Osmanlı arasında 4 müharibənin (1805-1812, 1828-1829, 1853-1856, 1877-1878), Çar Rusiyası və İran arasında 2 müharibənin (1805-1812, 1826-1828) nəticələrindən idi.Osmanlı imperiyasını parçalamaq istəyən, Yaxın Şərqdə öz nüfuz dairəsini genişləndirmək uğrunda mübarizə aparan dövlətlərin dəstəyi ilə ermənilərin 1893-1895-ci illərdəOsmanlı imperiyası ərazilərində törətdikləri üsyanlar, 1905-1906-cı illərdə Qafqazda baş verən "erməni-müsəlman davası" və s. olaylarla qanlı proseslərin coğrafiyası genişlənmişdir. Anadoluda, Azərbaycanda, Qafqazın müxtəlif bölgələrində türk-müsəlman əhalinin ermənilərin törətdikləri soyqırımla ilə üzləşməsi etnoqrafik dəyişiklərlə də müşayiət olunmuşdur.Bu dövrdə baş verən proseslər təkcə sərhədləri dəyişdirməmiş, əhalinin etnik-dini tərkibi, təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyətinə və s. ciddi təsir göstərmişdir.

XIX əsrin əvvəllərindən Çar Rusiyasının işğalının başlanması,Qafqazda "xristian dövləti" yaratmaqplanları türk-müsəlman əhalinin mənəvi həyatında da ağır izlər buraxmışdır. Xalq yaradıcılığının müxtəlif nümunələrində, xüsusilə aşıq yaradıcılığında rus işğalının başlanması, ermənilərin torpaqlarımızda məskunlaşdırılması, ermənilərin törətdikləri qətliamlar əksini tapmışdır.

XIX əsr-XX əsrin əvvəllərinə aid aşıq yaradıcılığının bəzi nümunələrini tarixi-etnoqrafik müstəvidə təhlil edəndə aydın olur ki, əksər hallarda sosial-ictimai hadisələrə münasibətdə etiraz üzərində köklənən aşıq yaradıcılığı rus işğalına, ermənilərin torpaqlarımızda məskunlaşdırılmasına da səssiz qalmamışdır.

1826-1828-ci illərillər Rusiya-İran, 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi zamanı və müharibədən sonra, yəni, 1828-1830-cı illərdə 40 mindən çox İran və 84 mindən çox Türkiyə ermənisi köçürülərək Cənubi Qafqazda və Azərbaycan torpaqlarında yerləşdirilmişdi (1,4-5).Əvəzində türk-müsəlman əhali ciddi itkilərə,çarizmin dini və siyasi basqısınaməruz qalırdı.

XIX əsrin ortalarında Borçalı-Axalkələk-Qars aşıq məktəbininəsas nümayəndələrindən sayılan Xəstə Həsən (Xasta Hasan) ermənilərin Axalkələkin Dırqına (Tırqına, Qırqına) kəndinə köçürülməsini belə təsvir edir:

Ermənıyə yol açıldı,
Yuva saldı Dırqınada.
Yerli getdi, yersiz gəldi,
Əcəb haldı Dırqınada.

Adına deyirlər Tigrən,
Üzündəki ətdən igrən,
Əlindəki dəmir dirgən,
Çalhaçaldı Dırqınada.

Çayırları düz gördülər,
Özlərini yüz gördülər,
Xəstəyi yalqız gördülər,
Çalhaçaldı Dırqınada (2,62).

1829-cu ilsentyabrın 14-də Osmanlı ilə Rusiya arasında bağlanmış "Ədirnə müqaviləsi"nə görə ruslar Qars və Ərdəhandan çəkilsələr də Ahıska və Axalkələk onlara qalmışdır. Müqavilənin şərtlərindən narazı qalan minlərlə türk ailəsinin Osmanlının iç bölgələrinə koçü başlanmış, bölgəyə isə 7300 erməni ailəsi gətirilmişdir (2, 20-21).Rəvayətə görə, Xəstə Həsən qardaşları Çiçək, Qara Alı, Abdulla, Mustafa ilə birgə Dırqınada otlaqlarını çalan 15 erməni ilə dalaşaraq ermənilərdən birini ağır yaralamışlar. Sonra iki qardaş Türkiyəyə köçmüş, digərləri isə Levis kəndinə köçüb orada məskunlaşmışdır(2, 207).

Tarixi məlumatlara görə isə, 1830-cu ildə Osmanlı Türkiyəsindən ermənilər Cavahetə gətirildikdən sonra oradakı Qarapapaq-Tərəkəmələrin İmirhəsənli tayfası Niyal düzündə məskunlaşmış, Levis icmasını yaratmışdılar (3, 24–25). Ermənilərik köçürülməsi isə davam edirdi. Həmin dövrün rus müasirlərindən biri yazırdı: "...Türkiyə və ya İran ilə hər bir müharibə bizə on minlərlə erməni verirdi"(4, 76-77).

Xəstə Həsənin başına gələnlərdən də aydın görünür ki, xalqın söz dünyasının, ruhunun güzgüsü, təbliğatçıları olan aşıqlar özləri də baş verən hadisələrin qurbanlarına çevrilmişlər. Bu Aşıq Şenliyin (1850-1914) yaradıcılığında da aydın şəkildə əksini tapmışdır.

Qeyd edək ki, Xəstə Hasanın saz-söz xəzinəsi Aşıq Şenliyin vasitəsilə davam etdirilmişdir(5, 41). Aşık Şenliyin ailəsi XIX əsrin ikinci yarısındarus imperiyasının deportasiya siyasəti nəticəsində Qazax-Borçalı bölgəsindən köç edib Türkiyənin şimal-şərqində məskunlaşan qarapapaqlar nəslindəndir (6, 45). Aşıq Şenliyin yaradıcılığı türklər arasında "93 harbi" və ya "40 illik qara günlər" deyilən, 1877-1878-ci illər müharibəsindən sonrakı dövrə düşmüşdür.Bu işğal türk-müsəlman əhaliyə dərindən təsir göstərmişdir. Mir Mövsüm Nəvvab XX əsrin əvvəllərində yazırdı: "Hicri 1294-cü ildə (miladi 1877-ci il) rus-osmanlı müharibəsində rus dövlətinin ordu başçılarından bir neçəsi erməni tayfasından idi. Həmin ermənilər Qars şəhərini tutarkən düşmənçiliklə nə qədər müsəlman kitabları və Quranı-Şərif əllərinə keçirdisə, yandırırdılar" (7,12).

Rus müəllif K.Sadovski isə bildirir ki, 1882-ci ilin rəsmi qaynaqlarına görə Qars vilayətində 162.979 nəfər (ermənilər (21,5%), türklər (27%), türkmənlər (5%), kürdlər (15%), qarapapaqlar (15%), ruslar (5,5%), yunanlar (10,5%) və s.)yaşamışdır: "İndi ermənilərin sayı 31.518 nəfərdir, vilayət Rusiya ilə birləşdirilənəqədər burada ermənilərin sayı 2 dəfədən az olmuşdur" (8,341).Sadovski türklərin sayını azaltmaq üçün onları türk, türkmən, qarapapaq kimi ayrı-ayrı göstərməyə çalışmış, eyni zamanda Rusiyanın işğalına qədər buranın "aborigen"xalqı olan ermənilərin sayının iki qat daha az olduğunu yazır.Rus işğalına qədər Qarsda türklərin sayı 3 dəfə daha çox olmuşdur, 1877-1878-ci illərdən sonra buradan 60-80 min türk Osmanlı imperiyasının əlindəqalan torpaqlara köç etmişdir (8, 343).

Qarsın işğalından sonra Aşıq Şenlik əhalinin mübarizə ruhunu yüksəltmək, birliyi saxlamaq üçün şeirlər qoşmuş, xalqı müqavimətə səsləmişdir. Bu baxımdan onun"Mehralı bəy atlıları türküsü" maraq doğurur. Əslən Darvaz elindən olub, Osmanlıda paşalıq rütbəsinə yüksəlmiş, Həmidiyyə Qarapapaq alaylarından birinin komandanı, cəsur Mehralı bəyə həsr edilmiş bu şeir o dövrdə dillər əzbəri olmuşdur:

Qurşannıq qılıncı, geyinnik donu,
Qovğa buludları sarı hər yanı,
Doğdu qoç iyidin şan almaq günü,
Can sağ ikən yurd vermərik düşmana! (10, 279).

Torpaqlarının əllərindən alınması, ermənilərə, yunanlara, malokanlara verilməsi, xristianlaşdırma siyasəti və s. səbəblərdən türklər köç etməkdən başqa çıxış yolu görmürdülər. Türk kişilərinin rus ordusunda xidmətə qəbul edilməməsi əvəzində rus yetkililər pul tələb edirdi: Onlar (türklər) belə vəziyyətdə Türkiyəyə köçmək haqqında düşünürdü" (11, 7).M.S.Ordubadi də bildirir ki, "Ermənilər Qars camaatına "Rusiya sizlərdən əsgər tutacaq"-deyib qorxutmaqla onları ölkənin başqa yerlərinə hicrət etdirirdilər. Yenə Qafqazda şiəməzhəb müsəlmanlara məsləhət görürdülər ki, köçüb İrana getsinlər" (12, 11).

Onu da xüsusi qeyd etmək lazımdır ki, Şərqi Anadolunun işğalı XX əsrin əvvəllərində, xüsusi ilə 1915-1921-ci illərdə baş verən hadisələrin xəbərçisi idi. Elə "erməni məsələsi" də məhz San-Stefano müqaviləsi (1878-ci il 3 mart) ilə rəsmi şəkildə ortaya çıxmışdır.

Məmməd Səid Ordubadi yazırdı: "Ermənilər Türkiyədə onların təzə partiyalarının rəvacını qeyri-qabil gördükdən sonra Qafqaza göz dikərək qədim əsrdən təxrib edilmiş Ermənistanı diriltmək həvəsinə düşdülər. Buna şahid 1878-ci ildə baş verən Qars müharibəsində şücaət göstərən erməni polkovniki Lorus Məlikovun Eçmiəzdin yaxınlığında olan Ani xərabələrini dövlətdən tələb etmək kimi əsassız xəyalıdır. Bunların banisi, göstəriş verəni isə erməni yazıçısı Arsruni idi. Bu cənab Türkiyə şəraitinə baxıb işin çətinə düşdüyünü görüb, ermənilər Qafqaza daşımağı məsləhət görmüşdü" (12, 10).Ermənilərin 1905-1906-cı illərdə Qafqazda törətdikləri "erməni-müsəlman davası" Arsruninin vəsiyyətinin ilk mərhələsi idi.Xalqımızın yaddaşında ağır izlər buraxmış bu mərhələ də aşıq yaradıcılığında əksini tapmışdır.

"Azərbaycanın bir çox yerlərində erməni fitnəkarları 1905-ci ildə qırğınlar törətmiş, çox yurd-yuvanı viran eləmişdir. Baş verənlərdən dərin məyus olan Aşıq Ələsgər "Dağlar" rədifli ikinci qoşması ilə elin dərdini dilə gətirmişdir (17, 19).

…Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəşmir atlar;
Niyə pərişandı halların, dağlar?!...

Hanı bu yaylaqda yaylayan ellər?!
Görəndə gözümdən car oldu sellər.
Seyr etmir köysündə türfə gözəllər,
Sancılımır buxağa güllərin, dağlar!...

Gözəllər çeşməndən götürmür abı,
Dad verə dahanda Kövsər şərabı.
Xaçpərəstlə düşdü bund inqilabı,
Onunçün bağlandı yolların, dağlar!..(17,37-38)

1914-cü ildə Osmanlı dövlətinin Birinci dünya müharibəsinə qoşulması ilə ermənilər Anadoluda üsyan qaldırmış və türk ordusunu arxadan zərbə vurmuş, türk ordusu sıralarındakı erməni əsgərləri silahları ilə rus ordusuna birləşmişlər…1915-ci ildə rusların Şərqi Anadoluya hücumu ilə ermənilərin türk-müsəlman əhalisinə qarşı zülmü də artmışdır. Rus orduları ilə birlikdə Van, Bitlis, Ərzurum, Ərzincan, Qars və bir çox başqa vilayətlərdə amansız qırğınlar törətmişlər(13, 66)

Qars ərazisində türklərə qarşı qətliamlara rəhbərlik edən Ohanes Apresyan yazırdı: "…Beləcə rus Ermənistanın Naxçıvandan Axalkələkə qədər olan bütün sərhəd bölgəsi, Ağrı dağının ətəklərindəki isti vadilərdən şimaldakı soyuq dağ kəndlərinədək hər tərəf yerlə bir edilmiş tatar kəndlərinin dilsiz qalmış xarabaları ilə doldu...". "Ermənilər təkcə Sarıqamış-Arpaçaq arasında 52, Qars və çevrəsində 400 kənddə sılahsız 40 min kişi, qadın və uşağı mərək (samanlıq), axır kimi yerlərə dolduraraq yandırmışlar" (14, 226).Qarsın 671 nəfərlik Kalo-Dərəcik kəndində ermənilər 660 nəfəri qətlə yetirmişlər.Onlardan 360 nəfər bir mərəyə (samanlığa) doldurularaq öldürülmüşdür. Sağ qalan 11 nəfərdənbiri, Kalo kəndinin sakini Aşıq Qəhrəman (1863 – 1944) qətliamı belə təsvir edir:

Ay ağalar, necə deyim dərdimi,
Vardı zulmün sonu ərşə dayandı.
Erməni, islamı qırdı, taladı,
Məzlumlar amanı, ərşə dayandı.

Bir cənazə gördüm, qan olmuşüzü,
Pırtlamış kənara sıçramış gözü,
Üçyüz altmış canın sönməmiş közü,
Yanan can dumanı, ərşə dayandı….

…Tanrı ermənyə vermiş fürsəti,
Kəsdi kökümüzü, qırdı milləti,
Ruzi – qıyamətəqaldı müddəti,
İntiqamın günü, ərşə dayandı…(14, 228-230)

Aşıq Şənliyin yanında sənətin sirlərini dərindən mənimsəyən, Azərbaycanın ustad aşıqlarından olan Aşıq Nəsibin şeirlərində Qarsın qorunmasında qəhrəmanlıq göstərən igidlər tərənnüm olunur.Müxəmməslərinin birində Qars Milli Şurasının üzvü, Ağbabanın İbiş kəndindən olan Hacıdə Abbas oğlu Kərbəlayi (Kalvayi) Məhəmmədin igidliyi təsvir edilir. Cənubi Qafqaz Cümhuriyyətinin Ağbabadan vəkili olan Kalvayı Məhəmməd silahlı dəstə toplayaraq ermənilər Ağbabaya daxil olm-

ağa qoymamışdır.Müxəmməsdə Ağbabalı Qaçaq Yusifin oğlu Məmmədvəlinin erməni-rus birləşmələrinə qarşı döyüşdə qəhrəmancasına vuruşduğu, şəhid olduğu da xatırlanır(15, 20-24).

Borçalı–Qars aşıq məktəbinin təmsilçisi Qul Əhmədin 1915-ci ildə Ərdahanda, Çıldırda ermənilərin törətdikləri qırğınlarla bağlı şeiri dillər əzbəri olmuşdur:

Dinləyin, ağalar, bu cəng işini,
Görün neçə-neçə qalmaqal oldu,
Dağlar səda verdi, toplar atıldı,
Xalq ağlaşdı, didəm yaşı sel oldu(10, 281-282).

1918-ci ildə erməni daşnak-bolşevik terror dəstələrinin Azərbaycan ərazisində-Bakıda, Şamaxıda, Lənkəranda və s. yerlərdə törətdikləri soyqırım əməllərinin genişlənməsi müəyyən mənada Birinci dünya müharibəsinin sonuna doğru baş verən hərbi-siyasi hadisələr, Çar Ordusunun Qafqaz cəbhəsindən geri çəkilməsi ilə bağlı idi.

N.N.Şavrov 1911-ci ildə yazırdı ki, 1896-ci ildə general Şeremetyev Cənubi Qafqazdakı ermənilərin sayını 900 min nəfər olaraq təsbit etmiş, 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfər idi. 1917-ci ildə daha 300 min erməni Anadoludan Qafqaza, xüsusi ilə Azərbaycan torpaqlarına köçmüşdü(1,5). Qısa bir müddət ərzində geri çəkilən rus ordusu ilə birlikdə Azərbaycan torpaqlarına soxulan yüz minlərlə erməni əhali, xüsusi ilə silahlı erməni hərbi dəstələrinin fəaliyyəti azərbaycanlılara qarşı soyqırım əməllərinin genişlənməsinə səbəb oldu, bir sıra hallarda bəzi ərazilərdə, xüsusi ilə Göyçədə, Zəngəzurda və s. etnoqrafik mənzərə, əhalinin etnik-dini tərkibi xeyli dəyişdirildi.

Belə bir faktı qeyd etmək yerinə düşər ki, Rusiya imperiyasının dağılması ərəfəsində yalnız Qərbi Azərbaycan ərazisində (Ermənistanın indiki ərazisi nəzərdə tutulur) 1349 kənddən 608 kənddə (45 faiz) azərbaycanlılar, 560 kənddə (41,5 faiz) ermənilər, 115 kənddə (8,5 faiz) kürdlər, 66 kənddə (4,9 faiz) ruslar və başqa millətlərin nümayəndələri yaşamışlar. 1918-ci ərəfəsində azərbaycanlılar yaşayan kəndlər ərazinin 50-55 faizini, ermənilər yaşayan kəndlər isə 30-35 faizini əhatə etmişdir (16, 20).

Erməni terror dəstələrinin Göyçədə türk-müsəlman əhaliyə qarşı törətdikləri qətliamlar da aşıq yaradıcılığında əksini tapmışdır.Bu sırada ilk növbədə faciələr yaşamış Aşıq Ələsgərin yaradıcılığını qeyd etmək lazımdır."Dəyirmançı aşıq" dastan-rəvayətində Aşıq Ələsgərin o dövrdə baş verən hadisələrə müdrik, narahat yanaşması, eləcə də xalqımızın daşnak terroruna qarşı mübarizəsi əksini tapır."1917-ci ildə Nikolay yıxılanda hamı sevindi. Gözlədilər, təzə hökumət Göyçəyə gəlib çıxmadı…Bir az keçməmişGöyçədə daşnaklar peyda oldular…Daşnakların qoşunu haragedirdisə, o kəndi soyurdu.Bir gün daşnakların bir dəstəsi Göyçənin Zod kəndinə gəldi…Daşnaklar Zodun üstünə hücüm çəkdi. Müsəlman kəndləri Zoda köməyə gəldi...Müsəlmanlar daşnakları qovdular, Basarkeçərə topladılar…Bir az keçməmiş daşnaklara ingilisdən kömək gəldi. Bu dəfə daşnaklar üstələdi. Müsəlman kəndlərinin çoxunu yandırdılar…Göyçənin ağsaqqallarından bir neçəsi Aşıq Ələsgərin yanına gəldi, tədbir istədiki, barışıqolsun.Mənim əzizlərim, onu da deyim ki, 1905-ci ildə ermənilər yenə çaxnaşma salmışdılar. Çox yerdə qırğın törətmişdilər…Gördülər ki, Göyçədə də qırğın ola bilər.Səməd ağa, Böyük ağa, Məşədi İsa, Kor Tanrıvedi, Dəli Şirin, Aşıq Ələsgər,ermənilərdən Səfəroğlu Hovanes, Ağabəy, Aspadur, Yanıq Tatavos və başqalarıÇaxırlı kəndində Böyük Ağanın evinə yığışıb, Qurana, İncilə əl basıb, Göyçədəqırğına yol verməyəcəklərinə and içmişdilər. Ona görə də o vaxt Göyçədə erməni-müsəlmandavası olmadı.Bu dəfə də camaat Aşıq Ələsgərin yanına umidlə gəlmişdi.Aşıq Ələsgər dedi: "1905-ci ildəkinə baxmayın, bu dəfə barışıq baş tutmaz. Göyçə camaatına qalsa, bəlkə də, barışardı, amma daşnaklarla barışmaq çətindi…".Camaat gördü ki, davam gətirmək mümkün deyil, çoxu qoca qarıları,əlsiz-ayaqsızları, uşaqları Azərbaycana aşırdı…Əli tüfəng tutanların hamısı daşnaklarla vuruşmaq üçün Göyçədə qaldı…Bu minval ilə Novruz bayramından 17 gün keçənə qədər Göyçənin igid oğulları ermənilərlə vuruşdular. Ermənilərə yenə qüvvə gəldi, müsəlmanların gülləsi qurtardığına görə, Göyçədən çıxmağa məcbur oldular(17,372-373).

Dastandan məlum olur ki, Aşıq Ələsgər Səməd ağaya ermənilərin barışıq təklifinə inanmamağı məsləhət bilir: "– Oğul, Səməd ağıya de ki, ermənilər tələ qurub. Selikovgilin hayıfını almaqistəyirlər.Əgər getsələr, hamısını qıracaqlar!"…Səməd ağa inanmırdı ki, ermənilər ona xəyanət eləyə. Çünkü müsəlmanlar Basarkeçəri dağıtmaq istəyəndə, Səməd ağa qoymamışdı…Səməd ağa Göyçənin

hörmətli adamlarından bir neçəsini dəözü ilə apardı.İki gündən sonra xəbər çıxdı ki, ermənilər hamısınıqırıblar.Qırılanlarınn içində Aşıq Ələsgərin şagirdi, daşkəndli Aşıq Nəcəf dəvardı.Onu soyundurub, belinə qaynar samovar bağlayıb, çox əzabla öldürmüşdülər (17, 380-381).Göründüyü kimi, tarixi hadisələri, o cümlədən ermənilərin törətdikləri soyqırım faktlarını "xalq üsulu" ilə, yəni poetik dillə qeydə alan aşıq poeziyası tarixi mənbə rolunu oynamış, tarixi yaddaşlarda yaşatmışdır.

XIX əsr-XX əsrin əvvəllərinə aid çoxsaylıaşıq yaradıcılığı nümunələrində rus işğalları, ermənilərin Şərqi Anadolu və Azərbaycanda türk-müsəlman əhaliyə qarşıtörətdikləri soyqırım faktları əksini tapmışdır.Xalqımızın yaddaşında, söz-söhbətində qalan belə şeirlər, qoşmalar, dastanlar sovet dövründə qadağan edilsə də onları unutdurmaq mümkün olmamışdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Ağayev Y., Əhmədov S. İstiqlal yürüşü-1918. Bakı, 2009, "Altun kitab", 416 s.
2. Şamil Ə. H. Axısqalı Xəstə Hasan, Bakı, "Elm və təhsil", 2012, -248 səh.
3. Hacıyev V. Ə. Folklorumuzun üfüqləri, Bakı, "Yazıçı", 1991, 148 s.
4. Вердиева Х., Гусейнзаде Р. "Родословная" армян и их миграция на Кавказ с Балкан. Издательство Баку, "Əlm". 2003. 168 с.
5. AğbabaA. Ağbaba-Çıldıraşıqmühitində ustad-şagird ənənəsi. "Dədə Qorqud", 2012, Iburaxılış, s.38-47
6. UlviA., SüleymanovN. DedeEleskerveAşık Şenlikpeoziyasındayurtağrısı konusu. Aşık Şenlik Sempozyumu. Kars. 25-27 mart 2012-ciil, s.44-47
7. NəvvabM.M. 1905-1906-cı illərdə erməni-müsəlmandavası.Bakı. "Azərbaycan", 1993, 128 s.
8. Садовский К. Краткие заметки о Карсской области, Сборник материалов для описания местностей и племен Кавказа. Издание Управления Кавказского Учебного Округа. Выпускъ третий. 1883. Тифлис.с.315-350
9. GökşenC. Aşik Şenlik'in Kars'in işgal yillarinda söylediği Koçaklama vedestanların halk üzerindekietkisi. Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 1/3, 2012 s. 118-135
10. Məmmədli Ş. B. Azərbaycan ədəbiyyatınınBorçalı qolu (1920-ciilə qədər). Monoqrafiya.Tbilisi: Kolori, 2003, 363 s.
11. Мачавариани К. Город Артвин Кутаисской губернии. Сборник материалов для описания местностей и племен Кавказа. Издание Управления Кавказского Учебного Округа. Выпускъ двадцать второй. 1897. Тифлис.с.1-53
12. Ordubadi M.S. Qanlı illər. Bakı. 1991, 144 s.
13. QazıyevY. Ermənimməsələsi. Yalanlarvə gerçəklər. Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı. Bakı, "Nurlar" NPM, 2009, 344 səh.
14. Kantarçı Ş. Kars'ta Türklere Yönelik Ermeni Katliamı: Kalo/Derecik Köyü Toplu Mezar Kazısı. http://dergiler.ankara.edu.tr/dergiler/19/23/129.pdf
15. Bayramov A.Ə. Aşıq Nəsibin şeirlərində onomastic vahidlər. Sumqayıt Dövlət Universiteti "Elmi Xəbərlər", Sosial və humanitar elmlər bölməsi. 2014, №1, s.20-24
16. Abışov V. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər), Bakı, Nurlan, 2005, 176 s.
17. Aşıq Ələsgər. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 400 səh.

Бахрам Алиев

ФАКТЫ ГЕНОЦИДА, СОВЕРШЕННЫЕ АРМЯНАМИ В ВОСТОЧНОЙ АНАТОЛИИ И АЗЕРБАЙДЖАНЕ И НАШЕДШИЕ ОТРАЖЕНИЕ В АШУГСКОЙ ПОЭЗИИ

Резюме

Устное народное творчество и в особенности ашугская поэзия во многих случаях отразили и сохранили в себе исторические события. Азербайджано-анатолийская ашугская поэзия XIX - начала XX вв. также отразила в себе российскую колонизацию, переселение армян, факты геноцида со стороны армян, сохранившиеся «народной поэзии». Видные представители Азербайджано-Анатолийской ашугской поэзии Хесте Гасан, Ашуг Шенлик, Ашыг Гахраман, Ашуг Насиб, Гул Ахмед, Ашуг Алескер и у другие, в своём творчестве отразили геноцид, совершенный армянами над тюрко-мусулманским населением. Образцы этого народного творчества поэтическим языком стал для народа историческим источником.

Baxram Aliyev

THE REFLECTİON OF MASSACRE DONE BY ARMENİANS İN EAST ANATOLİA AND AZERBAİJAN İN ASHİK ART

Folk culture especially, ashik art usually is etched historical events in people's memory. Ashik art in East Anatolia and Azerbaijan during XIX and early XX century reflects by poetic way the Russian invasion, armenian migration and their settlement in this territory, massacre done by armenians. The outstanding figures of ashik art Khasta Hasan, Ashuq Shenlik, Ashug Gahraman, Ashuq Nasib, Gul Ahmed, Ashug Alasker and others described the massacre made by Armenians in their work. These works are playing a historical source role promoted by poetic way.

Aygün Əzimova

BAKIDA QIRMIZI QVARDİYANIN VƏ BOLŞEVIK DRUJİNASININ TƏŞKİLİ VƏ ONLARIN MART SOYQIRIMINDA İŞTİRAKINA DAİR (NOYABR 1917- MART 1918)

Açar sözlər: Qırmızı Qvardıya, bolşevik drujinası, eser, daşnak, azərbaycanlıların soyqırımı

Ключевые слова: Красная гвардия, большевистские дружины, дашнаки, эсеры, геноцид азербайджанцев.

Key words: Red Guards, Bolshevik detachments, Dashnaks,Socialist Revolutionary Party, genocide the Azerbaijani people.

1918-ci ilin martında Bakıda milli və siyasi ziddiyyətlərin culğalaşması Azərbaycan xalqına qarşı soyqırımıntörədilməsinə gətirib çıxardı. Bu hadisə eyni zamanda bolşeviklərin siyasi hakimiyyət vasitəsinə çevrilən Bakı Soveti adlı orqanın antiazərbaycan fəaliyyətinin nəticəsi idi.

Bakı Sovetində yaranan bolşevik-daşnak alyansının təşkil etdiyi soyqırım uzun illər sovet tarixşünaslığında Bakı proletariatının istismarçı sinifə qarşıapardığı "vətəndaş müharibəsi" kimi təqdim edilirdi. [4; 9; 12, ;15]Bu gün isə Vətən tarixşünaslığı çoxsaylı tədqiqatlarla bu hadisənin bütün qaranlıq tərəflərini üzə çıxarmaqdadır. Faktiki olaraq erməni silahlı qüvvələrinin milli düşmənçilik zəminində azərbaycanlıları qırması kimi mübahisəsiz qəbul edilən hadisənin əslində müxtəlif amillərin sintezi nəticəsində ortaya çıxdığı aydın olur. Baş verən soyqırımın siyasi bir cinayət kimi məsuliyyət ağırlığıisə, öz növbəsində onun təşkilatçıları ilə yanaşı, onda iştirak edən silahlı qüvvələrin tərkibi, sayı və.s. kimi məsələlərin dəqiq müəyyənləşdirilməsini tələb edir.

Bakı Sovetinin rəhbəri, eyni zamanda Lenin tərəfindən Qafqazın Fövqaladə Komissarı təyin edilən S.Şaumyan hadisələrdən sonra Rusiya Xalq Komissarları Sovetinəsiyasi cəhətdən hesabat verdiyi məktubunda Bakıda şiddətli döyüşlərin getdiyini bildirir və"Müsavat" partiyasının başçılıq etdiyi milli qüvvələrəqarşı Bakı Sovetinin tərəfindən döyüşən hərbi qüvvələri sadalayaraq onların sovet Qırmızı Qvardıyası, Qırmızı Beynəlmiləl Ordu, qısa müddətdə yenidən təşkil olunan Qırmızı Donanma və erməni milli hissələrindən ibarət olduğunu və say nisbətinə gəldikdə isə Bakı Sovetinin 6 min, daşnakların isə 3- 4 min qüvvə ilə çıxış etdiyini qeyd edirdi. [1,s.115] Daha sonra o, öz siyasi rəqibini aradan qaldırmaq üçün 6 min hərbi qüvvəsinin azlıq etdiyini bildirməklə bu "sinfi mübarizə"də erməni milli hissələrinidən istifadəyə haqq qazandırırdı.[1,s.115]Təbii ki, qırgının miqyası və törədilən vəhşiliklər ilk növbədə erməni-daşnak hərbi hissələrinin fəaliyyətinin göstəricisi idi. Lakin adları çəkilən və Şaumyanın qeyd etdiyi rəqəmləri nəzərə alsaq, sayca çox olan və "beynəlmiləl" sovet hərbi dəstələrinin baş verənlərdə nə dərəcədə iştirak etməsi suallar doğurur. Başlanan müharibənin milli qırğın xarakterinin kifayət qədər tez aydın olması və Şaumyanın milli qırğına qəsdən yol verdiklərini [1,s.115] etiraf etməsini kimi faktlar bir daha diqqəti həmin məsələyə cəmləyir.

Burada biz ilk növbədə sadalanan qüvvələrdən Qırmızı Qvardiyanın fəaliyyətinə toxunacağıq.QvardiyaBakıda sovet hakimiyyətinin mövcudluğunun ilk aylarında onun əsas hərbi qüvvəsi olmaqla [7,s.35]diqqət cəlb edir. Eləcə də, Qvardiyanın fəaliyyəti ilə bağlı bəzi məsələlərə aydınlıq gətirilməsi Bakı Soveti hakimiyyətinin hərbi aspektdən gücünü müəyyənləşdirməyə xidmət edir.

Məsələnin tədqiqi zamanı sırf tədqiqat əsərləri ilə yanaşı mənbə qismində həm bolşeviklərin "maraqlı etiraflar"la zəngin olan çoxsaylı xatirə yazıları [19,20,21,22,24,25.], həm də Azərbaycan xalqına qarşı törədilən bu cinayəti araşdırmaq məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti dövrundəyaradılan Fövqəladə Təhqiqat Komissiyasının materialları[13] istifadə edilmişdir.

İlk öncə onu qeyd edək ki, adı çəkilən silahlı dəstələr sırf bolşeviklərin hakimiyyət iddialarının təminatı üçün yaradılırdı. Bakı bolşevikləri hərbi qüvvələrininin təşkili işi Bakı Qarnizonunun bolşevikləşdirilməsi, daha sonraQırmızı Qvardiyanın təşkili və sonda Qırmızı Ordunun yaradılması mərhəllələrindən ibarət olmuşdu. Bütün bu mərhələlər öz növbəsindəBakı bolşeviklərinin hərbi siyasətində erməni amilinin tədricən gücləndiyininümayiş etdirirdi.

18 minlik Bakı Qarnizonu [8, s.88]əsgərləri arasında hələ 1917- ci ilin yazından bolşevik təbliğatı öz nəticəsini verir. Əvvəlcəoktyabrın 29-da yeni Şəhər Dumasına keçirilən seçkilərdə qarnizon

əsgərlərinin 90 faizə qədəri bolşeviklərə səs verdilər.[19] Bir neçə gün sonra isə, noyabrın 2-də bolşeviklər qarnizonun dəstəyini alaraq Bakı Sovetin ali hakimiyyətini elan etdilər.[3, s.289]

Lakin bu heç də qarnizonun böyük hərbi qüvvə olması demək deyildi. Belə ki, seçkilərdə cəmi 3090 əsgər iştirak etmişdisə və onların da 2675- i bolşeviklərə səs vermişdisə, [19] bu o demək idi ki, bolşeviklər ən yaxşı halda məhz bu qədər (yəni, təqribən 2600)hərbi qüvvə dəstəyindən danışa bilərdilər. Buna görədə Sovetin ali hakimiyyətini elan edəndən sonra Şaumyanın Bakı Soveti İcraiyyə Komitəsi adından vətəndaşlara müraciətində hələ hərbi cəhətdən Bakı qarnizonuna arxalandıqlarını qeyd edilsə də, [6,s.194] kütləvi şəkildə yeni hərbi dəstələr yaradılmasının labüdlüyü aydın idi.

Nəzərə alaq ki, bu zaman artıq Bakıda yeni siyasi şərait yaranırdı. Şəhər Duması və Müsəlman Milli Şurasının artan nüfuzu və Bakı Soveti daxilində eser, menşeviklərlə fikir ayrılıqlqının olması şəraitində bolşeviklərin öz qüvvələrini artırmaq üçün şəhər proletariatının real dəstəyinə ehtiyacı vardı. Bu elə bir dövr idi ki, hələ bolşeviklərin çevriliş etdiyi Rusiya mərkəzində belə nizamı ordu yaradılmasına başlanmamışdı.

Onu da qeyd etmək lazımdır ki, Rusiyada da bolşeviklərin mübarizəsinin ilkin dövründə hərbi cəhətdən onlar üçün əsas dayaq könulluluk prinsipi əsasında proletariatdan təşkil edilən Qırmızı Qvardiyalar olmuşdu.[14] Təbii ki, yerlərdə də tək hakimiyyətə sahiblənmək üçün bolşeviklər bu silahlı təsisatdan istifadə etdilər.

Beləliklə, Şaumyanın təşəbbüsü vəBakı Sovetinin hərbi bölməsinin 1917-ci il 13 noyabr iclasının qərarından sonra Bakıda Qırmızı Qvardiya dəstələrinin təşkilinə başlandı.Sovetin İcraiyyə Komitəsi tərəfindən Qvardiyanın formalaşdırılması və fəaliyyətinin uzlaşdırılması işinə rəhbərlik məqsədilə onun nəznində Mərkəzi Büro yaradıldı. Daha sonra Büro Mərkəzi Qərargaha çevrildi. Onun sədri vəzifəsinə isə erməni bolşeviki A. Baqdasarov seçildi. Qvardiya dəstələri Sovetin sərancamında idi. Buraya daxil olan şəxslərin zavod və fabriklərdə iş yeri saxlanılaraq onlara maaş verilirdi.

Qvardiyanın təşkili işi ilə yanaşı qarnizonda da bolşevikləşmə işi davam edirdi. Dekabrın 2-də Bakı Qarnizonunun komandir heyəti yenidən seçilərək bütün vəzifələr bolşeviklərin əlinə keçmişdi. Dekabrın 12-də isəBakıda Cənubi Qafqazda ilk hesab edilən Hərbi İnqilab Komitəsi yaradılır.[8,s.95]O, bolşeviklərin hakimiyyətinin hərbi cəhətdən dayağının möhkəmləndirilməsinə başladı. Lakin qarnizon əsgərləri öz evlərinə qayıtmaq arzusunda idilər.Artıq 1918- ci ilin fevralına kimi Bakı qarnizonun əsgərlərinin və başqa qoşun hissələrinin böyük əksəriyyəti öz evlərinə qayıdırlar.[9, s.332:]Ona görə də 1918-ci ilin yanvarından sonra hər yerdə Qırmızı Ordunun yaranmasınadək qvardiya dəstələri Bakı Sovetinin əsas hərbi qüvvələri olacaqdı.

Aydındır ki, 1917-ci ilin noyabrın ortalarında təşkilinə başlanılan Qırmızı Qvardiya fəhlə sinfinin hərbi təşkilatı kimi Bakıda bolşevik hakimiyyətinin dayağı olmalı idi. Lakin eyni zamanda Rusiya bolşevik hakimiyyətinin göstərişləri əsasında yaranan Qvardiyanın mövcud olması zəruriliyi xeyli qüvvə toplayandan sonra bolşevik hakimiyyətini tanımayan Cənubi Qafqaz Komissarlığı üzərinə hücuma keçmək iddiası ilə əsaslandırılırdı.[6,s.329]

Rusiyada bolşeviklərin hakimiyyətinin dayağı olan qvardiyanın Bakı şəhərində hələ bolşeviklərə qarşı Sovet daxilində müxalifətin olması, üstəlik Azərbaycan milli qüvvələrinin günü – gündən artan təsiri şəraitində mövcudluğu bir sıra çətinliklər yaradırdı.

Belə ki, qvardiyanın yaradılması ideyası bolşeviklərin siyasi rəqibləri olan eser və menşeviklər tərəfindən etirazla qarşılanır. Hətta "hazırki şəraitdə, qarnizonun Bakı Sovetni dəstəklədiyi halda Qırmızı Qvardiyanın yaradılmasının vətəndaş müharibəsindən başqa bir şey verməyəcəyi" göstərilirdi. [24]Sonradan isə onlar hərbi dəstələrə bolşeviklərin birbaşa başçılıq etməməsi şərtini irəli sürürlər.[12,s.133]Nəticədə isə, qvardiyaya bolşeviklərlə yanaşı Bakı Sovetində təmsil olunan eser, menşevik və daşnakların qüvvələri və xeyli sayda bitərəf mövqelilər daxil olur və bu qayda qvardiya rəhbərliyində də öz əksini tapır.Məsələn, Bakı Sovetinin Zavağzalnı rayon komitəsinin yaratdığı Qvardiya qərərgahı 4 nəfərdən: bolşevik Ter- Stepanov, eser Afanasyev, daşnak Mirzoyan və bitərəf Terexovdan ibarət idi.[4,s.81]

Bakının spesifik milli mühiti həmçinin, Qvardiyanın milli tərkibi məsələsinə də diqqət yetirməyi tələb edir. Sovet dövrü tarixşünaslığında Qvardiyanın tərkibində ermənilər və azərbaycanlıların və digər xalqların nümayəndələrinin olduğu söylənilirdi. [15, s.13]. Lakin Qvardiyanın qərərgah sədri Baqdasarov isə daha dəqiq şəkildə bildirirdi ki, ona bolşeviklərdən başqa eser, menşeviklər, daha

çox isə daşnaklar daxil olmuşdu. Daha doğrusu, heyətin əksəriyyəti daşnaklara rəğbət bəsləyən ermənilərdən ibarət idi.[2, s.329]

Qeyd edək ki, Bakıda siyasi mübarizənin ayrılmaz komponenti olan milli ziddiyyətlər amili qvardiya məsələsində də özünü göstərir.Qvardiya Qərargahı sədrinin müavini vəzifəsi üçün isə iki namizəd-H.Sultanov və daşnak Vartanov təklif olunur. H. Sultanov öz xatirələrində səsvermə zamanı daşnak namizədinin az səs toplamasınıvə daşnakların buna ciddi etiraz etdiklərini bildirir. [20] Eməni bolşeviki Mantaşev isə öz xatirələrində bu faktı təsdiq edərəkdaşnakların açıq şəkildə müavin kimi türkün deyil, ermənin seçilməsini istədiklərini kəskin şəkildə bəyan etdiklərini qeyd edir.[2, s.378]

Həmçinin bir məsələni də qeyd etməliyik ki, bolşeviklər ilk dövrdə hələ ehtiyyatlı davranırdılar. Bəzi tədqiqatlardagöstərildi ki,hərbi hissələrin yalnız rus və ermənilərdən təşkil olunması anlaşılmazlıq yarada bilərdi.Bu səbəbdən bolşeviklər türklərin(azərbaycanlıların -A.Ə) və digər millətlərin bura cəlb edilməsi üçün tədbirlər görməyə çalışmışdılar. [12,s.132]Şəraitin diqtəsi "Hümmət"i bu işdə fəallığını artırmağa sövq edirdi. Hətta bir sıra müəssisələrin azərbaycanlı fəhlələri hələ mart öncəsi"Hümmət"ə müraciət edərək qvardiyaya qoşulmaq istəklərini bildirmişdilər [6,s. 292]. Az sayda da olsabolşevik təsiri altında olan müsəlmanların Qvardiyaya qoşulmaq istəyi var idi. Balaxanıda müsəlmanlar Qırmızı Qvardiyaya keçə bilmişdilər. [6,s.335] Qeyd edək ki, daha çox eserlərintəsiri altında olan rus fəhlələr o zaman müsəlmanların silahlanmasından narahat olaraq ilk dövrdə beynəlmiləl olan belə dəstələrin yaradılmasına qarşı olmuşlar.[12,s.132]Bütün bunlar, sadəcə, milli amilin Bakıda baş verənlərdə nə dərəcədə rol oynadığını göstərirdi.Bir qədər sonra isə Bakıda baş verən qanlı hadisələr əslində beynəlmiləl qvardiyanın "milli siması"nı aşkar edəşəkdi.

Qvardiyaya daxil olanların böyük əksəriyyəti heç vaxt orduda xidmət etməmişdilər. Çünki, müharibə illərində Bakı proletariatının əsasını təşkil edən neft sənayesi fəhlələri səfərbərliyə alınmamışdılar. [8,s.101]

Qvardiyanın təhcizatına gəldikdə isə qeyd etmək lazımdır ki, ilk dövrdə silahla təhcizatı çox pis vəziyyətdə idi. Lakin Qafqaz cəbhəsində ataəşkəsdən sonra vətənlərinə dönən rus ordusu əsgərlərinin tərksilah edilməsi sayəsində belə desək, bu problem də həll olunur.

Məlum olduğu kimi, yaranmış vəziyyətlə əlaqədar olaraq 1918-ci ilin əvvəlində Qafqaz Ordusu Hərbi İnqilab Komitəsi (QO HİK)Bakıya köçür. Bundan sonra Bakı Soveti İcraiyyə Komitəsi Sovetin bütün hərbi funksiyalarını ona verir.[8, s.96] Bu zaman Bakıda hakimiyyətin kimə məxsus olması məsələsi Bakı Soveti və Duma arasında ziddiyyəti artırmaqda idi. Bir tərəfdən Cənubi Qafqaz Komissarlığının həyata keçirdiyi rus ordularının tərkisilahı kompanıyası digər tərəfdən bolşeviklərin də analoji kompaniyasına qarışmışdı. Müsəlman milli polklarının yaranması barədə daha çox şişirdilmiş məlumatlar isə vəziyyəti daha da gərginləşdirirdi.

Qafqaz Ordusu Hərbi İnqilab Komitəsinin başda Q.Korqanov olmaqlaciddi fəaliyyəti və dəstəyi iləBakı bolşevikləri Cənubi Qafqaz Komissarlığının cəbhədən qayıdan rus ordularını tərksilah etməsinə baxmayaraq xeyli hərbi eşalonun silahla birlikdə Bakıya gətilməsinə nail oldular. Hətta qeyd edək ki, Bakı SovetiİK -sı general Baratovun komandanlığı altında olan İrandakı rus ekpedisiya korpusunu da təxris edilməsinə nail olmuşdu.Bakıda bolşeviklər gələn əsgərləri potensial qvardiyaçı kimi görürdülər. Demək olar ki, əksər hallarda Şaumyan əsgərlərin qvardiyaya cəlb edilməsi işinə şəxsən özü nəzarət edirdi.[21] Cəbhədən tərxis olunaraq evlərinə getmək üçün Bakıdan keçən əsgər eşalonlarınıyerində, Biləcəri stansiyasında qarşılayaraqgüclü təbliğat aparılırdı.[21]Onlardan silahların alınmasında Şaumyanın natiqlik məharətinin rolunu xüsusi qeyd edirlər. [11,s.254]Əsgərlər silahlarla bağlı məsələni öz aralarında təşkilat yaratmaq və onun vasitəsilə həll etmək istədikdə Şaumyan hətta onları fikirlərindən döndərərək, silahların HİK-ə verilməsinə nail olmuşdu. [11,s 255]

Bu cür fəaliyyətin nəticəsi idi ki, Qafqaz Ordusu HİK-si Bakıya gələnə qədər cəmi 300-400 nəfərlik olan Qvardıyanın üzvlərinin sayı artıq 1918-ci ilin yanvarın sonlarında 3500 nəfər idi. [4.s. 81; 9,s.333] Bakı Sovetinin hərbi qüvələrinə HİK ilə birlikdə Qırmızı Qvardiyanın Mərkəzi Qərargahı da başçılıq edirdi. [22]

Mart hadisələri ərəfəsində bolşeviklər üçün dayaq olacaq bu qüvvələrin silahlandırılması ilə bağlı Şaumyanın atdığı bir sıra addımlara xüsusi diqqət yetirməklazımdır.

Yuxarıda qeyd olunduğu kimi, Qvardiyada eser, menşevik, daşnak və bitərəf mövqelilər var idi. Lakin Şaumyan Qvardiyanın gücləndirilməsi işində əsas diqqəti məhz bolşeviklərə yönəldirdi.

Belə ki, hələ Mart hadisələrindən bir qədər əvvəl Şaumyan eserlərin Qvardiya Qərargahındakı əsas rəhbərnümayəndəsi Denejkininin şəhərdə olmamasından istifadə edərək qvardiya rəhbərlərini gizlin qaydada şəhərə çağıraraq onlara Qvardiyanın rayon bölmələrindən yalnız bolşeviklərin şəhərə gətirilməsi və gizlincə onlara HİK -ın sərəncamına keçən Qafqaz Ordusuna məxsus silahlar içərisindəntüfənglər paylanması barədətapşırıq verir. Yerdə qalan daha zəif silah olan "berdan" tüfəngləri isə sonradan qalanlara paylanır. Burada həm də onu qeyd etmək lazımdır ki, Bakıya köçərkən HİK hərbi əmlak kimi gətirdiyi silah sursatın, Qırmızı Ordu üçün nəzərdə tutulduğunu və onun Qırmızı Qvardiyaya aidiyyatı olmadığını bildirmişdi.[2,s.329]. Bunu bilən eserlər, xüsusən isə daşnaklar hayküy qaldırdılar. Hətta HİK –in sədri Korqanov bildirir ki, "silah bizimdir kimə istəyərik verərik". Buna görədə mart hadisələri zamanı daşnaklarBakıya bolşeviklər üşün Ənzəlidən silah gətirən paraxodu ələ keçirərək[2,s.330]xeyli silaha sahib oldular.

Yuxarıda qeyd olunanlar, daşnaklarla zahiri ziddiyyəti göstərməklə heç də mart hadisələrində daşnaklarla ittifaqın mahiyyətini dəyişmir. Bu, sadəcə olaraq Şaumyanın siyasətdə şəxsi iddiaları ilə bağlı idi. Hələ martın 3-də Stalinə məktubunda daşnaklarla bağlı məsələlərin həllindən bəhs edərkən "...yaxşı olar ki, onlar burada bizdən daha çox asılı olsunlar" deyirdi. [16,s.239]Digər tərəfdən isə güman ki, Şaumyan erməni rəhbərliyə baxmayaraq daha çox rus milli təşkilatı kimi özünü təsdiq edən eserləri neytrallaşdırmağa çalışırdı.Onu da qeyd edək ki, bu dövrdə Ümumrusiya ərazisində kəskinləşməkdə olan eser-bolşevik ziddiyyəti Bakıda daha yumşaq formada idi.

Lakin partiyalar arasında müəyyən ziddiyyətlər Qvardiyanın mart hadisələrində iştirakına bu və ya başqa şəkildə mane olmayacaqdı. Çünki Qvardiya təkcə bolşeviklərin deyil, Bakı Sovetinin silahlı qüvvəsi kimi onda təmsil olunan bütün qüvvələrin ən əsas rəqibinə Azərbaycan milli qüvvələrinə qarşı çıxış edirdi. Hələ yanvar ayının sonlarında Sovetin rəsmi orqanında Qvardiyanın "inqilabın nəticələrini qorumaqla yanaşı, Qafqaz həyatının xüsusiyyətlətindən asılı olaraq, ələxsus, Bakı kimi yerdə milli mübarizə zəminində meydana çıxa biləcək talanlarda vətəndaşların ailələrini qorumaq" kimi vəzifəsi olduğu göstərilirdi.[23] Bu yazı bir qədər sonra Bakıda baş verəcəklər barədə proqnoz xarakteri daşımaqla yanaşı, həm də bir növ Qvardiyaya verilən təlimat idi. Burada bütün millətlərdən olan vətəndaşlar nəzərdə tutulsa da,təbii ki, Qırmızı Qvardiyaya eser, bolşevik, menşevik, daşnak, həmçinin bitərəf kimi daxil olan ermənilərin kimi qoruyacaqları aydın idi.

Qeyd edək ki, Qvardiya ilə yanaşı bu zaman Bakıda az saylı digər bir silahlı qrup var idi. Bu RSDFP (b)-nın Bakı Komitəsinin nəznində yaradılandöyüş drujinası idi. Çox vaxt bolşevik xatirə yazılarında Qırmızı Qvardiya və bolşevik drujinasının adları qoşa çəkilir.Xüsusən isə, mart hadisələri ilə bağlı məlumatlarda onların fəaliyyətini fərqləndirmək çətin olur.

Drujinanın da yaradılması ideyasının Şaumyan tərəfindən irəli sürülmüşdü.[2,s.391] Hələ 1917- ci ilin sentyabrından yaradılmasına cəhd edilsə də, faktiki olaraq onun reallaşması HİK- in Bakıya köçməsindən sonra mümükün olur. Drujinanın təşkili Qafqaz cəbhəsindən qayıdan proporşik Batmanova həvalə olunur.[5,s.59:] Şaumtyan Hərbi eşalonlarla birlikdə Tiflisdən gələndən sonra onlardan əldə etdiyi sursatı proporşik Batmanova verir.Sonradan mart hadisələrində Batmanov yaralandığındanona Anançenko rəhbərlik edir. Drujinanın tam təşkilatlanması isə mart günlərində olur.Mart hadisələrinə qədər drujinanın üzvləri 50-60 nəfərdən çox deyildi.[2,s.68]

Əgər Qırmızı Qvardiyada müxtəlif partiyaların nümayəndələri var idisə, adından göründüyü kimi drujina yalnız bolşeviklərdən ibarət idi. Qeyd edək ki, drujinada da erməni komponenti çoxluq təşkil edirdi.Onun komissarı S. Martikyan idi. A. Stamboltsyan, Suren Şaumyan, O.Qalustyan, M.Manuçarov, Q.Qovliasyan, L.Mirzoyan, Samvel Manqasarov, A.Abqaryan bolşevik drujinasının fəal üzvləri idi.[2, s.69] Drujinanın yerləsdiyi və təlimatlandırıldığı yer də drujinanın komissarı təyin edilən erməni Martikyanın evi idi. Çox zaman drujinanın Qvardiya ilə birlikdə "Bomond" mehmanxanasının həyətində təlim keçirdi. Qvardiya ilə müqayisədə drujinada daha ciddi nizam intizam drujina Bakı Komitəsinin dayağı hesab olunurdu. Bir qayda olaraq "əgər HİK hər hansı hərbi tapşırıq üçün dəstə göndərirdisə, onun hər 100 nəfərindən 20-25- i drujina üzvü olmalı idi." [2,s.76] Bolşevik rəhbərliyi ən mühüm işləri drujinaya həvalə edirdi."[5,s.61]Məsələn, Ovçiyan adlı "qırmızı qvardiyaçı"özünün də iştirak etdiyi "Evelina"gəmisinin tərkisilah edilməsi kimi mühüm işdə Anançenkonun başçılığı ilə drujinanın iştirakını göstərir. [2,s.333]

Mart öncəsi Sovetin hakimiyyətinin hərbi güçünü aydınlaşdırmaq məqsədilə bir məsələni də qeyd etmək yerinə düşərdi. Beləki, 1918- ci ilin yanvarın 15-də Rusiya Xalq Komissarları Soveti Fəhlə kəndli Qırmızı Ordusu yaradılması barədə qərar vermişdi. [14, s.56] Bu artıq nizamı ordu hissələrinin yaradılması prosesi idi.

Mərkəzin bilavasitə göstərişləri əsasında Bakıda da bu işin təşkilinə başlanmışdı. Onun əsas hissəsini rus ordusunun tərxis olunan əsgərləri təşkil edirdilər. [8,s.105] Məhz bu dövrdə, Bakıya cəbhədən qayıdan erməni əsgərləri toplaşmaqda idilər. Nəticədə, erməni əsgərləri Qımızı Ordu əsgərlərinə çevrilməkdə idi. Beləliklə, mart hadisələri ərəfəsində bolşevik nizami ordusunun hələ tam formalaşmadığı, Qvardiyanın isə zəif olduğu şəraitdə "öz rəqibini "məğlub etmək üçün bolşeviklərə məhz daşnak hərbi dəstələri "kömək" edəcəkdi.

Beləliklə, Erməni Milli Şurasının təlimatı ilə erməni-daşnak ordularının fəal şəkildə milli qırğın həyata keçirməsi fonunda Qvardiya və bolşevik drujinası"döyüşlərdə"necə iştirak edirdi?

Əvvəla onu qeyd edək ki, "Evelina" gəmisinin tərkisilah edilməsini Qırmızı Qvardiya (bunun konkret olaraq erməni Qırmızı qvardiyası olduğu da göstərilir.[17]) və bolşevik drujinası həyata keşirirdi və ermənilər məhz onların tərkibində idi. Hadisələrin ilk günündən qvardiyaçı ermənilər (təbii ki, ilk növbədə onların daşnak dəstələri- A.Ə) artıq Erməni Milli Şurasının sərancamında idilər. Erməni qvardiyaçısı öz xatirəsində özünün Bakı Soveti İK-sı və şəxsən Solntsev tərəfindən Erməni Milli Şurasının sərəncamına göndərildiyini qeyd etməsi də, [25,v 1]həmin fikri təsdiq edir. Metropol (indiki Ədəbiyyat muzeyinin binası) mehmanxanasına erməni nümayəndələri ilə görüşməyə gedən azərbaycanlı nümayəndə heyətini erməni qvardiyaçıların qarşılamsı [18]eyni səbəbdən idi. Həm də, Erməni Milli Şurası açıq şəkildə bolşeviklərin tərəfində çıxış edirdi.

Qvardiya və drujina dəstələri demək olar ki, çiyin-çiyinə vuruşurdular. Onlar, əsasən, şəhərin ermənilər və ruslar yaşayan şərq tərəfində döyüşürdülər.[2.s.114] Hadisələrin fəal iştirakçısı olan drujinaçı Ovçiyan yazır ki, mart döyüşləri zamanı drujina hücum əməliyyatlarına rəhbərliyi öz əlinə keçirmişdi.Drujinya Mariinski (indiki R.Rza) küçəsində mövqe tutaraq Parapet (Nizami) meydanı tərəfdən gələ biləcək müsəlmanların qarşısını almaq həvalə olunmuşdu. (15,s.15) Eləcə də, "Metropol" mehmanxanasında, Kaspi redaksiyası yaxınlığında, Nikolayevski (İstiqlaliyyət)küçəsində, Nikaolayevski və Bazarnı (Azərbaycan prospekti) küçələrinin tinində və mərkəzlərindədrujinaçıların idarə etdikləri pulemyotlar qoyulmuşdu. [2,s.77]HİK-ni də drujina qoruyurdu.İçərişəhərə hücumda iştirak edən drujinaçıların adları diqqəti cəlb edir: Ovçiyan, Qalustiyan, Sarkis, Qaber-Korn, Artak, Manuçarov,Akopov, Anançenko, Mirzatuniyev.[2,s.76]İçərişəhərə hücumda Mikoyanın başçılıq etdiyi drujina dəstəsinin "qəhrəmanlıq"larından bir çox xatirələrdə, xüsusilə bəhs edilir.(s.47) Qeyd edək ki, S.Şaumyanın oğlu Levon da həmin dəstədə idi.

Mədən rayonlarında gedən döyüşdə qvardiyaçılar,belə demək olarsa, xüsusilə fərqlənirdilər. Məsələn, onlar Bayıl-Bibiheybət yonu qoruyaraq hər vəchlə mədənlərə yolu bağlamağa çalışırdılar. Bu həm də o istiqamətdə müsəlman əhalisinin təcridinə xidmət edirdi. Başqa bir qvardiya dəstəsi, onun fəallarından biri Qukasyanın dediyinə əsaslansaq, Balaxanı mədənləri tərəfdən hücum edərək Sabunçu milisinin silahlarını ələ keçirməklə həmin istiqamətdə vuruşmuşdu.[2,s.88]

Qeyd edək ki, HİK-dəki bolşeviklər hadisələri idarə edərkən məhz öz mövqelərinin möhkəmlənməsində maraqlı idilər. Ünutmaq lazım deyil ki, həmin vaxt üçün Bakıda bolşevik hakimiyyətinin möhkəmləndirilməsindən söhbət gedirdi. Qırğın gedə-gedə bolşeviklər əldə edilən var-dövlətin öz əlində cəmlənməsinə çalışırdı. Çünki, bolşeviklərin sərbəst siyasəti üçün bu da mühüm şərtlərdən biri idi. Bu səbəbdən idi ki, Rekord və Edison kinoteatrında və Mailov teatr binasında daşnaklar tərəfindən əsir kimi saxlanılan müsəlmanlardan varlıları ayıraraq Məlikovun evinə toplamaq və onların əmlak və var-dövlətinin müsadirəsi işi də məhz bolşevik drujinasına tapşırılmışdı. [2,s.334]

Lakin bütün qeyd olunanlarla yanaşı Qvardiyanın və drujinanın Mart soyqırımında iştirakı birmənalı qiymətləndirilməməlidir. Belə ki, Fövqəladə Təhqiqat Komissiyasının topladığı şahidlik ifadələrində erməni vəhşiliklərinin təsvirləri arasında rus əsgərlərinin və ya ,rus qvardiyaçıların müsəlmanları ermənilərin əlindən xilas etmələrini təsdiqləyən xeyli ifadələr var. [13,s;81,88, 104, 119, 120,121,134,145, 147, 152] Bu zaman həmin rusların çox vaxt hardansa ortaya çıxmaları deyil, ermənilərlə bir dəstədən olması görünür. Bu hal isə, söhbətin çox ehtimal ki, qvardiya və ya drujina dəstələrindən getdiyini göstərməkləeyni zamanda həmin dəstələrin qırğında "fəallığ"ını nümayiş et-

dirir.İfadələrdən aydın olur ki, qvardiya daxilində ermənilər üçün baş verənlər milli düşmənlə mübarizə idisə, ruslar üçün bu vətəndaş müharibəsi idi. Qırgın zamanı Qvardiyanın tərkibindəki ruslarla müqayisədə ermənilərin elə daşnak ordularındakılar kimi qarətlə məşğul olmalarını sonrakı dövrlərdə elə erməni bolşeviklərinin özləri təsdiqləyir. Belə ki, Mantaşev ləqəbli Petrosov qvardiyaçıların fəaliyyətindən bəhs edərkən, xüsusən, ermənilərlərin qarətlə məşğul olduqlarını etiraf edir.[2,s.379]

Ümumiyyətlə, bolşeviklərin öz xidmətlərini şişirtmələrini xüsusiyyətini nəzərə alsaq belə, qvardiya və drujina dəstələrinin mart günlərində əvvəldən axıradək Azərbaycan milli qüvvələrinə qarşı vuruşduğu aydın idi. Mart hadisələri ərəfəsində tədqiqatlarda göstərilən 3000-dən cox qvardiyaçının olmasını fikrini, eləcə də,qüvvələrin sayı barədə Şaumyanın dediyi rəqəmləri əsas götürsək, Qvardiyanın "döyüşlər"in gedişinə kifayət qədər ciddi təsir etdiyi aydın olar.

Amma bu da fakt idi ki, soyqırım xarakteri daşıyan "vətəndaş müharibəsi"nin miqyası və dəhşəti haqqında bəhs olunan dəstələrdəki qeyri-ermənilərin müəyyən hissəsini həmin an üçün də olsa, hücumçudan müsəlmanların müdafiəçisinə çevirmişdi. Qvardiya və drujina üzvlərinin bir çox hallarda yekdil çıxış etməməsi isə baş verən hadisənin xarakteri ilə bağlı idi.

Sonda onu da qeyd edək ki, sonradan Qafqaz Qırmızı Ordusunun tərkibinə keçəcək Qırmızı Qvardiyaöz "döyüş təcrübəsi"ni Azərbaycan xalqına qarşı soyqırımda iştirak etməklə qazanmış oldu. Çünki, bolşeviklərin öz etiraflarına görə, hələ marta qədər Qvardiya intizamsız və zəif idi. Qvardiyaçılar ideya və vəzifələrini başa düşmürdülər.[26,v.70] Fəhlələri qvardiyaçı olmağa sövq edən amil isə inqilabı müdafiə deyil, çox vaxt mütləq maaş və ərzaq payı almaq istəyi idi.Həm qvardiyanın, həm də bolşevik drujinasının mart hadisələrinədək hərbi xidməti "neft mədənlərini, zavod, fabrik,bank, partiya və sovetin idarələrini qorumaq"[8,s.102]dan ibarət idi.Onlar mart hadisələrinə qədər hərbi işi tələsik keçirilən təlimlər səviyyəsində mənimsımişdilər.

1918-ci il aprel ayının 15-də tamamilə yeni siyasi şəraitdə Bakı Sovetinin Qırmızı Ordusu (Qafqaz Qırmızı Ordusu) yaradılmağa başlanılır. Qafqaz Ordusu HİK-in qərarı ilə bütün Qırmızı Qvardiya, partiya drujinaları və başqa hərbi birləşmələrı Qırmızı Ordunun nizami batalyonlarına çevirmək qərarı verilir. [10,s.110]"

İstifadə olunmuş mənbələr və ədəbiyyat.

1. Azərbaycan xalqına qarşı 1918- ci il mart soyqırımı.Sənədlər toplusu.(üç cilddə), I cild 26 Bakı komissarlarının əsl tarixi". Bakı, «Çaşıoğlu», 2009
2. Azərbaycan xalqına qarşı 1918- ci il mart soyqırımı.Sənədlər toplusu.(üç cilddə), III cild Xatirələr. Bakı, «Çaşıoğlu», 2012.
3. Azərbaycan tarixi. V cild. Bakı, «Elm», 2001.
4. Азимов. Г. Бакинская коммуна. Баку, «Гянджлик, 1982.
5. Алый стяг над Закавказьем:Воспоминания ветеранов партии. Баку, «Азернешр»,1980.
6. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг. Баку, «АзГИз»,1957.
7. Дарабади. П. Бакинская красная гвардия в 1917-1918 годах// Известия Академии Наук Азербайджанской ССР. (Серия истории, философии и права), 1981, №1
8. Дарабади. П. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку. « Элм», 1991
9. İbrahımov. Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərini mübarizəsi. Bakı, 1957.
10. Исмаилов. К. Военный организатор геноцида азербайджанцев Григорий Николаевич Корганов.//Геноцид азербайджанского народа 1918 года. Организаторы и палачи. Баку, ИПО Турхан, 2013,
11. Исмаилов.Э. Степан Шаумян- обреченный на забвение. Баку, 2012.
12. Ратгаузер.Я. Революция и гражданская война в Баку. Часть первая, 1917-1918г. Баку,1927.
13. Рустамова-Тогиди.С. Март 1918 г.Баку. Азербайджанские погромы в документах. Баку, 2009.
14. Самойлов. А.Д. Красная Гвардия в борьбе за власть советов. Москва. «Знание», 1987.
15. Шаумян.С.С Бакинская коммуна. Баку,«Красный Восток»,1927.
16. Şaumyan.S.Seçilmiş əsərləri.Bakı, 1978.
17. Азербайджан 1919, 30 марта, №68

18. Азербайджан 1920, 31 марта, № 65
19. Бакинский рабочий 19171 ноября №73
20. Бакинский рабочий 1923, 20 сентября ,№ 212
21. Бакинский рабочий 1928 18 сентября,№231
22. Бакинский рабочий 1931 31 марта, №73
23. Известия Совета рабочих и военных депутатов Бакинского района, 1918,21 января№16
24. Знамя труда, 1917,26 ноября №45
25. ARPİİSSAF 268,S.23 İş,101.
26. ARPİİSSA F,276, S,2, İş,22.

К ВОПРОСУ ОБ ОРГАНИЗАЦИИ КРАСНОЙ ГВАРДИИ И БОЛЬШЕ ВИСТСКИХ БОЕВЫХ ДРУЖИН В БАКУ И ИХ УЧАСТИИ В МАРТОВСКОМ ГЕНОЦИДЕ (НОЯБРЬ 1917 - МАРТ 1918)

Резюме

В условиях нарастания политической борьбы большевики для укрепления своей власти в Баку, уже в ноябре 1917 года приступили к организации своих вооруженных отрядов. В этих целях создавались отряды Красной гвардии из рабочих промысловых районов города. Хотя в их составе были сторонники различных партий, численное превосходство было на стороне армян. Этот фактор оказался решающим в мартовских событиях, во время которых азербайджанцы подверглись массовому истреблению. Участие армян-красногвардейцев в резни подтверждаются свидетельскими показаниями очевидцев погромов и косвенными признаниями большевиков. В отличие от армян, красногвардейцы русской национальности в некоторых случаях старались как-то помешать армянам свершить зверства против мирных азербайджанцев. В мартовских событиях активно участвовали также боевые дружины большевиков, в рядах которых также было много армян.

Отряды красногвардейцев и боевые дружины большевиков в дальнейшем вошли в состав Кавказой Красной Армии. Эти отряды первый свой «боевой опыт» получили, приняв активное участие в геноциде против азербайджанского народа.

THE ORGANIZATION OF RED GUARDS AND BOLSHEVIK DETACHMENTS AND THEIR PARTICIPATION IN MARCH GENOCIDE (NOVEMBER 1917 - MARCH 1918)

Summary

Since November 1917, the Bolsheviks in an atmosphere of intense political contradictions in order to consolidate their power in Baku began to accelerate the work over the organization of armed groups.For this purpose, in oil field districts were organized the Red Guard groups which included workers as well. This Guard in which Azerbaijani workers were in minority gathered a large number of Armenians - the followers of various parties - Bolsheviks, members of Socialist Revolutionary Party, Mensheviks and Dashnaks. This aspect manifested its negative influence in the genocide committed against the Azerbaijani people in Baku. Thewitnesses of genocide and Bolsheviks confirm the participation of Armenians in the guard in the plunders and massacres. Unlike the Armenians Russians in this Guard, on the whole, tried to stop the massacre of Azerbaijanis. Bolshevik detachments which had a great number of Armenians in its rows were also “active participants” of the March events. The Red Guard and Bolshevik detachments that later were included to the Caucasus Red Army had gained their battle experience by participating in the genocide against the Azerbaijani people.

Rəxşəndə Bayramova
AMEA A.A.Bakıxanov adına tarix İnstitutunun dissertantı

QUBA QƏZASINDA TÜRK-MÜSƏLMAN SOYQIRIMI

Açar sözlər: 1918-cı il qırğınları, soyqırım, Quba soyqırımı, Gelovani, Hamazasp, erməni vəhşiliyi, terror, qətliam, daşnak

1918-ci ilin martında Bakı şəhərində azərbaycanlıların soyqırımını təşkil edən Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyi öz hakimiyyətini bütün Azərbaycanda bərqərar etmək üçün fəal hərəkətlərə keçdilər. Bakı Quberniyasının Bakı, Şamaxı və Lənkəran qəzalarından sonra Quba qəzası sovetlərin hakimiyyətinin qurulması üçün növbəti məkan oldu. Bakı XKS qəzanı siyasi yolla özünə tabe etdirmək qərarına gəlmiş, qəza əhalisinə Sovet hakimiyyətini könüllü tanımağı təklif etmişdir. Bu məqsədlə Şumyan tərəfindən təcrübəsiz və təsdüfi bir şəxs - David Aleksandreviç Gelovani Quba qəzasına göndərilmişdi. Gürcü knyazlarının nəslindən olan 30 yaşlı Gelovani menşevik partiyasının üzvü olmuş, siyasi əqidəsinə görə sürgün edilmiş, Oktyabr çevrilişindən sonra azadedildikdən Qafqazda qalmışdı.

Gelovani Qubaya gəldikdən sonra dərhal iclas keçirmiş, iclasa qubalı nümayəndələrlə birlikdə şiə icmasının nümayəndəsi kimi Hacı Baba Axundzadə, sünni icmasının nümayəndəsi kimi isə Əbdülrəhman Əfəndi İmamı dəvət olunmuşdu. Ruhanilərə bolşevizmin əsas ideyaları barədə məlumat verilmiş və hər ikisindən bu məsələyə şəriət qaydalarına görə necə yanaşıldığı soruşulmuşdu. Dindarlar isə bu ideyaların şəriətə qarşı olmadığını bildirmişdilər. (62, v.118-119; 245, s.198-199). Bu iclasdan sonra əhalini meydana yığan Gelovani qubalılardan 2 saat ərzində Sovet hakimiyyətini tanıyıb tanımadıqları barədə cavab vermələrini tələb etdi. Şəhərin nüfuzlu şəxsləri kəndlərin sakinləri ilə razılaşmaq üçün bir az vaxt verilməsini xahiş etsələr də Gelovani qəti etiraz etmiş və razılıq əldə olunmasa teleqrafla Xaçmazdakı eşalonu çağıracağını və şəhəri dağıdacağını bildirmişdi.. (62, v, 41-43; 245, s.183-185) Daha sonra Qubada müəyyən hadisələr narazılıqlar baş verir və məcburi surətdə Gelovani Qubanı tərk edir.

Gelovani Qubanı tərk etdikdən sonra qəzada nisbi sabitlik yaranmış, ona görə də ətraf ərazilərdən və Dağıstandan yadelli düşmən qüvvələrlə mübarizəyə qoşulmuş könüllülər öz evlərinə qayıtmışdılar. Buna görə də əslində Hamazasın başçılığı altında Qubaya cəza dəstəsinin göndərilməsi qubalılar üçün bir qədər gözlənilməz olmuş və ciddi müqavimət təşkil etmək mümkün olmamışdı.

Qubanın tutulması ilə bağlı Gelovaninin Şaumyana yolladığı teleqramda uzunluğu 140 verst olan Zaratdan Vladikə qədər dəmir xəttinin və Şollar su kəmərinin qorunması üçün dəstə ayrıldığını bildirir. Gelovaninin tələbi qarşısında Quba şəhəri və ətraf kəndlərin sakinləri yeni hakimiyyəti tanısalar da uzaq kəndlərin sakinləri bolşeviklərə tabe olmaqdan imtina etmişdilər. Həmin gün Gelovani özünü Quba qəzasının komissarı elan edir. D.Gelovaninin təklifi qəbul edildikdən sonra cərəyan edən hadisələr haqqında şəhər başçısı olmuş Ə.Əlibəyov izahatında göstərir ki, sovet hakimiyyətini tanıdıqdan sonra Xaçmaza gedən Gelovani altı gündən sonra silahlı dəstə və pulemyotlarla yenidən Qubaya qayıdır. Dəstə ruslar, yəhudilər və ermənilərdən ibarət idi, axırıncılar üstünlük təşkil edirdilər. Dəstənin başında poruçik Ağacanyan dururdu O, həm də pulemyotçuların rəisi idi.

Gelovani Qubaya gəldikdən sonra yerli qüvvələr qəzada nüfuzlu şəxs olan Əlibəy Zizikski başda olmaqla Qusara çəkildilər. Qubanın tutulması ilə bağlı Gelovaninin Şaumyana yolladığı teleqramda da onların şəhərdən getdikləri bildirilirdi.. Novatski Fövqəladə Təhqiqat komissiyasına təqdim etdiyi hesabatında bildirir ki, bir neçə gün sakit keçdi. Birdən qubalılar üçün gözlənilmədən ətraf kəndlərdə yaşayan ləzgilər dağlar tərəfdən şəhərə yaxınlaşaraq Gelovaniya şəhəri tərk etməyi, əks halda dəstəsi ilə birlikdə əsir düşəcəklərini bildirirlər. Gelovani isə öz növbəsində bu təklifi rədd edir.

Qeyd etmək lazımdır ki, yerli qüvvələr arasında möhkəm birlik mövcud idi. Bir fakt da danılmazdır ki, qəza sakinlərinin bolşeviklərə rəğbəti yox idi, ümumiyyətlə bolşeviklər və onların ideyaları sadə xalq üçün yad qəbuledilməz idi. Sakinlər milli qüvvələri müdafiə edir, evlərinin pəncərələrindən, damlarından işğalçılara atəş açır, çox hallarda isə silahsız, kortəbii şəkildə mübarizə apar-

maq üçün küçələrə çıxırdılar. Sakinlərin bolşeviklərə olan mənfi münasibətini sonradan bolşeviklərin özləri də qeyd edirdilər.

Gelovaninin, Hamazaspın dəstələrinin Qubaya gəlməsi, ümumiyyətlə qəzada soyqırım hadisələrinin baş verməsi ilə bağlı mənbələrdə müxtəlif tarixlər göstərilir. Ümumiyyətlə Hamazsp türk-müsəlmanlara nifrət edirdi. Bu erməni komandırı-cəllad Hamazasp hələ daha öncələr osmanlı imperiyası ərazisində bir çox yerli sakinləri qirmiş və dəfələrlə orada terrorlar törətmişdi.

Bakı quberniyasının digər ərazilərində olduğu kimi, Qubada da milli hərəkata divan tutmaq və burada öz hakimiyyətini qurmaq üçün Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyi qəzada öz hakimiyyətlərini bərpa etmək üçün buraya ikinci dəfə hərbi qüvvə, bu dəfə Hamazaspın rəhbərliyi ilə yalnız ermənilərdən ibarət cəza qüvvəsi göndərmək qərarına gəldi. Hamazaspın özü dəstəsinin cəza məqsədi ilə Qubaya göndərildiyini inkar etmirdi: «mən erməni xalqının qəhrəmanı və onun müdafiəçisiyəm. Sovet hakimiyyəti tərəfindən mən buraya cəza dəstəsi ilə göndərilmişəm ki, burada iki həftə əvvəl öldürülmüş ermənilərin intiqamını alım. Mən buraya qayda-qanun yaratmaq və Sovet hakimiyyəti qurmaq üçün deyil, Türkiyədə və Qarabağda öldürülmüş ermənilərin intiqamını almaq üçün göndərilmişəm» .Hamazaspın bu sözlərini bu və ya digər formada Qubada onunla görüşə gətirilmiş əksər şahidlər təsdiq etmişlər. Şahid ifadələri və mənbələr Hamazaspın Qubaya məhz azərbaycanlı əhalini cəzalandırmaq məqsədi ilə Şaumyan tərəfindən göndərildiyi təsdiq edir. Bu hadisələrdən sonra Bakıya gedərək qəzada Hamazaspın törətdiyi cinayətlər haqda Bakı Sovetinin rəhbərliyinə məlumat vermək və sovetin Quba ilə bağlı gələcək planları haqda məsələni aydınlaşdırmaq üçün Şaumyan və Caparidze ilə görüşmüş Ə.Əlibəyov söyləyirdi ki, Şaumyan məni dinləyəndən sonra gülümsəyərək dedi ki, müsəlmanlar və türklər yüz minlərlə erməni öldürüblər. Ermənilər isə Qubada iki müsəlman öldürüblər. Buna görə də müsəlmanlar şikayət edir və göz yaşları tökürlər.

Gelovani də Qubaya ermənilərdən ibarət cəza dəstəsinin göndərilməsinin təşəbbüskarının məhz Şaumyan olduğunu təsdiq edirdi: "Hamazaspının dəstəsində bir nəfər belə rus yox idi, hamısı erməni və daşnak idi. Zənnimcə, cəza dəstəsi Qubaya Şaumyanın arzusu ilə göndərilmiş, lakin qoşunların seçilməsi hərbi nazir Korqanovdan asılı idi". Hələ Quba şəhərinə çatmamış erməni quldur dəstələri öz yolları boyunca dinc əhalinin yaşadığı kəndləri yandıraraq dağıtmağa başlamış, kütləvi qırğınlar törətmişdilər. Harınlamış ermənilər qocalara, uşaqlara, qadınlara belə aman verməyərək qabaqlarına çıxan bütün müsəlmanları qılıncdan keçirmişdi.

Bildirmək lazımdır ki, Quba qəzası ərazisində yaşayan ermənilərə qarşı yerli sakinlər həmişə dostca münasibət bəsləmiş və yerli sakinlər onlara qarşı dözümlülük nümayiş etmişlər. Hətt həmin ilin mart ayında Bakıda hadisələr baş verərkən qubanın baş axundu Axundbaba bir neçə günlər bir şəhərdə yaşayan erməni qız və qadınlarını evində saxlamış və onların təhlükəsizliyini təmin etmişdi. Lakin onlara göstərilmiş bu xoş niyyətə qarşılıq olaraq qəzada yaşayan ermənilərin demək olar ki, hamısı Amazasp dəstəsinə yaxından kömək etmiş və silahlı döyüşçü kimi dinc müsəlman sakinlərə qarşı soyqırımın törədilməsində iştirak etmişlər. Bununla bağlı şahid ifadələrini təqdim etmək məqsədəuyğun olardı:

Qeyd edək ki, soyqırım və talanlarda iştirak etmiş qəza sakinləri olan ermənilərin bir qismi komissiya tərəfindən müqəssir hesab edilmiş və onlara qarşı 13, 129, 927, 1630, 1633, 1634, 1453 və 1507 maddələri ilə cinayət işi qaldırılmışdır. Bunlar Quba sakinləri Arutyan Ayrepetov, Dəllək Cavad Arutyunov, Avakov, balıq sənayeçisinin oğlu Avakov, Əmircanovun tələbələri, tacir Mirzə Əmircanovun bacısı oğlu, Mirzə Əmircanov, Meyxanaçı Məlikov, Qriqoriyanın oğlu Vartan, Mirzəcanın nəvəsi Arutyun, Arutyun- dəyirman sahibi, Vartan Avakov, Arutyun baba oğlu, Aleksandr Mukasyans, Tatevos Yaqub oğlu, Babacan oğlu və Arutyun Karapet oğlu, iki oğlu və bacısı oğlu idi. (10, səh 159-161)

Şahid ifadələrinə görə Quba ermənisi Hartun Hayrapetov qabaqcadan Qubanın nüfuzlu və tanınmış şəxslərinin siyahısını tərtib etmiş sonra müsəlmanların qarşısında oxumuşdur.Həmin siyahıda Qubanın mülkədarlarından Əlibəy Ziziksikinin, Məhəmməd Qayıbalıyevin, Nuräli Həsənbəyovun, Bəkər Məhərəliyevin, Əhməd əfəndinin, Qazı Əhməd bəy Məhəmmədbəyovun, Səttar Məmmədyarovun, Hidayət Əmirbəyovun, Qafar Orucovun, Yusuf bəy Abusalambəyovun, İsgəndər Abdullayevin, Mirzəməhəmmədin, Mahmud Qazıbəyovun, İbrahim bəyin və başqalarının adı var idi. **(7,** səh 40)

Mayın 1-də üç tərəfdən şəhərə girən işğalçılar qətllər və talanlara başladılar. Elə birinci gün şəhərin aşağı hissəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 715 müsəlman öldürülmüş, Böyük Şosse və Bazar küçələri dağıdılmışdı. Dəstə şəhərə girdikdən sonra dörd hissəyə bölünmüş və qərargahlar yaratmışdı: birinci qərargah Leontyev bağının yanında, ikincisi erməni kilsəsinin həyətində, üçüncüsü dağda, müsəlman qəbristanlığının yaxınlığında, dördüncü, mərkəzi qərargah isə Yəhudi qəsəbəsinin təpəsində yerləşdirilmişdi. Ermənilərin vəhşilikləri sonrakı günlərdə də davam etmiş, ikinci gün 1012 nəfər dinc sakin qətlə yetirilmişdi. Şəhər əhalisinin nümayəndəsi kimi Hamazaspnın yanına gələn Ə.Əlibəyov ondan həlak olanları dəfn etmək üçün imkan yaratmağı xahiş etsə də onun xahişi rədd edilmişdi Hamazasp onun yanında öz əsgərlərinə müraciət edərək qətl və talanları dayandırmağa çağırsa da, Ə.Əlibəyovun da vurğuladığı kimi, bu çağırış səmimiyyətdən uzaq idi və əsgərlərin onun sözlərini əks mənada qəbul etmələrinə hesablanmışdı. Hamazasp dəfələrlə edilmiş müraciətlərə baxmayaraq öldürülmüş müsəlmanların meyidlərinin küçələrdən yığışdırılmasına və dəfn edilməsinə icazə verməmişdi. Məqsəd də aydın idi - əhalini qorxutmaq. Zorakılıqlar, qətl və qarətlər 9 gün davam etmiş, şəhər əhalisinin bütün əmlakı talan edilmişdi. Ermənilər şəhəri tərk etdikdən sonra aparılmış ilkin hesablamalara görə şəhərdə 2 minə yaxın müsəlman qətl edilmiş, 105 ev yandırılmış, 4,5 mln, rubl dəyərində qızıl-zinət əşyaları oğurlanmış, 10 mln rubl dəyərində mal-mülk məhv edilmişdir.

Ümumiyyətlə şəhər sakinlərinin bir qisminə dəstənin gələcəyi barədə xəbərdarlıq edilsə də dinc sakinlərin öldürüləcəyi kimsənin ağlına belə gəlməmişdir. "Ermənilər şəhərə xəbərsiz girdilər və sakinləri qadın, kişi və uşaqlara fərq qoymadan öldürməyə başladılar". Bir şahid izahatında bildiridir: " Kim küçədə görünürdüsə o həmin an öldürülürdü".

Qaça bilmiş şəhər sakinləri qaçqın vəziyyətində ac-susuz çöllərdə gecələyirdilər. Ətraf kəndlərin sakinləri onlara köməklik göstərir, evlərindən bir tək üst geyimi ilə qaçmış sakinlərə müxtəlif ərzaq məhsulları və yemək verirdilər. Quba şəhər sakini Məşədi Həmdulla Əliyev göstərmişdi ki, hadisələrdən iki həftə keçdikdən sonra bizə bildirdilər ki, şəhərin 5 verstliyində erməni dəstəsi var və şəhərə gəlir. Kimin qaçmaq imkanı vardısa qaçdı amma sakinlərin çoxu qaldı. 1 may tarixdə dəstə Qubaya girdi, top və pulemyotlardan atəş açıldı, şəhər dağıdılmağa və yandırılmağa başladı.

Göründüyü kimi, Hamazasp dəstəsi gələn günün səhərisi xalq arasında "Qanlı dərə" döyüşü adlandırılmış dəhşətli döyüş baş vermişdir. Qırmızı qəsəbə ilə Digah arasında "Dərin dərə" deyilən yerdə həqiqətən də qanlı döyüşlər olmuşdu.

Dəvəçi- Bazar və Qızıl- Burun istiqamətində yerli əhali tərəfindən ermənilərin qarşısına duzçörəklə göndərilmiş 15 ağsaqqala, duz-çörəyə məhəl qoyulmamış və barışığa gələnlər qəbul belə edilməmişdilər. Şahidlərin bildirdiklərinə görə Dəvəçi Bazar və Qızılburun kəndlərinin həmin 15 nəfər ağsaqqalı erməni cəlladları tərəfindən yerindəcə güllələmişdilər.

Eyni hal qəzanın başqa bir neçə kəndində də təkrarlanmış və ermənilər əsil simalarını nümayiş etdirərək dinc sakinlərin qanına qəltan etmişlər. Məsələn, Dəvəçinin kəndxudası 40 yaşlı Şaban Sərkər oğlu bildirmişdir ki, kənd sakinlərinin çoxu qaçmağa imkan tapmamışdı və çarəsiz qalan sakinlər ağ bayraq qaldırsalar da onlardan 40 nəfəri öldürülmüşdü.

Din ocaqlarını yerlə-yeksan edən daşnaklar dinə, şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları da məhv etmişdilər. Qubanın mərkəzində Əbdürrəhim əfəndinin mədrəsəsini yandıran ermənilər buradakı 1300-ə yaxın kitabı tonqala atmışdılar. Əbdürrəhim əfəndi xatirələrində göstərmişdi ki, "bolşeviklər Qubadan qovulandan sonra mədrəsədəki kitabların 3 minə qədərini Məhərrəmxürdəki (Məhərrəmkənddəki) evimə apardım. Amma 1300 kitabım Qubada qaldı. Onları ermənilər mədrəsə qarışıq yandırmışdılar". 48. deyiləməlumatlara əsasən Digah məscidində təxminən 600-700 il əvvələ aid, alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi.Ermənilər həmin kitabları məhv etməklə yanaşı, kənd məscidinintəxminən bir kilometrliyində yerləşən pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan çox nəhəng daş idi. (7, səh 48) Fövqəladə Təhqiqat komissiyasının sənədlərindən məlum olur ki, Digah məscidində qızıl suyuna çəkilmiş çoxsaylı Quran kitabları yandırılmışdır.

Hamazaspın və onun dəstəsinin bolşevik ideologiyasına bağlı olan müsəlmanlara belə güzəşt etmədiyi, onlar üzərində də zor tətbiq etdiyi və ümumiyyətlə bolşevik ruhundan uzaq olduqları həmçinin milli ədavət apardıqları barədə bolşeviklər də məlumat vermişlər.

Qaniçən vəhşi dəstə üzvləri qəzada olduqları 9 gün ərzində saysız surətdə müsəlman qadınlarına sataşmış, zor tətbiq edərək onların şərəf və ləyaqətlərini alçaltmışdılar. Fövqəladə komissiyaya

izahat verən şahid ifadələrinin təxminən yarısında qeyd olunan məsələ barədə məlumatlar öz əksini tapmışdır.İzahatlardan bəzilərinə fikir verək:

Quba sakini feldşer Məşədi Həmdulla Əliyev: "Dəqiq bilirəm ki, Muxtar Məmmədoğlunun evinə yerləşən ermənilər onun 2 qızına, Həbib Vahab oğlunun və onun qardaşı Xəlilin arvadlarına təcavüz ediblər. Təcavüz olunmuş qızlar haqqında geniş məlumatı Molla Hacı Baba Axundzadə verə bilər. O, ermənilər tərəfindən tacavüzə uğramaqları barədə həmin qadınlara vəsiqə verib." (10, səh 183-185).

Əli Paşa Kərbalayı oğluna tapşırılır qız gətirsin.(10, səh 187-189) Hətta Amazasp meydanda çıxış etdiyi vaxt (gəlişlərinin 9-cu günü- rəx) ermənilər Dəmirçi Məmmədəlinin evinə daxil olub atasının ölümünə ağlayan qıza təcavüz edirlər qışqırıq səslərini hətta meydandakılar belə eşitmişdilər. (10, səh 187-189)

Quba şəhər sakini 42 yaşlı Məşədi Sultan Əsgərov bildirir: "Onlar 100-dək qıza təcavüz ediblər, adlarını və familiyalarını çəkə bilmərəm çünki valideynlər və qohumları gizlədirlər. Bu qızlardan çoxu hamilə qalmış, ölmüş, çoxları isə sağdır. Əsasən qadınlara təcavüz Hacı Məhəmməd Qasım Hacıağa Rəhim oğlunun evində törədilib. Hadisələr törədilən zaman qadınlar orada gizlənmişdilər.

Novatski 22 dekabr 1918-ci il tarixli protokolunda qeyd edir ki, onun yanına 2 nəfər gəlib təcavüz olunan qız barədə məlumat vermişdir. Rza Qulu Bağırov: "Məndə məlumat var ki, yetim əmimoğlunun qızı 12 yaşlı Mələk Ələvsət qızı Amazasp dəstəsinin üzvləri tərəfindən təcavüz olunub, 2 həftə hissiyyatsız və huşsuz qalıb. (10, səh 139-140)

Bir şahid bildirmişdir ki, nə edəcəyimizi bilmirdik. Qadınlar və uşaqlar ağlayırdılar. Yekəpər bir erməni beş nəfərlə camaata yaxınlaşıb, cavan, gözəgəlimli qadınları seçməyə başladı. Çoxusu cavan qızlar və gəlinlər idi. Uşaqlı qadınlarda var idi. Uşaqları tüfənglərin qundaqları ilə döyüb ayırdılar. Əllidən çox qadın hara isə apardılar. Onlardan birinin qardaşı etiraz edəndə onu güllələdilər. Bazar küçəsində yaşayan Əkbər adlı oğlan idi. Onun meyidini yerə sərib bıçaqla gözlərini çıxardılar. əli qana batmış erməni ovcunda tutduğu gözləri camaatın üstünə tulladı. Kütlədən uğurtulu səs qopdu. Daşnaklar ermənicə söyə-söyə qabaqdakıları qundaqla döydülər. Sonra irəli çıxmış bir yaşlı kişinin qarnını süngü ilə deşik-deşik etdilər. Bu, göz ilə baxılası müsibət deyildi. (7, səh 43)

Şahidlərin qadınlarla bağlı söhbətlərindən görünür ki, ermənilər şəhərə girəndə bir çox ailələr qadınları və uşaqları gizlətmək üçün meşələrə qaçmış və orada gizlədilmişdilər. 300-dən çox qadın və uşaq Qudyal çayının sahilindəki meşədə, indi "Qız bənövşə" adlanan yerdə sığınacaq tapmışdı. Yerli adamların, xüsusən yaşlıların yaddaşında "Qız bənövşə" həm də "Qızlar bulağı", "Qəmər bulağı" kimi qalıb. Burada ermənilər qızları qətlə yetirmişdilər.(7,səh50)

Ermənilər tərəfindən öldürülən 300 nəfərin 51 qəbirdə basdırıldığı barədə də arxiv materialları mövcuddur.(10, s.203-204, 229).

Bu ağlagəlməz və insan təfəkkürünün qəbul edə bilmədiyi dəhşətlərin şahidi olan insanların bir qismi sonradan qorxudan ölmüş və ya kar, kor və lal olmuşlar. Komissiyanın bir neçə sənədinə nəzər yetirək:

Quba şəhər sakini 45 yaşlı Məşədi İbad Bağırov -Mənim anam qorxudan kor və kar olmuşdur. Quba şəhər sakini 60 yaşlı təhsilli, Hacı Hidayət Musayev- qardaşım Harun qorxudan rəhmətə getmişdi.Quba şəhər sakini Məmməd Musa Məmməd Əli oğlu təhsilli -Anam Mədinə Məşədi Bağır qızı baş verən hadisələrdən qorxduğundan 10 gün sonra öldü. Nənəm isə kar və lal olmuşdu.(10, səh 172-173).

Ermənilər zorla evlərə soxulur qarətlər edir, evi tamamilə talan etdikdən sonra ev sahiblərini erməni cəlladları üçün çörək bişirməyə məcbur edirdilər. Evləri talan edərkən orada olan bütün əmlakı götürür, onlara lazım olmayanları isə məhv edirdilər. Quba sakini Kərbəlayi Əbuzər Məstan oğlunun izahatına fikir verək: "Mən evə qayıdanda orada bir neçə erməni gördüm. Onlar bütün daşınan əmlakımı arabalara yükləyib, lazımsızları isə cırıb məhv etmişdilər. Mən yalvardım ki, heç olmasa evdə bir ədyal qalsın lakin onlar imtina etdilər"

Hamazasp dəstəsi qəzanın bir sıra kəndlərinə əsasən dağ kəndlərinə daxil ola bilməmişdi. Bu kəndlərin yerləşdikləri coğrafi mövqelər həmin kənd sakinlərinin erməni canilərinə sərt müqavimət göstərmələrinə imkan yaratmışdı. Məsələn Qusar sahəsinin Tərcal icmasının Tərcan kəndinin sakini komissiyaya bildirmişdir ki, ermənilər bir neçə dəfə bizim kəndi tutmaq istəsələr də biz müqavimət

göstərmiş və onlarla atışmaya girmişik. Onlar bizim kəndləri nə talan edə bilib nə də adam öldürublər. (10, səh 256) Rustov sahəsinin bir çox tat kəndlərinin o cümlədən Zərqava, Afurca, Növdün, Talabı, Çiçi və digər kəndlərinin sakinləri ermənilərlə atışmaya girmiş canlı qüvvə itirsələr də onların həmin kəndlərə girmələrinə imkan verməmişlər.

Qısa bir müddət ərzində Fövqəladə Təhqiqat Komissiyası erməni quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük işlər görmüşdür. Zərər çəkmiş yüzlərlə vətəndaş və şahid dindirilmiş, çoxlu material, maddi dəlil-sübut. Fotosənəd toplanmışdı. (3, səh 100)

1918-ci ilin dekabr ayında Gəncə dairə məhkəməsinin üzvü Andrey Fomia Novatski öz köməkçisi ilə birlikdə Qubaya gəlir və istintaqa başlayır. Aprel-may aylarında Quba qəzasında törədilmiş soyqırımla bağlı istintaq qrupu bir neçə ay ərzində onlarla şahidi dinləmiş, hadisə baş verən yerlərə baxış keçirilmiş və 3 cildlik 451 vərəqdən ibarət sənədlər toplusu hazırlanmışdır və Fövqəladə Təhqiqat komissiyasının üzvü Novatskinin həmin komissiyasını sədrinə Quba şəhəri həmçinin Quba qəzasının kəndlərində törədilmiş dağıntılar eləcədə dinc əhaliyə qarşı törədilmiş zorakılıqlar barədə məruzə təqdim etmişdir. (10, səh 89)

1919-cu ilin noyabr ayında göstərilən məruzə əsasında Fövqəladə Təhqiqat Komissiyası həmin komissiyanın sədri Ə.Xasməmmədovun və komissiyanın digər üzvlərinin imzası ilə Quba hadisələrində günahkar olan şəxslərə qarşı cinayət işi qaldırması haqqında qərar qəbul edir. Onların işləri 1920-ci il yanvarın 29-da Bakı dairə məhkəməsinin prokurorluğuna göndərilir. Lakin daha sonra 1920-ci il yanvar ayının 11-də Azərbaycan Xalq Cümhuriyyətinin Böyük dövlətlər tərəfindən de-facto tanınması ilə əlaqədar olaraq Cümhuriyyət Parlamentinin fevralın 9-da qəbul etdiyi qanunun ikinci maddəsinə görə qanun qəbul olunana qədər millətlərarası düşmənçilik zəminində törədilmiş cinayətlərə xitam verildiyi elan olunur və bu işlərin istintaqının dayandırıldığı elan olunur.

Aprel işğalından sonra isə 1920-ci ilin oktyabrın 10-da Quba qəzası məhkəməsinin birinci istintaq komissiyası həmin işə yenidən baxaraq AXC parlamentinin fevralın 9-da qəbul etdiyi amnistiya haqqında qanuna əsasən milli ədavət zəminində qaldırılmış cinayət işinə xitam vermək üçün onu Quba qəza Xalq Məhkəməsinə göndərmiş və həmin işə xitam verilmişdir.

Ümumiyyətlə təhqiqat komissiyasının 1920-ci ilin aprelinə qədər topladığı materiallar və şahid ifadələri daşnakların və bolşeviklərin cinayətlərini ifşa edən sanballı tarixi sənədlərdir. Məhz bu sənədlərə istinad edən AXC hökuməti 1919-cu və 1920-ci illərdə martın 31-ni ümummilli matəm günü kimi qeyd etmişdir. (3, səh 99-100)

Quba qırğınlarının birbaşa təşkilatçıları - Şaumyan, Korqanov, icraçıları Hamazasp, Volunts və erməni millətindən olan baəqa canilər idilər.

Bolşevik və daşnak S.Şaumyanın Bakı Sovetinin əsasən ermənilərdən ibarət və daşnak Hamazaspın komandanlığı altında quldur dəstələrinin Qubada həyata keçirilmiş vəhşiliklər vətəndaş müharibəsi və ya Sovet hakimiyyətinin qurulması hadisəsi deyil, bütöv bir xalqın yalnız milli mənsubiyyətinə görə kütləvi şəkildə məhv edilməsi – soyqırım hadisəsi idi.

İstifadə olunmuş ədəbiyyat

1. Arzumanlı V. 1918-ci il qırğınları. B., Öyrətmən, 1995, 90 s.
2. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: deportasiya, soyqırım, qaçqınlıq. B., 1998.
3. Abışov. V. Ş Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər) Bakı: Nurlan, 2007, s. 176,
4. Abışov V. Quba qəzasında erməni cinayətləri (mart-aprel 1918-ci il) //Azərbaycan MEA Tarix İnstitutunun Elmi Əsərləri, 22-ci cild, B., 2007, s. 147-152 Azərbaycanlılara qarşı 1918-ci il mart soyqırımı. Sənədlər Toplusu, 3 cilddə, B., Təhsil, 2009-2012.
5. Fərzəlibəyli Ş. Quba tarixi. B., Əbilov, Zeynalov və qardaşları, 2001, 388 s.
6. Əroğul Ə. Erməni daşnak faşizmi və Azərbaycan, B., Təhsil, 2007, 411 s.
7. Məlikməmmədov M. Qanlı dərə: 1918-ci il Quba faciəsi, B., 2009, 415 s.
8. Süleymanov M.S. Azərbaycan Ordusu (1918-1920). B.: Hərbi nəşriyyatı, 1998, 488 s.
9. Bakinskiy raboçiy» qaz.
10. Rustamova-Toqidi S. Kuba. Aprelğ-may 1918 q. Musulğmanskie proqramı v dokumentax. B., 2010, 552 s.

ТУРЕЦКО-МУСУЛЬМАНСКИЙ ГЕНОЦИД В ГУБИНСКОМ УЕЗДЕ

Резюме

Турецко-мусульманский геноцид, сотворённый в Губинском уезде в апреле-мае 1918-го года, является очередным актом геноцида со стороны армянских дашнаков на территории Азербайджана. Данный акт геноцида отличается численностью человеческих потерь. Целью армянских дашнаков, сотворивших геноцид в Губинском уезде, было истребление местных турков-мусульман путем массового террора навести на людей страх, изгнать их из своих земель и создать в будущем здесь армянское государство.

TURKISH-MUSLIM GENOCIDE IN GUBA REGION

Resume

In April and May 1918, the Turkish-Muslim genocide committed in Guba whole territory of Azerbaijan by Armenian Dashnaks the massacre carried out by an act of genocide. This is an act of genocide differ by the number of human loss. The purpose of committing genocide of the Armenians living in Guba local Turkish-Muslims break, committed mass terror scare people, and the future of the Armenian state was to lose sight of their homes.

Akif Vəliyev
AMEA-nın Tarix İnsititunun dissertantı

MİLLİ MƏTBUAT TARİXİMİZDƏ 31 MART SOYQIRIMI (1918-1920-ci illər)

Açar sözlər: 31 mart soyqırımı, Bakı soveti, «Azərbaycan» qəzeti, «İstiqlal» qəzeti, «Qardaş qayğısı» qəzeti.
Key words: Genocide of 31 march, Baku Soviet, "Azerbaijan" newspaper, "Istiglal" newspaper, "Gardash gayghisi".
Ключевые слова: Геноцид 31 марта, Бакинский Совет, газета «Азербайджан», газета «Истиглал», газета «Гардаш Гайгысы».

Son iki əsrdə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror və soyqırım siyasəti bu gün də Dağlıq Qarabağda, Ermənistanla həmsərhəd bölgələrdə davam edir. Cənubi Qafqazda sülhün, siyasi sabitliyin təhlükə mənbəyinə çevrilən, terroru dövlət səviyyəsində dəstəkləyən Ermənistan Respublikası ermənilərin tarixən bu coğrafiyada törətdikləri qanlı olayları yenidən dirçəldir, günahsız insanlara qarşı soyqırım siyasətindən əl çəkmək istəmir.

Ermənilər soyqırım siyasətini tarixən tək insan resurslarını məhv etmək üzərində həyata keçirmir, Azərbaycan xalqının milli təsisatlarını, milli mətbuat orqanlarını sıradan çıxarıb yararsız hala salmaq, bununla da törətdikləri qanlı olayların tarixdən silinməsinə nail olmaq planları əsasında qururdu.

1918-ci ilin mart ayının 31-dən aprelin 2-dək Bakıda, Şamaxıda, İrəvanda, Qubada, Lənkəranda, Salyanda, Neftçalada və digər bölgələrdə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri kütləvi soyqırımı zamanı yalnız on minlərlə insan qətlə yetirilmədi, milli mətbu orqanlarımız, mətbəələr, jurnalistlər də hədəfə alındı. «Açıq söz», «Kaspi» redaksiyalarına od vuruldu, Almaniyadan gətirilən çap avadanlıqları ilə təchiz olunan Orucov qardaşlarının mətbəəsi dağıdıldı. Milli məfkurə məbədi olan «İsmailiyyə» binası yandırıldı, Təzə pir məscidinin minarəsi top atəşinə tutuldu. Həmin hadisələri gözləri ilə görən, «Kaspi» qəzetində mürəttib kimi çalışmış, əslən Maştağadan olan Seyidağa Axundzadə yazır ki, 1918-ci ilin aprelin 1-də «İsmailiyyə» binasına od vuran «Daşnaksütyun» firqəsi silahlıları sonra qəzet redaksiyalarına hücum edib yandırdılar (2, s.8). «Azərbaycan» qəzetində çap edilən 31 mart soyqırımı ilə bağlı iki fotoşəkildən biri «Kaspi» qəzeti redaksiyasının yandırılmasından sonrakı vəziyyəti təsvir edir (4, 31 mart 1919-cu il № 147).

Daşnaksütyun partiyası tərəfindən 1917-ci ildə planlaşdırılan, bolşeviklərlə birgə həyata keçirilən 31 mart qırğını Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, tarixi yaddaşına, ziyalılarına qarşı mənəvi soyqırım idi. Azərbaycan xalqının mədəniyyətinə vurulan bu ağır yaraları o dövrün qələm sahibləri «mədəni zərbə» adlandırırdılar (8).

1918-ci ilin mart soyqırımınadək Azərbaycanda 20-dən artıq anadilli mətbu orqan fəaliyyət göstərməyinə baxmayaraq, qətliamdan sonra yalnız «Hümmət» və «Bakı Şurasının əxbarı» qəzetlərindən başqa digər milli mətbuat nümunələrinin nəşri Bakı Sovetinin sədri S.Şaumyanın əmri ilə qadağan olundu (3, s. 31-70). Buna görə də, «Açıq söz», «Bəsirət», «İttihad», «El həyatı» və başqa anadilli qəzetlərin son sayları soyqırımdan bir gün əvvələ, köhnə təqvimlə martın 17-si və 18-nə təsadüf edir. Bakı Sovetinin sədri Şaumyanın əmri və Mətbuat bürosunun qərarı ilə «mart hadisələrinə düzgün qiymət vermədiklərinə və vahid sosialist cəbhəsində dayanmadıqlarına» görə, bəzi rusdilli qəzetlər də bağlanıldı. «Kaspi», «Bakı», «Bakinets», «Vesti Baku», menşeviklərin «Naş qolos» qəzetlərinin nəşri dayandırıldı, bəyanatların, əhaliyə müraciətlərin çapı qadağan olundu (9, s. 105).

Tiflisdə nəşr olunan anadilli mətbuat orqanlarını çıxmaq şərtilə Azərbaycan milli demokratik mətbuatı 1918-ci ilin martından sentyabrın 15-i, Bakının işğaldan azad olunduğu günə qədər özünün iflic dövrünü yaşadı.

V.İ.Lenin tərəfindən Qafqaza fövqəladə komissar kimi göndərilən S.Şaumyanın rəhbərliyi ilə hələ 1918-ci ilin yanvar ayından başlayaraq Azərbaycan xalqına qarşı terror və qətliamlar planlaşdırıldığını anlayan milli mətbuat orqanları bu barədə xalqı məlumatlandırır, onlara özünü müdafiə hissi

aşlayırdılar. «Açıq söz», «İttihad» və başqa qəzetlərdə «Birlik tələb olunur», «Birləşəlim», «İttifaq edəlim», «İttihad gərək» çağırışları qəzetlərin əsas sütunlarında dərc olunurdu (1, 15 mart 1918-ci il № 702).

Jurnalist Səfər İbrahim bolşeviklərin və Daşnaksütyun Partiyasının, Erməni Milli Şurasının silahlı hərbi birləşmələrinin xalqımıza qarşı planlaşdırdığı faciəvi hadisələri «Milli fəlakət» kimi dəyərləndirərək xalqı xəbərdar edirdi: «Müsəlman partiyaları da xalqı milli fəlakətdən xilas etmək xatirinə birləşməyə borcludurlar… Dəhşətli saət gəliyor, birləşəlim!» (1, 15 mart 1918-ci il, №702). S.İbrahimin bu xəbərdarlığından 2 gün sonra Azərbaycan xalqına qarşı terror başlayıb.

«Hümmət» partiyasının sədri, doktor Nəriman Nərimanov xalqı bolşevik-daşnak birləşmələrinin qırğınından qorumaq üçün martın 18-də saat 12 radələrində öz evində toplantı keçirdi. Bakıda ictimai-siyasi, sosial-psixoloji durumun partlayış həddinə çatdığını görüb, S.Şaumyanı qırğın planından çəkindirmək üçün onu Bakı ağsaqqalları, «Hümmət» Partiyasının üzvləri, Müsəlman Milli Şurası nümayəndələri ilə görüşdürdü. N.Nərimanov üzünü S.Şaumyana tutub dedi: «Yoldaş! Siz də, mən də müsəlmanların halını bilirik. Hərgah bir iğtişaş başlansa, ayaq altında qalan fəqir-füqəra olacaqdır… Ona görə Sizdən təvəqqe edirəm, sizə yalvarıram, bu işi sülh yolu ilə qutarınız» (6, 1 aprel 1918-ci il).

«Yevelena» gəmisində öz əsgər yoldaşları Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin dəfnindən sonra Lənkərana qayıdan «Dikaya diviziya»nın 48 nəfər heyətinin alınan silahlarını geri qaytaracağı vədini verən S.Şaumyan əvvəlcədən planlaşdırdığı qırğını həyata keçirmək üçün sözünün üstündə durmadı. «Hümmət» qəzeti bu barədə yazır: «Atəşin necə və kimin tərəfindən başlanıldığını müsəlman vəkilləri bilir» (6, 1 aprel 1918-ci il).

«Dikaya diviziya» əsgərlərinin silahlarının qaytarılması əvəzində müsəlmanlara qarşı hərbi əməliyyatlara hazırlaşanlar martın 18-də axşam qanlı olayların icrasına başladılar: «Saat 5- də müsavatçılar İcraiyyə komitəsində silahların qaytarılmasını gözləyirdilər. Bu halda xəbər yetişir ki, Şamaxı caddəsində müsəlmanlara hücum edib onları öldürürlər» (4, 31 mart 1919-cu il, №147). Qırğınları icra edən isə Stepan Lalayevin erməni dəstəsi idi. Həmin gün axşam saat 7-də bir neçə azərbaycanlı qətlə yetirildi və sonra qətliamlar şəhərin müsəlmanlar yaşayan hissəsinə keçirildi, əhali Mars teatrının damında yerləşdirilən pulemyotlardan atəşə tutuldu. Artıq saat 10-da məlum oldu ki, erməni-bolşevik silahlıları tərəfindən mərkəzi küçələr işğal edilib, şəhərin aşağı hissəsi ilə əlaqə kəsilib.

Martın 31-dən aprelin 2-dək 3 gün ərzində Bakı qan gölünə çevrildi. Uşaq, qoca, qadın bilmədən qarşılarına keçənləri qətlə yetirən bolşevik-daşnak birləşmələri bəzən insanları diri-diri alovlanan evlərin içinə atırdılar. Küçələr, evlər parçalanmış qadın, qoca, uşaq cəsədləri ilə dolu idi. Qaçıb canını qurtarmaq istəyənlərin evləri, varidatları talan edilirdi. Bakı əhalisinin 3 gün aramsız qətlini gözləri ilə görən Seyidağa Axundzadə qeyd edir ki, şəhəri bürüyən tüstüdən qırğının miqyasını təyin etmək olardı: «Daşnak firqəsi əllərinə düşən müsəlman övrət və uşaqlarından heç bir zülmü əsirgəməyib insanlara yaraşmayan böylə qəbahətlərin icrasına qədər varmışlar… Hamilə övrətlərin bətnində olan məsum səbilləri (uşaqları) belə çıxarıb tüfəng cüdalarına taxmışlar. Pojarnı komanda tərəfindən vaqe bir məscidin divarlarında neçə uşağın mıxlandıqlarını sonra görmüşlər və o tərəfdə yaşayan müsəlmanların həyatına birdəfəlik qələm çəkmişlər» (2, s.8)

İnsanların kütləvi qırğına məruz qalmasını, erməni vəhşətlərini gözü ilə görən Məhəmməd adlı şəxs «Sağalmaz yaralarımız» sərlövhəli məqalədə yazırdı: «Küçələr meyitlərlə dolmuşdu. Quba meydanından (indiki Füzuli meydanı nəzərdə tutulur – A.A) Nikolayevski hazırkı «İstiqlaliyyət» küçəsi) caddəsinə qədər bazar tamam yandırıldı. Uşaq, böyük, arvad, kişi – heç kəsə fərq qoyulmadan hamısını qətl edirdilər. Müsəlmanların ev, dükan və mağazaları yandırılmışdı. Bir müsəlman həyətinə daxil olub burada 30-dan 40-a qədər uşaq, arvad, kişi cənazələrini gördüm. Müsəlmanların tələfatı, yalnız qətl edilənlər 5-6 minə qədərdir» (4, 24 oktyabr 1918-ci il, №34)

Bu qanlı olayları öz səhifələrinə köçürən milli mətbuat orqanlarımız soyqırımın təfərrüatına vararaq yazır: «Bütün vəhşət və zalımlıqları sayıb-qurtarmaq olmaz. Bunu bilirəm ki, bolşeviklərin öz hesabına görə, 8 min islam qırılmışdı. Bu yalandır. Çünki onlar ətrafda, kəndlərdə qırılanları hesaba daxil etmirlər» (8). Nəinki Bakının mərkəzində, keçidlərdə yaşayan əhali də kütləvi qırğınla üzləşdi. Nəvahi kəndinin tamamən yerlə-yeksan olduğu, əhalisinin məhv edildiyi barəsində də mətbuatda məlumatlar var (7). İnsanları qətlə yetirdikdən sonra neft və su quyularına atılması da erməni daş-

naksütyunlarının vəhşiliyinin bariz nümunəsi idi. Xəstəxanada yatan bir yaralı jurnalistə öz başına gələnləri nəql edərək söyləyir ki, 9 nəfər araba ilə gedən zaman yolda erməni silahlılarına rast gəlirlər: «Yolda bir neft quyusunun yanında bizi saxladılar. 5 şəhərlini diri-diri quyuya tullayıb bizi də gülləbaran etdilər. Mənim 3 yoldaşım öldü. Mən isə yaralandım. Ermənilər gedəndən sonra mən sürünə-sürünə dəhşətli yerdən uzaqlaşdım. Yolda bir həmişəri məni saxlayıb xəstəxanaya apardı» (8).

«Azərbaycan» qəzeti «Mart hadiseyi-ələməsinin müxtəsər tarixçəsi» sərlövhəli məqaləsində Şaumyan, Saakyan və Arekyanın rəhbərlik etdikləri dəstənin Bakıdan öncə Şamaxıda qırğınlar törətdiklərini və bu xəbərin Bakıda təşviş yaratdığını yazır: «Martın 16-da xəbər gəldi ki, bolşevik soldatları Şamaxıya hərəkət edərək intizamsızlıq salıb, yolda qabaqlarına gələn müsəlman kəndlərini, o cümlədən Ağdərə, Novxanlı, Qarxunlu kəndlərini qarət edib, müsəlmanları qırırlar». Martın 17-də Bakıya xəbər çatır ki, Şamaxıda müsəlman qırğınını bolşeviklərlə yanaşı ermənilər həyata keçiriblər.

«Hümmət»in «Şamaxı əhvalı» sərlövhəli məqaləsində qeyd olunur ki, 17 yaşından 50 yaşınadək olan Şamaxı erməniləri bolşeviklərin Qırmızı ordusunun tərkibinə qatılıblar. Vəziyətin acınacaqlı və fəlakət həddində olduğunu qəzet bu şəkildə təsvir edir: «Şamaxı şəhəri bütünlüklə yanıb» (6, 15 aprel 1918-ci il, № 42).

Milli mətbuatımızda Bakıda törədilən qırğınlarla yanaşı, Şamaxıda 7 mindən çox müsəlmanın qətlə yetirilməsinə diqqət yönəldilib, kəndlərində ermənilərin törətdikləri vəhşiliklər qələmə alınıb.

«Azərbaycan» qəzeti Şamaxı qırğınında iştirak edən bolşevik-erməni silahlı birləşmələrinin sayını da göstərir: «Şamaxı mahalına bir qitə göndərilib, əhali məhv edilib. 4 min əsgərin yüzdə səksəni erməni olub» (4, 24 oktyabr 1918-ci il, №34)

Bakı və ətraf bölgələrdə törədilən soyqırımın sinfi deyil, milli qırğın olduğunu, minlərlə insanın qətlə yetirildiyini görən N.Nərimanov S.Şaumyana və Çaparidzeyə sərt ittiham dolu məktub göndərdi: «Siyasi mübarizə axırda milli mübarizə yolu alıbdır. Bu halət Şura hökumətinə ləkə salıb onu qara örtük ilə bürüyür. Hərgah siz bu yavuq vaxtda bu qara örtüyü cırıb, bu ləkəni təmizləməsəniz, bolşevik fikri və Şura hökuməti burada davam edə bilməyəcəkdir». Top-tüfənglə qurulan hakimiyyətin ömrünün çox qısa olacağını yazan N.Nərimanovun uzaqgörənliklə söylədiyi fikir çox keçmədi ki, özünün təsdiqini tapdı (6, 3 aprel 1918-ci il, №61)

Tiflisdə noyabrın 12-də yalnız bir sayı işıq üzü görən «Qardaş qayğısı» qəzeti bütöv səhifələrini Şamaxı və Bakıda ermənilərin törətdikləri qırğınlara həsr edib. Böyük formatda, iki səhifəsi ərəb qrafikalı Azərbaycan əlifbasında, iki səhifəsi rusca nəşr olunan qəzet «Turan» Gənclər Təşkilatı tərəfindən xeyriyyə məqsədi üçün nəşr edilib. Qəzet erməni bolşevik silahlılarının Bakıda, İrəvanda, Şamaxıda törətdikləri kütləvi qətliamları, qeyri-insani hərəkətləri, vəhşilikləri emosiyasız təsvir edə bilmir: «Xunxan erməni bandaları müsəlmanların izzəti-namusuna toxunub 12 yaşında qız uşaqlarını dizlərinin üstünə mindirib, namusuna təcavüz etdikdə təsəlliyat olurlar idi. Şamaxıda 400-dən ziyadə qoca islam alimlərini məscid həyətinə yığıb siyirmə xəncər bunların üstünə düşüb vay həsrəta ilə doğramışlar (8). Azərbaycanlılara qarşı bütün vəhşi üsullardan istifadə edən erməni-bolşevik birləşmələri Şamaxının 8 əsrlik tarixə malik olan məscidini yandırmışlar. «Azərbaycan» qəzeti yanmış məscidin şəklini öz səhifələrində dərc etməklə tarixdə ermənilərin xalqımızın milli-mənəvi dəyərlərinə qarşı oynadıqları rolu bir növ faktlaşdırıb, bu günümüzə çatdırıb (4, 29 mart 1918-ci il, №147).

Şamaxının yalnız xarabalıqlarının qaldığını yazan milli mətbu nümunələrimiz sağ qalan insanların yaşayışını bu cür təsvir edir: «Biçarə şamaxılılar, öz isti ocaqlarını buraxıb yağış-yağmurun altında bu səhraları ata-oğlunu, ana qızını gözlərinin yaşını tökə-tökə axtarırlardı» (6).

Şamaxı qəzasında 80-ə yaxın müsəlman kəndi yerlə-yeksan olunub. Bu bölgədə törədilən qanlı olaylarla bağlı Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı fövqəladə təhqiqat komissiyasının sədri Ələkbər bəy Xasməmmədov «Çağırış» məqaləsində bu barədə geniş məlumat verir (10, 17 mart 1919-cu il, №67)

«Zaqafqaziya tarixçəsinin qanlı səhifələri»nə toxunan «Qardaş qayğısı» qəzeti İrəvanda 199 kəndin yerlə-yeksan olunduğunu, müsəlman yurduna ermənilərin köçürüldüyünü yazır (4, 24 oktyabr 1918-ci il, № 34)

Ermənilərin Bakıda, Şamaxıda törətdikləri soyqırım aktları sırasına ziyalıların məhvi planları da daxil idi. Bu barədə 1918-ci ilin martından sentyabra kimi Bakıda olan M.Ə.Əfəndinin Tiflisdə

jurnalistlərə verdiyi açıqlamada bu barədə kifayət qədər məlumatlar verir: «Bakını bürüyən qətllər zamanı ermənilər evbəev gəzib müsəlmanları yığırdılar və naməlum bir yerə aparırdılar: «Çox vaxt aparılan ziyalı, oxumuş müsəlmanların meyitlərini tapmaq olurdu. Fəqət, çox vaxtda olurdu ki, heç bir əsər də əldə etmək mümkün olmayırdı». Şahid misallar da çəkirdi: «İki doktor Kərim bəy, Balabəy Sultanovlar heç tapılmadı. O cümlədən, T.V.Qulubəyov da itdi. Meyitaxtaran dəstə bir quyuya rast gəlir. Quyunun yanında hasar içində çoxlu müsəlman arvad, uşaq meyiti var imiş. İkinci bir dəstə, bir quyuya rast gəlirlər ki, bərk boğucu iyi çıxırmış. Bir nəfəri quyuya salırlar. Fəqət o tez çıxarılmasını rica edir. Zira, durmaq mümkün deyilmiş. Ancaq özü ilə bir cib dəftəri gətirmiş idi. Yazılardan məlum olmuşdur ki, bu dəftər H.Cəfərovun xidmətçisi Tahirovundur» (8).

Ermənilərin Şamaxıya hücumu zamanı evinə od vurulmuş Azərbaycanın böyük mütəfəkkiri, milli şair Abbas Səhhət şəhəri tərk edib Gəncə istiqamətinə qaçan zaman erməni hərbçiləri tərəfindən qarət olunmuş, mənəvi-psixoloji sarsıntı keçirmiş, az sonra Gəncədə vəfat etmişdir. Bu barədə o dövrün mətbuat səhifələrində məlumatlar var: «İslam aləmi Abbas Səhhət kimi böyük ədibi bu bandalara qurban vermişdir. Bununla böylə bir neçə doktorlar, cavan-qoca alimlər qətl olunmuşlar» (8). A.Səhhətin ermənilər tərəfindən qarət olunması, ağır psixoloji sarsıntı keçirməsi və bu səbəbdən vəfatı barədə «Azərbaycan» qəzetinin 13 noyabr 1918-ci il tarixi sayında da məlumat verilir. Azərğaycan mətbuat tarixində bir sıra solyönümlü qəzetlərin əməkdaşı, həmçinin «Tuti» məzhəkə jurnalının təsisçisi və redaktoru olan Cəfər Bünyadzadə də ermənilərin törətdiyi qətliamın qurbanıdır. Onun qətlinə səbəb bolşevik cildinə girən ermənilərin Bakı və ətraf kəndlərdə törətdikləri vəhşiliklərə etiraz etməsi və mətbuatda bununla bağlı məqalələr yazması idi. C.Bünyadzanin qardaşı Dadaş Bünyadzadə ona başsağlığı verənlərə etdiyi minnətdarlıq məktubunda bildirirdi: «Bir il bundan əqdəm «Tuti» məzhəkə jurnalının müdiri, baradərim Cəfər Bünyadzadənin erməni daşnaksütyunları tərəfindən qətl olunduğunu eşidib-bilən yoldaşların Həştərxandan qayıtdıqdan sonra təəssüf məktubları almaqdayam. Bu teleqram və məlumatlar çox olduğundan, ayrı-ayrı cavab vermək mümkün olmadığına görə, məktub və teleqram göndərmiş yoldaş və vətəndaşlara təşəkkürümü izhar edirəm» (5, 17 avqust 1919-cu il, №2).

Müsəlman Milli Şurasının sədri Əlimərdan bəy Topçubaşov da ermənilərin hədəf aldığı ziyalılardan idi. Bakı qırğınından sonra onu həbs edib, aradan götürmək istəyirdilər. S.Şaumyanın tapşırığına əsasən həbs olunan Ə.Topçubaşovun azad olunması üçün Nəriman Nərimanov böyük səy göstərdi, danışıqlar apardı. Sonda onu həbsxanadan buraxdırdı (6, 17 aprel 1918-ci il, №43) 1919-cu ildə 31 mart soyqırımının Milli Matəm günü elan olunmasında, təbliğat və təşviqat işlərində milli mətbuatımız böyük fəallıq göstərdilər. «Azərbaycan», «İstiqlal» qəzetləri 31 mart saylarını matəm gününə həsr etdilər, soyqırımı əks etdirən məqalələr, xatirələr işıq üzü gördü (3, 1919-cu il 31 mart №146; 7, 1919-cu il 31 mart, №7)

1918-ci il 31 mart soyqırımının araşdırılmasında milli mətbuatımızda əksini tapan fakt və sənədlərin tədqiqi, təhlili tarixşünaslığımız üçün mühüm əhəmiyyətə malikdir. Bu gün də erməni terroru ilə üz-üzə qalan Azərbaycan xalqının başına gətirilən faciələrin real mənzərəsini yaratmaq üçün arxiv materialları ilə yanaşı, mətbu orqanlarımızda öz əksini tapmış məlumatların araşdırılması öz əhəmiyyətini saxlamaqdadır.

Mənbələr və ədəbiyyat .

1. «Açıq söz» qəzeti 15 mart 1918-ci il №702.
2. Axundzadə Seyidağa. «Mart hadisəsi 1918-ci il…» «Turan». 1918-ci il səh.64
3. Axundov N. Azərbaycan dövrü mətbuatı. Bakı, 1965.
4. «Azərbaycan» qəzeti 1919-cu il.
5. «Füqəra kasibəsi» qəzeti 1919-cu il.
6. «Hümmət» qəzeti 1918-ci il.
7. «İstiqlal» 1919-cu il.
8. «Qardaş qayğısı» 1918-ci il 12 noyabr, №1.
9. Rəfiyev X. Böyük oktyabr və Azərbaycan bolşevik mətbuatı. Bakı, 1987.
10. «Азербайджан» в 1919 г.

31 MARCH GENOCIDE IN THE NATIONAL PRESS HISTORY (1918-1920)

Summary

Genocide facts of Armenian Bolshevik Unions between March 31 and April 2, 1918 against the Republic of Azerbaijan has been reflected in the Azerbaijan Press History. Articles, publicistic articles, memories on genocide facts were published on the pages of "Azerbaijan", Istiglal", "Achig soz", "Gardash gayghisi", Hummat" newspapers in 1918-1920. These materials have scientific significance in terms of the studying the history of genocide policy conducted for Azerbaijani people.

ГЕНОЦИД 31-ГО МАРТА В ИСТОРИИ НАЦИОНАЛЬНОЙ ПРЕССЫ (1918-20 гг.)

Резюме

Факты геноцида по отношению к азербайджанскому народу со стороны Армяно-большевистской коалиции с 31 марта до 2 апреля 1918-го года нашли свое отражение в истории Азербайджанской Прессы. На страницах газет «Азербайджан», «Истиглал», «Ачыг Соз», , «Гуммат» изданных в 1918-1920-ые годах были опубликованы статьи, публицистике закиси, воспоминания связанные с фактами геноцида. Эти материалы несут научный и фактическое значение в изучении политики геноцида постигшего Азербайджанский народ

Raisə Cəfərova
AMEA Tarix İnstitutu
E-mail: cafarova.r@ mail.ru

AZƏRBAYCANLILLARIN SOQIRIMI HAQQINDA HƏQİQƏTLƏRİN DÜNYA İÇTİMAİYYƏTİNİN DİQQƏTİNƏ ÇATDIRILMASINDA MƏRKƏZİ ASİYADA MÖVCUD OLAN AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARININ ROLU

Açar sözlər: təşkilatlanma, diaspor, faciə, azərbaycanlıların Soyqırımı
Ключевые слова: институционализация, диаспора, трагедия, Геноцид азербайджанцев
Key words: organisated, diaspora, tragedy, Genocide of the Azerbaijanis

Bir sıra dünya dövlətlərinin mənafeyinin toqquşduğu regionda yerləşən Azərbaycan trixən çətin sınaqlarla üz-üzə qalmışdır. Bu sınaqlardan alnı açıq üzü ağ çıxmaq heç də həmişə asan olmamışdır. Xalqımız öz azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda çoxlu itkilər, qurbanlar vermişdir. Xalqımızın tarixinə daxil olmuş belə faciələrdən biri də 1918-ci il 31 mart azərbaycanlıların soyqırımıdır.

Hələ 1917-ci ilin noyabr ayında Rusiya Müəssislər Məclisinə keçirilən seçkilər Müsavat Partiyasının nüfuzunun yüksək, bolşeviklərin sosial bazasının isə çox zəif olduğunu göstərdi. Müsavatın sosial bazasını məhv etmək, Azərbaycan milli hərəkatına divan tutmaq, başqa sözlə, müsəlmanlara ”dərs vermək” üçün bolşeviklər milli qırğından istifadə etdilər. Bakı Sovetinin 1918-ci il martın 15-də keçirilən iclasında S. Şaumyan azərbaycanlıların soyqırımına göstəriş verdi.

Şəxsi heyyəti müsəlmanlardan ibarət olan “Evelina” gəmisinin tərk-silah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Qırğın ərəfəsində öz bitərəfliyini elan edən Daşnaksütyun Partiyası və erməni milli şurası bolşeviklərin tərəfinə keçdi. Müsəlmanlara ilk atəş 1918-ci il martın 30-da saat 16:00-da erməni kilsəsinin yanında açıldı. Müsəlmanların guya İcərişəhərdə rusları qırması barədə ermənilərin fitvasına inanan rus matrosları da azərbaycanlılara qarşı çıxaraq onları atəşə tutdular. Martın 31-də “Kərpicxana”, “Məmmədli” və s. azərbaycanlı məhəllələrinə bolşevik-erməni hərbi dəstələrinin hücumları başladı. Mart soyqırımı nəticəsində təkcə Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirildi. Şamaxı, Quba, Kürdəmir, Salyan və Lənkəran qəzalarında da azərbaycanlı əhaliyə qanlı divan tutuldu. Şamaxıda daşnaklar 7 mindən artıq azərbaycanlını qətlə yetirmiş, 72 kəndi dağıtmışdılar. Quba qəzasında 122 kənd yandırılmışdı. Bolşevik-daşnak birləşmələri azərbaycanlılara məxsus ictimai binaları-məktəbləri, “Kaspi” mətbəəsini, “Açıq söz” qəzetinin redaksiyasını, “İsmailiyyə” binasını yandırmış, “Təzəpir” məscidinin minarəsini top atəşinə tutmuşdular. 1918-ci ilin sentyabırınadək Bakı quberniyasında 20 mindən çox azərbaycanlı öldürülmüşdü.(8)

Xalqların tarixidə baş vermiş mühüm hadisələrlə bağlı informsiaları dünya ictimaiyyətinin diqqətinə çatdırmaqda diasporlar mühüm əhəmiyyət kəsb edirlər. Diasporlar tarixi proseslərin, miqrasiyaların nəticəsi olaraq meydana gəlmişlər. Müasir dünya siyasətində diasporların müstəsna rolunun olması bu nıticəyə gəlməyə əsas verir ki, hər bir dövlətin milli maraqlarının dünyanın istənilən nöqtəsində layiqincə qorunması üçün həmin ölkənin orada güclü ideoloji bazaya malik diasporu olmalıdır. Başqa sözlə desək diaspor təşkilatlarının əsas məqsədi mənsub olduğu dövlətin maraqlarını yaşadıqları ölkədə təbliğ etməkdir. Sovet hakimiyyətinin imperialist siyasəti nəticəsində Azərbaycan xalqı dəfələrlə müxtəlif ölkələrə, o cümlədən Mərkəzi Asiya respublikalarına “səpələnmişlər”. SSRİ-nin dağılması və soyuq müharibənin qurtarması ilə dünyanın siyasi xəritəsində yeni müstəqil dövlətlər meydana gəldi. Mərkəzi Asiya regionunda beş müstəqil respublika-Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan respublikaları meydana gəldi. Bu ərazilərdə mühacir həyatı yaşayan soydaşlarımız azad respublikaların vətəndaşları olaraq təşkilatlanmağa başladılar. 4 milyon km^2 ərazisi, 55 milyondan çox əhalisini özündə birləşdirən Mərkəzi Asiya regionunda mövcud olan respublikalardan Tacikstan istisna olmaqla digərləri türk respublikalarıdır. Tarixi bağlılıq eyni soya, eyni kökə malik olmağımız Mərkəzi Asiya respublikaları ilə sıx əlaqələr qurmağımız və bu regionda güclü diaspora sahib olmağımız üçün ciddi səbəblərdir

Qeyd etməliyik ki, təşkilatlanma prosesinə çox gec başlasa da ilk növbədə ümummilli lider Heydər Əliyevin təşəbbüsü, daha sonra Azərbaycan respublikasının prezidenti İlham Əliyevin dəs-

təyi və Diasporlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti nəticəsində bu proses sürətlənmiş və Azərbaycan diasporu artıq müəyyən uğurlu addımlar atmışdır. Hətta bəzi məqamlarda Azərbaycan diasporu öz fəaliyyət istiqamətini ideoloji müdafiyədən ideologi hücum müstəvisinə keçirmişdir. Artıq bir neçə ildir ki, Xocalı soyqırımı ilə bağlı Londonda, İstanbulda, Ankarada, Moskvada, Vaşinqtonda və Mərkəzi Asiya respublikaları olan Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın bir sıra şəhərlərində təşkil olunan aksiyalar diasporumuzun gördüyü işlərin bariz nümunəsidir.

Mərkəzi Asiya regionunun ərazi baxımından ən böyük dövləti Qazaxıstan Respublikasıdır. Rəsmi məlumatlara əsasən 100 min, qeyri rəsmi məlumatlara əsasən isə 150 min nəfər azərbaycanlı Qazaxıstan Respublikasında yaşayır. Artq 10 ildən çoxdur ki, martın 31-də Almatı şəhərində Qazaxıstan Xalqlar Assambleyasının binasında "Turan" Konqresinin təşkilatçılığı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı mərasim keçirilir. Bu böyük faciəni lazımı səviyyədə Qazaxıstan ictimaiyyətinin və orada fəaliyyət göstərən digər dövlətlərin nümayəndələrinin diqqətinə çatdırmaq istiqamətində səyləri davam etdirən Azərbaycan diaspor təşkilatı olan "Xəzər" Mədəniyyət Mərkəzi də öz növbəsində Astana şəhərində 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı geniş tərkibli tədbirlər keçirmişdir (4). Belə silsilə tədbirlərdən biri də Qazaxıstanın Aktau şəhərində "Dostluq" Azərbaycan Milli-Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunmuşdur.

Mərkəzi Asiya regionunda həmvətənlərimizin sıx yaşadığı ölkələrdən biri də Özbəkistan Respublikasıdır. Rəsmi məlumatlara əsasən hal hazırda Özbəkistan respublikasında 41 min nəfər, qeyri –rəsmi məlumatlara görə 60 min nəfərə yaxın azərbaycanlı yaşayır. Ölkənin 7 vilayətində (Səmərqənd, Nəvai, Buxara, Fərqanə, Sırdərya və s.), o cümlədən paytaxt Daşkənd şəhərində soydaşlarımız daha sıx məskunlaşmışlar.

Özbəkistan Respublikasının qanunlarına uyğun olaraq oradakı həmvətənlərimiz özlərinin bir neçə ictimai, milli-mədəni təşkilatlarını yaratmışlar. Buradakı soydaşlarımızın ağsaqqallar şurası, qadınlar cəmiyyəti, gənclər təşkilatı və digər ictimai qurumları var. Hər ilin martında Azərbaycanın Özbəkistandakı səfirliyi və Daşkənddə Azərbaycan diasporunun birgə təşkilatçılığı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar sistemli tədbirlər keçirilmişdir. Ötən il keçirilən mərasimin sonunda təbliğatı genişləndirmək məqsədi ilə iştirakçılara azərbaycanlıların soyqırımı, erməni terrorizminə dair materiallar toplusu paylanmışdır. Bu məlumatlar Özbəkistanın kütləvi informasiya vasitələrinə və bu ölkədə akkreditə olunmuş diplomatik korpuslara, beynəlxalq təşkilatların yerli nümayəndəliyiklərinə də göndərilmişdir (7).

SSRİ-dən digr sovet respublikaları kimi Qırğızıstan Respublikasına da çoxmillətlilik miras qalmışdır. Ölkədə qırğızlardan başqa ruslar, özbəklər, almanlar, tatarlar, ukraynalılar, uyğurlar, qazaxlar, dunqanlar və taciklər yaşayırlar. Qırğızıstanda aqzərbaycanlıların sayı 18046 nəfərdir. (1yanvar 2013-cü ilin statistik məlumatına əsasən) Onu da qeyd edək ki, 1926-cı ildə azərbaycanlılar və ahısxa türkləri sadəcə türk olaraq qeydə alındıqlarından soydaşlarımızın dəqiq sayını müəyyən etmək çətinlik yaradır. Qırğızıstan Respublikası Azərbaycan Respublikasının istər keçmiş SSRİ daxilində, istərsə də MDB məkanında ən sıx əlaqə saxladığı ölkələrdən biridir. 2006-cı ildən başlayaraq hər il Qırğızıstandakı "Azəri" İctimai Birliyinin təşkilatçılığı ilə Bişkek şəhərinin Tarix muzeyində 31 Mart azərbaycanlıların soyqırımı günü ilə bağlı tədbirlər keçirilmişdir. Burada soyqırımın tarixi ilə bağlı ətraflı məlumat verilmiş, erməni vəhşiliklərini nümayiş etdirən faktlar diqqətə çatdırılmış və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərdən danışılmışdır. Mərasimdə Qırğızıstan respublikasında yaşayan azsaylı xalqların diaspor təşkilatlarının rəhbərləri də iştirak etmişlər. (5)

Mərkəzi Asiya respublikalarından biri olan Tacikistan Respublikası azərbaycanlıların miqrasiya etdiyi ölkələrdəndir. Tacikistan respublikası Mərkəzi Asiyanın türkdilli olmayan yeganə respublikasıdır. Türkdilli olmasa da tacik xalqı ilə xalqımızın ortaq meyarları çoxdur. Bunlardan tarixi əlaqələri, eyni dinə sitayiş etməyimizi, mədəni, mənəvi yaxınlığımızı misal göstərmək olar. Tacik-fars ədəbiyyatının klassikləri kimi ehtiram bəslənilən Rudəki, Sədi və digərləri Azərbaycanda sevildikləri kimi, dünya ədəbiyyatı xəzinəsinə misilsiz töhfə vermiş böyük Azərbaycan şairləri Məhəmməd Füzuli, Nizami Gəncəvi də tacik xalqı tərəfindən daima hörmətlə qarşılanıb.

Tacikistanda təxminən 4 min nəfərə yaxın azərbaycanlı yaşayır. Onların bir qismi Mərkəzi Asiyaya, o cümlədən Tacikistana XX əsrin 20-30-cu illərində savadsızlığı ləğv etmək məqsədilə göngərilən ziyalıların, digərləri isə Stalin repressiyasına məruz qalan azərbaycanlıların övladlarıdır.

1996-1999-cu illərdə "BMT ilə ATƏT arasında əməkdaşlıq haqqında" qətnamə layihəsində Azərbaycanın Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubluğunu təsdiqləyən, mühüm əhəmiyyət kəsb edən düzəliş Tacikistan tərəfindən dəstəklənib (2). 2011-ci ilin iyununda Düşənbədə bir qrup azərbaycanlı diaspor nümayəndələrinin təşəbbüsü ilə "Tacikistan Azərbaycanlılarının Dostluq və Mədəniyyət Mərkəzi yaradılmışdır. Mərkəzin məqsədi Tacikistanda Azərbaycan mədəniyyətinin, dilinin, tarixi dəyərlərinin, adət-ənənələrinin Tacikistanda yaşayan həmvətənlərimiz arasında qorunub saxlanılması və təbliği, iki xalq arasında dostluq münasibətlərinin möhkəmləndirilməsidir. Həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, ermənilərin işğalçılıq siyasəti, problemin sülh yolu ilə həlli istiqamətində Azərbaycanın təşəbbüsləri, ölkəmizdə aparılan sosial-iqtisadi inkişaf, hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu istiqamətində görülən işlər haqqında Tacikistan ictimaiyyətinə düzgün və reallıqları əks etdrən məlumatların çatdırılması Mərkəzin fəaliyyətinin önəmli hissəsini təşkil edir. Bu diaspor təşkilatının təşkilatçılığı ilə 2012-ci ildən başlayaraq hər ilin martayında 31 Mart Azərbaycanlıların soyqırımı ilə bağlı həqiqətlərin Tacik içtimaiyyətinin diqqətinə çatdırılması məqsədilə tədbirlər keçirilmişdir. Bu tədbirlərdə Tacikistanda yaşayan azərbaycanlılar ilə birlikdə həmin ölkənin tanınmış ədib və şairləri, dövlət xadimləri, diaspor üzvləri, elm xadimləri, eyni zamanda dövlət və hökumət rəsmiləri də iştirak edirlər. Ümid edirik ki, bütün bu tədbirlər yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.

Nəzərə almaq lazımdır ki, Azərbaycan dövlətinə, onun ərazi bütövlüyünə, milli-mənəvi eyni zamanda maddi dəyərlərinə xarici ölkələrdə dərin kök salmış erməni diasporu tez-tez idepoloji hücumlar edir. Qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində ölkəmizin qarşısında yeni vəzifələr qoymaqdadır. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirmişdir. Belə ki, məhz ikili standartlarla siyasət yürüdən dünyanın "böyük" dövlətləri və bu dövlətlərdə mövcud olan erməni diaspor və lobbi təşkilatlarının aktiv fəaliyyəti nəticəsində 20 ildən artıqdır ki, Dağlıq Qarabağ problemi öz ədalətli həllini tapmamışdır. Dünyanın gözü qarşısında baş verən Xocalı faciəsini görməzdən gələn "böyük" dövlətlər öz maraqları naminə uydurma "Erməni soyqırımı"na böyük həvəslə inanırlar. Bütün bunları nəzərə alaraq bu gün xarici ölkələrdə yaşyan soydaşlarımızla əlaqələri genişləndirmək, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər uğrunda səfərbər etmək Azərbaycanın xarici siyasətində əsas prioritetlərdən birinə çevrilmişdir. Hazırda dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlıların sayı Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların sayından çoxdur. Bu böyük bir "ordudur". Bu "ordu"nun səfərbər edilməsi dövlətimizin və xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ probleminin həll olunmasında mühüm rol oynayar.

Ədəbiyyat

1. Azərbaycan Diasporu. (Ensiklopedik mlumatlar toplusu) Bakı: Çaşıoğlu, 2012. s.654.
2. azertag.az/.../Azerbaycanın_Tacikistandakı_sefi...
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.2005 s.544
4. Qazaxıstan Respublikasının Astana şəhərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatı "Xəzər" Mədəniyyət Mərkəzinin cari arxivi.
5. Qırğızıstan Respublikasının Bişkek şəhərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatı "Azəri" Mədəniyyət Mərkəzinin cari arxivi.
6. Məmmədov Ş. Erməni terroru və böyük dövlətlərin ikili standartlar siyasəti. B, 2010 .s.127
7. Özbəkistan Respublikasının Daşkənd şəhərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatı "Azərbaycan Milli Mədəniyyət Mərkəzi" inin cari arxivi.
8. Геноцид азербайджанцев народа 1918 года: организаторы и палачи. Б 2013. 272 стр
9. Натиг Мамедзаде. Степан Шаумян –главный организатор геноцида тюрко-мусульманского населения Азербайджана.// Геноцид Азербайджанского народа. Б., 2013, с. 42.

Резюме

Выборы в Учредите тельный Совет России, проведённые ещё в ноябре 1917 г., показали не только то, насколько было сильными влиянии партии Мусават, но и слабость социальной базы большевиков. Большевики воспользовались национальной резнёй, чтобы уничтожить социальную базу Мусавата, покончить с национальным движением Азербайджана, одним словом, «преподать урок» мусульманам. Первый выстрел в мусульман был открыт 30 марта 1918 года в 16:00 часов возле армянской церкви. Русские матросы, повершившие в байки армян о якобы уничтожении мусульманами русских в Ичеришехере, также открыли огонь в азербайджанцев. 31-го марта начались атаки военных подразделений большевиков и армян на азербайджанские кварталы «Керпичхана», «Маммедли» и др. В результате мартовского геноцида лишь в Баку было убито свыше 12 тыс. азербайджанцев. Кровавой резне подверглись также азербайджанцы таких уездов, как Шемахинского, Губинского, Кюрдамирского, Сальянского и Ленкоранского. В Шемахы дашнаки убили свыше 7 тыс. азербайджанцев, 72 сёла были разгромлены. В Губинском уезде было сожжено 122 сёла. Большевистско-дашнакские объединения сожгли принадлежавшие азербайджанцам общественные здания – школы, типографию «Каспий», редакцию газеты «Açıq söz», здание «Исмаиллийа», минарет мечети «Тазапир» был обстрелян из пушки. До сентября 1918 года в Бакинской губернии было убито свыше 20 тыс. азербайджанцев.

Summary

1918 March genocide was not only against the Azerbaijanis also was against the whole humanity. At the result of genocide only in Baku were killed more than 12 thousands Azerbaijanis. In Shamakhi, Guba, Kurdamir, Salyan and in Lankaran regions were cruelly killed our Azeri peoples too. In Shamakhi the dashnaks killed more than 7 thousands Azerbaijanis and destroyed 72 villages.

In Guba region were burnt 122 villages. Bolshevik-dashnak unities were burnt public buildings that belonged to Azerbaijanis – schools, “Kaspi” publishing house, editorial office of “Achig soz”, the “Ismailliya” building, fired guns for a time the “Taza pir” minarets. Till the September of 1918, in Baku gubernator were killed more than 20 thousands Azerbaijanis.

Ədalət Mustafayev
Azərbaycan MEA
A.A. Bakıxanov adına Tarix İnstitutu

ERMƏNİLƏRİN AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ BÖLGƏSİNDƏ TÖRƏTDİKLƏRİ KÜTLƏVİ QIRĞINLAR: XOCALI SOYQIRIMI

Aşar sözlər: ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Rusiya Federasiyası, Dağlıq Qarabağ, Xocalı soyqırımı.
Ключевые слова: армяно-азербайджанский конфликт, Нагорный Карабах, Российская Федерация, Ходжалинский Геноцид
Keywords: armenian-Azerbaijani conflict, Nagorno-Karabakh, Russian Federation , Khojaly Genocide

XX əsrin 90-cı illərində SSRİ-də geosiyasi vəziyyətin sürətlə dəyişməsi region münaqişələrinə təsir edərək mürəkkəb bir vəziyyət yaratmışdır. İmperiyanın müxtəlif ərazilərində baş qaldırmış regional problemlərə fərqli yanaşmanın olması, əsasən Cənubi Qafqazda baş verən qarşıdurmalarda neqativ mövqeyi ilə seçilən Sovet hakimiyyətinin yarıtmaz siyasəti özünü bariz surətdə göstərirdi. Münaqişənin ilk vaxtlarından etibarən hakimiyyətin yuxarı dairələrində ermənipərəst mövqenin aydın sezilməsi, böyük dövlətlərin hadisələrə yanaşmada beynəlxalq qanunlar çərçivəsində deyil, geosiyasi maraqlar naminə hərəkəti Ermənistanın Azərbaycana qarşı həyata keçirmək istədiyi hərbi cinayətlərə yol açmış oldu.

İmperiyanın iqtisadi və siyasi sahələrində tənəzzülün dərinləşməsi münaqişə bölgələrində daha çox hiss olunmaqla yanaşı, insanların həyatında sağalmaz faciələrə yol açırdı. Təkcə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində deyil, Ermənistanla sərhəd ərazilərdə də silahlı toqquşmalara üstünlük verən erməni hərbi birləşmələrinin hərbi cinayətinin qarşısının alınmasına "mərkəz" ciddi tədbir görmür, laqeydcəsinə yanaşmaqla əhalidə imperiyaya qarşı nifrəti daha da dərinləşdirirdilər. 1991-ci il avqustun 18-22 tarixlərində ermənilər "vertolyotlar və ağır texnikadan istifadə etməklə" Qazax rayonunun Bağanis-Ayrım kəndini dağıtmış, dinc əhaliyə "işgəncələr verərək qətlə yetirmişdilər". Həmçinin avqustun 21-də Hadrut rayonunda avtobusun partladılması ilə 2 nəfər azərbaycanlı həlak olmuş, 10 nəfər ağır yaralanmış, ayın 23-də isə Şuşa-Cəmilli yolunda ermənilərin hücumu nəticəsində 4 nəfər həlak olmuş, 16 nəfər yaralanmışdır [12,77].

1991-ci il sentyabr ayının 2-də separatçılar "Dağlıq Qarabağ Respublikası"nın yarandığını, bir müddət sonra isə Azərbaycanın tərkibindən çıxaraq müstəqil dövlət olduğunu elan etdilər [17]. Dağlıq Qarabağda bütün strukturların qondarma respublikanın tərkibinə verilməsi və bütün hərbi hissələrin tabeçiliyi haqqında göstəriş verildi. Bundan sonra DQMV-də strateji əhəmiyyətli mövqelərdə olan azərbaycanlıların yaşadığı mövqelər ardıcıl olaraq ələ keçirilir, kəndləri yandırılır, əhaliyə divan tutulurdu. 1991-ci il 7-10 sentyabr tarixlərində Tuğ kəndində 2 nəfər, Ağdam-Xocavənd və Ağdam-Qaradağlı avtobuslarının atəşə tutulması nəticəsində 13 nəfər həlak olmuş, 76 nəfər ermənilərin vəhşicəsinə hücumu nəticəsində yaralanmışdır. Ermənilər Qaradağlı kəndində 2 nəfərin başını kəsmiş, 3 nəfərin isə üstünə benzin tökərək yandırmışdılar. Xocalıda 2 nəfər qətlə yetirilmiş, 5 nəfər güllə yarası almışdır [12,78]. Bütün hücumlarda erməni terror təşkilatlarının izi hiss olunurdu. Erməni terrorçuları Moskva-Bakı qatarının partladılması nəticəsində (31 iyul, 1991-ci il) 15 nəfərin həlak olduğu, 1991-ci avqustun 2-də Hadrut-Dolanlar, Ağdam-Xocavənd, Ağdam-Qaradağlı, Ağdərə-Sırxavənd və s. sərnişin avtobuslarının gülləboran edilməsi və partladılması nəticəsində 88 nəfər azərbaycanlı öldürülmüş və 150 nəfər yaralanmışdı [11]. Erməni diversiya qruplarının və hərbi birləşmələrinin dəf edilməsinə qarşı ciddi tədbir görməyən Azərbaycan rəhbərliyi "mərkəzə" etibar edir və çökməyə doğru gedən Sovet hökumətindən kömək gözləyirdi. Əhalidə "sükutu" pozmamaq üçün, ermənilərin törətdikləri hadisələrin xalqa çatdırılmasının qarşısını almağa çalışırdılar. Azərbaycan hökuməti tərəfindən hadisələrin gizlədilməsi düşmən tərəf üçün tam əlverişli şərait yaradır və onların hücumlarının intensiv olduğu müşahidə olunurdu. Qeyd etmək yerinə düşər ki, cəbhədə vəziyyətin gərginləşməsi respublikada ictimai-siyasi vəziyyəti daha da

mürəkkəbləşdirirdi. 1991-ci il sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi və A.Mütəllibov prezident seçildi. Demokratik qüvvələr bu seçkini boykot etdilər və prezident seçkisi Naxçıvan MR ərazisində keçirilmədi. Çünki sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçilmiş Heydər Əliyevin başçılıq etdiyi "Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı" [1,312].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində atılan addımlar heç bir nəticə vermir, irəliləyiş müşahidə olunmurdu. Məhz münaqişənin nizamlanması məqsədilə 1991-ci il sentyabrın 20-23 tarixlərində "Rusiya Federasiyasının Prezidenti B.Yeltsinin və Qazaxıstan Respublikasının Prezidenti N.Nazarbayevin başçılıq etdikləri vasitəçilik missiyası" münaqişə bölgəsinə səfər etdilər [12,78-79]. Elə həmin günlərdə, yəni 1991-ci il sentyabrın 17-dən etibarən Dağlıq Qarabağın şimalında strateji əhəmiyyətə malik Azərbaycan kəndlərindən İmarət Qərvənd kəndinə "alazan" raketləri, avtomat və pulemyotlarla silahlanmış erməni quldurlarının hücumu sentyabrın 24-də kəndin böyük hissəsinin yandırılması, əhalisinin talan edilməsi və qovulması ilə nəticələndi. Azərbaycan əksər mətbuat orqanları bu barədə susdu. Hakimiyyət baş verənləri gizlədirdi. Ermənilər də bundan "səmərəli" istifadə edərək azərbaycanlılara qarşı baş verən cinayətləri onlara qarşı olan təcavüz kimi kütləvi informasiya vasitələrində yayırdılar. Demək olar ki, hər gün bir neçə dinc sakin müxtəlif kəndlərdə ermənilər tərəfindən öldürülür, avtomaşınlar, sərnişin avtobusları partladılırdı. "Həmin dövrdə Dağlıq Qarabağ Muxtar Vilayəti ilə yanaşı ətraf ərazilər, ələlxüsus, Goranboy rayonunda vəziyyət mürəkkəb olaraq qalırdı. Yeltsin - Nazarbayev sülhməramlı "təşəbbüs qrupu"nun geri qayıtmasından sonra vəziyyət daha da ağırlaşdı. Azərbaycan kəndi olan İmarət-Qərvənd kəndi dağıdıldı ki, nəticədə 1200 nəfər evindən, ata-baba yurdundan, doğma torpaqlarından didərgin düşdülər. Yaşayış məntəqələrinin və yolların atəşə tutulması usanmaq bilmədi" [22].

Erməni ideoloqu Yelena Bonner B.Yeltsinə böhtan xarakterli məktubunda 4-cü ordunun komandanı Sokolovun sözlərinə istinad edərək yazır ki, Sovet Ordusu 1989-cu ildə Azərbaycana 100 BTR və digər hərbi texnikalar vermişdir. Bundan əlavə operativ məlumatlara əsasən İrandan Azərbaycana Sovet silahları gətirilməkdədir. O, məktubun sonunda B.Yeltsinin Qarabağlıların son ümidi olduğunu bildirir [2].

1991-ci il oktyabrın 18-də xalqın təzyiqi ilə "Müstəqillik haqqında Konstitusiya aktı" imzalandı. Mövcud şəraitdə Azərbaycanda hakimiyyət müstəqil siyasət yeritməli və həmçinin milli ordu formalaşdırılmalı, ictimai-siyasi vəziyyəti stabilləşdirmək üçün konkret addımlar atılmalıydı. Virtual güclərə arxalanan ermənilərin hərbi müdaxiləsi və ardıcıl terror təhdidi müstəqilliyə gedən yollarda və silahlı qruplaşmalarla mübarizədə Azərbaycanın vəziyyətini xeyli ağırlaşdırırdı. Görünür həmin dövrdə Ermənistan respublikasının xarici siyasətində azərbaycanlılara qarşı silsilə terror həyata keçirmək siyasətinə önəm verilmişdir. Oktyabrın 29-da Xocalıdan Yevlağa uçan "AN-2" təyyarəsi Əsgəranda vuruldu və həlak olanların meyitləri ermənilər tərəfindən vəhşicəsinə yandırıldı. Noyabrın 20-də Qarakənd üzərində sülhməramlı missiyanı yerinə yetirən Azərbaycanın dövlət və hökumət nümayəndələrini aparan Mİ-8 tipli mülki vertolyot erməni terrorçuları, yaxud onların havadarları tərəfindən vurulandan sonra Azərbaycanda çıxılmaz acınacaqlı vəziyyət yaranmışdır [12,80-82]. Qeyd etmək yerinə düşər ki, hadisədən 2 gün sonra Jeleznavodskidə Yeltsin-Nazarbayev "təşəbbüs qrupu" sülhməramlı missiya kimi danışıqlara başlamalı idi, lakin məlum baş vermiş faciədən sonra danışıqlar təxirə salındı. Vertolyot qəzasında həlak olanlar içərisində rus milliyyətindən olan yüksək çinli hərbçilər və Qazaxıstan Daxili İşlər Nazirinin müavini də vardı. Azərbaycan Respublikasının prokurorluğunun istintaq idarəsinin rəisi Adil Ağayevin məlumatına görə kənardan vertolyota atəş açılmış, sürücü yaralanmış və idarəetməni itirmişdir, nəticədə vertolyot yerə çırpılaraq yanğın baş vermişdir [3]. 1991-ci ilin sonlarına doğru SSRİ məkanında ictimai-siyasi vəziyyətin mürəkkəbləşməsi imperiyanın çökməsinə gətirib çıxarırdı. Yeltsin, Kravçuk və Şuşkeviçin rəhbərliyi altında Burbulisin, Qaydarın, Şaxray, Kozırevin, İlyuşinin aktiv fəallığı nəticəsində mart referendumu əsasında razılaşma imzalayaraq geosiyasi arenada SSRİ-nin fəaliyyətin dayandırılmasına, "Müstəqil Dövlətlər Birliyi"nə imza atdılar [16]. Hakimiyyətin yuxarı dairələrində siyasi prosesləri müəyyən istiqamətə yönəltməyi bacaran qüvvələrin fəallaşması regionlarda etnik problemləri daha da gərginləşdirirdi. "Kiçik dövlətlər çox zaman xarici müdaxilələrin, böyük dövlətlər isə daxildəki xəyanətin nəticəsində məhv olur" deyən XVIII əsr fransız filosofu Şarl Monteskyönün fikirlərini SSRİ-

nin timsalında görmək olardı. 1991-ci il dekabrın 8-də Yeltsin, Kravçuk və Şuşkeviçin Belovejsk müqaviləsilə SSRİ-nin süqutunu reallaşdırdı [20; 20 a.].

XX yüzilliyin əvvəllərində bolşeviklərin hakimiyyətə gəlməsi ilə SSRİ-nin yaranması dünya tarixində nə qədər əhəmiyyətli hadisə hesab olunmuşdursa, həmin əsrin sonlarında SSRİ-nin süqutu da həmçinin əhəmiyyətinə görə geosiyasətdə önəmli məsələlərdən biri hesab edilirdi. SSRİ müharibəsiz və öz hərbi gücünün ən "pik" nöqtəsində süquta uğradı və Qarabağ problemi SSRİ-dən Rusiya Federasiyasına bu günümüzə kimi "miras" qaldı [19]. Siyasi və iqtisadi sahədə çox böyük çatışmamazlıqlar olmasına baxmayaraq, SSRİ dövlət başçısı qərbdə "islahatçı" kimi xatırlanır [4]. Sonralar "...Türkiyədəki Amerika Universitetində M.S.Qorbaçov çıxışı zamanı vurğulamışdır ki, "Həyatımın məqsədi insanlar üzərində dözülməz diktatura olan kommunizmi məhv etməkdir" [18]. Sov. İKP. MK-nın Baş katibi M.S.Qorbaçovun islahatçı olması təqdirəlayiq hadisə kimi qiymətləndirilsə də, onun siyasətində ikili mövqe nümayiş etdirməsi, hadisələrə birtərəfli, "xristian təəssübkeşliyi" prizmasından yanaşması, bir sıra xalqların həyatında faciələrə səbəb olması və digər amillər pozitivlərin dəyərləndirilməsinə imkan vermirdi.

Azərbaycanlıları millət kimi məhv etməyi, Dağlıq Qarabağı ələ keçirməyi hədəf kimi götürən erməni və onların xarici havadarları respublikada ictimai-siyasi vəziyyətin kəskinləşməsinə çalışır, öz əlaltıları vasitəsilə buna nail olmaq üçün nə mümkündürsə edirdillər [5].

Ermənilər Dağlıq Qarabağın Azərbaycan kəndləri olan Cəmilli, Meşəli, Kosalar, Kərkicahan, Malıbəyli, Quşçular, Baç Güneypəyə, Manik, Xatınbəyli və s. ərazilərdə müxtəlif vaxtlarda saysız qətl və qarətlər törədərək insanlara müsibətli işgəncələr vermişlər. 1991-ci il dekabrın 15-də Əsgəran rayonunun Cəmilli kəndi işğal olundu. Cəmilli kəndinin işğalı nəticəsində 2 nəfər öldürülmüş, bir nəfər yaralanmış, 596 nəfər öz doğma yurdlarından didərgin düşmüşdülər. 1991-ci il dekabrın 21-də Meşəli kəndinə erməni hərbi birləşmələrinin hücumu zamanı 25 nəfər öldürülmüş, iki nəfər girov götürülmüş, 14 nəfərə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilmişdir [6,1].

Ermənistan Respublikasının bütövlükdə elan olunmamış müharibədə iştirakı və hərbi birləşmələrin təlim-məşqlərində hərbi mütəxəssislərdən kifayət qədər yararlanması nəticəsində Azərbaycan Respublikasının Qarabağ bölgəsində işğal olunan ərazilər daha da genişlənirdi. Erməni silahlı birləşmələri tərəfindən 1992-ci il fevralın 11-də Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin pulemyot, avtomat silahlardan və zirehli texnikalardan atəşə tutulması nəticəsində dinc sakinlərdən 10 nəfər, 6-sı Malıbəyli, 4-ü Quşçular kənd sakini olmaqla qətlə yetirilmişdilər. Həmin vaxt kənd sakinlərindən 5 nəfər, 2-si Malıbəyli, 3-ü Quşçulardan olmaqla kəndi tərk edə bilməyib itkin düşmüşdür. Hər cür silahlarla silahlanmış ermənilər kəndi tərk edərək Ağdam istiqamətində gedən silahsız əhalini gülləbaran etmişdilər. Malıbəyli kəndindən 25 nəfər, Quşçular kəndindən isə 20 nəfər Ağdam rayonu Abdal-Gülablı istiqamətində silahlılar tərəfindən atəşə tutularaq ağır dərəcəli xəsarətlər almışdılar. Müxtəlif vaxtlarda onlar azad olunsalar da, işgəncələr nəticəsində almış olduqları xəsarətlərin təsirindən vəfat etmişdirlər. İşğal nəticəsində Malıbəyli kəndinin 2223 nəfər, Quşçular kəndinin isə 844 nəfər azərbaycanlılardan ibarət əhalisi deportasiya olunmuşdur [6,2].

Belə bir məqamda Xocalı şəhəri mühasirə vəziyyətində qalaraq çox ağır günlərini yaşayırdı. 1992-ci il fevralın 13-ü sonuncu dəfə Xocalıya helikopterlə ərzaq məhsulları gətirilir. Bir tərəfdən, əhalinin təhlükəsizliyi üçün heç bir təminatın olmaması, digər tərəfdən, Bakıda siyasi vəziyyətin gərginləməsi xeyli ümidsizlik yaratmış, hadisələrin sonrakı inkişafının faciəvi sonluqla bitəcəyi fikri yaradırdı. 1991-ci il dekabrın 17-də Xocalıdan respublika rəhbərliyinə göndərilən teleqramda erməni və rus hərbçilərinin işğalçılıq siyasəti pislənilir və bildirilirdi ki, onlar Əsgəran və Xankəndi arasında koridor açmağa nail olmaq üçün bütün vasitələrdən istifadə etməyə hazırdırlar. Teleqramda göstərilirdi ki, "biz təcili kömək istəyirik" [7].

SSRİ Müdafiə naziri marşal Şapoçnikov Şuşadan və Xocalıdan Xankəndinə tez-tez atəş açıldığı haqqında xəbərdarlıq edirdi. Bununla da, Xocalıya basqın üçün zəmin hazırlanırdı. "1992-ci il fevral ayının 24-də saat 21,15 dəqiqədə general rütbəsi almış Y.Zarviqarov zabitlər önündə belə bir çıxış edir ki, regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir" [15] və bununla da, ermənilərə sadiq olmalarını nümayiş etdirirdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Rusiya Federasiyasının Xankəndindəki 366-cı alayının köməkliyi ilə Xocalı qətliamı həyata keçirildi. Əslində, bu Azərbaycan xalqının əzmini qır-

maq üçün həyata keçirilən soyqırımı siyasəti idi. "Xocalı faciəsi dünya soyqırımları ilə bir sırada dayanan, erməni terrorizminin mahiyyətini bütövlükdə ortaya qoyan beynəlxalq cinayət faktıdır. Bu faktın dünyaya və gələcək nəsillərə çatdırılması üçün çox işlər görülməlidir. Dünya Xocalı soyqırımını bu qəbildən olan Xatun, Naqasaki kimi faciələrlə bir sırada qəbul etməlidir" [10]. Eyni zamanda Fərqanə şəhərində baş vermiş qarşıdurmadan zərər çəkmiş, əzab-əziyyətlərə düçar olaraq Azərbaycanın Xocalı şəhərinə pənah gətirmiş Məhsəti türklərinə qarşı da ermənilər ağır işgəncələr verməklə soyqırımı törətmişlər [24]. Xocalı soyqırımının törədilməsində başlıca rol oynamış Ermənistanın hazırkı prezidenti Serj Sarkisyan bu qətliamı törətdiklərini etiraf etmişdir: "Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, bizimlə zarafat etmək olar və elə bilirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Ancaq biz bu stereotipləri qıra bildik" [21]. SSRİ-nin Xankəndində yerləşmiş 366-cı motoatıcı alayı ermənilərin azərbaycanlılara qarşı soyqırımı həyata keçirməkdə lazımi köməklik göstərdi. 1992-ci il fevralın 26-da erməni hərbi birləşmələri Xocalıda soyqırımı həyata keçirməkdə bir neçə məqsəd güdürdülər. İlk növbədə, əhalidə qorxu yaradıb ətraf ərazilərin də boşaldılmasına tezliklə nail olmaq, ikincisi, əhalinin hakimiyyətə qarşı baş qaldıra biləcək narazılıqlardan istifadə edərək siyasi vəziyyəti daha da gərginləşdirməyi düşünürdülər. 1992-ci il martın 6-da Dağlıq Qarabağda baş verən uğursuzluqlardan sonra Ayaz Mütəllibov istefaya göndərildi. Prezidentin vəzifələrinin icra olunması Yaqub Məmmədova həvalə olundu. Eyni zamanda Azərbaycan Ali Sovetinin xüsusi qanun qəbul etməsi nəticəsində prezidentin yaşayışının təmini üçün təqaüd, 10 nəfərdən ibarət xüsusi mühafizə, xidməti maşın və digər toxunulmazlıq hüququ verildi [14].

Xocalı faciəsi ilə əlaqədar istintaq komissiyasının hazırladığı sənəddə o zaman hakimiyyətdə olmuş dövlət başçısının soyqırımın qarşısının alınmasında lazımi tədbirlər görə bilməməsi qeyd olunur. Eyni zamanda istintaq komissiyasının yekun qərarında oxuyuruq: "... Xankəndidə yerləşən MDB Silahlı Qüvvələrinin 4-cü ordu, 23-cü diviziyası, 366-cı motoatıcı alayının şəxsi heyəti və hərbi texnikasının iştirakı ilə Yuxarı Qarabağın Kərkicahan, Meşəli, Cəmilli, Malıbəyli, Quşçular, Qaradağlı və sair kəndlərinə vəhşicəsinə basqın edib, əhaliyə divan tutması, doğma yurdlarından zorla qovulmalarını bildiyi halda, həmin motoatıcı alayın Xankəndindən çıxarılmasından ötrü ciddi tədbirlər görməmiş, alayın törətdiyi cinayətləri qarşısını almaqdan ötrü, qəti siyasi tədbirlərə əl atmamış, Rusiya dövlət başçılarına etirazlar göndərməmiş, beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə 366-cı alayın cinayətkar hərəkətləri barədə məlumat çatdırılması üçün tədbirlər görməmişdir" [8]. Xocalı şəhərində rəsmi məlumata görə 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca vəhşicəsinə öldürülmüş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Faciə zamanı 1000 nəfər dinc sakin müxtəlif dərəcəli xəsarət almışdır. Ermənilərin törətdikləri cinayət zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmiş, 56 nəfər diri-diri yandırılmışdır [13]. "Memorial" hüquq-mühafizə mərkəzinin Xocalı şəhərinin işğalı zamanı insan hüquqlarının kütləvi pozulması faktları barədə məlumatında deyilir: "... Dörd gün Ağdama 200 meyit gətirilmiş, onlarca meyitə təhqirə məruz qalma əlamətləri olmuşdur" [9].

Araşdırmalar nəticəsində məlum olur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində azərbaycanlılar yaşayan ərazilərin işğalına və əhalinin qətliamına biganə qalan beynəlxalq təşkilatların etinasızlığı ermənilər soyqırımı törətməyə şərait yaratdı. Hərbi və bəşəri cinayətlərə biganə qalan, regional münaqişələrdən geosiyasi maraqlar kontekstində yararlanan, "xristian təəssübkeşliyi"nə "sadiq" dövlətlər separatçılara dəstək verməkdən çəkinmədilər. 1992-ci il aprelin 1-də Xankəndidə ATƏT-in fəaliyyətdə olan sədri Çexoslovakiyanın xarici işlər naziri İ.Dinsbir "Dağlıq Qarabağ Respublikası" nın rəhbərləri ilə görüşdən məmnun qalmışdı" [23].

Xocalı hadisəsi təkcə Azərbaycana, onun xalqına qarşı deyil, bəzəriyyətə qarşı törədilmiş ən ağır, misli görünməmiş cinayətdir. Çünki Xocalıda yalnız insanlar qətlə yetirilmədilər, insanlıq qətl edildi. Tarixdə olmamış yalançı soyqırımını dünyaya təbliğ edən ermənilər Azərbaycan xalqına qarşı əsl soyqırımı törətdilər.

Xocalı faciəsinə əsl tarixi və hüquqi qiyməti, ilk dəfə olaraq Ulu öndər Heydər Əliyev vermişdir. 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə Xocalı faciəsinin bəşər tarixində qara ləkə kimi qalacağını bildirən və ona bütün insanlığa qarşı cinayət kimi qiymət verən Prezident Heydər Əliyev hər il 26 fevral, saat 17^{00}-ı sükut dəqiqəsi elan etmişdir.

Mənbələr və ədəbiyyat

1. Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2003, s. 312
2. "Azadlıq qəzeti", 1991-ci il 15 oktyabr, №48 Y.Bonnerin yeni məktubları ("Nezavisimaya qazeta"dan).
3. "Ayna qəzeti", 1991 Aprel, №16 (36)
4. "Ayna qəzeti", 1991 Aprel.№16 (36)
5. "Azadlıq qəzeti", 1992-ci il 14 yanvar.
6. Azərbaycan Respublikasının Baş Prokurorluğu. http://www. genprosecutor. gov.az/?/ az/content/ 171/
7. Историяескийе факты о деяниях амян на Азербайджанский земле. Баку 2009, с. 110-111.
8. "Azərbaycan qəzeti", 3 dekabr 1993-cü il.
9. Akif Aşırlı. Türkün Xocalı soyqırımı. Bakı, "Nurlan", 2005, s. 135.
10. Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı, 2008.
11. Məmmədov N. Qarabağda erməni terrorçularının vəhşilikləri və qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaradılması. // Dirçəliş XXI əsr İyul-avqust, sayı 147-148. Bakı, 2010, s. 354.
12. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011). Bakı: Letterpress, 2012, s. 77
13. Hacıyev Q.Ə. "Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi". – Bakı: "Tək-nur", 2014, s. 100-101.
14. Муталибов А.Н. Материал из Википедии - свободной энциклопедии. https://ru.wiki-pedia.org/wiki/ Муталибов,_Аяз_Ниязи_оглы
15. Novruzoğlu R. GENOSİD...ECOSİD. Bakı, "Adiloğlu" nəşriyyatı, 2006, s. 60.
16. "Беловежский сговор"–разрушение СССР и вместе с ним расчлененииетерритории исторической России. http: //www. rusidea. org. 8.12.991.
17. Эфендиев О.Ф. Вооруженные конфликты и военные преступления на Центральном Кавказе: международно-правовой аспект. Баку: Кавказ, 2006, с.178.
18. Личное Дело Владимир Крючков. Москва «ЭКСМО». «АЛГОРИТМ КНИГА» 2003 год, с. 3.
19. Медушевский А.Н. Перестройка и причины крушения СССР с позиций аналитической истории // Российская история, Москва: Наука, 2011, № 6, с. 3-30.: Сухоруков А.В. Трагедия великой державы: национальный вопрос и распад Советского Союза // Отечественная история, Москва: Наука, 2006, № 4, с. 197-198.
20. Нартов Н. А., Нартов В. Н. Геополитика. Москва, Юнити-Дана: Единство, 2007, с. 160.

20a. Янаев Г. И. ГКЧП против Горбачева. Последний бой за СССР. М. : Эксмо, 2010, с.139, Лаптев И. Д.Власть без славы. Москва: Олма-Пресс, 2002, с.3-5

21. От Майындорфа до Астаны: принципальные аспекты армяно-азербайджанского нагорного-карабахского конфликта под ред. Г.М.Алексейеве. М., 2010. 552с.;
22. Свобода №4 (4) 3 октября 1991. Шаин Гаджиев. Коммюнике-новое секретноеоружие.
23. Султанов Ч.А. Последний удар Империи. Баку, 20 января 1990 г., Баку – 2004, с. 502.
24. Юсиф Газыев. Кто кого подвергал геноциду?. Баку, издателство «Университет Хазар», 2011, с. 387.

МАССОВАЯ РЕЗНЯ АРМЯН В НАГОРНОМ КАРАБАХЕ. ХОДЖАЛИНСКИЙ ГЕНОЦИД

Резюме

В статье показаны события, происходившие в период военных действий между Азербайджаном и Арменией, отражающие оккупацию армянами территорий Нагорного Карабаха, где проживали азербайджанцы, преступления, совершаемые армянами, их бесчеловечные действия, противоречащие законам войны. В то же время, факты доказывают, что и до трагедии, произошедшей в Ходжалы, происходили преступления, схожие по характеру и имеющие тот же самый почерк. В статье подчеркнуто, что официальные лица Российской Федерации, являющейся преемницей СССР, поддерживают сепаратизм исходя из своих геополитических интересов. В результате проведенного исследования было выяснено, что трагедия, произошедшая в Ходжалы, является общечеловеческим преступлением, схожим по характеру с геноцидами, происходившими в мире ранее.

MASSACRES COMMITTED IN DAGHLIG GARABAGH (NAGORNY KARABAKH) BY ARMENIAN. KHOJALY GENOCIDE

Summary

In the scientific article has given into the attention the events that took place during the war between Azerbaijan and Armenia, reflecting the occupation of Nagorno-Karabakh territories by Armenians where Azerbaijanis lived, all carried out crimes were contrary to the laws of war and all their acts were inhuman.

At the same time, from the facts has shown that before the tragedy in Khojaly, there were crimes that are similar with the characters and have the same handwritings. In the scientific article pointed out that the officials of the Russian Federation, which was the successor of the USSR, supported separatism on the basis of its geopolitical interests. As a result of the investigations it was found that the tragedy happened in Khojaly was a universal crime, similar with the nature to genocides that happened in the world before.

Bəxtiyar Həsənov
Azərbaycan MEA-nın A.A.Bakıxanov adına
Tarix İnstitutunun Qarabağ tarixi" şöbəsinin elmi işçisi

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI TÖRƏTDİYİ KÜTLƏVİ QIRĞINLAR

Açar sözlər: Azərbaycan, Qarabağ regionu, Şuşa, Zəngəzur, Cavanşir, Cəbrayıl, soyqırım.
Keywords: Azerbaijan, Karabakh region, Shusha, Zangezur, Cavanshir, Gabraiel, genocide.
Ключевые слова: Азербайджан, Карабахский регион, Шуша, Зангезур, Джаваншир, Джабраил, геноцид.

XX əsrin əvvəllərində dünyada baş verən tarixi hadisələr dünyanın sosial-iqtisadi və siyasi sistemində parçalanmalara, çox böyük çaxnaşmalara yol açmışdır. Bu dövrdə xalqımız çox çətin tarixi hadisələrlə üzləşməli olmuş, sözün əsl mənasında ölüm-qalım mübarizəsi vermişdir.

XX əsrin əvvəllərində və sonunda öz müstəqilliyini elan etmiş Azərbaycan xalqı üçün uğurlu hesab edilsə də, eyni zamanda faciələrlə dolu bir əsr kimi tarixin yaddaşında qalmışdır.

Ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı cinayətləri özünün siyasi qiymətini Ümummilli lideri Heydər Əliyevin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanında tapmışdır. "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda qeyd edildiyi kimi, Azərbaycanın XIX-XX əsrlərdə baş vermiş bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini yad etmək məqsədilə 31 Mart Azərbaycanlıların soyqırımı günü elan edilmişdir [7].

"Ermənilər 1905-ci ildən başlayaraq Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törətdilər. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti Qarabağda daha faciəli şəkil aldı" [14, s.38].

XX əsrin əvvəllərində 1905-1906-cı illər və 1918-1920-ci illər ermənilər tərəfindən Azərbaycanın bütün ərazilərində törədilmiş faciələrin ən dəhşətlisi o dövrdə Qarabağın Zəngəzur və Şuşada qəzalarında baş verən hadisələr idi ki, o dövrdə ermənilər törətdikləri soyqırımları ört-bastır edərək bu vəhşilikləri gizlətmək üçün baş vermiş hadisələri türklərin ermənilərə qarşı törətdiyi vəhşilik kimi qələmə verməyə çalışmışlar. Bəzi böyük dövlətlər erməni təbliğatının aparılmasına şərait yaratmışdılar.

Hiyləgər ermənilər açıq surətdə "Daşnakstyun" başda olmaqla siyasi partiyalar və terror təşkilatları vasitəsilə regionda Avropa dövlətlərinin (RSFSR xarici işlər komissarı G.Çiçerinin dediyi kimi: "Şərqdə işğalçılıq siyasəti yürüdən xarici kəşfiyyatın agentləri satqın, yaltaq və xain erməni daşnaklarıdır") [8, s.4], digər daşnaq qrupları isə S.Şaumyan başda olmaqla Rusiya bolşeviklərinin siyasi-iqtisadi maraqlarına xidmət edirdilər. Ayri-ayri dövlətlərin siyasi maraqlarına xidmət etmələrinə baxmayaraq, hər iki qrupun fəaliyyəti erməni kilsələri tərəfindən idarə olunurdu.

1905-1906-cı illərdə rus inqilabı dövründə regionda ermənilərin fəallaşması çar Rusiyasının mənafeyinə uyğun olduğu üçün qəzaları idarə edən rus məmurları yaranmış millətlərarası münaqişədə ermənilər dəstəkləmiş, azərbaycanlı əhaliyə qarşı ermənilər tərəfindən törədilmiş vəhşiliklərə və zorakılıqlara nəinki göz yummuşlar, hətta ermənilərə bütün vasitələrlə dəstək vermişdilər [26, s.112].

Tarixi araşdırmalar göstərir ki, 1903-1904-cü illərdə daşnak terrorçusu Vazgenin rəhbərlik etdiyi terror qrupu bu illər ərzində Şuşa şəhərində və onun ətraf kəndlərində say hesabı ilə 500 nəfərdən çox Azərbaycan türkünü qətlə yetirmişdir [10, s.9].

1905-ci ilin avqust ayında ermənilər Qarabağda çaxnaşma yaratmaq üçün bir neçə azərbaycanlını və rus millətindən olan vəzifəli şəxsi qətlə yetirdilər. Yenə bu tarixdə divana qulluq edən bir müsəlmanı rus xəzinəsinin qabağında ermənilər tapança ilə vurub öldürür. Şuşa şəhərinin müsəlmanlarından ehtiyat edən ermənilər acizanə surətdə müsəlmanlardan üzrxahlıq etdilər ki, həmin ləzgini rus bilib öldürüblər. Ona görə qatilin bağışlanmasını xahiş edirlər [17, s.24].

Erməni Kiki Kələntərov general Qalaşapova on min manat rüşvət vermişdi. Generala verilən rüşvətdən əlavə atılan hər topun atəşinə görə 15 manat, əsgərlərin atdığı hər bir gülləyə görə 1 manat

pul verəcəkdi. Bunun müqabilində general Qalaşapov Şuşada yaşayan azərbaycanlıları tamamilə məhv edəcəyini öz üzərinə götürmüşdü [16, s.51].

Çar Rusiyasının Qafqaza göndərdiyi general Qalaşapovun müsəlmanlara iblis münasibəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə ayaqlandırsınlar [18, s. 61]. 1906-cı ilin iyul ayının 12-də bir neçə gün bundan qabaq ölmüş erməni meyidini generala nişan verib, "budur bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər" deməklə onsuzda bəhanə axtaran general Qalaşçapov şəhərin Köçərli məhəlləsini topa tutmaq əmrini vermişdir. Bunun ardından kazak dəstələri ilə birlikdə on minə qədər daşnak dəstələri Azərbaycanlılara qarşı hücuma keçdilər.

Dava başlayanda ermənilərə və ruslara qarşı vuruşan ancaq Qalada yaşayan müsəlman igidləri və cavanları idi. Onlara yalnız 3 gündən sonra kömək gəlmişdir.

Ermənilər qarşılarına çıxan insanları güllələyir, onları ölmüş halda, ya da diri-diri ocağa atıb yandırırdılar. Şuşada toplardan açılan atəş nəticəsində minlərlə ev dağıdılmış yüzlərlə insan qətlə yetirilmişdir.

Bunlara baxmayaraq, azərbaycanlılar igidliklə vuruşaraq ermənilərin və rusların daha çox itgi verməsinə nail oldular. General Qalaşapov azərbaycanlıları belə qalib görüb çox məyus olmuşdur. Müharibənin altıncı günü ayin 18-də general Qalaşapov hər iki tərəfdən bir neçə vəkil götürüb müsəlman hissəsinin fikrini öyrənməyə gəlir. Söhbət zamanı "bir quru barışıqdan ötrü işi bu məqama çıxardınız"- deyib ağlamışdır [18, s. 62].

"Kaspi" qəzetinin 13 yanvar 1906-cı il tarixli sayında qeyd edilir ki, dekabrın 25-də (1905-ci il-H.B) ermənilərlə toqquşma nəticəsində 70 nəfər ağudili qətlə yetirilmiş, 30 ev yandırılmışdır. Ermənilərin 278 nəfər Dərabas kəndinin "tatarlarını" öldürdüyü xəbəri verilirdi [25].

1905-ci il dekabrın 26-da erməni silahlıları Dərəbas kəndində azərbaycanlı evlərinə hücum edirlər. Erməni müəllifi A-Do erməni vəhşiliyini belə etiraf edir: "Evlərində gizlənmiş ermənilər köməyə gələnlərin qışqırıqlarını eşidən kimi, vəhşiləşmiş kimi küçəyə atıldılar, türklərin evlərinə hücum edərək, talan edib yandırdılar. Onlar yanğınları və talanları davam etdirərək, yuxarıda adları çəkilən evlərə çatmışdılar, hansı ki, orada türklər böyüklü-kiçikli, arvadlı-uşaqlı sığınacaq tapmışdılar. Ermənilər burada cinayətkarlığın ən dəhşətli formasını həyata keçirdilər. Onlar bu üç evə od vurub, insanları içində sağ-sağ yandırdılar. Cinayət alovlar və dağıntılar içində həyata keçirildi və çoxsaylı insanlar məhv oldu. Biz o yanmış evlərin insan sümükləri ilə qarışmış külünü gördük və sarsıldıq, o qatilləri, daha çox da dəhşətli cəhənnəmi törədənləri lənətlədik... öldürülmüş, yandırılmış, meyitləri səpələnmiş adamların sayı 272 nəfərə çatırdı" [19, s.138]. A-Do Dərəbasda törədilən bu cinayətin yerli hakimiyyətin ciddi araşdırılmasını münasib görmədiyini, polisin yalnız bir protokol tərtib etməklə işini bitmiş hesab etdiyini qeyd edir

Ermənilərin bu vəhşiliyindən bölgədə yaşayan müsəlman əhalini qorumaq üçün Gəncə şəhərində o dönəmin ziyalıları bir müdafiə komitəsinin yaradılmasını qərara almışdılar.

Erməni terrorunu dəf etmək üçün Azərbaycanlıların yaratdığı "Difai" təşkilatının böyük rolu oldu. Bu təşkilat 1905-ci ildə Əhməd bəy Ağayev tərəfindən Gəncədə yaradılmışdı. Onun Gəncədə, Şuşada, Qarabağda yerli bölmələri fəaliyyət göstərirdi (3.1, s.22).

Polyak əsilli Amerika tədqiqatçısı T. Svyatoxovski haqlı olaraq dünya mətbuatının 1905-1906-cı illər hadisələrini ermənipərəst mövqedən işıqlandırdığını yazır. Müəllif həmçinin qeyd edir ki, daşnak dəstələrinin əli ilə endirilən zərbələrin ağrısı Azərbaycanın müsəlman icmasını birləşdirmək yolunda özünəməxsus katalizator rolunu oynamışdır. T. Svyatoxovski 1905-ci ilin sonlarında Gəncədə yaradılan "Difai" partiyasının rus-erməni birliyinin real təhlükəsini dəf etmək məqsədilə gizli siyasi struktur kimi meydana çıxdığını qeyd edir [Bax: 13, s.145-158].

1905-1906-cı illərdə Qarabağın qəzalarında erməni silahlı dəstələri tərəfindən Şuşa qəzasının 12 kəndi: Quşçular, Xankəndi, Xocalı, Qacar, Qaradağlı, Vərəndəli, Divanallar, Hacuz, Avdal, Veysəlli, Ağbaş, Gülablı, Cavanşir qəzasının 17 kəndi: Sırxavənd, Yeddi qışlaqlar, Çıraxlı, Qərvənd, Məmərzələr, Arnatala, Buruc, Dəmirlər, Güney Payalar, Manikli, Süleymanbəyli, Əliağalı, Kəngərli, Papravənd, Qarapirim, Umudlu, Qərvənd-İmarət, Cəbrayıl qəzasının 5 kəndi: Qaradağlı, Givzlıq (?), Qışlaq, Aşıq Məlikli, Məzrə, Zəngəzur qəzasının 43 kəndi: Bayandur, Halak (?), Binayeri, Koralar, Malıbəyli, Cağazur, Çaylı, Kalavalax, Novruzlu, Cicimli, Hacılar, Bağırbəyli, Kəhriz, Ovnannar (?),

Kivrdtar (?), Ağvani (?), Danzaver, Sisyan, Ağudi, Dərabas, Pul, Arıklı (Ərikli?), Şunear (?), Məliklər, Yeməzli, Xaşdap (?), Almalı, Karxana, Qatar, Cıbıllı, Xələc, Keçi Şabadin, İncəvar, Çullu, Oxçu, Atqız, Pirdavudan, Arcazur (?), Əcilli (Acıllı?), Buğacıq, Kollu Qışlaq, Mutnacor (?), Sanalı kəndləri dağıdılmışdı [19, s. 152].

Erməni tarixçisi S.Zavaryan da təsdiq edirdi ki, 1905-ci ildə azərbaycanlılar qırğına məruz qalan zaman, Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43, cəmi 75 müsəlman türk kəndi yandırılıb, dağıdılmışdır [23, s. 61].

"1905-ci ilin fevralında Bakıda başlayan qirğınlar 1906-cı ilə qədər davam etdi. Bu qırğınlar nəticəsində 50 mindən artıq azərbaycanlı qətlə yetirildi, yüzlərlə yaşayış məntəqəsi dağıdıldı. Təkcə Qarabağ və Zəngəzurda 200-dən artıq kənd yandırılıb məhv edilmişdi" [12, s.118].

1912-ci ildə Rusiya imperiyası Xarici İşlər Naziri S.D.Sazonov Nazirlər Kabinetindəki məruzəsində"Rusiyanın məqsədi, nəyin bahasına olursa-olsun, türklər, kürdlər və bizim tatarlar arasında olan səddi - Ermənistanı yaratmaqdır" söyləməklə ermənilərlə bağlı plan və məqsədlərini açıqlamışdır [22, s.74].

Qafqaz ordusunun qərargah rəisi general-mayor Bolxovitinov 11 dekabr 1915-ci ildə yeni təyin edilən canişin knyaz Nikolay Nikolayeviçə göndərdiyi raportunda yazırdı ki, Voronsov-Daşkovun canişin təyin edilməsindən sonra Qafqazda ermənilər üçün çox əlverişli şərait yaranmış, həmin vaxtdan etibarən ermənilərin başçıları bir zamanlar "erməni məsələsi"ndən ötrü üz tutduqları Qərbi Avropa dövlətlərindən əllərini üzüb, Türkiyədə yaşayan ermənilərin vəziyyətinin yaxşılaşdırılması üçün ümidlərini Rusiyaya bağlamışdılar [27, s.14].

Qərb dövlətləri Birinci Dünya müharibəsi başlamamışdan qabaq ermənilərin Türkiyə və Azərbaycan ərazisində terrorçuluq fəaliyyətlərinə yaxından kömək göstərmişdilər. İrandakı ingilis hökumətinin agenti ermənilərə silah paylayır, İran hökuməti isə İranda yaşayan ermənilərin Türkiyəyə qarşı hərəkətinə mane törətmirdi. İran konsulları (xüsusən İrəvan konsulu) ermənilər İran pasportları ilə təmin edirdilər [24, s.49.

Bu dövrdə Avropa ölkələrində erməni məsələsinin siyasət aləminə daxil olunması təmin edilmiş, erməni "Daşnaksütyun" partiyasının əsas qüvvələri Cənubi Qafqaza, xüsusilə, Bakıya yığılmış və onlar "Böyük Ermənistan" yaradılması üçün yeni taktikaya keçmişdilər. Rus, eləcə də ingilis, fransız hökumətləri ilə bağlı olan və onlara xidmət edən "Daşnaksütyun" partiyası "Böyük Ermənistan" xəritəsini əllərində gəzdirərək, millətlər arasında, xüsusilə Azərbaycanda gərginlik yaradaraq, azərbaycanlılara qarşı düşmənçiliyi daha da qızışdırırdı. Erməni şovinist millətçilərinin bu hərəkətləri, hətta, Cənubi Qafqazda bütün partiyaların narazılığına səbəb olmuşdu... Bu dövr daşnak partiyasının mürtəce sifəti artıq kimsəyə sirr deyildi. Bu baxımdan maraqlıdır ki, hətta, 1917-ci ilin sentyabrında erməni eserlərinin konfrası daşnaklarla blokdan imtina etmişdi [6, s.169-175].

Vanda fəaliyyət göstərən xarici təmsilçilərin arasında İngilis konsulluğu, Amerikan missionerləri və Rusiya təbəəli bəzi adamlar diqqəti cəlb edirdilər. Bunlar bəzən, Amerikalı missionerin evində, bəzən İngilis konsulluğunda toplanarak görüləcək hərəkətin planlarını məsləhətləşirdilər [2, s.39].

"Lakin 1905-1906-cı illərdə törətdikləri qırğınlar da ermənilər sakitləşdirmədi. Onlar Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək yenidən mifik "Böyük Ermənistan" dövləti yaratmağa cəhd göstərirdilər. 1915-ci ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları yeni qiyamlarda uğursuzluğa düçar olan ermənilər, əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirərək çarizmin himayəsinə sığınaraq, azərbaycanlılara qarşı soyqırımlarını davam etdirməyə başladılar" [14, s.38] .

Məlumdur ki, hələ 1918-ci il avqustun əvvəllərində Andronik öz başkəsənləri ilə qəflətən Naxçıvan, Zəngəzur və Qarabağ torlaqlarında görünmüş və dinc azərbacanlı əhaliyə qanlı divan tutmağa başlamışdı. Bu münasibətlə Azərbaycan Demokratik Respublnkası hökuməti özünün 1918-ci il 15 avqust tarixli 461 №-li rəsmi məktubu ilə Erlmənistan hökumətinə müraciət edərək bu rüsvayçılıqlara son qoymağa və Andronikin quldur dəstəsini Azərbaycan ərazisindən geri çəkməyi tələb etmişdi. Ermənistan hökuməti həmin məktuba cavabında riyakarlıqla bildirmişdi ki,"...general Andronik, həm də onun dəstəsi artıq çoxdan erməni qoşunlarının tərkibindən və siyahısından çıxarılmışdır, bundan sonra onlar Ermənistan rəhbərliyinə, onun vəzifəli şəxslərinə tabe olmaqdan imtina etmişlər. Beləliklə, general Andronik və onun dəstəsinin Ermənistanın milli qoşunları və dövlət orqanları ilə heç bir əlaqəsi yoxdur və Ermənistan Respublikasının hökuməti onların məsuliyyətsiz hərəkətlərinə çavabdeh deyildir" [11, s. 5].

Bu cavabla hiyləgər erməni siyasətçiləri məsuliyətdən yayınmağa çalışmışdılar. Əgər həqiqətən Androniklə rəsmi Ermənistan arasıda heç bir əlaqə yox idisə, niyə Azərbaycan torpaqlarına basqın edərək günahsız adamların qanını axıdan bu quldurun azərbaycanlılara ilk müraciəti bu ərazilərdə yaşayan əhalinin təcili Ermənistan Respublikasına tabe olması tələbi olmuşdu?

1918-ci ilin yayında və payızında Sisiyan mahalının birinci polis məntəqəsinin bütün Azərbaycan kəndləri, 2-ci məntəqəsinin böyük hissəsi, 3-cü, 4-cü, 5-ci məntəqələrinin xeyli hissəsi ermənilər tərəfindən məhv edilmişdir. Bir neçə kənd ermənilər tərəfindən tamamilə torpağın üstündən silinmişdir və 50 minə qədər Azərbaycanlı qaçqın qəzanın 4-cü məntəqəsində və Cəbrayıl qəzasında məskunlaşmışdır. Rəsmi sənədlərə və şahidlərin məlumatlarına görə qəzada 115 kənd dağıdılmış və məhv edilmişdir [4, v. 6].

1918-ci ilin 12 sentyabr tarixli rəsmi məlumata görə Andronikin quldur dəstələrinin Zəngəzur qəzasına hücumları sistemli şəkildə həyata keçirilməyə başlandı. Nəticədə Zəngəzur bölgəsinin Rut, Darabe, Aqadu, Baqudı kəndləri talan edildi: Arxalı, Şyakur, Məlikli, Pulkənd, Şəki, Qızılcıq azərbaycanlı kəndləri, habelo Qarakilsə, İrlik, Pəhlulu, Dərəbas, Qurdlar, Kotanan, Sisiyan və Zəbəzdur kəndlərinin azərbaycanlılar yaşayan hissələri yandırıldı, bu zaman qaçıb xilas olmağa imkan tapmamış 500 nəfər kişi, qadın və uşaq öldürüldü [5.9, s.30]

Zəngəzur qəzasında azərbaycan kəndləri yandırılmış, əhalinin mal-qarası və əmlakı zorla aparılmış, ərazisi ermənilər tərəfindən tutulmuş və indiki vaxtda da Azərbaycanlılar buraya qayıda bilmirlər. Zəngəzur qəzasında 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 485 uşaq yaralanmışdır [4, v.7]. Qəzada ümumilikdə 10068 nəfər öldürülmüş və yaralanmışdır [4, v.8].

Beləliklə, 1918-ci ilin yayında Türkiyə hökuməti belə bir vaxtda Zaqafqaziyada baş verən hadisələri diqqətlə izləyirdi. Artıq Şərur-Dərələyəz və İrəvan - Culfa dəmir yolu istiqamətində hərəkət edən türk qoşunları Kazım Qarabəkirin komandanlığı altında Naxçıvan üzərinə yeriyirdi. Belə bir dövrdə Fransa yenə daşnakların fəaliyyətini müdafiə edirdi. Belə ki, Fransanın Yerevandakı nümayəndəsi Antanta bloku adından bildirirdi ki, Anatanta Naxçıvanda, Zəngəzurda və Qarabağda daşnakların hərbi əməliyyatına hər cür yardım göstərəcəkdir [15, s.39].

Regionda böyük dövlətlərin siyasi maraqların həyata keçirən erməni daşnakları qruplar şəklində ayrı-ayrı dövlətlərə xidmət etmələrinə baxmayaraq, böyük dövlətlər onları bir ideya ətrafında "böyük Ermənistan" naminə birləşdirib eyni cəbhədə mübarizə aparmağa məcbur etmişdilər.

A.Bukşanın "Bakı kommunası - kommunarlarının son günləri" (Bakı, 1928) kitabında verilmiş Suren Şaumyanın məhkəmə ifadəsi də bu mənada əhəmiyyətlidir. O, ifadəsində bildirmişdi: "Həbsxanadan çıxmazdan əvvəl mən yoldaş Stepanla (BXKS-nin sədri S.Şaumyan nəzərdə tutulur.- K.M.) danışa bilmişdim. O, çox fikirli halda dedi:- Sonuncu cəhd göstərmək istəyirəm, bilmirəm nə alınacaqdır. Mən istəyirəm daşnaklar, ingilislərin onları aldatdığına əmin olduqdan sonra, onlarla yenidən əməkdaşlıq haqqında məsələ qaldıram. Mən buna az inanıram, lakin ola bilər ki, biz bu yolla Bakını xilas edə bilərik" [21, s.108].

Hiyləgər ermənilər bir-birlərin hər bir vəziyyətdə müdafiə edirdilər. Məhkəmə qarşısına çıxan bu terrorist Suren məsləkdaşı Stepan Şaumyanı müdafiə etmək üçün belə ifadə vermiş, bolşevikləri inandırmağa çalışmışdı ki, Şaumyan daşnaq terrorçusu deyil. Hansı ki, məhz bu oyunu ermənilərə oynadan bolşevikləri də aldatmağa çalışmışlar.

Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra S.Şaumyan başda olmaqla özlərini Qafqazda bolşevik hakimiyyətinin qanuni numayəndələri hesab edən daşnak ermənilər əsasən Turkiyədən qaçıb gələn ermənilləri silahlandıraraq Sovet hakimiyyətini qurmaq adı altında Bakıda hakimiyyəti ələ keçirmişdilər. Məhz həmin dövrdə yaradılmış erməni silahlı dəstələri "bolşevik" qiyafəsində 1918-ci ilin martında Bakıda 15 minə yaxın müsəlman qətlə yetirilmişdilər. Həmin dövrdə ermənilər Şamaxıda, Qubada, Ağsuda, Kürdəmirdə və Lənkəranda 250-yə yaxın müsəlman kəndlərini yerlə yeksan etmiş, on minlərlə dinc əhalini qətlə yetirmiş və sağ qalanları qaçqın düşməyə məcbur etmişdilər.

1918-1919-cu illərdə Qarabağın dağlıq hissəsində 150-dən artıq, Zəngəzur qəzasında 115 kənd bütövlüklə dağıdılmış, əhalisinin xeyli hissəsi erməni silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülmüşdü. Erməni vəhşiliyi İrəvan quberniyasında və Şərqi Anadoluda misli görünməmiş həddə çatdırılmışdır. Təkcə 1918-ci ildə İrəvan quberniyasında 211, Qars vilayətində isə 82 kənd dağıdılmış, əhalisi soyqırımına məruz qalmışdır. 1916-cı ildə İrəvan quberniyasında 373582 nəfər yaşadığı halda,

1920-ci noyabrında cəmisi 12 min nəfər Azərbaycanlı qalmışdı. Ümumiyyətlə, təkcə 1905-1920-ci illərdə indiki Ermənistan ərazisindən 1000-ə yaxın Azərbaycanlı kəndləri dağıdılmış, əhalisi soyqırıma məruz qalmışdır [20, s.77-78].

Demək olar ki, əsrin əvvəllərində erməni daşnaqları Avropa dövlətlərindən aldıqları silah-sursatla təkcə Şimali Azərbaycanda deyil, Cənubi Azərbaycanda, Şərqi Anadoluda da minlərlə türk-müsəlmanı qətlə yetirmiş regionda ağlasığmaz cinayətlər törətmişdilər.

Beləliklə, təkcə XX yüzillikdə bir milyona yaxın azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş, 1,5 milyondan artıq soydaşlarımız indiki Ermənistan ərazisindən deportasiya edilmişdir.

Mənbələr və ədəbiyyat

1. Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti tarixindən. Bakı, Elm, 1995, 168 s.
2. Altan Deliorman. Türklərə qarşı erməni komitələri. İkinci nəşri, İstanbul, Bağıçı Başım və Yayıcı evi, 1975, 360 s.
3. Aygün ATTAR (Haşimzade). Karabağ sorunu kapsamında ermeniler ve ermeni siyaseti. Ankara: Özgür Matbaa Cilt, 2005, 224 s.
4. Azərbaycan Respublikası Dövlət Arxivi, f 970, siy. 1, iş 161.
5. Azərb. EA xəbərləri; 1989, № 4 85 s.
6. Azərbaycan Kommunisti. jur., № 7, 1990, 169-175 s.
7. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Xalq qəzeti" qəz., Bakı, 1998, 27 mart, № 98.
8. "Dərələyəz" qəzeti., Bakı, 20 yanvar 2015-ci il, № 01 (45).
9. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası). Bakı: Elm, 1994. 184 s.
10. Əlisahib Əroğlu, Azərbaycanda erməni-daşnaq terrorunun xronologiyası. (bədii, tarixi publisistika), Bakı, «Təknur», 2009, 200 s.
11. "Gənclik", 1989, № 11.
12. Hacıyev Q.Ə. Qarabağ tarixi. Dərs vəsaiti.-Bakı, "Təknur" nəşriyyatı, 2014, 228 s.
13. Quliyev V. M. Azərbaycanda erməni zülmü. Bakı: Ozan, 1999, 227 s.
14. Mahmudov Y.M, Şükürov K.K. Qarabağ: Real tarix, faktlar,sənədlər. Bakı, "Təhsil", 2009. 144 s.
15. Mədətov.Q. "Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili"Azərnəşr, 1958. 164 s.
16. Məmmədov N.R. Qağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı, "Təhsil", 2009, 272 s.
17. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə Erməni-Müsəlman davası. Bakı: Azərbaycan nəşriyyatı, 1993, 128 s.
18. Ordubadi M.S. Qanli illər. Bakı: Qarabağa xalq yardımı komitəsi,1991,144s.
19. Mustafayev N.Y. "1905-1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar" dissertasiyası işi. Bakı - 2014. 196 s.
20. Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım.Qaçqınlıq. - Bakı: "Qartal", 1998. – 280 s. http:// www. anl. az /el/a/av_tqs.pdf
21. Ариф Мансуров. Белиепятна исторри и перестройка. Баку, 1990. 224 с.
22. Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку, 2003, 168 с.
23. Заварян С. Экономические условия Карабаха и голод 1905-1907 гг. Перевод с армянского, Санкт Петербург (СПб), 1907. 61 с.
24. Канадеев И.К. Очерки Закавказской жизни. Баку, Азербайджанской Советской Энциклопедии, 1990, 122 с.
25. К событиям в Эриванской губернии. Газ."Каспий", Баку, 1906, 13 января, № 10.
26. "Армянский Геночид" Миф и реалыности. Баку, 1992, 341 s.
27. Рапорт генерал-майора Болховитинова о деятельности армянских вооруженных отрядов в Турции и Закавказье в Первую Мировую войну. Баку: Азернешр, 2011, 144 с.

THE MASSACRES COMMITTED BY THE ARMENIANS AT THE BEGINNING OF THE XX CENTURY IN GARABAGH REGION OF AZERBAIJAN

Summari

Göründüyü kimi həm "Hnçak", həm də "Daşnaksütyun" terroru əsas mübarizə üsulu kimi seçmişdilər. Erməni millətçilərinin terrora müstəsna əhəmiyyət vermələrinin səbəbi "Ermənistan" hesab etdikləri Şərqi Anadolu ərazisində erməni əhalisinin az olması idi. Rus baş ştabının polkovnik-leytenantı Qryaznov 1805-ci ildə Türkiyədə hazırladığı məlumatında yazırdı ki, 8 vilayətdə (Bitlis, Ərzurum, Van, Samsun, Trabzon, Diyarbəkir, Hələb və Adana) 5.947.785 nəfərdən cəmi 847.041 nəfəri, yəni 14%-i ermənidir [Bax: 23, 31].

Erməni millətçilərinin terroru əsas mübarizə vasitəsi kimi seçmələrinin digər səbəbi bu idi ki, onlar anlayırdılar ki, öz qüvvələri ilə Türkiyə üzərində qələbə çala bilməzlər. Bu səbəbdən də Türkiyədə hərcmərclik yaradıb, Avropa dövlətlərinin bu ölkəyə hərbi müdaxilə etməsinə nail olmağa

çalışırdılar. Erməni millətçilərinin başçıları düşünürdülər ki, ermənilərin Şərqi Anadoluda törətdikləri terror əməlləri müsəlmanların cavab zərbələrinə səbəb olacaq və beynəlxalq münaqişələr baş verəcəkdir, Türkiyə hakimiyyət orqanlarının əmniyyəıt yaratmağa yönəlmiş tədbirlərini komitəçilər Avropada soyqırımı kimi təbliğ edəcək və iri dövlətləri bu "qan tökülməyə" son verməyə çağıracaqsır. Böyük güclər bir daha belə hallar baş verməsin deyə Osmanlı dövlətini ermənilərin xeyrinə bəzi islahatlar keçirməyə məcbur edəcəklər. İslahat yolunda atılan hər addım ermənileri muxtariyyətə yaxınlaşdıracaqdır [21,91].

Türkiyənin Birinci Balkan müharibəsində (1912) məğlubiyyəti nəticəsində Osmanlı dövlətinin zəifləməsindən istifadə edən Rusiya Şərqi Anadolunu zəbt etmək məqsədi ilə "erməni məsələsi"ni yenidən gündəmə gətirdi. Qafqaz canişini Voronsov-Daşkov təklif edirdi ki, rus hökuməti Osmanlı hökumətinə qəti bəyanat verərək "ermənilərin və kürdlərin toxunulmazlığı"nı təmin etsin. Voronsov Daşkov 1913-cü ilin mayında xarici işlər naziri Sazonova göndərdiyi məruzəsində Türkiyədəki ermənilərə silah verilməsini təklif edərək bildirdi ki, Rusiya çalışmalıdır ki, Kiçik Asiyanın qonşu hissələrinə aid bütün məsələlər, başlıca olaraq "erməni və kürd məsələləri" istisnasız olaraq təkcə onun nüfuz dairəsində olsun [24, 134-135].

Eyni zamanda rus çarizmi "erməni məsələsi"ni bayraq edərək Türkiyəyə diplomatıк təzyiqi gücləndirdi. 1913-cü ilin iyununda rus hökuməti "Qərbi Ermənistan" üçün muxtariyyat layihəsi ilə çıxış etdi. İstanbuldakı rus səfirliyinin əməkdaşı A.Mandelştamın hazırladığl bu layihəyə görə "Qərbi Ermənistan"da vilayətlərə bölgü ləğv edilməli, Rusiyanın himayəsində vahid "Erməni vilayəti" təşkil edilməli idi [24,127]. Müsəlman əhalisinə nisbətdə xeyli az olsa da ermənilərə bəzi nahiyyələrdə, məclis üzvlüyündə, jandarm və polisdə müsəlmanlarla bərabər miqdarda yer ayrılırdı, erməni dili dövlət idarələri və məhkəmələrində türk dilli ilə yanaşı işlədilməli idi. Bu cür ədalətsiz layihə Osmanlı hökuməti tərəfindən qəbul edilə bilməzdi və qəbul olunmadı da [25,208;11,28].

Ancaq "erməni məsələsi" Rusiya üçün bir məqsəd deyil, müstəmləkəçi və işğalçı niyyətlərinin həyata keçirilməsi üçün bir vasitə idi. İstanbul və Şərqi Anadolunu zəbt etməyə can atan Rusiya Türkiyəni sarsıtmaq üçün orada yaşayan ermənilərdən istifadə etməyə çalışırdı.

I Dünya müharibəsi başlar-başlamaz rus hakim dairələri ermənilərdən düşmənə qarşı əməliyyatlarda istifadə etməyə başladılar.

Rusiyanın xarici işlər naziri Sazonov nazirlər şurasının sədri Qoremıkinə 1914-cü il 30 avqust tarixli məktubunda yazırdı ki, "ermənilərlə, eləcə də kürdlərlə ən sıx əlaqələr saxlamaq lazımdır ki, Türkiyə ilə münasibətlər kəsilərsə, onlardan istənilən anda istifadə etmək olsun" [26, sənəd 191, s. 184].

II Nikolay 1914-cü ilin noyabrında Tiflisdə olduğu zaman katolikos Gevorku qəbul etmiş və 15 dəqiqə davam edən söhbətdə bildirmişdi ki, "ermənileri işıqlı gələcək gözləyir"[27, 456].

Antanta, ilk növbədə Rusiya ermənilərindən iki cür istifadə etməyi planlaşdırırdı: "Türkiyə ermənilərinə "azadlıq" və hətta "muxtariyyət" vəd etməklə onların Türkiyənin özündə Osmanlı hakimiyyətinə qarşı çıxışlarına nail olmaq; 7 vilayət və Kilikiya barədə vədlərlə ağıldan çıxarılmış Rusiya ermənilərindən cəza ekspedisiyaları, avanqard, kəşfiyyat və s. kimi istifadə etmək"[28,87-88].

1914-cü il avqustun axırlarında, artıq Türkiyənin müharibəyə qoşulacağını yəqin edən Rusiya ermənileri silahlandırmağı qət etdi. Avqustun 26-da Sazonov Voronsov-Daşkova bu barədə konkret göstərişlər verdi: "Siz həzrətlərin indi ermənileri, kürdləri və aysorları silahlandırmağın hələ tez olduğu barədə fikrinizə tamamilə şərik olmaqla bərabər hesab edərdim ki, artıq indi bu xalqların dəstələrini təşkil etmək, onlara rəhbərlik etməyi həvalə etmək üçün etibarlı şəxsləri müəyyənləşdirmək, bununla bərabər həm Qafqazda, həm də İrandakı dəstələrimizin yanında lazımi silahları toplamaq gərəkdir"[29,50].

Müharibə elan edildikdən bir qədər sonra – 1914-cü il sentyabrın 24-də II Nikolay ermənilərə xüsusi müraciətlə xitab etdi. Müraciətdə "beş əsr zülm altında qalan ermənilər" üçün guya azadlıq saatının yaxınlaşdığı iddia olunur, onlar Rusiya tərəfindən vuruşmaya dəvət olunmurdular[29,12].

I Dünya vüharibəsi başlayarkən erməni Milli bürosu çar hakimiyyəti ilə ermənilərdən könüllü dəstələri yaradılması barədə razılığa gəldi. Tiflisdə Voronsov-Daşkovla doktor Zavriyev, yepiskop Mesrop, Samson Arutyunov və A.Xatisov arasında danışıqlarda Türkiyə ilə müharibə təqdirində daşnak xmbapetlərinin (drujinaçılarının – T.M.) başçılığı altında hərəsində 400 nəfər omaqla dörd könüllü drujinanın yaradılması razılaşdırılmışdı [28,94-95].

Qafqazda bir neçə yüzminlik nizami rus ordusunun olduğu təqdirdə əməli olaraq heç bir döyüş qüvvəsi olmayan 1-2 min nəfərlik erməni könüllü dəstələrinin yaradılmasında A.O.Arutunyanın dediyi kimi heç bir hərbi məqsəd güdülə bilməzdi [29,297]. Bəs çar hakimiyyəti könüllü erməni drujinalarını yaratmaqda hansı motivləri rəhbər tuturdu? Çox güman ki, erməni könüllü dəstələrini təşkil edərkən çarizm sırf siyasi və ideoloji motivləri rəhbər tutdu: 1. Hesab edilirdi ki, bu cür birləşmələrə ermənilər öz milli silahlı biliklərinin rüşeymi kimi, "Böyük Ermənistan" barədə xülyalarının gerçəkləşməsinin müjdəçisi kimi baxacaq və müharibədə çarizmə hərtərəfli yardım edəcəkdir. 2. Əgər nizami rus ordusu müttəfiqlərin,xüsusilə də Fransanın iddia etdiyi Anadolu yarımadasının Aralıq dənizi sahillərini tutardısa bu müttəfiqlərin kəsin etirazına səbəb ola bilərdi.Yəqin ki, bunun qarşısını almaq üçün çarizm könüllü erməni drujinalarını irəli verib həmin bölgəni tutmaq istəyirdi ki, məsuliyyətdən yaxa qurtarsın. 3. Şərqi Anadolunu öz müstəmləkəsinə çevirmək istəyən çarizm burada rusdilli əhalini yerləşdirmək planları qururdu və buna görə də təbii ki, oradakı yerli türk-müsəlman əhalisini sıxışdırıb çıxarmaq istəyirdi. Bunu rus ordusunun əli ilə etmək çətin idi və çarizm beynəlxalq ictimaiyyət qarşısında biabır ola bilərdi. Belə iyrənc işi türklərə nifrət bəsləyən erməni millətçilərinin əli ilə görmək daha sərfəli idi [29, 296-297].

1. Лысцов В.П. Персидский поход Петра I. 1722-1723 гг. Москва, 1951. 243 с.
2. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. в Баку, 1993, 240 с.
3. Пайчадзе Г.Г. Русско-грузинские политические отношения в первой половине XVIII в. Тбилиси, Мецниероба, 1965. 172 с.
4. Архив Внешней Политики Российской Империи (АВПРИ), фонд 77, (Сношения России с Персией), 1723.
5. Российский Государственный Архив Древних Актов. Госархив, ф. 15, д. 13, ч.2
6. РГАДА. Госархив, ф.23, оп.1, д.13.
7. АВПРИ, ф.100 Сношения России с Арменией, оп.1, д.5 (1725-1726 гг.)
8. Ананян Ж.А. Армянский просветитель Иосиф Емин//Новая и новейшая история, 1998.
9. Армяно-русские отношения в XVIII в. (1760-1800 гг.), т.IV, (Сост. А.Алеканян и др.). Ереван-1990, 588 с.
10. Величко В. Кавказ. Русское дело и междуплеменные вопросы. Санкт-Петербург-1904 г. Переиздание. Баку-1990. 223 с.
11. Esat Uras. Tarihde ermeniler ve ermeni meselesi. İstanbul-1987.
12. Памятные записки А.П.Храповицкого. Чтения в императорском обществе древнейшей Российской истории при Московском Университете: кн.2, Москва-1872.
13. Русский Архив, кн. II, 1879.
14. Российский Государственный Военно-Исторический Архив, ф.52, (Потемкины), оп.1, д. 416,ч.1.
15. РГВИА, ф.52, оп.2, д.37.
16. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı-2007.
17. Вердиева Х. Переселенческая политика Российской Империи в Северном Азербайджане. Баку-1999.
18. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833.
19. Шопен И. Исторический памятник состояния армянской области в эпохе ее присоединения к Российской империи. Санкт-Петербург, 1852.
20. Мамедова Ф. Кавказская Албания и албаны. Баку-2005.
21. Kemal Öke. Ermeni meselesi. İstanbul-1986.
22. Дашнаки (Из материалов департамента полиции). Баку, 1990. (Переиздание).
23. Саркисян Е.К. Политика Османского правительства в Западной Армении. Ереван-1972. 340 с.
24. Киракосян Дж. Западная Армения в годы Первой Мировой войны. Ереван-1971. 476 с.
25. 25.Kurat Nimet. Türkiye ve Rusya. Ankara-1990. 755 s.
26. Министр иностранных дел Сазонов председателю Совета Министров Горемыкину. 17 августа 1917 г. // Международные отношения в эпоху империализма. Сер. III, 1914-1917 гг., т.VI, ч.1 (5 августа – 13 января 1915 г.), М., 1935, док. 191.
27. Международные отношения в эпоху империализма, т. VI, ч.2. М.-Л., 1935. 388 с.
28. Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. //

«Революционный Восток» /Орган научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем, №№ 2-3 (36-37). М., 1936, с. 76-99.
29. Арутунян А.О. Кавказский фронт, 1914-1917 гг. Ереван-19

Тофиг Мустафазаде

АРМЯНСКИЙ ФАКТОР В ЮЖНОКАВКАЗСКОЙ И ПЕРЕДНЕАЗИАТСКОЙ ПОЛИТИКЕ РОССИИ (XVIII - нач. XX вв.)

Резюме

В данной статье на основании архивных материалов и других первоисточников прослеживается влияние армянского фактора в ближневосточной политике России в XVIII – нач. XX вв. Показывается, что ещё в начале XVIII века Пётр I спланировал переселение армян в прикаспийские провинции Азербайджана, чтобы создать здесь социальную опору для России. Екатерина II, взяв бразды правления в свои руки, стала строить план создания армянского государства на землях Азербайджана и Восточной Турции. Одураченные обещаниями создания мифической «Великой Армении» армяне оказывали России всякую поддержку в проведении её завоевательной политики. После присоединения Северного Азербайджана к России в начале XIX века царизм переселил сюда сто тысячами армян из Турции и Ирана.

С конца XIX века Россия настойчиво требовала проведение реформ в пользу армян в Восточной Анатолии с целью создания предпосылок для организации будущего армянского государства, зависящего от России. Одновременно русские власти спровоцировали армянских террористических организаций к вступлению против турков, в результате чего были убиты сотнями тысяч мирных жителей включая детей, женщин и стариков.

Tofiq Mustafazade

THE ARMENIAN FACTOR IN RUSSIAN POLICY TOWARDS SOUTHERN CAUCASUS AND NEAR ASIA

Abstract

The article investigates the Armenian factor of Russian policy towards the Middle East according to archive materials and soruces of XVIII-XX centuries. It is indicated that in the beginning of XVIII century Peter the Great planed to move armenians to provinces situated in the shores of Caspian Sea with the aim to create a social support for Russia. But his successor Catherine the Great planed to establish an armenian state in the territories of Azerbaijan and Eastern Turkey. Armenians who lived with the illusion about the establishment of “Great Armenia” helped to Russia in realization of their occupational policy. In the beginning of XIX century after the occupation of Nothern Azerbaijan Russia moved hundered thousands of armenians from Turkey and Iran.

In the future for providing the establishment of dependent armenian state , Russia made a great effort for realizing reforms in favor of armenians in Eastern Anatolia from the end of XIX century. At the same time the Russian governmental bodies instigated armenian terrorist organizations to act against turks and consequently, hundred thousands of peaceful inhabitants including children, women and the old were killed by armenians.

Danuta Chmielowska
Prof. Dr. Varşava Üniversitesi Türkologu

POLONYA YAYINLARINDA DOĞU ANADOLU'DA TÜRK VE MÜSLÜMAN NÜFUSA YÖNELİK SOYKIRIMLAR (1914-1920)

19. ve 20.yy. ile 1.Dünya Savaşı sırasında Doğu Anadolu'daki müslüman halkın durumu hakkında, genelde Polonyalılar bilgi sahibi değildi. Basın ajansları ve muhabirleri 19.yy. sonuyla birlikte Türk kökenli olmayan halklarla, Osmanlı arasında ihtilaflar olduğundan bahsetmemektedirler. Bununla birlikte 2.Abdülhamit zamanındaki iç siyasi çalkantılar neticesinde, Osmanlı idaresi ve Sultanlarının çok uluslu bir devlet haline gelinmesinde gösterilen hoşgörü politikalarının değiştiğini vede birlik ve beraberliğin zarar gördüğünü kabul etmek gerekir. Türk kökenli olmayan üst tabaka azınlık temsilcileri kendi güvenliklerini sağlayacaklarına inandıkları için hem yabancı sermaye ile, hemde yabancı gizli istihbarat kanallarıyla yakın ilişkiye girmeye başlamışlardır.[1] Joanna Beochenska Osmanlı İmparatorluğundaki „Ermeniler ve günümüzdeki Türkiye"[2] adlı makalesinde, Ermeni azınlığın büyük ayrıcalıklara sahip olduğundan bahsetmektedir. Ermeniler devlet kuruluşlarının yüksek kademelerinde görev yapmışlar, Batı Avrupa'dan gelen teknik ve kültürel yeniliklerle yakından ilgilenmişler vede yüksek eğitim görmüşlerdir. Anadolu'nun doğusunda, refah içerisinde yaşayan Ermeni topluluğu çok yaygın bir kültür ve bilgiyle donanmış, çok iyi organize, disiplinli bir grup olarak Ermenilere diğer halklar tarafından kıskançlık veya olumsuz gözle bakılmıştır. Bu bölgelerde siyasi krizlerle birlikte tansiyon yükselmiştir. Özellikle çöküşe geçen Osmanlı imparatorluğunun politikalarına artarak etki etmek isteyen yabancı ülkelerin ilgi kaynağını Ermeniler gibi hristiyan tebaası mensupları oluşturmaktaydı. Hristiyan Balkan halklarında olduğu gibi, İstanbul'u fethetme planları yapan Rusya karşısında Osmanlı'nın zayıf kaldığını gören Ermeniler, özerklik talep etmişlerdir. Sultan bu duruma karşı yeni anlaşmazlıklara neden olacak sert tepkiler vermiştir. Ermeniler hem Sultana, hemde yöredeki idarede etkili olan kürt aşiret liderlerine karşı sadakatsizlikle suçlanmışlardır. Ülkeyi dış güçlere vermekle, devletin temelini sarsacak eylemlerde bulunmakla, imparatorluğun çöküşünü hızlandırmakla ve prestijini kaybetmesine neden olmakla suçlanmışlardır[3]. Tek taraflı bilgilerle beslenen dünya kamuoyunda yoğun tepki ve protestolar ortaya çıkmıştır. Ermenilerin bu davranışları, intikam saldırılarından dolayı mallarını ve insanlarını kaybeden Türkler ve Kürtlerde nefret duygularını körüklemiş, aynı zamanda Batı Avrupa'da olumsuz fikirlere ve durumlara yol açmıştır. 1914-1920 yılları arasında Doğu Anadolu'daki sosyo-politik karışıklıklar ve neticesinde ortaya çıkan zor durum, 1.Dünya savaşı sırasında sınır bölgelerindeki yoğun çatışmalar, ilgili taraflarca yakından takip edilmekteydi. Savaşa katılmamış olan ve Avusturya, Rusya ve Prusya işgali altında bulunan Polonyalılar, bu bölgede olup bitenler hakkındaki bilgileri ancak yabancı haber ajansları[4] tarafından basılan yayın organlarından öğrenebilmekteydi.

Ünlü tarihçi Jan Reychman, 1.Dünya Savaşı sonrasında kurulan (1918) Polonya'da, silahlı savaş faaliyetlerinin ilgiyle kamuoyunda takip edildiğini yazmaktadır. Özellikle yeni kurulan Polonya Devleti Dışişleri Bakanlığı Doğu Meseleleri Dairesi, 1919 yılında Witold Jodko-Narkiewicz'in

---

[1] Jan Reychman, Historia Turcji, Wrocław 1973, s.255
[2] WWW.Arabia.pl/contenent/view/291404/50/ z 2008-05.20
[3] Op.cit.
[4] iki büyük ticari yayın – uzun yıllar yayın yapan ve 1905 yılında Olchowicz tarafından devralınan „Kurier Warszawski" (1939 r. yılına kadar) vede F.Fryze'nin „Kurier Poranny" (1915'e kadar ve ardından 1918- 1939 yıllarında). Ayrıca diğerleri; „Kurier Polski" (1898-1939) „Gazeta Warszawska" (1939), muhafazakar kesimin temsilcisi Krakow merkezli „Czas" (1848-1939) tirajı oldukça iyi sayılabilecek 4-7 bin arası. Yine A. Kłobukowski tarafından (1867-1892), M. Chyliński (1892-1899), A. Beaupré' (1899-1901) ve R. Starzewski tarafından (1901 sonrası) çıkarılan yayınlarda, ünlü kalemler olan S. Smolka, L. Dębicki, S. Estreicher, I. Chrzanowski, L. Siemieński, P. Popiel, A.Potocki, J. Szujski i E. Koźmian gibi isimler makaleler yayınlamışlardır. Gazete sütunlarında kültürel ve politik konular ağırlıklı olarak yer almış, tarihsel, dinsel ve geleneksel değerler ile özdeşleşmiştir. 1.Dünya Savaşı patlak vermeden evvel yine Krakow şehrinde M.Dabrowski tarafından kurulan „Ilustrowany Kurier Codzienny" (1910-1939) yayını çıkmaya başlayıp, birkaç yıl sonra ülkenin popüler gazetesi haline geldi.

başında bulunduğu İstanbul'da açılan diplomatik büro, Polonya Devleti'nin kurucusu Mareşal Jozef Pilsudski'nin siyasi planları içerisinde olması nedeniyle ülkedeki durum hakkında bilgiler toplamıştır. Jozef Pilsudski aynı zamanda 1923 yılında kurulan Türkiye Cumhuriyeti'nin ve kurucusu Mustafa Kemal Atatürk'ün sonradan hayranı olacaktır.[1] Uluslararası kamuoyunda ve değişik dönemlerde gelen haberlerle yetinilmemiştir. Gerek basında, gerekse entellektüellerin katıldığı toplantılarda, bu konu tartışılmış ve farklı görüşler değerlendirilmiştir. Diplomatik belgelerin incelendiği Joanny Bocheńska,[2] Paweł Piaskowski „1878-1923 Ermeni Meselesi"[3], ve Adam Balcer'in çalışması olan „Tarih önünde Türk-Ermeni hesaplaşması" makalesinde, 1915 yılı olaylarının her iki ülke tarihçileri tarafından radikal biçimde farklı değerlendirilmesinden bahsetmektedir. Türklere göre Ermeniler 1.Dünya Savaşı sırasında Rusya'yı desteklemiş ve Osmanlı İmparatorluğu'na ihanet etmişlerdir. Neticesinde iç savaş patlak vermiş ve hükümet Ermeni azınlığın başka alanlara göç ettirilmesine mecbur kalmıştır. Onbinlerce Ermeni ve çok daha fazla müslüman ölmüştür. Zamanın hükümetinin amacı Ermeni halkının yok edilmesi değildi. Ayrıca kurulan yeni Türkiye Cumhuriyeti, 1.Dünya savaşı sırasında yönetimde olan Jön Türkler zamanında işlenen suçlardan sorumlu tutulamaz.[4] „Ermeni intikamı" başlıklı kısımda ise, Ermeni tarihçilerin Ermenileri sadece savaş kurbanı olarak gördüğünden bahsedilir. Fakat durum Ermeni gönüllülerin desteğiyle Doğu Anadolu'ya hakim olan Rus ordusu ile birlikte 1916 yılında değişime uğramıştır. Bazı yerlerde Osmanlı ordusu müslüman halkın yaşadığı köy ve kasabaları boşaltmış, diğer yerlerde ise halk ermeni intikamından korkarak kaçmaya çalışmıştır. Aslında bu korku yersiz değildi. "Anadolunun içlerine doğru giren Ruslara eşlik eden ermeniler, müslüman halktan intikam almışlardır".

Müslüman sivil halka karşı işlenen suçlar, hem tarafsız şahitler Rus subaylarının anılarında, hemde zamanın ermeni kaynaklarında anlatılmaktadır. Birleşmiş Milletlerin yaptığı soykırım tanımına sıkıca bağlı kalacak olursak, ermeniler tarafından bazı kasaba ve köylerde yapılan katliamları soykırım olarak adlandırmak mümkün olabileceksede, yinede bu suçların Jön Türklerin işlemiş oldukları suçlardan daha az ölçekte olduğunu belirtmek gerekir. Savunmasız köylere hücum eden çeteler Müslümanları katlettiler. Müslümanlara öldürülmeden önce işkence yapılması olağan hale gelmişti. Katliamda ilk hedef olarak dini liderler ve yöneticiler seçiliyordu. Yaşlı, hasta ve çocuk gibi yürüyemeyecek halde olanlar acımasızca katledildiler. Polis, jandarma, belediye gibi önemli hizmet yapıları yerle bir edilmişti. Ruslar Ermenilerin ayaklanmasını kolaylaştırmak için her şeyi yaptılar. Osmanlı tedbir olarak Ermeni halkını zorunlu göçe tâbi tutma kararı aldı.

1912 yılında yapılan Osmanlı İmparatorluğu'ndaki son nüfus sayımına göre Anadolu'da 14 milyondan fazla müslüman yaşamaktaydı. 1922 yılında yapılan sayım, savaş nedeniyle nüfusunun yaklaşık 2,5 milyon (%20) azaldığını göstermiştir. Orantılı olarak en fazla insan kaybı yaşanan bölgeler, Ermenilerin hak iddia ettiği ve savaş boyunca Rus ordusunun işgali altında bulunan yerler olmuştur. Van bölgesindeki müslüman nüfus % 60 oranında azalmıştır. Bitlis'te ise bu oran % 40'dan fazladır. Bu nüfusun bir kısmı sürgün edilmiş ve Batı Anadolu'ya göç ettirilmiştir. Bir kısmı Osmanlı idaresi altındaki topraklarda hayatını kaybetmiştir. Müslüman kayıplarının çoğunluğu ermenilerden farklı olarak, asker veya yerel güçlerde mücadele eden müslümanlardan ibaretti.

Ermeniler Rus ordusuyla birlikte işlenen suçların sorumluluğunu paylaşmaktadırlar. Bununla birlikte müslüman sivil halkın kayıpları karşılaştırıldığında çok çok daha azdı. Rusların hakimiyetinde kalmış olan Doğu Anadolu bölgesinde müslümanlardan geri kalan toplu mezarlar bulunurken, Türklerin hakimiyetinde kalan yerlerdeki Ermenilerden geriye hiçbir iz kalmamıştır.

1985 yılında Amerikan kongresinde soykırıma ilişkin yasa tasarıları görüşülürken, bu tasarıya karşı 69 Amerikan şarkiyatçısı tarafından bir protesto deklerasyonu yayınlanmıştır. Yayınlanan deklerasyonda şu ifadeler kullanılmıştır: „Soykırım meselesine ilişkin imzalanacak hiçbir belge Ermenilerin

---

[1] Danuta Chmielowska, İki Dünya savaşı arası Polonya ve Türkiye ilişkileri Warszawa 2006, sayfa.43-54. Danuta Chmielowska, Kemal Tahir'in tetrolojisinde türk toplumunun ahlaki ve siayasi sorunları (1918-30 yılları arası), Warszawa 1996

[2] www.arabia.pl/content/view/291404/50

[3] Polityka.pl

[4] Gazeta Wyborcza - 24-25 Września 2005 r.

acılarını azaltmayacktır. Fakat bu durum o bölgede zamanında yaşamış olan müslüman halkın çektiği acılardan ayrı olarak görülmemelidir. [...] Dolayısıyla savaşanlar ile masumların arasındaki sorumluluğun tam olarak belirlenmesi vede o zamanki olayların sebeplerinin ayrıntılı olarak tespit edilebilmesi için tarihi araştırmalara ihtiyaç vardır". Sonraki yıllarda bu deklerasyona imza atan ünlü türkologlardan Bernard Lewis ve bazıları delil yetersizliğinden dolayı 1915 yılı olaylarının soykırım olarak kabul edilemeyeceğini ifade etmişler ve neticesinde Ermenilerce açılan davalara muhatap olmuşlardır.

Sorunlara rağmen bu olaylara ilişkin Türkiye'deki tartışmalar devam edecektir. Devlet menfaatlerinin ihlaline örnek olarak gösterilen, „1915 yılında soykırım yaşanmıştır" iddiasında bulunmanın Ceza Kanununca yasaklandığı maddenin kaldırılması ile daha özgür şekilde bu tartışmaların yapılmasına imkan vermektedir. Yalnız yakın gelecekte Türk idarecilerinin Ermeni meselesine ilişkin yaklaşımında bir değişiklik olmasını beklemek mümkün görünmüyor.

Yeniden biraraya gelme şansı; Türk makamlarının bu konuya ilişkin tutumu; AB katılımı için soykırımın tanınması gerektiğini iddia eden seslerin çok sık çıktığı, Avrupa Birliği ile ilişkilerde problemlere neden olabilmektedir. Her ne kadar 2004 Aralık ayında Avrupa parlamentosu Türkiye ile üyelik görüşmelerine başlanmasının bir ön şarta bağlı olmayacağı yönünde oy kullanmış olsada, müzakerelerin sona ermesiyle yapılacak oylamada nasıl bir tavır alacağı kesin değildir.

Türkiye'de en son yapılan kamuoyu araştırmalarında çıkan sonuca göre; katılanların % 80'i AB'ye girişin şartlarından biri olarak soykırımın kabul edilmesine bağlı olmasına karşı çıkmakta, bununla birlikte katılımcıların % 60'ı 1915 olaylarına ilişkin halka açık tartışmalar yapılmasına destek vermektedir. Türkler özellikle AB üyesi ülkelerin önce kendi geçmişleriyle tarih önünde hesaplaşmasını beklemektedirler. Sadece 20.yy. başında Belçika'ya bağlı Kongo'da 5 milyona yakın insanın öldürüldüğü gerçeğinin AB parlementosu tarafından soykırım olarak görülmemesi veya bununla ilgili adımlar atılmaması bile önemli bir örnektir. Her ne kadar birçok tarihçi Ermeni soykırımından bahsetsede, yıllar boyunca bu konu hakkında bir sessizlik hakim olmuştur. Türkiye dünya güçleri için önemli bir müttefik ülkeydi. Bununla birlikte 21.yy.başından itibaren birçok ülke parlamentosu, Ermeni katliamının bir soykırım olduğunu kabul eden kararlar almıştır. Bu zamana kadar resmi olarak soykırımı tanıyan ülkeler içinde: Arjantin, Ermenistan, Avusturya, Avustralya, Belçika, Çili, Kıbrıs, Fransa, Yunanistan, Hollanda, Kanada, Lübnan, Litvanya, Almanya, Polonya, Rusya, Slovakya, İsviçre, İsveç, Uruguay, Galler, Vatikan, Venezuela ve ABD'nin 40 farklı eyaleti.

Ermeniler 100 yıldır bu konuyla ilgili çalışmalar yapmakta, basın, yayın araçları ile propaganda yoluna başvurmakta vede dünyayı aldatmaya çalışmakta; Haçlı ruhuyla hareket eden bazı devletler de onlara destek vermektedir. Türkler ise maalesef genelde bu konuda suskunluğu tercih etmekte ve Ermenilerin faaliyetlerine karşı bir tepki eylemi geliştirememiştir.

Bu sunumuma eski Polonya Büyükelçisi Sayın Ecvet Tezcan'ın Ermeni soykırımı iddialarına karşı Türklere yapılan suçlamalara kararlı bir cevap niteliğinde, Polonya'da yapmış olduğu açıklamasını eklemek isterim.

İradə Məmmədova
T.ü.f.d. AMEA A.A. Bakıxanov adına
Tarix İnstitutunun aparıcı elmi işçisi

1918 – 1920-Cİ İLLƏR SOYQIRIMLARI BAŞBAKANLIQ DÖVLƏT ARXİVLƏRİ GENEL MÜDÜRLÜYÜNÜN ARXİVİNİN XARİCİ FONDUNUN SƏNƏDLƏRİNDƏ

Açar sözlər: 1918-1920-ci illər soyqırımları, xarici işlər naziri, polkovnik Haskel, Qars vilayəti, Beynəlxalq Təhqiqat Komissiyası, İrəvan quberniyası
Keywords: genocide of 1918-1920, Minister of Foreign Affairs, Colonel Haskell, the Kars province, the International Commission of Inquiry, the Iravan gubernia

Türkiyə Cümhuriyyəti Başbakanlıq Dövlət Arxivləri Genel Müdürlüyü Arxivinin Xarici fondunun sənədlərində 1918-1920-ci illərdəermənilərin Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlarını ətraflı təsvir edən raportlar, teleqrammlar, etiraz notaları və s. yer almaqdadır. Bu sənədlərin içərisində Azərbaycan Xarici İşlər nazirliyinin Ermənistandakı diplomatik təmsilçisinə ermənilərin müsəlman əhaliyə qarşı törətdikləri zülümlərə dair məlumat toplanmasını təlimat verən teleqramm[1],Azərbaycan Cümhuriyyəti Xarici İşlər naziri M.İ.Cəfərovun 1919-cu il 25 sentyabrında Müttəfiq dövlətlərin ZaqafqaziyadakıAli komissarı polkovnik Haskelə ünvanlandığı məktub[2], 1919-cu ilin sentyabrında İrəvan quberniyası müsəlmanlarının Torpaq İdarəsinin sədrinin Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə ünvanladığı memorandum [28],M. Təkinskinin Azərbaycan Xarici İşlər naziri Cəfərova yazdığı 1919-cu il oktyabr tarixli raportu [15], Birinci Müsəlman Süvari Alayının komandiru Əli Əsədullayevin ermənilər tərəfindən 1918-ci ilin mart ayında 30 min nəfərin öldürülməsinə dair ifadəsi [13], Fövqəladə Təhqiqat komissiyasının sədri Xasməmmədovun Ədliyyə Nazirliyinə yazdığı erməni silahlı dəstələrinin 1918-ci ilin mart ayında Bakıda müsəlman əhali üzərində zorakılığına dair məruzəsi[8], komissiyanın üzvü Mixaylovun payız aylarındaOhtar, Kabar, Zabuğ, Müsəlmanlar, Burcalar-Dərzili, Mülk, Tağamir, Karıyel kəndlərində, Andronikin quldur dəstələrinin isə İncevar kəndində törətdikləri soyğun və qırgınlar haqqında raportları[19; 20; 21; 22; 23; 24; 25; 26; 9], Qarabağ və ətrafında baş verən hadisələrlə bağlı Azərbaycan Xarici İşlər naziri Cəfərovun Ermənistan Xarici İşlər nazirinə göndərdiyi etiraz notası [11] və s. 1918-1920-ci illərdə ermənilərin Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlarının miqyas, dəhşət və ağırlığını görməyə imkan verir, eyni zamanda Azərbaycan hökümətinin bu qırğınların qarşını almaq istiqamətində gördüyü tədbirlərdən bəhs edir. Daşnak hökümətinin Ermənistanda törətdiyi üsyan, talan və qətliamlara [27], ermənilərin Zəngibasar bölgəsindəki kəndlərə etdiyi quldur hücümlar [5], Ermənistandakı müsəlmanların ağır iqtisadi vəziyyətindən bəhs edən raport vəkəndlərinə yenidən dönmək istəyən müsəlmanlara ermənilərin əngəl törətməsinə dair Azərbaycanın Ermənistandaki diplomatik temsilçisi M.H. Təkinskinin telgrammı[4; 12] da Türkiyə Cümhuriyyəti Başbakanlıq Dövlət Arxivləri Genel Müdürlüyü Arxivinin Xarici fondunda qorunmaqdadır.

İndi isə arxivin sənədlərində yer alan və ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları əks etdirən məlumatları gözdən keçirək. 1919-cu ilin uyunun 4-də Xarici İşlər nazirinin əvəzinə F.X. Qiyasbəyovun şifrələmiş olduğu və İrəvandakı diplomatik nümayəndə olan Təkinskiyə göndərilən teleqrammda Müttəfiqlərin nümayəndələrini də cəlb etməklə İrəvan quberniyası, Araz Respublikası, Qarabağda ermənilərin müsəlman əhali üzərində qətliamları ilə bağlı Fövfəladə Parlament Tədqiqat Komissiyası yaradılmasını və bu işə Azərbaycan parlamentinin 10 milyon ayırmağı nəzərdə tutduğunu, İrəvan müsəlman Milli Şurasının bu işə cəlb olunan bütün materialların tezliklə hazırlanmasının istəndiyi bildirilirdi[1, v.1].

1919-cu ilin sentyabrında İrəvan quberniyası müsəlmanlarının Torpaq İdarəsinin sədrinin Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə ünvanladığı memorandumdan məlum olur ki, İrəvan qəzasının Vedibasar adlanan ərazisi 64 kənddən və 17 yaşayış məntəqəsindənibarətdir və buranın əhalisinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirlər. Memorandumda bildirilirdi ki, bütün İrəvan quberniyasında olduğu kimi Vedibasar rayonunun əhalisi də 1918-ci ilin baharında "mədəni

ermənilərin" sahiblik etməsinin bütün dəhşətlərini öz üzərlərində hiss etmişdilər və buna rayonun Ermənistanın paytaxtına yaxın olması şərait yaratmışdır. Bu arxiv sənədindən məlum olur ki, ermənilər müxtəlif bəhanələrlə İrəvan quberniyasının bütün ərazisinə cəza ekspedisiyaları göndərmişlər. Bu zaman onlarla kənd yandırılmış və qılıncdan keçirilmiş, qadın və uşaqlara belə rəhm edilməmişdi. 1918-ci ilin sonunda Vedibasar rayonun əhalisi tamamilə qırılmaqdan canlarını qurtarmaq üçün təşkilatlanmış və ermənilərə silahlı müqavimət göstərməyə başlamışdılar. Əkinçilər nəinki ermənilər və onların hərbi hissələri üzərində qələbə qazanmışlar, hətta hücüma keçərək bir ara Ermənistanın paytaxtını belə təhlükəyə məruz qoymuşdular. 1919-cu ilin may ayında ingilis rəhbərliyi Vedibasar rayonunun əhalisinə sülh razılığına gələnədək dayanmağı, Ermənistan hökümətini tanımağı əmr etmişdi. Lakin, erməni hökuməti zəif olduğu üçün bu təlimatlar faktiki həyata keçirilməmişdi. "*İngilis qoşunları buradan getdikdən sonra erməni hökümətinin terror sistemi və sərt repressiya tətbiq etdiyi müsəlman əhali öz hüqüqlarının müdafiəsinə qalxdı və qanlı döyüşlər nəticəsində müsəlmanlar qalib gəldilər. Hüquq zorakılıq, ədalət isə insan hüquqlarının tapdanması üzərində qələbə çaldı. Belə şəraitdə Vedibasar rayonunun müvəqqəti də olsa Ermənistan hökümətinə tabe edilməsi mümkünmü? Əgər belə bir qərar qəbul edilərsə də həyata keçə bilməz. Çünkü Vedibasar əhalisi onlara gözyaşı və əzabdan başqa bir şey vəd etməyən bu nifrət etdikləri ağalığı qəbil etməkdənsə bir nəfərə kimi ölməyi üstün tutarlar. Onlar insanlıq sifətini itirmiş erməni quldurlarının qırğınına məruz qalmaqdan və öz arvad və qızlarının rüsvay edilməsindənsə, əllərində silah mərd döyüşdə ölməyi üstün tutarlar. Ona görə də Vedibasar rayonu, əhalisi demək olar ki, istisnasız olaraq Azərbaycan türklərində təşkil olunan Sürməli kimi, əvvəlcədən sülh konfransının qərarınadək İrəvan quberniyasının yaradılması nəzərdə tutulan neytral zonaya daxil edilməlidir*" [28, v. 1-2].

Azərbaycan Cümhuriyyətinin Xarici İşlər naziriM.İ.Cəfərov 1919-cu il 25 sentyabrında Müttəfiqdövlətlərin Zaqafqaziyadakıali komissarı polkovnik Haskeləünvanlandığı məktubda yazırdı: "*Sizə 22 sentyabrda ingiliscə göndərdiyim notada yazmış olduğum erməni hakimiyyəti tərəfindən müsəlman əhaliyə qarşı yönələn asayişin pozulma hallarının onların tamamilə məhv edilməsi formasını alaraq hələ də davam etdiyini nəzərinizə çatdırmaq istəyirəm. Bütün bunlar İrəvan quberniyasının müsəlman əhalisinə xəsarət yetirilməsinə passiv tamaşaçı olaraq qalmaq istəməyən Azərbaycan türklərinin güclü narazılığına səbəb olmuşdur. Mənim hökümətim Ermənistan Respublikası ilə nə qədər mehriban qonşuluq münasibətini saxlamaq istəsə də, bu halda öz xalqının arzusuna tabe olmağa məcbur olaraq öz həmqəbilələrini erməni hakimiyyəti tərəfindən tamamilə məhv edilməsindən qorumaq üçün vasitələr arayacaqdır*". Cəfərov məktubunda bu səbəbdən bütün məsuliyyətin erməni hökümətinin üzərinə düşdüyünü, xoşagəlməz nəticələrdən yayınmaq üçün erməni hakimiyyətinin təsir dairəsində yaşayan müsəlmanların hələ də davam edən qırğınınıntəcili olaraq qarşısının alınması üçün polkovnik Haskeldən asılı olan bütün tədbirlərin görüləcəyinə dərin ümid bəslədiyini bildirirdi [2, v. 1-2].

Azərbaycan Cümhuriyyəti Xarici İşlər naziri M.İ.Cəfərovun 1919-cu il sentyabrında Müttəfiq dövlərlərinin ZaqafqaziyadakıAli komissarı polkovnik Haskele ünvanlandığı məktubda erməni inzibatçılarının birbaşa hamiliyi və iştirakı ilə ermənilərin Novobəyazit, Sürməli və Eçmiədzin qəzaları ərazisində müsəlman əhaliyə qarşı zorakılığının davam edildiyi bildirilirdi. Cəfərov bu qanunsuz hərəkətlərə son qoyulması, günahkarların aşkarlanması və nəticədə milliyətindən asılı olmayaraq cəzalandırıması üçün qəti tədbirlərin görülməsi məqsədi ilə Beynəlxalq Təhqiqat Komissiyasının yaradılmasına polkovnik Haskelin razı olacağına Azərbaycan Hökümətinin ümid etdiyini yazırdı[6, v. 1].

1919-cu ilin sentyabrındaİrəvan əyalətindəki müsəlmanlara qarşı törədilən qırgınların dayandırılması üçün lazımı tədbirlərin alınmasının gərəkli olduğuna dair Cənub-Qərbi Azərbaycan Müsəlman Milli Şurasının Ermənistan ali komissarına yazdığı məktubdan məlum olur ki, ermənilər 1918-ci ildə*400-dən çox kəndi* qılıncdan keçirmiş və yandırmışlar. Sənəddə yazılırdı: "***Dağıntı və qətliamın mənzərəsi tükürpədici idi. Evlər yandırılır, əhalinin əmlakı əlindən alınır, adamlara rəhm edilmir, uşaq, qadın və qocaları doğrayırdılar***". Məktubda 1918-ci ildə müsəlmanların həm maddi, həm də insan itkisinin saysız-hesabsız olduğu bildirilirdi:"*İnsanların çoxu qırılmış, çoxusu da aclıqdan və yolxucu xəstəlikdən ölmüşdülər. Əvvəllər çiçəklənən kəndlər xarabazara dönmüşdür. Müflisləşmiş əhali Ermənistandan kənara İrəvan quberniyasının yayın əvvəllərində türklər tərəfindən tutulmuş hissələrinə köçürlər. Lakin payızın sonunda türklərin bu əraziləri tərk etməsi ilə həmin əhali daha onları türkpərəstlikdə günahlandırılmayacaqlarını düşünərək yenidən Erməni hökümətinin icazəsi ilə*

əvvəlki yerlərinə qayıdırlar. Eçmiədzin, Sürməli, İrəvan və Novobəyazit qəzaları Ermənistan respublikasına tabe olaraq, dövlətin tələbi ilə silahlarını təhvil verərək, bütün mükəlləfiyyətləri daşıyırlar. Respublikanın müsəlmanları1919-cu ilin qış və yazını əvvəlki dövrlə müqayisədə müəyyən qədər sakit keçirsələr də, payız ayının sonlarından şübhəsiz ermənilərin günahı üzündən bir yüksək dərəcədə hüznlü hadisə baş verdi. Dekabrın sonlarında sasunlu adlanan dəstələr İrəvan qəzasının Qaraxaç və Vedibasar kəndlərinin kənd icmalarının daxil olaraq buranın müsəlmanlarından Erməni hökümətinə tabe olmağı, silahlarını təhvil verməyi, həyat və əmlaklarını erməni qoşunları tərəfindən qorunmasını tələb etdilər. Buna inanan müsəlmanlar silahlarını təhvil verdilər. Onlara lazım olanı alandan sonra sasunlu dəstələri xaincəsinə müsəlmanlara hücum etdilər və Kadılı, Şakablı, Qaraxaç, Doğnaz, Qarabağlar və Ağasıbəyli kəndlərini yerlə-yeksan etdilər". Məktubda ermənilərin bu hücümü zamanı sasunluların ağlagəlməz qəddarlıq nümayiş etdirdikləri, gənc gözəl müsəlman qadınlarını seçərək onları əsir apardıqları bildirilirdi. Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəliyi Ermənistan hökümətinə iltimatum versə də bunun bir nəticə olmadı. Bu məsələ ilə bağlı parlamentin üzvü Əsəd bəy Ağababəyov zərər çəkmiş müsəlmanların nümayəndələri Əli Eyvazov və Cəfər Kərimovla birlikdə Hərbi nazir Haqverdovun yanında olduğu zaman nazir onlara sasunlulara qarşı bir şey etməyə gücü çatmadığını, lakin onların cəzalanacaqlarını, müsəlmanların isə razı salınacaqlarını desə də, sonuncunun bu vədi elə həyata keçirilməmiş qaldı. Məktubda yazılırdı*: "Keçən ilin sentyabrın sonundan indiki günə qədər olan müddətdə müsəlmanlar həm yollarda, həm də İrəvan şəhərinin özündə mütamadi olarak soyğunçuluğa məruz qalır və qalmaqdadırlar. Mauzerçi adlanan ermənilər var ki, günün günorta çağı müsəlmanların evlərinə soxulurlar və onları təhdid edərək pul və digər qiymətli əşyalarını alırlar. Bütün bunlar yollarda və hətta şəhərin küçələrində belə baş verir. Bu məsuliyyətsiz adamların qurbanına çevrilməmək üçün müsəlmanlar öz gündəlik məşğuliyyətlərindən, ticarətdən, bağçılıqdan imtina edərək evdə oturmağı üstün tuturlar. Buna sübüt olarak onu göstərmək olar ki, şəhərin ticarət həyatında müsəlmanlar demək olar ki iştirak etmirlər, bağlarının və daşınmaz əmlaklarının boyük hissəsini ermənilərə icarəyə verərək, ərzağa olan yüksək qiymətlər üzündən böyük gəlirdən məhrum olmuşlar*". Bu sənəddən məlum olur ki, yayın əvvəllərində Böyük Vedi, sonra Şərur və Naxçıvan hadisələri baş vermişdir. Müsəlman Milli Şurası Vedibasar hadisələrindən 17 avqust hadisələrinə qədər Sürməli, Eçmiədzin, Novobəyazit və İrəvannın bir hissəsinin asayişi pozmadıqlarını və özlərini sakit apardıqlarını qeyd edirlər. Lakin, Eçmiədzin qəzasının Çanfid kəndindəki hadisələrində yerli inzibati orqanlarının xeyir-duası ilə əhalinin bir hissəsi soyulmuş və vəhşicəsinə öldürülmüşdü. Məktubda bildirilirdi: "*Çanfid faciəsi həqiqətən də dəhşətli və mənasız faciə idi. Qəza komissarı başda olmaqla milis dəstələri kəndə gəlirlər və əhaliyə bir yerə toplanmağı əmr edirlər. Heç bir şeydən şübhələnməyən kəndin müsəlmanları bir yerə toplananda onlara kişilərin ayrı, qadınların isə ayrı durmaları və yerlərindən tərpənməmələri əmr edilir. Bu zaman talanlar başlayır, sən demə müsəlmanların talanan əmlaklarını daşınması üçün əvvəlcədən müsəlman kəndi olan Kərimarxdan arabaya qoşmaq bəhanəsiylə dəvələr gətirilibmiş. Müsəlmanların bir hissəsi Araz çayının sahilinə gətirərək qətlə yetirirlər. Kərimarx kəndi dəyerlə yeksan edilir. Bu o kənd idi ki, bu hadisədən iki əvvəl kəndin nümayəndələri Kürdiqulu kəndində yerləşən sahə komissarlığının qərargahına çağırılmış və orada hərbi hissələrin rəisi onlara respublikanın əsgərlərinin ehtiyacı üçün buğda satmağı təklif etmişdilər. Kərimarxlılar razılaşmış və 240 pud buğdanı onlar qarşılıqsız bağışlamışdılar. Talan haqqında heç bir şey bilməyən kəndin sakinləri sahə komissarının tələbi ilə hətta dəvələrinin hamısını da onlara vermişdilər. Lakin, tezliklə məlum oldu ki, bu dəvələr onlara Çanfid kəndinin talanmış əmlakını daşımaq üçün lazımmış. Bu dəvələr hələ də sahiblərinə qaytarılmamışdır və Eçmiədzin yaxınlığında saxlanılır. Kərimarx əhalisinin bir hissəsi, həmçinin qadınlar və uşaqlar da Kurdiqulu kəndinə əsir aparılmışdır və indiyədək orada saxlanıl*ır". 17 avqustan 31 avqustadək olan qısa müddət ərzində Eçmiədzin, Sürməli və Novobəyazit qəzalarında 50-dək müsəlman kəndi yerlə yeksan edilmiş, əhalisi ya birbaşa ermənilərin hücümünü məruz qalmış, ya da ermənilər tərəfindən zorakılığa məruz qalmaqdan qorxaraq kəndi tərk etmişdilər. Sənəddən məlum olur ki, bir çox kəndlərdən müsəlman qadınlar əsir alınaraq aparılmış və erməni kəndlərində saxlanmaqdadırlar, müsəlmanlar saplarına qədər, yəni tamamilə talan edilir, kəndi əhatə edən ermənilər onları kəndi tərk etməyə məcbur edirlər. Sonra onların götürdükləri hər şeyi əllərindən alaraq, buraxır və onları aclıqdan ölməyə məhkum edirlər. Məktubda erməni vəhşilikləri haqqında belə

yazılırdı: "*Qırğınlar bitmək bilmir, günü-gündən digər müsəlman kəndlərinin dağıdılması haqqında məlumatlar alınmaqdadır. Bütün bu hadisələrin səbəbi nədir? Təəssüf ki, bu işlərdə müsəlmanları günahkar bilirlər. Guya onlar Ermənistana qarşı üsyana qalxmışlar. Bu ittihamlar həqiqətlə heç cür uzlaşmır. Əgər belədirsə, niyə bir dənə də olsun zərər görmüş erməni kəndi yoxdur, bu qarışıqların qurbanları yalnız müsəlmanlardır. Bundan başqa göstərilən rayonların müsəlman əhalisi nəinki hökümət əleyhinə heç nə düşünməmiş, hətta Ermənistan respublikasına münasibətdə özlərini loyal aparmış mükəlləfiyyətləri daşımış, yerli inzibati orqanlarının nümayəndələrinin onlara yetirdiyi bütün təhqirlərə səbrlə dözmüşdülər*". Məktubdan məlum olur ki, müsəlmanlar heç bir səbəb olmadan talan edilir, məhv edilir və günahları olmadan zərər görürlər, lakin, Ermənistan Respublikasının hökuməti müsəlman kəndlərinin yerlə-yeksan edilməsinin qarşısının alınması üçün heç bir tədbir görmür və bu hadisələrə gözlərini yumurlar: "*Diqqətinizə çatdırmaq istərdim ki, inzibati qəza nümayəndələri, heç olmasa Eçmiədzininki, zərər çəkmiş müsəlmanların şikayətlərindən və müsəlman deputatların onların bu qırğınlarda iştirakı haqqında Ermənistan parlamentinə bəyanından sonra hələ də öz yerlərində qalmaqdadırlar. Bizdə belə təəssürat yaranır ki, Ermənistan hökuməti bu cür qarma-qarışıqlığa şərait yaradır və Ermənistandan müsəlmanların sıxışdırılıb çıxarılmasını qarşısına məqsəd qoymuşdur. Əks halda hökümətin özünün yüz minlərlə təbəəsinin öldürülməsi və bədbəxtliyinə layeqd münasibətini başa düşmək olmur*". MəktubdaErmənistanın ali komissarından zərər görmüş müsəlmanların vəziyyətini yaxşılaşdırmaq üçün 7 bənddən ibarət tədbirlərin görülməsinin zəruri hesab olunduğu bildirilirdi. Bu təkliflər aşağıdakılardır:

1. "İlk növbədə müsəlman kəndlərinin yerlə-yeksan edilməsinin təcili surətdə son qoyulması zəruridir;
2. Təxirə salmadan qaçqınlara ərzaq yardımı edilməsinə başlamaq lazımdır, belə ki, yuxarıda qeyd olunduğu kimi müsəlmanların hər şeyi əllərindən alınmış və aclıqdan ölümə məhkum edilmişlər, bu yardım Zəngibasarda qaçqınların cəmlənmiş olduğu yerlərə göstərilməlidir:
3. Viran edilmiş kəndlərin müsəlmanlarını tez bir zamanda yerlərinə qaytarmaq, talan edilmiş əmlaklarını və əkin sahələrini onlara qaytarmaq, bu mümkün olmadıqda isə onların yaşaması üçün itkinin əvəzini ödəmək lazımdır;
4. İctimaiyyəti sakitləşdirmək üçün bu hadisələrin günahkarı olan hər kəsi, istər fərdi, istərsə də inzibati məmuru məhkəməyə vermək və ciddi cəzalandırmaq zəruridir;
5. İnzibati aparatın daha yaxşı qurulması üçün aparatın tərkibində dəyişiklik etmək, müsəlman əhalinin əksəriyyət təşkil etdiyi yerlərdə erməni köməkçisi olan müsəlman və ya əksinə təyin etməli;
6. Respublika hökuməti ümumiyyətlə müsəlmanları dövlət qulluğuna cəlb etməlidir;
7. Ən nəhayət, Müsəlman Milli Şurası ən vacib məsələlərdən birinin parlamentdə müsəlman üzvlərinin sayının artırılması olduğunu hesab edir. Belə ki, bu zaman onlar hökümət tədbirlərinə nəzarət edə və ölkə müəssisələrini çoxsaylı müsəlman əhalinin həyatındakı hadisələrlə tanış edə bilərlər. Hal-hazırda cəmi iki nəfərdən ibarət olan deputatlar əlbəttə ki, bu məsələ üçün kifayət etmir" [10, v. 1-5].

Naxçıvan, Şərur, Vedibasar, Zangəzur əyalətləri ilə Ermənistanın ümumi vəziyyəti, Ermənistan hökümətinin dəstəyi ile daşnakların müsəlmanlara qarşı soyqırım törətməsi, Qars vilayətində müsəlmanların vəziyyətiM. Təkinskinin Azərbaycan Xarici İşlər naziri Cəfərova yazdığı1919-cu il oktyabr tarixli raportunda yer almışdır. Bu raportda Zəngəzur ermənilərinin Ermənistan hökümətinə muraciət edərək Ermənistanı onun daxilindəki Müsəlmanlardan təmizlədikdən sonra qoşunları ilə Qarabağa doğru hərəkət edərək, Yelizavetpol (Gəncə) ermənilər ilə birləşərək Bakıya hücüm etmək istədikləri bildirilirdi. "***Dronun sayəsində Ermənistan hökümətinin siyasətio qədər, qaba, vəhşi və şovinist xarakter almışdır ki, yalnız geyri-xalqlar deyil, həttaöz ziyalıları belə ona nifrətlə baxır, Ermənistansərhədlərini tərk edərək, başqa ölkələrə gedirl***ər". Bu raportdanErmənistan hökuməti və ermənilərdən başı olmazın bəlalar çəkmiş müsəlman əhalinin öz əmlaklarını ataraq dörd əsas məntəqədə: *Naxçıvan, Şərur, Vedibasar, Zəngibasar* ərazisində toplanaraq xüsusi Respublika yaratdıqları, beləliklə də özlərini qorumağı və şərəfləri uğrunda ölməyə qərar verdiklərimə lum olur. Raportda Qars vilayətinin vəziyyəti belə təsvir olunurdu: "***Qars vilayətinin müsəlmanlarının vəziyyəti həddindən artıq dəhşətli dərəcədədir. Heç kəsin bir saatdan sonra yaşaya biləcəyinə ümidi yoxdur. Hər kəs müti vəziyyətdə öz cəlladını gözləyir. Heç şübhəsiz, əvvəl-axır Ermənistandakı bütün mü-***

səlman əhalini bu acı sonluqgözləyir, çünkimüsəlmanların talan və məhv edilməsi sistematik olaraq, hissə-hissə, tədricən aparıldığı için onların müqaviməti sındıralacaqdır" [15, v. 1-3].

Ermənilərin Zəngibasar bölgəsindəki kəndlərə etdiyi hücümlar, iki ölkə arasındakıməsələlərin həlledilməsinə maneə törətdiyinə dair Azərbaycan Xarici İşlər nazirinin Ermənistan Xarici İşlər nazirinə göndərdiyi 1919-cu il 30 dekabr tarixli telegramında Zəngibasar bölgəsinin Qarabazar və Uluxanlı kəndlərinin daşnaklar tərəfindən viran və talan edildiyi, telegrammın göndərildiyi vaxt isə döyüşlərin Çobankərə və Qaraqışlaq kəndlərində getdiyi, Ermənistan hökümətinin bu hərəkətlərinin hər iki dövlət arasındakı sazişin pozulması demək olduğu bildirilidi[5, v. 1-2].Eyni gündə Azərbaycanın Gürcüstandakı təmsilçilərindən F. Vəkilovun Müttəfiq Dövlətlərin Ali komisarına göndərdiyi raportda *İrəvan quberniyasının bütün müsəlman kəndlərində erməni qoşunlarının kütləvi qətliamlar törətdiyi, viran qoyulmuş kəndlərdən yüzlərcə müsəlman qaçqının Tiflisdən keçdiyi, bu qaçqınlar tərəfindən hələ də davam edən bu kədərli hadisələrə dair ətraflı danışdıqlarını təsvir belə etməyin mümkün olmadığını, Müttəfiq Dövlətlərin Ali komissarının nüfuzundan istifadə edərək Ermənistandakı Müsəlman kəndlərinin viran edilməsinin vəəhalinin vəhşicəsinəqətledilməsini dayandırmaq* üçün onlardan asılı olan bütüntədbirlərin alınması istəyirdi[7, v. 1-2].

1920-ci ilin aprelin 30-da Sovet Azərbaycanının Xarici İşlər üzrə komissarının müavini Mirzə Davud Hüseynov Ermənistan Respublikası Hökuməti Xarici İşlər Nazirliyinə verdiyi notada daşnaklardan Qarabağ və Zəngəzur ərzisini boşaldaraq öz sərhədlərinə çəkilməyi və millətlətarası qırğını dayandırmağı tələb edirdi, əsk halda Ermənistanla müharibə vəziyyətində olacaqlarını bildirirdi[3, v. 1].

Daşnakların Sovet Azərbaycanının ərazisində törətdiklətri vəhşiliklərə görə 11 Qızıl Ordu rəhbərliyi Orcenikidze, Kirov, Mexanoşin və Levandovskinin imzası ilə 1920-ci ilin mayın 1-də Daşnak Hökümətinə iltumatum verilmiş, Ermənistan hükümətinə Azərbaycan ərzisindəki hərbi əməliyyatlra son qoymaq və Azərbaycan ərazisini tərk etmək üçün 24 saat vaxt qoyulmuşdu[14, s. 184].

1920-ci ilin 19 iyununda Nəriman Nərimanov, Mdivani, Mikoyan və Nuricanyanın V. Çiçerine gönderdikleri (raportun surəti Orcekinidzeyə göndərilmişdi) raportdadaşnaklar tərəfindən müsəlman kəndlilərinin kütləvi surətdə qırğına məruz qaldığını, minlərlə kommunistin həbs olunduğunu və yüzlərlə kommunistin güllələndiklərini, onlarla qiyam etmiş erməni kəndinin viran qoyulduğu, iki mindən çox ermənin Azərbaycanda sığınacaq tapdığını, əhalisi başdan ayağa müsəlmanlardan ibarət olanCulfa və Naxçıvan rayonlarındakı torpaqların daşnaklar tərəfindən tutulduğunu, yerli əhalinin öz gücləri hesabına daşnak hökümətinə qarşı vuruşduğunu və bu mübarizədə yalnız öz güclərinə və türk qoşunlarına ümid bəslədiklərini, Ermənistanın faktiki olaraq Azərbaycanla müharibə vəziyyətində olduğunu yazırdılar [27, v. 1]. Ermənistan kommunist partiyası 1920-ci ilin 19 iyul-17 avqust tarixlərində keçirdiyi II Kongresinde Ermənistan ərazisində müsəlmanların qətl edilməsi siyasətinin iqtisadi məqsədlərlə yanaşı, siyasi maqsədlər də daşıdığını bildirirdi. Ermənistan hökuməti müsəlmanlardan təmizlədiyi topraklarda Osmanlı dövlətindən qaçan ermənilər yerləşdirirdi [18, v. 13-15, bax: 14, s. 190-191].

1920-ci ilin 29 iyununda S.M. Kirov Çiçerinə daşnakların bütün qəzəblərini Kars vilayətindəki və Aleksandrapoldakı (Gümrü – İ.M.) müsəlman və rus əhaliyə qarşı yönəltdiklərini yazırdı. O bu məxfi teleframmada Qars əyalətindəki 30 min rus əhalisindən yalnız 15 mininin qaldığını, qalanlarının ya Türkiyə və Rusiyaya qaçdığının, ya da öldüklərini bildirirdi. "*Mauzerçi dəstələri kəndlərdə əhalini qarət edir. Novoselim kəndinin əhalisinin hamısı dördüncü alay komandirinin əmri ilə qılından keçirilmiş, Tuxurts rayonun 15 müsəlman kəndi doğranılmış və qaçmağa məcbur edilmişdi*" [16, v. 1, bax: 14, s. 198-199].

1920-ci ilin sentybrın 14-də Bakıdan Moskovaya göndərilən tam məxfi teleqramda daşnakların davamlı olaraq kəndlərə basqınlar etdiyindən, üzdantutma türkləri qətliama uğratdıqlarından, Qarakilsəyə gələn Sürməli və Kağızman qəzalarının nümayəndələrinin onları müdafiə etmələrini xahiş etmələrindən, qəzadakı*105 kənddən yalnız 35 dağ kəndinin*salamat qaldığından, avqust ayında bu kəndlərdən daha səkkizinin də qırğına məruz qaldığından bəhs olunur:"*Daşnaklar sərhəd zolağında yerləşən qarışıq kəndlərin bütün müsəlman əhalisini üçdantutma məhv edirlər ki, sonra gələcəkdə sülh danışıqları üçün burada ermənilər yerləşdirsinlər. Son dəfə 20 avqustda Kağızman rayonunun əhalisi qarışıq olan Porin kəndinin sakinləri qırğına məruz qalmışdı*" [17, v. 118, bax: 14, s. 210].

Mənbə və ədəbiyyatın siyahısı

1. Azerbaycan Dışişleri Bakanlığı'nın, Ermenistan'daki diplomatik temsilcisine gönderdiği, Ermenilerin Müslüman nüfusa yaptığı zulümler hakkında bilgi toplanması talimatını verdiği telgraf / T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüyünün Arşivi, Yer No: 930 1 0 0.2.28.2, Dosya No: 277-2/40.
2. Azerbaycan Dışişleri Bakanı'nın, Müttefik Devletler Yüksek Komiseri Haskele, İrevan'da Müslümanlara yapılan katliamın durdurulması hakkında Ermenistan Hükümeti'ne verilen notaya ek olarak gönderdiği mektup/ T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüyünün Arşivi, Yer No: 930 1 0 0.2.31.9, Dosya No: 277-2/58.
3. Azerbaycan Hükümeti'nin, Ermenistan Hükümeti'ne Zangezur ve Karabağ'dan ordularını çekmeleri ve katliama son vermelerini bildiren "Komünist Gazetesi"nde yayınlanan notası / T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüyünün Arşivi, Yer No: 930 1 0 0.3.43.1, Dosya No: 28-1/99.
47. Sonyel Salahi R., "Yeni Belgelerin Işığı Altında Ermeni Tehcirleri", *Belleten,* cilt. XXXVI, No: 141, Ankara. Ocak 1972.
48. Şıracıyan Arşavir, *Bir Ermeni Teröristin İtirafları, (Sait Halim Paşa, Bahaddin Şakir, Cemal Azmi Suikastlerinin Perde Arkası),* çev. K. M. Orağlı, İstanbul. 2006.
49. Şimşir Bilal, *Ermeni Meselesi (1774–2005)*, Ankara. 2006.
50. Şimşir Bilal, *Şehit Diplomatlarımız (1973–1994)*, Ankara. 2000.
51. Türkkaya Ataöv, "Ermeni Terörizmine Silah Sağlanması: Osmanlı Belgelerine Dayalı Gerçekler", Ermeni Terörizmi Kaynakları Uyuşturucu Trafiği İle İlgili Tarihinin Saptırılması, *A. Ü. Sempozyumu*, Ankara. 1984.
52. Türközü H. Kemal, *Osmanlı ve Sovyet Belgeleriyle Ermeni Mezalimi*, Ankara. 1982.
53. Toker Metin, *Şeyh Sait İsyanı*, Ankara. 1968.
54. Uras Esat, *Tarihte Ermeniler ve Ermeni Meselesi*, İstanbul. 1987.
55. www.forsnet.com.tr/ermenisorunu

Özet

Günümüzde Ermeni sorunu genel olarak üç safhada ele alınmaktadır. Birinci safhası, Ermenilerin başka ülkelerdeki Ermenilerden daha çok sıkıntı içinde yaşadıklarını anlatan haksız iddialarıdır. İkinci safhası, Kafkaslar ve Kuzey Azerbaycan'daki faaliyetleri ve mezalimi oluşturmaktadır. Üçüncü safhası ise daha çok Birinci Cihan Harbi döneminde Ermenilerin içte ve dışta Osmanlı'ya karşı ayaklanmaları ve akabinde komitelerin silahlanarak Türk yaşayış yerlerinde katliam yapmalarıdır.

Ermeni sorununu ele alırken unutulmamsı gereken bir hususu belirtmekte yarar vardır. Şöyle ki Batı yüzyıllar boyu mezhep savaşları içinde çalkalanırken, aynı dönemde Türkler egemen oldukları coğrafyaya barış, huzur, din ve vicdan özgürlüğü götürmüştür. Türk devletleri, himayesinde bulunan insanlara başkaldırı olmadığı müddetçe dinlerinde, dillerinde ve kültürel faaliyetlerinde serbestiyet tanımıştır. Numune olarak, Osmanlı Devleti yeterlidir. İşte o dönemlerde bile daha çok dini baskılara uğrayan ve vicdan özgürlüğünden yararlanmak isteyenler Batıdan Doğuya iltica etmiştir.

XIX. yüzyılın başından itibaren başlayan Ermenilerin uluslaşma serüveni ile bölgede ortaya çıkan etniksel çatışmalara Kafkasya ve Anadolu olarak ayrılmaksızın bir bütün olarak bakılmalıdır. Bu bütünlük, 1879 Berlin Antlaşmasından bugüne Ermenilerce olduğu gibi kabul edildiği halde, sorun karşısında Azerbaycan ve Türkiye'nin farklı politik tavır sergilemeleri anlaşılmamaktadır. Yani, gerek Azerbaycan, gerekse Türkiye araştırmacıları ve tarihçileri asılsız soykırım iddiaları karşısında, tarihsel olarak kanıtlanması güç olmayan Müslüman Türk soykırımını (Doğu Anadolu ve Hocalı örneği) ortak bir dava edinmelidir. Ayrıca Ermeni sorunu, sadece Türk Dünyası tarihi açısından değil, aynı zamanda Doğu sorunu ve Yakın Doğu tarihi açısından da son derce önem arz etmektedir.

Osmanlı arşivlerindeki belgeler Ermeniler ile ilgili birçok karanlık noktaları aydınlatmaktadır. Elde ettiğimiz bilgi ve belgelerden görüleceği üzere Ermeniler ve destekçilerinin hayali yıllar önce başlamış ve halen de devam etmektedir. Bu daha çok yayılmacı ülkelerin planıdır.

WHAT HAPPEND IN THE YEAR 1915? THE FACTS AND THE MATTERSIN QUESTION (On The Unfounded Allegations of Genocide)

Summary

Generally Armenian issue are discussed from three phase (aspects) nowadays. The firstphase is Armenians' unfair allegations that they live more straitened circumstances than others who live in other countries. The second phase is constitute their activities in Caucasus and in Northern Azerbaijan and atrocities. And the third phase is that Armenians riots against Ottoman in inside and outside during the First World War, and soon after arming committees' massacre in Turks living places.

While discussing The Armenian issue there is one matter that it should not be forgotten that had beter to specify. Namely, whilethe West was in estuation of sectarian wars throughout the centuries, at the same period The Turks led tranquility, peace, freedom of religion and conscience to locations where they were dominated. Turkish states gave a free hand about in religional, linguistically and cultural activities to people who were under their protection, if uprising is unless. As sample, Ottoman Empire is sufficient. There, even in that period who was suffered religious persecution more and wanted to make benefit of freedom of conscience, took sanctuary from West to East.

Since when the beginning of the XIX century, ethnic conflicts that occured in the area, which started with Armenians' nationalization adventure, Anatolia and the Caucasuss hould be viewed as a whole, not separately. This integrity has beenacceptedby Armenians as it is from 1879 Treaty of Berlin until today, but it is not understood that Azerbaijan and Turkey have different political attitude over against this problem. In other words, against unfounded allegations of genocide, either Azerbaijan or Turkey researchers and historians must undertake Muslim Turkish genocide (forexample; Eastern Anatolia and Khojaly) as a common courtcase that is untaxing for prove historically. Additionally, Armenian issue is not in terms of only Turkish world history, at the same time it is important the last degrees in terms of East issue and Near Eastern history.

Documents that are in the Ottoman archives, are illuminating a lot of moot points that related

to Armenians. As can be seen that based on our obtained information and documents, dream of Armenians and their supporters started years ago and is stil continuing. This is more the plans of expansionist countries.

ЧТО ПРОИЗОШЛО В 1915 ГОДУ? ФАКТЫ И ПРЕДМЕТ ПОВЕСТКИ ДНЯ
(О Беспочвенных обвинениях в геноциде)

РЕЗЮМЕ

В настоящее время армянский вопрос в основном рассматривается в три этапа. Первый этап состоит из необоснованных утверждений о том, что армяне живут в худших условиях, нежели их сородичи, живущие в иных странах. Второй этап состоит из их деятельности и резни, устроенной ими на Кавказе и в Северном Азербайджане. Третий этап заключается во внутреннем и внешнем мятеже армян против Османской Империи во время Первой Мировой войны, и в последующем вооружении комитетов и осуществлении резни турецкого населения в местах их компактного проживания.

При рассмотрении армянского вопроса, нельзя забывать некоторые немаловажные нюансы, которые заключаются в том, что за период аналогичный столетиям, в течение которых Европа сотрясалась от междоусобных войн, турки распространили на подвластных им территориях мир, спокойствие, свободу вероисповедания и совести. В отсутствие мятежей, турецкие государства предоставляли населению, находящемуся под их юрисдикцией, свободу вероисповедания, языка и культурной деятельности. Если этому необходимо будет привести пример, достаточно обратиться к Османской Империи. Таким образом, даже в упомянутый период времени, подвергавшиеся притеснениям в большинстве своём на религиозной почве и желающие воспользоваться преимуществами свободы совести, бежали с Запада на Восток в поисках прибежища.

Этнические конфликты, начавшиеся с появившейся с самого начала XIX-го столетия деятельности по становлению армянской нации, должны рассматриваться в целом, без разделения Кавказа и Аннатолии. Невозможно понять демонстрацию разных политических позиций в отношении данного вопроса со стороны Азербайджана и Турции, в то время, когда эта целостность ещё со времени Берлинского соглашения 1879-го года и до наших дней признаётся армянами. Таким образом, как азербайджанские, так и турецкие исследователи и историки должны превратить в общее дело исследование о геноциде тюрков-мусульман (например, восточная Анатолия и Ходжалы), который исторически нетрудно доказать, против необоснованных утверждений о геноциде армян. Помимо этого, армянский вопрос имеет предельно важное значение не только для истории тюркских народов, он одновременно также важен и с точки зрения Восточной проблемы и истории Ближнего Востока.

Османская архивная документация проясняет множество тёмных пятен, связанных с армянами. Как видно из полученной нами информации и документов, фантазии армян и их сторонников начались много лет назад и продолжаются до сих пор. Это планы преимущественно стран-экспансионистов.

Firdovsiyyə Əhmədova
Tarix üzrə fəlsəfə doktoru, dosent

TÜRK-MÜSƏLMAN ƏHALİ BEYNƏLXALQ VƏ REGİONAL MARAQLAR QARŞIDURMASINDA (1918-ci il)

Açar sözlər: müsəlmanlar, ermənilər, ərazi, Qafqaz, bolşeviklər, Türkiyə, qırğın
Ключевые слова: мусульмане, армяне, территория, Кавказ, большевики, Турция, резня

Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzünün son mərhələsi ermənilərin azərbaycanlılara qarşı heç olmasa XX yüzillik ərzində törətdiklərinin tarixini ciddi araşdırmağa yönəldir. Son 100 il ərzində maddi tarixi mənbələri belə saxtalaşdırmaq istiqamətində intensiv iş görən ermənilər bütün cəhdlərə baxmayaraq həqiqəti ört-basdır edə bilməyib açıq-aşkar zora əl atdılar.

Ermənilərin hələ eradan əvvəl Azərbaycanın tarixi torpaqlarına istilaçı müdaxiləsi bəllidir. Dövlətçiliyini itirəndən sonra erməni fikir tərzi hərbi fəaliyyət müstəvisindənsə ideoloji-təbliği məzmunlu fəaliyyətə üstünlük verir. Erməni əlifbası, tarixi, dini qüvvələri uydurma «böyük Ermənistan» ideyasını yaşatmaq və reallaşdırmaq yönündə tərbiyə edir, öyrədir. Beynəlxalq aləmdə nüfuz sahibi dövlətlərlə müxtəlif əlaqələr axtarır, etibarlı dayaq sahibi kimi Rusiya dövləti ilə anlaşma qura bilir. Rusiya imperiyasının cənuba irəliləyiş perspektivində erməni vasitəçiliyi cəlbedici görünürdü. Osmanlı imperiyasında xristian təbəələrinin himayəçisi pərdəsi altında şərq siyasətini reallaşdırmağa dönmədən səy göstərən Rusiya, həm də «erməni hüququnu müdafiə» adı altında Osmanlı torpağına daha bir müdaxilə imkanı görürdü. «Türkiyə Ermənistanı» ideyasına dəstək verməklə yanaşı Qafqazın istilasında da erməni məsələsindən əlverişli taktiki fəaliyyət üçün faydalanmaq niyyətində idi. Ermənilər razı salmalı tədbirlər Rusiyanın dövlət mənafeyilə ziddiyyət təşkil etmir, əksinə qarşılıqlı təminata xidmət edirdi. Ermənilərin Cənubi Qafqaza köçürülməsi miqyası və şərtləri, Rusiyanın Qara dəniz boğazlarına, Osmanlı paytaxtına səngiməyən iddiası «erməni məsələsini» daha da kəskinləşdirirdi. 1453-cü ildə Konstantinopolu fəth edərək burada teokratik erməni icması yaratmaq barədə göstəriş vermiş türklər ermənilərin yüksək dövlət vəzifələrində olmalarına imkan vermişlər. Rusiyanın «Türkiyə ermənilərinin» dayağı olmaq cəhdi Böyük Britaniyanın Yaxın Şərqdəki mənafeyi ilə toqquşduğundan, yalnız Rusiyanın deyil, Berlin konqresinin iştirakçısı olan böyük dövlətlərin yardımına ümid bağlayan ermənilərin «böyük Ermənistan» xülyası yenə də baş tutmur. Osmanlı torpağındakı ermənilərin «qayğısını çəkən» Rusiya imperiyası ölkəsində ermənilərin istisna imtiyazlarla hər hansı bir əraziyə sahib çıxmalarına açıq etiraz edirdi. I Dünya müharibəsinin rus-türk cəbhəsində erməni mövqeyinin Rusiya üçün siyasi əhəmiyyəti yenidən artmağa başlayır. Təbəəsi olduğu dövlətə qarşı ölkə daxilində ikinci cəbhə açan Türkiyə ermənilərinə Rusiya «müttəfiqliyi» baha başa gəlir (6, s.158-161). Türkiyə hökumətinin xain təbəələrinə və fərarilərə qarşı cəza tədbiri - etibarsız erməni əhalisini döyüş bölgələrindən köçürməsi prosesində məhv olmuş ermənilərin sayı zaman-zaman artırılmış, şişirdilmiş rəqəmlər hallandırmağa başlanmışdır. 1915-ci ildə türk ordusuna arxadan zərbə vurmuş ermənilər Türkiyə hökumətini onlara qarşı genosid siyasəti yeritməkdə beynəlxalq ittihamla uzun illər çıxış etmiş, hər dəfə təcavüzkar, məkrli planlarını həyata keçirmək yonündə işlərini ört-basdır etmək üçün bu məsələ ətrafında daha artıq səs salmağa çalışmış, indi də həmin siyasətlə Azərbaycan Respublikasına qarşı həyata keçirdiklərini diqqətdən yayındırmaq və çağdaş beynəlxalq durumdan faydalanmaq istəyirlər.

SSRİ-nin dağılması, yeni müstəqil dövlətlərin meydana çıxması, dünya siyasi xəritəsinin növbəti rəngarəngliyinin təsbiti fürsətindən qazanc götürmək istəyirlər. Həqiqətdə isə 1914-1920-ci illərdə ermənilər tərəfindən yüz minlərlə insanın məhv edildiyi qərəzsiz tədqiqat işlərində təsdiqini tapmışdır (2). Bəhs edilən dövrdən də əvvəl ermənilər müsəlmanlara, türklərə, kürdlərə, Azərbaycan türklərinə qarşı qəddar davranmışlar. Regionda maraqları olan böyük dövlətlər arasında «manevrlər» edən ermənilər sərbəst hərəkət imkanında «zor» variantından çıxış edirdilər. 1905-ci ildən başlayaraq 1920-ci ilin sonunadək erməni zorakılığının zirvə dövrü 1918-ci ilin yazında Azərbaycan ərazisində

baş verdi. Erməni zorakılığının hədəfi, məzmunu bəlli ikən forma müxtəlifliyinin hüdudu məlum deyildir. İşgəncə növlərinin tətbiq mənzərəsi yəqin ki, bəşəriyyət tarixində olmuş qəddarlığın heyrət nümunəsi hesab ediləcəkdir: adamların ağac budaqlarından asılaraq parça-parça edilməsi, şişlərlə dağlanma, süngülərlə deşilmə, borulara qaynaqlanma, qaynar samovarlara bərkidilmə, orqanların kəsilməsi, müqəddəslərin təhqiri, məhv etmə, terror, tonqala atmaq, quyuda boğmaq, diri-diri yandırmaq... Arxiv sənədlərindən faktlarla sadalanan çoxsaylı məlumatlar erməni qəddarlığı təşnəsinin ölümsüz salnaməsidir. Yenə də insanları təəccübləndirməyə icad üsulları tükənməyibdir. Ermənin düşmənə cəza müxtəlifliyi vasitədir, məqsəd «düşmənin» məhvidir. Bəs kimdir ermənin düşməni? Konkret vahid ünvan göstərmək olar da, olmaz da. Amma birmənalı cavab var: ermənin düşməni onun iddia etdiyi ərazinin yerli əhalisi, həqiqi sahibləridir. Yalnız onları məhv etməklə bir çox planlarının puça çıxdığı məqamda məqsədə çatmaq olardı. İddia ərazisinin əksər sahibi türk, azərbaycanlı, dini etiqadca müsəlman olduğundan qəddarlığa məruz qalan məhz onlardır, rus məmuru, dinc rus əhalisi, türklər, kürdlər, talışlar, tatlar, ləzgilər, yunanlar, yəhudilər, gürcülər və b. xalqlar da erməni qurbanlarının siyahısındadır.

Ermənilərin əlverişli tarixi fürsət hesab etdikləri növbəti mərhələ 1917-ci ilin fevralından başlayır. Cənubi Qafqazda bütün partiya, təşkilatlar öz məramları yönündə konkret fəaliyyətləri ilə cəmiyyət içində sosial dayaq yaratmağa çalışırdı. Milli məzmunda təşkilatlanma gücləndi. Müsəlmanların gələcək mövcudiyyəti və inkişafının siyasi formaları müzakirə olunduğu və Qafqaz müsəlmanlarının, sonra isə Ümumrusiya müsəlmanlarının qurultaylarında fərqli baxışlar müstəvisində geniş müzakirələr federasiya quruluşlu Rusiyada inzibati-ərazi muxtariyyətinə üstünlük verdiyi bir vaxtda daşnak xadimləri regionda mürəkkəb bir missiya yerinə yetirmək əzmində idilər: dünya müharibəsi zamanı rus qoşunları tərəfindən tutulmuş «Türkiyə Ermənistanı» adlandırdıqları ərazini də Rusiyaya qatmaq, Ermənistanla Rusiyanın əlaqələrini qırmamaq və ən başlıcası türklərin Cənubi Qafqaza müdaxiləsinə yol verməmək (6). Bütün bunların nəticəsində isə ərazi iddialarını ələ keçirmək maneəsiz ötüşə bilərdi. Digər tərəfdən, keçmiş Rusiya imperiyasının başlıca inqilabi mərkəzlərindən biri olan, strateji mövqeyi və təbii ehtiyatı ilə əhəmiyyətə malik Bakıdan başlayaraq Cənubi Qafqazda Sovet hakimiyyətinin qələbəsinə nail olmaq kimi təxirəsalınmaz vəzifəni həyata keçirməli olan bolşeviklər müsəlmanların siyasi fəallığından, xüsusən də milli hərəkatın önündə olan «Müsavat» partiyasının seçki uğurlarından nəticə çıxartdılar. Bolşeviklər ilk növbədə hərbi güc toplamağın qeydinə qaldılar. Qafqaz cəbhəsindən dönən rus əsgərlərinin silah və hərbi sursatı əsasən Bakı bolşeviklərinin əlinə keçdi. «Daşnaksütyun» partiyasının bolşeviklərlə ittifaqda hərəkət etdiyini, erməni milli şıırasının da təbii ki, daşnaklarla bir cəbhədə olduğunu, nəticədə Bakıdakı erməni hərbi hissələrinin bolşeviklərin xidmətində duracağını bilsə də, S.Şaumyan Rusiyadan hərbi məqsədli vəsait və sərəncamlar tələb edirdi (5). Belə ardıcıl, prinsipial, nizamlı silahlanmanın müqabilində bolşeviklər 1918-ci ilin martı üçün 20 min silahlı qüvvəyə arxalandığı halda, müsəlman kütləsi silahsız, əli yalın vəziyyətdə idi. Bakı bolşevikləri ilə erməni millətçilərinin müştərək mübarizəsində hədəf eyni idi: Azərbaycanın milli fikrini boğmaq, milliyyətçi hərəkatı dəf etmək. Nəzərə alaq ki, Bakı bolşeviklərinin görkəmli üzvlərinin əksəriyyəti milliyyətcə erməni idi. Cəmiyyətdə müsəlman milli komitəsinin və «Müsavat» partiyasının nüfuzu həm bolşeviklərin, həm də ermənilərin əsas məqsədlərinə əngəl törədirdi. Türkiyə ərazisində belə erməni muxtariyyətini rəsmi dəstəkləyən, bu yolda səy göstərən bolşeviklərin «böyük Ermənistan» xülyasını gerçəkləşdirəcəyinə ümid bəsləyən ermənilər daha artıq canfəşanlıqla hər bir siyasi akta məqsədyönlü məzmun verməyə çalışırdılar.

Azərbaycan muxtariyyətinin gerçəkləşməsi, Qafqazda muxtar milli dövlət qurumlarının yaradılması Sovet hakimiyyəti ideyasına köklü zərbə demək idi. Hakimiyyətin sovet hökumətinin düşmənlərinin əlinə keçəcəyi təqdirdə neft mədənlərinə od vurmaq haqqında mərkəzdən təlimat belə verilmişdi. Bolşeviklər müsəlman millətçiləri üzərinə həlledici hücum fürsəti gözlədikləri halda müsəlman hərbi hissələrinin təşkili yönündə iş aparılması siyasi ehtirasları zirvə anına çatdırdı. «Cəbhə boyu hücuma başlamaq» (Şaumyan) üçün bəhanə lazım idi. Bəhanə üçün zəmini də bolşeviklər hazırladı. «Evelina» gəmisinin müsəlmanlardan ibarət şəxsi heyətinin bolşeviklər tərəfindən tərksilah edilməsi müsəlmanların kütləvi etirazına səbəb oldu. Erməni fitnəkarları üçün təxribat, bolşeviklər üçünsə hücum meydanı yarandı. Bu aksiyaya Şaumyanın şüurlu olaraq nəinki yol, bilavasitə rəvac verdiyini etdiyi etiraf təsdiqləyir: «Atlı dəstəmiz üzərinə düşmən tərəfindən ilk silahlı basqın

cəhdindən istifadə edərək cəbhə boyu hücuma başladıq» (1). Hərbi gücün yalnız ermənilərə məxsusluğunu, silahsız müsəlman kütləsi ilə mübarizə aparacağını bilə-bilə martın 30-da «əksinqilabi qüvvələrə» qarşı Bakı şəhərinin və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. Çoxdan həsrətində olduqları anın yetişdiyini görən ermənilər üçün diplomatik davranışa ehtiyac qalmadı. «Daşnaksütyun» və erməni milli şurası Bakı Sovetini rəsmi dəstəklədi. Müsəlmanların fiziki mövcudluğu təhlükə altında qaldı. «Bakı şəhəri üzrə üç gün vəhşiləşmiş daşnakların dəhşətli azğınlığı baş verir... (N.Nərimanov)» (3, s.32-33). Bakıda törətdiklərindən məmnun olan daşnaklar əməllərini Azərbaycanın qəzalarında davam etdirirlər. Üç gün ərzində 12 mindən çox müsəlmanın məhvi bolşevikləri yeni qələbələrə, mübarizənin coğrafi məkanını genişləndirməyə ruhlandırdı. Zorakılıq, vəhşilik və talanın miqyası daşnakları 1918-ci ilin avqustunda kütləvi qətllərə görə Osmanlı paşasından üzr istəməyə vadar etmişdi. Bu məcburiyyət qisas ehtimalı qorxusu altında baş versə də, canilərin cinayəti etiraf etməsi idi ki, daşnak nümayəndələri qırğın iştirakçılarını beynəlxalq məhkəməyə verməyi vəd etmişdilər. Qətlin həyata keçirilməsi milli seçimə söykənirdi. Siyasi deyil, milli-dini mənsubiyyət əsas götürülürdü. Çünki qırğının baş verdiyi ərazilərin əsl sahibi məhz müsəlmanlar - azərbaycanlılar idi. Onları fiziki məhv etmədən torpağını mənimsəmək mümkün olmurdu. Digər tərəfdən isə onların milli muxtariyyət arzusu və qətiyyəti həm daşnakların, həm də bolşeviklərin planının qarşısını ala bilərdi. 1918-ci ildə azərbaycanlıların soyqırımı aktını vətəndaş müharibəsi, hərbi-siyasi qarşıdurma kimi qiymətləndirənlər əsas dəlil kimi xarici dövlətlərin arasında deyil, bir ölkə vətəndaşları arasında baş vermiş hadisə olduğunu göstərirlər. Nəzərə alaq ki, çar rejimi devrilmiş, müvəqqəti hökuməti devirən bolşeviklər Rusiyada hakimiyyətə gəlmiş, Cənubi Qafqazda isə Zaqafqaziya Seyminin fəaliyyət göstərdiyi mürəkkəb bir vəziyyətdə Bakını, Bakı neftini tutmaqda qətiyyətli olan bolşeviklərin Bakıdakı hakimiyyəti yalnız qırğından sonra möhkəmlənə bildi. Sonrakı qırğınlar qəzalarda törədildi. Bakı XKS-nin hakimiyyəti isə Azərbaycan qəzalarına yayılmamışdı.

Rusiyadakı bolşevik hakimiyyətini keçmiş Rusiya imperiyasının bütün ərazisinə şamil edən bolşeviklər ucqarlarda yaranmış yeni hakimiyyət qurumlarını nəinki tanımaqdan imtina edir, onların yaranmasına, fəaliyyətinə hər vəchlə mane olmaq əzmində idilər. Bu baxımdan 1918-ci ilin yaz hadisələrini «vətəndaş müharibəsi» adlandıranlar Zaqafqaziya Seyminə tam etinasızlıqla «Bakı Soveti Cənubi Qafqazda vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir» deyirdilər. Hətta bolşevik-müsəlmanlar belə (N.Nərimanov və b.) 1918-ci ilin mart hadisələrini «milli qırğın» kimi səciyyələndirmişlər. Cənubi Qafqazda Seymin səlahiyyətlərindən kənarda yeganə şəhər olan Bakıda milli qırğın törədərək hakimiyyət quran bolşeviklər 1918-ci il aprelin 22-də yaradılan Zaqafqaziya Demokratik Federativ Respublikasına da məhəl qoymadılar. Azərbaycan qəzalarında müsəlmanlara qarşı qırğın davam edirdi. «Bakı insanlıq simasını büsbütün itirmiş şəxslərin hakimiyyəti altında idi» deyən N.Nərimanov üzünü tarixə tutub, «Lakin belə bir dəhşətli hadisədən sonra onun qəzalar üzrə həyata keçirilməsini davam etdirmək nəyə lazım idi?» sorsa da məsuliyyəti Şaumyan başda olmaqla bolşeviklərin üzərinə qoymuşdu: «Bax, bu suala 1918-ci ildə Bakıdakı Sovet hakimiyyəti cavab verməlidir» (3, s.33).

Cənubi Qafqazda müsəlmanlara qarşı 1918-ci ildəki soyqırımı bir sıra siyasi nəticələr doğurdu. Müsəlmanların fiziki məhv olma təhlükəsi muxtariyyət fikrini geriyə atıb, dövlət yaradılması zərurətini meydana qoydu. Milli şüur, milli mənlik hissləri gücləndi. Sovet hakimiyyəti ideyası güclü zərbə aldı. Bolşevik hakimiyyətinin bölgədə ilk təcrübəsi milli qırğınla başladı və Sovet Rusiyasının Qafqaza növbəti müdaxiləsi həm zaman, həm də taktiki dəyişiklik zərurətinə məruz qaldı. Brest-Litovsk müqaviləsi ilə «Türkiyə Ermənistanı» planı yenidən puça çıxmış daşnakların Qafqazda bolşeviklərlə müttəfiqlikdən də siyasi qazancları onları qane etmir, Zaqafqaziya Seyminə çox orijinal təklif edirlər: Bakı hadisələrini bir şərtlə aradan qaldırarlar ki, Bakıda xalis müsəlman deyil, beynəlmiləl hökumət olsun, erməni hissələri də Bakıda qalsın. Mayın 6-da Seymin müsəlman fraksiyası və Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının üzvləri bu təklifi birmənalı rədd edirlər (4, s.102-104). XX əsrin I rübündə daşnakların üz tutduğu qüvvələr tamamilə fərqli, bir-birinə düşmən düşərgələrə məxsus olmuşlar. Qısa zaman kəsiyində daşnakların müttəfiq kimi səbatsızlığı heç də çevik diplomatiya deyil, məqsədə çatmaq yönündə hər vasitədən faydalanmaq, manevr etmək nümunəsidir: Bakıdakı bolşevik hakimiyyətinə qarşı ingilislərlə müştərək qiyam planı, Böyük Britaniya qoşunları hesabına türk ordusuna qarşı çıxmaq, türklərin üstünlüyü anında onlarla separat danışığa girmək, türk-

lər bölgəni tərk edən kimi ingilis himayəsindən faydalanmaq, Denikinlə iş birliyi qurmaq, Sovet Rusiyası ilə gizlin sövdələşmələr. Azərbaycan Cümhuriyyətinin devrilməsində də məşum rol oynayan Ermənistan dövləti Osmanlı imperiyasından pay sahibi olmaq istəyən qalib dövlətlərlə birgə Sevr müqaviləsini də imzaladı.

Ermənilər qalib dövlətlərə dayaq qüvvəsi kimi gərəkli idi: Kilikiyada Türkiyəyə, Cənubi Qafqazda Sovet Rusiyasına qarşı. Nəticə, erməni-gürcü müharibəsi, erməni-türk müharibəsi, ermənilərin Azərbaycana qarşı uzun və qanlı mübarizəsi oldu. İddialı ərazilərin əhalisi 10-30% azaldı, yaxud yer üzündən silindi.

Türkiyə üçün «ölüm» müqaviləsi ilə barışmayan türk xalqının milli-azadlıq savaşında yeni cəbhə açan ermənilər Qars vilayətində, Şərur-Dərələyəzdə, İrəvanda və b. yerlərdə kütləvi qətllərə başladılar. Hərbi əməliyyat meydanında məğlub olan daşnak hökuməti Aleksandropol (Gümrü) sazişini imzalamağa məcbur oldu (1, s.401-402). Türkiyəni avantürist müharibəyə cəlb edən Ermənistan, Sovet Rusiyasının öz mənafeyi naminə yeritdiyi siyasət nəticəsində sovet respublikası formasında yenidən «doğuldu». Kommunist adı altında fəaliyyət göstərən daşnakların tezliklə anti-sovet qiyamı təşkil edib, yenicə müharibə edib, alçaldıcı sülh bağladıqları, tarixi düşmən saydıqları türklərə üz tutaraq əməkdaşlıq cəhdi erməni milli strategiyasında məqbul taktiki addım idi. Ermənistan respublikası gerçəkliyinə qane olmayan ermənilər üçün törətdikləri qırğınların, talanların, qətllərin onlar üçün gözlədikləri siyasi nəticəsi hələ də iddia etdikləri səviyyədə təmin edilmədiyindən ənənəvi mübarizə metodlarından əl çəkməyiblər. 1918-ci il müsəlman soyqırımını törədərkən ermənilər müttəfiq kimi köməyinə bel bağladıqları ingilis hərbi qüvvələrinə qarşı müsəlman əhalisi içərisində mənfi münasibət formalaşmasına səbəb olmuşdular. Belə ki, 1917-ci il fevral inqilabından sonra Cənubi Qafqaz xalqlarına vəd olunmıış Böyük Britaniya köməyinin, ermənilər, müstəsna olaraq onlar üçün nəzərdə tutulduğu barədə məlumat yayaraq öyündükləri halda, Qafqazdakı Britaniya rəsmi şəxsləri özlərinə qarşı gürcü və müsəlmanlarda yaranmış yanlış münasibəti bütünlüklə dəyişdirməyə nail ola bilmədilər**.** 1918-ci ildə daşnakların Qafqazdakı fəaliyyəti Böyük Britaniyanın yerli əhali arasında Britaniyapərəst münasibət formalaşdırmaq yönündə yeritdiyi ənənəvi siyasətə əngəl törətdi və Qafqazda birinci ingilis missiyası (Denstervilin başçılıq etdiyi) Azərbaycanın siyasi tarixində rəğbət doğurmayan məqama çevrildi.

1918-ci ildə soyqırımının digər bir nəticəsi Qafqaz müsəlmanları arasında Türkiyə oriyentasiyasının güclənməsi, yeganə nicat yeri olaraq, Türkiyədən hərbi, diplomatik və s. dəstək görməyə yönələn qəti siyasət kursunun formalaşması oldu. Azərbaycanlıların 1918-ci soyqırımının ən ümdə və konkret siyasi nəticəsi Azərbaycan Cümhuriyyətinin meydana gəlməsi sayıla bilər. M-Ə.Rəsulzadənin 1918-ci ilin martında ermənilərin törətdiyi qırğın nəticəsində «Bakı bir qan və fitnə ocağı deyil, paylaxtımız oldu» deyimi də məhz Azərbaycan Cümhuriyyəti gerçəkliyini ehtiva edir.

Beynəlxalq və siyasi konyunkturadan istifadə edərək ərazi iddialarını təmin etmək cəhdləri müxtəlif xalqların, xüsusən türk-müsəlmanların, həmçinin ermənilərin də müqəddəratında məşum rol oynamışdır. Tarixi reallığı sənədlər əsasında öyrənmək və tədqiq etmək region xalqlarının təhlükəsizliyinə beynəlxalq ictimaiyyətin dəstəyini almaq baxımından da əhəmiyyətlidir.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, cild I, Bakı, 2004,440s.
2. İsgəndərli A., Azərbaycan həqiqətləri: 1917-1920., Bakı, 2012, 228s.
3. Nərimanov N., Ucqarlarda inqilabımızın tarixinə dair, Bakı, 1992, 78s.
4. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları, Bakı, 2006, 216s.
5. Большевики в борьбе за победу социалистической революции в Азербайджане.Документы и материалы 1917-1918 гг., Баку,1960,675с.
6.Перинчек М., Армянский вопрос в 120 документах из российских государственных архивов, Москва, 2011, 256с.

Фирдовсия Ахмедова

ТЮРКО-МУСУЛЬМАНСКОЕ НАСЕЛЕНИЕ В ПРОТИВОСТОЯНИИ РЕГИОНАЛЬНЫХ ИМЕЖДУНАРОДНЫХ ИНТЕРЕСОВ (1918 г.)

Резюме

После Февральской революции в России, в ходе происходивших на Южном Кавказе военно-политических процессов, армяне мобилизовали все силы на реализацию планов по созданию государства. В условиях усиления международного противостояния в борьбе за господство в бассейне Кавказско-Каспийского региона в 1918 году армянами была осуществлена резня мусульманского населения. Пытаясь достичь своей цели путем уничтожения коренного населения на притязаемых территориях, армяне одновременно вступали в союз с различными противоборствующими силами. Военно-политический дашнакско-большевистский альянс в 1918 году привел к уничтожению десятка тысяч тюрков-мусульман. В статье нашли отражение политические итоги резни тюрко-мусульманского населения.

Hüseyn Həşimli
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə elmlər doktoru,
professor, əməkdar elm xadimi.

ERMƏNİ VƏHŞİLİKLƏRİNİN "ŞEYPUR" JURNALINDA İFŞASI

Azərbaycan mətbuatı tarixinin öyrənilməsi sahəsində indiyədək mühüm işlər görülmüş, bir çox ciddi tədqiqatlar ortaya çıxmışdır. Lakin uzun illər elmi fikrin diqqətindən kənarda qalan, əhatəli araşdırma predmetinə çevrilməyən mətbuat orqanları da vardır ki, onlardan biri də "Şeypur" jurnalıdır. Bu satirik jurnalın ilk sayı Bakıda 5 oktyabr 1918-ci ildə, sonuncu, 14-cü sayı isə 18 yanvar 1919-cu ildə işıq üzü görmüşdür. Redaktoru məşhur maarifçi M.T.Sidqinin oğlu, tanınmış jurnalist Məmmədəli Sidqi, naşiri isə istedadlı şair-publisist Səməd Mənsur idi. "Şeypur"da M.Sidqi və S.Mənsurla yanaşı, C.Cabbarlı, S.Mümtaz, Ə.Müznib, Ə.Abid, M.Nasir və s. tanınımış ədiblərin müxtəlif imzalarla bədii və publisistik yazıları dərc olunmuşdur.

Sovet dövründə "Şeypur" jurnalı "əksinqilabi mahiyyət daşıyan, burjua-mülkədar hökmranlığını müdafiə edən "gülgü" jurnalı" sayılaraq tədqiqata cəlb olunmamışdır **(1, s. 3)**. Müstəqillik dövründə isə bu istiqamətdə bəzi addımların atılmasına başlanılmışdır. Bu sətirlərin müəllifi müxtəlif məqalələrində və bir kitabında "Şeypur" jurnalını ilk dəfə olaraq əhatəli araşdırmağa səy göstərmiş, jurnalın bütün saylarını transliterasiya edərək latın əlifbasında kitab halında nəşr etdirmişdir **(2; 3).**

Jurnaldakı materiallarla ətraflı tanışlıqdan sonra deyə bilərik ki, "Şeypur"a sovet dövründə uzun illər boyu birtərəfli, laqeyd münasibət bilavasitə onun mövzu-ideya mündəricəsi, izlədiyi qayə ilə bağlı idi. İctimai-siyasi hadisə və proseslərə aydın mövqedən münasibət bildirən jurnal Vətən və xalq taleyi üçün xüsusi önəm daşıyan məsələlərə həssaslıqla yanaşır, milli mənafelərin ardıcıl müdafiəçisi kimi çıxış edirdi. Xüsusən Azərbaycanın yenidən işğalına yönələn rus bolşevizminin əsl mahiyyəti, onlara və digər havadarlarına arxalanan ermənilərin fitnəkar əməlləri, əsassız torpaq iddiaları, 1918-ci ilin martında soydaşlarımıza qarşı törətdikləri qanlı qırğınlar "Şeypur"un səhifələrində tutarlı faktlar və təhlillər vasitəsilə, gah ciddi, gah da satirik tərzdə öz ifadəsini tapmışdır. Həmin materiallara qısa nəzər salacağıq.

Səməd Mənsurun 5 oktyabr 1918-ci il tarixli ilk sayda "Pompuşalı" imzasıyla verilmiş "Qaçmaq günüdür" şeirində Azərbaycan və türk silahlı qüvvələrinin Bakını azad etmək üçün birgə hərbi əməliyyatları alqışlanmış, torpaqlarımızdan çəkilməyə məcbur qalan ingilis və erməni bölüklərinə ironiya ilə xitab olunmuşdur:

Deyirdin Bakı, Dərbənd, Dağıstan sənin olsun,
Tiflis də sənin, Qars da sənin, Van sənin olsun,
"Hayrik" olasan, cümlə "Hayıstan" sənin olsun,
Türk qoymadı, əfsus, bir ovdan sənin olsun.
Qaçmaq günüdür, ingilis! Osman gəliyor! Arş!
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş! **(4, s. 1)**

Həmin sayda M.Sidqinin "Şeypur" imzası ilə verilmiş "Altı ay" adlı məqaləsi də maraq doğurur. Müəllif əsas diqqəti xalqımıza qarşı törədilmiş 1918-ci ilin qanlı mart qırğınından ötən altı aya yönəldərək həmvətənlərinə xitabən yazırdı: "Altı aydır ki, gülməmisən. Mart hadisatından, bolşeviklərin təbirincə, vətəndaş müharibəsindən sonra suya batmış toyuq kimi suyu süzülə-süzülə bir tərəfdə qalmışdın. Öz şəhərində, öz evində özgə yerdən gəlmişlərin əli altında əzilirdin. Küçədən keçəndə küçə dibi ilə yeriyib, öz ana dilində danışmağa ehtiyat edirdin..." **(4, s. 2).** İlk sayda "Yaftım"ın "Zəbani-hal" şeirində isə bolşeviklərin, Şaumyan kimi maskalı daşnakların Bakıdakı qanlı cinayətləri nəzmə çəkilmişdir:

Axdırdığın, ay bolşevik, al qan səni boğsun!
Pulsuz-pinəsiz içdiyin şampan səni boğsun!
Pislik niyə etdin, a Şaumyan, səni boğsun! **(4, s. 7)**

Bu sayda "Şeypur"un lüğəti" başlıqlı satirik şərhlərdə də ermənilərin iç üzü açılmışdır. Bir izahda deyilir: "Vperyod- əslən rus sözü olub, bu axır vaxtlar ermənilər onu çox istemal edirdilər. Bu sözün əsl mənası "Qabağa" deməkdir. Amma nədənsə ermənilər onu tərsinə başa düşüb, "Dala" deyə işlədirdilər. Qədim zamanlarda erməni daşnakları həmin adda Bakıda bir qəzetləri də çıxarırdılar. Müsəlmanlara müraciətən hər gün "şirin-şirin" məqalələr yazmaqda idi" **(4, s. 8).**

Jurnalın 2-ci sayında "Müxbiriniz Qarapapaq" imzasıyla verilmiş "Bakı ətrafında" adlı yazıda **(5, s. 5-6)** bolşevik-daşnak birliklərinin 1918-ci ilin martında Bakıda və ətraf kəndlərdə talanlar törətməsi, hətta "Şaumyanın binagüzarlığı ilə məscidləri də qarət etməsi" barədə söz açılmışdır.

3-cü saydakı "Teleqraf xəbərləri"ndə milli qüvvələrin Bakını yadellilərdən azad etməsindən əndişələnən ermənilərin məkrli siması satirik tərzdə ifşa olunmuşdur: "*Zəngəzur* - Ermənistanın sütunu olan Andranik Bakının alınması xəbərini eşitcək canını bədənindən çıxarıb, tezliklə özünü Bakıya yetirmək üçün propusk alıb havaya qalxdı... *İrəvan*- Andranikin ruhunun Bakıya tərəf getməsi xəbəri alınan kimi ermənilər tərəfindən Hamazaspa təbrik teleqrafları göndərildi..." **(6, s. 4).** 3-cü saydakı bir şeirdə mart hadisələrində ikibaşlı oyun oynayan bəzi qüvvələrin, həmçinin Andranik, Hamazasp kimi düşmənlərin mənfur siması satirik biçimdə üzə çıxarılmışdır. "Sərgərdan" imzalı həmin əsərdə (bu imzadan o illərdə Əliabbas Müznib daha çox istifadə etmişdir) bolşevik-daşnak qüvvələrin Azərbaycana qarşı birləşməsi kimi faktlara kinayə ilə diqqət yetirilmişdir:

Ay kirvə, xəbər var ki, Şaumyan gələcəkdir,
Əldə yeni mandatla Avakyan gələcəkdir.
Yanında müavin Avanes, Artun, Əzizbəy,
Alyoşa, Dadaş, Sərkis, Akopyan gələcəkdir. **(6, s. 6)**

Dördüncü sayda M.Sidqinin "Şeypur" imzası ilə dərc olunmuş "Tiflis duması"**(7,s.2-3)** adlı məqaləsində "sosialist dərisi örtmüş daşnakların" mart hadisələri haqqında uydurmalar yayması, Gürcüstandakı müəyyən dairələrin, xüsusən sol eserlərin (sosialistlərin) də onlara dəstək verməsi ürək ağrısı ilə dilə gətirilmişdir. M. Sidqi bolşeviklərin ermənilərə dəstəklədiyini, azərbaycanlılara münasibətdə ayrı-seçkilik etdiyini, həmvətənlərimizin əksinqilabçı adıyla qırdırıldığını da diqqət mərkəzinə çəkmişdir: "Qafqaz islam əhalisi hamısı "kontrevolyusioner", yəni əksinqilabçı olduqlarına görə onların qətli vacibdir. Lakin kirvələr əsl həqiqi sosialist, yəni cibgir olduqlarından onlar lazımlı adamlardırlar. Özləri də azdırlar... Onlara əl gəzdirib azaltmaq yaxşı deyildir" Müəllif əsl vətəndaş yanğısı ilə belə bir haqlı sual verir: "Amma bircə burası var ki, bilmirəm, bu "rəhmli ağalar" bir neçə ildə bütün Qafqaziyada müsəlman qanı çay kimi axanda harada idilər?"

Jurnalın 5-ci sayındakı "Rəsmi-güşad" adlı yazıda **(8, s.3-5)** da erməni namərdliyinin iç üzü konkret şəkildə açılmış, onların mart hadisələrində "müsəlmanları qırması, evləri çapıb talaması, bazarları yandırması" nəzərə çatdırılmışdır. Bu saydakı "Taziyanə" adlı şeir parçasında da "Bakı yandı, millət qırıldı" harayı eşidilir **(8, s.7).**

6-cı sayda M.Sidqinin "Nə istəyirlər?" adlı məqaləsində də erməni xislətinin böhtankeş mahiyyəti önə çəkilmişdir: "Erməni kirvələrin qədimdən bəri bir adətləri vardır ki, bir şey olan kimi elə bağırardılar ki, səsləri birbaş Yevropaya gedərdi. Yevropanın başı qarışıq olduğuna görə indi də Ermənistanın Tiflisdə olan vəkili Camaliyan əlini qulağının dibinə qoyub Kiyev komissarına qışqırır ki, - Adə, ay dığa! Qoyma, Gürcüstanda olan erməni qaçqınları soyuqdan, aclıqdan qırıldı ... Tiflisdə çıxan erməni qəzetləri bütün Qafqaziyanın Ermənistana verilməsindən ötrü müharibə edib qırılan ermənilərin tələf olmasından...uzun-uzadı məqalələr yazmaqdadırlar" **(9, s. 1)**. Lakin M. Sidqi təkzibolunmaz faktlarla göstərir ki, ermənilər özləri qırğınlar, vəhşiliklər törədir, sonra isə başqalarını borclu çıxarırlar: "O gün Gəncədən iki teleqraf gəlib ki, erməni saldatları Göyçə sərhəddini keçib müsəlmanlara hücüm etmişdirlər. Altmış min müsəlmanın irzü namusu, həyatı, malı və mülkü təhdid edilir. İndi Tiflisdə olan Camaliyana və erməni qəzetlərinə deyəsən ki, balam, bu nə əhvalatdır? Özlərini eşitməməzliyə vurub deyəcəklər ki, qoymayın, erməni milləti qırıldı, qurtardı...Xülasə, erməni kirvələr çox ərköyün bəslənmişlər. Onlar deyir ki, biz hər nə eləsək, siz danışmayın. Ancaq siz bir balaca əl tərpətsəniz, qiyamət qopardarıq" **(9, s. 2).**

6-cı saydakı "Bir diplomat ilə müsahibə"də də erməni quldurların günahsız azərbaycanlıları

qətlə yetirməsi nəzərə çatdırılmışdır: ”Erməni cümhuriyyətinin müsəlləh qüvvəsi Andranik başda olmaqla xırda uşaq-muşaqları qırmaqla rəşadətini göstərir” **(9, s. 5).**“Mərqub” imzalı müəllifin 7-ci sayda oxuduğumuz “Təqsirkar gücsüzdür” məqaləsində də **(10, s. 4-5**) daşnakların azərbaycanlılara qarşı törətdiyi əməllər konkret fakt və təhlillər yolu ilə nəzərə çatdırılmışdır: ”Məsələn, götürək mart hadisəsini. “Sosialist” qəzetələrində yazıldığına görə, daşnaksaqanlar on üç min nəfər müsəlmanı əsir edib, onlara böyük “ehtiram” etmişlər və davadan sonra evlərinə qaytarmışdılar. Bu on üç min nəfərin evi, məlum olduğu kimi, Caparidze və Məşədi bəyin söylədiyinə görə, talanlanmışdır...Bu, bolşeviklərin dediyi. Bizə məlum olduğu kimi, bolşeviklər camaatı həyəcana gətirməmək üçün birə üç dəfə az demişdilər... Daşnaksaqanlar Bakının neftini, benzinini, cövhərini, hökumət idarələrində olan nəqdiyyələrini, manufakturanı... və qeyrini paraxod rabatay... Əhaliyə məxcsus olan paraxodlar da üstəlik getdi”. 8-ci sayda “Kənarçı Pompuşalı”nın “Ziyalılarımız” felyetonunda **(11, s.5-6)** da daşnaklara bolşeviklərin dəstək verməsi, türk-müsəlmanlara qarşı onların eyni fitnəkarlıqla yanaşması dilə gətirilmişdir:

“ -Canım, dünyaya svoboda verən, davanın qan tökməyinin protivniki olan bolşeviklər martda bizi qırdılar. Evlərimizi soydular...

- Dur-dur, balam! Onlar ki, bolşevik deyildi. Onlar daşnaq ağalar idi.

- Ey, kakoy tı naivni. Bolşevik deyildi, nədir? Canım, bu paraxoddan top atıb məscidlərimizi, drevni tikililərimizi xaraba qoyan daşnaq idi? Onlar ki, daşnaq deyildi!

- Dur-dur! Şəhərin aşağı məhəlləsində südəmər uşaqları qıran bolşevik idi, ya daşnaq? Hansı idi? Bilirsənmi, Əliağa Muradalıyeviç, sən elə demə! Sən deginən ki; koqda delo kasayetsa müsəlman, onda bolşevik-menşevik də, daşnaq-maşnaq da hamısı birdir” .

8-ci saydakı “Bu gün” məqaləsində isə Andranikin “Qarabağda müsəlmanları qırmağa başlaması”, Ermənistan hökumətinin ona dəstək verməsi, ermənilərin əsassız iddiaları nəzərə çatdırılmışdır: ”Həyasız adamdan hər nə desən, baş verər. Bu həyasızlardan biri də Ermənistan hökumətinin baş komandanı Andranik kirvədir ki, yenə Qarabağda baş qaldırıb müsəlmanları qırmağa başlamışdır. Ermənistan hökuməti də gözlərini yumub, əli lilə işarə eləyir. Ermənistan hökumətinin nə tövr siyasət yeritdiyini və nə fikirdə olduğunu təfsir etmək artıqdır. Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burda ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun **(11, s. 2).** Məqalə müəllifi “Şeypur” (M. Sidqi) onu da vurğulayır ki, Tiflisdə çıxan “Qruziya” qəzeti Upuçnin adlı rus yazıçısının “Keçmiş xülyalar” adlı məqaləsini öz səhifələrində dərc etməklə ermənilərə cavab vermək istəmişdir. “Azərbaycan” qəzeti də həmin məqalənin tərcüməsini dərc etmişdir. Bu məqalədə Upuçnin aşkar şəkildə yazır ki, Qafqazda Ermənistan adlı bir şey olmayıbdır. Ruslar Qafqazı tutanda burada bir Gürcüstan olub, bir də Azərbaycan xanlıqları...

8-ci saydakı “Teleqraf xəbərləri”ndə, eləcə də “Özciyəzim” imzasıyla verilmiş “Azərbaycan” adlı məqalədə Andranikin və Biçeraxovun Zəngəzur və Cəbrayıl qəzalarında soydaşlarımıza qarşı qırğınlar təşkil etməsi, Ermənistanın Kaçaznuni hökumətinin buna dəstək verməsi faktları önə çəkilmişdir. Bu sayda “Kənarçı Pompuşalı”nın (S. Mənsurun) “Ziyalılarımız” felyetonunda bolşevik-daşnak qüvvələrinin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlardan danışılmış, həmçinin tarixi saxtalaşdıran, hətta Nuh peyğəmbərin, Adəm ilə Həvvanın erməni olduğunu iddia edən ermənilərin cəfəng uydurmaları satirik tənqid hədəfinə çevrilmişdir: “Daşnak deyir ki, bir vaxt dünyada Tursiya-mursiya, Qafqaz-mafqaz, İran-miran olmayıb. Tamam bir Armeniya olub...Daşnak deyir ki, Nuh peyğəmbər erməni idi. Dünyanı su basanda gəmisi ilə gəzirmiş. Birdən bir quru yer görür. Deyir ki, iro! Yəni görünür, görünür. Sonra çıxır o yerə. Başlayır orada yaşamağa. O yerin adı İrəvan olur. Sonra da başlayır balalamağa.Yavaş-yavaş ermənilər tamam bu yerləri tutur...Nuh rəhmətə gedəndən sonra türklər, gürcülər, iranlılar qırğı kimi birdən çıxıb onların “veliki sarstvasını” uniçtojit eləyirlər...Hələ deyirlər ki, Adəm ilə Həvva erməni idi...Znaçit, Adəm erməni, Həvva armiyanka. Nuh da erməni. Kak vidno, dünyada erməni olmasaydı, heç çeloveçestvo olmaz idi... Bunlar hamısı müsəlman qırmaqdan ötəri imiş ki, öz Nuhdan qalma yerlərini təmizləyib əllərinə alsınlar... Onlar deyir ki, bu yerlər bizim babamız Nuhun kupçili yerləridir...Qoy hələ Nuhun yerlərini alıb qurtarsınlar. Sonra Adəmin də yerləri üçün advokat tutub okrujnoy suda proçeniya verəcəklər” **(11, s. 6).**

9-cu saydakı “Teleqraf xəbərləri”ndəki **(12, s. 3-4)** satirik məlumatların birində də daşnakların

bolşevik cildinə girmələrinə növbəti dəfə diqqət yönəldilmişdir: "Horizon" qəzetəsi yazır ki,... daşnaqsaqanlar özlərinin hər bir cildə girə biləcəklərini və mart ayında Bakıda birdən-birə dönüb bolşevik olduqlarını bolşeviklərə xəbər verməkdən ötrü bir heyət göndərmək istəyirlər. Stiyopkanın bu heyətə sədr intixab ediləcəyi gözlənir". Bu saydakı "Siyasət" adlı məqalədə də (müəllifi "Şeypur"- M. Sidqi) bədnam Andranikin törətdiyi qırğınlardan danışılır. Həmin sayın "Teleqraf xəbərləri"ndəki tarixi faktlar isə "Bakı-Şamaxı mahalında mart hadisələrində 50 min müsəlmanın qanını axıdan Styopa Lalayevin", həmçinin Qarabağda məskunlaşmış ermənilərin iç üzünü açır. O da vurğulanır ki, daşnaklar mart hadisələrində bolşevik cildinə girərək azərbaycanlıları əksinqilabçı kimi qələmə verməklə onları qırmalarına haqq qazandırmaq istəmişlər **(12, s. 4).** Jurnalın 10-cu sayındakı "Teleqraf xəbərləri"ndə də Andranikin vəhşilikləri faktlarla ifşa olunmuşdur **(13, s. 2).**

11-ci saydakı "Gürcü-erməni vuruşması" adlı məqalə də siyasi kəskinliyi və o dövrün hadisələrinin obyektiv təhlili ilə səciyyələnir. Məqalə müəllifi M. Sidqi sərhəd məsələlərini və digər mübahisəli mətləbləri müzakirə etmək üçün Tiflisdə keçirilməsi nəzərdə tutulan konfransda iştirakdan hər dəfə bir bəhanə ilə boyun qaçıran ermənilərin əsassız mövqeyini, gürcülərə qarşı da iddialar irəli sürmələrini, vəhşi daşnakların Borçalıdakı soydaşlarımıza da divan tutduqlarını ifşa etmişdir. Müəllif belə nəticəyə gəlir ki, bütün bu oyunlar "Ermənistana Ermənistan verilməsinə", yəni Qafqazda qondarma Ermənistan formalaşdırılmasına yönəlmişdir **(14, s. 3).** Bu saydakı "Havadan qapılmış xəbərlər"də ermənilərlə gürcülər arasında keçirilən Sinain konfransından, ermənilərin Gürcüstan parlamentindəki siyasi riyakarlığından, Qafqazın müxtəlif bölgələrində soydaşlarımıza qarşı törətdikləri qətllərdən bəhs olunur.

12-ci saydakı "Teleqraf xəbərləri"ndə də ermənilərin şərəfsiz əməlləri barədə bəzi faktlara rast gəlirik **(15, s. 2)**.Həmin sayda M.Nasirin "Azərbaycanlı" imzasıyla dərc olunmuş "Bu da bir cür məslək" adlı məqaləsində **(15, s. 6-7)** isə müxtəlif millətlərə mənsub sosialistlərin, o cümlədən erməni bolşeviklərinin əsl siması onların öz dilləri ilə açılmışdır: "Nə Gürcüstan, nə də Azərbaycan vardır. Bu yerlər Rusiyanın bir bucağıdır. Heç vaxt bunların ayrılıb özlərinə istiqlaliyyət almalarına razı olmayacağız. Şovenist gürcülər və türklər nə qədər çalışacaqlar çalışsınlar, fəqət biz bunu qoymayacağız", - deyərək ruslara yarınan erməni sosialistləri" .

"Azərbaycanlı" imzalı yazarın 13-cü saydakı "Erməni yuxusu" adlı maraqlı felyetonu daşnakların yalanlarına səciyyəvi nümunədir: Vaqonda Tiflisdən Bakıya gələn bir erməni yatıb yuxuda görür ki, Hacıqabulda müsəlmanlar 13 ermənini güllələyiblər. O, yuxusunu digər ermənilərə danışır. Daşnak liderləri yuxuya həqiqət donu geyindirərək Azərbaycan hökumətinə nota verirlər. Araşdırmalar bunun növbəti erməni uydurması olduğunu aşkarlayır. Felyetonun sonunda müəllif fikrini ümumiləşdirərək yazır: "Qərəz, ermənilərin bu axır vaxt Azərbaycanda otura-otura belə yuxular görməsi Qarabağ, Naxçıvan və Ordubad mahallarında nə hərəkətlərdə bulunması aydın məsələlərdən biridir ki, bu barədə bir çox dəfələr yazılmışdır" **(16, s. 6).** Bu sayda "Köhnə qıyıq" imzalı "İzahata möhtac olan bir neçə məsələ" adlı məqalənin **(16, s. 2-3)** bir yerində "Qabaq zamanlarda bolşeviklər ilə daşnaqların fironluq etdikləri günlərdə zülm və haqsızlığın nə payəyə çıxdığı" barədə də danışılmışdır.

"Özciyəzim" imzalı müəllifin 14-cü saydakı "Azərbaycan və İran" adlı felyetonunda dövrün bir sıra mühüm hadisələri ilə yanaşı, qədim Azərbaycan torpaqları olan qondarma Ermənistan ərazisində günahsız yerə qanı axıdılan, şərəfi tapdanan minlərlə soydaşımızın acı taleyinə, həmçinin ermənilərin riyakar oyunlarına sərt münasibət ifadə olunmuşdur: "Daşnaklar Hayastan məmləkəti dairəsində yüz minlər ilə nahaq yerə qanı axıdılan, namus və irzi paymal olan müsəlmanlar şayəd birdən hökumətə üz tutub desə ki: "A kirvə! Axı belə hökumət aparmaq olmaz. Bunca zülm və qədər Afrika vəhşilərinə belə yaraşmaz, əlbəttə, bu, dövlətə xəyanətdir. Amma üç erməni bir yolda iki adamın yolunu kəsib libasını alsa, yainki bir kəndin ermənisi bir karvan arvad-uşağı qiymə-qiymə doğrasa, yainki bir xain, cani, qaniçən, adam əti yeyən başına bir neçə min özü kimi vəhşi yığıb, kəndləri, qəsəbələri oda və qurşuna tutsa, əlbəttə, bu iş inqilabçılıq və bu işi görənlər inqilab qəhrəmanı, hürriyyət fədakarı, azadlıq pəhləvanlarıdırlar" **(17, s. 2).**

14-cü sayın "Teleqraf xəbərləri"ndə ermənilərin Naxçıvan və Ordubada hücum edərək vəhşiliklər törətmələri satirik tərzdə diqqət mərkəzinə çəkilmişdir: "Andranik öz dəstəsi ilə bərabər Ordubada "qonaq" gələcəkdir. Şəhər əhalisi bu "qonağı" istiqbala hazırlaşır. Ordubad ətrafında olan səngərlərdə tədarük vardır. Səngərlər torpaq ilə içi dolu meşoklar ilə bəzənmişdir...Naxçıvana Andranik

deyil, İrəvan tərəfindən "erməni" adlı qonaqlar hərəkət edirlər...Ordubad şəhərinin Ermənistan olduğunu isbat etməkdən ötrü keçən gün İrəvandan Yevropaya bir heyət göndərildi..." Ermənilərin üzdə vəhşiliklərdən əl çəkdiklərini desələr də daima öz çirkin işlərini davam etdirmişlər: "Zəngəzurda olan ermənilər dəfələrlə müttəfiq dövlətlər nümayəndələri yanında müsəlman kəndlərini dağıtmağı və müsəlman öldürməyi tövbə etdiklərini iqrar etmişdilər. Bu dəfə ermənilər bundan belə tövbə etməyi tövbə etdiklərini hamıya xəbər vermişlər..." "Teleqraf xəbərləri"ndəki başqa bir fakt on minlərlə soydaşımızın qaçqın vəziyyətinə düşməsini diqqət mərkəzinə çəkir: "Qarabağdan xəbər verirlər ki, erməni zəlzələsindən ev-eşikləri dağılıb dərbədər düşən qırx min nəfər qaçqın ordusu Bakı üzərinə yürüş etməkdədir" **(17, s. 3**).

Bu saydakı "Ağrı dağı parlamanında" adlı felyetonun əsasında erməni sosialistlərlə Ağrı dağı arasındakı mükalimə dayanır. Ermənilər hiyləgərliklə "Ararat" adlandırıb özününküləşdirmək istədikləri Ağrı dağından soruşurlar ki, Qafqazın bir hissəsində Azərbaycan hökumətinin qurulmasından xəbərdardırmı? Xəbəri varsa, niyə tədbir görmür? Ağrı dağı isə hər şeydən məlumatının olduğunu və müvafiq tədbir gördüyünü bildirir: "Odur ki, bu yaxınlarda Qarabağ, Naxçıvan və Ordubad uyezdlərinə hücum edən erməni əsgərlərinin ədədi artırılmışdır". Felyetonun sonluğu ürəkağrıdıcı mənzərə ilə tamamlanır: "Hava soyuq olduğundan iclas burada tamam olur. Məbuslar Ağrı dağının başına çıxıb Araz çayı üstündən İrana qaçmaqda olan ayaqyalın-başıaçıq müsəlman kişi, övrət və uşaqlarına tamaşa etməyə başlar. Gələn iclas Naxçıvan şəhərində təyin edilmişdir" **(17. s. 4).**

Göründüyü kimi, "Şeypur" jurnalındakı çoxsaylı materiallar 1918-1919-cu illərdə nankor ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınları, ağlasığmaz vəhşilikləri real faktlara istinadən bədii-publisistik tərzdə əks etdirir. Jurnal ətraflı tədqiqata layiqdir.

Ədəbiyyat

1. Axundov N. F. Azərbaycan satira jurnalları (1906-1920-ci illər). Bakı: Azərbaycan EA nəşriyyatı, 1968, 356 s.
2. Həşimli H. M. Məmmədəli Sidqi və "Şeypur" jurnalı. Bakı: Elm və təhsil, 2014,96 s.
3. 3."Şeypur" jurnalı (1918/1919-cu illər, çapa hazırlayan və ön sözün müəllifi H.M.Həşimli) . Bakı: Elm və təhsil, 2014, 280 s.
4. "Şeypur" jurnalı, Bakı, 5 oktyabr 1918 , № 1
5. "Şeypur" jurnalı, 12 oktyabr 1918 , № 2
6. "Şeypur" jurnalı, 19 oktyabr 1918 , № 3
7. "Şeypur" jurnalı, 26 oktyabr 1918 , № 4
8. "Şeypur" jurnalı, 9 noyabr 1918 , № 5
9. "Şeypur" jurnalı, 16 noyabr 1918 , № 6
10. "Şeypur" jurnalı, 30 noyabr 1918 , № 7
11. "Şeypur" jurnalı, 7 dekabr 1918 , № 8
12. "Şeypur" jurnalı, 14 dekabr 1918 , № 9
13. "Şeypur" jurnalı, 21 dekabr 1918 , № 10
14. "Şeypur" jurnalı, 28 dekabr 1918 , № 11
15. "Şeypur" jurnalı, 4 yanvar 1919 , № 12
16. "Şeypur" jurnalı, 11 yanvar 1919 , № 13
17. "Şeypur" jurnalı, 18 yanvar 1919 , № 14

Huseyn Hashimli

EXPOSURE OF THE ARMENIAN RUSE IN THE "SHEYPUR" JOURNAL

Summary

The journal of "Sheypur" takes an important place in the history of Azerbaijan satirist press. But till nowadays this journal hasn`t been investigated. The "Sheypur" journal which was published during the years of 1918-1919 in Baki is investigated for the first time in the article. The author has been investigated the famous Azerbaijan writers Mammadali Sidqi`s, Samad Mansur`s articles, feuilleton and poems which are

about the Armenian`s ruse and bloody genocides against the Azerbaijan people. Today those materials has an important role for to learn the historical reality.

Гусейн Гашимли

РАЗОБЛАЧЕНИЕ АРМЯНСКОГО КЛЯУЗНИЧЕСТВА В ЖУРНАЛЕ «ШЕЙПУР»

Резюме

Журнал «Шейпур», который до сих пор оставался вне поля зрения исследуемым, занимает значительное место в истории азербайджанской сатирической прессы. В данной статье привлечено к исследованию сатирический журнал «Щейпур», который издавался в Баку в 1918-19 годах. Здесь исследвано статьи, фельетоны и стихи Мамедали Сидги, Самеда Мансура и других авторов, опубликованные в этом журнале, которые разоблачают кляузные действия армян против азербайджанского народа в те годы. Эти материалы имеют серьезное значение для изучения исторических реальностей.

Cengiz Hakov
Prof. Dr., Bulgaristan Bilimler Akademisi
